# Mir Cəfər BAĞIROV
## SİYASİ PORTRET

Adıgözəl Məmmədov



Adıgözəl Məmmədov | Mir Cəfər BAĞIROV | SİYASİ PORTRET

ADIGÖZƏL MƏMMƏDOV

# MİR CƏFƏR BAĞIROV

## *SİYASİ PORTRET*

Bakı – 2021

**Redaktor:** İmran Bədirxanlı
*ADTM-nin mütəxəssisi*

**A.Məmmədov.**
**Mir Cəfər Bağırov – SİYASİ PORTRET**
Bakı, "Zərdabi Nəşr" MMC, 2021, 424 s.

***Kitab M.C.Bağırovun Azərbaycan Siyasi İdarəsinin rəisi, AK(b) P və sonradan Azərbaycan KP MK-nın birinci katibi işlədiyi dövrdə respublikadakı ictimai-siyasi vəziyyətdən, onun apardığı siyasətdən, Stalin və Beriya ilə əlaqələrindən və şəxsi həyatından bəhs edir.***

***Arxiv materialları əsasında yazılmışdır.***

***Kitabda tariximizin bəzi qaranlıq məqamlarına aydınlıq gətirilir.***

***Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.***

© Bütün hüquqlar qorunur. Müəllifin icazəsi olmadan kitabda oxuculara təqdim olunmuş materialların digər yazarlar tərəfindən istifadə edilməsi, habelə kütləvi informasiya vasitələrində dərci qəti qadağandır.

**ISBN 978 9952-29-025-X ----**

**© A.Məmmədov, 2021**



# Ön söz

***Bu günlərdə Adıgözəl Məmmədovun yeni faktlarla zəngin, çox əhəmiyyətli kitabını oxudum. Və mənə məlum oldu ki, Mir Cəfər Bağırov – XX əsr Azərbaycan xalqının və Azərbaycan Respublikasının taleyində çox böyük rol oynamış bu nəhəng siyasi xadim haqqında heç də bütün həqiqətləri bilmirmişəm.***

Sən demə, Mir Cəfər Bağırov çox siyasi tufanlardan keçib, dönə-dönə həyatı tükdən asılı olub. Bu tük isə diktatorlar diktatoru İosif Stalin idi. Mircəfər Bağırov hər dəfə ölkəsi və xalqı üçün hazırlanan fəlakətin qabağını alanda özünü, vəzifəsini, ailəsini təhlükə qarşısında qoyurdu. Onun düşmənləri çox idi. Bunlar əsasən Sovet İttifaqının siyasi və hərbi elitasına daxil olanlar idi. Mikoyan qardaşları, marşallar Baqramyan və Babacanyan, sovet elminin aparıcı dəstəsinə daxil olan çoxsaylı erməni akademikləri. Bəs bizim kimimiz vardı? Az idilər, olanların da xidməti qətiyyən nəzərə alınmırdı. Hətta Sovet imperiyasının mülki və hərbi sənayesini saxlayan Bakı neftinə görə Azərbaycana zərrə qədər hörmət edilmirdi. Bəs ölkəmizi və xalqımızı nə xilas edirdi? Nə yox, kim xilas edirdi? Sensasiya doğuran fakt olsa da, sən demə, bu adam Lavrenti Pavloviç Beriya imiş. Bəli, həmin Beriya ki, illər boyu, kimliyindən asılı olmayaraq, kimin üzünə baxırdısa, o adamın rəngi ağarırdı.

Bəli, Mir Cəfər Bağırov hər dəfə çətin vəziyyətə düşəndə dostu (belə dostluq tarixdə çox nadir hallarda olub) Beriya onun köməyinə gəlirdi. Stalinə minnətçi düşüb, vaxtilə onu Bayıl həbsxanasından qurtarmış dostunu uçurumdan xilas edirdi.

Çox az adam bilir ki, (Adıgözəl Məmmədov sağ olsun) 1946-cı ildə Dağlıq Qarabağı və Naxçıvanı Ermənistana vermək istəyən Stalin Bağırovun qətiyyətli əks tələbləri qarşısında geri çəkilməyə məcbur olub. Diktator elə hirslənib ki, hətta Bağırovu bir neçə aylığa vəzifəsindən kənarlaşdırıbmış.

Düzdür, 1937-1938-ci illərdə Azərbaycan ziyalıları da xeyli itkiyə məruz qalıb. Adətən, bunu Mir Cəfər Bağırovun ayağına yazırlar. Amma məgər bu itkilərdən qaçmaq mümkün idimi? Məlum olur ki, həmin illərdə ən az itki verən elə Azərbaycan olmuşdur. Moskvadan hər respublikaya irticaya məruz qalan qurbanların siyahısı göndərilirdi. Burada Bağırov neyləyə bilərdi?

Mən hətta Bağırov–Heydər Hüseynov ziddiyyətinə bu gün başqa aspektdən baxıram. Hərçənd, A.Məmmədov kitabda bu hadisədən geniş bəhs etmir. O dövrdə Azərbaycanda hansısa bir alimin Qafqaz dağlılarının rus işğalına qarşı mübarizəsinə müsbət qiymət verməsi nəinki Mircəfər Bağırov üçün, ümumiyyətlə, respublikamız üçün təhlükə və risk idi. Bağırov uzaqgörən bir siyasətçi kimi bu təhlükəni aradan qaldırdı.

Təkcə Azərbaycan xalqını kütləvi şəkildə Qazaxıstan çöllərinə sürgün edilməkdən xilas etməsi faktı onun bütün günahlarını yuyur.

Nə vaxtsa Bakının mərkəzi meydanlarının birində Mir Cəfər Bağırovun tunc heykəlini görsəm, buna qəti təəccüblənmərəm.

Niyə də qoyulmasın? Axı nəyə görə mənfur rus bolşeviklərinin vətənpərvər Mir Cəfər Mirabbas oğlu Bağırovun üzərində





qurduğu məhkəmənin hökmü bizim üçün dəyişməz və obyektiv sayılmalıdır? Adıgözəl Məmmədovun “M.C.Bağırov – SİYASİ PORTRET” kitabını diqqətlə oxusanız, mənim bu sualıma aydın və birmənalı cavab tapacaqsınız.

***Əlisa NİCAT***
***yazıçı-publisist***

## MÜƏLLİFDƏN

Əziz oxucu! M.C.Bağırov mövzusuna müraciət etməyim 2000-ci ildə "Araz" nəşriyyatında çapdan çıxmış "Siyasi liderlərin psixoloji portretləri – İ.Stalin, L.Trotski, A.Hitler, M. C.Bağırov" kitabımın ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmasından irəli gəldi. "Siyasi liderlərin psixoloji portretləri" əsərimdə digər siyasi liderlərlə yanaşı, M.C.Bağırovun da siyasi-psixoloji portreti tədqiq olunmuşdu. Az bir müddətdə bu kitabla əlaqədar oxuculardan aldığım çoxsaylı məktublar cəmiyyətdə M.C.Bağırov şəxsiyyətinə böyük marağın olmasını göstərdi.

Tarixi şərait Azərbaycanı Sovetlər İttifaqının tərkibində olmağa məhkum etdi. Bu, o dövrün geosiyasi maraqlarından irəli gəlirdi. İmperiyanın qorunması hansı ad altında olursa-olsun, totalitar rejimin yaranmasına və rejimin başına diktatorun gəlməsinə zəmin yaradır. Stalin çoxmillətli ölkənin lideri olsa da, rusun ümummilli imperializm əqidəsinə qulluq edirdi. Bu məntiqi həqiqət o dövrün diktə etdiyi reallıqlarla həyata keçirilirdi. Ona görə də Azərbaycanın Sovetlər birliyində olması da tarixi-siyasi şəraitin məntiqi nəticəsi idi. Məhz bu məqamda müstəqilliyi əlindən alınmış millətin önündə durmuş liderin şəxsi keyfiyyətlərindən təmsil etdiyi millətin taleyi asılı olur. Əgər müasir dünyanın geosiyasi mənzərəsinə baxsaq, keçmiş tarixi şəraitin





bu gün də davam etdiyini aydın görərik. Yəni, müasir dünyada cərəyan edən siyasi hadisələrin təhlili, o dövrün reallıqları ilə oxşar paralelləri tapmağa imkan verən əsas amil kimi üzə çıxır.

Bir az sərt, bir az da yumşaq siyasət və strateji diplomatik analizlərlə dünyada gedən proseslərin bu cür izahı dünya xəritəsində kiçik nöqtə kimi görünən Azərbaycanın üzərindən hansı konturların keçdiyini bizə göstərəcəkdir. İstənilən siyasətin zəminində müxtəlif maraqlar durur. Maraqlar uzunmüddətli – strateji və qısamüddətli – taktiki olur. Müasir dövrümüzdə Rusiya – Qərb, xüsusi ilə də Rusiya – ABŞ münasibətlərində yaranan problemlərdən çox danışılır. Vaşinqtonun Kremllə bağlı maraqları ilk növbədə Amerikanın milli prioritetlərindən və konsepsiyalarından irəli gəlir. Təbii ki, birincisi, ölkənin təhlükəsizliyi, yəni nüvə hücumları ehtimalını aradan qaldırmaq, yaxud mümkün qədər azaltmaq məsələsidir. İkinci sırada iqtisadi təhlükəsizlik, sonra ideoloji durum, demokratiya və s. gəlir. Rusiyanın çox güclü nüvə silahı və onu dünyanın istənilən nöqtəsinə çatdıra bilən vasitələri var. Bu isə bütün Qərb ölkələri üçün real təhlükə deməkdir. Bunu yaddan çıxarmaq olmaz. Digər tərəfdən, 300-400 ildir ki, Rusiya imperiya qanunları ilə yaşayır, qonşu dövlətlərin sərvətlərini çapıb-talayır və bu yolla iqtisadi cəhətdən güclənməyə çalışır. Belə ölkə birdən-birə demokratikləşə bilməz. İndi Rusiyada elə bir milli mentalitet, həyat tərzi, ənənə və vərdişlər yaranıb ki, Kreml həm daxildə, həm də xaricdə "böyük rusçuluq siyasəti" yeritməyə məcburdur. Çar dövründə də belə olub, Stalin dövründə də, Yeltsinin başçılıq etdiyi demokratik Rusiya da bu özül üzərində dayanırdı.

Rusiyanın Qərblə və ABŞ-la bağlı öz maraqları var. Rusiya iqtisadi cəhətdən möhkəmlənmək niyyətindədir. Özü də yarı-

kapitalizm, yarısosializm şəraitində. Nəfəs dərmək, yeni duruma alışmaq üçün ona müəyyən qədər vaxt lazımdır. Rusiyanın yaxın planı XX əsrin 1990-1991-ci illərindəki yanlış taktiki manevrlərin nəticələrini ləğv etmək, keçmiş ittifaq çərçivəsində imperiyanı bərpa etməkdir. Strateji baxımdan isə o, dünya hegemonluğunu qazanmaq istəyir. “Çarizm”, “bolşevizm”, yaxud “demokratizm” qiyafəli ideoloji qabıq tez-tez dəyişsə də, onun özəyi, mahiyyəti həmişə eyni olub.

XIX əsrdə, 1825-ci ildə Rusiyada dekabristlər, XX əsrdə menşeviklər qalib gəlsəydilər belə, vəziyyət yenə indiki kimi olacaqdı. Sadəcə olaraq, bizə verilən ideoloji tiryək “dekabrizm”, yaxud “menşevizm” adlanacaqdı. Rusiya – Qərb, Rusiya – ABŞ münasibətlərinə qiymət verərkən bu amilləri nəzərdən qaçırmaq lazım deyil. Təsadüfi deyil ki, son dövrlər ABŞ və İngiltərə Rusiyaya stavka edən dövlətləri istər diplomatik yolla, istərsə də zor gücünə Moskvaya yönəlmiş siyasətdən tədricən uzaqlaşdırmağa nail olurlar. Bunun bariz nümunəsi Səddam Hüseyn İraqıdır. Qərb, xüsusən də Almaniya üzdə rəsmi olaraq Rusiyanı və onun siyasətini dəstəkləsə də, əlaltından Rusiyanı zəiflətməyə çalışır. Bax elə buna görə də çeçen xalqının iradəsinə, azadlıqsevərliyinə, rus qoşunlarına qarşı uzunmüddətli partizan müharibəsi apara bilmək qabiliyyətinə yaxşı bələd olan Qərb ekspertləri çox məharətlə Kreml rəhbərliyini Çeçenistan avantürasına şirnikləndirə bildilər. Bu gün Almaniya Federativ Respublikası ABŞ-ın səviyyəsinə çatmağa can atır. Buna görə də onun başlıca istəyi Rusiyanı özü üçün inkişafsız xammal bazasına çevirməkdir. Bu sahədə artıq xeyli iş görülüb. Fransanın da Rusiyada öz strateji maraqları var. Yaponiya üçün isə Rusiya istehlak və xammal bazarıdır və ona görə də bu ölkənin rəsmi





dairələri Kremlə yönəlik siyasətlərində Kuril adalarını Rusiyadan qoparmaq istəyir və öz iqtisadi potensialının güclənməsinə səbəb ola biləcək siyasi xətt yeridirlər. Vaxtilə Çinlə SSRİ arasında ərazi iddiaları ənənəvi xarakter almışdı. Hazırda Çin Rusiyanın Uzaq Şərq bölgəsini ələ keçirmək üçün dəridən-qabıqdan çıxır. Ancaq bununla belə Pekin kommunistləri özlərini ABŞ-dan qorumaq üçün Moskva ilə yaxınlaşmağa məcburdular. Göründüyü kimi, müasir dünyamızda da maraqlar daban-dabana ziddir. Tarix boyu belə olmuşdur. Bu ziddiyyətlərin həmişə maraqla əlaqəli olub, dünya durduqca belə də olacaq. Ona görə də, tarixə məhz bu bucaqdan nəzər salsaq, daha ədalətli olarıq.

Müasir dünyamızın yuxarıda göstərdiyimiz geosiyasi maraqları baxımından tarixə yanaşsaq, daha düzgün addım atmış olarıq. 1920-ci il aprel ayının 28-də Sovet Rusiyasının XI Qızıl ordusu Azərbaycana daxil olduqdan sonra Şərqdə ilk demokratik dövlətin – ADR-in varlığına son qoyuldu. Bu, həmin dövrün geosiyasi reallıqlarının məntiqi nəticəsi idi. 1917-ci ildə fəhlə üsyanı nəticəsində Rusiyada çar rejimi çökdü, hakimiyyəti Knyaz Lvovun başçılığı altında müvəqqəti hökumət ələ keçirdi. I Dünya müharibəsi davam edirdi, Rusiya Antanta qrupunun müttəfiqi kimi Almaniya və Türkiyəyə qarşı iki cəbhədə müharibə aparırdı. Ona görə də alman xüsusi xidmət orqanlarının vəsaiti hesabına müvəqqəti hökumətlə bərabər inqilabi Sovet hakimiyyəti formalaşdırılırdı. Bu da Rusiyada ikihakimiyyətliliyə gətirib çıxardı. Son nəticədə bu proseslər bütövlükdə çar ordusunun tamamilə dağılmasına səbəb oldu. Antantanın taleyini təhlükə altına qoyan bu hadisələr ABŞ prezidenti Vilsonu 6 aprel 1917-ci il tarixində Almaniyaya qarşı müharibə elan etməyə məcbur etdi. 1917-ci ilin noyabrında Rusiyada hakimiyyəti Le-

ninin başçılığı ilə bolşeviklər ələ keçirdilər. 1917-ci il noyabrın 8-də Sovetlərin II qurultayında Almaniya və onun müttəfiqləri ilə sülh haqqında dekret qəbul edildi. 27 noyabr 1917-ci ildə Almaniya hökuməti bu müraciətə müsbət cavab verdi və sülh danışıqları başlandı. 1918-ci il martın 1-də Brest – Litovskidə sülh konfransı öz işinə başladı. Vətəndaş müharibəsindən tam zəifləmiş Rusiya Almaniyaya böyük ərazisini - Qalistiyanı, indiki Qərbi Ukraynanı və digər məntəqələri təslim edərək sülh sazişini imzaladı. 27 avqust 1918-ci ildə Brest–Litovski sülh sazişinin bəndlərinə əlavə kimi, Rusiya–Almaniya müqaviləsi də artırıldı.

Beləliklə, Almaniya Sovet Rusiyasını parçalayaraq, ondan Gürcüstanın müstəqilliyini tanımasını tələb edirdi. Bununla da almanlar Gürcüstandan Bakıya öz ordusunu yeritmək istəyirdi. Bu vaxt Şaumyanın başçılığı altında Bakıda, Andranikin daşnak silahlı qüvvələri isə Qərbi Azərbaycanda Azərbaycan türklərinə qarşı soyqırım törədirdilər. Ona görə də türklər öz qardaşlarını erməni quldurlarından xilas etmək üçün Azərbaycana köməyə gəldilər. Baxmayaraq ki, Brest–Litovski müqaviləsinə əsasən, Almaniya Sovet Rusiyası qarşısında türkləri Qafqaza buraxmamaq öhdəliyini götürmüşdü, amma rəsmi Berlin türklərə mane olmayacağına işarə etdi.

Hələ Çar II Nikolay devrildikdən sonra Zaqafqaziyada yerli qüvvələr Peterburqdakı hadisələrə hərbi təsir imkanlarının zəiflədiyini anlayaraq, Tiflisdəki hakimiyyəti ələ keçirmişdilər. Keçmiş Çar Rusiyasının Tiflis canişinliyində Zaqafqaziyanın müvəqqəti hökuməti yaradılmış, Zaqafqaziya komitəsi təsis edilmişdi. Bu komitə hökumətin bölgədəki siyasətini həyata keçirirdi. Komitənin tərkibinə 2 kadet, 1 menşevik, 1 gürcü federalisti və 1 türk müsavatçısı daxil idi. Komitəyə Xarlamov rəhbərlik edirdi. Lakin Rusiyada hakimiyyətə gəlmə ərəfəsində olan bolşeviklər öz siyasi qüvvələrini Zaqafqaziyada hərəkətə gətirərək, 1917-ci il oktyabrın 2-7-də Tiflisdə Qafqaz bolşevik təşkilatlarının I qurultayını keçirdi. Bu qurultayda Qafqaz dairəsi formalaşdı. Bu dairə komitəsinə Çxakaya, Şaumyan, Caparidze, Maxaradze, Nazaretyan, Kasıyan, Mravıyan, Karqanov, sonradan Mikoyan da daxil oldu.





Artıq Rusiyada baş tutan Oktyabr inqilabından sonra müvəqqəti hökumət devrilərək, 1917-ci il noyabrın 2-də menşevik E.Qeqeçkorinin rəhbərliyi altında Zaqafqaziya komissarlığı yaradılmışdı. Lakin bu hakimiyyət də uzun sürmədi. 10 fevral 1918-ci ildə bolşeviklər Moskvadan aldıqları hərbi-siyasi dəstəklə regiondakı siyasi hakimiyyəti əlində cəmləşdirən seçkili Zaqafqaziya Seymini formalaşdırdılar.

1918-ci il Brest-Litovski sazişinə görə, Türkiyə Zaqafqaziya Seymindən Qars və Batum dairələrini tələb edirdi. Artıq 1918-ci il aprelin 1-də Türk ordusu bu ərazilərə daxil oldu. Türkiyə həmçinin Seymin buraxılmasını və Zaqafqaziya respublikalarının müstəqilliyinin elan olunmasını tələb edirdi. Türklərin tələbinə Almaniya hərbi nümayəndəliyi də dəstək verirdi.

9 aprel 1918-ci ildə Seym Zaqafqaziyanın müstəqilliyini elan etdi. 26 may 1918-ci ildə Seym öz fəaliyyətini dayandırdıqdan sonra Zaqafqaziyanın hər üç respublikası müstəqilliyini bəyan etdi.

Türk ordusunun Ali baş komandanı Ənvər Paşa Ərəb cəbhəsindən ordunun böyük bir qismini çıxararaq Cənubi Qafqaza istiqamətləndirdi. Baxmayaraq ki, bu addım çox riskli addım idi və bunun nəticəsində Ərəb cəbhəsində Türk ordusunun

mövqeləri zəiflədi. Bu vəziyyət 1918-ci ildə İngilis kəşfiyyatçısı T.Lourensin, Hicazın şerifi Hüseynin oğlu Feysəlin və Fransa ordusunun generalı Allenbinin başçılığı altında olan Antanta qüvvələrinin Dəməşqə qədər irəliləməsnə imkan verdi. Məhz ərazi itkilərinin bahasına xilaskar Türk Ordusu Qafqaza girərək ermənilərin azərbaycanlılara qarşı apardığı soyqırımın qarşısını aldı. Azərbaycana gəlmiş bu ordu ölkəmizin milli müstəqilliyinin yaranmasına təkan verdi. Şaumyanın başçılığı altında Bakı soveti istefa verdi və ingilislərin köməyilə Bakıda Sentra Kaspi diktatura rejimi yaradıldı. Türk ordusu ilə Azərbaycan milli ordusunun Gəncədən Bakıya istiqamət götürmüş hücumunun qarşısını heç bir mənfur qüvvə ala bilmədi. Bakı milli qüvvələrin əlinə keçdi. Tezliklə Azərbaycan Demokratik Respublikasının parlamenti və hökuməti təşkil olundu.

Lakin zaman Antanta üzvü olan dövlətlərin xeyrinə işləyirdi. Almaniya Qərb cəbhəsində məğlubiyyətə uğrayırdı. Fəlakət sürətlə yaxınlaşırdı. Bolqarıstanın məğlubiyyəti Antanta qüvvələrinin Avstriya-Macarıstana, oradan da Münhenə yolunu açdı və Osmanlı dövləti ilə Almaniya arasında coğrafi əlaqələrin kəsilməsinə səbəb oldu. Bu da Almaniyanın məğlubiyyətini müəyyənləşdirən əsas amillərdən idi. 1918-ci il 19 sentyabr gecəsi ingilis ordusu türklərə qarşı total hücuma keçdi. Bir neçə gündən sonra Türk ordusunun Fələstində mövcudluğuna son qoyuldu. Sentyabrın sonlarında Antanta qüvvələri Qərb cəbhəsində "Ziqfrid" xəttini yardılar. Antanta qüvvələrinin hücum əməliyyatları Osmanlı imperiyasının tam məğlubiyyətinə səbəb oldu. 30 oktyabrda Lemnos adasının Mudros limanındakı "Aqamenon" gəmisində ingilislər türklərlə sülh sazişi imzaladılar. Bu sazişə görə, türklər Mesopatomiyadan, Ərəbistandan, Suriyadan, Zaqafqaziyadan və Kilikiyanın bir hissəsindən öz ordusunu çıxarmalı idi. Mudros sazişinə görə, qalib tərəf İstanbulu və körfəzləri, buradan da Qara dənizə çıxış yollarını ələ keçirməyə hüquqi əsas qazanırdı. Osmanlının hərbi səhnədə məğlubiyyəti Azərbaycanın ictimai-siyasi elitasının müəyyən dairələrini siyasi dəstək üçün regionda marağı olan dövlətlərin siyasi mərkəzlərində danışıqlara istiqamətləndirdi. Sözsüz ki, nostalji hisslərə görə regionda bu dairələr üçün daha yaxın sayılan dövlət Türkiyədən sonra Rusiya idi. Rusiyanı Azərbaycanla çoxəsrlik mədəni inteqrasiya və psixoloji simbiozluq bağlayırdı.





Artıq Bakı ingilislərin siyasi təsir dairəsinə keçmişdi.

Mudros sülh sazişindən sonra Anadoluda hərbi generallar Mustafa Kamalın başçılığı altında hakimiyyəti ələ keçirdilər. Onlar alçaldıcı sülh sazişinin bir sıra bəndlərini qəbul etməyəcəklərini bəyan etdilər. Bununla da türk xalqının işğalçı imperialist qoşunlarına qarşı milli mübarizəsi - qurtuluş savaşı başlandı. Bu mübarizədə Mustafa Kamalın ilk köməyinə gələn Sovet Rusiyası və onun lideri Vladimir İliç Lenin oldu. Bu faktlar Azərbaycan cəmiyyətində və ziyalılar arasında Sovet Rusiyasına və onun lideri Leninə rəğbətlə yanaşmağa əsas verdi.

Antantanın imperialist dövlətlərinin Yunanıstan ordusu ilə birgə həyata keçirməyə çalışdığı Türkiyəni parçalamaq planına qarşı türk xalqının milli-azadlıq müharibəsi başlandı. Türklər I Dünya müharibəsində məğlubiyyətə uğradıqdan və Mudros sülh sazişini (1918-ci il) imzaladıqdan sonra imperialist dövlətlər keçmiş Osmanlı imperiyasının əraziləri ilə kifayətlənməyib, Paris sülh konfransını çağıraraq (1919-1920), Türk xalqının əsarət altına alınmasını nəzərdə tutan layihə hazırladı. Həmin layihəyə görə, Azərbaycan İtaliyaya verilirdi. Bu ərəfədə ABŞ prezidenti

Vilson ilə görüşən Əlimərdan bəy Topçubaşov ondan Azərbaycanın müstəqilliyini tanımasını xahiş edir. ABŞ prezidenti bu xahişin müqabilində "Siz elə bilirsiniz ki, biz müharibəni ona görə aparmışıq ki, cırtdan dövlətlər yaransın?" – cavabını verir. Lakin sonralar Azərbaycanın Rusiya tərəfindən ilhaq ediləcəyini görən ABŞ və Böyük Britaniya ADR-in dövlət quruluşunu tanıyır. Artıq bu, gecikmiş addım idi. Həmin ərəfədə Anadoluda Mustafa Kamal Paşanın başçılığı altında genişlənən milli-qurtuluş hərəkatı yadelli işğalçıların niyyətlərini puça çıxartmağa başladı. Sultan hökumətinə "kömək" adı ilə ingilis qoşunları İstanbulu işğal etdi (1920-ci il martın 16-ı). Bununla da Antanta qüvvələrinin Anadolunun içərisinə soxulmasına şərait yarandı. Yunanıstan ordusu 1920-ci il iyunun 22-də İzmirdən hərəkətə başladı və İnönü yaxınlığındakı döyüşlərdə (1921-ci il 10 yanvar və 31 mart) Türkiyə Böyük Millət Məclisinin (1920-ci ilin apreli) yenidən təşkil etdiyi qoşunlar tərəfindən məğlubiyyətə uğradıldı. Amma buna baxmayaraq, 1921-ci ilin yayında yunanlar Anadolunun dərinliklərinə (Sakarya çayınadək) doğru irəlilədi. Bu zaman türk xalqının yüksək mənəvi keyfiyyətləri, Mustafa Kamal Atatürkün və onun silahdaşlarının hərbi məharəti və Sovet Rusiyasının maddi yardımı müharibədə dönüş yaratdı.

Türkiyə ilə RSFSR arasında imzalanmış "Dostluq və qardaşlıq haqqında" müqavilə (16 mart 1921-ci il) Türkiyənin mövqeyinin möhkəmlənməsinə kömək etdi. Sakarya çayı sahilində 22 günlük (1921-ci il, 23 avqust-13 sentyabr) döyüş yunan qoşunlarının ağır məğlubiyyəti ilə başa çatdı. Hadisələrin bu cür inkişafından təşvişə düşən Antanta üzvləri Türkiyənin Sovet Rusiyasına yaxınlaşmasından və gələcəkdə özlərinə qarşı yeni blokun yaranacağından ehtiyat edirdilər. Ərəbistanda, Mesopotamiyada, Şimali Afrikada artıq keçmiş Osmanlı imperiyasının ərazilərini işğal edən ingilislər və italyanlar türklərin gələcəkdə güclənə biləcək Sovet Rusiyası vasitəsilə əlindən çıxmış torpaqlarını geri qaytarmaq şansını İstanbula verə bilməzdilər. Yaranmış geosiyasi durum keçmiş Osmanlı imperiyasının ərazilərini əlindən almış ingilis, fransız və italyanları Anadolu çərçivəsinə sıxışdırılmış bir Türkiyə ilə danışıqlara başlamağa sövq etdi. Bu şərait Türkiyə əleyhinə koalisiyanı dağıtmağa əsas verdi. Fransa TBMM hökuməti ilə sülh müqaviləsi imzaladı (1921-ci ilin oktyabrı), İtaliya da Türkiyəyə qarşı hərbi əməliyyatları dayandırdı. 1922-ci ilin avqustunda Türkiyə ordusu hərtərəfli hazırlıqdan sonra, öz havadarlarını itirmiş Yunanıstana qarşı hücuma keçdi və "Dumlupınar" yaxınlığında yunan qoşunlarını darmadağın etdi. 1922-ci il sentyabr ayının 18-də yunan qoşunları Anadoludan tamamilə qovuldu. 1922-ci il Mudaniya barışığı və 1923-cü il Lozanna sülh müqaviləsinə əsasən, İstanbul və Şərqi Trakiya azad edildi, Türkiyənin dövlət müstəqilliyi hüquqi cəhətdən beynəlxalq səviyyədə tanındı.

Məhz bu dövrdə Mir Cəfər Mirabbas oğlu Bağırovun siyasi fəaliyyətinin əsası qoyuldu. İndiyə qədər mətbuatda M.C.Bağırovla bağlı, eləcə də XX əsrin birinci yarısını əhatə edən yazıların böyük əksəriyyəti birtərəfli xarakter daşımışdır.

M.C.Bağırovu ittiham edən yazı müəlliflərinin böyük əksəriyyəti onu 30-cu illərdə Azərbaycanda aparılan repressiyalarda günahlandırırlar. Artıq o dövrü obyektiv tədqiq etmək və M.C.Bağırovun şəxsi keyfiyyətlərini üzə çıxarmaq zamanı yetişmişdir!

A.Antonov-Ovsiyenkonun 1999-cu ildə çapdan çıxmış "Beriya" əsərində iddia edilir ki, guya M.C.Bağırov bolşevik

qardaşını öldürərək, onun sənədlərini öz adına dəyişmiş və özünü kommunist kimi qələmə vermişdir. İftiranın doğrudan da həddi-hüdudu olmazmış! İmperiya rəhbərləri və onların "sifarişli" mirzələri indi də M.C.Bağırovu gözdən salmaq üçün dəridən-qabıqdan çıxırlar. Görəsən, M.C.Bağırov onları niyə belə qorxudur?!

Bu an fikirlərinin orijinallığı ilə seçilən Müəmmər Əl-Qəzzafinin bir ifadəsi yadıma düşür. O deyir: "İmperiya həmişə əsarəti altında olan millətin ən ləyaqətli oğullarını həmin millətə qatı düşmən obrazında təqdim edir".

Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində (keçmiş Siyasi partiyalar və ictimai hərəkatlar Dövlət arxivi – A.M.) M.C.Bağırovun şəxsi işi ilə tanış olarkən onun 1923-cü il yanvarın 29-da yazdığı tərcümeyi-halının mətni ilə rastlaşdım. Makinada çap olunmuş tərcümeyi-halın sonunda M.C.Bağırovun şəxsi imzası yoxdur. Görünür, M. C.Bağırovun tərcümeyi-halı o dövrün siyasi şəraitinə uyğun redaktə edilmiş və orada həyatının müəyyən məqamları Kremlin qəbul edəcəyi tərzdə təsvir edilmişdir. Buna baxmayaraq həmin tərcümeyi-hal M.C.Bağırovun keçdiyi həyat yolunu tam olmasa da, böyük hissəsini özündə əks etdirir. Amma bu sənəddə müəyyən ziddiyyətlər, sual doğuran məqamlar özünü büruzə verir. Bir məsələni qeyd etmək istəyirəm ki, M.C.Bağırovun arxivdəki sənədləri ilə tanış olarkən onun şəxsi anketlərinin sonunda bir-birindən fərqli imzalarla rastlaşdım. Ona görə də tərcümeyi-haldakı bir neçə məqama aydınlıq gətirməyə çalışacam.

Həqiqətən də M.C.Bağırovu bir şəxsiyyət kimi tədqiq etmək üçün onun tarixi keçmişini və həyat yolunu dövrün reallıqlarına uyğun təhlil etmək lazımdır. Bu baxımdan, o dövrün reallıqları





mütləq şəkildə M.C.Bağırovu L.P.Beriya ilə bərabər öyrənməyi qarşımıza məqsəd kimi qoyur.

Ona görə bu mövzuya ikinci dəfə müraciət edəndə yuxarıda qeyd etdiyimiz reallıqları nəzərə almağa, yeni kitabımı yalnız arxiv sənədlərinə əsaslanaraq yazmağa çalışdıq. Sual oluna bilər: Niyə məhz bu cür? Ona görə ki, M.C.Bağırovun Kremlin siyasi oyunlarında tutduğu mövqeyini, o cümlədən, Azərbaycanın başının üstünü alan qara qüvvələrlə mübarizəsini, bu mübarizədə üzə çıxan onun fərdi keyfiyyətlərini yalnız sənədlərə əsaslanaraq təhlil etmək və dəyərləndirmək mümkündür. Bizi həmişə bir sual düşündürürdü: Görəsən o dövrdə Azərbaycanın siyasi rəhbərliyində M.C.Bağırovun əvəzinə başqa bir şəxs olsaydı, xalqımızın və dövlətimizin taleyi necə olardı?

Hərçənd bu suala birmənalı cavab vermək çətindir. Amma kitabda təsvir olunan hadisələrin sənədli xronikası oxucuya subyektiv dünyagörüşünə əsaslanaraq tariximizin bu məqamlarına qiymət verməsinə imkan yaradacaq.

Ona görə də qeyd etmək istəyirəm ki, müəllifi olduğum bu kitaba arxiv sənədləri əlavə kimi verilmişdir. Həmin sənədlər ictimaiyyətə ilk dəfə təqdim olunduğundan, sizi onların orijinal variantı ilə tanış etməyi lazım bildim. O illərin təhlili və xüsusilə, İran Azərbaycanında baş verən siyasi hadisələrlə əlaqədar bu kitab oxucunu İ.Stalin, L.Beriya, M.C.Bağırov, Ə.Əliyev və Qəvvam Əs-Səltənənin siyasi portretləri ilə daha yaxından tanış edir.

Bu kitabın ərsəyə gəlməsində zəngin arxiv materiallarından istifadə etmək üçün yaratdıqları şəraitə və göstərdikləri hərtərəfli köməyə görə Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin, Milli Arxivin rəhbərliyinə və

əməkdaşlarına, redaktora, həmçinin kitabın işıq üzü görməsində əməyi keçmiş mətbəə işçilərinə minnətdarlığımı bildirirəm.

* * *

**Müəlliflə mövzuya giriş**

- **Adıgözəl müəllim, yəqin ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin 40-50-ci illərdə İran Azərbaycanı və Sovet Azərbaycanı ilə bağlı gizli dosyelərin üzərindən məxfilik qrifini götürməsi barədə məlumatınız var. Həmin hadisələri araşdıran şəxs kimi, sizcə, dosyelərdəki informasiyalar reallığı nə dərəcədə əks etdirir?**

- Əlbəttə, mən o materiallarla tanış olmuşam, həm də təəccüb etmişəm ki, ABŞ kəşfiyyatçıları baş verənlərdən agah imişlər. Mir Cəfər Bağırovun Cənubi Azərbaycanla bağlı fəaliyyəti barədə 2003-cü ildə nəşr edilmiş "Baş tutmamış çevriliş" kitabımda ilk dəfə geniş bəhs etmişəm. Burada onun demokratik firqənin təsis olunmasında, ümumilikdə, Cənubi Azərbaycanda baş verən siyasi proseslərdəki iştirakı barədə yazmışam. Bütün hadisələrin əvvəldən axıra qədər Mir Cəfər Bağırova bağlılığını təsdiq etmək üçün, o günə qədər tam məxfi sayılan sənədləri və yazışmaları bu kitaba əlavə etmişdim. Bu sənədlərlə tanışlıqdan sonra bir daha əmin olursan ki, M.C.Bağırov Böyük Azərbaycan dövlətinin yaradılmasının aşiqi, Vətəninə, dövlətinə nə qədər bağlı adam olub. Məhz bu bağlılığa görə, Böyük Azərbaycan layihəsinin müəllifi kimi sonradan onu Azərbaycan milliyyətçisi kimi ittiham edəcəkdilər...





- **Yəqin xəbəriniz var ki, Vaşinqtonda nəşr edilən gizli dosyelərdə M.C.Bağırovu millətçi kimi təqdim edirlər?**

- Doğru deyirsiniz, həmin dosyelərdə Beriya ilə Bağırovun adları bir yerdə çəkilir, Cənubi Azərbaycanla bağlı niyyətlərini açaraq, onları milli təəssübkeş kimi xarakterizə edirlər. Həqiqətən də sonrakı mərhələlərdə M.C.Bağırovun milli təəssübkeşliyi ona qarşı ittihamların əsasını təşkil edəcəkdi. 1954-cü il fevral ayının 12-də keçirilən Azərbaycan Kommunist Partiyasının qurultayının protokollarında bunu bariz şəkildə görürük. Məsələn, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ikinci katibi Vitali Səmədov M.C.Bağırova qarşı hücuma keçərək onu aşağıdakı şəkildə ittiham edirdi:

"Bağırov bizə tapşırırdı ki, orta məktəb dərsliklərində Mikoyanın adı çəkilməsin, Partiya İnstitutu Şaumyanın adı ilə çağırılmasın. O, Serqo Orconikidze barədə qərəz və kinayə ilə danışırdı". Bu, həmin Serqodur ki, Dağlıq Qarabağın taleyi həll olunanda Qarabağın Ermənistana verilməsinə tərəf çıxıb, buna qarşı duran Nəriman Nərimanovu bir müddət sonra real siyasi hakimiyyətdən uzaqlaşdırmağa nail olub. Kremlin divarları arasında səsi eşidilməyən, heç bir yüksək səlahiyyəti olmayan, koma vəziyyətindəki Leninə Stalindən şikayət məktubları yazan Serqo sonda onun ölümünə səbəb olub.

Yaxud, həmin qurultayda Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Nəzər Heydərov M.C.Bağırovun əlinin çörəyini yemiş Məmməd İskəndərovla baş-başa verərək, erməni mənşəli Astvatsaturovu – "Orconikidze-neft"in keçmiş rəisini, Mravyanı – "Stalinneft" trestinin keçmiş rəisini, Ter-Minasovu – "Buzovnaneft"in keçmiş baş mühəndisini Azərbaycandan

qovduğuna görə M.C.Bağırovu ittiham edirdilər. Bu insanlar Mikoyana xoş gəlmək üçün sanki yarışa girmişdilər. Çünki, Mikoyanın görən gözü, eşidən qulağı A.Sarkisov Dağlıq Qarabağ Muxtar Vilayətindən qurultayda nümayəndə kimi iştirak edirdi. Öz çıxışında respublikanın azərbaycanlı siyasi rəhbərliyinə irad tutan bu adam qurultayda aparılan müzakirələri istiqamətləndirirdi. Misal üçün, A.Sarkisov deyirdi:

"1952-ci ildə Bağırovun təklifilə Azərbaycan KP MK-nın bürosu Marksizm-Leninizm İnstitutlarında tədrisin ermənicə aparılmasını ləğv edib, Bakıda, Kirovabadda, Naxçıvanda, Stepanakertdə tədrisin ancaq rus dilində aparılması qərara alınıb. Bunun nəticəsində biz Stepanakertdə universitetin erməni bölməsini bağlamalı olduq. Bağırov millətçi idi, həm də xüsusi tipə mənsub millətçi idi. O, digər millətlərin təkcə kadrlarını deyil, mədəniyyətini də bəyənmirdi. Bakıda erməni teatrının bağlanması dediklərimə parlaq sübutdur".

O, həmçinin M.C.Bağırovu daşnak mərkəzi olan Stepanakert Müəllimlər İnstitutunu bağlamaqda ittiham edirdi. Təsadüfi deyil ki, bu istiqamətləndirici çıxışdan sonra qurultaydakı bütün çıxışlar Mikoyanın müdafiəsi üzərində qurulmağa başladı. Mərkəzi Komitənin elm və mədəniyyət şöbəsinin müdiri H.Həsənovun çıxışını oxuyanda, onun sağlam azərbaycanlı şüuruna sığmayan fikirlərinə görə xəcalət çəkməli olursan. Görün o, çıxışında nə deyirdi:

"Bağırov Azərbaycan tarixi dərsliyindən Mikoyanın, Orconikidzenin, 26 Bakı komissarının adlarını çıxarmaq barədə göstəriş verməklə kifayətlənmirdi. Şəxsən öz əli ilə bu adların üstündən xətt çəkirdi. Yadımdadır, mənim iştirak etdiyim yığıncaqda Bağırov həmin dərsliyi hazırlamış müəlliflərin üstünə





çığırdı ki, nə üçün onun göstərişlərinə əməl edilməyib, həmin adlar dərslikdən çıxarılmayıb?"

Yəni, yuxarıdakı misalları çəkməkdə məqsədim odur ki, Mikoyan başda olmaqla erməni siyasi elitası M.C.Bağırovu həm Azərbaycanda, həm də İran Azərbaycanında apardığı milli siyasətinə görə bağışlamayacaqdılar. Bu baxımdan, 1954-cü ilin fevralın 12-dən 16-na kimi davam edən qurultayda yuxarıda qeyd etdiyim çıxışların ana xətti Mikoyana yarınmaq, Bağırovun azərbaycanlaşdırma siyasətinə görə ermənilərdən üzr istəmək tələbi üzərində qurulmuşdu.

- **Adıgözəl müəllim, çox maraqlı məqamlara toxundunuz. Deyilənə görə, M.C.Bağırovun azərbaycanlıların Vətəndən köçürülməsinin qarşısının alınmasında müstəsna xidmətləri olub. Bu, nə qədər həqiqətə uyğundur?**

- Bilirsiniz, mən bu məsələlərlə dərindən məşğul olmuşam. Həm Bakıda, həm də Moskvada bu istiqamətdə ciddi tədqiqatlar aparmışam. Eyni zamanda, o dövrü araşdıran bir çox rus alim və yazarları ilə fikir mübadiləsi etmişəm. Müharibə illərində müharibə qanunları hökm sürür. Amma xalqların kütləvi deportasiyası Stalin tərəfindən qəddarcasına həyata keçirilmişdir. Bu baxımdan, erməni siyasi elitasının barmağı həmişə Kremlin daxili intriqalarında öz işini görürdü. Deportasiya olunan xalqları bir neçə məsələdə günahlandırırdılar. Bunun bir qismi SSRİ Dövlət Müdafiə Komitəsinin xalqların deportasiyası ilə bağlı qərarında açıqlanıb, çox hissəsini hələ də gizli saxlanılan protokollarda görmək olar. Fikir verirsinizsə, deportasiyaya ilk mə-

ruz qalan xalq axısqa türkləri oldu. Hərçənd, bu xalq almanlar tərəfindən işğal olunmuş sovet torpaqlarında yaşamırdı. Amma onlar məhz türk olduğuna görə deportasiya olundular. Əslində axısqa türklərini ona görə ittiham edirdilər ki, guya Türkiyə faşist Almaniyası ilə birlikdə Sovet İttifaqına hücum edəcək, onlar da gələn qüvvələrə bələdçilik edib, "təxribatçı" fəaliyyət göstərəcəkdi...

Digər bir əsas kimi almanların təşkil etdiyi legioner ordularda məhsəti türklərinin təmsil olunması göstərilirdi. Əslində onlar Almaniyada Krım türklərindən və azərbaycanlılardan təşkil edilən legionlarda təmsil olunurdular. Məhz bu əsas gətirilərək axısqa türkləri və Krım tatarları sürgünə məruz qaldı. Halbuki minlərlə Krım tatarı, axısqa türkü Sovet ordusunda faşistlərə qarşı döyüşlərdə qəhrəmanlıq göstərirdilər. Bu xalqların bir çox övladları şücaət və qəhrəmanlığa görə Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülüb. Burada iki məqama toxunmaq istəyirəm. Almanlar həmin legioner ordulardan ermənilər üçün də yaratmışdılar. Amma nədənsə deportasiya məsələsində erməni legionları yada düşmədi. İkinci məqam, yuxarıda qeyd etdiyim kimi, axısqa türkləri daha çox Əbdürrəhman bəy Əli bəy oğlu Fətəlibəyli-Düdənginskinin rəhbərlik etdiyi Azərbaycan legionunda təmsil olunurdular. Bu səbəbdən də sonrakı hədəf azərbaycanlılar idi. Dövlət Müdafiə Komitəsinin qərarına əsasən, axısqa türkləri "separatizmə" meylli xalq və faşist legionlarında təmsil olunduqlarına görə" deportasiya edildilər. İkinci mərhələdə bu "yarlığı" azərbaycanlılara da yapışdıraraq, deportasiya etməli idilər. Əslində, SSRİ Dövlət Müdafiə Komitəsində azərbaycanlıların da deportasiya məsələsi müzakirəyə çıxarılmışdı. Amma bunun qarşısını iki şəxs alıb: Bağırov və Beriya.





- **Bəs, onlar bunun qarşısını necə alıblar?**

- Stalində, o cümlədən, Kremldəki rus siyasi elitasında azərbaycanlılara qarşı şübhəli münasibəti dəyişmək üçün kütləvi şəkildə partiya və komsomol təşkilatları vasitəsilə Moskvaya teleqramların göndərilməsi təşkil edildi və hərbi çağırışçıların sayı artırıldı. Mərkəzi qəzetlərdə Azərbaycan diviziyalarının cəbhədəki uğurları, eloğlularımızın müharibədə göstərdikləri qəhrəmanlıqlar intensiv işıqlandırılmağa başlandı. Eyni zamanda döyüşlərdə qəhrəmancasına həlak olmuş Azərbaycan oğulları haqqında tədbirlərin keçirilməsi geniş vüsət aldı. Bağırovun öz oğlu Mir Cahangir də müharibədə qəhrəmancasına həlak olub. Bunu Stalin və Kremlin siyasi elitası gözəl bilirdi. İkinci səbəb o idi ki, İran məsələsi tam həllini tapmamışdı. Təbrizdə Sovet ordusunun bir hissəsi dururdu. M.C.Bağırov Stalini inandırmışdı ki, azərbaycanlılar olmadan mərkəzi Tehran hakimiyyətinə təsir göstərmək mümkün deyil. Təsadüfi deyil ki, M.C.Bağırovun başçılığı altında görkəmli elm xadimi, dövlət adamı Əziz Əliyevlə başlanmış və 1942-ci ildə Moskva tərəfindən dondurulmuş Cənubi Azərbaycan layihəsi Beriyanın dəstəyi ilə 1944-cü ildə yenidən işə salındı. Pişəvərinin başçılığ edəcəyi Azərbaycan Demokrat Partiyasının yaradılması da bu dövrə təsadüf edir. Tam qətiyyətlə deyə bilərəm ki, Cənubi Azərbaycan layihəsinin müəllifi əvvəldən axıra qədər M.C.Bağırov olmuşdur. Məhz həmin günlər Stalinə göndərdiyi məktubunda M.C. Bağırov qeyd edirdi:

"Azərbaycanlılar Ərdəşir Avanesyanın başçılıq etdiyi Tudə Partiyasında birləşə bilməyəcəklər. Burada rəhbər şəxsin erməni olması azərbaycanlıları bu partiyadan uzaq salıb. Hesab

edirəm ki, Tehran hakimiyyətinə təsir etmək üçün azərbaycanlılardan ibarət yeni bir siyasi güc yaratmaq lazım gələcəkdir". İnanın, təkcə bu cümlə ilə Bağırov həm azərbaycanlıları gözlənilən deportasiyadan qoruyur, həm də Azərbaycan amilinin önəmini geosiyasi güc kimi Stalinin diqqətinə çatdırırdı. Ona görə də M.C.Bağırovun xalqımızın taleyində rolu əvəzsizdir və bunu görməmək, inkar etmək nankorluqdur!

***Səxavət Məmməd***
***"Ölkə.az" saytı***





# MİR CƏFƏR MİR ABBAS OĞLU BAĞIROV

M.C.Bağırovun tərcümeyi-halı qeyri-adi olmaqla bərabər, həm də mətləbə dəxli olmayan mövzuyla başlayır. Tərcümeyi-halda doğulduğu tarix və şəhər göstərilməzdən əvvəl Quba qəzasında olan digər Bağırovlara münasibət bildirilir. Tərcümeyi-hala görə, Qubadakı Bağırovlar beş qrupa ayrılır:

1. İri tacirlər olan Bağırovlar ailəsi.
2. Bağ təsərrüfatları olan Rzaqulu və Əbilqasım Bağırovlar (onlar Quba qəzasında əhaliyə qarşı terrorçuluqda günahlandırılır).
3. Keçmiş çörək tacirləri olan Bağırovlar.
4. Sibirə sürgün olunmuş və sonradan Quba qəzasına qayıtmış Yusif Bağırovun ailəsi (onların da cinayətkar olduğu qeyd edilir).

Bu təfsilatdan sonra tərcümeyi-halda M.C.Bağırovun bu ailələrlə heç bir əlaqəsi olmadığı göstərilir.

Sonra bizə təqdim olunan tərcümeyi-halda o, öz qohum-əqrəbası haqqında məlumat verərək, onları iki hissəyə bölür:

"Mənim babam Hacı Mir Bağır Dərbənd şəhərində anadan olmuşdur. Quba qəzasına köçdükdən sonra iki dəfə evlənmişdir. Birinci həyat yoldaşından mənim atam, Mir Abbas Bağırov və onun üç doğma qardaşı dünyaya gəlmişdir. Lakin onlar artıq dünyalarını dəyişmişlər. Babamın ikinci həyat yoldaşından

dörd oğlu dünyaya gəlmişdir. Ögey əmilərim də hazırda dünyalarını dəyişiblər. Onu da demək istəyirəm ki, mənim atam və onun qardaşları ögey ana tərəfindən evdən qovulmuş və onlar yetim həyat tərzi keçirmişlər. Ona görə də Quba qəzasında hər hansı bir şəxsin namizədliyi irəli sürülərkən, istər mənim qohumum olsun, istərsə də kənar şəxs, mənim yuxarıda qeyd etdiyim məsələləri nəzərə almaq lazımdır".

Mənə elə gəlir ki, tərcümeyi-halın bu formada verilməsi bir neçə səbəbdən qaynaqlanır. Yadımıza salaq ki, A.Antonov-Ovsiyenko "Beriya" kitabında M.C.Bağırovun doğma qardaşını öldürdüyünü və onun sənədlərini öz adına keçirdiyini yazır. Görünür, Ovsienko bu fikri istintaq zamanı müstəntiqlərin Bağırova qarşı irəli sürdüyü uydurma ittihamlara əsaslanaraq yazmışdır. Bir faktı da nəzərdən qaçırmaq lazım deyil ki, M.C. Bağırovun istintaq materiallarının böyük hissəsi hələ də "Tam məxfi" qrifi altında Moskva arxivlərində saxlanılır. Ona görə Azərbaycan tədqiqatçılarına təqdim olunan tərcümeyi-hal elə formada tərtib edilib ki, bu forma istintaqda M.C.Bağırova qarşı irəli sürülən qondarma ittihamları əsaslandırmaq üçün zəmin yaratsın, tərcümeyi-halda onun ziddiyyətli şəxsiyyət obrazı formalaşsın. Elə buna görə də telerejissor Mehriban Ələkbərzadə müəllifi olduğu filmdə bu məzmundakı tərcümeyi-halların təsiri altına düşərək, özü də istəmədən M.C.Bağırovu ziddiyyətli şəxsiyyət adlandırır.

Tərcümeyi-halında M.C.Bağırovun 1896-cı il sentyabrın 17-də çox kasıb bir ailədə anadan olduğu bildirilir. Bizə təqdim olunan tərcümeyi-halın əvvəlini oxuyan tədqiqatçıda qeyri-ixtiyari bu şəxs haqqında belə bir fikir formalaşa bilər: bu insan uşaqlıq illərində atasının çətinliyinin şahidi olub və onun şüurunda bu əzabın səbəbkarları kimi doğma babası və ögey nənəsinə qarşı nifrət hissi yaranıb.





Belə bir məntiqlə, uşaq şüurunun bu cür formalaşmasını yazmaq gələcəkdə onun psixi-ruhi vəziyyətində baş verən dəyişikliyi göstərmək məqsədi daşıyır. Ona görə də bu vəziyyət M.C. Bağırovda cəmiyyətə, hətta öz qohum-əqrəbasına qarşı münasibətində natamamlıq kompleksi formalaşdırır. Yəni, arxivdəki tərcümeyi-halın tərtibçiləri M.C.Bağırovda paranoidal təfəkkür tərzinin olduğuna işarə edirlər. M.C.Bağırovda qatil təfəkkürü obrazını da Ovsiyenko yaradır. 1956-cı ildə Moskva xüsusi xidmət orqanlarının ehtiyatda saxladığı və onların agentura şəbəkəsinin üzvü olan öyrədilmiş qadınlar məhkəmədə M.C.Bağırovun üzünə duraraq, onu əxlaqsızlıqda günahlandırdılar. Guya o, Azərbaycanın rayonlarına qatarla etdiyi səfərləri zamanı "saya-hesaba" gəlməyən məşuqələri ilə əxlaqsızlıqla məşğul olurmuş. Məhkəmədə M.C.Bağırov ona qarşı söylənilən qondarma ittihamları rədd edir. Əslində bu qondarma ittihamlar təsadüfi deyildi. M.C.Bağırovu Azərbaycan xalqının gözündən salmaq üçün bu ittihamlar Xruşşov-Mikoyan cütlüyünün ən "uğurlu" gedişlərindən biri idi. Bu cür ssenari 1953-cü ildə L.Beriyaya qarşı hazırlanmışdı (bu barədə kitabın digər bölmələrində bəhs olunur, – A.M.). Bütün bunlar M.C.Bağırovu psixoloji cəhətdən qeyri-sabit və maniakal təfəkkürə malik obrazının formalaşdırılması üçün edilirdi. Sözsüz ki, siyasi liderlərdən bəzilərinin psixoloji durumunda, ruhi vəziyyətində anormallıqlarla rastlaşmaq olar.

Artıq tarixdə Hitlerin anatomik-tibbi baxımdan müəyyən qüsurları haqqında məlumat vardır. Hitler kasıb bir dəmiryolçu ailəsində dünyaya göz açmışdı. Uşaqlıq illərində öz yaşıdları ilə

çimərliyə gedəndə çılpaq soyunmaqdan çəkinər, onlardan uzaq durmağa çalışarmış. Bu, oxucuya qəribə görünsə də, bunun əsas səbəbi Hitlerin anatomik-fizioloji cəhətdən qüsurlu (monoorxidus, – A.M.) olmasında idi.

Hakimiyyətə gəldikdən sonra Hitlerdən evlənməməyinin səbəbini soruşduqda: "Mənim həyatım xalqıma məxsusdur" - deyərək, cavab verirdi. Sözün həqiqi mənasında isə o, qadınlarla ünsiyyəti sevirdi, amma fiziki yaxınlıq etməkdən həmişə çəkinər, daxili enerjisini siyasətə sərf etməyə üstünlük verərdi.

"Belə deyilir ki, o, intim həyata 36 yaşında başlamışdır. Bu zaman onun ilk seçimi 16 yaşlı Mariya Rayter olmuşdur. Ancaq 1928-ci ilin yayında hansısa səbəbdən Mariya intihara cəhd göstərir. Hitlerin həyatının ikinci qadını Xelena Xapfştanql olmuşdur. Amma Adolfun intim həyatında əsas yeri əmisi nəvəsi Qeli Raubel tutmuşdur. Hitler bu qadını həddən artıq qısqanır və onu ciddi nəzarət altında saxlayırdı. Böyük Fürerin özünəməxsus maniakal sevgisi gənc qadını həyatdan getməyə vadar edir. Onun ölümünün sirri öz yaxınlarına dediklərindən görünür: "Mənim əmim çox qorxuncdur. Siz təsəvvür edə bilməzsiniz ki, o, məni hansı şeyləri eləməyə məcbur edir".

Qeli Raubeldən sonra Hitlerin həyatında çox qadınlar olmuşdur. Onlardan biri aktrisa Renata Müllerdir. O, öz xatirələrində söyləyirdi: "Hitler yataqdan çox qorxurdu. O, qadının ayaqlarına düşərək onu tapdalamağı, vurmağı, etikadan kənar sözlərlə söyməyi xahiş edirdi. Hitler məhz onda ekstaz vəziyyətinə gəlirdi. Sonra heç bir şey olmamış kimi ayrılırdı".

Hitlerin həyatının əsas qadını, sözsüz ki, Yeva Braun olmuşdur. Onlar 1929-cu ildə tanış olublar. Aralarındakı yaş fərqi 23 il təşkil edirdi. Yeva 1932-ci il noyabrın 1-də öz ürəyinə tuşladığı





gülllədən möcüzə nəticəsində sağ qaldı. Yevanın Fürerin sevimlisi, əfsanəvi "Kommandos" Otto Skortseniyə səmimi etiraflarından: "Bizim Fürerin bəzi şıltaqlıqlarından xəbəriniz varmı?" O, Skortseniyə etiraflarında qeyd edirdi: "Hitler yaxşı at çapmağımı bildiyindən, məni lüt soyundurub, belinə mindirir, onu at kimi sürməyimi əmr edirdi". Ən maraqlısı o idi ki, Hitler bu cür alçaldılmanı özü üçün ən gözəl əyləncə hesab edirdi. Fürer deyirdi ki, mütləq hakimiyyəti əldə etməkdən ötrü ən aşağı alçaqlıqlardan keçmək lazımdır. Onun fikrincə, bu cür eksekusiyalar onda avtoritar qüvvəsini və daxili gücünü möhkəmləndirir ("Siyasi liderlərin psixoloji portretləri" kitabından – A.M.).

Deməli, belə aydın olur ki, gələcəyin qəddar tiranının uşaqlıq illərində psixologiyasında travmatik dəyişikliklər baş verib. Standart şüur haqqında anlayışın III xarakteristikasında fərdlərarası və ya insanlararası münasibətlərdə artıq normadan kənara çıxmalar formalaşır. Bu motivasiya eqoizmin, gələcəkdə siyasi qısqanclığın, maniakal mənəmliyin üzə çıxmasına şərait yaradır. Sözsüz, burada heç bir əsas ola bilməz ki, Hitler kimi qüsura malik şəxslər onun psixoloji aspektlərini özündə birləşdirə bilər. Xeyr, bu, belə deyildir. Psixatriya elmində ruhi xəstəliyin yaranma səbəblərinin əsası kimi irsi məqam durur. Əgər nəsildə ruhi xəstə olubsa, Mendelin dominant və reqressiv genetik prinsiplərinə əsasən, gələcəkdə həmin nəslin davamçıları arasında ruhi xəstəliyin yaranması ehtimalı daha çoxdur. Belə insanların eşitdiyi qəfil qorxulu bir xəbərdən, stressdən, nevrozdan və başqa kənar təsiredici amillərdən ruhi xəstəliyə keçid faizi çox yüksəkdir. Qədimlərdə Şərq ölkələrində yeni şah sülaləsinin əsası qoyulurdusa, bu sülalə o şərtlə xalq tərəfindən qəbul olunurdu ki, sülalənin içərisində ruhi xəstə olmasın. Belə bir

hadisə ilə Əbu Əli İbn Sina rastlaşmışdı. Urgənc xaqanı oğlunun ruhi xəstəliyini gizli saxlayaraq, İbn Sinaya müraciət edir. İbn Sina ruhi xəstəliyin irsi daşıyıcıları haqqında dolayısı ilə bu məsələyə müəyyən mənada işarə vurmuş, bununla da determinizmin əsasını qoymuşdur. "Tarixçilər Hitlerin ulu nəslində ruhi xəstələrin mövcudluğunu sübut etmişlər. Ancaq paradoks ondadır ki, nasistlərin qəddar siyasətlərindən biri də ruhi xəstə kişilərin axtalanması idi" (A.Məmmədov. "Siyasi liderlərin psixoloji portretləri" kitabından).

Ona görə də M.C.Bağırovun tərcümeyi-halının bizə təqdim olunan məzmunda verilməsinin məqsədi artıq aydın olur. Ziddiyyət təkcə tərcümeyi-halda deyil, M.C.Bağırovun şəxsiyyət vəsiqələrində, partiya qeydiyyat kitabçasında, anket və digər şəxsi sənədlərində də özünü büruzə verir. Təsəvvür edin, M. C.Bağırov kimi dəqiq, uzun illər təhlükəsizlik orqanlarına rəhbərlik etmiş bir şəxs, necə ola bilər ki, bir tərcümeyi-halında doğum tarixini 1895, digərində isə 1896-cı il göstərsin? Yaxud, şəxsi sənədlərində, əmr və sərəncamların sonunda onun imzası və kalliqrafik xətlər bir-birindən fərqlənsin. Bütün bu ziddiyyətlər onun şəxsi işinin qəsdən yenidən tərtib olunmasından xəbər verir. İntəhası, bu tərtibatçılar kifayət qədər naşı olduqlarından M.C. Bağırovun doğum tarixini ayrı-ayrı sənədlərdə müxtəlif cür yazıblar.

Məhz bu səbəbdən bizim bəzi tədqiqatçılarımız saxta tərcümeyi-halın təsiri altına düşərək, M.C.Bağırovun həyat yolu ilə bağlı tamamilə yanlış təhlillər aparmışlar.

Bəs, əslində Mir Cəfər Bağırovun həyat yolu necə olmuşdur? Biz bunu tarixi sənədlərə istinadən, məntiqi təhlillərlə ortaya qoymağa çalışacağıq.





M.C.Bağırov 17 sentyabr 1896-cı ildə Quba qəzasında anadan olmuşdur. Atası Mirabbas kasıb həyat tərzi sürmüş, anası Yaxşıxanım zadəgan nəslindən olmuşdur. (Bunu arxivdəki sənəddə görmək olar: F1; S. 122. iş 107, səh.13) M.C.Bağırovun ata tərəfdən babası Dərbənddəndir. Onun ailə üzvlərinin tərkibi aşağıdakılardan ibarətdir:

Atası – Mirabbas Hacı Mirbağır oğlu. 1902-ci ildə vəfat edib. Qubada dəfn olunub.

Anası – Yaxşıxanım. 1920-ci ildə vəfat edib. Qubada dəfn edilib.

Ailənin sonbeşiyi sayılan Mir Cəfərin özündən böyük üç qardaşı və iki bacısı olub.

Böyük qardaşı – Mir Musa. 1939-cu ildə vəfat edib.

Ortancıl qardaşı – Mir Heydər. 1922-ci ildə vəfat edib.

Üçüncü qardaşı – Mir İbrahim. 1943-cü ildə dünyasını dəyişib.

Böyük bacısı – Seyid Məsumə. 1947-ci ildə dünyasını dəyişib.

Kiçik bacısı – Seyid Fatimə. 1960-cı ildə vəfat edib.

***Haşiyə:*** M.C.Bağırovun bacısı Seyid Fatimə yaxın ətrafına söylədiyi xatirələrində bunları qeyd edirdi: "Bizim nəslin kökü "Zeyditlər" tayfasına bağlanır və bu tayfa ağacının kökü İslam Peyğəmbərinin qızı Həzrəti Fatimə xəttinə gedib çıxır. Hələ 950 il bundan öncə Xəzərin Dərbənd sahillərində "Zeyditlər" dövləti varmış. Sonradan bu tayfa tarixi ərazilərindən Yəmənə, Cənubi Ərəbistan torpaqlarına köç edib. Bu zaman onların bir hissəsi Xəzər sahillərində qalıb. Həmin tayfanın nümayəndələri XX əsrin birinci yarısının sonuna qədər Yəmən torpaqlarında

padşahlıq ediblər. Onların son nümayəndəsi Şahənşah İmam Yəhyadır”. Sözsüz ki, bunları daha dərindən araşdırmağı tarixçilərin öhdəsinə buraxırıq (A.M.).

M.C.Bağırov 12 yaşına qədər müsəlman ruhani məktəbində təhsil alır. O, bu məktəbdə dini qanunlar, fars ədəbiyyatı, Nizami və Füzulinin yaradıcılığı ilə yaxından tanış olur. 1907-ci ildə valideynləri onu dünyəvi elmlər tədris olunan Quba orta məktəbinə göndərir. Oranı bitirdikdən sonra, 1913-cü ildə Quba orta-ali məktəbində təhsilini davam etdirir. Ailəsinin maddi imkansızlığı ucbatından təhsilini yarımçıq qoymaq təhlükəsi yaranır. Mir Cəfərin istedadını görən müəllim heyəti tədris ocağının vəsaiti hesabına onu Petrovskidə (Mahacqala) pedoqoji təhsilini davam etdirməsinə kömək göstərirlər.

1915-ci il fevralın 10-da Mir Cəfər Bağırov Petrovskidə təhsilini başa vurur və Quba qəzasının Xudat stansiyasında yeni açılmış ibtidai məktəbə direktor təyin olunur. Burada yeni məktəbi formalaşdırandan sonra Quba qəzasının, ləzgilərin daha çox yaşadığı Nəcəfkənd məktəbinə göndərilir. M.C.Bağırov ləzgi dilini gözəl bildiyindən tezliklə burada yerli kənd uşaqlarını təhsilə cəlb edir. Artıq burada onun siyasi məsələlərlə, o cümlədən, sosialist təşkilatları və onların proqramları ilə ilkin tanışlığı başlayır. 1916-cı ilin payızında onu Quba qəzasının ikiillik Yəhudi ibtidai məktəbinə keçirirlər. Bu andan Mir Cəfər Bağırovun həyatının keşməkeşli dövrü başlayır. Rusiyada 1917-ci il fevral inqilabından sonra onun namizədliyi Qubadakı Penza drujinasının əsgərləri tərəfindən Quba qəzasının İcraiyyə Komitəsinə irəli sürülür və o seçilir. İcraiyyə Komitəsində fəaliyyəti zamanı o dövrün siyasi palitrasını özündə əks etdirən qüvvələrlə ilk dəfə tanış olur (F 1. S. № 405 iş 107).





M.C.Bağırov rus dilini gözəl bilirdi və qabiliyyəti, fitri istedadı ilə yaşıdlarından fərqlənirdi. Fəhmi, diribaşlığı ilə siyasi hadisələrdən düzgün bəhrələnən M.C.Bağırov tezliklə Quba qəzasının sayılıb-seçilən şəxslərindən biri olan Əli bəy Zizikskinin diqqətini özünə cəlb edir. Yeri gəlmişkən, onu da qeyd etmək istərdik ki, hörmətli tarixçi alimimiz Eldar İsmayılov “Vlast i narod” kitabında A.A.Ovsiyenkonun: “Bağırov qardaşını öldürüb” iddiasının əsassız olduğunu göstərərək, ona tutarlı cavab yazıb. Lakin təəssüf hissi ilə qeyd edək ki, Eldar müəllim özü də istəmədən, mübahisəli anket və tərcümeyi-halların təsiri altına düşərək, həqiqətə uyğun olmayan qənaətə gəlir. Tarixçi-alim Bağırovu psixoloji cəhətdən qeyri-sabit, isterik şəxs kimi göstərməklə bir qədər tələskənliyə yol verir.

2000-ci ildə çapdan çıxmış, müəllifi olduğum “Siyasi liderlərin psixoloji portretləri” kitabımda dərin neyropsixoloji təhlillərdən sonra M.C.Bağırov sanqvinik tipinə aid edilir. Bu temperamentin xarakterik xüsusiyyətləri aşağıdakılardır: diribaş, impulsiv, özünə inanan və özünü gözə soxmağa çalışan və s. xüsusiyyətlərlə bərabər, onlar sürətli danışıq tərzinə malik olurlar.

M.C.Bağırov 1917-ci ilin mart ayında Ə.Zizikski ilə əlaqəyə girərək, Quba qəzasındakı hakimiyyət boşluğunu doldurmaq üçün silahlı qüvvələr formalaşdırır. Bizə təqdim olunan tərcümeyi-halda isə bu dövrdə Bağırovun “Uçağan” dəstəsi yaratdığı göstərilir. Guya M.C.Bağırov Ə.Zizikskinin dağıtdığı rus və yəhudi kəndlərinin gənclərindən ibarət “Uçağan” silahlı dəstəsini yaradır və bu gənclərin əksəriyyəti fevral inqilabından sonra rus-alman cəbhə xəttindən geri qayıdan əsgərlərdən ibarət

olub. Tərcümeyi-halda guya M.C.Bağırovun dilindən belə yazılır: "Uçağan dəstəsinin üzvləri Quba bəyləri tərəfindən evləri dağıdılmış yəhudi, rus və keçmiş cinayətkar müsəlmanlardan təşkil olunmuşdu". Özünüzə sual verin: Mir Cəfər o qədər sadəlövh idimi ki, cinayətkarlardan cəmlənmiş bir dəstəyə rəhbərlik etdiyini tərcümeyi-halında qeyd etsin? Sözsüz ki, bu, cəfəngiyyatdır!

Düzdür, tərcümeyi-halda o da göstərilir ki, bu dəstə bəylərə, mülkədarlara qarşı mübarizə aparırdı. Ancaq 1956-cı idə M.C. Bağırov məhkəmədə qeyd edir ki, düzdür, mənim rəhbərlik etdiyim silahlı dəstə var idi, amma bu dəstə soyğunçuluqla məşğul olmayıb, hətta bəylərə qarşı da vuruşmayıb ("M.C.Bağırovun məhkəməsi" kitabından).

Əslində isə 1918-ci ilin qanlı mart hadisələri zamanı erməni Hamazapsın Azərbaycanın şimalına doğru hərəkət edən quldur dəstələrindən yerli əhalini qorumaq üçün yaradılmış müdafiə qruplarına Ə.Zizikski və M.C.Bağırov başçılıq edirdi.

Tərcümeyi-halda qeyd olunur ki, M.C.Bağırov satqınlıq nəticəsində Ə.Zizikskinin əlinə keçir və Əbu-Səttar adlı şəxsin vasitəsilə əsirlikdən qaçır. Əslində mülkədar Əli bəy Zizikskinin başçılıq etdiyi, M.C.Bağırovun da daxil olduğu silahlı dəstənin 1918-ci ildə Milli Hökumət qurulana qədər Daşnaksütunun liderlərindən olan Hamazapsın müsəlmanlara qarşı törətdiyi soyqırımın qarşısını almaqda böyük xidmətləri olmuşdur.

Artıq mart ayında daşnakların Şamaxıda törətdiyi qırğının qarşısını almaq üçün Əli bəy Zizikski silahlı dəstəsini Şamaxıya istiqamətləndirir. Qubada kiçik bir dəstə ilə M.C.Bağırov qalır. Bax elə bu tarixdən Mir Cəfər Bağırovun bolşeviklərlə açıq əlaqəsi başlayır. Ola bilsin ki, bu addım düşünülmüş şəkildə, Əli bəylə razılaşdırılıb atılmışdı. Çünki o, Qırmızı Ordunun Bakıdakı nümayəndəsi Georgi Strua ilə əlaqəyə girərək, Quba qəzasında onlara qarşı çıxacaq qüvvə olmadığını və hakimiyyətin M.C.Bağırovun timsalında bolşeviklərə meylli şəxslərin əlində cəmləşdiyini bildirir. Bu addımla M.C.Bağırov Qırmızı Ordunu Qubaya dəvət etmək, Şamaxıdan Qubaya istiqamət almış Hamazapsın dəstəsinin törədə biləcəyi qırğınların qarşısını almaq istəyirdi. Bununla da bolşeviklərin Hamazapsla birləşməsinin qarşısı alınırdı.





Bu danışıqlardan sonra Qubada İnqilab Komissarlığının rəhbəri Gelovani təyin edilir. Gelovaninin gəlişindən bir müddət sonra, 1918-ci il mayın 1-də Bakıdan Notovas Oqanesovun başçılığı ilə silahlı drujina Qubaya gəlir. Bu ərəfədə Əli bəy Zizikskinin və Hacınskinin silahlı qüvvələri Şamaxıdan geri çəkilib, bir müddət Dərbənddə qalır və qüvvə toplayır. Mayın 3-də onların silahlı dəstələri Qubaya doğru hərəkət edirlər.

Komissarların Petrovskidən (Mahaçqaladan) köməyə çağırdıqları silahlı dəstələr üç günlük döyüşdən sonra məğlub olaraq Qubanı tərk edirlər. Çox güman ki, düşmənin planından və mövqeyindən xəbərdar olmaq üçün Əli bəy Mir Cəfərə qırmızı dəstələrlə bir yerdə Qubanı tərk etməyi tapşırır. Çıxan dəstələr Dərbəndə tərəf istiqamətlənir və bu zaman Şimali Qafqazdan qayıdan qırmızı komissar Naniyşvilinin eşelonu ilə qarşılaşırlar. Qırmızılar belə qərara gəlir ki, Bakıya hərəkət edib, qüvvələri səfərbərliyə alıb, yenidən Qubaya hücum etsinlər. Lakin bolşeviklərin silahlı qüvvələri Bakıya qayıdarkən Dəvəçidə milli

qüvvələr tərəfindən gülləbarana məruz qalır. Bu vaxt Hamazapsın başçılığı ilə Bakı tərəfdən hərəkət edən 4 eşelon silahlı daşnak dəstəsi Dəvəçidə Naniyaşvilinin qüvvələri ilə birləşir. Hamazaps Şaumyanın göstərişi ilə Qubaya hərəkət etdiyini bildirir. Bu vaxt M.C.Bağırov Naniyaşvili tərəfindən bolşeviklərin Hamazapsın silahlı qüvvələrində nümayəndəsi təyin olunur. Bütün bunlara baxmayaraq, M.C.Bağırov Hamazapsı yaxşı tanıdığına görə bolşeviklərin bu dəstədə nümayəndəsi olmaqdan imtina edir. Yaxşı ki, Sovet hökuməti qurulduqdan sonra daşnaklara münasibət mənfi olub.

Məhz buna görə tərcümeyi-halı saxtalaşdıran Moskva emissarları M.C. Bağırovun həyatının bu hissəsini olduğu kimi saxlayıblar.

Onu da nəzərə almaq lazımdır ki, Leninin 1918-ci il iyul 29-da S.Q.Şaumyana göndərdiyi teleqrama qədər daşnaklarla bolşeviklər siyasi hakimiyyət uğrunda mübarizədə eyni mövqedən çıxış edirdilər.

***Haşiyə:*** 1923-cü ildə Bakıda Ə.Qarayevin "Yaxın keçmiş Azərbaycan Kommunist Partiyasının tarixinə aid materiallar" adlı kitabı nəşr olunur.

Kitabda hadisələrin təsvirinə diqqət yetirək:

"1904-cü ilin sonlarında Alyoşa Çaparidzenin rəhbərliyi altında Bakıda müsəlman "Hümmət" təşkilatı yarandı. "Hümmət" təşkilatı RSDP-nin Bakı bölməsi kimi fəaliyyətə başlayır, amma taktiki məqsədlər üçün bəzən özünü müstəqil təqdim edirdi. Çünki, "Hümmət" sosialist təşkilatları olan "Qnçak" və "Daşnaksütun"la eyni blokdan çıxış edəndə müstəqil görünməyə məcbur idi".





1924-cü ildə Ə.Qarayevin "Azərbaycanda Oktyabr inqilabı və Bakı bolşevik təşkilatı haqqında materiallar" adlı yeni kitabı nəşr olunur.

Bu kitabda Ə.Qarayev yazır:

"1918-ci ilin yayında ingilislər Bakını işğal etdikdə "Hümmət" təşkilatı fəaliyyətini gizli davam etdirməyə məcbur oldu. Yalnız 1919-cu ildə "Hümmət" açıq fəaliyyətə başlayaraq, fəhlə və kəndlilər arasında öz təbliğatını davam etdirdi. 1919-cu ilin yayında "Hümmət" təşkilatında parçalanma baş verdi. Nəticədə azlıqda qalanlar – menşeviklər bu təşkilatı tərk etdilər. 1920-ci ildə "Hümmət" təşkilatı İran kommunistlərinin cəmləşdiyi "Ədalət" RK(b)P ilə birləşərək, həmin ilin fevralın 12-də gizli şəkildə Azərbaycan Kommunist Partiyasının I qurultayını keçirdi".

Bunları qeyd etməkdə məqsədimiz odur ki, M.C.Bağırovun tərcümeyi-halının kitabda verilən hissələrində, özünün "Hümmət" təşkilatı ilə əlaqəli olduğu barədə dolayısı ilə məlumat verdiyini görəcəyik. Sonralar, 1938-ci ildə M.C.Bağırov, məhz "Hümmət"çi olduğuna görə həbs olunmaq təhlükəsini də yaşayır.

M.C.Bağırov Hamazapsın törətdiyi vəhşiliklər, müsəlmanlara qarşı həyata keçirdiyi soyqırım barədə tərcümeyi-halının saxtalaşdırılmamış hissəsində geniş məlumat verir. O, hətta daşnakların vəhşiliyi zamanı əmisi Mir Talıb, əmisi oğlu Mir Haşım və yeznələri Hacı Heybətin qətlə yetirildiyini də qələmə alır. Bu vəhşiliklərə dözə bilməyən Mir Cəfər erməni quldur dəstəsinin soyğunçuluğu, qətlləri barədə Bakıya teleqram göndərir. Dörd gündən sonra Alyoşa Caparidzenin səlahiyyətli nümayəndəsi Leon Qauberidzə Qubaya gəlir. Burada o, Mir Cəfəri təxribatda günahlandıraraq həbs etdirir. Qubanın inqilab

komissarı yoldaş Çurayev təyin edilir. Nəzarət altında olan Mir Cəfər yenidən Stepan Şaumyanın adına məktub yazır. Bu məktubun da xeyri olmur.

***Haşiyə***: Elə bil M.C.Bağırov Quba qəzasında türklərə qarşı aparılan soyqırımda Şaumyanın özündən şübhələnməyə başlayır.

1938-ci ildə "Krasnıy arxiv" jurnalının 4-5-ci sayında 1918-ci ilin 29 iyulunda V.İ.Leninin S.Q.Şaumyana göndərdiyi teleqram çap olunur. Teleqram aşağıdakı məzmundadır:





***Lenin***

**29 iyul 1918-ci ildə S.Q.Şaumyana göndərilən**
**TELEQRAM**

Həştərxan
Bakıya, Şaumyan üçün

Daşnakların Sovetlərin V qurultayının və mərkəzi Sovet hakimiyyətinin qərarlarına qarşı istənilən hərəkəti üsyan, yaxud xəyanət kimi qiymətləndiriləcək. Ordu qüvvələri göndərməklə bağlı tədbir görərik, amma söz verə bilmərik.

*İlk dəfə 1938-ci ildə "Qırmızı arxiv"dəki (№ 4-5) əlyazmadan jurnalda çap olunmuşdur*

Göndərilən teleqramı təhlil edərkən başa düşmək olur ki, Azərbaycan bolşevikləri Şaumyanın cinayətkar əməlləri barədə, onun daşnaklara mənəvi liderlik etdiyini təsdiqləyən sübutlarla Lenin qarşısında dəfələrlə çıxış etmişlər. Görünür, Leninin bu teleqramının sərt məzmunda olması Şaumyanı daşnaklarla siyasi-mənəvi yaxınlıqdan çəkindirmək məqsədi daşımışdır.

M.C.Bağırovun həbsxana həyatı Əli bəy Zizikski və Həmidulla Əfəndinin silahlı dəstələri Qubanı azad edənə qədər davam edir. Onlar M.C.Bağırovu həbsdən buraxırlar və onu yenidən kəşfiyyat üçün Bakıya, bolşeviklərin sərəncamına göndərirlər. Lakin M.C.Bağırov sonralar tərcümeyi-halında bu hadisəni bolşevik mənafeyinə uyğun təsvir edirdi:

"Bakıdan gəlmiş qırmızı qvardiyanın təlimatçıları R.Rubiridze və Kavtoridze Alyoşa Qusarda yerləşən Ə.Zizikski ilə danışıqlar apararaq, Qubanı tərk etmək barədə razılığa gəlirlər.

Qubaya yeni təyin olunmuş komissar Qoberidze bu vaxt Bakıda idi. Həbsdə olduğum zaman bu danışıqlardan xəbər tutduğum üçün, Ə.Zizikskinin və Həmdulla Əfəndinin əlinə düşməmək üçün, Qoberidzenin icazəsi olmadan, Qubada həbsxanadan qaçıb, Bakıya gəlirəm".

Bakıya gələn Mir Cəfər bolşeviklərlə məsləhətləşmələrdən sonra yoldaş Petrovun dəstəsinə yazılır.

Mayın 28-də şanlı Türk Ordusunun köməyi ilə Gəncədə Azərbaycan Demokratik Respublikası yaranır. ADR yarandıqdan sonra Ə.Zizikski Bağırovu özünə köməkçi götürmək üçün Müsavat hökumətinin Daxili işlər nazirinə məktub göndərir. Amma sonradan onun kəşfiyyatda qalması daha vacib sayılır. Mir Cəfər Petrovun dəstəsi ilə Bakını tərk edərək Həştərxana gəlir. O, burada Rusiya Kommunist bolşeviklər Partiyasına qəbul olur.

M.C.Bağırov partiyaya qəbul olunmasını 1956-cı ilin məhkəməsində dövlət ittihamçısı, SSRİ-nin baş prokuroru Rudenkoya aşağıdakı şəkildə izah edirdi:

"Prokuror: - Sizi nə vaxt və harada partiyaya qəbul ediblər?

Bağırov: - 1918-ci ildə Həştərxan şəhərində.

Prokuror: - Xahiş edirəm, dəqiq söyləyin.

Bağırov: - Mənim qulluq etdiyim hərbi hissənin siyasi şöbəsində partiya sənədlərimi təsdiq ediblər".

Arxivdəki anketlərdə isə onun 1917-ci ildən partiyanın üzvü olduğu göstərilir. Ona görə Moskva emissarları 1956-cı il məhkəməsində bu anketlərə görə M.C.Bağırovu sənədləri saxtalaşdırmaqda ittiham edirdilər. Əslində isə sənədləri Moskva özü saxtalaşdırmışdı. Bağırov məhkəmədə şəxsi anketlərində partiya üzvlüyünə 1917-ci ildə qəbul olduğunu yazmadığını bildirirdi. O, hətta 1918-ci ildən partiya üzvlüyünə qəbul olunduğunu təsdiq etmək üçün Olqa Qriqoryevna Şatunovskayanın şahidliyini tələb edirdi. 1916-cı ildən partiya üzvü olan Şatunovskaya 17 illik sürgün həyatından sonra, 1956-cı ildə məhkəmədə Xruşşovun əlaltılarının məsləhəti ilə Bağırovun, ümumiyyətlə, partiya üzvü olmadığını deyir.





Onu da qeyd etmək istəyirəm ki, artıq 1918-1919-cu illərdə Bağırov ADR-in xüsusi xidmət orqanları ilə əməkdaşlıq edirdi (A.M.). O, Həştərxanda səfərbərlik aparan bolşeviklərin silahlı qüvvələrinin vəziyyəti barədə Bakını məlumatlandırırdı. Bir faktı da nəzərdən qaçırmaq olmaz ki, həmin dövrdə Həştərxanda N. Nərimanovla M.C.Bağırovun ilk görüşü baş tutur. Görünür o, artıq Həştərxanda Nəriman həkimin nəsihətlərindən başa düşür ki, Azərbaycanda bolşevik hakimiyyəti bərqərar olacaq.

Gələcəkdə Azərbaycanın milli maraqlarını təmsil etmək üçün yerli kadrların formalaşdırılması Nəriman Nərimanovun önəm verdiyi vacib amillərdən idi. Ona görə 1919-cu ilin əvvəllərində Həştərxan Müsəlman Təşkilatlarının qərarı ilə Bağırovun namizədliyi müsəlman alayının hərbi komissarı vəzifəsinə irəli sürülür. Bu alaya başçılıq etdikdən sonra o, Həştərxanda mart üsyanının yatırılmasında iştirak edir. 1919-cu ilin avqustunda XI qırmızı ordunun Hərbi Şurasının qərarı ilə M.C.Bağırov əvvəlcə Həştərxan atıcı briqadasının, sonra III briqadanın və 34-cü diviziyanın hərbi komissarı seçilir. Oktyabrın sonunda isə yenidən Həştərxana qayıdaraq, xüsusi təyinatlı dəstənin təşkilində iştirak edir.

Kojankovun başçılığı altında bu dəstə Krasnoyarskda bir aylıq əməliyyat nəticəsində general Tolstoyun və yasovul Oveçnikovun silahlı qruplaşmalarını darmadağın edir. Sonra bu xüsusi

təyinatlı dəstə Şimali Qafqazdakı Gizilyər məntəqəsində yerləşdirilir. M.C.Bağırovun tərcümeyi-halında 1919-cu ildəki hərbi-siyasi fəaliyyəti zamanı iki dəfə xəstələnərək məzuniyyətə çıxdığı göstərilir. 1919-cu ilin iyulunda və dekabrın sonunda. Yaxşı ki, bu fakt tərcümeyi-halı saxtalaşdıran "peşəkarların" gözündən yayınıb. Görünür, Bağırov bu müddət ərzində gizli yolla Bakıya gələrək Həştərxanda və Şimali Qafqazda qırmızı ordunun mövqeləri və Azərbaycana qarşı hazırlanan hücum planı barədə məlumatları müsavatçılara çatdırır. Ola bilsin ki, Bakıya səfəri zamanı ADR rəhbərliyinə N.Nərimanovun məsləhətlərini də çatdırır. Çünki, M.C.Bağırov tərcümeyi-halında göstərir ki, Gizilyərdə xəstələndikdən sonra müalicəsini bitirməmiş Həştərxana geri çağırılır və Azərbaycan kommunist təşkilatında – "Hümmət"də siyasi fəaliyyətə başlayır.

Artıq 1920-ci ilin aprelində Bağırov şimaldan Azərbaycana daxil olan bir qrup silahlı qüvvə ilə Qubaya qayıdır və iki gündən sonra Bakıya gələrək, Azərbaycan K(b)P MK-nın növbəti təyinatını gözləyir. O, D.Bünyadzadə ilə Qarabağa göndərilir və sonra İnqilabi Şuranın həmin bölgədə Azərbaycan ordusunun Qırmızı hissələrinin təşkili üzrə səlahiyyətli nümayəndəsi təyin edilir. Partiya xətti ilə Vilayət Hərbi Şurasının sədr müavini, eyni zamanda, vilayət komitəsi rəyasət heyətinin sədr müavini seçilir. 1920-ci ilin payızında Qarabağda kəndli üsyanları yatırıldıqdan sonra Bağırov II atıcı briqadanın komandiri təyin edilir. Çox keçmir ki, bu briqada Bakıya köçürülür və Azərbaycan diviziyasına birləşdirilir. M.C.Bağırov diviziya hərbi komissarının köməkçisi təyin edilir. Daha sonra o, XI qızıl ordunun tribunal şöbəsinin sədri və ordu tribunalının üzvü seçilir. Böyük ehtimalla bu təyinatda N.Nərimanovun böyük rolu olmuşdur.





XI qızıl ordu əsgərlərinin Azərbaycandakı özbaşınalığına son qoymaq üçün yerli kadrın hərbi tribunalın üzvü seçilməsi milli maraqlardan irəli gəlirdi. 1921-ci ilin fevral ayında Azərbaycan K(b)P MK-nın və Qafqaz Cəbhəsi Hərbi Şurasının xahişinə əsasən, M.C.Bağırov Azərbaycan Xalq Komissarları Şurasının sərəncamına göndərilir. O, əvvəlcə Azərbaycan Fövqəladə Komissiyasının sədri, iki aydan sonra isə əlavə vəzifə kimi, Xalq Daxili İşlər Komissarı, Quldurlarla Mübarizə Mərkəzi üçlüyünün sədri təyin edilir. Beləliklə, M.C.Bağırov eyni vaxtda dörd vəzifəni icra edir. Azərbaycanda Sovet Hakimiyyəti qurulandan sonra Mir Cəfər Bağırovun ən böyük işi Azərbaycanda milli ordu hissələrinin yaradılması kimi mühüm vəzifə üzərində çalışması olur. 1921-ci ilin fevralında Xalq Daxili İşlər Komissarlığının Baş Siyasi İdarəsinə rəhbər təyin olunan M.C.Bağırov on ilə yaxın bu sahədə fəaliyyət göstərir. Mir Cəfər Bağırov bu vəzifəyə sədr təyin olunanda cəmi 25 yaşı vardı və o, bununla yanaşı, Xalq Daxili İşlər Komissarı, Xalq Yollar Komissarlığının müvəkkili, Azərbaycan SSR Xalq Komissarları Soveti sədrinin müavini vəzifələrini də icra edirdi.

Siyasi partiyalar və ictimai hərəkatlar Dövlət Arxivində tədqiqat apararkən M.C.Bağırovun şəxsi işlərində onun ailə tərkibi haqqında heç bir sənədə rast gəlmədik. Ancaq bizim, eləcə də tədqiqatçı-jurnalist Teyyub Qurbanın apardığı tədqiqatlar nəticəsində məlum oldu ki, Bakının yuxarı hissəsində, Badamdara gedən yolun sağındakı beynəlmiləl qəbiristanlıqda yan-yana üç məzar var: ana, oğul və əmiqızı. Mir Cəfər Bağırovun həyat yoldaşının məzarı sadəliyi ilə nəzəri cəlb edir. Məzarın üzərinə adi başdaşı qoyulub, yeganə fərq ondadır ki, baş daşının üstündəki qeydlər əski əlifba ilə yazılıb. Bu yazıda doqquz il birgə yaşadı-

ğı həyat yoldaşı ilə bağlı Mir Cəfər Bağırovun xatirəsi yaşamaqdadır: "Rahat yat, sevgili həyat yoldaşım…". Yazıdan bəlli olur ki, Mariya Alekseyevna Bağırova 1894-cü il iyul ayının 7-də anadan olub və 1926-cı il martın 1-də dünyasını dəyişib. Mariya xanım otuz iki yaşına çatmamış amansız xəstəlikdən vəfat edib. Birinci nikahdan Mir Cəfərin Mir Cahangir adlı oğlu dünyaya gəlir. Anasını erkən itirən Cahangir bibilərinin himayəsində böyümüşdür. Uzun müddətdən sonra ikinci dəfə ailə quran M.C.Bağırovun ikinci həyat yoldaşı Yevgeniya Mixaylovnadan Cen adlı oğlu dünyaya gəlir.





# I HİSSƏ

## M.C. BAĞIROV VƏ L.P.BERİYANIN SİYASİ FƏALİYYƏTİNİN İLK İLLƏRİ

L.P.Beriya ilə M.C.Bağırovun ümumi tarixi keçmişə malik birliyinin arxasında onların uzun illərə söykənən yaxın əlaqələri, dostluq münasibətləri və biri-birinə arxa-dayaq olmaları durur. 1953-cü ildə L.P.Beriya həbs olunarkən, şəxsi arxivindən Müsavat hökumətinə qulluq edən adamların siyahısı tapılmışdı. Həmin siyahıda L.P.Beriyanın özünün də adı olub. Siyahının üzərində isə M.C.Bağırovun dərkənarı vardı: "Багиров отдал". Yəni, M.C. Bağırov L.P.Beriyanın Müsavatın əks-kəşfiyyatının agenti olduğunu təsdiqləyən sənədləri Azərbaycan SSR Daxili İşlər Nazirliyinin arxivindən çıxarıb özünə göndərmişdi.

Bu fakt onları həm bir-birindən ehtiyat etməyə, həm də bir-birinə arxa durmağa vadar edirdi.

Lavrenti Pavloviç Beriya 1899-cu il martın 29-da Suxumi yaxınlığında Merxeyli kəndində kasıb ailədə anadan olub. 1917-ci ildə Bakıda Mexanika-Tikinti Texnikumuna daxil olan Lavrenti 1918-ci ildə Rumıniya cəbhəsinə göndərilir. Sonradan Beriya yenidən Bakıya qayıdıb, təhsilini davam etdirir. O, 1918-ci ildə Bakı fəhlə-əsgər-matros şurasına daxil olur. 1919-cu ildə Azərbaycanda milli hökumətin görkəmli nümayəndələrindən

biri, Mirzə Balanın təqdimatı ilə Müsavat kəşfiyyatına işə götürülür. (L.P.Beriya özünün sonrakı tərcümeyi-hallarında Müsavat kəşfiyyatına guya bolşeviklərin tapşırığı ilə soxulduğunu yazırdı – A.M.). Azərbaycan Demokratik Respublikası fəaliyyət göstərdiyi 23 ay ərzində Milli Ordunun təşkili prosesində, həmçinin gənc dövlətin təhlükəsizliyinin təmin edilməsində general Səməd bəy Mehmandarov, general Əliağa Şıxlinski və general Məmməd bəy Sulkeviç xüsusi rol oynamışlar. 1919-cu il mart ayının 28-də hərbi nazir Səməd bəy Mehmandarovun və Baş Qərargah rəisi Məmməd bəy Sulkeviçin imzaladıqları 157 saylı əmrlə Hərbi Nazirliyin Baş Qərargahının general-kvartirmeystr şöbəsində kəşfiyyat və əks-kəşfiyyat bölməsi yaradılır. Bu əmrdən sonra bölmənin komplektləşdirilməsi, fəaliyyət istiqamətinin müəyyənləşdirilməsi yönündə xeyli iş görülür. Hərbi idarə çərçivəsində olan bu struktur fəaliyyətini yalnız təhlükəsizliyin hərbi aspektlərinə yönəldirdi. 1919-cu il aprelin 2-də Nazirlər Şurası sədrinin adına göndərdiyi məktubunda Səməd bəy Mehmandarov yazırdı (Məmməd Cəfərli. "Azərbaycan Demokratik Respublikasının milli təhlükəsizlik orqanları", Bakı-2004): "Hərbi əks-kəşfiyyatın başlıca vəzifəsi dövlət daxilində hərbi casuslarla mübarizədir. Bolşevizmlə mübarizə ümumdövlət işi olduğundan tək hərbi idarə onun öhdəsindən gələ bilməz...". Beləliklə, 1919-cu il aprelin 13-də dövlət hakimiyyətinin bütün strukturları Azərbaycan hökumətinin ixtiyarına keçdikdən sonra mərkəzləşdirilmiş kəşfiyyat və əks-kəşfiyyat haqqında məsələnin müzakirəsi reallaşdı. Nəhayət, 1919-cu il iyunun 9-da Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin qərarı ilə Vətənin müdafiəsi sahəsində fövqəladə səlahiyyətlərə malik xüsusi orqan - Dövlət Müdafiə Komitəsi yaradıldı. Respublikanın daxilində





və sərhədlərində vəziyyət daha da gərginləşdiyindən Dövlət Müdafiə Komitəsi 1919-cu il iyun ayının 11-də Azərbaycanda fövqəladə vəziyyət elan etdi və elə həmin günlərdə müvafiq qərarla dövlət sistemində ilk dəfə idarə tabeçiliyi olmayan xüsusi xidmət orqanını - Əksinqilabla Mübarizə Təşkilatını təsis etdi. Qısa müddət ərzində Bakıda təşkilatın yeddi rayon bölməsi yaradıldı. Yeni yaradılan bu struktura Məmməd Bağır Şıxzamanov rəhbər təyin edilir. Ancaq çox keçmir ki, paritet əsaslarla formalaşan Əksinqilabla Mübarizə Təşkilatı fəaliyyətsiz hala gəlir. Parlament 120 nəfərdən ibarət olsa da, de-fakto parlamentin iclaslarında üzvlərin hamısı müntəzəm iştirak etmirdi.

Hətta parlament yaradılandan sonra, 1919-cu ilin əvvəlində onun iclaslarına maksimum 79 nəfər qatılırdı. Parlamentdə Müsavat Partiyası, onunla müttəfiq olan bitərəf demokratlar qrupu, sağçı mövqedən çıxış edən, daha çox klerikal əhval-ruhiyyəli insanların, qrupların maraqlarını ifadə etməyə çalışan İttihad Partiyası təmsil olunmuşdu. Bunlardan əlavə, sosialist bloku çox böyük qüvvə idi. Bu bloka Sosial-Demokrat və Hümmət partiyalarının üzvləri daxil idi. 1919-cu ildə Əhrar Partiyası da ölkənin siyasi sisteminə qoşuldu. Əhrarçılar öz proqramlarında sosializm və liberalizm ideyalarını birləşdirməyə çalışırdılar. Milli azlıqlar isə Slavyan-Rus İttifaqı, Milli azlıqlar, Erməni və "Daşnaksütun" fraksiyalarında cəmləşmişdilər. Olduqca paradoksal bir vəziyyət idi: Azərbaycanın müstəqilliyini tanımayan daşnaklar ADR-in parlamentində fəaliyyət göstərirdi. Bu baxımdan, yeni yaradılan Əksinqilabla Mübarizə Təşkilatında təmsil olunmuş partiyaların nümayəndələri səmərəli işləmək əvəzinə, bir-birilərini pusmaqla, pozuculuqla məşğul idilər. Bu isə kəşfiyyatın və əks-kəşfiyyatın işini iflic vəziyyətə sal-

mışdı. Ona görə də strukturun paritet əsasında formalaşmasına etiraz edən Məmməd Bağır Şıxzamanov istefa verir. Məhz bu paritet sistemi əsasında gələcəkdə marşal rütbəsinə qədər boyüyən, sovet dövlətinin Stalin dönəminin əsas simalarından birinə çevrilən Lavrenti Beriya sol təmayüllü "Hümmət" siyasi təşkilatının görkəmli nümayəndələrindən biri - Mirzə Balanın təqdimatı ilə Azərbaycan Demokratik Respublikasının xüsusi xidmət orqanlarına işə götürülür. Məmməd Bağır Şıxzamanovun bu addımından sonra paritet əsaslı struktur formasından imtina edilir. Xüsusən də Türkiyənin müharibədə məğlubiyyəti ilə Azərbaycan xarici ölkələrin kəşfiyyat orqanlarının tuğyan etdiyi bir əraziyə çevrilmişdi. Kəşfiyyat işinin yeni səviyyədə təşkilinə ciddi ehtiyac vardı. İmperialist dairələr Osmanlı imperiyasının itkiləri ilə kifayətlənməyib, Parisdə konfrans (1919-1920-ci illər) çağırmışdılar. Onlar Türkiyəni parçalamaq, türk xalqını qula çevirmək, Azərbaycanı isə İtaliyaya vermək istəyirdilər. Təsadüfi deyil ki, o vaxt Azərbaycan nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşov ABŞ prezidenti Vilsonla görüşərək, ondan Azərbaycanın müstəqilliyini tanımasını xahiş etmişdi. Onun bu xahişinə Vilson belə cavab verir: "Düşünürsünüz ki, biz müharibəni cırtdan dövlətlər yaransın deyə aparmışıq?" Lakin müstəqilliyimizin son aylarında bolşevik işğalı təhlükəsindən əndişələnən ABŞ, eləcə də İngiltərə Azərbaycan Demokratik Respublikasını tanıyırlar. Amma bu, gecikmiş addım idi. Bu baxımdan milli maraqlara qulluq edə biləcək, kəşfiyyat məlumatlarını bu aspektdə toplayacaq peşəkar komandaya ciddi ehtiyac duyulurdu. Ona görə də Əksinqilabla Mübarizə Təşkilatının yeni rəhbəri Nağı Şıxzamanov çox ciddi kadr islahatları həyata keçirir, əsasən, peşəkarlardan ibarət komanda





formalaşdırır. Məhz bu zaman Beriyanın sədaqətinə tam inanan Nağı bəy ona daha məsul vəzifəni tapşırır. O, Əksinqilabla Mübarizə Təşkilatının məktubların yoxlanılması şöbəsinin rəisi təyin edilir. Əslində, Beriyaya çox ciddi və strateji bir sahə həvalə olunmuşdu. Ona görə ki, o dövrdə məktublaşma rabitənin ən başlıca növü idi. Beriyanın bu təyinatı gələcəkdə onu ittiham atəşinə tutanların əsas arqumentinə çevriləcəkdi. Məntiqlə "Hümmət"in Əksinqilabla Mübarizə Təşkilatındakı nümayəndəsi paritet prinsiplərə son qoyulandan sonra istefa verməli idi, lakin Beriya nəinki bu strukturda öz vəzifəsini itirmədi, əksinə, daha məsul vəzifəyə irəli çəkildi. Beriya sonralar, 1923-cü ildə tərcümeyi-halında ADR-in kəşfiyyatında olduğunu qeyd edir, amma oraya bolşeviklər tərəfindən, yuxarıda deyildiyi kimi, paritet əsaslarla göndərildiyini vurğulayır. Amma o, ikinci məqamı, Nağı bəy tərəfindən paritet əsaslara son qoyulandan sonra yenidən işə cəlb olunması faktını gizlədir.

Azərbaycanda milli hökumət devriləndən sonra, 1920-ci ildə Beriya hələ müstəqil olan Gürcüstana gedir. Bir müddət aktiv siyasi fəaliyyətdən kənarda qalan L.P.Beriya yenidən Bakıya qayıdır.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Nəriman Nərimanov milli kadrları məsul vəzifələrə yerləşdirməyə çalışırdı. Belə məsul vəzifələrdən biri də M.C.Bağırova qismət olur. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Mir Cəfər Bağırov Vilayət İnqilab Komitəsi sədrinin müavini və Hərbi İnqilab Şurasının müvəkkili kimi Qarabağa göndərilir. Qısa bir zamanda bütün əksinqilabi erməni-daşnak qüvvələri onun bilavasitə iştirakı ilə darmadağın edilir. 1920-ci ilin payızında Bağırov Bakıya qayıdır və Azərbaycan diviziyasının komissarı

təyin olunur. Sonra daha bir sıra yüksək hərbi-siyasi vəzifələrə irəli çəkilir. Onun ən böyük xidməti Azərbaycanda milli qoşun hissələri yaratmaq kimi vacib bir iş üzərində çalışması olur. M. C.Bağırov əksinqilabla mübarizə aparan Azərbaycan Fövqəladə Komissiyasına daxil olur və bir müddət sonra bu təşkilatın başına keçir. Mir Cəfər Bağırov FK-nın sədri təyin olunanda cəmi 25 yaşı vardı və həmin vəzifə ilə yanaşı, Xalq Daxili İşlər komissarı, Xalq Yollar Komissarlığının müvəkkili, Azərbaycan SSR Xalq Komissarları Soveti sədrinin müavini vəzifələrini də icra edirdi. Bu ərəfədə Bakıya qayıdan L.P.Beriya burada həbs olunur. O, məhz M.C.Bağırovun köməyi sayəsində həbsdən azad olunaraq əksinqilabla mübarizə aparan Azərbaycan Fövqəladə Komissiyasına işə götürülür. Bu hadisənin necə baş verdiyini 1956-ci ildə M.C.Bağırov ona qarşı qurulmuş məhkəmədə aşağıdakı şəkildə izah edir.

"Prokuror: - Səninlə Beriya arasında nə kimi münasibətlər formalaşmışdı?

Bağırov: - 1920-ci ildə mən ona böyük kömək göstərdim, həbsdən azad edərək Azərbynan ÇK-da (Fövqəladə Komissiyada) işə düzəltdim. Sonra o, vəzifə nərdivanı ilə get-gedə qalxaraq, məni də keçdi. O, mənə bir neçə dəfə çətin vəziyyətdən çıxmaqda kömək edib. Beriya lap yuxarıda, Moskvada fəaliyyətə başlayanda da məni yaddan çıxarmayıb.

Prokuror: - Beriyanın keçmişindən sizə nə məlumdur?

Bağırov: - Məndə onun Müsavat kəşfiyyatında xidmətinə aid sənədlər vardı.

Prokuror: - Siz o sənədləri harada saxlayırdınız? Ehtiyat etmirdiniz ki, Beriya o sənədləri oğurlatdıra bilər?





Bağırov: - Məndə o sənədlərin hamısının surətləri vardı və onları çox etibarlı yerdə gizlətmişdim".

Ancaq onun azadlığa çıxmasında Əhməd Bedin amili xüsusi önəm daşıdı. Əhməd Bedin Osmanlı ordusunun zabiti idi. Erməni Hamazapsın quldurlarının Qubaya hücumu zamanı yerli mülkədar Əli bəy Zizikskinin yaratdığı dəstədə ermənilərə qarşı vuruşurdu. Əli bəy Zizikski qoçaq oğlanları başına yığıb Qubanı qorumağa çalışırdı. Bunların sırasında M.C.Bağırov da vardı. Elə burada Bağırov Əhməd Bedinlə tanış olur. Azərbaycanda Sovet hökuməti qurulandan sonra Beriya Bakıda həbs olunur. Əhməd Bedin Bağırovdan onun həbsdən azad edilməyinə köməklik göstərməsini xahiş edir. Bağırov Əhməd Bedinin xətrini çox istədiyindən onun sözünü yerə salmır və Beriyanı həbsdən azad etdirir. Üstündən bir müddət keçəndən sonra Bağırov Beriyanı Fövqəladə Komissiyaya işə düzəldir. Əhməd Bedin isə az sonra Əhməd Triniç olur və uzun müddət "Azərbaycan" nəşriyyatının direktoru işləyir (Əhməd Triniçlə bağlı sonrakı bölümlərdə geniş məlumat verəcəyik - A.M.). 1921-ci ildə M.C.Bağırov əks-inqilabla mübarizə aparan Azərbaycan Fövqəladə Komissiyasının sədri təyin ediləndə L.P.Beriya komissiyanın sədr müavini vəzifəsinə yüksəlir. Bu andan etibarən Beriyanın vəzifə nərdivanı ilə qətiyyətlə yuxarıya qalxmasının startı verildi.

Şübhəsiz, Bağırovun Beriya barədə hədəfi tam yerinə düşmüşdü. Çünki, SSRİ Fövqəladə Komissiyasının kollegiya üzvü Mixail Kedrovun 1921-ci ilin yazında Bakıya səfərindən sonra hazırladığı hesabatı ilə tanış olduqda bu hədəf bizə aydın olacaqdır:

"…Təşkilati məsələlərdə güclü millətçilik özünü göstərir. Hətta partiya orqanlarında RSFRİ-nin bütün vətəndaşları yer-

li kadrlarla əvəzlənir… FK orqanlarına gəldikdə isə, buraya da milli vətənpərvərlik, tam müstəqilliyə canatma ruhu sirayət edib. FK orqanlarına düşmən münasibəti təkcə Azərbaycan müəssisələri tərəfindən deyil, həmçinin yerli FK tərəfindən də göstərilir" (A.A.Ovsiyenko. "Beriya" kitabından).

M.Kedrov hesabatında Bağırovu və Beriyanı Moskvanı təmin etməyən, milli təəssübkeşlikdən çıxış edən şəxslər kimi, həmçinin Azərbaycan FK-da (Fövqəladə Komissiya) apardıqları kadr siyasətinə görə ittiham edir:

"Bağırov və Beriya FK orqanlarından rusları və erməniləri sıxışdırıb çıxarır, yerli cinayətkarlara qəyyumluq göstərir, başqa millətlərin nümayəndələrini isə heç bir səbəb olmadan həbs etdirirlər" (A.A.Ovsiyenko. "Beriya" kitabından).

Zaman keçəcək, 1939-cu ilin mayında həbs olunan M.C. Kedrov bu "donosuna" görə SSRİ daxili işlər komissarı L.P.Beriya qarşısında cavab verməli olacaq. Bu həbsə qədər isə onun erməni əsilli dayısı Artuzov 1937-ci ildə artıq güllələnmişdi.

1922-ci ildə L.P.Beriya Gürcüstan FK-nın məxfi-operativ hissəsinin rəisi təyin edilir. 1922-ci ilin sonundan Fövqəladə Komissiya bütün ittifaq respublikalarında Baş Siyasi İdarə adlanır. Çox keçmir ki, L.P.Beriya Zaqafqaziya Siyasi İdarəsinin sədr müavini vəzifəsinə gətirilir. O dövrdə Zaqafqaziya Siyasi İdarəsinin sədri Stalinin qaynı S.F.Redens idi. Sözsüz ki, Beriyanın vəzifə pilləsində tez bir vaxtda irəliləməsi onun şəxsi çevikliyindən, rəqiblərini zərərsizləşdirmək qabiliyyətindən, həmçinin Acariyadakı üsyanın yatırılmasında xidmətlərinə görə verilən qiymət idi.

Baş verən bütün proseslər əsasən Moskvadan idarə olunurdu. Vətəndaş müharibəsindən sonra, Leninin xəstəliyindən istifadə edənlərin Kremldə hakimiyyət uğrunda qanlı mübarizəsi başlamışdı. Bu mübarizənin başında əvvəl Stalin – Orconikidze, Rıkov – Buxarin qruplaşması Trotski – Kamenev – Zinovyev üçlüyü ilə üz-üzə durmuşdu. Qarşıdurma regionlarda da hiss olunurdu. Hər qruplaşmanın ətrafında müəyyən siyasi qüvvə cəmləşmişdi. 1917-ci il sentyabrın 23-də Petroqrad İnqilabı Şurasının sədri seçilmiş Trotski oktyabr inqilabının həyata keçirilməsində əhəmiyyətli rol oynamışdı. Qış sarayının alınmasını, yeni dövlətin qurulmasını Trotski bəyan edir. O, bu hərbi üsyanın başında dururdu. Oktyabr inqilabından sonra Trotski xarici işlər komissarı postunu tutur. Sonralar Xalq Yol Komissarı və Xalq Hərbi Dənizçilər Komissarı təyin olunur. Leninlə Trotski arasında yaranan ziddiyət Trotskinin hərbi işlərə rəhbərlik etdiyi dövrə təsadüf edir. Lenin Qərbi Ukraynanı almanlara verməklə Antanta birliyindən çıxaraq, Veymar hökuməti ilə sülh sazişi bağlamaq niyyətini Trotskiyə bildirir. Bu danışıqların aparılmasını Trotskiyə tapşırır. Amma Trotski danışıqlarda fərqli mövqe tutur, Almaniya nümayəndə heyətinə Rusiyanın müharibəni davam etdirəcəyini bəyan edir. Lenin Trotskinin bu mövqeyindən xəbər tutan kimi onu danışıqlardan kənarlaşdırır. Buna baxmayaraq, 1918-ci ildən 1925-ci ilin yanvar ayının 26-na kimi Trotski İnqilabi Hərbi Şuraya və Xalq Müdafiə Komissarlığına başçılıq edir. 1923-cü ildə artıq aydın oldu ki, Lenin ölümcül xəstədir və yaranmış vəziyyət partiya liderləri arasında hakimiyyət uğrunda mübarizəni kəskinləşdirir. Stalin Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının (ÜK(b)P) baş katibi kimi, bütün aparata nəzarət edir və partiyadaxili diktaturanı formalaşdırırdı. 1924-cü il 13-cü partiya konfransı "Partiyada burjua meylli üzvlərin və diskussiyaların nəticəsi" barədə qətnamə qəbul etdi. Bu qət-

namədə Trotski və onun tərəfdarları ittiham olunurdu. Trotski məğlubiyyətlə barışa bilmirdi. Kamenev və Zinovyev bu mübarizədə Trotskinin məğlub olduğunu görəndə Stalinin tərəfinə keçdilər. Sözsüz ki, Kamenev və Zinovyevin büruzə vermədiyi, qəlblərində saxladıqları gizli məqsədləri Stalinə bəlli idi. Lakin bununla belə bu şəxslər Stalinə hələ lazım idi. 1924-cü ildə Trotskinin "Oktyabrın dərsləri" və "Lenin haqqında" yazdığı kitabları çapdan çıxdı. Hər iki kitab Stalin, Kamenev və Zinovyevə qarşı yönəlmişdi. Sonradan Kamenev "Trotskizm və ya Leninizm" əsərində Trotskini ifşa edirdi. Tərəflər arasında qəddar və kompromissiz mübarizə gedirdi. Onlar biri-birilərini gözdən salmaq üçün hər vasitəyə əl atırdılar. Leninlə Trotski arasında baş verən fikir ayrılığı və hətta gənc Trotskinin inqilabdan əvvəl Lenin haqqında söylədiyi təhqiramiz sözləri belə Stalin tərəfdarları mətbuatda dərc edirdilər. Bu da sonralar Trotskinin partiyada kommunistlər arasında gözdən düşməsinə səbəb oldu. Onun siyasi karyerasında geridönmə prosesi başladı. Artıq bundan sonra Stalin üçün Kamenev və Zinovyevlə hesablaşma vaxtı çatmışdı. 1927-ci ildə Kamenev və Zinovyev Trotski ilə eyni fikirə gələrək, partiyadaxili demokratiyanın artırılması məsələsini gündəmə gətirirlər. Stalinin tələsinə düşən bu şəxslər özləri də başa düşmədən son nəticədə Trotskinin kommunist partiyasından çıxarılmasında mühüm rol oynadılar. 1928-ci ildə Trotskini Moskvadan Alma-Ataya sürgün etdilər. 1929-cu ildə isə onun xaricə sürgün olunmasına qərar verilir. 1929-cu ildə Türkiyə ilə razılaşmaya əsasən Trotski Odessa şəhərindən "İliç" paroxodunda Mərmərə dənizindəki Prinkipo adasına aparılır.

O dövrdə Azərbaycanda yerli kadrlar olduqca az idi. Həmçinin Azərbaycanın o dövrə qədər Nərimanov Nərimanov kimi





Kremldə məsul vəzifədə çalışan ikinci oğlu olmamışdı. 1923-cü ildə Kremldə Leninin xəstəliyi ilə əlaqədar hakimiyyət uğrunda mübarizə zamanı N.Nərimanovun V.İ.Leninə yazdığı məktubların birində deyilir:

"İ.V.Stalin tərəfindən edilən haqsızlığa və ədalətsizliyə mən öz etirazımı bildirirəm. İş o yerə çatıb ki, Stalin Azərbaycanlı kadrlara inanmır. Sizə yox, bəs kimə müraciət edim, yoldaş Lenin? Necə olur ki, öz əsərlərində xalqlar dostluğunu, beynəlmiləlçiliyi təbliğ edən bir adam millətçi olur, sabiq mouzeristlər beynəlmiləlçi? Çox qəribədir".

İosif Stalin və Sergo Orconikidze ölkənin sükanını ələ almaqda onlara mane olanları zərərsizləşdirirdilər. Bu zərərsizləşdirmə planında N.Nərimanov üçün də yer ayrılmışdı. 1924-cü ilin yanvar ayında Lenin vəfat etdikdən sonra bu qruplaşma tənha qalmış N.Nərimanovu aradan götürmək üçün onun fiziki cəhətdən məhv edilməsi planını cızdılar. Nəriman Nərimanovla Mircəfər Bağırov arasında mehriban münasibətlərin olması barədə çoxlu faktlar mövcuddur. M.C.Bağırov N.Nərimanovu həmişə "Nəriman əmi" deyə çağırarmış. M.C.Bağırovun inqilabdan sonra məsul vəzifələrdə işləməyində N.Nərimanovun köməyi olmuşdur.

1925-ci ildə Nəriman həkimin ölümü olduqca müəmmalı idi. Orconikidze Bakıdan gələn "yarpaq dolması" bəhanəsi ilə N.Nərimanova qonaqlıq verirdi. Nahardan sonra kəskin dispersiya və diarreya diaqnozu ilə Nəriman həkim xəstəxanaya yerləşdirilir. Lakin ağır zəhərlənmədən N.Nərimanov dünyasını dəyişir. O, can üstündə ikən tez-tez bu sözləri təkrar edirmiş: "Məni Serqo zəhərlədi".

İllər ötür, Orconikidze belə bir stereotip formalaşdırır: "narimanovşina". Bununla o, N.Nərimanovu Sovet cəmiyəti üçün yad ünsür hesab edirdi. 1927-ci ildə AK(b)P MK-nın I katibi Levon Mirzoyanın və II katibi Əliheydər Qarayevin təhriki ilə ÜK(b)P-nın Mərkəzi Nəzarət Komissiyasının rəhbəri Serqo Orconikidze M.C.Bağırovu "narimanovşina"da günahlandırıb, Azərbaycan Dövlət Siyasi İdarəsinin sədri vəzifəsindən azad etdirmişdi. Burada Nəriman Nərimanovun Əliheydər Qarayev haqqında dediklərini xatırlatmaq yerinə düşər:

"Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir. Mənim zərrə qədər də şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırır. Hansı nəticələrin olacağını demək çətindir, bunun bütün məsuliyyəti Serqo və Stalinin üzərinə düşəcəkdir. Maraqlı odur ki, bu şəxslər elə fikirləşir ki, türklər o qədər axmaqdırlar ki, bütün bunları başa düşmürlər. Onlar həmişə Əliheydər Qarayevi irəli çəkirlər. Bu adamı isə bütün Azərbaycan hər cəhətdən satqın kimi tanıyır".

(N.Nərimanov: "Ucqarlarda inqilabımızın tarixinə dair" (İ.V.Stalinə məktub) "Azərbaycan Dövlət Nəşriyyatı" Poliqrafiya Birliyi, Bakı, səh.60, 1992-ci il).

Həyatı gərgin mübarizələr içərisində keçən bu şəxs haqqında birmənalı fikir söyləmək çətindir. Onun xarakterinin, ömrünün, yaradıcılığının ayrı-ayrı cəhətlərinin aşkarlanıb ictimaiyyətə çatdırılmasında tədqiqatçılarımızın son dövrlər mühüm xidmətləri olub. Lakin təəssüflə qeyd etməliyik ki, hələ də Nərimanovun dövrünün şərtlərindən irəli gələn kimliyini tam dəqiq araşdıra bilməmişik. Onun bədii, siyasi yaradıcılığı fonunda daxili aləmindəki tərəddüdləri, ömrünün acı, faciəli sonluğu





bizi bu şəxsiyyətin xarakteri haqqında dərindən düşünməyə və onun bu vaxtacan məlum olmayan cəhətlərinə həqiqi qiymət verməyə vadar edir.

Nərimanovun çoxşaxəli fəaliyyətinə diqqət yetirdikdə maraqlı sual meydana çıxır: "Niyə Nərimanov Azərbaycanın, həmçinin digər türk cümhuriyyətlərinin sovet imperiyasının tərkibinə daxil olmasının tərəfdarı kimi çıxış etdi?".

O dövrdə məcrası sürətlə dəyişən hadisələr Nərimanovun siyasi fəaliyyətinə güclü təsir göstərirdi: "Əgər həmin dövrdə geopolitik vəziyyət dəyişməsəydi, bəlkə də Azərbaycan Demokratik Cümhuriyyətinin yaradılması da sual altında qalacaqdı. 1920-ci ilin aprelində XI Qızıl ordunun başında türk övladı Nəriman Nərimanov Bakıya gəlib, Azərbaycan Demokratik Cümhuriyyətinin süqutunda və hakimiyyətin bolşeviklərə, Moskvaya təslim edilməsində iştirak etməzdi. Burada Nərimanovun rolundan danışarkən, o dövrün tarixi şəraiti, reallığı nəzərə alınmalıdır. Nərimanov bəlkə də taktiki cəhətdən düz fikirləşirdi, lakin strateji səhvi məhz onda idi ki, milli dövlətçiliyimizin mövcudluğunu sovet Rusiyasının tərkibində görürdü. Hər halda, buna tərəddüd etmədən Nərimanovun faciəsi demək olar. Amma Nərimanov millətimizin düşməni olmayıb, o, bu faciəvi səhvini artıq İnqilabi Şuranın sədri olduqdan sonra rastlaşdığı təklənmə məqamında dərk edir. Bir də onda ayıldı ki, artıq ətrafında onu anlayacaq bir nəfər belə yoxdur. Hadisələrin gedişatı Əliheydər Qarayevlə Nəriman Nərimanovun münasibətlərinin gərginləşməsi fonunda daha da ziddiyyətli xarakter aldı. Bu iki türk kökənli şəxsin münasibətlərini ətrafdakılar mümkün qədər daha da pozmağa çalışırdı. Bu zaman Nərimanov, şübhəsiz, buraxdığı səhvi aydın dərk edirdi".

Şübhə yoxdur ki, Nərimanov müəyyən dövrdə Moskvanı Ankaraya dəstəkçi, Atatürkə yardımçı olmağa inandıra bilib. Hesab edirik ki, Nərimanovun bu xidmətini nəzərdən qaçırmaq olmaz.

Lakin onun müəyyən addımlarda qətiyyətsizliyini müşahidə etmək mümkündür. Məsələn, Zəngəzurun taleyinin həllində bəlkə də daha ardıcıl iradə göstərsəydi, bu məsələdə üstünlük qazana bilərdi. Çünki Nərimanov o dövrdə bolşevizmin üzdə olan nüfuzlu fiqurlarından biri idi. Nərimanovun müəyyən məqamlarda qətiyyətsizliyi Kremldə baş verən intriqalar zamanı güc nisbətini düzgün qiymətləndirməyə imkan vermirdi. O, Kremldə aparılan oyunların arxasında hansı güclü fiqurların olduğunu sonadək aydınlaşdıra və dərk edə bilmədi. Kənara çəkildi və bu zaman onun haradasa lazımsızlığı meydana çıxdı. Sanki Nərimanovu Kremlə aparmaqla onun əl-qolunu bağladılar. Çox təəssüf ki, o, anadangəlmə siyasətçi deyildi, praqmatizmdən çox romantizmə meylli idi. Burada humanizmə söykənən həkimlik sənətinin də müəyyən təsiri vardı. O, özünü bütövlüklə axına qarşı qoymuşdu. Faktiki 1922-ci ildən etibarən dövlətin rəhbəri Stalin idi. Məhz o dövrdən başlayaraq Leninin şüuru özündə deyildi: Nərimanov isə Leninə Stalindən şikayət məktubu yazırdı. Bu da onun buraxdığı növbəti səhv idi. Çünki, həmin dövrdə Kremldə qafqazlıların - Stalinin, Orconikidzenin, Mikoyanın və başqalarının yəhudi mənşəli kommunistlərə qarşı mübarizəsi başlamışdı.

Nərimanov zahirən qafqazlıların bu dairəsinə daxil olsa da, fəqət, bu cəbhədə qərib idi. Artıq müəyyən dövrdən sonra Nərimanovun bu qrupa gərəksizliyi meydana çıxmışdı. Məlumdur ki, siyasi intriqalarda mütləq müəyyən bir mövqedə dayanmaq lazımdır, Nərimanov isə bu intriqalarda demək olar ki, iştirak etmirdi...





Hər halda həmin dövrdə onun dərin siyasi, psixoloji, mənəvi sarsıntılar keçirdiyini təxmin etmək çətin deyil. O, düşdüyü durumun çıxılmazlığını gözəl anlayırdı. Fikrimizcə, Nəriman Nərimanovun ən böyük səhvi Sovetlər diktaturasının sadəcə kağız üzərində olan sosial-ədalət, milli bərabərlik, azadlıq kimi saxta ideoloji prinsiplərinə ürəkdən inanmasıydı. Düzdür, o, bu inamında axıra kimi peşman olmamışdı, yenə də sosializm ideyalarına sadiq idi...

Qarayev-Mirzoyan cütlüyünün canfəşanlığı ilə bütün vəzifələri əlindən alınmış M.C.Bağırov Azərbaycanı tərk edib Tiflisə, dostu Beriyaya pənah aparır. M.C.Bağırov L.P.Beriyanın köməyilə Zaqfederasiya Su Təsərrüfatı Komissarlığına işə düzəlir.

1927-ci ildə Azərbaycan KP Siyasi İdarəsinin rəhbəri vəzifəsindən kənarlaşdırılandan az müddət sonra M.C.Bağırov Zaqafqaziya su təsərrüfatı komissarı olur. M.C.Bağırovun Bakıdan uzaqlaşdırılmasının səbəblərini, Tiflisdəki vəziyyətini onun Moskvada partiya kurslarında olan Ruhulla Axundova göndərdiyi məktubdan aydın görmək olar (bu məktublar Siyasi partiyalar, ictimai hərəkatlar mərkəzi Dövlət Arxivində saxlanılır). Məktub 1929-cu il mayın 6-da Tiflis şəhərinin Piroqov 8 ünvanından Ruhulla Axundova göndərilib. Məktub "Əzizim, Ruhulla" sözləri ilə başlayır. M.C.Bağırov məktubda əvvəlcə Ruhulla Axundovun səhhəti ilə bağlı narahat olduğunu və Bakını tərk edən zaman onunla sağollaşmadığına görə özünü bağışlaya bilmədiyini söyləyir. O, məktubda yazır: "Serqo Orconikidzenin qəti göstərişinə əsasən, Bakını tərk etmək məcburiyyətində

qaldım. Elə başa düşürdüm ki, burda (Tiflisdə) yeni vəzifəmi normal şəraitdə icra etməyə başlayacam. Amma çox təəssüf ki, əksinə, yüz dəfə ağır şəraitə düşdüm, əvvəlcədən mənə qarşı hazırlanmış "tələlərlə" üzləşdim. Elə bil bu vəhşiləşmiş insanlar məni ilk işıq dirəyindən asmağa hazır dayanmışdılar. Mənə qarşı belə münasibətin əsasını isə Azərbaycan rəhbərliyinin (L.Mirzoyan-Ə.Qarayev-Novruzov birliyi - A.M.) barəmdə mərkəzə ötürdükləri yalan məlumatlar formalaşdırır. Amma bu rəhbərlər başa düşmürdülər ki, respublikada törətdikləri əməlləri ört-basdır edə bilməyəcəklər. Məsələn: Azərbaycan Siyasi İdarəsinin əməkdaşları Lənkəranda sərhəddi qeyri-leqal keçmək istəyən mollanı vəhşicəsinə boğub öldürüblər. Bu hadisədən hiddətlənən kənd əhalisi mollanın meyitini geri almaq istəyəndə, Siyasi İdarə əməkdaşları narazı insanlarla amansız davranıblar. Bu da son nəticədə yüzlərlə günahsız kəndlinin həbsinə gətirib çıxarmışdır. Kənd əhalisi məcburiyyət qarşısında qalıb, Bakıya öz nümayəndələrini göndərmək qərarına gəlir. Artıq kəndlilərin narazılığı üsyana keçən vaxt Bakıdan dövlət komissiyasının üzvləri Lənkərana çatır". Məktubda M.C.Bağırov bu cür misalların saysız-hesabsız olduğunu Ruhulla Axundova bildirir. Sonra qeyd edir: "Yuxarıda qeyd etdiyim rəhbərlərin özbaşınalığı, törətdikləri cinayət əməlləri barədə bildiyimə görə məni tamam sıradan çıxartmaq və ya fiziki cəhətdən məhv etmək istəyirlər. Lakin, hələ ki, fiziki cəhətdən məni sıradan çıxartmaq onlara müyəssər olmamışdır. Onlar saxta sənədlər quraşdırıb mənə qarşı ittiham irəli sürməyə cəhd edirlər. Fəqət Zaqafqaziya partiya təşkilatlarının məni müdafiə etdiklərini görüb, yuxarıda göstərdiyim qondarma ittihamları söyləməyə ehtiyat edirlər. Bununla yanaşı, özümə söz verdim ki, danışmayım. Çünki, mənim çıxışlarım nəinki Azərbaycan rəhbərliyinin, həmçinin burada (Tiflisdə - A.M.) yoldaş Oroxelaşvilinin də xoşuna gəlmir. Bununla belə bəzi yoldaşlar mənə Azərbaycanda bir qrup rəhbərə qarşı nə vaxt radikal qərarın veriləcəyi barədə sualla müraciət edirlər". Sonra M.C.Bağırov Ruhulla Axundova özü və ailəsi barədə məlumat verir. O, yazır: "Görəndə ki, mənə qarşı ədalətli münasibətə ümid etməyə dəyməz, özümü sakitləşdirmək üçün gündəlik 200, bəzən 250 səhifə kitab oxuyuram. Məsələn, "Leninə görə aqrar suallar" kitabının IX cildini, "Rusiyada inkişaf etmiş kapitalizmin həqiqətləri"ni, "Partiya qurultaylarının tarixi"ni, "Lenin kooperasiya haqqında" məqalə və çıxışları, "Kapital" əsərini və sairə. Gürcü dostlarım da (Beriya nəzərdə tutulur – A.M.) mənə köməkliyi əsirgəmirlər. Oğlum Cahangirdən (Volodya) məktub almışam. Məktubunda Ömər Xəyyamın, Mirzə Şəfi Vazehin əsərlərini oxuduğunu deyir. Sentyabrda Qubadan Bakıya qayıdacağını söyləyir. Deyəsən, bir az xəstələnib, ondan yaman nigaranam. Ancaq bacılarımın gözləri ürəyimin parasının (oğlu Cahangiri nəzərdə tutur – A.M.) üstündədir. Ona görə də arxayınam. Səndən xahişim budur ki, məndən incimə, hələlik vəziyyətim pis deyil. Həyat yoldaşım və oğlumun adından sizin ailəyə salam çatdırıram".

Məktub "Öpürəm səni. Mircəfər" sözləri ilə bitir.

Lakin sonralar L.P. Beriyanın Stalinə göndərdiyi məktubla M.C.Bağırov 1929-cu ildə yenidən Azərbaycan Dövlət Siyasi İdarəsinin sədri təyin edildi. Artıq Beriya–Bağırov birliyi Orconikidze–Qarayev–Mirzoyan qruplaşması ilə üz-üzə gəlmişdi. 1931-ci ilin noyabrında L.P.Beriya Gürcüstan Kommunist Partiyasının I katibi və ÜK(b)P-nın Zaqfederasiya komitəsinin II katibi seçilir. Bundan sonra M.C.Bağırov öz mübarizəsini

vəzifədə qalmaq naminə hər şeyi satmağa hazır olan kütbeyin kommunistlərə qarşı deyil, bu marionetkaları idarə edən, onların başında duran Serqo Orconikidzeyə tərəf yönəldir. S.Orconikidzeni zərərsizləşdirmə planını Beriya ilə bərabər hazırlayırlar.

N.S.Xruşşov xatirələrində yazır:

"Mənim Beriya ilə ilk tanışlığım 1932-ci ildə baş vermişdir. O vaxt mən Moskva Partiya Komitəsinin II katibi vəzifəsində işləyirdim. Beriyanın mənimlə görüşünün səbəbi kadr məsələsi idi. O, mənim yanıma Bağırovla birlikdə gəldi. Bağırov Bakının partiya xadimlərindən biri idi. O vaxt Bağırovla Beriya Marksizm-Leninizm kurslarında təhsil alırdılar. Aramızdakı söhbətin məğzi Frunze rayon Partiya Komitəsinin katibi, erməni yoldaşımız Ruben Mirzoyan barədə idi. Sözsüz ki, o vaxt kadr məsələsini mən həll etmirdim. Ona görə də Beriyanın Azərbaycan K(b)P MK-nın I katibi vəzifəsinə Bağırovu təyin etmək barədə xahişini yerinə yetirə bilməzdim. Sonradan mənə məlum oldu ki, bu vəzifəyə Rubenin namizədliyini Serqo Orconikidze verib".

Həqiqətən də Ruben bir müddət Azərbaycan K(b)P MK-nın I katibi vəzifəsində işləyir. Buradan aydın olur ki, bu erməni əsilli partiya funksionerinin vəzifəyə təyin olunmasında canfəşanlıq edən Serqo Orconikidze imiş. Amma çox keçmir ki, Bağırov-Beriya birliyi Orconikidzenin adamı olan Rubeni vəzifədən kənarlaşdırmağa nail olur.

M.C.Bağırov Moskvada Marksizm-Leninizm kurslarında təhsilini başa vurduqdan sonra Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsində əvvəl müfəttiş, bir müddət sonra isə Azərbaycan Xalq Komissarı vəzifəsinə yüksəlir.





Sonralar M.C.Bağırov İ.V.Stalinə göndərdiyi məktubunda yazırdı: "Əziz İosif Vissarionoviç! Sizə bildirmək istəyirəm ki, Azərbaycanda Sizin apardığınız siyasi kursa qarşı fəaliyyətə Moskvadan Serqo Orconikidzenin başçılığı altında mərkəz rəhbərlik edir". 1956-ci ildə Bağırovun məhkəməsində Xruşşovun əlaltısı olan SSRİ-nin baş prokuroru Rudenko bu məktubu oxuyur və Bağırov belə bir məktubun mövcudluğunu inkar etmir.

Beləliklə, 1933-cü ildə M.C.Bağırov Azərbaycan K(b)P MK-nın birinci katibi seçilir. Aşağıdakı istintaq materialından M.C.Bağırovun hakimiyyətə gəlməsində dostu L.P.Beriyanın növbəti dəstəyinin bir daha şahidi oluruq.

**РГАСПИ-(Российский Государственный Архив Социально-Политической Истории).**

RSSTDA- (Rusiyanın Sosial-Siyasi Tarixə dair Dövlət Arxivi – A.M.). F. 17. Siy. 171. İş. 469. səh.43-53 *(ixtisarla)*

İstintaq protokolu

1953-cü il sentyabr ayının 29-u SSRİ baş prokuroru, həqiqi dövlət ədliyyə müşaviri Rudenko məhkum olunan Beriya Lavrenti Pavloviçi dindirdi.

İstintaq saat 15:00-da başladı.

SUAL: - Siz Bağırovu nə vaxtdan tanıyırdınız?

CAVAB: - Bağırovu Azəbaycan FK-da işlədyim vaxtdan tanıyıram, təxminən 1921-ci ilin aprelindən. O vaxt o, Azərbaycanın FK-nın sədri, mən isə gizli-operativ hissənin müdiri, eyni zamanda onun müavini idim.

SUAL: - Bağırovla münasibətiniz necə idi?

CAVAB: - Zənnimcə, Bağırovla münasibətimiz yaxşı idi. Bağırovu partiyaya ən sədaqətli bir insan kimi tanıyırdım. Hərdən bir-birimizin evində olurduq.

SUAL: - Sizə bu il avqustun 18-də Beriya N.T-nin verdiyi ifadə oxunur:

"...Beriya Bağırovla dostluq edirdi. Axırıncını 1922-ci ildən tanıyıram, hələ Bakıdan. Bağırov o vaxt FK-da işləyirdi, Beriya onun tabeliyində idi. Sonralar Bağırov Tiflisə qələndə bizim evdə qalardı. Moskvaya təzə köçdüyümüz vaxtlar bizdə qalırdı. Mən Bakıya qələndə Bağırovun evində Beriya ilə birgə, ya da tək qalırdım. Bu, müharibənin qurtaran vaxtları idi..."

SUAL: - Bu, duzdur?

CAVAB: - Bəli, duzdur.

SUAL: - Siz təsdiq edirsinizmi ki, Bağırov sizin təqdimatınızla Azərbaycan K(b)P MK-nın katibi təyin edildi?

CAVAB: - Bəli, Bağırovun namızədliyini mən irəli sürdüm. Onda o, Azərbaycan Xalq Komissarları Sovetinin sədri idi. Bağırovun Azərbaycan MK-nın katibi olacağını MK-da da bilirdilər.

SUAL: - Sizin Bağırovla münasibətiniz barədə Milşteynın ifadəsini səsləndiririk:

"...Bağırovla Beriya FK orqanlarında işə birgə başlamışdılar. 1920-ci ildən 1922-ci ilə kimi, yəni, Gürcüstan FK-ya keçənə qədər Beriya onun müavini olub. Birgə iş prosesində, eləcə də son günlərə qədər Beriyanın Bağırovla ən yaxın və isti münasibətləri olub. Bağırov daim Beriya ilə ünsiyətdə idi. Axırıncı Tiflisdə, daha sonra Moskvada olanda da. Beriya açıq şəkildə Bağırovu himayə edirdi. O dövrdə Beriya Zaqafqaziya Vilayət KP-nin katibi işləyirdi. Sonralar isə SSRİ-nin daxili işlər naziri və SSRİ Nazirlər Soveti sədrinin müavini oldu. SSRİ Nazirlər Sovetində və Sov.İKP MK-da öz həllini gözləyən bütün məsələlərlə bağlı Bağırov qabaqcadan Beriya ilə məsləhətləşir və ondan dəstək alırdı. Hesab edirəm ki, Bağırovun Beriya tərəfindən himayə edilməsi və dəstəklənməsi heç də təsadüfi deyildi. Şübhəsiz, Bağırov Beriyanın Azərbaycandakı bütün fəaliyyətindən, o cümlədən, ona qarşı kompromat materiallardan da xəbərdar idi. Beriya Bağırovu tam dəstəkləyirdi və axırda onun rəqiblərini işdən çıxartdı, onları repressiya etdi. Bağırovu Azərbaycan KP MK-nın katibi vəzifəsinə irəli çəkməyə nail oldu".

SUAL: - Bunlar duzdur?

CAVAB: - Milşteyn öz ifadəsində birtərəfli olub, məsələləri yanlış göstərib. Bağırov birbaşa hökumətə daxil idi, bəzi məsələlərdə birbaşa hökumətin başçısına çıxa bilirdi.

Bağırovla münasbətlərimə gəldikdə isə, qeyd etdim ki, mənim Bağırovla münasibətlərim yaxşı idi. Hərdən bəzən pisləşirdi, amma mənimlə razılaşmayanda məcbur edirdim ki, göstərişlərimi yerinə yetirsin. Mən heç vaxt Bağırovdan asılı olmamışam.

SUAL: - Siz təsdiq edirsinizmi ki, Bağırovun vasitəçiliyi ilə Azərbaycan Dövlət Arxivindən bəzi sənəd və materialları götürə bilmişiniz? Onları əldə etmək uçun Bakıya Merkulovu göndərmisiniz?

CAVAB: - Mən bilmirəm Merkulov kömək uçun Bağırova muraciət edib, ya yox... Merkulov mənə bu barədə heç nə deməyib. Merkulov 1920-ci ildə Azərbaycan KP-nin qərarı ilə mənə bəraət verilməsinə dair sənədləri əldə etməkdən ötrü Bakıya getmişdi. Mən fəaliyyətimə kölgə sala biləcək sənədləri gizlətməmişəm, onları arxivdən çıxartmağa cəhd göstərməmişəm.

SUAL: - Amma Virapın məktubundan göründüyü kimi, siz partiyaya 1917-ci ildə qəbul olunmamısız. 1919-cu ilədək ona ancaq rəğbət bəsləmisiniz. Bunu MK öz tərəfindən gizlədib?

CAVAB: - Bu məktub başqa arxiv sənədləri ilə Merkulovda idi. Virap mənim partiya stajımı bilmirdi, ona görə belə yazıb.

SUAL: - Merkulov 1953-cü il iyulun 21-də dinidirmədə göstərib ki, o, bu sənədləri arxivdən Bağırovun koməyilə götürüb. Bağırov sənədlərin Merkulova verilməsi uçun qanunsuz sərəncam imzalamışdı. Siz bunu təsdiq edirsiniz?

CAVAB: - Əgər Merkulov elə deyibsə, deməli, elə də olub.

SUAL: - Təsdiq edirsinizmi ki, hələ 1921-ci ildə Azərbaycan FK kommunist özəyin iclasında Mərkəzi Komissiyanın iştirakı ilə yoxlama keçirmiş, Azərbaycan KP MK-nın şəxsi heyətində təmizlənmə məsələsinə baxılmışdır. Onda Bağırov sızı xilas edib. Axı sizi brilyant üzükləri mənimsəməkdə, qadınlara qarşı əxlaqsız hərəkətlərinizə görə ittiham edirdilər.

CAVAB: - O vaxt Azərbaycan FK kommunist özəyində danışılanlar dedi-qodu idi, məni əsassız ittiham edirdilər. Bu, Şahbazovun və ailəsinin mənə qarşı intriqası idi. Onda Şahbazov MK-nın inzibati idarəsinin rəisi idi.

SUAL: - Nə uçun siz və Bağırov təmizlənmə dövründə, 1921-ci ildə Müsavatın əks-kəşfiyyatındakı xidmətinizi qizlətmisiniz?

CAVAB: - Mən heç nəyi gizlətməmişəm, bu məsələyə Azərbaycan KP MK-da hələ 1920-ci ildə baxılıb.

SUAL: - Sizə Azərbaycan FK kommunist özəyində keçirilmiş iclasda üzə çıxarılan, fondda saxlanmış 10 №-li, iş 5/4, v. 39, sv.1 opis 31 sənədi təqdim edilib. Bunlardan aydın görünür





ki, siz və Bağırov Müsavatın əks-kəşfiyyatındakı satqınlıq fəaliyyətinizi gizlətmisiniz. Bu barədə ifadə verə bilərsiniz?

CAVAB: - Mən təsdiq edirəm ki, Azərbaycan FK-nın kommunist özəyində keçirilmiş iclasın arxivdə saxlanılan protokolunun surəti mənə təqdim edilib. O sənəddə mərkəzi komissiyanın iştirakı ilə yoxlama və Azərbaycan KP-nın şəxsi heyətində təmizlənmə barədə yazılıb. Məktubda mənim Müsavatın əks-kəşfiyyatında xidmətim barədə heç bir qeyd yoxdur. Bu məsələ nə üçün qeyd olunmayb, mənə bəlli deyil. Bir daha təsdiq edirəm ki, mən bunu qizlətməmişəm, həm də ki, bu məsələyə Azərbaycan KP MK-da baxılıb.

SUAL: - Siz Azərbaycan Xalq Daxili İşlər Komissarlığında idarə rəisinin müavini işləmiş Osvald Yanoviç Nodevi tanıyırdınız?

CAVAB: - Hansısa Nodevi xatırlayıram. Bəli, o, Azərbaycan Xalq Daxili İşlər Komissarlığında işləyirdi. Moskvadan göndərilmışdi.

SUAL: - 1936-cı ildə Bagırov Nodevi nəyə görə işdən çıxartdı?

CAVAB: - Mən bunu bilmirəm.

Hakim: - Sizə Bagırovun 26 dekabr 1936-cı ildə Azərbaycan KP bürosındakı çıxışının stenoqram mətnindən bir hissə təqdim olunur. Bağırov orada Nodevi ittiham edərək deyir:

“...Əksinə, yoldaş Beriya son 5-6 ildə Azərbaycanda bütün partiya özəklərinin təşkilatlanması üçün bolşevik inadkarlığı ilə mübarizə aparıb. Siz isə burada boşbogazlıq edirsiniz. Biz bununla heç cur barışa bimərik. Mən elə fikirləşirəm ki, Nodevin Xalq Daxili İşlər Komissarlığından çıxarılması məsələsini qal-

dırmaq lazımdı. Ona partiya adından axırıncı xəbərdarlıqla şiddətli töhmət verilməlidir…"

SUAL: - Siz bu barədə nə deyə bilərsiniz?

CAVAB: - Bunu mən birinci dəfədir eşidirəm.

Hakim: - Yejovun adına vurulan teleqram oxunur:

"...Yoldaş Lavrenti Beriyanın ünvanına söylənən böhtan xarakterli, antipartiya söhbətləri yolverilməzdir. Azərbaycan K(b) P MK-nın bürosu qərara gəldi ki, Azərbaycan XDİK-də rəis müavini işləyən Nodev Osvald Yanoviçə töhmət elan edilsin. Qərara alınsın və Sizdən xahiş olunsun ki, onu tutduğu vəzifədən azad edəsiniz. Xahiş edirik, Nodevin işdən çıxarılmasını rəsmiləşdirib, onu SSRİ XDİK-nın sərəncamına göndərəsiniz".

Az.K(b)P MK-nın katibi M.C.Bagırov.

25 dekabr 1936-cı il".

SUAL: - Bu barədə nə deyə bilərsiniz?

CAVAB: - Mənim bu barədə məlumatım yoxdur.

SUAL: - Büro iclasının stenoqramından görünür ki, Nodev qeyri-rəsmi söhbətlərdə Beriyanı Sovet İttifaqının ən bacarıqlı və böyük çekisti kimi tərifləyənlərə belə deyib:

"...Yalnız Zaqafqaziyada onun haqqında belə düşünürlər, sizin kimi danışırlar. Amma digər yerlərdə, Vladivostokdan Moskvaya qədər onun haqqında mənfi fikirdədirlər. Hamı hesab edir ki, Beriya Kremlin nümayəndələrini Zaqafqaziyadan sıxışdırır, FK-nın emissarlarını, digərlərini müxtəlif bəhanələrlə işdən çıxarır. Bunun üçün cürbəcür pis üsullardan belə istifadə edir..."

SUAL: - Bu, sizə məlum idi?

CAVAB: - İfadəmdə göstərdiyim kimi, mən bu barədə heç nə bilmirdim.





Protokol mənim tərəfimdən oxundu. Mənim dilimdən yazılıb, düzgündür.

L.Beriya

İstintaq saat 18:00-da qurtardı.

Dindirdi: SSRİ-nin Baş prokuroru R.Rudenko

İstintaqda iştirak etdi və protokola qeydlər apardı:

SSRİ Prokuroluğunun Muhum işlər uzrə mustəntiqi: Sareqradski.

Əsli ilə düzdür: İnzibatı xidmət mayoru Yuryeva.

Surəti: makina yazısı

Artıq 1934-cü ilin mayın 28-də Mir Cəfər Bağırovun Az.KP MK-nın I katibi kimi fəaliyyətinin bir ili tamam olurdu.

Bu plenumda müəyyən mənada onun işinə qiymət verilirdi.

Plenumda həmçinin bəzi iştirakçılar tərəfindən M.C.Bağırova və L.P.Beriyaya tériflər söylənilirdi. Hətta iş o yerə çatırdı ki, plenuma sədrlik edən L.P.Beriya çıxışçıların sözünü kəsərək, təriflərə son qoymağı tələb edirdi.

Məsələn, Azərbaycan SSR Xalq Torpaq Komissarlığının MTS-lər üzrə siyasi sektorun rəisi yoldaş Vasilkinin çıxışından:

"1934-cü ilin yazında pambıq əkininin ilk mərhələsində böyük nailiyyətlər qazanmışıq. Özbəkistanla müqayisədə biz səpini daha tez qurtarmışıq. Hətta havaların əlverişsiz keçməsi bizim işimizə mane olmadı. Ona görə də cəsarətlə deyə bilərəm ki, bu il bütün rayon partiya komitələri, onların kolxoz və kənd təşkilatları işlərini ən yüksək səviyyədə qurmuşdu.

Azərbaycan partiya təşkilatlarının bu nailiyyətləri təsadüfü deyil. Ona görə ki, bütün bunlar Zaqafqaziya Diyar Partiya

Komitəsinin iradəli və onların dahi bolşevik rəhbəri Lavrenti Beriya, Azərbaycan KP MK-nın rəhbəri, dəyanətli bolşevik Mir Cəfər Bağırov tərəfindən təşkil olunmuşdur".

Bu vaxt L.P.Beriya Vasilkinin çıxışını yarımçıq kəsir və deyir:

"Siz burda bizi tərifləmək üçün çıxış edirsiniz, yaxşı olar ki, söyləyin, siz nə etmisiniz?"

Yenidən Vasilkin deyir:

"Biz əkin zamanı hər gün Diyar Partiya Komitəsinin və Azərbaycan KP MK-nın rəhbərlərinin diqqətini hiss etmişik".

Onu da qeyd etmək istəyirəm ki, plenumda yekun nitqi söyləyən L.P.Beriya M.C.Bağırovun adını çəkmədən Azərbaycan kommunistlərinin işinə müsbət qiymət verərək, Gürcüstan və Ermənistan kommunistlərinə onlardan nümunə götürməyi məsləhət gördü.

Beləliklə, bu plenumda M.C.Bağırovun hakimiyyətdə möhkəmlənməsində L.P.Beriyanın növbəti dəstəyinin bir daha şahidi oluruq.

Məhz bu dövrdə Stalin özünün siyasi rəqiblərini neytrallaşdırmanın ikinci mərhələsinə keçir.

Rıkov Aleksey İvanoviç 1899-cu ildən RSDP-nin üzvü və ilk bolşeviklərdən idi. 1917-ci ildən Mossovetin, sentyabr ayından Petroqrad icra şurasının sədri idi. 26.10.1917-ci ildən isə Sovet hökumətinin ilk Daxili İşlər Komissarı olmuşdu. 1922-ci ildə MK Siyasi Bürosunun üzvü seçilmişdi. V.İ.Leninin ölümündən sonra, 02.02.1924-cü ildə Xalq Komissarları Şurasının sədri seçilən (buna qədər o, Leninin icra etdiyi bu vəzifədə müavin idi) Rıkov eyni zamanda RSFSR-in Xalq Komissarları Sovetinin sədri vəzifəsini də icra edirdi. Leninin ölümündən sonra o, əvvəl Trotskiyə, sonra Kamenev və Zinovyevə qarşı siyasi mübarizədə Stalinə yaxından kömək edir. ÜK(b)P-nin XV qurultayında çıxış edən Rıkov qeyd edir: "Mən "süpürgəni" yoldaş Stalinə verdim ki, o, bu süpürgə ilə bizim düşmənlərimizi süpürsün". Lakin, 1928-1929-cu illərdə kollektivləşmə məsələsində onunla Stalin arasında fikir ayrılığı yaranır. Həmin vaxtdan etibarən Rıkovun mövqeyi Buxarin və Kamenevin mövqeyi ilə üst-üstə düşür. Nikolay İvanoviç Buxarin o dövrdə MK Siyasi Bürosunun üzvü idi. Amma 1928-ci ildə Buxarin ölkədə aparılan kollektivləşmənin əleyhinə çıxışlar edir, aqrar sahədə fərdi təsərrüfatları inkişaf etdirməyi məsləhət görürdü. 1928-ci il sentyabrın 30-da dərc olunan "İqtisadçının qeydləri" məqaləsində o, aqrar sahəyə digər yanaşmaları "avantürist yanaşma" adlandırırdı. Hətta bir həftə sonra Siyasi Büronun iclasında Buxarın Stalini "Şərq despotizminin tozcuğu" adlandırır.





ÜK(b)P Mərkəzi Komitəsinin 1928-ci il noyabr plenumunda A.İ.Rıkovu, M.P.Tomskini və N.İ.Buxarini "sağ təmayülçülər" adlandırırlar. Plenum bu dəstəni ifşa edir. Buxarin səhvini boynuna almır, Rıkov isə səhvini başa düşdüyünü və bundan sonra partiya xəttində heç bir əyintiyə yol verməyəcəyini bəyan edir. 1929-cu ilin noyabrında N.İ.Buxarin MK-nın Siyasi Bürosundan kənarlaşdırılır. Hadisələrin bu məcrada getdiyini görən Buxarin "səhvini" etiraf etməyə məcbur olur. Lakin bu etiraf da onu xilas eləmir. M.P.Tomskini də ölkənin ali siyasi rəhbərliyindən uzaqlaşdırırlar. 1930-cu il dekabrın 9-da A.İ.Rıkov əvvəlcə Xalq Komissarları Şurasının sədri vəzifəsindən azad olunur, 21.12.1930-cu ildə isə MK-nın Siyasi Bürosundan kənarlaşdırılır və 1931-ci ilin yanvarında SSRİ Poçt və teleqraf xalq komissarı təyin edilir. Buxarin isə Ağır Sənaye Komissarlığının kollegiya üzvü seçilir. Bu təyinatlarla Stalin iki məqsəd güdür-

dü. Birincisi, artıq Trotskidən sonra Kamenev-Zinovyev qruplaşmasının axırına çıxmaq lazım idi. Bu səbəbdən Stalin Buxarin-Rıkov-Tomski üçlüyünü və onların tərəfdarlarını Kamenev-Zinovyev mövqeyinə yaxınlaşmasına imkan verməк istəmirdi. İkincisi, o, bu qruplaşmaları parçalamaq və tədricən neytrallaşdırmaq istəyirdi. Artıq bu dövrdən Rıkov-Buxarin-Tomski birliyi Stalininsiyasətini tərifləməyə başlayır. Stalin hətta Buxarini "İzvestiya" qəzetinə baş redaktor təyin edir. Rıkovda isə belə bir yanlış təsəvvür yaranmışdı ki, onu yenidən Siyasi Büronun üzvü seçəcəklər. Çünki, artıq bir dəfə, hələ 1917-ci ilin noyabrında Xalq Komissarları Şurasından və Mərkəzi Komitədən çıxması barədə ərizə yazmışdı. Sonradan o, Leninlə razılığa gələrək, ərizəsini geri götürmüşdü. Təəssüf, Rıkov başa düşmürdü ki, Stalin Lenin deyil!

1934-cü ildə Kamenev və Zinovyev həbs ediləndən sonra, 1936-cı ildə onlara qarşı açıq məhkəmə prosesi qurulur. Məhkəmədə Kamenev, Zinovyev və digər həbs olunanlar Buxarinin və Rıkovun əleyhinə ifadələr verirlər. Onlar hərbi çevriliş hazırlanması planından və onlarla bu çevrilişdə Buxarin və Rıkovun, eyni zamanda, onların tərəfdarlarının həmfikir olduqlarını bəyan edirlər. Həqiqətən də, Stalinə qarşı belə bir çevrilişin hazırlandığı barədə "Oqonyok" jurnalının 1990-cı il 28-ci sayında oxuyuruq:

"L.Trotskinin Harvard Universitetinin arxivində saxlanılan, L.B.Kamenevin öz əli ilə yazdığı qeydlərdən başa düşülür ki, həqiqətən o dövrdə ölkənin siyasi sistemini dəyişmək üçün hakimiyyəti ələ keçirmək, Stalini devirmək istəyirdilər. Məqalədə 1928-ci il iyulun 4-də Kamenevin Buxarinlə danışığının stenoqramı verilir:





"Kamenev: - Sizin qüvvələriniz nə yerdədir?

Buxarin: - Rıkov üstəgəl Tomski, üstəgəl Uqlanov, (dəqiq) üstəgəl mən. Petroqradlıların hamısı bizimlədir. Ancaq onlar Stalini siyasi hakimiyyətdən uzaqlaşdırmağa ehtiyat edirlər".

Kamenev və Zinovyevin həbsindən sonra Buxarin və Rıkov 1934-cü ildə ÜK(b)P-nin MK üzvlüyündən namizədə çevrililər. Bununla da onların ölkəyə rəhbərlikdən kənarlaşdırılması prosesi davam etdirilir.

Stalinə qarşı bir neçə dəfə yaradılmış müxalif qrupların ardından artıq 1934-cü ildə "Klubok" (kələf – A.M.) adında məxfi təşkilat formalaşmışdı. Hakimiyyəti Stalinin əlindən almaq istəyən bu təşkilatın yaradıcıları ordunun rəhbərlərindən bir neçəsini öz tərəflərinə çəkdilər. Plana görə, İ.V.Stalin, V.M.Molotov, L.M.Kaqanoviç, K.Y.Voroşilov, N.İ.Yejov həbs edildikdən sonra ÜK(b)P MK-nın plenumu müvəqqəti olaraq ölkəyə rəhbərliyi hərbi generallardan birinə həvalə etməli idi. Sonralar həbs olunan bu təşkilatın üzvlərindən Yenukidze və Petersonun ifadələrinə görə, bu generallar vətəndaş müharibəsinin qəhrəmanı, Xalq Müdafiə Komissarının müavini M.N.Tuxaçevski və Londondakı hərbi attaşe V.K.Putku olmalı idi. Stalin Kremldə hazılanan bu çevriliş planından xəbər tutur. O, əvvəlcə hadisələrin idarə olunmasını öz əlinə alır. Yəni, "Klubok" üzvlərinin özləri də bilmədən Stalin onların arasındakı əlaqəni zəiflətmək üçün hər birini ayrı-ayrı bölgələrə inzibati vəzifələrə göndərir. Sözsüz ki, Stalin gözləyirdi ki, təşkilat öz-özünə dağılacaq, amma "Клубок"un üzvləri bir-biriləri ilə əlaqəni kəsmirdi.

1937-ci il iyunun 2-də Stalinin iştirakı ilə Xalq Müdafiə Komissarlığının hərbi şurasının geniş iclası keçirilir. K.Y.Voroşilov məruzə ilə çıxış edərək dövlət çevrilişində iştiraka cəhd

etmiş hərbi komandirlər - Tuxaçevskinin, Putkunun, Korkanın, Yakiranın, Uberiviçin həbs olunduğunu söyləyir. Beləliklə, Stalin 1937-ci ilin iyun plenumuna bir neçə gün qalmış çevrilişi həyata keçirmək istəyənləri neytrallaşdırır. Artıq ordu rəhbərliyinə inamı itdiyindən Stalin ancaq NKVD-yə arxalanırdı. NKVD-yə tam nəzarəti həyata keçirmək üçün onun diqqətini çoxdan çəkmiş həmyerlisi Beriyadan istifadə etmək məqamı yetişmişdi. Bu andan etibarən Beriyanın üzünə Kremlin möhtəşəm darvazası açılır. Stalin NKVD-nin rəhbəri Nikolay Yejova heç vaxt tam etibar etmirdi. ÜK(b)P MK-nın iyunun 23-də başlayan plenumunun iştirakçıları yekdilliklə Sovet dövləti və onun rəhbərliyinə qarşı xəyanətdə əli olan bütün şəxsləri tapıb ifşa etmək barədə qərar qəbul edirlər. Baxmayaraq ki, Stalin plenum iştirakçılarından repressiyaya getməməyi xahiş edirdi, əslində bu işlərlə şəxsən özü məşğul idi. Fəqət, imperiyanı qorumaq üçün kommunist maskası geyinmiş plenum iştirakçıları yenidən Stalinə etimad göstərdi. Bu etimadın müqabilində Stalin bu prosesdə şəxsi düşmənlərini məhv etməklə yanaşı, ölkədə aparılan hərbi sənayeləşmə və iqtisadi inkişafla imperiyanın inkişafı üçün çox gərəkli şəxs olduğunu sübut edirdi.

Ona görə də 1937-ci ilin məlum plenumunda iştirakçıların böyük əksəriyyəti tərəfindən Buxarin və Rıkov partiya intizamını pozmaqda, Stalin xəttinə qarşı gizli mübarizə aparmaqda, fraksionizm və dağıdıcılıqda ittiham olundular. Buxarin plenumda çıxış edərək, Stalinin, Molotovun, Orconikidzenin ünvanına kəskin ittihamlar söyləyir. Plenuma qədər "müəyyən qruplar" Buxarin və Rıkovla guya həmfikir olacaqlarını bildirsələr də, müzakirələr zamanı səslərini çıxartmadılar. Sonradan ÜK(b)P MK Siyasi Bürosunun qapalı toplantısında "müəyyən





qruplar" Stalini siyasi hakimiyyətdən zorla uzaqlaşdırmaq göstərişini Rıkovdan aldıqlarını etiraf edirlər. Plenumda A.İ.Mikoyanv, Buxarin və Rıkovun ünvanına kəskin siyasi ittihamlarla dolu böyük məruzə ilə çıxış edir. 1937-ci ilin fevral plenumunda yaradılan komissiyanın protokolunda N.İ.Buxarin və A.İ.Rıkovla əlaqədar deyilir: (Baxmayaraq ki, Stalin plenumda onların partiyadan çıxarılmasını və məhkəməyə verilməsini təklif etmişdi) "Komissiyanın 20 üzvü Yejov, Budyonnı, Manuilski, Şuvernik, Kosarev, Buxarin və Rıkovu ən ağır cəzaya, Buxarin və Rıkovun isə güllələnməsinə səs verdilər. Komissiyanın yerdə qalan hissəsi isə Buxarin və Rıkovun ÜK(b)P MK-dan çıxarılması və məhkəməyə verilməsi təklifinə səs verdi".

Burada maraqlı məqam odur ki, yenə də siyasi intriqaların tam mərkəzində olan Mikoyanın öz dəsti-xətti ilə protokolda qeyd olunur: "Buxarin-Rıkovun işi NKVD-yə göndərilsin". Yəni, məhkəməyə deyil, birbaşa güllələnməyə.

Ancaq Stalinin məsələyə birbaşa müdaxiləsindən sonra A.İ. Rıkov, N.İ.Buxarin və onların tərəfdarları üzərində açıq məhkəmə prosesi qurulur. Məhkəmə prosesində Rıkov da, Buxarin də sağ təmayülçü antisovet blokunun mövcud olduğunu etiraf edirlər. Hətta Rıkov son sözündə belə deyir: "Kim ki hələ ifşa olunmayıb, dövlətə kömək edərək, mövqelərini dəyişsinlər. Hakimiyyət əleyhinə olan qüvvələr hələ istifadə etmədikləri silahları buraxıb, dövlətə tabe olsunlar" ("İmperiya Stalina", səh.396). Buxarin isə son sözündə: "Mənim dəhşətli cinayətlərimin həddi-hüdudu yoxdur" - deyir ("İmperiya Stalina", səh.78).

Lakin onu da qeyd etmək istərdik ki, sözsüz, istintaq zamanı müstəntiqlər Rıkovdan onunla eyni siyasi əlaqədə olanlarla maraqlanırdılar. Rıkov isə yaxın münasibətdə olduğu adamların

siyahısını təqdim edirdi. Məsələn, o qeyd edir ki, Zaqafqaziyada Qəzənfər Musabəyov, Orxealaşvili və sairələri ilə əlaqələri var. Bununla da istintaqa yeni vəzifəli şəxslər və insanlar cəlb olunurdu. Qəzənfər Musabəyov istintaq zamanı Ruhulla Axundovla yaxın münasibətdə olduğunu bildirir və bununla da dairə genişlənir. (Nəzərə alsaq ki, Ruhulla Axundov da öz şəxsi anketində vaxtilə Eser partiyasının üzvü olduğunu göstərmişdi – A.M.). Ona görə də repressiyaların miqyası genişlənirdi. Stalin onun əleyhinə yönəlmiş bu qüvvələri neytrallaşdırandan sonra, növbə artıq S.Orconikidzeyə və onun tərəfdarlarına çatmışdı. Bu dövrdə SSRİ Xalq Daxili İşlər Komissarının əmrinə əsasən, ölkədə repressiyaların miqyası görünməmiş səviyyəyə çatır.

Həmçinin, Stalinin Beriya ilə Orconikidze arasında yaranmış gərginlikdən xəbəri vardı. Ona görə də o, bu mübarizədə Beriyadan istifadə edirdi. Həmin gərginliyi L.P Beriyanın məktublarından da görmək olur.

SSTRDA. F.17. siy.171. iş.473. səh.239-245.
L.P.Beriyadan S.K.Orconikidzeyə məktub.

19 iyul 1928 ci il və 18 dekabr 1932 ci il
Xüsusi qovluq
Sov.İKP MK Rəyasət Heyəti
N. S.Xruşşov
18.XII. 53 ci il
Sov.İKP MK-nın katibi Yol. N.S.Xruşşova

Marks-Engels-Lenin-Stalin İnstitutunun direktorluğu məruzə edir ki, S.K.Orconikidzeyə aid sənədlərin şəxsi fondundan





İMELS Mərkəzi partiya arxivində saxlanılan Beriyanın S.K.Orconikidzenin adına ünvanlanan uç məktubu aşkar edilib: 19 iyul 1928-ci il, 17 sentyabr 1929-cu il və 18 dekabr 1932-ci il.

Arxivdə “Tam məxfi” qrifli materialların Zaqafqaziya DSİ və Zaqafqaziya VK(b)P ölkə komitəsindən S.K.Orconikidzenin adına qələn sənədlər, onların ləgvi və yandırılması haqqında akt var”.

“Ləgv aktı”nda Beriyanın çoxlu sayda məktubları yada salınır. Bu materialların Orconikidzenin göstərişi əsasında ləğv edilməsi ilə bağlı heç bir sənəd tapılmamışdır.

Bundan başqa, fondda saxlanılan, S.K.Orconikidze, S.M.Kirov və M.Cakaya aid sənədlərdə Beriyanın məktubları və bildiriş vərəqəsinin surəti informasiya məzmunundadır.

***Əlavə:*** Beriyanın S.K.Orconikidzenin adına 19 iyul 1928-ci il, 18 dekabr 1932-ci il tarixlərində yazılmış məktubların makina yazısının surəti.

İMƏLS direktoru Q.Obidçik
17 dekabr 1953-cü il
Əsli ilə düzdür:
Zaqafqaziya BSİ gizli-operativ idarənin rəisi Kostareva
Bildiriş vərəqəsi:

“Mənim əziz Serqom!

Sizə isti salamımı və tezliklə tam sağalmanızla bağlı arzumu çatdırıram.

Əziz Serqo, görunur, mən sizə həmişə pislik edəcəm, ziyan verəcəm. Mən özümü bağışlaya bilmirəm ki, son illərdə biz sizə yoldaş Xalabzenin işi ilə əlaqədar əziyyət vermişik. Sizin şəx-

simə qarşı münasibətiniz və inamınız mənə enerji verir, təşəbbüskarlığa, işləməyə sövq edir. Serqo, sizdən başqa kimsəm yoxdur, siz mənim üçün atadan, qardaşdan da əzizsiniz. Mən sizinlə nəfəs alıb yaşayıram və sizin inamınızı qıra bilmərəm. Mən, ən yaxşısı, alnıma güllə çaxaram, amma sizin mənə qarşı olan inamınızı və münasibətinizi qıra bilmərəm.

Gücüm və ağlım çatandan namusla işləmişəm, müəyyən səhvlərə yol vermişəm, amma bunlar qərəzsiz olub.

Həmişə, ən xırda məsələlərdə yoldaşlarla məsləhətləşirdim. Xüsusilə, yoldaş Levanla və yoldaş Mişa ilə. Səmimi arzum olub ki, Sizi görüm və bir müddət yanınızda qalım. Ancaq mənə elə gəlir ki, (mən bunu Levana danışdım) yanınızda olmağım Sizin xoşunuza gəlməyəcək. Ona görə yoldaş Levanla məsləhətləşib, bu fikirdən vaz keçmək qərarına gəldim.

Yoldaş Levan sizə ətraflı danışar. Mən bunu ondan xahiş etmişəm. Zinaya salam, Eterkanı öp.

Əlinizi bərk sıxır və öpürəm. Sizin, Lavrenti Beriya".

10.VII/1928-ci il. Tiflis.

Əsli ilə düzdür: Kostareva

Əziz Serqo!

Moskvadan təzə qayıdan Bagırov bir yoldaşla mənə sizin onunla və Musabəyovla mən və yoldaş Aqniaşvili barədə söhbətinizi çatdırdı.

Yoldaş Bagırovun dedikləri o dərəcədə dəhşətli idi ki, ona güclə inanırdım.

Əziz Serqo, bir anlığa ağlınıza gətirə bilərsinizmi ki, mən nə vaxtsa, hardasa və yaxud kiməsə, o cumlədən, N.Lakobaya cəfəngiyyat, fantastika dolu əksinqilabi şeylər danışa bilərəm?





Yəni, "Əgər mən olmasaydım, 1924-ci ildə Serqo Gürcüstanda bütün gürcüləri güllələmişdi", yaxud, "gürcülərin və Zaqafqaziyanın işlərinə qarışmaq", "Borçalı rayonunu Gürcüstana və ya Ermənistana birləşdirmək" və sairə bu kimi sözlər. Onu bilirəm ki, Zaqafqaziyadan Moskvaya gedən boşboğazlar çoxdur. Səfeh danışmağı qadağan etmək olmaz. Bilirəm, məndən və bizim Zaqafqaziyadakı indiki işimizdən çoxlu dedi-qodu gəzir, amma heç cür başa düşə bilmirəm ki, yoldaş Lakoba nəyi əlində rəhbər tutaraq, hansı məqsədləri güdərək, Sizə qabaqcadan bəlli olan yalanları çatdırıb.

Məni xüsusilə incidən və ağır gələn odur ki, Siz, Bağırovun dediyinə görə, incik halda yoldaş Lakoba ilə "söhbətin" məzmununu ona təkrar etdirmisiniz.

Yoldaş Musabəyovun məlumatına görə, o da bu barədə kiməsə danışıb və onun danışığını mənə çatdırdılar.

Əziz Serqo, Siz məni 10 ildən artıqdır tanıyırsınız. Qüsurlarımı bilirsiniz, bacarığıma da bələdsiniz.

Mən heç vaxt, nə MK-nı, nə də Sizi pis vəziyyətdə qoymamışam, ümidvaram ki, gələcəkdə də qoymaram.

Bütün vaxtımı işə sərf edirəm, partiyanın və Mərkəzi Komitənin mənə olan inamını doğrultmaq uçun çalışıram. Artıq 4 ildir ezamiyyətimdən istifadə etməmişəm, çünki işdən başımı qaldıra bilmirəm. İndi Abxaziyadayam, tütün yığımına nəzarət edirəm.

Sizi əmin edirəm ki, mənim boş söhbətlərə vaxtım olmayıb, xüsusən ona görə ki, yuxarıda dediyim kimi, bu, işimin çoxluğu ilə əlaqədardı. Mənim Sizə dərin hörmətim var, Sizin də mənə qarşı olan münasibətinizi qiymətləndirirəm.

Sizdən bir şey xahiş edirəm: heç kəsə inanmayın. Hətta yoxlamadan mənə də inanmayın. Mən nəyi danışıram, nə edirəm, bunu yoxlayın. Onda özünüz də əmin olacaqsınız ki, məni Sizin gözünüzdə qaralamaq üçün nə qədər yalan, uydurma, dedi-qodu yayırlar.

Eyni münasibət yoldaş Aqniaşviliyə aiddir. O, keçmiş hərbçi və partiya işçisidir, diviziya komandiri və hərbi komissar olub. K(b)P MK-nın təşkilat şöbəsinin müdiri işləyib, uzun illər partiya işində çalışıb. Siz onu məndən yaxşı tanıyırsınız.

Mən də yoldaş Aqniaşvilini çoxdan tanıyıram və Sizi əmin edirəm ki, onun Sizə olan hörməti özünüzə bəllidir. O, heç vaxt əleyhinizə danışmayıb və onun adına çıxılan cəfəngiyatı danışa da bilməzdi.

Əziz Serqo, bir daha Sizdən xahiş edirəm, bu boş "danışıqları" təkrar yoxlayın ki, növbəti təxribatlara son qoyulsun.

Sizin, Lavrenti Beriya".
18. XII. 1932-ci il
Suxumi.
Əsli ilə düzdür: Kostareva

L.P.Beriyanın məktubunun surəti
S.K Orconikidze, 2 mart 1933-cü il
Xüsusi qovluq
Sov.İKP MK Rəyasət Heyətinin üzvlərinə göndərməli
N.Xruşşov
19.XII.1953-cü il





Sov.İKP MK-nın katibinə

Marks-Engels-Lenin-Stalin İnstitutundan Beriya haqqında göndərilmiş arxiv materiallarına əlavə. L.Beriyanın S.K.Orconikidzenin adına 2 mart 1933-cü il tarixli məktubunun sürəti.

Əlavə: xatırlatma
Marks-Engels-Lenin-Stalin İnstitutunun direktoru
Q. Obiçkin
18 dekabr 1953-cü il.
Əsli ilə düzdür: Kostareva

Göndərilib
y. Q.M.Malenkova
y. V.M.Molotova
y. K.E.Voroşilova
y. N.A.Bulqanina
y. L.M.Kaqonoviçə
y. A.İ.Mikoyana
y. M.Z.Saburova
y. M.Q.Pervuxinə

Qeyd:
Arxivə, Beriyanın işinə
21/XII/1953-cü il. İmza
Surəti

Əziz Serqo!

Suxumidə Levan Qoqoberidze dincəlir. Yoldaş Lakobanın və başqa yoldaşların sözlərinə görə, yoldaş Qoqoberidze mənim və Zaqafqaziya Federasiyasının rəhbərliyi haqqında alçaq və rə-

zil şayiələr yayır. Mənim keçmiş Müsavatın əks-kəşfiyyatında işim barədə danışır, guya partiya bu barədə heç nə bilmir.

Sizə çox yaxşı məlumdur ki, Müsavatın əks-kəşfiyyatına məni partiya göndərib və bu məsələyə 1920-ci ildə Sizin iştirakınızla, yoldaş Stasova, Kaminski, Mirzə Davud Hüseynov, N.Nərimanov, Sarkisov, Ruhulla Axundov, D.Bünyadzadə və başqaları ilə Azərb. K(b)P MK-da baxılıb. 1925-ci ildə Sizə Az.K(b)P Mərkəzi Komitəsinin qərarı haqqında rəsmi məktub verdim və bu məsələdə tam bəraət aldım. Ona görə ki, mənim Müsavatın əks-kəşfiyyatında işim partiyanın göstərişi əsasında olub. Bunu Mirzə Davud Hüseynov, Qasım İsmayılov və başqaları ərizələri ilə təsdiq ediblər. Sizə məktubu çatdıran yoldaş Datiko bu barədə ətraflı danışacaq.

Sizin, Lavrenti Beriya.

2.III.1933-cü il

Əsli ilə düzdür:

**Surəti: makina yazısı**

Zaqfedarasiya K(b)P-nın katibi M.Oroxelaşvili, eləcə də Rəyasət Heyətinin bəzi uzvləri M.M.Bağırovu sıxışdırmağa başlayanda L.P.Beriya 1928-ci ilin mart ayında (məhkəmə materiallarına əsasən - A.M.) bu adamların havadarı Serqo Orconikidzeyə məktub göndərir. O, məktubunda Bagırovun günahsız olduğunu isbat etməyə çalışır. Yeri gəlmişkən, sonralar Beriyanın məktubunda adları çəkilən Oroxelaşvili, Qarayev, Mirzoyan, Rubenov həbs olunaraq güllələndilər. Məhz bu adamlar Orconikidzenin rəhbərliyi ilə Stalinə qarşı muxalifətdə idilər.





Sözsüz ki, irtica illərində məhv edilən, bədbəxt olan ailələrin, sönən ocaqların, doğma yurdundan didərgin düşənlərin sayı olduqca çoxdur. Lakin burada Bağırovun Stalinin apardığı sinfi mübarizənin sırf fədailərindən biri olması inandırıcı deyil.

Sonralar bunun dəfələrlə şahidi olacağıq.

“Arqumentı i faktı” qəzetində (Moskva, 1989, № 5) çap edilən bir yazıda stalinizmin ümumi qurbanlarının sayı göstərilir. 1939-cu il yanvarın 1-də “QULAQ”dakı 1.317.195 dustağın 830.491-i rus, 181.905-i ukraynalı, 44.785-i belorus, 24.894-ü tatar, 24.499-u özbək, 19.758-i yəhudi, 18.572-i alman, 17.123-ü qazax, 16.860-ı polyak, 11.723-ü gürcü, 11.064-ü erməni, 9.352-i türkmən, 4.874-ü başqırd, 4.347-i tacik olub. Yerdə qalan 96.948 nəfər yüzdən çox millətin nümayəndəsi idi.

Həbs edilənlərin yaş həddi belə idi (1940-cı il martın 1-i): yaşı 18-dək olanlar – 1,2 faiz, 18-dən 21 yaşa qədər olanlar – 9,3 faiz, 22-dən 40 yaşa qədər olanlar – 63,6 faiz, 41-dən 50 yaşa qədər olanlar – 16,2 faiz; 50 yaşdan yuxarı olanların sayı – 9,7 faiz. Böyük vətən müharibəsinə qədər məhbusların 93 faizini kişilər, 7 faizini isə qadınlar təşkil etdiyi halda, 1944-cü ilin iyulunda 74 faizi kişilər, 26 faizi isə qadınlar idi (“Arqumentı i faktı” qəzeti, 1990-cı il, 1–7 sentyabr). Ancaq Bağırovun siyasi hakimiyyətdən uzaqlaşdırıldığı 1927-ci ildən 1929-cu ilə qədər Sovet İttifaqının həbsxanalarında, siyasi təcridxanalarında və QULAQ-da bir milyona yaxın insan vardı. Bu insanların əksəriyyəti müxalifətdə olan partiya üzvləri, sovet müəssisələrində vicdanla çalışmış “burjua” mütəxəssisləri idi. Bütün respublikalarda həbslər, bir qayda olaraq, “zinovyevçi-trotskiçi”, “millətçilər”, “NEP əleyhdarları” adları altında aparılırdı. Kənd yerlərində isə veteranları, aqrotexnikləri, kooperatorları həbs edirdilər.

1930-1932-ci illərdə torpağı olan kəndlilərə sarsıdıcı zərbələr vuruldu. Onların evləri və əmlakı müsadirə edildi və yeni yaradılan kolxozlara verildi.

Yuxarıdakı siyahıdan aydın olur ki, Azərbaycanda aparılan repressiyanın miqyası digər respublikalarla müqayisədə o qədər azdır ki, bu rəqəm heç "Arqumentı i faktı" qəzetindəki siyahıda da göstərilməyib.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivində 1937-ci ildə Mircəfər Bağırovun İ.V.Stalinə göndərdiyi teleqramı var. Bu teleqramda Mircəfər Bağırov uzun illərdən bəri yaxından tanıdığı, 1933-cü ildən bir yerdə çalışdığı, Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Hüseyn Rəhmanovu xilas etmək üçün Stalinə müraciət edir.

Moskva. ÜK(b)P Mərkəzi Komitəsinə

**Stalin yoldaşa**

Sentyabrın 7-dən başlayaraq Xalq Komissarları Sovetinin sədri Hüseyn Rəhmanovun xəstəliyi şiddətlənmiş, ağ ciyərindən qanaxma başlamışdır. Onda şəkər xəstəliyi də aşkar etmişlər. H.Rəhmanovun konsilium və müalicə üçün Moskvaya göndərilməsinə icazə verməyinizi xahiş edirəm.

Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov

13 sentyabr 1937-ci il

Elə həmin günlərdə Mir Cəfər Bağırovdan Moskvaya Rəhmanovla bağlı müsbət informasiyalar göndərilirdi. 1933-cü ildə "əksinqlabçı-millətçi qrupun üzvü olmuş" H.Rəhmanov M.C.Bağırovun təqdimatı ilə 1935-ci ildə Lenin ordeni ilə təltif olunur.





Təəssüf ki, Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri repressiyadan xilas ola bilmədi.

1937-ci ildə SSRİ Xalq Komissarları Sovetinin sədri vəzifəsində olan V.M.Molotov sonralar 1937-ci ilə "öz baxışlarına görə haqq qazandıraraq" yazırdı:

"1937-ci il repressiyası zəruri idi. Dövlət eyni vaxtda fəhlə sinfinin, kəndlilərin və ziyalıların mənafeyini ifadə edə bilməzdi. Bundan başqa, ziyalılar arasında keçmiş sinfi düşmənlər az deyildi, onlar fəhlə sinfinin diktaturası uğrunda mübarizə apara bilməzdi".

"M.C.Bağırovun məhkəməsi" kitabında qeyd edildiyi kimi, M.C.Bağırova qarşı irəli sürülən əsas ittihamlardan biri repressiya illərində onun keçmiş Azərbaycan Demokratik Respublikasının rəhbərliyində məsul vəzifələr tutmuş ictimai-siyasi xadimlərə qayğı ilə yanaşması, onlara kömək etməsi idi.

Həmin kitabın 15-ci səhifəsində oxuyuruq: "M.C.Bağırov nəinki Zizikskiyə və digər irticaçılara qarşı mübarizə aparmayıb, əksinə, Zizikskinin tam himayədarlığı altında işləyərək, onun köməkçisi olub. Sonralar özü Zizikskiyə hərtərəfli havadarlıq və yardım göstərərək, onun üzə çıxmasına, bəraət almasına kömək etmişdir. Bağırovun evində axtarış aparılarkən onun Zizikski ilə birgə xidməti barədə arxiv sənədlərinin surəti aşkara çıxarıldı.

Sənədlərlə sübut edilmişdir ki, Mir Cəfər Bağırov 1917-ci ildə Qubada müəllim işləyərkən, fevral inqilabından sonra yəhudi qəsəbəsinin milis rəisi vəzifəsinə təyinat alır, sonra isə qəza komissarı Əli bəy Zizikskinin köməkçisi vəzifəsinə irəli çəkilir. O, 1917-ci il noyabr ayının sonunadək bu vəzifədə işləyir. Zizikskinin digər köməkçisi, Bağırovun göstərdiyi kimi,

mülkədar, irticaçı, müsəlman ruhaniləri ilə sıx bağlı olan qazi Əhməd bəy Məmmədbəyov idi. Sənədlərlə müəyyən olunmuşdur ki, Zizikski Bağırovu hərtərəfli müdafiə edirdi. Bakının müvəqqəti qubernatoruna ünvanlanmış 1 iyun 1917-ci il tarixli 878 №-li məktubunda Zizikski yazırdı:

"Quba şəhərinin 2-ci hissəsinin müvəqqəti komissarı Mir Cəfər Bağırov İcraiyyə Komitəsinin bu ilin 10 may tarixli qərarı ilə Quba qəza komissarının köməkçisi vəzifəsinin icrasına başlamışdır. Bağırov bu təyinata tamamilə uyğun gəldiyi üçün, İcraiyyə Komitəsi onun qəza komissarının köməkçisi vəzifəsinə təsdiq olunmasını xahiş edir".

İstintaq zamanı Bağırov göstərdi ki, o, heç bir bəyi öldürməyib, yerli sakinlərin üzərinə basqın etməyib, cəbbəxananı, təchizat bazasını da dağıtmayıb və tərcümeyi-halında "Uçağan" dəstəsi barədə yuxarıda deyilən fikirləri yazmayıb.

Həmin kitabın 17-ci səhifəsində oxuyuruq:

"Şahid Qasımov Əziz Məcid oğlu belə ifadə verib:

"Mən onu bilirəm ki, Bağırov Xaçmaz rayonunda müəllim idi. 1917-ci ilin fevral inqilabından sonra Bağırov birdən-birə qəza komissarı Ə.Zizikskinin müavini oldu. Ə.Zizikski Bağırovla birgə bütün qəzanı və Quba şəhərini idarə edirdi. Bağırov və Zizikski cəbhədən geri dönən əsgərlərin silahlarını əlindən alırdı ki, bu da qan tökülməsinə səbəb olurdu. Məsələn, 1917-ci ilin payızında Xaçmazda olduğu kimi. Onlar əsgərlərdən aldıqları silahlarla qolçomaq ünsürləri, müxtəlif cinayətkar elementləri mülkədar hakimiyyətini saxlamaq üçün silahlandırdılar. Zizikski ilə Bağırov nə istəyirdilərsə, onu da edirdilər. Onların hər biri ətrafına öz adamlarını toplamışdı. Bağırov cinayətkarları və bəyləri himayəsi altına almışdı".





Bu işin istintaqı zamanı Azərbaycan DİN-in arxivində Əzizov Əziz Məşədi Hüseyn oğlunun (Əziz Baba) xitam verilmiş 818 №-li cinayət işi nəzərdən keçirilərkən məlum oldu ki, Əzizov 1921-ci ilin oktyabrında həbs edilib. O, belə bir ifadə vermişdir ki, 1919-cu ildə Müsavat əks-kəşfiyyatının agenti olub və Lavrenti Beriya ilə bir yerdə xidmət edib.

Bağırov və Beriya Əzizovu həbsdən azad etdilər, barəsində qaldırılmış cinayət işinə xitam verdilər. Mühakimə olunan Bağırova Əzizovun arxiv sənədləri göstəriləndən sonra o, etiraf edir ki, Əzizov Müsavatın fəal əksinqilabçısı olub və məhkəməyə verilməli idi. Əgər o, həbs olunmayıbsa, yəqin bu işdə Beriyanın əli var. Sonra Bağırov bildirib ki, o, Əzizovun işini xatırlamır.

Bağırovun bu ifadələri həqiqətdən uzaqdır. Sənədlərlə müəyyən olunmuşdur ki, 1937-ci ildə partiyadan xaric edilən zaman Əzizov kömək üçün Beriyaya və Bağırova müraciət etmiş, onlar da Əzizovun partiyaya bərpa edilməsinə nail olmuşlar. Bu faktı Əzizovun 1937-ci ilin 17 noyabrında Beriyaya ünvanlanmış məktubu sübut edir. Məktubun üzərində Beriyanın dərkənarı var: "Azərbaycan K(b)P MK-ya yoldaş Bağırova göndərilsin".

Bağırov Azərbaycan FK-da işə düzələndən dərhal sonra, 1921-ci il fevralın 24-də Müsavat əks-kəşfiyyatının digər agenti Məmməd Hacıyev barədə cinayət işinə xitam verildi və o, həbsdən azad edildi. 1921-ci il sentyabrın 20-də Bağırov Müsavat əks-kəşfiyyatının keçmiş rəisinin arvadı Şıxzamanova barədə cinayət işinə xitam verib. O da ərinin - Şıxzamanovun 1920-ci ildə etdiyi hərəkəti təkrarladı və 1922-ci ildə Türkiyəyə qaçdı.

Zizikski öz qohumu Bəylər Şıxlarski ilə birlikdə Quba şəhərində və Quba qəzasında dəfələrlə ermənilərə qarşı qırğın və

qarətlər təşkil edib, öz ətrafına bəyləri və qolçomaqları yığaraq, inqilabi hərəkata qarşı fəal mübarizə aparıb. Azərbaycan sovetləşəndən sonra Əli bəy Zizikski İrana qaçdı.

Bağırov Azərbaycan FK-nın (Fövqəladə Komissiya) sədri olandan sonra Zizikskinin Azərbaycana qayıtmasına icazə verdi və onu üzə çıxartdı. Əli bəy Zizikskinin üzə çıxarılması şəraitini şahid Orucov belə göstərirdi:

“1920-ci ildən sonra Bağırov Bakıda Azərbaycan FK-nın sədri, onun katibi isə mənim dayım oğlu Hacağa Şahverdiyev idi. Şahverdiyev Bağırovun ən yaxın dostu olub. Üçümüz də Qubadakı şəhər məktəbində oxumuşuq.

1922-ci ildə mən Bakıya getdim və Şahverdiyevin evində qaldım. Bir gün işdən qayıdanda Şahverdiyev mənə dedi ki, Bağırov səni yanına çağırır. Ertəsi gün mən Hacağa Şahverdiyevlə birlikdə Azərbaycan FK-ya, Bağırovun yanına getdim. Onunla köhnə dostlar kimi görüşdük. O, məni çox yaxşı qarşıladı.

Söhbət əsnasında Bağırov soruşdu ki, Əli bəy Zizikskini xatırlayırsanmı? Cavab verdim ki, çox yaxşı yadımdadır. Söhbətimizdə Hacağa Şahverdiyev də iştirak edirdi.

Bir qədər sonra Qəni adlı mühafizəçi bildirdi ki, “onlar gəliblər”. Bağırov ona gələnləri içəri buraxması barədə göstəriş verdi. Bağırovun otağına bir-birinin ardınca keçmiş Quba mülkədarı, Quba bəylərindən Şıxlarskinin qohumu Bəybala bəy Alpanski, Bağırovun Qubalı dostlarından Zizikskinin qohumu, tacir Hacıbala Məmmədyarov, o cümlədən, Əli bəy Zizikski daxil oldular.

Onlar otağa daxil olanda Bağırov yerindən qalxıb, onları qarşıladı, hər biri ilə mehriban görüşdü. Əli bəy Zizikski ilə hətta öpüşdü.





Söhbət zamanı Bağırov Zizikskiyə ərklə bildirdi ki, sən nə üçün gizlənirsən, özünü alçaldırsan. Bilirsən ki, mən burada işləyirəm. Əli bəy gözləri yaşarmış halda Bağırova bildirdi ki, onu həbs etməklə qorxudurlar, ona görə də gizlənib. Bağırov elə oradaca Hacağa Şahverdiyevə Əli bəy Zizikskinin üzə çıxarılması barədə sənədləri hazırlamağı tapşırdı. Elə həmin otaqdaca Şahverdiyev sənədləri hazırladı, Bağırov həmin sənədi imzalayıb möhür vurdu. O, sənədi Zizikskiyə verib dedi: “Bu sənədə əsasən, sən Azərbaycanın harasında istəsən yaşaya bilərsən. Nə qədər ki, mən burada – FK-da işləyirəm, sən heç nədən narahat olma”.

Doğrudan da, bütün sonrakı illər ərzində Əli bəy Zizikski ailəsi ilə birlikdə Bakıda yaşadı. Müəyyən edilmişdir ki, üzə çıxandan sonra Zizikski uzun illər Bakıda, Aşağı qəbiristanlıq küçəsi, 79 №-li binada yerləşən şəxsi mülkündə yaşamış və həmin evin kirayə pulu ilə dolanmışdır.

Gördüyünüz kimi, məhkəmə materiallarından bəlli olur ki, M.C.Bağırov Quba qəzasında erməni quldurlarını məhv edən Əli bəy Zizikskinin müdafiəsinə qalxdığı üçün ona qarşı Xruşşovun əlaltısı, prokuror Rudenko kəskin ittihamlar irəli sürür.

1927-ci ildə M.C.Bağırov Ə.Qarayevin və L.Mirzoyanın təşəbbüsü ilə işdən çıxarılandan sonra Novruz Rzayev Azərbaycan Dövlət Siyasi İdarəsinin rəisi təyin edilir. 18 aydan sonra M.C.Bagırov Beriyanın köməyi ilə yenidən öz vəzifəsinə qayıdır.

Lakin Novruz Rzayev hakimiyyətdə olduğu müddətdə M.C.Bağırovun dostu, müsavatçı Əli bəy Zizikskini artıq güllələtmişdi. Təbiidir ki, M.C.Bağırovun N.Rzayevi görməyə gözü yox idi. Sonralar L.Beriyanın köməyi ilə M.C.Bağırov

N.Rzayevi əksinqilabçılıq fəaliyyətində günahlandırıb, həbsə atmışdı. Amma SSRİ Ali Məhkəməsinin qərarı ilə N.Rzayev həbsdən azad oldu. Bəraət qazanan N.Rzayev Qazaxıstana gedib, orda Bakıdan qovulmuş, Azərbaycanın və Bağırovun qatı düşməni, AK(b)P-nin keçmiş katibi, o dövrdə Qazaxıstan K(b) P MK-nın katibi işləyən L.Mirzoyanın qucağına sığınır. Fəqət 1940-cı il yanvarın 4-də Novruz Rzayev gizli surətdə Bakıya gələrkən NKQB (Dövlət Təhlükəsizlik Komitəsi Komissarlığı) sədri S.Yemelyanov bundan xəbər tutur və bu barədə tez M.C. Bağırova məlumat verir. Qisas almaq hissi ilə yaşayan Bağırov N.Rzayevin həbs olunması barədə sərəncam verir. N.Rzayevi birbaşa Bağırovun kabinetinə gətirirlər. Bağırov Rzayevi görərkən ona belə deyir: "Sən elə bilirdin əlimdən qurtaracaqsan? Başa düşmürdün ki, L.Mirzoyan ingilis agenti kimi ifşa olunandan sonra növbə sənə çatacaq?" N.Rzayev isə cavabında: "Sizin təmiz kommunistliyinizə şübhə edirəm" - deyir. Bağırov isə: "Mən kommunistliyimdən əvvəl Azərbaycanımın balasıyam"- deyərək, Novruz Rzayevi həbs etdirir. Sonradan məhkəmədə cinayəti sübut olunur və güllələnir (Məhkəmə materiallarına görə, Novruz Rzayevi M.C.Bağırov özü kamerada güllələyib. Guya M.C.Bağırov Cuvarlinskiyə qarşı da eyni hərəkəti edibmiş. Ancaq bunların heç biri həqiqətə uyğun deyil. Ona görə ki, 1956-cı ildə M.C.Bağırova qarşı ittiham irəli sürmək üçün Moskvadan gələn KQB-nin nümayəndələri onların ölüm aktlarını özləri ilə aparmış və bu sənədlər olmadığına görə, məhkəmədə onların M.C.Bağırov tərəfindən güllələnməsi ittihamı irəli sürülüb).

1920-ci ildən Kommunist Partiyasının üzvi Əlipənah Rzayev o günləri belə xatırlayır: "Bəzən dustaqları beş sutka ayaq





üstə saxlayır, onlara nə yemək, nə də su verirdilər. Heç oturmağa da qoymurdular. Şəxsən məni 37 saat təkadamlıq kamerada ayaq üstə saxladılar. Nə yemək, nə də su verdilər, gözlərimi də yummağa qoymadılar. Kameraya X.Qriqoryan gəldi, məni tanıdı və "Sən burda nə edirsən?" - deyə soruşdu. Dedim: "Çünki keşiş oğlu deyiləm". (Bu sözlər keşiş oğlu X.Qriqoryanın ünvanına idi). O, mənə hirslə baxıb getdi. Yalnız ayaq damarlarım partlayandan sonra məni palataya apardılar. Buraya necə gəldiyimi özüm də bilmirdim. Bir neçə gündən sonra ayaqlarımın şişi çəkildi və məni buraxdılar. Səhər tezdən itələyib küçəyə atdılar. Bir neçə gündən sonra buraxıldığımı Mərkəzi Komitəyə bildirdim. Xalq Daxili İşlər Komissarının əmrindən aydın olur ki, təkcə eserlər, menşeviklər, müsavatçılar deyil, onlarla əməkdaşlıq etmiş siyasi cərəyanların üzvləri də həbs olunurdular. Azərbaycan Demokratik Respublikasının parlamentində fraksiya şəklində iştirak etmiş "Hümmət" təşkilatının üzvlərini də repressiya təhlükəsi gözləyirdi. Keçmiş hümmətçilər S.M.Əfəndiyev, Ə.Qarayev, D.Bünyadzadə, A.Sultanova və digərləri repressiyaya məruz qaldılar".

S.M.Əfəndiyev həbs ərəfəsində Moskvaya Stalinə və Kalininə məktub göndərdi. O, Stalini hələ 1907-ci ildə Bakıda olarkən tanıyırdı. Sonralar Moskvada RK(b)P MK yanında Şərq Xalqları Kommunist Təşkilatları Mərkəzi Bürosu sədrinin müavini və digər məsul vəzifələrdə onunla birgə işləmişdi. 1931-1937-ci illərdə isə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin, eyni zamanda RSFSR MİK-in sədrlərindən biri, habelə SSRİ MK sədrinin müavini kimi Kalininlə yaxın münasibətdə olmuşdu. S.M.Əfəndiyevin həyat yoldaşı Moskvaya gedib, məktubları ünvanlara çatdırır. S.M.Əfəndiyevi hələ 1919-cu

ildə Moskvada işlədiyi vaxtdan yaxından tanıyan N.Krupska-ya Stalinin yanına gedərək, ondan Əfəndiyev barədə xahiş edir. Lakin bunun da S.M.Əfəndiyevə köməyi olmur.

AK(b)P MK-nın I katibi işləmiş Q.H.Kaminski, V.İ.Polinski, L.Mirzoyan, R.Q.Ruben, II katib Ə.Qarayev, Xalq komissarlarının sədrləri D.Bünyadzadə, H.Rəhmanov Azərbaycan MİK-in sədrləri M.Hacıyev, S.M.Əfəndiyev və başqaları artıq özlərinin Stalinə müxalif olan S.Orconikidzenin qruplaşmasında olduqlarını büruzə vermişdilər. Stalin-Orconikidze qarşıdurması ikincinin müəmmalı şəkildə ölümündən sonra Stalinin tam qələbəsi ilə başa çatdı. S.Orconikidzenin qruplaşması isə yerlərdə, hansı ad altında olursa-olsun, fiziki cəhətdən zərərsizləşdirilməliydi.

İttifaq səviyyəsində aparılan sinfi mübarizənin yeni cəmiyyət quruluşunun əsasının təşkili ideyası yalnız Stalinin təxəyyülünün məhsulu ola bilərdi. SSRİ-nin tərkibində olan respublikalardan biri kimi, bu proseslərin Azərbaycanda da getməsi labüd idi. Sibirin təbii sərvətlərindən yararlanmaq üçün kütləvi şəkildə repressiya olunanların böyük əksəriyyətinin əməyindən Sibirin xammalının istismarında istifadə edirdilər ("ГУЛАГ" düşərgələrini yaradaraq – A.M.).

Yeri gəlmişkən, bir faktı da nəzərdən qaçırmaq lazım deyil ki, repressiya Kremldən planlı surətdə idarə olunurdu. O dövrdə Stalinin təkidi ilə ÜİK(b)P MK-nın katibi A.A.Jdanov Azərbaycan KP MK-ya, şəxsən Mir Cəfər Bağırova göndərdiyi məktubda (bu məktub onun məhkəməsində oxunmuşdur) onu əksinqilabçı düşmənlərin, sosializm əleyhdarlarının tapılıb ifşa edilməsində qətiyyətsizlik göstərdiyinə görə günahlandırırdı. Sözsüz ki, bu xəbərdarlıq məktubu əsassız deyildi. Artıq Kremlə M.C.Bağırovun Azərbaycanın milli ruhlu bu və ya digər





görkəmli ictimai-siyasi xadimini xilas etmək üçün birbaşa Sovet rəhbərliyinə ünvanladığı müraciətləri bəlli idi. Moskvanın Azərbaycan üzrə agentlərinin M.C.Bağırovdan mərkəzə göndərdikləri donoslar, siqnallar ona qarşı yuxarıdakı xəbərdarlıq məktubuna səbəb olmuşdu.

Təəccüblü deyildi ki, 1937-ci il martın 5-də, ÜİK(b)P MK-nın plenumunda Stalinin son sözündə bütün diqqət artıq çağırış xarakteri daşıyan bu məsələyə yönəldilmişdi: "Zənnimcə, indi hamıya aydındır ki, bu gün ziyanvericilər və diversantlar, istər trotskiçi, istərsə də buxarinçi olsun, hansı bayraqla maskalanırsa-maskalansınlar, artıq çoxdan fəhlə hərəkatında siyasi cərəyan deyildirlər. Onlar prinsipsiz və ideyasız professional ziyanvericilər, diversantlar, casuslar və qatillər dəstəsinə çevrilmişlər. Aydındır ki, bu cənabları fəhlə sinfinin düşmənləri kimi, vətən xainləri kimi amansızcasına darmadağın etmək və kökünü kəsmək lazım gələcəkdir. Bu, tam aydındır və əlavə izahat tələb olunmur".

"Ədəbiyyat qəzeti"nin 6 fevral 1937-ci il tarixli nömrəsində çap olunan "Bədii ədəbiyyat məhsulumuz" adlı məqalədə göstərilirdi ki, Azərbaycan Sovet Yazıçılar İttifaqı İdarə Heyətinin iclasında 1937-ci ilin nəşriyyat planlarına baxılmışdır və cari ildə çap olunacaq əsərlərin siyahısına Hüseyn Cavidin də əsərləri salınmışdır.

İ.V.Stalinin martın 5-dəki "tarixi çıxışından" sonra Azərbaycan Sovet Yazıçılar İttifaqı İdarə Heyətinin sədri S.Şamilov "Kommunist" qəzetində çap olunan "Ədəbiyyatda bolşevizm idealları uğrunda" (17 mart 1937-ci il) məqaləsində yazırdı: "Yazıçılar içərisində Azərbaycan həyatı ilə daha az maraqlanan və Azərbaycan zəhmətkeşlərinin mübarizəsinə yad olan əsərlər

yazmaqdan əl çəkməyən Hüseyn Caviddir. Biz bilirik ki, Hüseyn Cavid burjua romantizmi məktəbində yetişmişdir. Bununla yanaşı, Azərbaycan sovet və partiya təşkilatlarının onun üçün yaratdığı imkanlara və hətta əsərinə verilən mükafata baxmayaraq, Azərbaycan əməkçilərinin mübarizəsinə dair heç nə yazmamışdır".

1937-ci il martın 18-dən 23-dək keçirilən Azərbaycan Sovet Yazıçılar İttifaqının III plenumunda deyilirdi: "Bir neçə kəlmə də Hüseyn Cavidin yenidən qurulması haqqında deməliyik. Hüseyn Cavid Əhməd Cavad deyildir. O, burjua məktəbini keçmiş böyük bir yazıçıdır. Onun özünü yenidən qurması nə qədər çətin olsa da, hər halda müşahidə olunur. Onun "Ömər Xəyyam" əsərini götürək. Bu, Hüseyn Cavid üçün müəyyən dərəcədə yenidən qurulmadı. Cavid Azərbaycan şairidir, amma Azərbaycan həyatından çox az yazır. Neçə ildir qadınların yüksəlişi barədə yalnız bir əsər – "Şəhla"nı yazmışdır. Halbuki, xalqımızın səadəti, mübarizəsi, qadınların yüksəlişi Hüseyn Cavid yaradıcılığında hiss edilməlidir. Oktyabr inqilabının XX ildönümü gəlir. Cavid deyir ki, faşizm və müharibə əleyhinə yeni bir əsər yazmışdır. O, bu əsərində zəhmətkeşlərin tələbini nə dərəcədə ifadə edə bilmişdir? Hər halda onun yaradıcılığı haqqında tənqidimiz olduqca zəif və dayazdır. Onun yeni əsərləri haqqında ciddi məqalə yoxdur. Bu isə bizim nöqsanımızdır".

Həmin plenumda M.Müşfiq haqqında deyilirdi: "Yaşlıların nöqsanı yalnız onların mühafizəkarlığında deyil, eyni zamanda Müşfiq kimi gəncləri də zəhərləməsi və ləngitməsindədir".

İkinci məruzədən: "Yoldaş Hüseyn Cavidi neçə ildir tənqid edirik. Hüseyn Cavid Azərbaycan xalqının həyatından yazmır, burada onu haqlı tənqid edirik. O, ədəbiyyatımıza panislamizm,





pantürkizm gətirmişdir. H.Cavid Azərbaycan dilinə qarşı çıxaraq, Osmanlı türklərinin dilini ədəbiyyatımıza gətirmişdir. Bu tənqiddə biz daim haqlıyıq. Burada heç bir güzəştə getməyəcəyik. Bu, haradan gəlir? Hüseyn Cavid Azərbaycan xalqını kiçik, məhdud tarixli bir xalq hesab edir. Buna görə yaradıcılığında özünəməxsus burjuaziya romantikası ilə Osmanlı xalqına arxalanır, öz dilini və tematikasını da oradan alır. Biz Azərbaycan xalqının oğulları bu təhsillə mübarizə etmişik və edəcəyik. Biz heç kəsə haqq verməyəcəyik ki, minillik ədəbiyyat tarixi olan bir xalqa yuxarıdan aşağı baxsın və onu məhdud xalq adlandırsın".

"Ədəbiyyat qəzeti"nin 1937-ci il 29 may nömrəsində ittifaq üzvləri adından anonim çap olunan "Sıralarımızı dərindən yoxlamalıyıq" başlıqlı məqalədə H.Cavid də nəzərdən yayınmamışdı: "Bu təşkilatda məfkürəcə pozulmuş, orijinallığını itirmiş, bədii yaradıcılığı solğunlaşmış şəxslər üzv olmamalıdır. Salman Mümtaz, Sultan Məcid Qənizadə, Sanılı, Musaxanlı, Yusif Vəzir kimilərinin tezliklə Azərbaycan Sovet Yazıçıları İttifaqı sırasından xaric edilməsini qəti və inadlı surətdə tələb edirik".

O illərdə ziyalıları, tanınmış şəxsiyyətləri üz-üzə qoymaq əvvəlcədən düşünülmüş mürtəce siyasət idi. Birini həbs etmək, ləkələmək üçün başqasının şahidliyindən istifadə etmək, sonra isə həmin şahidə də satqın adı vermək. Bu, Stalinə işləyən N.İ. Yejovun Daxili İşlər Komissarlığındakı vəzifə sahiblərinin ən adi iş üsulu idi. Martın 14-də təsdiq olunan Azərbaycan SSR Konstitusiyasının 2-ci maddəsində deyilirdi: "Azərbaycan SSR-in siyasi əsasını mülkədar və kapitalistlər hakimiyyətinin devrilməsi, proletar diktaturasının əldə edilməsi, Azərbaycan xalqının çarizm və rus imperialist burjuaziyasının milli təzyiqindən qur-

tarması və millətçi əksinqilabın darmadağın edilməsi nəticəsində böyümüş və möhkəmlənmiş Əməkçi Deputatların Sovetləri təşkil edir".

Azərbaycan K(b)P-nın XIII qurultayı 1937-ci il iyunun 3-ü axşam saat 6-da M.F.Axundov adına Opera Teatrının binasında öz işinə başladı. Bundan bir neçə saat sonra isə xüsusi adamlar "gizli millətçi-əksinqilabi təşkilatda iştiraka" görə ittiham olunan Seyid Hüseyni, Salman Mümtazı, Yusif Vəziri, Sanılını, Hüseyn Cavidi və başqalarını həbs etdilər.

XIII qurultayın göstərişi isə belə oldu: "Qurultay mədəniyyət və incəsənət cəbhəsində əksinqilabi trotskiçi-müsavatçı və burjua millətçi elementlərinin ziyankar fəaliyyətinin nəticələrinin tezliklə və qəti surətdə aradan qaldırılmasını təmin edən tədbirlər görməyi Azərbaycan K(b)P Mərkəzi Komitəsinə, vilayət, şəhər və rayon komitələrinə tapşırır". M.F.Axundov adına Opera Teatrının salonunda qəbul edilmiş qətnamənin ədəbiyyat və incəsənət xadimləri əleyhinə çevrilmiş həmin maddəsi 5 iyunda "Правда" qəzetində çap olunmuş "Trotski-sağçı casusları amansızcasına darmadağın etməli və kökünü kəsməli" sərlövhəli məqalədəki aşağıdakı tezislə tamamilə səsləşirdi: "Trotskiçi – buxarinçi – rıkovçu casuslara, diversantlara və terrorçulara aman yoxdur və olmayacaqdır! Vətənimizin üzərinə əl qaldıran bütün düşmənləri yuvalarından çıxaracaq, əzəcək və quduz it kimi məhv edəcəyik".

1938-ci il dekabrın 19-da Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı I xüsusi şöbəsinin rəisi Koqanın Suxanova göndərdiyi "Xidməti qeyd"də göstərilirdi ki, "xüsusi sərəncama qədər məhkum Hüseyn Cavid daxili həbsxanadan başqa yerə keçirilməsin".





İki il Bayıl və Keşlə həbsxanasında saxlandıqdan sonra Hüseyn Cavid haqqında belə bir hökm verildi:

SSRİ Xalq Daxili İşlər Komissarlığı yanında Xüsusi
Müşavirənin 14 nömrəli protokolundan

**ÇIXARIŞ**

*9 iyun 1939-cu il.*

**Eşidildi:** 1882-ci ildə Naxçıvanda ruhani ailəsində anadan olmuş, bitərəf, qulluqçu, azərbaycanlı, SSRİ vətəndaşı, tutulana qədər şair-dramaturq Hüseyn Cavidin məhkum olunması ilə əlaqədar Azərbaycan SSR, 24938 №-li iş.

**Qərar:** Hüseyn Cavid – antisovet təşkilatında və təbliğatında iştirakına görə 8 il müddətinə islah-əmək düşərgəsinə salınsın, vaxtı 4 iyun 1937-ci ildən hesablansın.

SSRİ Xalq Daxili İşlər Komissarlığı yanında
Xüsusi Müşavirənin Katibliyinin rəisi Markeyev

Sözsüz ki, Azərbaycan oxucularının böyük əksəriyyəti bütün repressiya prosesinin başında M.C.Bağırovun durduğunu eşidib və oxuyublar. Ancaq bu repressiyalar birbaşa Moskvadan idarə olunurdu və bu prosesə yerli rəhbərlərin müdaxiləsinə imkan verilmirdi. 1937-ci ilin dəhşətli repressiyası SSRİ Xalq Daxili İşlər Komissarının həmin ilin 30 iyul 0044 saylı operativ əmri əsasında həyata keçirilirdi.

**SSRİ Xalq Daxili İşlər Komissarının 1937-ci il 30 iyul 0044 saylı operativ əmri:**

"1937-ci ilin avqust ayının 5-dən bütün respublikalarda, diyar və vilayətlərdə keçmiş qolçomaqların, fəal antisovet ünsürlərin və cinayətkarların repressiya olunması üzrə əməliyyata başlansın:

1. Cəzasını çəkib qurtarsa da, antisovet fəaliyyətini davam etdirən keçmiş qolçomaqlar;
2. Düşərgə və əmək qəsəbələrindən qaçmış, antisovet fəaliyyəti göstərən keçmiş qolçomaqlar;
3. Üsyançı, terrorçu və quldur dəstələrində olmuş, cəzasını çəkmiş, repressiyadan qaçıb gizlənmiş, yaxud cəza yerlərindən qaçaraq, cinayətkar fəaliyyətə yenidən başlamış bictimai ünsürlər;
4. Repressiyadan gizlənən, cəzaçəkmə yerlərindən qaçan və fəal pozuculuq fəaliyyəti ilə məşğul olan antisovet ünsürlər (eserlər, gürcü menşevikləri, müsavatçılar, ittihadçılar və daşnaklar), keçmiş ağlar, jandarmlar, məmurlar, quldurlar, bandalara kömək və bələdçilik edənlər, mühacirlər;
5. Hazırda ləğv edilmiş kazak-ağqvardiyaçı üsyançı təşkilatların, millətçi, terrorçu və casus-təxribatçı əksinqilabi qrupların istintaq və agentura ilə yoxlanmış materiallar əsasında ifşa edilmiş daha  fəal və düşmən mövqeli iştirakçıları;

   Hazırda istintaqı gedən, iş üzrə istintaqı başa çatmış, ancaq işləri hələ məhkəmə orqanlarında baxılmamış eyni kateqoriyadan olan şəxslər də repressiya olunurlar.
6. Həbsxanalarda, düşərgələrdə, əmək qəsəbələrində və koloniyalarda saxlanılan və orada da fəal antisovet pozuculuq işləri aparan keçmiş qolçomaqlar, quldurlar, ağlar, təriqətçi fəallar və din xadimləri;





7. Yuxarıda sadalanan bütün şəxslər-kəndlərdə, kolxozlarda, sovxozlarda və kənd təsərrüfatı müəssisələrində, nəqliyyatda, sovet idarələrində, tikintidə işləyən antisovet ünsürlər repressiya olunmalıdır.

**Repressiya olunanlar barəsində cəza tədbirləri və repressiya olunmalı şəxslərin sayı haqqında**

Repressiya olunan bütün qolçomaqlar, cinayətkarlar və digər antisovet ünsürlər iki kateqoriyaya bölünürlər:

Yuxarıda adı çəkilənlər arasında qatı düşmən mövqelilər birinci kateqoriyaya daxildirlər və dərhal həbsə alınmalı, "Üçlük" tərəfindən işlərinə baxılan kimi, güllələnməlidirlər.

Daha az fəal olan düşmən ünsürlər ikinci kateqoriyaya aiddirlər. Onlar həbs olunmalı və 8-10 il müddətinə həbs düşərgələrinə göndərilməlidir. Onların arasında daha təhlükəli olanlar "Üçlüy"ün müəyyən etdiyi qaydada cəzalarını həbsxanada çəkməlidirlər.

Respublikaların Xalq Daxili İşlər Komissarlarının, XDİK-nin Diyar və Vilayət idarə rəislərinin təqdim etdikləri məlumatlara uyğun repressiya olunacaq şəxslərin sayı müəyyənləşdirilir.

Respublikaların XDİ komissarları, XDİK-nin Diyar və Vilayət idarələrinin rəisləri bizim tərəfimizdən təsdiq edilmiş rəqəmləri özbaşına artırmaq səlahiyyətinə malik deyillər. Təsdiq olunmuş rəqəmlərin artırılmasını şərait tələb edərsə, belə hallarda respublikaların Xalq Daxili İşlər Komissarları, diyar və vilayətlərin idarə rəisləri müvafiq şəkildə əsaslandırılmış məktubla şəxsən mənə müraciət etməlidirlər.

Birinci və ikinci kateqoriyalar üzrə məhkum olunmuş şəxslərin ailə üzvləri, aşağıdakılar istisna edilməklə, repressiya olunmalıdırlar:

Fəal antisovet hərəkətlərə qadir olan ailə üzvləri. Belələri "Üçlüy"ün xüsusi icazəsi ilə düşərgələrə, yaxud əmək qəsəbələrinə köçürülməlidirlər.

Birinci kateqoriya üzrə repressiya olunan şəxslərin sərhəd zolağında yaşayan ailələri sərhəd zonasından içəri rayonlara köçürülməlidirlər.

Birinci kateqoriya ilə repressiya olunanların ailələri yaşadıqları Moskva, Leninqrad, Kiyev, Tbilisi, Bakı, Rostov və Yalta rayonlarından öz seçimlərinə uyğun olaraq, sərhəd zolağı istisna edilməklə, başqa yerlərə köçürülməlidirlər.

Birinci kateqoriya üzrə repressiya olunan bütün şəxslərin ailə üzvləri qeydiyyata alınmalı və daimi nəzarət altında olmalıdır.

### III. Əməliyyatın keçirilməsi qaydaları

Əməliyyat 1937-ci il avqustun 5-də başlansın və 4 ay müddətində başa çatdırılsın. Türkmənistanda, Tacikistanda, Özbəkistanda və Qırğızıstanda əməliyyat avqustun 10-da, Şərqi Sibir vilayətində, Krasnoyarsk və Uzaq Şərq rayonlarında avqustun 15-də başlanılsın.

Repressiya olunan hər bir şəxs haqqında müfəssəl məlumat və ifşaedici materiallar toplanmalıdır. Bunun əsasında həbs olunanların siyahısı tutulmalı, əməliyyat qrupunun rəisi tərəfindən imzalanmalı və iki nüsxədə baxılıb təsdiq edilmək üçün xalq daxili işlər komissarına, XDİK idarə rəisinə, yaxud vilayət şö-





bəsinin rəisinə göndərilməlidir. Xalq daxili işlər komissarı, XDİK idarə rəisi, yaxud vilayət şöbəsinin rəisi siyahıya baxır və göstərilmiş şəxslərin həbsinə sanksiya verir.

Təsdiq edilmiş siyahı əsasında əməliyyat qrupunun rəisi siyahıda göstərilənlərin həbsini həyata keçirir. Hər bir şəxsin həbsi üçün order verilir. Həbs zamanı əsaslı axtarış aparılır və aşağıdakılar hökmən müsadirə edilir: silah, hərbi sursat, hərbi ləvazimat, partlayıcı maddələr, zəhərli maddələr, əksinqilabi ədəbiyyat, sikkə, külçə, qiymətli materiallar, xarici valyuta, çoxaldıcı cihazlar, məktublar. Müsadirə edilən əşyaların adları axtarış protokoluna yazılır.

Həbs olunan şəxs ciddi şəkildə mühafizə edilir. Həbsdən qaçış və ya hər hansı asayiş pozuntusu hallarının qarşısını almaq üçün bütün tədbirlər görülməlidir.

### İstintaqın aparılması qaydaları

Hər bir məhbus və ya məhbuslar qrupu üçün cinayət işi açılır. İstintaq tezləşdirilmiş və sadələşdirilmiş qaydada aparılır. İstintaq prosesində məhbusun bütün cinayət əlaqələri üzə çıxarılmalıdır.

İstintaq başa çatan kimi, iş baxılmaq üçün "Üçlüy"ə göndərilir.

### Hökmün icrası qaydaları

Hökm "Üçlük" sədrlərinin göstərişi ilə icra edilir. Hökmün icra edilməsinə əsas "Üçlüy"ün iclasının protokolundan çıxarışdır ki, buna əsasən hər bir məhkum haqqında çıxarılmış hökmün

şərhi verilir və "Üçlüy"ün imzaladığı xüsusi sərəncam hökmü icra edəcək şəxslərə təqdim olunur.

Birinci kateqoriya üzrə hökm Xalq Daxili İşlər Komissarının, XDİK İdarə rəisinin və Vilayət şöbəsi rəisinin göstərişi ilə müəyyən edilmiş yerdə və qaydada icra olunur. Bu zaman hökmün icra vaxtı və icra edildiyi yer tam şəkildə məxfi saxlanılır. Hökmün icrasına aid sənəd ayrıcı zərfdə məhkumun istintaq işinə əlavə edilir.

**Əməliyyata rəhbərliyin və hesabatın təşkili**

Əməliyyatın keçirilməsinə ümumi rəhbərlik mənim müavinimə - Dövlət Təhlükəsizliyi Baş İdarəsinin rəisi Mixail Frinovskiyə həvalə olunur.

Əməliyyatın gedişi və nəticələri barədə beşgünlük məlumatlar hər ayın 1, 5, 10, 15, 20, 25-i tarixlərində teleqrafla və müfəssəl şəkildə poçtla çatdırılsın.

Əməliyyatın aparılması prosesində əksinqilabi dəstələrin asayişi pozması, xaricə qaçma halları, soyğunçuluq, quldur dəstələrinin yaranması və bütün digər fövqəladə hallar barədə dərhal teleqrafla xəbər verilsin.

**SSRİ Xalq Daxili İşlər Komissarı N.Yejov**

SSRİ Xalq Daxili İşlər Komissarlığının əmrinin yerlərdə necə həyata keçirildiyini 1955-ci ildə Azərbaycan KP MK-nın ikinci katibi vəzifəsinə gətirilmiş D.N.Yakovlevin Mərkəzi Komitənin keçmiş katibi Mir Teymur Yaqubovla dialoqundan görmək olur (Bu arxiv sənədi barədə ilk dəfə mərhum tədqiqat-





çı-jurnalist Teyyub Qurban "Express" qəzetinin 2013-cü il 13-15 aprel sayındakı yazısında məlumat vermişdir).

Yakovlev: - Rayevi tanıyırdınız?

Yaqubov: - O, daxili işlər komissarı idi.

Yakovlev: - Hansı ildə?

Yaqubov: - 1938-ci ildə.

Yakovlev: - Siz onunla yaxından tanış deyildiniz?

Yaqubov: - Əsla yox. Mən 2-3 ay "Üçlüy"ün üzvü olmuşam, iki iclasında iştirak etmişəm.

Yakovlev: - "Üçlüy"ün sədri kim idi?

Yaqubov: - Rayev.

Yakovlev: - Yəqin ki, "Üçlüy"ün üzvü kimi qərarlara imza atırdınız.

Yaqubov: - "Üçlük" ÜK(b)P MK Siyasi Bürosu tərəfindən yaradılmışdı. Qərarlara qol çəkməyə bilməzdim.

Yakovlev: - "Üçlüy"ün iş qaydası necə idi?

Yaqubov: - Dediyim kimi, "Üçlük"lər Siyasi Büronun qərarı ilə yaradılmışdı. Azərbaycanda sədr o dövrdə daxili işlər komissarı Rayev idi. İclaslar onun kabinetində keçirilirdi. Rayevi sonra həbs etdilər.

Yakovlev: - Dediniz ki, "Üçlüy"ün 2-3 iclasında olmusunuz, neçə ölüm cəzasına qol çəkmisiniz?

Yaqubov: - Bunu deyə bilmərəm. Hər iclasda yüzlərlə işə baxılırdı. Protokola iclasda deyil, ertəsi günü imza atılırdı. O zaman hər şeyi daxili işlər orqanları diktə edirdi.

Yakovlev: - Guya DQMV-də əksinqilabi təşkilatın mövcudluğu barədə məlumat vardı.

Yaqubov: - DQMV-də belə işlər az deyildi. Konkret olaraq hansını nəzərdə tutursunuz?

Yakovlev: - 1938-ci ildə DQMV-də guya əksinqilabi təşkilatda iştirak etdiyinə görə 37 nəfər güllələnmişdi.

Yaqubov: - Ola bilər.

Yakovlev: - Bu, terror aktı deyildi?

Yaqubov: - O zaman istintaq materiallarını Xalq Daxili İşlər Komissarlığı hazırlayırdı. Mən hardan biləydim?

Siyasi partiyalar və ictimai hərəkatlar Dövlət Arxivində tədqiqat zamanı tanış olduğum sənədlərdə M.C.Bağırovun milli ziyalılarımızı Azərbaycandakı Kreml emissarlarının caynağından xilas etmək cəhdlərinin şahidi oldum. O, Stalinin apardığı qəddar siyasi kampaniyada Azərbaycanın görkəmli sənətkarlarını, şəxsiyyətlərini mümkün qədər qorumağa çalışırdı. Onun bu fəaliyyətinə dair bir neçə nümunəni veririk. Məsələn, M.C.Bağırovun tapşırığı ilə Əliağa Şıxlinski haqqında hazırlanmış arayışa nəzər yetirək. Həmin arayışda (F.1. Siy.176, İş.30) Əliağa Şıxlinskinin Zaqafqaziya müftisi M.Q.Qayıbovun köməyi ilə Tiflis hərbi gimnaziya məktəbində təhsil aldığı göstərilir. Sonradan Tiflis kadet korpusu adlanan bu gimnaziyanı yüksək qiymətlərlə başa vurur. Sankt-Peterburqda Mixaylov adına hərbi artilleriya məktəbinə daxil olan Ə.Şıxlinski 1881-cı ildə buranı bitirir. Bu dövrdən onun əvvəlcə Qafqazda, sonra isə Uzaq Şərqdə peşəkar hərbçi kimi fəaliyyəti başlayır. Onun rus-yapon müharibəsində Port-Arturun müdafiəsində rolu yüksək qiymətləndirilir və o, IV Georgi ordeninə layiq görülür. 1916-ci ildə Petroqradın artilleriya müdafiəsinin rəhbəri təyin edilən Ə.Şıxlinski1917-ci ilin sentyabrında 10-cu ordunun komandiri vəzifəsinə yüksəlir. Birinci dünya müharibəsindəki xidmətlərinə görə, Ə.Şixlitnski I dərəcəli Stanislav ordeni, I dərəcəli Anna ordeni və xəncəri ilə, II dərəcəli Vladimir ordeni və xəncərlə təltif olunur, general-leytenant rütbəsinə layiq görülür. Heç də təsadüfi deyil ki, Azərbaycan Demokratik Respublikası zamanı milli ordunun generalını repressiyalardan xilas etmək üçün "Правда" qəzetinin 1939-cu il 26 aprel 117/7802-ci sayında rus artilleriyasının 550 illiyi ilə bağlı Ə.Şıxlinski haqqında böyük məqalə dərc olunur. Bu məqalədə onun zəngin hərbi təcrübəsindən və beynəlxalq miqyasda tanınan şəxsiyyət olmasından danışılır.





1943-cü il avqustun 18-də Əliağa Şıxlinski vəfat edib. Sonradan, 1946-cı ildə M.C.Bağırovun tapşırığı ilə Heydər Hüseynov "Ə.Şıxlinski haqqında xatirələr" kitabını nəşr etdirir.

Bəy qızı Əminə xanım "525-ci qəzet"in 1997-ci il 29 oktyabr tarixli sayında çap olunan müsahibəsində suallara cavab verir:

– *Əminə xanım, necə oldu ki, 37-ci ildə sənət adamlarına qarşı olan təzyiqlər sizdən yan keçdi? Deyilənə görə, Mir Cəfər Bağırov sizin sənətinizə pərəstiş edirmiş.*

– Bəy nəslindən olduğuma görə mənə və sənətimə hər vəchlə mane olmağa çalışırdılar. Məni komsomola keçirmədilər. Başa düşdüm ki, məni komsomola qəbul etməyiblərsə, partiyaya da keçirməyəcəklər (bəhanələri də o olurdu ki, bəy nəslindənəm, guya, bacım İrana ərə gedib, casusdur və s.). Bütün bunlarsız isə mənim sənətdə uğurlarım əbəs olacaqdı. Bir sözlə, məni yox etmək istəyirdilər. O vaxtlar bizim rəqs qrupu fəaliyyət göstərirdi. Mir Cəfər Bağırov bizə xüsusi diqqət yetirirdi. Gəlirdi, çıxışlarımıza tamaşa edirdi. Bütün bu təzyiqləri görüb

qərara gəldim ki, Mir Cəfər Bağırova belə bir məktub yazım: "Mən Sizə ata kimi müraciət edirəm. Bəy nəslindən olduğumu bəhanə gətirib məni komsomola qəbul etmirlər. Belə getsə, sənətimi atmağa məcbur olacam. Komsomola, partiyaya qəbul olunmayacağamsa, incəsənətdə qalmağımın nə faydası? Mən gəncəm, gərək taleyimi indidən həll edəm. Ümidim bircə Siz-siz. Əgər məsləhət görsəniz, mən heç kimə maneçilik olmasın deyə, sənətimi ataram".

Üç gündən sonra Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəinin katibi Mir Cəfər Bağırov Əminə Dilbaziyə rəsmi məktub göndərmişdi: "Siz bu sənətdən uzaqlaşmamalısınız, heç nədən ehtiyat etməyin".

Tədqiqatçı-jurnalist Teyyub Qurban 2001-ci il noyabrın 28-də "Həftə" qəzetində çap olunan məqaləsində qeyd edir: "Mir Cəfər Bağırovla Xan Şuşinskinin qiyabi tanışlığı 1923-cü ilə təsadüf edir. O zaman Şuşadan Bakıya gəlmiş iyirmi iki yaşlı xanəndənin "Zabitlər evi"ndə təşkil olunmuş konsertinə gələnlərin arasında iyirmi yeddi yaşlı Mir Cəfər Bağırov da vardı.

Xan Şuşinski Bakıda, Dövlət Filarmoniyasında uğurlu çıxışlarından sonra Ağdama qayıtdı.

Otuzuncu illərdə Moskvanın ermənipərəst rəhbərləri Azərbaycanın inzibati orqanlarında öz adamlarını yerləşdirəndən sonra milli-mədəni sərvətlərimizədə qəsd etmək istəyirdilər. "Proletarın" sevmədiyi tar, muğamat, qədim xalq mahnıları Mir Cəfər Bağırov üçün anası Yaxşı xanımın laylası kimi şirin və əvəzolunmaz idi. 1938-ci ildə, çoxlarının "bəy" və "xan" sözlərini dillərinə gətirməkdən belə çəkindikləri bir vaxtda Azərbaycan rəhbəri əsl adı İsfəndiyar olan Xan üçün Bakının mərkəzində mənzil ayrılmasına göstəriş verir.





Xan Şuşinskiyə 1943-cü ildə Azərbaycanın Xalq artisti fəxri adı verilir. O, 1944-cü ildə M.C.Bağırovun xeyir-duası ilə Cənubi Azərbaycana gedir, Təbriz, Ərdəbil, Qəzvin, Rəşt və başqa şəhərlərdə "Qarabağ" şikəstəsinin sədalarını ürəklərə hopdurur".

Xalq yazıçımız Manaf Süleymanov 1996-cı ildə Xəzər Universitetinin nəşriyyatı tərəfindən buraxılmış "Son bahara çatdıq…" kitabında yazır: "M.C.Bağırov məlumat alır ki, Azərbaycanın görkəmli yazıçısı, dramaturqu Cəfər Cabbarlı və bir neçə görkəmli ziyalımız həbs olunmuşdur. 1923-cü ildə Mircəfər Bağırov bu hadisədən xəbər tutan kimi şəxsən həbsxanaya gedib Cəfər Cabbarlını, Əziz Şərifi və digərlərini azad etdirir".

Mir Cəfər Bağırov Əliağa Vahidə də qayğı ilə yanaşıb. O, qələm dostu kimi M.S.Ordubadi ilə birlikdə Mircəfər Bağırov tərəfindən yeni mənzillə mükafatlandırılır. Üstəlik, Mircəfər Bağırovun göstərişi ilə ona və M.S.Ordubadiyə 10 000 manat pul mükafatı da verilir. 1949-cu ildə Mir Cəfər Bağırovun göstərişi ilə Əliağa Vahid Azərbaycanın Əməkdar incəsənət xadimi fəxri adı ilə təltif olunur.

Atası Rəsul Rzadan bəhs edən "Dünya bir pəncərədir" kitabında Anar yazır: "Müxtəlif dövrlərdə – 30-cu illərdə, 50-ci illərin ikinci yarısında, 60-cı illərin əvvəllərində, atama qarşı güclü tənqid kampaniyaları təşkil olunurdu… Atamın xəstəliyinin ən ağır günlərində isə Ensiklopediyada müşavirə keçirirdilər və vicdan çəkisini özünə artıq yük bilən birisi atamın kölgəsini qılınclayırdı. Deyirmiş ki, ali təhsil diplomu olmayan bir adam (atamın, doğrudan da, ali təhsil diplomu yox idi və bu barədə özü dəfələrlə demiş, yazmışdı) Ensiklopediyaya necə rəhbərlik edə bilər?"

Rəsul Rza 1938-ci ildə Azərbaycan Dövlət Filarmoniyasının müdiri, Azərbaycan Yazıçılar İttifaqının sədri vəzifələrində çalışmışdır.

O, 1946-cı ildən 1950-ci ilədək Mir Cəfər Bağırovun yanında keçirilən müşavirələrə Azərbaycan SSR kinematoqrafiya naziri kimi dəvət olunurdu. 1945-ci ildə Əməkdar incəsənət xadimi olan Rəsul Rza 1951-ci ildə Dövlət mükafatına layiq görülmüşdür.

Manaf Süleymanov "Son bahara çatdıq..." kitabında Mir Cəfər Bağırovla Üzeyir Hacıbəyov arasındakı münasibət barədə yazır: "Mir Cəfər Bağırov Üzeyir bəyin sənətinə və şəxsiyyətinə böyük ehtiramla yanaşırdı. 60 illiyi münasibətilə Üzeyir Hacıbəyov təltif edildi, təntənəli yubileyi keçirildi. "Arşın mal alan" operettası əsasında film çəkildi.

Akademik İmam Mustafayev öz xatirələrində bu barədə belə yazır: "1945-ci ilin sentyabrında bir dəstə məsul işçi Bağırovun yanında, Zuğulbadakı dövlət bağında idik. Saat 4-5 olardı. Birdən Bağırov dedi ki, bu gün Üzeyir bəyin anadan olan günüdür, özü də xəstədir, bağındadır. Gedək, onu təbrik eləyək. Tez yaxşı bir gül dəstəsi düzəltdik. Bağdakı cürbəcür meyvələrdən bir səbətə doldurduq, iki maşında Mərdəkana yola düşdük. Darvazanın qabağında maşını saxladıb həyətə girdik. Üzeyir bəyin həyat yoldaşı Məleykə xanım eyvanda idi. Bizi görəndə ərini səslədi: "Üzeyir, qonaqlar gəlib". Üzeyir bəy həyətə çıxdı, əynində xalat vardı. Kişini görəndə istədi geri qayıdıb paltarını dəyişsin. Bağırov qoymadı, cəld yaxınlaşdı, Üzeyiri qucaqlayıb əlini sıxdı. Dedi ki, səni ad günün münasibəti ilə təbrik etməyə gəlmişik.

…Bir qədər söhbət etdik, adama bir stəkan çay içib, sağollaşdıq".





Sonralar Üzeyir bəy Hacıbəyov Mir Cəfər Bağırova yazdığı məktubunda Mərdəkan görüşünü yada salırdı. Məktubda deyilirdi: "Əziz, çox möhtərəm Mir Cəfər! Sizinlə Mərdəkandakı son dərəcə həyəcanlı görüşümüzün unudulmaz təəssüratı altında mənə daimi, ürəkdən gələn diqqətiniz üçün Sizə hədsiz təşəkkürümü ifadə etməyə söz tapmıram. Moskva ətrafında və burada müalicə zamanı Sizin mənə göstərdiyiniz səmimi qayğını hiss edirdim.

…Sizə sadiq olan Üzeyir Hacıbəyov".

Sözsüz ki, M.C.Bağırov Üzeyir Hacıbəyovun ad gününü qeyd etməklə, onu Stalinə tanıdır, rəhbərlə səmimi əlaqələr qurmasına şərait yaradırdı. Sanki bununla M.C.Bağırov keçmişi Müsavatla və müstəqil Azərbaycanla bağlı olan insanların Sovet quruluşuna düşmən kəsilmədiyini Stalinə sübut etmək istəyirdi.

1934-cü ildə Üzeyir bəy Hacıbəyov Azərbaycan Konservatoriyasının Azərbaycan Musiqisi kafedrasının müdiri vəzifəsində çalışırdı. "Koroğlu" operası üzərində işləyirdi. Həmin ildən başlayaraq, ta 1948-ci ilədək Mir Cəfər Bağırovun iştirakı ilə keçirilmiş büro iclaslarında, respublikada keçirilən mühüm tədbirlərlə bağlı elə bir komissiya yoxdur ki, tərkibində Üzeyir bəy Hacıbəyovun adı olmasın. 1936-cı ildə Üzeyir Hacıbəyova "Əməkdar incəsənət xadimi" fəxri adı verilir. 1937-ci ildə Ü.Hacıbəyov Mir Cəfər Bağırovun yanında keçirilən müşavirədə Azərbaycan Bəstəkarlar İttifaqının sədri kimi iştirak edirdi. 1937-ci ilin sentyabrında böyük bəstəkara "Azərbaycanın Xalq artisti" fəxri adı verildi. Həmin ilin noyabrında Ü.Hacıbəyov SSRİ Ali Sovetinə deputatlığa namizəd göstərilir və dekabrda deputat seçilir.

1937-ci ilin Azəbaycan mətbuatnın baş qəhrəmanı Üzeyir bəy Hacıbəyov və onun "Koroğlu"su idi. "Kommunist" qəzetinin 1937-ci il 12 fevral tarixli sayında Üzeyir Hacıbəyov yazırdı: "Bu yaxınlarda "Koroğlu" operasına baxış mənə çox fayda verdi. Azərbaycan musiqi xadimləri, xüsusilə Azərbaycan bolşeviklərinin rəhbəri M.C.Bağırov yoldaş və Azərbaycan hökumətinin başçısı Hüseyn Rəhmanov yoldaş mənə çox qiymətli və konkret göstərişlər verdilər".

"Koroğlu" operasına baxış zamanı Mir Cəfər Bağırovun bəstəkara tövsiyələrindən biri gələcəkdə də simfonik əsərlər yazanda tar və kamançanı orkestrə daxil etməsi barədə idi.

İndi bəziləri durub deyir ki, "Üzeyir Hacıbəyovu Bağırov həbsə almaq istəyirdi". Bu fikirlər tamamilə əsassızdır. Azərbaycan Xalq Cümhüriyyətinin himnini yazan, doğma qardaşı Fransada yaşayan bəstəkarı qoruyub-saxlamaq Mir Cəfər Bağırova müyəssər olur. Birbaşa M.C.Bağırovun təşəbbüsü ilə "Üzeyir Hacıbəyovun anadan olmasının 60 və yaradıcılıq fəaliyyətinin 40 illiyinə hazırlıq görülməsi, onun keçirilməsi ilə əlaqədar tədbirlər barədə" Xalq Komissarları Soveti və Azərbaycan K(b)P MK qərar verir:

1. Azərbaycan Operasının banisi, SSRİ xalq artisti, bəstəkar Üzeyir Hacıbəyovun anadan olmasının 60 və yaradıcılıq fəaliyyətinin 40 illiyinə hazırlıq görülməsi və yubileyin keçirilməsi üçün aşağıdakı tərkibdə komissiya təşkil edilsin:

| | |
|---|---|
| M.İbrahimov (sədr) | H.Rəhimov |
| H.Həsənov | Əli Vəliyev |
| N.Allahverdiyev | Şövkət Məmmədova |
| H.Hüseynov | Murtuza Məmmədov (Bülbül) |





| | |
|---|---|
| S.Rəhimov | Zeydman |
| Səməd Vəkilov (Vurğun) | Rəsul Rza |
| Musa Əliyev | |

2. Azərbaycan SSR Elmlər Akademiyasına (Mirqasımov, Hüseynov yoldaşlara) tapşırılsın ki, Üzeyir Hacıbəyovun həyatı, yaradıcılığı və ictimai fəaliyyətindən bəhs edən kitabça hazırlayıb nəşr etsin.

3. Azərbaycan SSR Xalq Komissarları Soveti yanında İncəsənət İdarəsinə (H.Rəhimov yoldaşa) bir vəzifə olaraq tapşırılsın:

a) "Koroğlu" operasının və Stalinin 60 illiyinə həsr olunmuş kantatanın Azərbaycan və rus dillərində mətnlərlə klavirini nəşr olunmaq üçün hazırlasın;

b) "Arşın mal alan" musiqili komediyasının klavirini nəşr etsin;

c) Teatr muzeyində Üzeyir Hacıbəyovun yaradıcılığına həsr olunmuş sərgi təşkil etsin;

d) Ü.Hacıbəyovun həyatına, ictimai fəaliyyətinə həsr olunmuş məruzə və mühazirələr, həmçinin xüsusi radio verilişləri təşkil etsin;

e) Üzeyir Hacıbəyovun 60 illik yubileyinin keçirilməsində yerli təşkilatlara köməklik göstərmək məqsədilə Naxçıvan, Kirovabad, Ağdam, Stepanakert, Şuşa, Nuxa və Ağcabədiyə yaradıcı işçilərdən və bəstəkarlardan ibarət briqadalar ezam edilsin.

4. Azərbaycan Bəstəkarlar İttifaqına tapşırılsın ki, Üzeyir Hacıbəyovun yaradıcılığı və ictimai fəaliyyətinə aid məqalələr hazırlasın və dərc olunmaq üçün mərkəzi nəşrlərə – "Правда",

"Известия", "Комсомольская правда", "Советское искусство" və digər qəzetlərə göndərilsin.

5. Azərbaycan Dövlət Radio Komitəsinə (Abbasov yoldaşa) təklif edilsin ki, Üzeyir Hacıbəyovun musiqi əsərlərindən ibarət xüsusi proqramlar hazırlasın və Ümumittifaq radio komitəsinə göndərsin.

6. Kinematoqrafiya İşləri İdarəsi (Rəsul Rza yoldaş) Üzeyir Hacıbəyovun yubileyinə həsr olunmuş materiallar hazırlasın və xüsusi kino-xronika nümayiş etdirsin.

7. Azərbaycan Dövlət Konservatoriyasının müdavimləri üçün hər biri 400 manat olmaqla, Üzeyir Hacıbəyov adına iki təqaüd təsis edilsin.

8. Azərbaycan Respublikası Elmlər Akademiyasının İncəsənət İnstitutuna Üzeyir Hacıbəyovun adı verilsin.

9. Respublika qəzetlərinin redaktorlarına tapşırılsın ki, Üzeyir Hacıbəyovun həyat və yaradıcılığı barədə materiallar dərc etsinlər, yubiley günü – sentyabrın 18-də isə qəzetin bütöv bir səhifəsini ona həsr etsinlər.

10. 1945-ci il sentyabrın 18-i Üzeyir Hacıbəyovun anadan olmasının 60 illiyində bəstəkarların, yazıçıların, artistlərin və Bakı şəhəri ziyalılarının, digər nümayəndələrin iştirakı ilə təntənəli yubiley gecəsi keçirilsin.

11. ÜK(b)P Mərkəzi Komitəsindən xahiş edilsin ki, SSRİ Xalq artisti Üzeyir Hacıbəyov yoldaşın yubileyinin keçirilməsinə icazə versin.

Azərbaycan SSR Xalq Komissarları
Sovetinin sədri T.Quliyev.
Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov.





Bütün bunlar M.C.Bağırovun özünü həbs olunmaq təhlükəsi ilə üzləşdirir. Bu təhlükə, xüsusilə, 1938-ci ilin əvvəllərində yaranır. Azərbaycandan SSRİ Xalq Daxili İşlər Komissarlığına və ÜİK(b)P MK-ya göndərilən donoslarda M.C.Bağırovun Azərbaycan Xalq Daxili İşlər Komissarlığına bir çox insanın həbslərdən azad edilməsi barədə müraciətləri göstərilirdi. 1938-ci ilin yanvarında N.İ.Yejovun tapşırığı ilə Bakıya SSRİ Daxili İşlər Komissarlığından böyük bir komissiya gəlir. Komissiyanın əsas məqsədi respublika rəhbərliyinin əksinqilabla mübarizəsinin zəif təşkil edilməsi və M.C.Bağırovun əksinqilabçılara qayğı ilə yanaşması faktlarını üzə çıxarmaq idi. Məhz bu dövrdə Azərbaycan Xalq Daxili İşlər Komissarı Y.D.Sumbatov-Topuridze vəzifəsindən kənarlaşdırılır, onun yerinə Rayev təyin olunur. Moskvadan gələn komissiya M.C.Bağırovun həbsini əsaslandırmaq üçün müəyyən işlər görür və bu yoxlamanın nəticəsi kimi, onun millətçi-təmayülçü olması barədə Moskvaya məlumatlar ötürülür. Həmin məlumatlarda onun "Hümmət" təşkilatı ilə əlaqələri xüsusi vurğulanırdı. Lakin, 1938-ci ilin yazında L.P.Beriya SSRİ Xalq Daxili İşlər Komissarının müavini təyin olunandan sonra hadisələrin məcrası dəyişir. Beriyanın yeni vəzifədə ilk addımlarından biri Y.D.Sumbatov-Topuridzeni Moskvaya yanına gətirərək işlə təmin etməsi olur. Y.D.Sumbatov-Topuridze SSRİ Xalq Daxili İşlər Komissarlığının təsərrüfat şöbəsinin müdiri təyin edilir. L.P.Beriya Stalinə N.İ.Yejovun tapşırığı ilə Bakıya göndərilmiş komissiyanın yoxlamanı düzgün aparmadığı barədə məlumat verir.

A.A.Ovsiyenko "Beriya" kitabında qeyd edir ki, Beriya Daxili İşlər Komissarlığının istintaq materialları ilə tanış olarkən "Ay-ay-ay, bunlar nə ediblər" - deyərək, 37-ci il özbaşınalıqları

barədə Stalinə məlumat verir. Təsadüfi deyil ki, ÜİK(b)P MK-nın 1938-ci il 17 noyabr tarixli qərarında deyilirdi:

"1937-38-ci illərdə Xalq Daxili İşlər Komissarlığının (NKVD) apardığı istintaqlar ciddi qüsurlarla yanaşı, məhbuslarla qeyri-insani davranışları ilə daxili işlər və prokurorluq orqanlarına ləkə gətirmişdir".

Xalq Daxili İşlər Komissarlığının işçiləri agentura-informasiya mənbələrinə istinad etməmiş, istintaq zamanı ittiham olunan şəxslər günahlarını boyunlarına aldıqdan sonra, müstəntiqlər həmin müqəssirin ifadələrini təsdiq edən sənədləri üzə çıxarmayıb. Onlar ittiham olunan şəxslərin ifadələrini protokollara yazdırana qədər istintaqı qeydlərlə aparmışlar. İttiham olunan şəxs günahını tam boynuna alandan sonra qeyri-qanuni protokollar "tərtib edilmişdir".

ÜİK(b)P MK-nın bu qərarının formalaşmasında, sözsüz ki, L.Beriyanın xidmətləri misilsizdir. Bu qərardan sonra NKVD-yə (Xalq Daxili İşlər Komissarlığına) və prokurorluğa kütləvi həbs əməliyyatları və sürgünlər həyata keçirmək qadağan olundu. Bundan sonra hər-hansı həbsi yalnız prokurorun sanksiyası və məhkəmənin qərarı ilə həyata keçirmək olardı. Həmçinin qərara görə, məhkəmə "Üçlük"ləri ləğv olunurdu. Şübhəli şəxslərin işi məhkəmə orqanlarına və ya Xalq Daxili İşlər Komissarlığının xüsusi yığıncaqlarına verilirdi. Bu yığıncaqlarda isə vəkil və dövlət ittihamçısının iştirakı vacib sayılırdı. Şübhəsiz, istər Beriya, istərsə də M.C.Bağırov Zaqafqaziyada onların iradəsindən asılı olmayan ədalətsiz həbslərin səbəbkarı kimi, N.İ. Yejovun nə vaxtsa məsuliyyət daşıyacağını bilirdilər. 1938-ci il noyabrın 24-də Siyasi Büro Yejovu SSRİ Xalq Daxili İşlər Komissarı vəzifəsindən azad edir. Bu vəzifəyə L.R.Beriya seçi-





lir. Çox keçmir ki, 1939-cu ilin aprel ayında Beriyanın tapşırığı ilə Sumbatov-Topuridzenin rəhbərliyi altında əməliyyat qrupu (baxmayaraq ki, Sumbatov o dövrdə XDİK-nin təsərrüfat şöbəsinin müdiri idi – A.M.) N.İ.Yejovu həbs edir. N.İ.Yejovun cinayət əməlləri sübuta yetirilir və o, 4 fevral 1940-cı ildə güllələnmə cəzasına məhkum edilir.

## M.C.Bağırovun 1941-1945-ci illərdə Zaqafqaziya Cəbhəsi üzrə Müdafiə Şurasının üzvü kimi

## FƏALİYYƏTİ

O dövrdə partiya-təsərrüfat orqanlarında fəaliyyət göstərən insanlar rayon partiya komitəsinin iclaslarında həmişə ehtiyat edirdilər ki, birdən yığıncaqda Bağırov peyda olar. M.C.Bağırov iclas zamanı birinə diqqətlə baxanda, həmin şəxs artıq taleyinin dəyişəcəyini hiss edirdi. Elə məqamlarda həmin şəxs həyəcandan hətta infarkt ola, salonu xərəkdə tərk edə bilərdi. Bağırov özünün qohum-əqrəbasına qarşı da amansız olmuşdur. Bir gün Bağırova xəbər verirlər ki, Quba rayonunda komsomolun katibi işləyən bacısı oğluna qonaq getdiyi evdə xalça hədiyyə ediblər. Bağırov bacısı oğlunu yanına çağırır, belə bir hadisənin olduğunu dəqiqləşdirir, sonra ona bir şillə vurur və tapşırır ki, xalçanı aparıb yiyəsinə qaytarsın. Yaxud digər bir misal: Bağırov özünün dalaşqan oğlu Volodya (Cahangir) ilə sərt davranır, tərbiyəsi ilə ciddi məşğul olurdu. Müharibə başlayanda hamı kimi M.C.Bağırov da oğlunu müharibəyə yollayır. Böyük Vətən Müharibəsi illərində Azərbaycanın hər guşəsində insanlar korluq çəkirdi. Bu zaman İsmayıllı rayonunun Basqal kəndində orta

məktəb müəllimi işləyən Zəminə Məmmədova Mir Cəfər Bağırova məktub yazır. O, məktubunda şagirdləri birə basdığını bildirir. Həmin məktubdan bir neçə gün sonra Məmmədova Zəminə məktəbin həyətində qara avtomobilin dayandığını və bir neçə hərbçini görür. Müəllimlər otağına daxil olanda əynində hərbi şinel olan M.Bağırovu görür. O, Zəminə müəlliməyə yaxınlaşıb soruşur:

- Məktubu siz yazmısınız?

Müəllimə "bəli" cavabını verir.

- Yazdıqlarınız düzdürmü?

- Bəli.

Sonra məktəb direktoruna sual verir:

- Məktubda yazılanlar doğrudurmu?

Məktəbin direktoru əl-ayağı əsə-əsə bunu inkar edir. Bağırov hərbçilərə uşaqların paltarlarını yoxlamağı tapşırır və vəziyyətin həqiqətən də acınacaqlı olduğu təsdiqlənir. Bundan sonra Bağırov Zəminə müəlliməni yanına çağırıb, əlini onun çiyninə vurur və deyir: "Qızım, bundan sonra sənin işin çətinə düşsə, mənə yoldaşlıq məktubu yaza bilərsən". M.C.Bağırov gedəndən sonra Basqala ardı-arası kəsilmədən yük maşınları ilə un, şəkər, sabun və digər gündəlik tələbat malları daşınır və sakinlər arasında bölüşdürülür.

Müharibə dövründə, ümumiyyətlə, M.C.Bağırov imkan daxilində ziyalıların və azyaşlı Azərbaycan balalarının qayğısına qalmağa çalışırdı. Bunun sübutunu onun imzaladığı sənədlərdə görə bilərik.

1942-ci il martın 27-də keçirilən Az.K(b)P MK bürosunun 2227 №-li protokolunda göstərilir ki, (bax: F1, S:103. İş 66, səh.12-13) Azərbaycan Xalq Komissarları Şurası və Az.K(b)P





MK-nın qərarına əsasən, xəstəxanaların və uşaq müəssisələrinin qida məhsulları ilə təmin olunması üçün təsərrüfat sahələrinin inkişafı nəzərdə tutulur.

Qərarda o da göstərilirdi ki, məktəblərin, uşaq bağçalarının, yetimxanaların, pioner düşərgələrinin, xəstəxanaların və s. müəssisələrin torpaq sahələrində meyvə ağaclarının, kartofun əkilməsi, xırda quşçuluq təsərrüfatının yaradılması, südçülük fermalarının təşkili həyata keçirilməlidir.

Həmin qərara görə, Bakı şəhər icra hakimiyyəti on gün müddətinə torpaq sahələrinin ayrılmasını təşkil etməlidir.

Bütün yuxarıda sadalanan məsələləri həyata keçirmək üçün məsuliyyəti Xalq Səhiyyə Komissarlığı, Bakı şəhər İcraiyyə Komitəsi, Xalq Tələbat Komissarlığının rəhbərləri daşıyırdı.

Elm, ədəbiyyat və incəsənət xadimlərinin müharibə dövründə həyatda qalmaları və acından ölməmələri üçün Mərkəzi Komitə 27 mart 1942-ci ildə digər bir qərar verir.

**Az.K(b)P Mərkəzi Komitəsi**

Protokol № 227, bənd 8, 1942-ci il 27 mart indeksi. (siyahılar)

Az.K(b)P MK Bürosunun iclası

Az.K(b)P MK və XKS-nin "Elm, incəsənət və ədəbiyyat işçilərinin təchizatının təşkil edilməsi barədə" qətnaməsi.
(SSR İttifaqı Xalq Ticarət Komissarlığının
9 mart 1942-ci il 37 saylı əmri)

Partiya və hökumətin elm, incəsənət və ədəbiyyat işçilərinin təchizatının yaxşılaşdırılması ilə bağlı qərarlarına uyğun olaraq, Azərbaycan K(b)P MK və XKS qərara alır:

1. Az.SSR Xalq Ticarət Komissarlığına (y. Əhmədov) təklif olunsun ki, 1942-ci il aprelin 1-dən etibarən elm, incəsənət və ədəbiyyat işçilərinin təchizatını xüsusi müəssisələrin işçiləri üçün təsdiq olunmuş qayda üzrə və sənaye, nəqliyyat və rabitə işçiləri üçün müəyyən edilmiş normalara uyğun siyahılar üzrə təşkil etsin.

2. Təchizatın təşkili və siyahıların tərtibi zamanı aşağıdakılar nəzərə alınsın:

a) SSRİ Elmlər Akademiyasının akademikləri və müxbir üzvləri, Stalin mükafatı laureatları, əməkdar elm, texnika və incəsənət xadimləri, SSRİ-nin və Azərbaycan SSR-nin xalq artistləri xüsusi müəssisələrin işçiləri üçün siyahıda göstərilən, müəyyən edilmiş normalara uyğun ərzaq malları ilə təchiz edilsin. Eləcə də onlara hər ay əlavə olaraq 300 qram həcmində şokolad, 500 qram həcmində kakao, yaxud qəhvə verilsin;

b) professorlar, elmlər doktorları, ali məktəblərin kafedra müdirləri – dosentlər, ali məktəblərin və elmi-tədqiqat institutlarının direktorları, SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının elmi əməkdaşları, Stalin təqaüdü alan doktorantlar, Azərbaycan SSR-nin əməkdar artistləri, sirk və balet ustaları, SSRİ yazıçılar, rəssamlar, memarlar, bəstəkarlar ittifaqlarının üzvləri sənaye, nəqliyyat və rabitə işçiləri üçün təsdiq edilmiş normalara uyğun ərzaq məhsulları ilə təchiz edilsin.

3. Az.SSR Xalq Ticarət Komissarlığına (y. Əhmədov) təklif olunsun ki, yeməkxanalarda elm, incəsənət və ədəbiyyat işçiləri üçün təşkil olunan naharın hazırlanmasına ət, balıq, yağ,





yarma sənaye, nəqliyyat və rabitə işçiləri üçün təsdiq edilmiş normalara bərabər həcmdə, əsas ərzaq məhsullarının verildiyi mağazalardan siyahı üzrə ayrılsın.

4. Azərbaycan SSR Xalq Ticarət Komissarı yoldaş Əhmədova təklif olunsun ki, məhsulun ayrılmasını və hesabatın aparılmasını qaydaya salmaq məqsədilə təsdiqlənmiş siyahılar üzrə elm, incəsənət və ədəbiyyat işçilərinə mətbəə üsulu ilə çap olunmuş talon-kitabçalar verilsin. Həmin sənədlər əsasında təqdim olunan talonlar üzrə normaya uyğun ərzaq ayrılsın və onların yeməkxanaya girişi və oradan istifadə hüququ təmin edilsin.

5. Azərbaycan SSR-nin Xalq Maarif Komissarlığına (y. Məmmədov), Xalq Səhiyyə Komissarlığına (y. İsmayılov), SSRİ EA Azərbaycan filialına (y. Hüseynov və Əzizbəyov), Xalq Torpaq Komissarlığına (y. Cəfərov və Abdulov), eləcə də Azərbaycan SSR XKS yanında incəsənət məsələləri üzrə İdarəyə (y. M.İbrahimov) və Azərbaycan SSR Xalq komissarlıqlarının rəhbərlərinə tapşırılsın ki, bir sutka ərzində elm, incəsənət və ədəbiyyat işçilərinin fərdi siyahılarını təsdiqlənmək üçün Azərbaycan K(b)P MK-ya və XKS-nin komissiyasına təqdim etsin.

6. Azərbaycan SSR-nin Xalq Ticarət Komissarı yoldaş Əhmədova təklif olunsun:

a) elm, incəsənət və ədəbiyyat işçilərinin təchizatının və qidalanmasının təşkili üçün Bakı şəhərində iki nümunəvi mağaza və iki yeməkxana ayırsın;

b) təşkil olunan mağaza və yeməkxanaların ştatı vicdanlı, yoxlanmış işçilərlərlə komplektləşdirlisin və onların fərdi siyahıları təsdiqə verilsin;

c) təşkil olunan mağazalarda normadakı ərzaqlardan başqa, müəyyən olunmuş kartoçka üzrə çörək, qənd, tərəvəz, qastronomiya, baqqaliyyə və digər məhsullar da satılsın;

d) mərkəzi fondlardan ayırmalar üçün elm, incəsənət və ədəbiyyat işçilərinin tam siyahısı ilə bağlı SSRİ Xalq Ticarət Komissarlığına bir sutka ərzində teleqraf vasitəsilə məlumat verilsin;

7. Elm, incəsənət və ədəbiyyat işçilərinin təchizatının və qidalanmasının təşkili işlərində yerli partiya təşkilatlarına kömək etmək üçün Azərbaycan SSR Xalq Ticarət Komissarının müavini y. Səmədov və Azərbaycan K(b)P MK-nın ticarət və ictimai iaşə şöbəsinin müdiri y. Məmmədov Kirovabad şəhərinə ezam olunsunlar.

8. Xalq Ticarət Komissarı y. Əhmədova, Xalq Dövlət Nəzarəti Komissarı y. Əlizadəyə və Azərbaycan K(b)P MK-nın ticarət və ictimai iaşə şöbəsinə elm, incəsənət və ədəbiyyat işçilərinin mağaza və yeməkxanalarının təchizatı işini mütəmadi surətdə nəzarətdə saxlamaları tapşırılsın. Bu zaman xüsusi siyahıya alınmış ziyalılara nümunəvi, mədəni xidmətə nail olmalı, çəkidə, ölçüdə və hesablaşmada səhvə yol vermiş günahkarlar ciddi məsuliyyətə cəlb edilməlidirlər.

9. Mağaza və yeməkxanalara praktiki pəhbərliyi təşkil etmək, bu mağaza və yeməkxanalara kadrların seçilməsi və komplektləşdirilməsi, eləcə də bu Qərara əsasən təchiz olunacaq elm, incəsənət və ədəbiyyat işçilərinin siyahılarını təsdiq etməkdən ötrü aşağıdakı tərkibdə komissiya yaradılsın;

1. Allahverdiyeva N. Az.SSR XDS-nin sədr müavini - komissiyanın sədri.





2. Əzizbəyova A. - “... ” - komissiyanın üzvü.

3. Zamanova - Azərbaycan K(b)P MK-nın katibi – komissiyanın üzvü.

4. Hacıyeva Y. - Azərbaycan K(b)P BK-nın katibi – üzv.

5. Əhmədova - Az.SSR Xalq Ticarət Komissarı – üzv.

10. Azərbaycan K(b)P-nın rayon komitələrinə, Xalq Maarif Komissarlığına (y. Məmmədov), Xalq Səhiyyə Komissarlığına (y. İsmayılov), Xalq Torpaq Komissarlığına (y. Cəfərov), Azərbaycan SSR XKS yanında incəsənət məsələləri üzrə İdarəyə (y. M.İbrahimov), SSRİ EA-nın Azərbaycan filialına (y. Hüseynov və Ş.Əzizbəyov) və digər xalq komissarlıqlarının və elmi müəssisələrin rəhbərlərinə tapşırılsın ki, elm, incəsənət və ədəbiyyat işçilərinə partiya və hökumətin sovet ziyalılarınaStalin qayğısının yeni formasını izah etsinlər və onları sosializm quruculuğu və alman-faşist qəsbkarlarından ölkəmizin müdafiəsi işində daha fəal olmağa çağırsınlar.

| | |
|---|---|
| Azərbaycan SSR XKS-nin sədri | Azərbaycan K(b)P MK-nın katibi |
| T.Quliyev | M.C.Bağırov |

Müharibənin ilk illərində Türkiyənin Hitler Almaniyası ilə xoş münasibətləri formalaşmışdı. Bu münasibətlər 1942-ci ilin yayına qədər daha sıx idi. Türkiyənin siyasi rəhbərliyi İtaliyanın Almaniyaya yaxınlaşdığını görəndə anladı ki, Osmanlı imperatorluğunun cənub ərazisini işğal etmiş İtaliya ordusunun növbəti hədəfi uzaq gələcəkdə Türkiyə torpaqları olacaqdır. Ona görə də türklər Almaniya ilə bərabər SSRİ-yə qarşı müharibə elan edirlər. 1942-ci ilin yazında Mikoyan məharətlə Stalinin qar-

şısında məruzə ilə çıxış edir. Azərbaycanlıların türk olduğunu qeyd edərək, Almaniyada mövcud olan Azərbaycan legionlarını əsas gətirərək, Cənub sərhədlərində türklərin yerləşməsini gələcəkdə Bakı neftini itirmək təhlükəsini yaratdığını göstərir. Nəticədə Azərbaycandan azərbaycanlıların "deportasiyası" məsələsi Siyasi Büroya çıxarılır. Beriyadan başqa Siyasi Büronun bütün üzvləri bu deportasiyaya razılıq verir. Beriya öz çıxışında "Bu işi M.C.Bağırovun razılığı olmadan həll etmək olmaz", - deyərək, Siyasi Büronun iclasında ümumi fikrə gəlməyə imkan vermir. İclasdan sonra M.C.Bağırova zəng edərək dərhal bir neçə tədbirləri həyata keçirməyi məsləhət görür. O vaxtlar Azərbaycan Xalq Torpaq Komissarı olmuş Cəfər Cəfərov öz xatirələrində qeyd edir: "M.C.Bağırov mənə telefon açaraq yanına çağırdı. Kabinetə daxil olanda respublika rəhbərliyinin böyük əksəriyyəti onun ətrafına toplaşmışdı. O, mənə dedi: "Yaxın gəl. Bir neçə günə azərbaycanlı komsomol təşkilat rəhbərlərinin yerli orqanlarının və xüsusən, 50 yaşa qədər partiya təsərrüfat rəhbərlərinin kütləvi şəkildə müharibəyə getmək təşəbbüsü barədə Stalinə teleqramlar təşkil edirsən". Mən otağı tərk edəndə M.C.Bağırov kabinetdəki digər rəhbər yoldaşlara öz tapşırıqlarını verirdi".

Görünür, M.C.Bağırov bu qəbildən olan, ictimai-siyasi əhəmiyyət daşıyan addımları və L.P.Beriyanın köməyi ilə 1942-ci ildə azərbaycanlıların departasiyasının qarşısını alır. Ola bilsin ki, 1942-ci ilin sonunda Türkiyənin Almaniya ilə münasibətlərinin korlanması da deportasiya məsələsini 1947-ci ilə qədər gündəlikdən çıxartdı.

Azərbaycan oğulları isə Sovet ordusu tərkibində faşist Almaniyasına qarşı vuruşurdular. Azərbaycanlıların əksəriyyəti rus dilini bilmirdi. Döyüş zamanı rus dilində verilən əmrləri başa düşmürdülər. Bu da rus zabitləri tərəfindən onları guya hərbi nizamnaməni pozduğuna görə hərbi tribunala vermələrinə səbəb olurdu. Bəzən rus generalları azərbaycanlıları yerindəcə güllələyirdi.





Nəsiman Yaqublu "Azərbaycan legionerləri" kitabında qeyd edir (səh.105):

"Cəbhə bölgələrində, hərbi hissələrdə və döyüş yerlərində azərbaycanlı əsgərlərə qarşı kobud münasibət, nifrətlə yanaşma vardı. Rus şovinizminə yoluxmuş 3-cü taborun komandiri Ponomaryov açıqca bildirirdi: "Mən onunla döyüşə getməyəcəyəm". Yaxud hərbi hissələrdə belə məzmunlu şayiələr yayılırdı: "Azərbaycanlılardan döyüşçü çıxmaz". Belə münasibət, şübhəsiz, döyüşçülərə pis təsir göstərir, onlar təhqir olunurdular. Odur ki, döyüşçülər arasında beynəlmiləl tərbiyə işinin yüksəldilməsi ciddi problem olaraq qalırdı. Əsgərlərə qayğı və xidmət olduqca aşağı səviyyədə idi. Yorğan-döşək çatışmır, hamama aparılmır, yaralılara tibbi yardım göstərilmirdi.

Məxfi sənədlərdə qeyd olunurdu ki, əsgərlərin çoxu rus dilini bilmir. Bu səbəbdən onlar komandirlərin əmrini düzgün yerinə yetirə bilmir və müvafiq qaydada cəzalanırdı. Rus dilini bilmədiyi üçün əsgərlər silahla davranmağı da pis mənimsəyirdi. O illərin ağır sınağından çıxmış 76 yaşlı Ceyhun kişi xatırlayır: "Bizi traktor zavodunda yerləşdirdilər. Qısa müddətli kursda desant və paraşütçü peşələrini öyrətdilər. "Öyrətdilər" deyəndə ki, beş-on günə nə öyrənmək olardı? Sonra Ukraynaya göndərildik. Faşistlər çox güclü idi. Həm də biz cənub uşaqları soyuğa dözmürdük. Almanlarla əlbəyaxa döyüşlər ordumuza baha başa gəlirdi. Hər dəfə döyüşə girəndə əllərimi göyə açıb deyirdim: "Ey bizi Yaradan, mənə ucuz ölüm vermə!".

Azərbaycanlı əsgərlərin çoxluq təşkil etdiyi hissələrdə yerləşdirilən, rəhbər heyətdəki ermənilər isə "intiqam" almağı unutmur, onları incidirdilər. Azərbaycan K(b)P MK-nın katibi Məmmədova göndərilən məktubda yazılırdı: "276-cı alayın 3-cü bölüyünün partiya komitəsinin katibi T.Danielyan bəzi döyüşçülərin ayrı-ayrı nöqsanlarını izah etmək əvəzinə, onları senzuradan kənar sözlərlə söyüb təhqir edir. Azərbaycan K(b)P MK-nın nümayəndələri: Babayev, Qasımov. 9.XI.1941".

Azərbaycanlı əsgərlərə qarşı fiziki güc işlədilir, onlar döyülür, təhqir olunurdular. Məxfi məlumatlarda yazılırdı: "Kiçik komandirlərin özlərini düzgün aparmaması, çağırışçılara fiziki güc tətbiq etməsi, onların təhqir olunması səbəbindən əsgərlər arasında narazılıq artmaqdadır. Məsələn, noyabrın 20-də 75-ci alayda Qızıl Ordu əsgəri Qurban Bəbir oğlu Nəsirov siqaret növbəsinə dayanarkən döyülmüşdür".

75-ci alayda əsgərlərdən siqaret almaq adı ilə 12 min manat pul yığılıb, lakin bu pul başqaları tərəfindən mənimsənilib. Çoxlarının paltarı, çəkmələri tez-tez oğurlanırdı. MK-nın məxfi məlumatlarında yazılırdı: "Gədəbəy, Tovuz, Nuxa və Şamaxı rayonlarının hərbi komissarları adamları hərbi xidmətə göndərərkən onları tibbi müayinədən keçirmirlər. Odur ki, xəstə vəziyyətdə orduya gətirilənlər yararsız hesab olunur. Belə hallar da var ki, orduya göndərilən ağır xəstə bir neçə gündən sonra hərbi hissədə vəfat edir. Həmin rayonların hərbi komissarları cəbhəyə gedənlərin ailələrinə diqqət yetirmir, əsgər ailələrinin dövlət təminatına köməklik göstərmirlər. Əsgərlər arasında şayiə gəzir ki, bütün fərarilər dağlarda gizlənmiş quldurlar sayılır. Azərbaycan K(b)P MK Qutqaşen rayon komitəsi bu məlumatdan siyasi nəticə çıxarmır, fərariləri, qorxaqları, şayiə yayanları





lazımi səviyyədə cəzalandırmır. Azərbaycan K(b)P MK-nın təşviqat briqadasının üzvü S.M.Aydınbəyov. 27.XI.1941".

Azərbaycan K(b)P MK-nın təşviqat briqadası Zaqafqaziya cəbhəsinin 28-ci ehtiyat-atıcı briqadasında çoxlu çatışmazlıq aşkar edib, bu barədə məlumatı Azərbaycan K(b)P MK-nın katibi və Zaqafqaziya Cəbhəsi hərbi şuranın üzvü M.C.Bağırova çatdırmışdı. Məlumatlar çox ciddi xarakter daşıyırdı. Bu məlumatlarda partiya-siyasi və kütləvi-təbliğat işinin gücləndirilməsinin vacibliyi bildirilirdi. Qeyd olunurdu ki, azərbaycanlı əsgərlər komandirlərin onları xoşagəlməz ana söyüşləri ilə təhqir etməsindən şikayətlənirlər.

Məlumatda göstərilirdi: "Qeyd etməliyik ki, siyasi işçilər və onların bu və ya digər alaydakı müavinləri milli tərkibi nəzərə almadan komplektləşdirilib. 106-cı atıcı alayında döyüşçülərin 35 faizinin azərbaycanlılardan ibarət olmasına baxmayaraq, siyasi işçilərin və onların müavinlərinin yalnız 4-5 faizi azərbaycanlıdır, yaxud azərbaycanca danışmağı bacaranlardır. Amma savadlı və siyasi cəhətdən yoxlanılmış kommunist və komsomolçu azərbaycanlılar da hissələrdə çoxdur".

Bundan əlavə, hərbi hissələrdə bütün mühazirələr rus dilində oxunduğundan azərbaycanlı döyüşçülərin çoxu bunu başa düşmür, hazırlıqsız olurlar. Hər bir siyasi dərs üçün nəzərdə tutulan 2 saatın 40-50 dəqiqəsi mühazirəyə, qalanı isə tərcüməyə ayrılır ki, bu da az effekt verir.

Azərbaycan K(b)P MK-ya göndərilən məxfi məktubda yazılmışdı: "Tamamilə məxfi. Azərbaycan K(b)P MK-nın katibi Bağırov yoldaşa. Bizim 392-ci atıcı diviziyası Qori şəhərində yerləşmişdir. Diviziya əsasən Azərbaycan SSR-nin Yevlax, Şaumyan, Qasım İsmayılov, Şamaxı, Kürdəmir, Zərdab, Dəvəçi,

Bakı, Kirov, Samux, Ağdam rayonlarının zəhmətkeşlərindən ibarətdir. Bizim diviziyaya göndərilənlərin əksəriyyəti rus dilini bilmir… Partiya-siyasi işin zəif aparılması səbəbindən diviziyamızda fərarilik, xidmətdən yayınma və digər hallar baş verməkdədir. Stalin yoldaşın məruzəsinin bütün döyüşçülərə çatdırılması üçün, xahiş edirəm, Azərbaycan dilini bilən, həmin məruzəni öyrənməyə kömək edən bir neçə kommunist-təbliğatçı göndərəsiniz. 392-ci atıcı diviziyasının Siyasi İdarəsinin rəisi Burlakov. 18 noyabr 1941-ci il. Qori şəhəri".

Məxfi məlumatlarda 404-cü diviziyada da azərbaycanlıların rus dili ilə bağlı çoxlu problemlər yaşadığı açıqlanırdı. Digər məlumatda göstərilirdi ki, hərbi hissələrdə çoxlu sayda dizenteriya və malyariya xəstəliyinə tutulanlar vardır. Həkimlər bunun səbəbini tibbi xidmətin zəifliyində və müalicənin vaxtında aparılmamasında görürlər. Digər tərəfdən, əsgərlərə tibbi yardım üçün həkimlərə müraciət etməyə icazə verilmirdi. Yalnız sonradan bu qayda ləğv edilmişdi. Məlum olurdu ki, əsgərlərə qaynanmış çay verilir, digər millətlərdən olan aşpazlar isə yalnız özünküləri daha çox təmin edirlər.

Əsgərlərə tibbi xidmət zəif təşkil olunduğundan onların müalicəsi axıradək aparılmırdı. Əsgərlər başdansovdu müayinə edildiyinə görə, xəstəlik tam müalicə olunmurdu. Məxfi məlumatda yazılırdı: "Mətbəxlərdə sanitar vəziyyət qənaətbəxş deyil. Ərzaq məhsulları hara gəldi atılıb. Məsələn, aşpazların dırnaqları uzun və kirlə doludur. Yeməyi iki nəfərə bir qabda çəkmək əvəzinə, bəzən üçünə bir qabda verirlər". Əsgərlər həm də poçt xidmətinin yarıtmaz təşkilindən şikayətlənir. Evə göndərdikləri məktublara cavab almırdılar. Elə hallar olurdu ki, əsgərlərə yemək vaxtında verilmir, bir gün əvvəl hazırlanan yeməklər





paylanırdı. Məxfi sənədlərdə, həmçinin, əsgər ailələrinə yerlərdəki rəhbərlərin düzgün olmayan münasibətləri sadalanırdı:

1) MTS-in direktoru nədənsə Eyvaz Məmmədovun ailəsinə çörək vermir.

2) Göyçay rayon qəzetinin redaktoru Məmmədov əsgər Səmədovun həyat yoldaşını makinaçı işindən ixtisara salmış, başqasını işə götürmüşdür.

3) Lənkərandan olan əsgər Qəzənfər Nəsrulla oğlu Qafarovun ailəsi – qoca anası və iki uşağı bu günədək yardım almır.

Hərbi hissələrdə səliqə-sahman, demək olar ki, yox dərəcəsində idi. Ətrafda hər yerdə çalalar qazılmışdı. Əsgərlərin müalicə olunduğu hospitallarda vəziyyət daha dözülməz idi. Azərbaycan K(b)P MK-ya göndərilən məlumatlarda aşağıdakılar qeyd olunurdu: "Azərbaycan K(b)P MK-nın tapşırığı ilə mən Kirovabad, Xanlar, Qazax rayonlarındakı hospitalların işi ilə tanış oldum. Nöqsanların aradan qaldırılması üçün heç bir tədbir görülmür. Hospitallardakı xəstələr saman doldurulmuş döşəklərdə, elə o cür yastıqlarda yatırlar. İ. Pasınkov. Məxfi". Məlumatlardan o da aydın olurdu ki, əsgərlərin özünəqəsd halları getdikcə çoxalır.

Nəsiman müəllimin göstərdiyi kimi, doğrudan da, azərbaycanlıların, xüsusən cəbhə bölgələrində vəziyyəti dözülməz idi.

Həmin vaxt Zaqafqaziya Müdafiə Şurasının üzvü olan M.C.Bağırova bu məlumatlar çatdırırlar və o, dərhal hadisələrin daha çox cərəyan etdiyi cəbhənin cənub bölgəsinə gəlir. Bağırov adəti üzrə azərbaycanlı əsgərləri görən kimi: "Ay mənim qartallarım! Azərbaycanımın erkək oğulları, salam!" – deyərdi. Sözsüz ki, Bağırovu görən azərbaycanlılar fərəhlənir, qürrələnir, ruh yüksəkliyi tapır, həm də dərdlərini ona danışırdılar. Onlar Bağıro-

va komandir Yevgeni Xruşşovun (bəzi ehtimallara görə, o, Nikita Sergeyeviç Xruşşovun qardaşı olmuşdur. Amma bunu təsdiq edən sənədi əldə edə bilmədik. - A.M.) özbaşınalığından danışır və onun rus dilini bilməyən azərbaycanlıları fərari adı ilə güllələdiyini bildirirlər. Bağırov həmin komandiri – Yevgeni Xruşşovu yanına çağırıb, onu sorğu-sual edir. Komandir onları verdiyi əmrləri yerinə yetirmədiyinə görə güllələdiyini bildirir. M.C.Bağırov ona “Axı onlar rus dilini bilmirlər” - dedikdə, komandir “Bu heyvanlara mən rus dilini öyrətməli deyiləm” - cavabını verər-verməz, Bağırov bütün azərbaycanlıların gözü qarşısında, “Mauzer” tapançasını çıxarıb zabitin düz alnının ortasından vurur. Bu xəbəri Stalinə çatdırırlar və Bağırov rəhbərin çağırışını gözləmədən birbaşa Kremlə gedir. Zaqafqaziya cəbhəsi üzrə Müdafiə Şurasının üzvü kimi, Bağırov atdığı addımı Stalinin qarşısında əsaslandırır və sözsüz ki, bu görüşdə L.P.Beriya da iştirak edirdi. Həmin görüşün nəticəsində azərbaycanlılardan ibarət hərbi hissələrin yaradılmasına icazə verildi. Artıq döyüş bölgələrinə göndərilən azərbaycanlı əsgərlərin əksəriyyəti 416, 77, 223-cü diviziyalarda cəmləşdirilir və burada əmrlər azərbaycan dilində verilirdi. Qeyd edək ki, 1941-1943-cü illərdə 1920-1925-ci illərdə doğulanların hamısı hərbi səfərbərliyə alınıb, döyüş bölgələrinə göndərilirdi.

Sonradan 416-cı diviziya Taqanroq şəhərini azad etdiyinə görə, 416-cı Taqanroq diviziyası adlanır.

Nəsiman Yaqublu “Azərbaycan legionerləri” kitabında göstərir:

“Bütün bunlara baxmayaraq, məxfi hərbi məlumatlarda könüllü əsir düşənlərin sayının çoxluğu bildirilirdi: “Diviziyanın şəxsi heyətinin bir hissəsi rəqibə təslim olur. 840 və 839-cu hissələrin komandirləri alayları xaincəsinə başqa istiqamətə aparıblar”.





Belə hadisələrdən sonra Azərbaycandan cəbhəyə əlavə əsgər göndərilməsi tələb olunurdu: “Zaqafqaziya Cəbhəsi Qoşunları komandanı, ordu generalı Tulenov yoldaşa, surəti Azərbaycan K(b)P MK-nın katibi Bağırov yoldaşa, Qızıl Ordunun Ehtiyat Hissələri İdarəsinin rəisinə. Təcili surətdə Azərbaycan diviziyalarının toplanması üçün iyunun 12-dən 500 nəfər 416-cı atıcı diviziya üçün Cənub cəbhəsinə, 500 nəfər Şimali Qafqaz cəbhəsinin 77-ci atıcı diviziyası üçün göndərilsin. Şadenko”.

M.C.Bağırov cavab məktubunda səfərbər olunanların döyüş hazırlığı keçməsinin vacibliyinə toxunaraq yazırdı: “Moskva. Səfərbərlik Baş İdarəsinin rəisi general-polkovnik Şadenko yoldaşa. Hərbi çağırışçıların əlavə hazırlıq keçmədən cəbhəyə göndərilməsi ciddi təhlükə yaradır”.

General Şadenko göndərilənlərlə kifayətlənməyib, M.C.Bağırovdan daha çox əsgərin çağırılmasını xahiş edirdi: “Amma bu sayda adam kifayət deyil. Cəbhə yaxın vaxtlarda daha 2000 hazırlıq keçmiş azərbaycanlının göndərilməsini tələb edir. Qarşıdakı ayda isə diviziyaların hər birinə 1000-1500 nəfər göndərilsin. Sizin köməyiniz olmadan biz bunu edə bilmərik”.

Həmin dövrdə M.Ə.Rəsulzadə Almaniyanın Şərq Torpaqları üzrə naziri F.Rozenberq ilə görüşür. Almanlar daha irəli gedərək, Azərbaycan legionu yaratmağa nail olurlar. 30 min Azərbaycan əsgərini özündə birləşdirən, qəzeti və təbliğat vasitələri olan legiona general Ə.Düdənginski rəhbərlik edirdi. Legionda danışıq dili Azərbaycan dili idi. Bir faktı qeyd etməyi vacib sayırıq ki, müharibə dövründə bu iki Azərbaycan oğlunun xilaskar rolu danılmazdır. İkinci bir fakt isə 1943-cü ildə almanların Azərbaycan legionunun bəzi üzvlərini gizli şəkildə Zaqatala ətrafına desant göndərməsi idi. Onların əsas işi Alma-

niya haqqında müsbət təbliğat aparmaq idi. Desantçıların bir çoxu sovet çekistləri tərəfindən tutulurdu. Onların böyük əksəriyyətinin taleyi hələ də qaranlıq qalır. Həmin ilin yazında Azərbaycanda müharibəyə hərbi çağırış keçirilirdi. Lakin, bu çağırış əvvəlkilərdən fərqlənirdi. Bu dövrdə müəyyən yaş həddi çərçivəsində qadınların da hərbi mükəlləfiyyətə salınması və onların döyüş bölgələrinə göndərilməsi nəzərdə tutulurdu. Respublika səviyyəsində bu hazırlığı aparmaq üçün Ümumittifaq Müdafiə Şurasından Bakıya nümayəndələr gəlirdi. Bu proses ittifaq səviyyəsində, o cümlədən, Azərbaycanda da icra olunurdu. Amma bununla bağlı respublikada ciddi narazılıq yaranmışdı. M.C.Bağırovu bu proseslərdən uzaq saxlamağa çalışırdılar. O vaxtlar M.C.Bağırov həmçinin Zaqafqaziya Cəbhəsi üzrə Müdafiə Şurasının üzvü idi. O, problemin həlli yolunu yalnız Stalinlə görüşdə görürdü. Çünki, bu əmri birbaşa Stalin vermişdi. Müharibə şəraitində komandirin əmrindən çıxmaq, sadəcə Hərbi Tribunal demək idi. M.C.Bağırov başqa respublikaların rəhbərlərindən fərqli olaraq, bu çağırışa cəsarətlə öz etirazını bildirmiş və bu sözləri demişdi: “Azərbaycan kişisinin alnında namus qırışı var. Biz qadınları məcburi şəkildə hərbi çağırışçı edə bilmərik”. Stalin Bağırovun bu hikkəsinin qarşısında güzəştə getməyə məcbur olur. Bağırovun bu iradəsi və cəsarəti tariximizin silinməz səhifəsidir.

Araşdırma və tədqiqatlarımız zamanı bir halı da müşahidə etdik. Əlaqə saxladığımız 1941-1945-ci il müharibə veteranlarından M.C.Bağırov haqqında məlumat almaq istədikdə, bir çoxları qəhərlənir və gözləri dolurdu.





# II HİSSƏ

## M.C.BAĞIROVUN AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA ROLU

İstər müharibədən əvvəl, istərsə də müharibədən sonra Azərbaycanda sənaye müəssisələrinin inşasında, respublikanın iqtisadi tərəqqisində M.C.Bağırovun xidmətləri kifayət qədərdir.

30-40-cı illərdə binaların, körpülərin, sənaye müəssisələrinin yüksək keyfiyyətlə inşa edilməsi bunun əyani sübutudur. Həmin obyektlərin istismarı bu gün də davam edir. Azərbaycan Memarlıq və İnşaat Universitetinin adının çəkilməsini istəməyən qocaman müəllimi o dövrün tikintisi barədə bunları söyləyir:

“1948-ci il idi, məni M.C.Bağırovun yanına apardılar. Onun birinci sözü bu oldu: - Səni mənə çox tərif ediblər. İndi də hünərini göstərmək üçün şərait yaranıb. On bir ay ərzində dəmiryolu körpüsü tikilməlidir. Bu körpünün layihəsini sən verməlisən. Körpü hazır olana qədər tikintiyə rəhbərlik edəcəksən. On bir aydan sonra səndən keyfiyyətli bir körpü təhvil alacam.

Bu görüşdən sonra mən layihəni hazırlayıb təsdiq etdirdim və tikintiyə rəhbərlik mənə tapşırıldı. Ailəmdən tamamilə uzaq düşmüş, gecə-gündüz körpünün inşası ilə məşğul idim. 11 ayın tamamında körpü artıq hazır idi. Bağırovun iştirak etdiyi körpünün açılış mərasimində o, mənə belə bir sual verdi:

- Bu körpü yüklə dolu otuz iki vaqonluq qatara dözə biləcək?

Mən qürurla cavab verdim:

- Bəli.

Bağırov isə "baxarıq, görərik" - deyərək yanındakı köməkçisinə işarə verdi:

- Sürdürün körpünün altına.

On beş dəqiqədən sonra məni avtomobilə mindirib körpünün altına gətirdilər. Bağırov qatarı buraxmağı əmr etdi. Qatar körpüdən keçənə qədər bütün həyat yolum, ailəmlə keçirdiyim xoşbəxt anlar gözümün önündə canlandı. Bir də onda özümə gəldim ki, Bağrov mənə tərəf gələrək, "Əhsən!" - deyir. O dövrün keyfiyyətli işləri bax bu cür başa gəlirdi. Hər bir layihəçi və inşaatçı həmin dövrdə belə səhnələrlə üzləşirdi. Bilirəm, keyfiyyətin əldə edilməsi üçün bu cür davranış qeyri-insanidir, amma olduqca səmərəlidir. Çünki, layihəçilərin, inşaatçıların yaratdığı binalarda minlərlə insanın taleyi risk altına düşür. Kiçik bir səhv bu insanların məhvinə səbəb ola bilər".

M.C.Bağırov şəxsiyyətinin zirəkliyi, ciddiliyi, insanlarla tez ünsiyyət qurması, işgüzarlığı, hadisələrə operativ yanaşması və sadəliyi temperamentinə görə onun sanqvinik tipinə uyğun gəldiyini göstərir. O illərdə Bağırov indiki R.Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyinin binasında yaşayırdı. Onun hər gün işə piyada getməyi, şəhərdə mühafizəsiz gəzməyi bu insanın sadəliyinin sübutudur. Nəzərə alaq ki, o dövrdə sərhədlərinə ciddi şəkildə nəzarət olunan qapalı Azərbaycanda bu cür həyat tərzi keçirmək üçün də şərait vardı (A.M.). Temperamentin tipini təyin etdikdən sonra, onun xarakterini müəyyənləşdirmək üçün məlum tarixi hadisələrdən sitatlar gətirib, araşdırmamızı apara bilərik.





Müasir Bakıya gözəllik verən, simasını yaradan, qədim memarlıq üslubunda tikilmiş bina və evlər insanın zövqünü oxşayır. Azərbaycan artıq müstəqil respublikadır. Bakıya gələn xarici qonaqlar paytaxtımızın memarlığının Avropa şəhərlərinin memarlıq səviyyəsindən də yüksək olduğunu qeyd edirlər. Şirvanşahlar memarlıq kompleksindən sonra neft milyonerləri H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarovun və başqalarının tikdirdiyi Avropa üslubunda olan binalardır. Digər gözəl memarlıq binaları da M.C.Bağırovun respublikaya rəhbərlik etdiyi illərdə inşa edilmişdir. Burda bir fakta da nəzər yetirmək lazımdır ki, müharibə dövründə əsir düşmüş almanlar, əsasən, Sibirə ağac qırmağa cəlb edilirdilər. Bağırovun zirəkliyi onda idi ki, almanların mühəndis, memar ixtisaslı əsirlərini Azərbaycanda yerləşdirib, onları tikinti komplekslərinə cəlb etdi. Bu iş Azərbaycana olduqca böyük mənfəət gətirdi. Bu gün paytaxtın gözü sayılan Hökumət Evi buna misaldır. Ümumiyyətlə, o dövrdə tikilən və ya özülü qoyulan binaların siyahısına baxsaq, tam əmin olarıq ki, paytaxtın bir sıra gözəl memarlıq nümunələri məhz o dövrün yadigarıdır. 1. Hökumət Evi – memar L.Rudnev, V.Munts, K.Tkaçenko. 2. Tofiq Bəhramov adına Respublika Stadionu – memar L.Tonsonarovski, O.İsayev, T.Sergeyev. 3. Şəhriyar adına klub – memar H.Məcidov. 4. Elmlər Akademiyasının akt zalı – memar M.Useynov. 5. M.F.Axundov adına Respublika Milli Kitabxanası – memar M.Useynov. 6. Daxili İşlər Nazirliyinin binası – memar H.Məcidov. 7. Muzey mərkəzi (keçmiş Lenin muzeyi) – memar M.Ginzburq, H.Məcidov. 8. Azərbaycan Akademik Dövlət Dram Teatrı – memar Q.Əlizadə, M.Mədətov. 9. Politexnik İnsititutunun tədris kompleksi. 10. Əjdaha deyilən heykəlin qarşısındakı Alimlər evi.

11. Buzovna neft işçilərinin yaşayış binası - memar M.Useynov, S.Dadaşov. Bu siyahını artırmaq da olar.

Təkcə alman əsirləri deyil, həmçinin dustaqlar da respublikanın sənaye şəhərlərinin inşasına cəlb edilmişdi. O cümlədən, Sumqayıt şəhərinin qurulmasına, Mingəçevir SES-in tikintisinə, Daşkəsən Filizçıxarma Kombinatının inşasına və s.

Bu tikintilərdə çalışan mütəxəssislərin Sibirə evakuasiya edilmək təhlükəsi yaranır.

F.1,d.241,s.2 *Lavrenti Beriyaya*
№ 94 A

18.06.1951. Azərbaycan K(b)P MK-nın katibi yoldaş
M.C.Bağırov

SSRİ DİN-nin islah-əmək müəssisələri üzrə tapşırığına əsasən, bu il Azərbaycan DİN-in islah-əmək düşərgələrindən 5965 nəfər respublikadan kənara köçürülmüşdür. Onlardan 400-ü mühəndis, texnik və yüksək ixtisaslı ustalardır. İyun ayında daha 1600 nəfərin yola salınması gözlənilir.

Qeyd olunan tapşırığı yerinə yetirmək üçün ilin əvvəlindən tikinti sahəsindən aşağıdakı sayda məhbus çıxarılıb:

1. Mingəçevirdən............................. 2000 nəfər
2. Neft sənayesi obyektlərindən ....... 1000 «__»
3. Daşkəsən mədənindən .................. 200 «__»
4. Boru-prokatı və SK zavodlarından 250 «__»
5. Qaradağ sement zavodundan ......... 200 «__»
6. Neft sənayesinin sifarişlərini yerinə yetirən sənayedə islah müəssisələrindən ......... 750 «__»
7. Digər obyektlərdən......................... 665 «__»





İyun planını yerinə yetirmək üçün tikinti sahəsindən əlavə aşağıdakı sayda məhbus çıxarılmalıdır:

1. Boru-prokatı zavodu .............................200 nəfər
2. Daşkəsən mədənindən .........................200 «__»
3. Neft sənayesi obyektlərindən ................500 «__»
4. Qaradağ sement zavodundan ................100 «__»
5. Sənaye müəssisələrindən .....................200 «__»

Eləcə də bu tikinti obyektlərini tamamilə bağlamalı:

1. Radiozavod
2. Zərif-mahud kombinatı
3. Sənaye-Tikinti Materialları Nazirliyinin kərpic zavodu
4. Xalq Təsərrüfatı İnstitutu.

Beləliklə, Azərbaycan SSR DİN-in islah-əmək düşərgələrindən ayrılmış 21.500 nəfərin yerinə, hökumətin qərar və sərəncamlarına əsasən, tikinti sahəsində yalnız 12.700 nəfər qalacaq. O cümlədən, Mingəçevir SES-də 7 mindən – 4 min, neft sənayesi obyektlərində 6 mindən – 4,5 min, Daşkəsən mədənində 3,5 mindən – 1,5 min nəfər və s.

Belə böyük sayda işçi qüvvəsinin azaldılması tikintidə ağır vəziyyət yaradır.

Yoldaş Atakişiyevin SSR İttifaqı DİN-in islah-əmək düşərgələrinə məsul yoldaş Dolqixə tikintidə çalışan məhbusların respublikada saxlanması ilə bağlı dəfələrlə müraciət etməsinə baxmayaraq, məsələ öz müsbət həllini tapmayıb.

Daxili işlər nazirinin müavini y. Ryasnın imzası ilə Moskvadan göndərilən teleqramda bütün tapşırıqların yerinə yetirilməsi tələb olunur.

Sizin tapşırığınıza əsasən, bu məsələyə dair teleqram hazırlanmışdır.

Azərbaycan K(b)P) MK
Xüsusi bölmə
Məxfi hissə
Dax. – 653 s.
Tarix: 16.06.1951.

Azərbaycan K(b)P) MK Büro iclasının stenoqramından ÇIXARIŞ. 19.06.1951.

**Moskva**
**SSRİ Nazirlər Sovetinə**

yoldaş L.P.Beriyaya

ÜK(b)P MK-ya, yoldaş Q.M.Malenkova

SSRİ DİN-in islah-əmək düşərgələri üzrə sərəncamlarına əsasən, son vaxtlar respublikanın ciddi əhəmiyyətə malik inşaat sahələrində çalışan 5965 məhbus, o cümlədən, 400 mühəndis-texniki işçi və yüksək ixtisaslı ustalar işdən götürülərək digər vilayətlərə köçürülüb. İyun ayında daha 1600 məhbusun köçürülməsi gözlənilir. Hökumətin qərar və sərəncamlarında köçürülməsi nəzərdə tutulmuş 21500 məhbusun yerinə, iyun planına da əməl olunandan sonra tikinti sahəsində cəmi 12700 məhbus qalacaq. Bu isə respublikanın energetika sahəsinin və dağ-mədən sənayesinin inkişafına mənfi təsir göstərəcək. Sizdən əsaslı tikinti planlarının yerinə yetirilməsində yaranan ağır vəziyyəti nəzərə almanızı və respublikanın inşaat meydanların-





da çalışan məhbusların digər bölgələrə köçürülməsinin dayandırılmasına göstəriş verməyinizi xahiş edirik.

Yoldaş L.P.Beriyaya Azərbaycan ərazisində yerləşən düşərgələrdən məhbusların köçürülməsinin dayandırılması barədə teleqram.

*SSRİ Nazirlər Soveti ilə yazışma.*
F. 1, q. 241, . 2, səh. 54.

**T E L E Q R A M № 406**

***Moskva***

Bakı, DİN, Azərbaycan K(b)P) MK-ya, M.C.Bağırova.

Sizin SSRİ DİN-in Azərbaycan ərazisində yerləşən islah-əmək düşərgələrindəki məhbusların ölkənin başqa rayonlarına köçürülməsi ilə bağlı teleqramınıza cavab olaraq bildirirəm: SSRİ daxili işlər naziri Kruqlov bu gün - 1951-ci il iyunun 18-də Azərb.SSR-dəki əsir düşərgələrindən məhbusların köçürülməsinin dayandırılması barədə göstəriş vermişdir.

İyun ayına planlaşdırılan 1600 məhbusun köçürülmə qərarı da ləğv edilib.

Moskva (əsli ilə düzdür)
16 iyun 1951-ci il. Azərbaycan K(b)P) MK. Bakı ş.
Azərbaycan K(b)P) MK-nın katibi M.C.Bağırov.

Kamran Hüseynov Mir Cəfər Bağırovun irəli çəkdiyi milli kadrlardan biridir. Kamran Əsəd oğlu Hüseynov haqqında Moskvaya göndərilmiş məktubda deyilir:

ÜK(b)P MK-nın Mingəçevir Su Elektrik Stansiyası tikintisindəki partiya təşkilatçılığı barədə:

Azərbaycan K(b)P MK-nın bürosu qeyd edir ki, ÜK(b)P MK-nın Mingəçevir Su Elektrik Stansiyasındakı partiya təşkilatçısı Arustamov Berseqoviç ona göstərilən etimada, tikintidə partiya işinin gücləndirilməsinə dair göstərişimizə baxmayaraq, vəzifəsinin öhdəsindən gəlmir, tikintinin rəhbər işçiləri arasında intriqa yaradır. Arustamov antisovet fəaliyyəti göstərmiş yad ünsürlərlə əlaqə saxlayır.

*Azərbaycan K(b)P MK bürosu qərara alır:*

I. Tikintidə partiya-siyasi işi başlı-başına buraxdığına, rəhbər işçilər arasında intriqa saldığına və antisovet, yabançı ünsürlərlə əlaqə saxladığına görə, ÜK(b)P MK-nın Mingəçevir SES Tikintisindəki partiya təşkilatçısı A.B.Arustamov vəzifəsindən kənar edilsin.

II. Hüseynov Kamran Əsəd oğlu – 1939-cu ilin sentyabrından partiya üzvü, partiya bilet № 2906035, ÜK(b)P Mingəçevir Su Elektrik Stansiyası Tikintisində partiya təşkilatçısı təyin olunsun.

ÜK(b)P MK-dan xahiş olunsun ki, həmin qərarı təsdiq etsin.

Azərbaycan K(b)P MK-nın katibi

M.C.Bağırov.

23 may 1949-cu il

Kamran Hüseynov qırx doqquz ildən sonra 1998-ci ildə Bakıda nəşr etdirdiyi "Bir ömrün salnaməsi" kitabında yazır: "DTN-nın əməkdaşı Mityukov adlı kiçik leytenant xüsusi əhəmiyyətli obyekt sayılan Mingəçevirə təhkim edilmişdi. İşin qızğın vaxtında bir də gördüm ki, bacarıqlı mütəxəssislər bir-bir yoxa çıxır. Onların çoxu xalq düşməni adı ilə 15-20 il həbsxanada yatıb çıxmış keçmiş məhbuslar idi. Maraqlandım ki, bu adamlar hanı? Dedilər ki, Mityukovun göstərişi ilə onları tutub Azərbaycan SSR DTN-in zirzəmisinə salıblar.





Mir Cəfər Bağırov mənə tapşırmışdı ki, Mingəçevirdə nə çətinliyin olsa, mənə de.

…Yayın isti günlərindən biri idi. M.C.Bağırov əynində tor köynək, ayaq üstə dayanmışdı. Sumbatov-Topuridze, Mir Teymur Quliyev, Teymur Yaqubov, Mərkəzi Komitənin katibi, inşaata məsul Qafarzadə, Padarov, Daxili işlər naziri Atakişiyev, Dövlət təhlükəsizlik naziri Yemelyanov da içəridə idilər.

İçəri daxil olanda M.C.Bağırov "Eşidirəm səni", - deyərək mənə yaxınlaşdı.

Dedim:

- Yoldaş Bağırov, Mingəçeviri nə mən tikmirəm, nə də İslamzadə. Mingəçevir Azərbaycan xalqının, ölkənin köməyi ilə bura gələn mütəxəssislərin sayəsində tikilir. Mingəçevir SES Azərbaycan xalqına nə qədər mənfəət verəcəksə, indi o qədər də ziddiyyətli, çətin işlərlə qarşılaşırıq. Biz belə hallara yol verə bilmərik. Çünki elə bir fəaliyyət baş verir ki, gördüyümüz işlər məhv olur.
- Nə deyirsən?!

Yuxarıda adı çəkilən adamların adlarını, onların başına gələni danışdım. Dedim ki, bir aydan çoxdur ki, onlar Bakıda həbsxanada yatırlar.

Üzünün ifadəsindən anladım ki, Bağırov bütün bunlardan xəbərsiz imiş. O dönüb Yemelyanova baxdı:

- İndi həmin adamlar orada yatırlar?

Yemelyanovu tər basdı, rəngi sapsarı saraldı:

- Yoldaş Bağırov, özünüz bilirsiniz ki… - deyə kəkələdi. Bağırov onun üstünə qışqırdı, ən pis ifadələrlə söyə-söyə dedi:

- Bu gecə o adamları yığırsan bir yük vaqonuna, parovozu qoşdurub göndərirsən inşaat meydanına! - deyərək, günahsız insanları Yemelyanovun caynağından xilas etdi”.

Burada bir həqiqəti də nəzərdən qaçırmaq lazım deyil ki, bu hadisələr 1940-cı illərin ikinci yarısında baş verirdi. Doğrudan da, o dövrdə Beriyanın Moskvadakı mövqeyi möhkəmləndiyindən M.C.Bağırovun da nüfuzu xeyli artmışdı.

O cümlədən, həmin dövrdə Bakıda metro tikintisinin birbaşa təşəbbüskarı məhz M.C.Bağırov idi.

“Nəbz” qəzetinin 29 iyun 1940-cı il tarixli 26-cı sayında bu barədə geniş məlumat verilir.

**“Bakı şəhərində metropolitenin birinci növbəsinin tikintisinin texniki layihəsinin müddəaları haqqında”**

Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K(b)P Mərkəzi Komitəsinin Bakı şəhərində metropolitenin birinci növbəsinin tikintisinin texniki layihəsinin “Baştunelmetrotikinti” və Yollar Nazirliyi tərəfindən təqdim olunmuş əsas materialları nəzərdən keçirərək qərara alırlar:

1. Bakı şəhərində metropolitenin birinci növbəsinin tikintisinin texniki layihəsinin əsas materialları sonradan işlənib tamamlanmaq və SSR İttifaqı Hökumətinə təqdim olunmaq şərti ilə bəyənilsin.

2. Təqdimata uyğun olaraq, “Vağzal” stansiyası vestibülünün layihəsi bəyənilsin.

3. Texniki layihədə nəzərdə tutulduğu kimi, kütləvi sığınacaq olan metropoliten su ilə şəhərdəki yeganə mənbədən – Bakı su kəmərindən təchiz ediləcəkdir. Buna görə də metropolitenin xüsusi rejimdə işləməsi üçün ikinci müstəqil su təchizatı mənbəyi nəzərdə tutulsun. Bu məqsədlə şəhərin dağlıq hissələrində yuxarı horizontların sularından istifadə edilsin və metropolitenə müstəqil su kəməri çəkilsin.

4. Metropolitenin tikintisi zamanı mühəndis-geologiya şəraitini yaxşılaşdırmaq məqsədilə tövsiyə edilsin:

a) “Elektrotok” stansiyası 250 metrədək şərqə yönəldilsin, həmin istiqamətdə stansiyaya giriş (vestibül) yaradılsın;

b) “Cəfər Cabbarlı meydanı” stansiyası qarşısında tunellər arasında keçid yaradılsın;

d) “Azadlıq meydanı” stansiyasının yeri vağzallar istiqamətində dəyişdirilib 26 Bakı Komissarı meydanının altında yerləşdirilsin və təqdim olunan layihədə nəzərdə tutulduğu kimi, vestibül Kirov prospektinin və Lenin küçəsinin tinində saxlanılsın;

c) “Vağzal” stansiyası Bakı-Sabunçu vağzalı yolunun altında yerləşdirilsin və mərkəzi vestibül təqdim olunan layihədə nəzərdə tutulmuş sahədə saxlanılsın.

5. Şaxtaların və vestibüllərin tikintisi ilə əlaqədar olaraq, bir sıra binalar sökülməli və üç min nəfərədək əhali köçürülməlidir. SSRİ yollar naziri Beşşev yoldaşdan xahiş edilsin ki, Bakı şəhərində metropolitenin birinci növbəsinin tikintisinin baş smetasında həmin məqsəd üçün tələb olunan vəsaiti nəzərdə tutsun.

Müəyyən edilsin ki, yeni yaşayış binalarını Bakı Şəhər İcraiyyə Komitəsinin tikinti təşkilatları inşa edəcəklər.

Azərbaycan SSR Nazirlər Sovetinin sədri **T.Quliyev**

Azərbaycan K(b)P Mərkəzi Komitəsinin
katibi **M.C.Bağırov**

# III HİSSƏ

# MİR CƏFƏR BAĞIROV VƏ CƏNUBİ AZƏRBAYCAN

İkinci Dünya müharibəsi başlayanda, 1939-cu il sentyabrın 4-də İran tərəfi bitərəflik haqqında bəyanat versə də, Hitler Almaniyası ilə bu ölkənin sıx münasibətləri hələ də qalırdı. İranın rəhbəri Rza şah Almaniyanın "ali irq"lə bağlı təbliğatından ruhlanaraq, artıq Sovet Azərbaycanı və Orta Asiya ərazilərinə iddialar səsləndirirdi. Bildirilirdi ki, İran qədim "arilərin" yaşadığı ərazidir, guya bu "arilər" mühacirət edib, german tayfalarını yaradıblar. Hətta İran şahının SSRİ-nin xarici işlər üzrə xalq komissarına göndərdiyi 17 may 1940-cı il tarixli 643 saylı notada Azərbaycan SSR-ni "Qafqaz Azərbaycanı" adlandırmışdı.

İranın bu tip bəyanatlarından sonra, SSRİ və İngiltərənin rəhbərliyi hərəkətə keçdi. Artıq SSRİ-nin xüsusi xidmət orqanları İran şahı əleyhinə qüvvələrin yaradılması məqsədilə məlumatlar toplamağa başladı. 1941-ci ilin yanvarında Cənubi Azərbaycan və İran Kürdüstanı haqqında 211 səhifəlik texniki-iqtisadi informasiya hazırlandı.

1941-ci ilin martında Mir Cəfər Bağırov Stalinə "Cənubi Azərbaycan haqqında qısa arayış" göndərir. Burada qeyd olunurdu: "Şah hökuməti İranda Azərbaycan xalqına qarşı polis təzyiqi siyasəti aparır".





1941-ci il iyunun 22-də SSRİ ilə Almaniya arasında müharibə başlayandan sonra Zaqafqaziyada dislokasiya olunmuş 17-ci ordu İran sərhədlərinə doğru hərəkət etməyə başladı. İran və Sovet Rusiyası arasında 1921-ci il müqaviləsinə əsasən, Sovet rəhbərliyi ölkənin təhlükəsizliyini nəzərə alaraq, İran ərazisinə mümkün müdaxilə haqqında bəyanat verdi. İngiltərə də Fars körfəzi tərəfdən, Ərəbistan sahillərində yerləşən müstəmləkələrindən öz qoşunlarını İran ərazisinə göndərdi. O zaman baş nazir olan Fürudi ingilis qoşunlarının İranda yerləşməsi haqqında sazişi imzaladı. Rza şah 1941-ci il sentyabr 16-da hakimiyyətdən uzaqlaşdırıldı, onun yerinə oğlu Məhəmməd Rza Pəhləvi keçdi. İngilis və sovet qoşunları cənubdan və şimaldan İrana daxil oldu. İranın xarici işlər naziri Süheyli diplomatik kanallarla İranın xaricdəki səfirlərinə ingilis yönlü siyasət aparmağı tapşırdı.

O zamanlar Sovet rəhbərliyi kürdlərə, yoxsa azərbaycanlılara istinad etmək seçimi qarşısında idi. Çünki gələcəkdə İran İngiltərənin təsir dairəsinə düşər, bu da Sovetlər birliyini neft ehtiyatları ilə zəngin Mosul, Kərkük və Ərəbistana yaxınlaşmasının qarşısını ala bilərdi. Rəsmi Kreml bunun qarşısını almaq üçün ingilisləri regionda yaşayan etnik qrupların müqaviməti ilə üz-üzə qoymağı düşünürdü. Bir çoxları strateji tərəfdaş kimi etnik kürdləri seçməyi təklif edirdi. İran kürdlərinin hüquqlarının tapdandığını əsas tutaraq, əvvəlcə Tehran hakimiyyətinə təzyiq göstərmək, sonra İranı SSRİ-nin təsir dairəsinə salmaq barədə arqumentlər səslənirdi. Amma M.Bağırov L.Beriyanın köməyi ilə bu təkliflərin əsassız olduğunu sübut edə bildi. M.Bağırov

L.Beriyanın və Xarici İşlər Komissarının müavini V.N.Dekanozovun yardımı ilə Stalində İran azərbaycanlılarına söykənməyin vacibliyi barədə qənaət yaratmağa müvəffəq oldu. 1941-ci il sentyabrın 9-da Stalin Bağırova birgünlük Moskvaya gəlməsi barədə şifroqram göndərir. Həmin görüşdə Bağırov özünün təkliflər layihəsini Stalinə təqdim edir. Bu təkliflərə əsasən, Azərbaycan K(b)P MK-nın katibi Əziz Əliyev Cənubi Azərbaycana göndəriləcək və partiya qrupunun rəhbəri olacaqdı. Stalin Bağırovun layihəsini təsdiq edir.

Sözügedən qrupa Süleyman Rəhimov, Mehbalı Əmiraslanov, Ağasəlim Atakişiyev, Mustafa Quliyev, Mirzə İbrahimov daxil edilir. Hərbi Şuranın qərarı və Zaqafqaziya Ordusu komandanının əmri ilə sentyabrın 16-da polkovnik-komissar Əziz Əliyev Təbrizə daxil olan 47-ci ordunun Hərbi Şurasının üzvü seçilir. Müəyyən vaxtdan sonra M.Bağırov Əziz Əliyevin qrupundan informasiya alır və 1941-ci ilin sonlarına qədər Cənubi Azərbaycandakı vəziyyət barədə Stalinə məlumat verir.

Bir müddət sonra Əziz Əliyevlə SSRİ-nin İrandakı səfiri A.Smirnov arasında fikir ayrılığı yaranır. Bu fikir ayrılığı Əziz Əliyevin sovet qarnizonunun rəhbərliyinə məktub yazmasından sonra baş verir. Həmin məktubda o, yerli əhalidən, yəni, azərbaycanlılardan silahların yığılmasını dayandırmağı tələb edirdi. A.Smirnov buna görə Moskvaya məktub yazır və Ə.Əliyevi millətçi kimi xarakterizə edir. M.Bağırov xarici işlər komissarının müavini Dekanozovla əlaqə yaradıb, Ə.Əliyevi müdafiə etməyə başlayır.

1941-ci il oktyabrın 24-də Əziz Əliyev M.Bağırova “Cənubi Azərbaycan haqqında hesabat” göndərir və burada yazır: “Məktəblərdə dərslər fars dilində aparılır, yerli azərbaycanlılar türk





dilində təhsil almaq istəyirlər, buna görə də “Vətən yolunda” qəzetinin buraxılması azərbaycanlılarda böyük sevinc doğurmuşdur”.

Artıq M.C.Bağırovun layihəsi İranda ilk bəhrəsini verməyə başlamışdı. İran tərəfi SSRİ-İran-Böyük Britaniya dövlətləri arasında ittifaq sazişinin bağlanması istiqamətində müzakirələrə başladı. 1942-ci il yanvarın 26-da İran Məclisi Sovet-İngilis-İran ittifaqının müzakirəsini yekunlaşdırdı. Yanvarın 29-da SSRİ tərəfindən səfir A.Smirnov, Böyük Britaniya adından R.Bulard, İran tərəfindən xarici işlər naziri Süheyli Böyük Britaniya, SSRİ və İranın ittifaqı haqqında müqaviləni imzaladılar.

Belə bir sazişin bağlanması münasibətilə 1942-ci il fevralın 10-da Məhəmməd Rza şah Pəhləvi və ABŞ prezidenti Ruzvelt arasında təbrik teleqramlarının mübadiləsi baş verir. İran şahı ABŞ prezidentinə göndərdiyi məktubda qeyd edirdi ki, o, ABŞ-ı İranın ərazi bütövlüyünün qarantı kimi görür.

Bu hadisələr müharibənin ən qızğın vaxtında baş verirdi. Sovet rəhbərliyi İngiltərə və ABŞ tərəfindən ikinci cəbhənin açılmasını planlaşdırırdı. Buna görə də Sovet rəhbərliyi İrandakı fəaliyyətini bir qədər zəiflətdi.

Rəsmi Kreml İngiltərə ilə münasibətləri korlamamaq üçün faşist Almaniyası üzərində tam qələbə çalanadək Cənubi Azərbaycanda siyasi təbliğatı azaltmaq qərarına gəldi. Amma sovet qoşunları hələ də İranda qalırdı. Siyasi aktivliyin azaldılmasından sonra Bakıya qayıdan Əziz Əliyev tezliklə M.C.Bağırovun Stalinə təqdimatı əsasında Dağıstan K(b)P Mərkəzi Komitəsinin I katibi seçilir. Artıq 1944-cü ildə Almaniya üzərində tam qələbəyə əminlik yarandıqdan sonra, sovet rəhbərliyi yenidən Cənubi Azərbaycan məsələsinə qayıtdı. Üstəlik İran ərazisində

aşkar olunmuş böyük neft ehtiyatları iri dövlətlər arasında ciddi rəqabətə səbəb oldu.

Amma müharibə illərində siyasi fəallığın zəifləməsinin pis nəticəsi kimi, İran rəhbərliyinə ABŞ və İngiltərənin təsiri daha çox hiss edilirdi. SSRİ-nin neftə olan tələbatı günbəgün artırdı. Buna görə də sovet rəhbərliyi istənilən yolla İranı öz təsir dairəsinə çəkməyə çalışırdı. Neft uğrunda mübarizə Stalini qəti addımlar atmağa məcbur edirdi. Bu şəraitdən istifadə edən M.Bağırov özünün əsas siyasi dəlilini ortaya atır. O, Stalini inandıra bilir ki, İranda yaşayan azərbaycanlıların hüquqlarını müdafiə etmək adı altında onlara muxtariyyət tələb etməklə şah rejiminə təzyiq göstərilsə, SSRİ-nin maraqları naminə fayda əldə etmək olar. M.Bağırovun əsl məqsədi isə Cənubi Azərbaycanı muxtariyyətdən suveren dövlətə çevirmək və SSRİ ərazisi ilə birləşdirmək, yəni Azərbaycanın ərazisini genişləndirmək, regionda ABŞ və İngiltərənin təsirini azaltmaq idi. Əsas vəzifə Stalini buna inandırmaq idi. Stalin bu məsələyə ciddi yanaşdı və V.Molotova İranda azərbaycanlı əhalinin hüquqlarının pozulması ilə bağlı İran şahına nota göndərməyi tapşırdı. 1944-cü il sentyabrın 14-də M.Bağırov Stalinə ünvanlanmış məktubunda göstərirdi ki, Cənubi Azərbaycanda tezliklə demokratik quruluş yaradılacaq. Bu məktubu müəyyən ixtisarla oxuculara təqdim edirik.





F №1, siy. №90, iş №71

ÜK(b)P MK-ya
**İ.V.Stalin yoldaşa**

## CƏNUBİ AZƏRBAYCANDA VƏZİYYƏTLƏ BAĞLI BƏZİ MƏSƏLƏLƏR

Son zamanlar Sizin Cənubi Azərbaycanda Sovet İttifaqının təsirinin gücləndirilməsi haqqında göstərişlərinizi yerinə yetirərək, tərəfimizdən bir sıra tədbirlər həyata keçirilmişdir.

Respublikanın rəhbər sovet və hərbi kadrları sırasından Cənubi Azərbaycana 245 nəfər göndərilmişdir. Onlardan diplomatik işə 13 nəfər, ticarət işinə 10 nəfər, əsasən qarnizon komendantları kimi 150 nəfər, qalanları isə təsərrüfat, nəqliyyat və mədəni-maarif təşkilatlarının xətti ilə ezam olunmuşdur. Xalq xarici ticarət komissarlığı, səhiyyə, dəmiryol nəqliyyatı və digər sovet təsərrüfat təşkilatları sistemində iş üçün 375 nəfər seçilib ki, onlar da yaxın günlərdə Cənubi Azərbaycana yola düşəcəklər. İşləməyə göndərilənlər istisnasız olaraq Cənubi Azərbaycanın məişətini, dilini, dinini və digər milli xüsusiyyətlərini bilən azərbaycanlılardır. Bu şəxslər əhali ilə çox tez və yaxın münasibət quraraq, qısa müddət ərzində əsasən ziyalılar, fəhlələr, kəndlilər və müəyyən qədər də ruhanilər və tacirlər arasında xeyli nüfuz qazana bilmişlər.

ÜK(b)P MK-nın qərarına uyğun olaraq, Təbrizdə Azərbaycan dilində işıq üzü gördüyü ilk gündən Cənubi Azərbaycanın geniş xalq kütlələrinin, xüsusilə də, ziyalıların rəğbət və sevgisini qazanan "Vətən yolunda" hərbi qəzeti nəşr olunmağa

başlamışdır. Qəzet Cənubi Azərbaycanın bütün şəhərlərində və bir çox kənd rayonlarında kifayət qədər uğurla yayılır. Qəzetdə Cənubi Azərbaycanın Biriya, Yusuf, Təhfi, Mehtaq Rza, Əliyarzadə, Mir Mehdi, Yəhya Təhfi, Humay Xanım, Lalə Xanım və s. kimi gənc və istedadlı yazıçı və şairlərinin fəal iştirak etməsi faktı ciddi nailiyyət sayıla bilər. Onların kəskin siyasi əsərləri faşizmə qarşı yönəlib, xalqlar dostluğu, SSRİ-yə rəğbət ruhunda yazılıb ki, bu də qəzetin nüfuzunu daha da artırmış, onu geniş kütləyə yaxınlaşdırmışdır. Təbriz ziyalılarından başqa qəzetin işində İranın Tehran, Miyana, Ərdəbil, Mərənd, Şahpur və digər şəhərlərindən olan 30 azərbaycanlı müxbir də iştirak edir. Buna qabaqcıl ziyalıların, o cümlədən, Cənubi Azərbaycan qadınlarının milli qəzetdə fəal iştirak etməyə böyük meyli də öz təsirini göstərmişdir.

Təbriz şəhərinin qabaqcıl ziyalılarının nəşr olunan qəzetə münasibətini səciyyələndirmək üçün ibtidai məktəb müəllimi Lalənin aşağıdakı məktubunu misal göstərmək olar: “Mən qəzetin birinci nömərəsini aldım və onu həyəcanla oxudum. Belə nömrəyə görə bütün var-dövlətimi verməli olsaydım, bunu böyük məmnuniyyətlə edərdim. Arzu edirəm ki, “Vətən yolunda” qəzeti parlayan ulduz kimi öz şüaları ilə Təbrizin üfüqlərini işıqlandırsın”.

“Vətən yolunda” qəzetində həmçinin Sovet Azərbaycanının yazıçıları, şairləri, jurnalistləri də fəal iştirak edirlər. Bu qəzetin işıq üzü görməsi ilə Təbrizdə İran şairi Balaş Azəroğlunun rəhbərliyi altında antifaşist komitənin fəaliyyəti də güclənmişdir. Antifaşist komitə mütəmadi şəkildə son dərəcə kəskin məqalə və şeirlərin çap olunduğu vərəqələr buraxır ki, bu da geniş əhali kütləsi arasında böyük populyarlıq qazanmışdır.





Cənubi Azərbaycanın əhalisi, xüsusilə də, kəndliləri arasında ruhanilərin güclü təsirini nəzərə alaraq, tərəfimizdən bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilmişdir. Bu yaxınlarda Bakı şəhərində təşkil olunan Zaqafqaziya ruhaniləri və mömin müsəlmanlarının qurultayında qəbul olunmuş “Bütün müsəlmanlara antifaşist müraciəti” tərəfimizdən İrana göndərilmiş və əhali arasında Azərbaycan və fars dillərində 5.000 nüsxə yayılmışdır. İran ruhaniləri və əhalisi bu müraciəti böyük ruh yüksəkliyi ilə qarşılamışlar. Bu müraciətlə bağlı İranın parlament deputatları Şeyxülislam Məlayiri, Hacı Seyid Rza Firuzbəylinin, həmçinin qazı Mirzə Bağır Ağa, müctəhidlər Ağa Siqqətilislam, Hacı Mirzə Xəlil Ağa kimi görkəmli və nüfuzlu din xadimlərinin mətbuatda işıqlandırılan rəyləri səciyyəvidir. Bundan başqa, şeyxülislam Əlizadənin başçılığı ilə Zaqafqaziya müsəlmanlarının seçilmiş dini idarəsi bizim təsirimizi daha da gücləndirilmək məqsədilə Cənubi Azərbaycanın din xadimləri ilə şəxsi əlaqələr qurur.

Sovet Azərbaycanının incəsənətdə qazandığı uğurları nümayiş etdirmək məqsədilə İranın iri şəhərlərinə 44 nəfərdən ibarət ansambl göndərilmiş və bu qrup Tehran, Təbriz, Pəhləvi, Rəşt, Ərdəbil, Qəzvin, Maku, Şahpur və Rezaiyyə şəhərlərində böyük uğurla çıxış etmişdir. Bu ansambl sovet qoşunlarının qarnizonlarında çıxışlar etmiş, kasıblar üçün pulsuz konsertlər vermişdir.

Onu da qeyd etmək lazımdır ki, konsert qrupunun İrana ezam olunması Azərbaycan incəsənətinin İranda, ən başlıcası isə, əhalinin Azərbaycan xalqının dünəni və bu gününü əks etdirən, ona doğma və anlaşılan sənətini böyük ruh yüksəkliyi ilə qarşılandığı Cənubi Azərbaycanda təbliğatın nə qədər faydalı

olduğunu göstərdi. "Yaşa Azərbaycan", eləcə də respublikadan gətirilmiş digər mahnılar xalq arasında geniş yayıldı.

İran əhalisi arasında Bakıdan Azərbaycan və fars dillərində yayımlanan radio verilişləri, xüsusilə də, Azərbaycan milli musiqisindən ibarət konsertlər böyük populyarlıq qazanmışdır. Bakıdan radio verilişlərinin yayımlandığı saatlarda Cənubi Azərbaycanın şəhərlərindəki reproduktorlarımız qarşısında Sovet İnformasiya Bürosunun məlumatlarına, döyüşlər gedən cəbhələrdən müxtəlif epizodlara, konsertlərə və s. diqqətlə qulaq asan böyük insan kütləsinə tez-tez rast gəlmək olar.

Sovet İttifaqının, xüsusilə də Zaqafqaziya respublikalarının iqtisadi və mədəni nailiyyətləri ilə geniş tanış olmaq üçün Təbriz şəhərində Mədəniyyət Evinin filialı təşkil olunub.

ÜK(b)P MK-nın qərarına əsasən, biz Təbrizdə rus və Azərbaycan dillərində tam orta məktəbin təşkilinə başlamışıq ki, bunun üçün də ixtisaslı pedaqoji kadrlar, avadanlıq, dərs ləvazimatı və s. seçilmişdir. Bu müddətdə bizim Cənubi Azərbaycanda apardığımız mədəni-maarif işi sosializmə meylli gənclərin sovet məktəbində təhsil almaq arzusunu nümayiş etdirdi. Buna görə də Təbrizdə belə bir məktəbin açılması vaxtında görülmüş aktual bir işdir.

MK-nın qərarına müvafiq olaraq, Təbrizdə səhmdar cəmiyyət formasında trikotaj-corab fabriki qurulur ki, İrandakı sovet təşkilatları onun sifarişçisi olacaqdır. Bunun üçün rəhbər kadrlar, mütəxəssislər və zəruri avadanlıq, həmçinin müvafiq bina seçilmişdir. Fabrik yaxın zamanlarda, bu məsələ Xalq Xarici Ticarət Komissarlığının xətti ilə tam rəsmiləşəndən sonra açılacaqdır. Biz fabriki elə təşkil etmək istəyirik ki, o, bütün Cənubi Azərbaycanda nümunəvi müəssisə olsun, yerli əhalini, ilk növbədə, qadınları işə cəlb etsin.





Belə bir faktı da diqqətsiz qoymaq olmaz ki, əsasən azərbaycanlılardan ibarət və Cənubi Azərbaycanda nüfuzlu siyasi təşkilatlardan biri sayılan Xalq Partiyasının başında indiyədək erməni Ərdəşir Avanesyan durur. Bu yoldaş, deyilənlərə görə, sadiq və yaxşı rəhbərlərdən biridir, amma bununla belə, milli mənsubiyyəti Xalq Partiyasının gözdən düşməsinə, azərbaycanlıların partiyadan uzaqlaşmasına səbəb olur.

Yuxarıda göstərilən bütün bu faktlar İrandakı bir çox sovet təşkilatlarının hələ də bizim xəttimizi sovet meylli ictimai təşkilatlar və ayrı-ayrı nüfuzlu şəxslər vasitəsilə həyata keçirə bilmədiyindən xəbər verir. Bununla yanaşı, yalnız əhalinin deyil, həm də İranın hökumət dairələrinin, yüksək qurumlarının hesablaşacağı bir vəziyyət yaratmağı bacarmayan İrandakı Sovet qoşunları komandanlığının qətiyyətsizliyini də qeyd etmək lazımdır. Bu hal iranlılar tərəfindən zəiflik kimi qiymətləndirilir, fitnəkar və cinayətkar ünsürlərə isə münaqişələr yaratmaq imkanı verir. Bizim komandanlığın gözü qarşısında kürdlərin uzun müddətdən bəri Azərbaycan əhalisini çapıb-talaması faktını, komandanlığın isə onlara qarşı təsirli tədbirlər görməyib, sadəcə xəbərdarlıqla kifayətlənməsini yalnız bununla izah etmək olar.

Bizə belə gəlir ki, hazırda İrandakı bütün təşkilat və əməkdaşlarımızın işini aşağıdakı istiqamətlərdə yenidən qurub, gücləndirmək məqsədəuyğun olardı:

1. Qəti mövqe tutmaq və müəyyən formada Cənubi Azərbaycandan Məclisə namizədliklərin təsdiq olunmasında təkid etmək.

2. Yaxın vaxtlarda həmkarlar ittifaqlarını birləşdirmək üçün lazımı tədbirlər görmək, fitnəkar və Sovet İttifaqına düşmən

elementləri onların rəhbərliyindən çıxarmaq, bizim onlara təsirimizi gücləndirmək.

3. Xalq Partiyası ("Hizbi-Tudə") rəhbərliyinin nüfuzlu ziyalıların, ilk növbədə azərbaycanlıların hesabına möhkəmləndirilməsinə nail olmaq, ziyalılar, fəhlələr və kəndlilər arasında onun hörmət və təsirinin artırılması üçün zəruri tədbirlər görmək.

4. Cənubi Azərbaycandakı İran hakimiyyət orqanları vasitəsilə mahiyyətcə bizə qarşı yönəlmiş münaqişələr yaradan düşmənlərə, təxribatçı elementlərə, cinayətkarlara qarşı qəti tədbirlər görmək.

5. İrandakı sovet qoşunları komandanlığına, həmçinin, bizim diplomatlara kürdlərin azərbaycanlılar üzərinə hər cür hücumlarının, silahlı qarətlərin qarşısının alınması, kürdlər və azərbaycanlılar arasında normal qarşılıqlı münasibətlərin yaradılması məqsədilə bəzi kürd tayfa başçılarına münasibətdə daha qətiyyətli mövqe tutmaq göstərişini vermək.

6. İranda sovet qoşunlarının yerləşmə zonasında normal ictimai qayda-qanun və intizamın yaradılması üçün bu rayonlarda qarnizonların rolunu və nüfuzunu artırmaq və İran hakimiyyəti tərəfindən həyata keçirilən heç bir inzibati tədbirin sovet qarnizonlarının maraqlarına toxunmamasına nail olmaq.

7. İlk növbədə əhalinin hazırlıqlı hissəsindən istifadə etməklə, kəşfiyyat işlərini gücləndirmək.

8. Mümkün və son dərəcə ehtiyatlı formada kəndlilər arasında bizim işimizin gücləndirilməsinə diqqət yetirmək.

Azərbaycan K(b)P MK-nın katibi M.C.BAĞIROV
14 sentyabr 1944-cü il
№391
Bakı şəh.





Cənubi Azərbaycanda baş verən proseslər ABŞ və İngiltərə tərəfindən diqqətlə izlənirdi. Amerikanlar və ingilislər Təbriz konsulluğunda fəaliyyətlərini gücləndirmişdilər. 1945-ci ilin iyulunda Potsdam şəhərində qalib ölkələrin konfransı keçirildi. Böyük Britaniya nümayəndəsi sovet qoşunlarının İrandan çıxarılması haqqında memorandum təqdim etdi. 21 iyul 1945-ci il tarixdə ingilislər tərəfindən verilmiş memorandumda deyilirdi:

"Kral hökuməti və Sovet dövləti İngiltərə-Sovet-İran müqaviləsi bağlayıblar və həmin müqavilənin 5-ci bəndinə əsasən qoşunlar Almaniya üzərində qələbədən sonra ən geci 6 ay ərzində İran ərazisini tərk etməlidir".

Britaniya hökuməti qoşunların çıxarılmasını bir neçə mərhələyə bölürdü. Birinci mərhələdə qoşunlar İran paytaxtını tərk etməliydi. İkinci mərhələdə ingilis qoşunlarının bir hissəsi Abadanda və İranın neftlə zəngin cənubunda, Sovet qoşunlarının bir qismi də şimal-qərbdə və şimal-şərqdə qalır, qalan hissələri isə ölkədən çıxarılırdı. Üçüncü mərhələdə bütün müttəfiq qoşunları ölkəni tərk etməli idi.

1945-ci iyulun 23-də Potsdam konfransında ABŞ-ın yeni prezidenti Trumen yenidən İran məsələsini qaldırır. Stalin bu təklifə belə cavab verir: "Müttəfiq qoşunlarını Tehrandan çıxarmaq olar?!" Potsdam konfransının qərarında deyilirdi: "Müttəfiqlər öz qoşunlarını Tehrandan çıxarırlar. Müttəfiq qoşunların İrandan çıxarılmasının digər mərhələləri Xarici işlər nazirləri şurasının Londonda keçiriləcək sessiyasında müzakirə olunacaq. Bu sessiya 11 sentyabr 1945-ci il tarixdə keçiriləcək". Lakin rəsmi Moskva qoşunları çıxarmağa hələ tələsmirdi.

Məhz bu zaman M.Bağırov İrandakı diplomatik korpusda işləmək üçün Bakıda və yerlərdə partiya-dövlət işlərində çalışan

azərbaycanlı kadrlar sırasından namizədlər irəli sürməyə başlayır. Elə həmin vaxt M.Bağırovun təkidi ilə azərbaycanlılarla bir çox hallarda fikirləri üst-üstə düşməyən SSRİ-nin İrandakı səfiri A.Smirnov Moskvaya geri çağırılır. Siyasi partiyalar və ictimai hərəkatlar Dövlət Arxivində M.Bağırov tərəfindən tərtib olunmuş bir sənədə rast gəldik. Bu sənədə görə, İranda Azərbaycan probleminin həll edilməsi üçün diplomatik korpusa azərbaycanlı kadrlar təklif edilir.

F №1, siy. №89, iş № 141

Vəzifə və namizədlərin
SİYAHISI

**DİPLOMATİK İŞ**

**Səfirlik (Tehran)**

1. Müşavir – Yaqubov Əhəd Əli Əkbər oğlu
2. 1-ci müşavir – Orucov Məmməd Tağı
   (Qubanın raykomu).
3. 3-cü müşavir – Haşımov Cəbrayıl İsrafiloviç.

**Mərkəzi konsulluq (Təbriz)**

4. Vitse-konsul – Rəhimov Süleyman
   (MK-nın təbliğat şöbəsi).
5. Katib – Mirzə Məmmədov.

**Vitse-konsulluq (Maku)**

6. Vitse-konsul – Mustafayev Mustafa Seyid Əhməd oğlu.
7. Katib – Seyidzadə
   (Bu siyahı çox böyük olduğundan, onun yalnız bir hissəsini verdim - A.M.)





Artıq 1945-ci ilin avqustunda SSRİ-nin İrandakı yeni səfiri Əhəd Yaqubov Təbrizə gəlir. Onun missiyası İran Xalq Partiyasının (“Tudə”) Azərbaycan şöbəsini Demokrat Partiyası (ADP) ilə birləşdirmək idi. Sentyabrın 6-da M.Bağırov Stalinə aşağıdakı məzmunda məktub göndərir: “Bu gün İran Xalq Partiyasının Təbriz komitəsinin plenumu keçiriləcək. Xalq Partiyasının Azərbaycan şöbəsi Azərbaycan Demokrat Partiyası ilə birləşəcək”. Artıq Sovet qoşunları İrandan çıxana qədər Cənubi Azərbaycanın İrandan ayrılması istiqamətində işlərə start verilmişdi.

Sentyabrda ADP-nin Təşkilat Komitəsi Bakıdan yardım kimi material və texniki təminat almağa başlayır. Bu işlərin təşkilatçıları xüsusi tapşırıqla ezam olunmuş A.Kərimov, H.Həsənov, M.İbrahimov və A.Atakişiyev idi. General A.Atakişiyev M.Bağırova göndərdiyi növbəti teleqramda bildirirdi: “Xaricdə xüsusi xidmət orqanları sovet qoşunlarının yerləşdiyi zonada yerli əhalinin içərisindəki tərəfdarlarını silahlandırır və bu qruplaşmalarla qiyam hazırlayır. ADP üzvlərinin repressiya olunma təhlükəsi var. Ona görə də partiya üzvlərinin silahlanması məsələsini həll etmək lazımdır”.

M.Bağırov bilirdi ki, belə bir vəziyyətdə əsas iş DİXK və DTK nümayəndələrinin üzərinə düşür. Bu işdə ona yenə də L.P.Beriya kömək etdi. M.C.Bağırov L.P.Beriyaya DTK-nın mərkəzə düzgün məlumat vermədiyini deyir və bundan sonra azərbaycanlı çekistlərin məlumatları ilə onu müntəzəm tanış edəcəyini bildirir. M.Bağırovun L.P.Beriyaya müraciət etməsinin əsas səbəbi DTK-nın polkovniki Kərimovun Təbrizdəki erməni diasporunun Cənubi Azərbaycandakı hadisələrdən narahatlığı barədə məlumatı, həmçinin Amerika ermənilәri Milli Konqresinin İranda yaşayan ermənilərə müraciəti oldu. Bu, M. Bağırovun vəziyyətə operativ nəzarət etməsindən xəbər verirdi.

F № 1, siy. № 89, iş № 95
Tam məxfi

Təbriz şəhərinin erməni əhalisinin
Amerika erməniləri Milli Konqresinin bəyannaməsi
ilə bağlı əhval-ruhiyyəsi haqqında

**ARAYIŞ**

San-Fransisko konfransında Amerika erməniləri Milli Konqresinin bəyanatını Təbriz ermənilərinin həyatında ən sensasiyalı xəbərlərdən biri hesab etmək olar. Əsl sensasiya isə "Sovet Ermənistanı" qəzeti (SİTA-nın məlumatına əsasən) müəyyən ixtisarla bu xəbəri çap etdikdən sonra başladı. Bu bəyanat barədə əvvəlcə xaricdən verilmiş (SSRİ-dən yox) radio məlumatı "Sovet Ermənistanı" qəzetində xəbər kimi peyda olduqdan sonra müşahidə edilən marağı doğurmamışdı.

"Sovet Erəmənistanı"nın bu məlumatına əks-səda olaraq Derenik Dəmirçiyanın  məqaləsi bu məsələyə elə böyük maraq yaratdı ki, ermənilər bir-birilə görüşəndə  soruşurdular: "Öyrəndin? Oxudun? Bu nömrəni tapa bildin?" və s. Yerli "Antifaşist" qəzeti bu coşqun marağı görüb "Sovet Ermənistanı"ndan bu xəbərin üzünü köçürüb, bir neçə saat ərzində satılıb qurtaran vərəqələr şəklində buraxdı. Uzun həftələr ərzində və hətta indi də yerli erməni icması üçün söhbət mövzusu bu bəyannamə idi. O sənəd böyük ruh yüksəkliyi və fikir mübadiləsi yaratdı ki, bunu hər gün görmək mümkün idi.





Yerli erməni icmasının fikri bütünlüklə günün mövzusu – erməni məsələsi ilə məşğuldur. Onlar hər gün, hər saat bu və ya digər siyasi əqidə haqqında danışırlar. Bütün söhbətlər erməni məsələsi və onunla paralel baş verən hadisələr, məsələn, San-Fransisko konfransında edilmiş müraciət, milli kilsə yığıncağı tərəfindən Stalinə ünvanlanmış teleqramlar, milli yığıncaqdan qayıdan nümayəndələrin çıxışları, bununla bağlı qəzetlərdə çap olunan məqalələr, Türkiyə tərəfindən verilmiş miskin bəyanatlar, ingilis dini rəhbəri Consonun müsahibəsi və s. ətrafında gedir.

Ümumi əminlik var idi ki, erməni məsələsi ilə bağlı baş verən bu hadisələr bir nəticəyə gətirib çıxarmalıdır, daha dəqiq desək, Sovet İttifaqı bu işə rəsmi müdaxilə edəcək və məsələ öz əlverişli həllini tapacaq. Guya Türkiyə Ermənistanının bir sıra əyalətləri Sovet Ermənistanına birləşdiriləcək və xaricdəki ermənilər öz vətənlərinə qayıdacaq.

Yuxarıda göstərilən məsələ ilə bağlı bir sıra şəxslərin aşağıdakı fikirləri qeydə alınmışdır.

Arxiyepiskop Məlik-Tanqiyan:

- Ermənilər öz səslərini qaldırdılar. Moskvanın sayəsində biz sərhədlərin genişlənməsinin və geriyə mühacirətin şahidi olacağıq. İndi geriyə dönməyin əsl vaxtıdır, bir neçə onillikdən sonra gec olacaq. Çünki, yeni nəsil xaricdəki həyata uyğunlaşacaq və öz ölkəsinə mühacirət etməkdə çətinlik çəkəcək. İngilis kilsəsi nümayəndəsinin müsahibəsi çox maraqlıdır. Bu insan sadə və aydın şəkildə deyir ki, Ermənistan ermənilərə verilməlidir. İngilisin dilindən belə sözlər heç vaxt eşidilməyib. Stalinə teleqramların göndərilməsi çox ağıllı işdir. Bizim üçün nəsə edilməlidirsə, bunu bu insan etməlidir. Ermənilərin San-Fransiskoda təqdim etdikləri bəyannamə yaxşı redaktə olunub.

Daşnak liderlərindən biri Hayk Əcəmyan:

- Amerika ermənilələri Milli Konqresinin San-Fransisko konfransına müraciəti,

"Sovet Ermənistanı" qəzetinin bu bəyannaməyə səs verməsi, Derenik Dəmirçiyanın, Metxasyanın və başqalarının məqalələri erməni məsələsinin müəyyən məcraya düşməsinə gətirib çıxarır.

Əlbəttə, bütün bunlar hazırda Sovet İttifaqı tərəfindən aparılan siyasətin nəticəsidir. Görünür, Sovet hökuməti Türkiyə Ermənistanı haqqında bu məsələni həll edəcək. Sovet hökuməti bu məsələni ortaya atıb, sistemli şəkildə onu inkişaf etdirir və bu məsələni tam həllinə aparıb çıxaracaq. Biz artıq bilirik ki, Sovet İttifaqı nəyəsə nail olmaq istəsə, o, öz niyyətini mütləq həyata keçirəcək.

Eçmiədzində milli kilsə yığıncağının və ya San-Fransiskoda Amerika ermənilərin müraciəti razılaşdırılmış məsələlərdir (yəni, bütün bu məsələlər guya Sovet hökuməti ilə razılaşdırılıb – A.M.).

Xalq Partiyasının üzvü, keçmiş tacir Stepan Qaraxanyan:

- İlk zamanlar mən hansısa yeni, ikinci Ermənistan haqqında məsələnin irəli sürüldüyünü güman edərək, Amerika Erməniləri Milli Konqresinin müraciəti ilə bağlı mənfi fikirdə idim. Amma "Sovet Ermənistanı"nın bu bəyannaməyə səs verməsi və burada Türkiyə Ermənistanının Sovet Ermənistanına birləşdirilməsinin göstərilməsi məni bu məsələnin razılaşdırılmış olmasına əmin etdi. Bizdə belə bir əminlik yarandı ki, Sovet İttifaqı sayəsində və onun əli ilə erməni məsələsi ümumilikdə öz həllini tapmalıdır.

Mühəndis Avetis Oqacanyan:





- İstər öz doğma ölkəsi, istərsə də onun hüdudlarından kənarda erməni əhalisi öz səsini vaxtında qaldırdı. Sovet İttifaqının maraqları erməni məsələsinin həll olunmasını tələb edir. "Sovet Ermənistanı" qəzetinin əks-sədası sübut edir ki, Sovet İttifaqı erməni məsələsinin həllinin tərəfdarıdır. Sovet hökuməti üçün Mosul neftindən istifadə marağı var, bu isə yalnız erməni və kürd məsələlərinin həlli ilə mümkündür. Mən kürd tayfalarının rəhbərlərindən eşitmişəm ki, San-Fransisko konfransında kürdlər də bəyannamə təqdim edərək Kürdüstanın Sovet İttifaqına birləşməsi şüarı altında tələb irəli sürüblər. Görünür, kürdlər bu barədə yazmayıblar, amma Kürdüstanda bu məsələ ilə bağlı ciddi söhbətlər gəzir".

Keçmiş daşnak, İran gömrüyünün məsul işçisi Bağdasar Şahgəldiyan:

- Amerika ermənilərinin bəyannaməsi siyasi cəhətdən yaxşı tərtib olunub. Bu dəfə Türkiyə Ermənistanı məsələsi həll olunacaq. Çox güman ki, bu məsələnin həllini öz üzərinə Sovet hökuməti götürüb. Söz zamanındır, o, dediyini həyata keçirir. Kreml deyirdi ki, biz öz qələbə bayrağımızı Berlinə sancacağıq və belə də oldu. Bu məsələyə "Sovet Ermənistanı" qəzetindən başqa "Pravda" və "İzvestiya" da toxunub. Bu, çox şey deməkdir, bizim üçün yaxşı, türklər üçünsə pis. Türklərin narahatlığı da həmçinin sübut edir ki, onlar üçün vəziyyət ciddi və narahatlıq doğuran xarakter alır. Xaricdəki ermənilər öz doğma qardaşları hesab edən Dəmirçiyan və başqalarının məqalələri kifayət qədər təsirli və ruhlandırıcıdır. Biz ümid edirik ki, bizim və onların arzuları həyata keçəcək. Stalin zarafat etmir, o, ingilis siyasətçisi deyil".

Xalq Partiyasının üzvü Hayk Ovanesyan:

- Bakı neft sənayesinin təhlükəsizliyi tələb edir ki, sərhəd Leninakandan çox uzaqlaşdırılsın. Erməni məsələsinin gündəmə gəlməsinin hazırkı motivi məhz bu vəziyyətlə izah olunmalıdır. Sovet hökuməti Bakının təhlükəsizlik məsələsində həddindən artıq maraqlıdır. Ehtimal ki, Türkiyə Ermənistanı əyalətlərinin Sovet Ermənistanına birləşdirilməsi məhz bu nöqteyi-nəzərdən həyata keçiriləcək. Amerika ermənilərinin və Eçmiədzindəki milli-dini yığıncağın bəyannaməsi ilə "Sovet Ermənistanı" və digər qəzetlərdə getmiş məqalələr arasında ümumi əlaqə var.

Keçmiş qnçakçı, hazırda Xalq Partiyasının üzvü Levon Çuxasizyan:

- Amerika ermənilərinin Milli Konqresi tərəfindən San-Fransisko konfransına təqdim olunmuş bəyannamə Eçmiədzində milli-kilsə yığıncağının Moskvaya müraciəti, Dəmirçiyan və digər şəxslərin məqalələri, ingilis kilsəsi dini rəhbərinin Yerevandakı çıxışı, bütün bunlar eyni zəncirin həlqələridir. İndi Moskva üçün türklərlə bütün qeyri-qanuni məsələləri, o cümlədən, sərhədlərlə bağlı məsələni həll etməyin ən münasib məqamıdır. Tezliklə biz əmin olmalıyıq ki, Molotovun notası - Türkiyə ilə dostluq müqaviləsinin ləğv olunması boş yerə verilməyib. Biz - Türkiyə erməniləri bu məsələdən böyük ruh yüksəkliyi duyuruq və buna haqqımız da var. Ermənistana hər hansı ərazi birləşdirməsinin olacağı şübhəsizdir, amma bu torpaqların hansı həcmdə olacağını əvvəlcədən söyləmək çətindir.

Keçmiş daşnak, uzun illər müəllim işləmiş Arakel Ter-Tovmasyan:

- Erməni əhalisi olduqca vacib və tarixi bir dövr yaşayır. "Sovet Ermənistanı" qəzetinin məqalələri olduqca sevindiricidir. Düşünürəm ki, Moskva bizim arzularımızı həyata keçirəcək.





Daşnak, Budaqyan bankının mühasibi Armenak Muradxanyan:

- Siyasətdə Moskva ingilisləri ötüb. Moskva ilə müqayisədə İngiltərənin siyasəti geri qalır. Əgər siyasi hadisələri götürüb ciddi araşdırsaq, görərik ki, İngiltərə burada əsasən uduzub, Sovetlər isə udub. Moskvanın erməni məsələsinə tərəfdarlığına və onun əlverişli həllində maraqlı olmasına heç bir şübhə yoxdur. Moskvanın razılığı olmadan Amerika ermənilərinin bəyannaməsi meydana çıxmazdı. "Sovet Ermənistanı" qəzetinin əks-sədasını da bununla izah etmək lazımdır. İstənilən halda bizdə yaxşı hadisələr baş verəcək, çünki Moskva və onun siyasəti göz qabağındadır.

Azərbaycan SSR Dövlət Təhlükəsizlik
Xalq Komissarı, polkovnik /Kərimov/

29 sentyabr 1945-ci il
F№1, siy. № 89, iş № 95
*Tam məxfi*

Təbrizdə daşnakların silah anbarının
aşkar olunması haqqında

ARAYIŞ

1945-ci il iyul ayının ortalarında Təbrizdə erməni məktəbinin zirzəmisində daşnakların silah anbarının mövcudluğu barədə məlumat daxil oldu.

İlkin yoxlama zamanı bu məlumatlar təsdiqləndi və müəyyən olundu ki, burada silah anbarının olmasından hələ 1944-cü

ildə daşnak Baqdalyan və Xalq Partiyasının üzvü David Gevorkyan erməni məktəbinin təmiri zamanı xəbər tutmuş, amma guya qorxudan bunu heç kimə deməyiblər.

Dindirmə zamanı David Gevorkyan erməni məktəbinin zirzəmisində silah anbarının olmasını təsdiq edərək bildirib ki, o, bu barədə heç kimə xəbər verməyib və həmin silahları Xalq Partiyasının üzvlərinin silahlandırılması üçün istifadə etməyi nəzərdə tutub.

Anbar silahı istənilən vaxt başqa yerə daşımaq imkanına malik daşnakların nəzarəti altında idi və onlar, sözsüz ki, silahın Xalq Partiyasının əlinə keçməsinə yol verməzdilər.

Həmin il iyul ayının 20-nə keçən gecə əməliyyat keçirilmiş və bizim əməkdaşlar yeri qazıb anbarı aşkar etmişlər. Nəticədə 50.000-dən artıq tüfəng və digər silahlar üçün patronlar, 4 top panoramı, 19 mərmi, 23 “Naqan” və “Mauzer” tipli tapança, 500 kiloqram partlayıcı maddə, 3.000 kapsul-fitil, 25 qumbara və bir sıra top hissələri çıxarılıb götürülmüşdür.

Bəzi məlumatlara görə, bütün bu silahlar 25 il bundan əvvəl əldə edilmiş, daşnak hökumətinə məxsus olmuş və Təbrizdəki erməni məktəbinin zirzəmisində gizlədilmişdir.

Müəyyən olunub ki, silah anbarının mövcudluğu arxiyepiskop Məlik-Tanqiyana da məlum imiş. O, sonradan bizim əməkdaşlara sistematik olaraq daşnakları himayə etdiyini, həmçinin silah və döyüş sursatının saxlanmasında onlara köməklik göstərdiyini şəxsən etiraf etmişdir. Məlik-Tanqiyan son zamanlaradək yeparxiya idarəsinin binasında İraqdan qaçan daşnakların qoyub getdiyi daşnak ədəbiyyatı kitabxanasını da saxlayırmış. 1929-cu ilin məlumatına görə, Məlik-Tanqiyan ingilis kəşfiyyatı ilə əlaqəli imiş.





Yuxarıda göstərilən anbar aşkar edildikdən sonra, yerli milliyyətçi dairələr iranlılar və ermənilər arasında milli ədavətin qızışdırılmasına yönəlmiş hər cür mümkün dedi-qodular yaymağa başladılar. Alınan məlumatlara görə, bəzi mollalar erməni kilsəsinin həyətində guya iranlılara qarşı istifadə olunmaq üçün nəzərdə tutulmuş silah anbarının tapıldığını da deyirmişlər. Bu zəmində ermənilərin döyülməsi və onlara qarşı hədə-qorxu halları baş vermişdir.

Erməni əhalisi qeyri-qanuni silah anbarı saxlamaqda günahkar olanların məsuliyyətə cəlb edilməsini tələb eləyirlər. Onlar daşnakları, xüsusilə də, silah və döyüş sursatını gizlədən yeparxiya şurasının rəisi arxiyepiskop Nerses Məlik-Tanqiyanın, zərgər Aykak Kosoyanın, məktəbin direktoru Hayk Əcəmyanın, erməni məktəbinin keçmiş gözətçisi, hazırda tacir olan Ovanes Qabrielyanın, onun oğlu Andronik Qabrielyanın simasında onların Təbrizdə qalan rəhbərlərini ittiham edir.

Azərbaycan SSR Dövlət Təhlükəsizlik
Xalq Komissarı, polkovnik /Kərimov/

1 oktyabr 1945-ci il

Artıq oktyabrın 16-da M.Bağırovun təkidi ilə polkovnik Kərimov İran ermənilərinin və Sovet rəhbərliyinin maraqlarını ifadə edən “Tudə” Partiyasına deyil, Demokrat Partiyasına üstünlük verməyə və yeni məlumatlar ötürməyə başlayır.

F №1, siy. № 89, iş № 95

*Tam məxfi*

İran ermənilərinin yeni yaradılan Azərbaycan Demokrat Partiyasına münasibəti haqqında

**ARAYIŞ**

“Ramkavar” partiyasının üzvü Torqosyan:

“Demokrat Partiyası kifayət qədər dəyərli ideya daşıyır. Əgər o, öz tələblərinin həyata keçirilməsinə nail olarsa, ermənilərin vəziyyəti kəskin şəkildə yaxşılaşacaq”.

Böyük sərvət sahibi Budaqyan:

“Bir halda ki, Demokrat Partiyası Azərbaycanın muxtariyyəti məsələsini qoyur, şübhəsiz, biz buna hər cür yardım göstərməliyik”.

Bununla yanaşı, həmçinin bəzi mənfi fikirlər də qeydə alınmışdır.

İngilis bankının işçisi, İngiltərə vətəndaşı Tovmasyan öz münasibətini belə bildirmişdir:

“Ruslar öz qoşunlarının çıxarılması ilə bağlı İranda nüfuzlarının zəifləməsinin qaçılmazlığını əvvəlcədən görərək, “Tudə” Partiyasının adını dəyişib Demokratik Partiya qoydular. Onların bu partiya ilə əlaqəli olması fikrinə əsas verməmək və Azərbaycanda öz nüfuzlarını qoruyub saxlamaq üçün bura bəzi tacir və mülkədarları da daxil etdilər”.

Tanınmış daşnak Kosoyan:

“Ruslar gördülər ki, “Tudə” Partiyası öz hərəkətləri ilə özünü hörmətdən salıb, buna görə onu Demokrat Partiyası adlandırdılar və bura varlıları cəlb etmək, bununla da hökumətin diqqətini özlərindən yayındırmaq üçün proqrama bəzi dəyişikliklər etdilər. Hər halda bu partiyanın tələbləri kifayət qədər ədalətlidir və onların həyata keçirilməsində biz ermənilər də maraqlıyıq”.





İngilis bankının direktor müavini Ter-Ovanesyan:

“Ermənilərin Demokrat Partiyasına qoşulması səhvdir. Bu partiyaya Azərbaycan ermənilərinin adından göndərilmiş təbrik məktubu siyasi nöqteyi-nəzərdən təhlükəli addımdır. Bizim ermənilər və milli azlıq olaraq vəziyyətimiz qeyri-müəyyəndir. Biz bütün bunları dərk etməli və özümüzü loyal aparmalıyıq. Öz iştirakımızla Demokrat Partiyası üçün yaxşı heç nə edə bilməyəcəyik, çünki say baxımından heç nəyə dəymərik, ermənilər üçün isə ən pis vəziyyət yaradacağıq. Hətta elə ola bilər ki, gələcəkdə Demokrat Partiyası özü də “Gənc türklər” kimi ermənilər üçün dəhşətli qılınca və onları təqib edən qüvvəyə çevrilsin”.

Marağada yaşayan daşnak Rostomyan:

“Biz ermənilər üçün belə partiyalarda iştirak etmək çox təhlükəlidir. Biz Demokrat Partiyasına daxil olsaq, İran hökuməti onun bütün fəaliyyətini bizim ayağımıza yazacaq və bizə divan tutmağa başlayacaq. Ərdəşir Ovanesyanın başına nə gətirdiklərini görürsünüzmü? “Tudə” Partiyasının hərəkətlərində yalnız onu ittiham edir və hesab edirlər ki, bu partiyanın bütün işinə tək o rəhbərlik edir və bu, ancaq ona görə baş verir ki, o, ermənidir. Biz öz varlığımızı qoruyub saxlamaq üçün bütün partiyalardan kənarda durmalıyıq. Bizim İrandakı mövqeyimiz onsuz da möhkəm deyil.”

Təbrizdə dərc olunan “Antifaşist” erməni qəzeti Demokrat Partiyasının orqanı olmasa da, sistematik olaraq öz səhifələrində Azərbaycan Demokrat Partiyasını təbliğ edir.

Azərbaycan SSR Dövlət Təhlükəsizlik
Xalq Komissarı, polkovnik /Kərimov/
16 oktyabr 1945-ci il

Elə həmin günlərdə, 1945-ci ilin aprel ayında erməni katolikosu VI Gevork Çörəkciyan Kremldə Stalinlə görüşür. Bu görüşün nəticəsi olaraq erməni kilsəsinin fəaliyyətinin rəsmi bərpasına razılıq verilir. Erməni katolikosu VI Gevork Çörəkciyan da öz növbəsində Stalinə müraciət edərək, Şərqi Anadolunu "tarixi erməni torpağı" adlandırır, bu ərazilərin onlara verilməsini xahiş edir. 21 noyabr 1945-ci ildə bu məsələ ilə əlaqədar Sovet hökumətinin fərmanı çıxır. Bu fərmana əsasən, dünya ermənilərinin kütləvi şəkildə Sovet Ermənistanına qayıdışına icazə verilirdi. Yenə fərmana əsasən, erməni katolikosu VI Çörəkciyan erməni diasporu ilə əlaqələndirici rolunda çıxış edirdi. Gələcəkdə türklərdən təmizlənəcək Şərqi Anadolu ərazisi üçün dünya ermənilərini Sovet Ermənistanına yığmağa başladılar. Artıq Qars, Ərdəhan, Şərqi Anadolunun digər ərazi vahidləri üzrə partiya komitələri yaradılmış, erməni millətindən olan katiblər təyin edilmişdi. 21 noyabr 1945-ci il fərmanından sonra 1945-ci il noyabrın 27-də katolikos VI Gevork Çörəkciyan ABŞ, Böyük Britaniya və SSRİ rəhbərlərinə yazılı müraciət edərək, "tarixi erməni torpaqlarının" erməni xalqına tez bir zamanda qaytarılmasını xahiş edirdi.

Sonradan SSRİ Ali Soveti Rəyasət Heyətinin erməni repotriantları ilə bağlı 19 oktyabr 1946-cı il fərmanı ermənilərin Suriyadan, Yunanıstandan, Livandan, İraqdan, Bolqarıstan və Rumıniyadan Sovet Ermənistanına köç etməsinə və orada məskunlaşmasına icazə verirdi. 1946-1949-cu illər ərzində 96 min





erməni Sovet Ermənistanında məskunlaşdı və SSRİ vətəndaşlığı aldı. Bu ideyanın siyasi təşəbbüskarı SSRİ-nin ticarət naziri, daha sonra SSRİ Ali Sovetinin sədri olmuş Anastas Mikoyan, maliyyələşdirən isə dünyanın ən zəngin adamlarından sayılan, Osmanlı əsilli Qalust Gülbenkyan idi. Bu, həmin Qalust Gülbenkyandır ki, Anastas Mikoyan ticarət naziri olduğu dövrdə dünyanın ən zəngin fondlarına malik Ermitajdan bir çox qiymətli tabloları, xüsusən də, Rembrandtın sənət əsərlərini dəyər-dəyməzinə almışdı. Gülbenkyan neft maqnatı kimi ilk maliyyəsini Osmanlı sultanı vəzirinin 28 iyun 1914-cü il tarixli sərəncamına uyğun olaraq, Sultanın İraq ərazisindəki neft yataqlarını satın almış və orada Türk Petrol Şirkətini təsis etmişdi. Gülbenkyanın babası Osmanlının maliyyə naziri olmuş və zəngin sərvətini nəvələri arasında bölmüşdü. Tarixin ironiyasına baxın ki, Osmanlıdan oğurlanmış bu sərvət elə Osmanlının çöküşü üçün də istifadə ediləcəkdi. Çünki, sonradan Osmanlı ərazisini işğal etmiş ingilislər Qalust Gülpenkyanla razılığa gələrək, Türkişh Petrolium şirkətinin yerinə Britiş Petrolium şirkəti yaradaraq, ona 5 faiz pay ilə təsisçi hüququ verirlər. Əlbəttə, ingilislər Gülbenkyanın ermənilərin Osmanlıya qarşı fəaliyyətinə maliyyə dəstəyi göstərdiyinə görə, onu bu formada mükafatlandırır. Eyni ssenari İkinci dünya müharibəsindən sonra təkrarlanırdı. Bu dəfə Gülbenkyan Moskva ilə əməkdaşlıq edirdi. Məhz dünya ermənilərinin Sovet Ermənistanına yerləşdirilməsi gələcəkdə onların Şərqi Anadoluya köçürülməsi baxımından, o vaxtın sovet rəhbərliyinə Türkiyəyə təzyiq etmək üçün lazım idi. Dünya erməniləri Türkiyəyə qarşı verilmiş Molotov notasından faktiki olaraq kilsənin və onun siyasi-iqtisadi qanadı olan Mikoyan-Gülbenkyan vasitəsilə maksimum yaralanmağa çalışırdı.

Bütün bu hadisələrlə əlaqədar M.C.Bağırov hələ 21 oktyabr 1945-ci il tarixində Bakı hərbi dairəsinin komandanı, ordu generalı İ.İ.Maslennikovla bərabər L.P.Beriyaya yenidən məktub yazaraq, öz narahatlığını bildirir. M.C.Bağırov Türkiyə ərazilərinin sovet Ermənistanına birləşdirilməsinin indiki məqamda məqsədəuyğun olmadığını qeyd edir, İraqdakı neft yataqlarına Cənubi Azərbaycan və İran Kürdüstanı vasitəsilə çıxmağın daha vacib və aktual olduğunu vurğulayırdı. O, bu xətti yeritməklə dolayısı ilə dünya ermənilərinin Türkiyəyə təzyiqinin qarşısını almağa çalışırdı.

F № 1, siy. № 89, iş № 95

Tam məxfi

SSRİ Daxili İşlər Xalq Komissarı, Sovet İttifaqı marşalı
L.P.Beriya yoldaşa

ÜK(b)P MK-nın İran Azərbaycanı və Şimali Kürdüstan məsələsi ilə bağlı 8 oktyabr 1945-ci il tarixli qətnaməsinin icra olunması məqsədilə tərəfimizdən aşağıdakılar həyata keçirilmişdir:

Azərbaycan SSR DİXK və DTXK-nın İran Azərbaycanında muxtariyyətçilik hərəkatının inkişafına mane olan şəxs və təşkilatların (jandarmlar, polislər, İran ordusunun zabitləri və s.) məhvi üzrə işi təşkil etmək iqtidarında olan 21 təcrübəli əməliyyat işçisi ayrılmışdır. Bu yoldaşlar həmçinin yerli əhalidən silahlı partizan dəstələri təşkil etməlidirlər.

Əməliyyat işçilərinə yardım üçün kənd təsərrüfatı işçiləri və kolxoz aktivi sıralarından uzun müddət DİXK-DTXK orqanları ilə bağlı olmuş və bir sıra konkret döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı yoxlanılmış 75 döyüşçü seçilmişdir.





Əməliyyat işçiləri və döyüşçülər qruplarla ilk növbədə Təbriz, Ərdəbil, Miyanə, Rezaiyyə və Marağa şəhərlərinə yollanacaqlar, digər rayonlara isə sonralar göndəriləcəklər.

Konspirasiya məqsədilə əməliyyat heyəti yerlərdə bizim İran Azərbaycanı şəhərindəki hərbi komendantların müavinləri kimi, döyüşçülər isə həmin komendaturalarda sıravi kimi yerləşdiriləcək.

Yerlərə göndəriləndən əvvəl ayrılmış işçilər Bakı şəhərində siyasi, hərbi və sosial hazırlıq keçəcəklər.

Azərbaycan SSR DİXK və DTXK-nın göstərilən işçilərinin (siyahı əlavə olunur) nəzərdə tutulan tədbirləri həyata keçirmələri üçün ezam olunmasına sərəncam vermənizi xahiş edirik. 96 nəfərdən ibarət əməliyyatçı və döyüşçünün İran Azərbaycanında uzun müddət qalması zərurətini nəzərə alaraq, onların saxlanması üçün ayda 100.000 rial vəsait ayrılması haqqında göstəriş verməniz xahiş edirik.

Bakı hərbi dairəsinin komandanı
Ordu generalı İ.İ.Maslennikov

Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov
Bakı şəhəri, 21 oktyabr 1945-ci il № 273

Bu müraciət L.P.Beriya tərəfindən müsbət həll olunmuşdu. M.C.Bağırov özünün növbəti addımlarını regionda real vəziyyəti nəzərə almaqla atır, tədbirlər görür və öz strategiyasını formalaşdırırdı. Bundan başqa, M.C.Bağırovun tapşırığı ilə İra-

nın yerli mətbuatında siyasi vəziyyətlə bağlı dərc olunan istənilən məqalə dərhal tərcümə olunurdu. Yəni o, baş verənlərə kor-koranə baxmamağa, analitik düşünərək, vəziyyəti idarə etməyə çalışırdı.

16 noyabr 1945-ci ildə Təbriz qubernatorunun vəzifəsini icra edən Həsən Dövlətşahi, diviziya komandiri general Daraşahi, jandarmeriya rəisi Humayu İran Azərbaycanındakı vəziyyəti teleqrafla Tehrana çatdırdılar. Həmin gecə İran hökuməti növbədənkənar iclas çağırdı və hərbi nazir general Riyazi tərəfindən Azərbaycanda baş verən hadisələr haqqında məlumat dinlənildi. Hərbi nazir öz çıxışında əhalinin Sovetlər tərəfindən silahlandırılması və hazırlanan üsyan barədə məlumat verdi.

İranın keçmiş baş naziri Mürtəza Bayat Təbrizə yeni qubernator təyin edildi və İran ordusuna tam hərbi hazırlıq əmri verildi.

Noyabrın 18-də SSRi-nin İrandakı səfirinin səlahiyyətlərini icra edən Əhəd Yaqubov İranın baş naziri Həkimi ilə görüşdü. Görüş zamanı Həkimi Sovet səfirinə yeni təyin olunmuş qubernatorun Təbrizdəki Sovet zonasına 2 piyada batalyonu və 1 jandarm qrupu ilə daxil olmasına kömək etməyi və ümumilikdə, II Dünya müharibəsinin sona çatması ilə əlaqədar Sovet Ordusu hissələrinin İran Azərbaycanı və İran Kürdüstanı ərazisindən çıxarılmasını xahiş etdi. Həkimi xahişinin yerinə yetirilməyəcəyini başa düşüb, noyabrın 19-da İran Xarici İşlər Nazirliyi vasitəsilə Tehrandakı Sovet səfirliyinə etiraz notası göndərdi. Notada Tehran Sovet hökumətini İranın daxili işlərinə müdaxilədə ittiham edirdi. Sovet İttifaqı Xarici işlər xalq komissarı notaya ertəsi gün cavab verdi. Notaya cavabda deyilirdi:





“Sovet hökuməti İranın daxili işlərinə müdaxilə etmir və Azərbaycanda baş verənlər İranın daxili işidir. Sovet qoşunlarının İrandan çıxarılması məsələsi isə gündəlikdə durmur”.

Noyabr ayından başlayaraq, M.C.Bağırov hər gün Moskvaya – Stalinə, Molotova, Beriyaya və Malenkova məlumatlar verirdi. Həmin məlumatları Bağırova İranda səfir vəzifəsini icra edən Ə.Yaqubov, DT komissarı S.Yemelyanov və Azərbaycanı Təbrizdə təmsil edən üçlük (M.İbrahimov, H.Həsənov, A.Atakişiyev) ötürürdü.

Noyabrın 18-də Təbrizdə 20 min nəfərlik mitinq keçirildi. Mitinqdə Seyid Cəfər Pişəvəri, Məhəmməd Biriya və İlhami çıxış edərək polislərə, jandarmlara, əsgərlərə müraciət etdilər: “Siz Azərbaycan xalqının oğulları və bizim qardaşlarımızsız. Satqın adamlara qulaq asmayın, öz xalqınıza əl qaldırmayın”.

Eyni zamanda Təbriz və Azərbaycanın digər şəhərlərində SSRİ-dən gətirilmiş silahla yerli sakinlər silahlandırılır və üsyançı dəstələr yaradılırdı. Bakı “üçlüyündən” Bağırova üsyançıların silahlandırılması üçün 10 min ədəd hərbi sursat göndərilməsi xahiş olunan məktublar göndərilirdi.

1945-ci il noyabr ayının ikinci yarısında xalq yığıncaqları vasitəsilə Azərbaycan Milli Konqresinə 687 nümayəndə seçilir.

1945-ci il noyabr ayının 20-i saat 10-da Şiri-Xurşid Teatrında Azərbaycan Milli Konqresi öz işinə başladı. Demokrat Partiyasının sədri Seyid Cəfər Pişəvəri və Səttarxanın qardaşı Hacı Əzimxan Milli Konqresin işini açıq elan etdilər. Konqresdə Azərbaycanın muxtariyyətinin və Milli Məclisə seçkilərin əsası qoyuldu.

Milli Konqres iştirakçıları tərəfindən Müəssislər Məclisi elan olundu. Eyni zamanda Milli Heyət təsis edildi və tezliklə Milli hökumətin yaradılması planlaşdırıldı.

Noyabrın 23-də Milli Konqres Məhəmmədrza şaha, İran Məclisinin sədri Təbatəbaiyə və baş nazir İbrahim Həkimiyə müraciət ünvanladı. Müraciət 7 bənddən ibarət idi. I,VI və VII bəndlərdə deyilirdi:

I. Azərbaycan xalqı öz milli xüsusiyyətlərinə malikdir. Bu, xalqın dili, ənənələri, hüquqi və tarixi inkişaf yolundadır. Bu xüsusiyyətlər bizə İranın tamlığı və ərazi bütövlüyünə xələl yetirmədən Atlantika Xartiyası əsasında millətin öz müqəddaratını təyinetmə hüququna malik olmağa əsas verir.

VI. Azərbaycan xalqının xüsusiyyətlərindən biri də onun ana dilidir. Milli Konqres Milli Heyətə tapşırır ki, Azərbaycanın bütün dövlət orqanlarında rəsmi dil kimi Azərbaycan dili işlədilsin.

VII. 700 nümayəndənin iştirak etdiyi Milli Konqres daxili işlərin idarə olunması üçün 39 nəfərdən ibarət Milli Heyət təsis etdi. Milli Heyət Azərbaycan Milli Məclisinə və İran Məclisinə seçkiləri təşkil edəcəkdir.

Yemelyanovun M.C.Bağırova verdiyi məlumatla tanışlıqdan sonra bir daha aydın olur ki, Təbrizdə baş verən bütün proseslərə M.C.Bağırov Bakıdan birbaşa rəhbərlik edir.

F № 1, siy. № 89, iş № 97
Azərbaycan K(b)P MK-nın katibi
M.C.Bağırov yoldaşa

"İran Azərbaycanı üzrə tədbirlərin həyata keçirilməsinin gedişatı haqqında" məruzənin layihəsini Sizə göndərirəm.

Əlavə: 2 nüsxə





Azərb.SSR Dövlət Təhlükəsizlik Xalq
Komissarı general-mayor S.F.Yemelyanov
Bakı şəhəri, 20 dekabr 1945-ci il

Tamamilə məxfi

İran Azərbaycanı üzrə tədbirlərin həyata keçirilməsi gedişi barədə

*Azərbaycan Demokrat Partiyasının təşkili və noyabr ayının sonuna onun tərkibi*

Son illər İran Azərbaycanında demokratik qüvvələrin fəallığı əhəmiyyətli dərəcədə artır və milli-azadlıq hərəkatının genişləndirilməsi zərurəti yaranırdı.

Mövcud siyasi vəziyyətdə fəaliyyətdə olan İran Xalq Partiyası "Tudə" qarşısına xalqın milli-azadlıq hərəkatının inkişafı vəzifəsini qoymur və hazırkı mərhələdə öz proqramında İran Azərbaycanı əhalisinin geniş demokratik təbəqələrinin maraqlarını tamamilə əks etdirmirdi.

Bundan başqa, Xalq Partiyasının təmənnalı məqsədlər güdən və daha çox özünün şəxsi rifahı haqqında düşünən bir sıra üzvlərinin davranışı, həmçinin Xalq Partiyasının bəzi rəhbər işçilərinin (Ərdəşir Ovanesyan, Əmirxızı və s.) qarət və talanlara rəvac verən fitnəkar çıxışları əhalinin gözündə onun yerli orqanlarının nüfuzunu əhəmiyyətli dərəcədə aşağı saldı.

Beləliklə, milli-azadlıq hərəkatına rəhbərlik etmək və bunun üçün İran Azərbaycanının bütün demokratik qüvvələrini birləş-

dirmək iqtidarında olan yeni siyasi partiyanın yaradılması zərurəti açıq-aydın hiss olunurdu.

Bizim direktiv orqanlarımızın bu məsələ ilə bağlı qərarına uyğun olaraq, bir sıra nüfuzlu şəxslər Azərbaycan Demokrat Partiyasının (ADP) yaradılması üçün İrandan Bakıya çağırıldı. Müvafiq söhbətlərdən sonra yeni yaradılmış Azərbaycan Demokrat Partiyasına rəhbərlik demokratik dairələr arasında nüfuz sahibi olan görkəmli azərbaycanlılardan birinə – Seyid Cəfər Pişəvəriyə tapşırıldı.

Pişəvəri tərəfindən yaradılmış təşkilat bürosu sentyabrın 3-də partiyanın qurulması, onun məqsəd və vəzifələri haqqında İran Azərbaycan əhalisinə müraciət etdi. Müraciət İran Azərbaycanı əyalətlərinin əksəriyyətini və əhalinin bütün təbəqələrini təmsil edən demokratik ruhlu görkəmli insanlar tərəfindən imzalanmışdı.

ADP-nin proqram tələbləri və milli-azadlıq hərəkatı ilə bağlı məqsədləri geniş əhali kütləsi tərəfindən böyük rəğbət və fəal dəstəklə qarşılandı. İran Azərbaycanının bütün bölgə və şəhərlərindən əhalinin nüfuzlu, demokratik ruhlu nümayəndələri tərəfindən müraciətə qoşulmaqla bağlı teleqram və qətnamələr daxil oldu.

ADP-nin yaradılması ideyası həmçinin Xalq Partiyası üzvlərinin əsas kütləsi və Təbriz vilayət komitəsi tərəfindən də dəstəkləndi. Bu istiqamətdə həyata keçirilmiş müvafiq iş nəticəsində 1945-ci il sentyabrın 6-7-də Xalq Partiyasının vilayət konfransında Azərbaycan Demokrat Partiyasının müraciətinin hərtərəfli və qızğın müzakirəsindən sonra böyük səs çoxluğu ilə vilayət təşkilatının Xalq Partiyası MK-dan ayrılması və ADP-yə birləşməsi haqqında qərar qəbul olundu.





Digər tərəfdən, təşkilat komitəsi tərəfindən partiya sıralarına üzvlərin cəlb edilməsi və Azərbaycan Demokrat Partiyasının təsis qurultayına hazırlığın həyata keçirilməsi üzrə ciddi və böyük təşkilatı-siyasi iş aparıldı.

1945-ci il oktyabrın 8-də Təbrizdə 237 həlledici və 4 məşvərətçi səs hüququna malik nümayəndənin iştirakı ilə Azərbaycan Demokrat Partiyasının birinci (təsis) qurultayı keçirildi. Qurultayda həmçinin 17 qonaq, o cümlədən, vali vəzifələrinin icraçısı, şəhərin başçısı, yerli polisin rəisi, maliyyə-iqtisad müdiri və b. iştirak edirdi.

3 gün davam edən qurultay iki məsələni müzakirə etdi və onlar barəsində qərar qəbul etdi:

1. Partiyanın proqram və nizamnaməsinin təsdiq olunması.
2. Rəhbər orqanların seçilməsi.

Qurultay müəyyən əlavələr etməklə, partiyanın proqram və nizamnaməsini yekdilliklə təsdiqlədi, o cümlədən, qurultay proqrama aşağıdakı maddələri əlavə etdi:

a) böyük kapitalla Milli Bankın yaradılması haqqında.

b) gənclərin Gənclər Təşkilatına cəlb olunması və bu təşkilatın ADP-yə tabe olması haqqında.

c) Qadınlar Təşkilatının yaradılması haqqında.

d) bütün kargüzarlıq işlərinin Azərbaycan dilində aparılmasının zəruriliyi haqqında.

Qurultay 41 nəfərdən ibarət Mərkəzi Komitə (Plenum) və 12 nəfərdən ibarət təftiş komissiyası seçdi. (Adbaad siyahı əlavə olunur. Bax: qoşma № 1).

Sosial mənşəyinə görə, Azərbaycan Demokrat Partiyasının rəhbər orqanlarının tərkibi belədir:

Peşəkar partiya işçiləri.........................10 nəfər
Fəhlələr.................................................4 nəfər
Qulluqçular...........................................7 nəfər
Sənətkarlar............................................1 nəfər
Ziyalılar ..............................................11 nəfər
Xırda mülkədarlar və xanlar................10 nəfər
Tacirlər..................................................4 nəfər
Kiçik fabrik sahibləri.............................2 nəfər

MK (Plenum) öz tərkibindən Rəyasət Heyəti (büro) seçib ki, bura aşağıdakı şəxslər daxildir:

1. Pişəvəri Seyid Cəfər – sədr
2. Rəfii Nizam Dövlə – müavin
3. Padeqan Sadıq – müavin
4. Şəbüstəri Hacı Mirzə Əli – üzv
5. Salamulla Cavid – üzv
6. Zəfiri Həsən – üzv
7. Maşınçı Əli – üzv
8. Fərşçi Qulam Hüseyn – üzv
9. Cəfər Ədib – üzv

Rəyasət Heyəti (büro) üzvlüyünə namizəd seçilmişlər:

1. Birənq Həsən
2. Cövdət Həsən

Azərbaycan Demokrat Partiyasının birinci (təsis) qurultayı tam həmrəyliklə, yüksək siyasi səviyyədə keçdi. Gündəlikdə duran məsələlərin müzakirəsinə başlamazdan əvvəl qurultay ayrı-ayrı əyalət və şəhər nümayəndə heyətləri rəhbərlərinin, həmçinin, ermənilər, kürdlər və aysorların nymayəndələrinin çıxışlarını dinlədi. Natiqlər məqsəd və vəzifəsi Azərbaycan





xalqının köklü milli maraqlarını əks etdirən Azərbaycan Demokrat Partiyasını təbrik etdilər. Ərdəbil nümayəndəsi Cövdət demişdi: "...Azərbaycan xalqının siyasi və iqtisadi hüquqlarının pozulmasına son qoyan çoxdan gözlənilən bir gün gəldi. Biz çoxdan Azərbaycan xalqının təbii hüquqlarını özünə qaytarmaq və öz işlərimizi özümüz idarə etmək arzusunda idik".

Atakişiyevdən, İbrahimovdan, Həsənovdan teleqraf məlumatları gəlir. Hazırlanmış plana görə, 14-15 dekabr 1945-ci il tarixdə Cənubi Azərbaycanda hakimiyyət Azərbaycan hökumətinin əlinə keçməlidir. Bu informasiya Yemelyanovun M.C.Bağırova göndərdiyi arayışdan məlum olur.

F № 1, siy. № 89, iş № 97

ARAYIŞ

Atakişiyev, İbrahimov və Həsənovun Təbrizdən teleqraf məlumatları əsasında dekabrın 12-də səhər Azərbaycan Məclisi açılır. Səhər iclasında Məclisin nizamnaməsi təsdiq olunur, Məclisin Rəyasət Heyəti seçilir və Pişəvəriyə kabineti formalaşdırmaq tapşırılır.

Axşam iclasında Pişəvəri Azərbaycan hökumətinin tərkibini Məclisin təsdiqinə təqdim edir və Məclis tərəfindən təsdiq olunduqdan sonra yeni hökumətin proqramı haqqında məruzə edir.

Dekabrın 13-də səhər iclasında Pişəvərinin məruzəsi üzrə müzakirələr açılır və xalq qoşunları haqqında qanun qəbul edilir.

Axşam yeni hökumət İran hakimiyyət nümayəndələrindən öz səlahiyyətlərini dayandırmasını tələb edir və dərhal işə başlayır.

Hakimiyyətin çox qan tökmədən yeni Azərbaycan hökumətinin əlinə keçməsi üçün bütün tədbirləri görürük.

Mümkün müqavimətin tezliklə qırılması üçün dekabrın 13-də Mərənd, Marağa, Üskü və Bostanabad rayonlarının “Fədai” dəstələri Təbrizə yaxınlaşaraq, onu hər tərəfdən əhatəyə alacaq.

Eyni zamanda dekabrın 13-də Azərbaycan hökumətinin yerli hakimiyyət nümayəndələri ilə öz səlahiyyətlərini dayandıranlarla danışıqlar zamanı “Fədai” dəstələri şəhərə daxil olub, ən mühüm hökumət binalarını, qarnizonu və jandarmeriyanı nəzarətə götürəcəklər.

Plana görə, hakimiyyətin Azərbaycan hökumətinə keçməsi 14-15 dekabr tarixlərində başa çatmalıdır.

Azərbaycan SSR Dövlət Təhlükəsizlik Xalq
Komissarı general-mayor S.F.Yemelyanov
10 dekabr 1945-ci il № 2070

1945-ci il dekabrın 12-də Təbriz şəhərində Azərbaycan Milli Məclisi açılır. Məclis elə həmin gün Seyid Cəfər Pişəvərini baş nazir seçir və o, 10 nəfərdən ibarət hökumət yaradır.

Məclisi ən yaşlı deputat Nizamüddövlət Rəfii açıq elan etdi. Daha sonra səlahiyyətlər, vəzifələr, iş qaydaları, həmçinin daxili nizamnamə qəbul olundu. Ali hakimiyyət orqanı olan Milli Məclis qanun yaradıcılığı fəaliyyətini və qanunların icrasına nəzarəti həyata keçirməyə başladı. Artıq deyildiyi kimi, Milli Məclis tərəfindən ali icra orqanı – Azərbaycan Hökuməti yaradıldı. S.C.Pişəvəri baş nazir, doktor Salamulla Cavid daxili işlər naziri, Cəfər Kaviyan xalq qoşunları naziri, doktor Məhtaş kənd təsərrüfatı naziri, Məhəmməd Biriya maarif naziri, doktor





Övrənci səhiyyə naziri, Qulamrza İlham maliyyə naziri, Yusif Əimi ədliyyə naziri, Mirzə Rəbi Kəbiri yollar, poçt, telefon və teleqraf naziri, Zeynalabdin Qiyami Ali Məhkəmənin sədri, Firudin İbrahimi Baş Prokuror təyin olundu.

Milli Məclis nümayəndələri Milli hökumətdən və onun ayrı-ayrı orqanlarından hesabat tələb etmək hüququna malik idilər.

Elə birinci iclasda gizli səsvermə yolu ilə Məclisin Rəyasət Heyəti seçildi. İki il müddətinə seçilən Rəyasət Heyəti 9 nəfərdən ibarət idi: Hacı Mirzəli Şəbüstəri – Məclis sədri, Sadıq Padeqan, Rəfii və Həsən Vilayi – sədrin müavinləri, Məhəmməd Əzimi və Muradəli Teymuri – Rəyasət Heyətinin üzvləri. Rəyasət Heyyəti Milli Məclisin razılığı ilə dövlət idarəçiliyi üzrə ən mühüm işlərin icrasını həyata keçirirdi. Azərbaycan Milli Məclisi Azərbaycan xalqının hüquq və azadlıqlarını təmin etmək və onun muxtariyyətini müdafiə etməklə yanaşı, milli azlıqlara da sərbəstlik hüququ verdi.

1946-cı ildə “Azad millət” qəzetinin 18-ci nömrəsində Milli Məclis nümayəndələrinin tərkibi haqqında məqalə dərc olunmuşdu ki, burada da onların əhalinin müxtəlif təbəqələrindən olması aydın görünürdü: 101 deputatdan 12-si kəndli, 16-sı ziyalı, 14-ü sənətkar, 12-si mülkədar, 15-i fəhlə, 10-u qulluqçu, 10-u tacir, 8-i müəllim, 2-si fabrik sahibi, 2-si ruhani idi.

Azərbaycan Milli Məclisi birillik fəaliyyəti ərzində 100-dək mütərəqqi qanun və qərar qəbul etdi və bu qanunlar ardıcıl şəkildə Milli hökumət tərəfindən icra olundu. Milli Məclis tərəfindən qəbul olunmuş mühüm qanunlardan biri Məclisə qadınların da seçilə bilməsini nəzərdə tutan qanundur. (Yaxın və Orta Şərqdə ilk dəfə olaraq).

Azərbaycan xalqının milli müstəqillik və demokratiya uğrunda mübarizəsi təkcə İranda böyük əhəmiyyətə malik olmayıb, öz hüquqları uğrunda gələcək mübarizədə qonşu ölkələrə də böyük təsir göstərdi. Forma və məzmununa görə mütərəqqi hakimiyyət orqanı olan, geniş kütlələrin səyi və iradəsi ilə yaradılmış Milli Məclis bütün Azərbaycan xalqının maraqlarını ifadə edir və demokratik dəyişikliklərə nail olmaq məqsədini güdürdü.

## AZƏRBAYCAN[1] MİLLİ DÖVLƏTİNİN ELAMİYYƏSİ

*"Azərbaycan" qəzeti, № 79, 1945*

Azərbaycan Məclisi Millisinin müntixab etdiyi Azərbaycan Milli dövləti İranın istiqlal və tamamiyyətini hifz etməklə bərabər, işə başladığını bu vasitə ilə bütün xalqa elan edir. Bu elamiyyə müntəşir olan gündən etibarən malikiyyə xüsusi hifz olmaq şərtilə bütün Azərbaycanda olan dövlət idarələri təzə hökumətin təhdi ixtiyarına keçdiyindən ümumdövlət məmurlarına öz vəzifələrini ədalət və sədaqətlə yerinə yetirmələri tapşırılır. Təzə dövlətin əmrinə itaət edib, onun dəsturu ilə rəftar edən işçilər üçün münasib iş şəraiti vücuda gətiriləcək. İşləməkdən imtina edərlərsə, kəmale-ehtiramla istədikləri yerlərə göndəriləcəkdir. Azərbaycan Milli hökuməti xalqın səadət və xoşbəxtliyindən ötrü qurulduğu üçün bütün xalqı fəaliyyətə, düzgünlüyə, asayiş və əmniyyəti hifz etməklə bir-birilə qardaşvari yaşamağa dəvət

[1] Hər yerdə oxu*: Güney Azərbaycan*





edir. Əmniyyəti ixlal edən və xalqın malına və canına, namus və qüruruna təcavüz edənlər, həmçinin dövlət malına xəyanət əli uzadan, dövlət idarələrindən sui-istifadə edənlər və ya dövlət idarələrində xəbərdarlıq, müsahimə və öz vəzifəsində tənbəllik etmək kimi xainanə təşəbbüslər büruzə verənlər isə xalqın düşməni hesab olunub, millət və dövlət yanında nifrət qazanmaqla qanuni məhkəmə vasitəsilə cəzalarını alacaqlar. Hamıdan xalqa və ölkəyə xidmət və Azərbaycanın gələcəyi yolunda ciddiyyət gözlənilir. Dövlət isə onun şəraitini vücuda gətirməyə çalışacaqdır. Azərbaycan Milli Nazirlər Heyəti eyni zamanda Azərbaycanda səfirlikləri olan xarici dövlətlərin diplomatik nümayəndələrinə məlumat verir ki, keçmişdəki kimi, onların yeni beynəlmiləl qanunlar şəraitində olan haqq və ixtiyarlarına kamali-diqqət və ehtiramla riayət olunacaqdır. Həmçinin demokratik dövlətlərin nümayəndələrinin asayiş və əmniyyətini hifz etmək yolunda milli dövlət heç bir fədakarlıqdan imtina etməyəcəkdir. Bu gündən etibarən dövlətə mütəalliq olan mənqul və qeyri-mənqul əmval, həmçinin nəqd və cins və etibar milli dövlətin ixtiyarına keçdiyindən, onların saxlanmağına müəzzəf olan dövlət məmurları keçmişdə verdikləri təəhhüd və qəbul etdikləri məşğuliyyət üzrə onları hifz və hərasət etməyə məcburdular. Bu əmvalı heyf-meyl edənlər ağır cəzalandırılacaqlar. Artıq Azərbaycan milli hökuməti təhəqquq tapmış, xalqın iradəsi ilə daxili milli dövlətimiz vücuda gəlmiş, rəsmi sürətdə xalqımızın arzu və amalını izhar etməyə başlamışdır. Xalq isə öz milli hökumətinə var qüvvəsilə müsaidət göstərib, onun fəaliyyəti üçün münasib şərait vücudə gətirməlidir.

Yuxarıda qeyd edildiyi kimi, dövlət var qüvvəsilə əmniyyəti hifz etməyə çalışır. Ona görə xalq üçün nigaran olmağa heç bir

dəlil yoxdur. Hər kəs öz işi ilə məşğul olmalı, istədiyiy kimi yaşamalıdır. Bazarı bağlamaq, mədrəsələri tətil edib, vəhşət və iztirab yaratmağın mənası yoxdur. Hökumət öz bərnaməsini xalqın ehtiyacatı üzərində qurmuşdur. Ona görə xalqı narahat edən hadisələrə yol verməyəcəkdir. Təsadüfi hadisələrə isə çox tez bir zamanda xitəmə veriləcək, macəracular, asayişi ixtilal edənlər saleh məhkəmə tərəfindən mühakimə və şəhid bir surətdə mücazat olunacaqlar. Heç bir pis ittifaq düşməyəcək, heç kəsin hüququna toxunmayacaqdır. Milli hökumət nəzmiyyə idarəsini təzə qüvvələr, geniş ixtiyaratla gücləndirmişdir. Hərc-mərcliyə artıq meydan verilməyəcəkdir. Xüsusən mədrəsələrimiz həmin keçmiş proqramlarını təqib etməli, tələbələrimiz var qüvvələri ilə imtahanlara hazırlaşmalıdır. Kənd və şəhərlərdə isə ciddi surətdə işə başlayıb adi hal vücudə gələcək və dövlət məmurları fədailərin və qeyri-məsul şəxslərin müdaxiləsi olmadan öz vəzifələrini əncam verməyə qadir olacaqlar. Fədai dəstələri intizam altına alınıb müəyyən mərkəzə tabe olacaq. Bu vasitə ilə hər bir sui-hadisə ehtimalının qabağı alınacaqdır.

Gedin çalışın, asudə olun. Millətimizin gələcəyi və səadətini təmin etmək üçün qəbul etdiyiniz vəzifəni sədaqət və imanla icra edin. Dövlət bütün həmvətənlərdən bunu tələb edir.





F № 1, siy. № 1, iş № 141
Tam məxfi

ARAYIŞ

Təbrizdən Quliyevin
teleqraf məlumatı əsasında

Daxil olan məlumatlardan görünür ki, Təbriz qarnizonu hissələrinin silahlı müqavimətsiz və qan axıtmadan tərk-silah edilməsi Təbriz əhalisinin bütün təbəqələrində böyük ruh yüksəkliyi yaratmışdır. Bu, həmçinin Demokrat Partiyası və yeni Azərbaycan hökumətinin nüfuzunu kəskin dərəcədə artırmışdır.

Bizim etibarlı nümayəndəmizə iri tacirlər arasından bir neçə nəfər müraciət edərək məsələnin dinc yolla həll olunmasından razı qaldıqlarını heyranlıqla bildirmiş və Tehrana yerli zadəganların bəzi nümayəndələrinin adından məktub göndərməyi təşkil etmək və bu şəxslərin yeni Azərbaycan hökumətini dəstəkləməyə hazır olduğunu mərkəzə çatdırmaq niyyətində olduqlarını söyləmişlər.

Şəhərdə şayiələr gəzir ki, guya Azərbaycanda qayda-qanun bərqərar olduqdan sonra demokratlar Tehrana hücum təşkil edəcəklər.

Demokratların bəziləri Tehran hökuməti nümayəndələrinin Moskvaya göndərilməsi faktından narazılıq bildirərək, nümayəndələrin nə üçün xalqın deyil, şahın adından göndərildiyini soruşurdular.

Ticarət palatasının sədri Səlahyani bizim etibarlı nümayəndəmizə bildirib ki, məsələnin belə sakit həllindən sonra o, Azər-

baycandan çıxıb getmək niyyətindən daşınıb və yeni hökuməti dəstəkləmək fikrindədir.

Amerika konsulluğunun katibi Meyva Aprik bizim etibarlı nümayəndəmizə bildirib ki, guya Amerika dairələri Azərbaycanda demokratik hərəkatın əleyhinə deyillər, amma onlar rusların bu işə açıq-aşkar müdaxiləsi haqqında dəqiq məlumatlara malikdirlər.

Yeni hökumətə rəğbətin artmasının bir səbəbi də Demokrat Partiyası tərəfindən ayrı-ayrı soyğunçulara qarşı görülən ciddi tədbirlər olmuşdur.

Azərbaycan SSR Dövlət Təhlükəsizliyi
Xalq Komissarı S.F.Yemelyanov
17 dekabr 1945-ci il
№ 2189

Azərbaycan Demokrat Partiyası Parsabaddan Həmədana kimi ərazilərə nəzarət edirdi. M.C.Bağırovun tapşırığı ilə İran Kürdüstanının lideri Qazı Məhəmməd ona rəsmi olaraq müraciət etdi. Müraciətdən aydın olur ki, İran Kürdüstanının maraqları ilə bağlı qərarlar Demokrat Partiyası tərəfindən qəbul olunurdu. M.C.Bağırov buna müsbət yanaşmışdır. Buradan belə bir nəticəyə gəlirik ki, İran Kürdüstanı müəyyən muxtariyyət hüququna malik olmaqla Cənubi Azərbaycan ərazisinə aid idi. M.C.Bağırovun tapşırığı ilə Təbrizə göndərilmiş incəsənət xadimləri və təşviqat qrupları Cənubi Azərbaycanda yaşayan xalqlar, o cümlədən, Azərbaycan türkləri ilə görüşür və onlarda milli özünüdərk şüuru formalaşdırırdılar. İran Azərbaycanında ilk dəfə olaraq milli dil haqqında qərar qəbul olunmuşdu (6 yanvar 1946-cı il). Qərarda deyilirdi:





“Bu gündən Azərbaycanda rəsmi dövlət dili Azərbaycan dilidir”.

1945-1946-cı illərdə Milli hökumətin fəaliyyəti dövründə M.C.Bağırovun köməyi ilə Cənubi Azərbaycanda azərbaycan dilində radio, Dövlət teatrı, Dövlət Universiteti və digər milli mədəniyyət ocaqları yaradılmışdır.

Əlbəttə, əks tərəf, yəni Tehran bütün bu hadisələri sakitcə izləmir, öz fəaliyyətinin konturlarını formalaşdırmağa çalışırdı.

Azərbaycan Milli Məclisinin açıldığı gün Tehranda baş nazir İ.Hakimi İran məclisində çıxış edərək demişdi ki, yığılmış problemlər haqqında SSRİ rəhbərliyi ilə danışıqlar aparmaq və onlarla ümumi dil tapmaq üçün Moskvaya gedəcək. O deyirdi:

“Mən də böyük Azərbaycan xalqının oğluyam, bu diyarda anadan olmuş və böyümüşəm. Mən bu insanların İrana böyük sevgi bəslədiklərini bilirəm, öz qardaş və bacılarımın vətənpərvərliyinə böyük rəğbətlə yanaşıram”.

Hakiminin SSRİ-yə getməyə hazırlaşdığı bir vaxtda üç müttəfiq dövlətin – SSRİ, ABŞ və Böyük Britaniyanın xarici işlər nazirləri Moskvada görüşürlər. 14 dekabr tarixində ABŞ-ın dövlət katibi D.Birns, bir gün sonra isə Böyük Britaniyanın xarici işlər naziri E.Bevin Moskvaya gəlir. Həmin gün “İzvestiya” qəzetində Azərbaycan milli hökumətinin yaradılması haqqında xəbər dərc olunur.

Üç böyük dövlətin Moskva toplantısında V.M.Molotov hər vəchlə İranla bağlı məsələnin müzakirəsindən yayınırdı. Amma dekabrın 18-də Böyük Britaniyanın xarici işlər naziri Bevin Molotova İranda baş verən siyasi proseslərlə bağlı fikir mübadiləsi aparmağı təklif edir. V.Molotov bu təklifə belə cavab verir: “İran Azərbaycanında baş verən xalq hərəkatına SSRİ qarışmır,

müttəfiqlərin qoşunlarının İrandan çıxarılması məsələsini isə biz Potsdam və Londonda müzakirə etmişik".

Dekabrın 14-də D.Birns və E.Bevin Stalinlə görüşürlər. Stalin Molotovun fikrini təsdiq edir və İran hökumətinin SSRİ-yə qarşı düşmən mövqeyində olduğunu bildirir.

Moskva görüşlərindən dörd gün sonra İran Moskvaya, Londona və Vaşinqtona etiraz Notası göndərərək bildirir ki, Azərbaycan haqqında məsələni BMT-nin sessiyasında qaldıracaq. Hətta İranın baş naziri Hakimi bəyan edir ki, İran nə Azərbaycan hökumətini, nə də parlamentini tanımır. O bildirir ki, Sovet qoşunları İranı tərk edən kimi Azərbaycandakı xalq üsyanını silah gücünə yatıracaq.

Dekabrın 23-də İ.Stalin yenidən ABŞ-ın dövlət katibi D.Birnsi qəbul edir. Stalin bildirir ki, o, Cənubi Azərbaycan məsələsinin BMT-də müzakirəsinə etiraz etmir. O, hazırkı İran hökumətinin SSRİ-yə qarşı düşmən mövqeyində olduğunu bir daha vurğulayır.

Stalinin bu mövqeyindən sonra Vaşinqton və London Şahənşaha izah edirlər ki, Stalinin prinsipiallığını zəiflətmək üçün Hakimi kabineti istefaya getməlidir. Buna görə də, Qəvvam əs-Səltənə Hakiminin kabinetinə müxalifət görüntüsü yaradaraq, mətbuatda geniş təbliğata başlayır. Qəvam öz çıxışlarında "sovetpərəst" kimi görünməyə çalışır. Bu hadisələr zamanı M.C.Bağırov Ə.Yaqubov və S.Yemelyanov vasitəsilə demokratik liderlərlə əlaqə saxlayır və onlara belə bir sual verir: "Öz mövqelərinizi dəqiqləşdirin: siz Azərbaycanı müstəqil və ya muxtariyyət şəklində görmək istəyirsiniz? Əgər İrandan ayrılmaq istəyirsinizsə, onda dövlətiniz necə adlanacaq?".





Dekabrın 24-də İ.Stalin Böyük Britaniyanın xarici işlər naziri E.Bevinlə görüşür. Bu görüşdə Stalin Türkiyəyə qarşı iddialarını səsləndirir. Türkiyəyə iddialar iki istiqamətdə idi. Birinci istiqamət – Stalin Türkiyənin Bosfor və Dardanel boğazlarına sahibliyinə etiraz edir. İkinci istiqamət – guya Türkiyənin şərq vilayətləri tarixən Ermənistan və Gürcüstana bağlı olduğu üçün o, həmin əraziləri geri istəyir.

Stalinin bu tələbləri ilə eyni vaxtda Ermənilər "Türkiyə Ermənistanı" adlı xəritə buraxırlar. Moskva "tədqiqatçıları" bu qərara gəlmişdilər ki, Qars və Ərdahan vilayətləri Erməni torpaqları, Trabzon və Qara dəniz sahilləri isə Gürcüstan torpaqlarıdır. Gürcüstan SSR xarici işlər naziri Q.İ.Kiknadze L.P.Beriyaya "Türkiyə ərazisində Gürcüstan torpaqları haqqında" məktub-məruzə ilə müraciət edir. Bu məruzədə göstərilirdi ki,Türkiyənin17.760 kvadrat kilometrlik ərazisi Gürcüstan SSR-ə, 13.190 kvadrat kilometrlik sahə isə Ermənistan SSR-ə məxsusdur.

1945-ci ilin sonlarında Sovet qoşunları Bolqarıstan – Türkiyə, Gürcüstan – Türkiyə, Ermənistan – Türkiyə sərhədlərində cəmləşir.

Şübhəsiz, M.C.Bağırov Stalində bu iddiaların haradan yarandığını çox yaxşı bilirdi. O, başa düşürdü ki, Böyük Azərbaycan dövlətinin yaranmasına razı olmayacaqlar. Stalin Moskvada müttəfiqlərlə görüşdən sonra anladı ki, SSRİ öz qoşunlarını İrandan çıxartmağa məcbur olacaq.

1946-cı ilin ilk günlərindən etibarən 1943-cü ildən İran ərazisində yerləşən ingilis qoşunlarının və azsaylı ABŞ qoşunlarının ölkədən çıxarılmasına başlanır. Moskva konfransı zamanı müttəfiq dövlətlər İngiltərə, ABŞ və SSRİ-dən ibarət Komissiyanın yaradılması məsələsini qoydular. İran Şahı Məhəmmədrza

ABŞ-ın bu komissiyadakı üzvlüyünü yüksək qiymətləndirərək, bu dövləti İranın ərazi bütövlüyünün qarantı görmək istəyirdi.

Bu prosesləri əvvəlcədən görən Stalin Yaxın Şərqin SSRİ-nin təsir dairəsinə cəlb olunması üçün yeni yollar axtarırdı. Görünür, bu axtarışlar zamanı Mikoyan erməni və gürcülərin Türkiyəyə qarşı "manşır kartını" Stalinin masası üzərinə qoymuşdu. Sonrakı məqsəd qədim türk torpaqlarını erməni və gürcü torpağı adlandırmaq, onları Sovet Ermənistanına və Sovet Gürcüstanına birləşdirmək idi. Moskvada belə hesab edirdilər ki, bu yolla İraqın şimalındakı Mosulun zəngin neft yataqlarına yaxınlaşmaq olar. M.C.Bağırov bu ssenarini dərindən başa düşərək, Təbrizdə işləyən Bakı "üçlüyünə" S.C.Pişəvəri ilə görüşmək niyyətində olduğunu bildirir. Həmin görüşdən sonra Cənubi Azərbaycanda baş verən hadisələrə nəzər yetirdikdə, onların hansı məsələləri müzakirə etdiyi aydın olur.

15 yanvar 1946-cı il tarixdə Azərbaycan hökumətinin başçısı S.C.Pişəvəri, Məclis sədri Şəbüstəri, hökumət sədrinin müavini S.Padeqan, maarif naziri M.Biriya və daxili işlər naziri S.Cavid Azərbaycan Demokratik Respublikasının yaradılması haqqında sənəd imzalayırlar (C.Həsənli. "Soyuq müharibənin başlandığı yer: Güney Azərbaycan"). Sənəddə deyilirdi:

1. Bizim ölkəmiz Milli Demokratik Respublika adlanır.

2. Bu respublika həqiqi demokratiya əsasında yaranıb.

3. Yaxın günlərdə Müəssisələr Məclisi tərəfindən demokratik dəyərlərə söykənən əsas qanun (Konstitusiya) işlənib qəbul olunacaq.

4. Azərbaycan Milli Demokratik Respublikasının Konstitusiyasında söz azadlığı, mətbuat azadlığı, vicdan azadlığı nəzərdə tutulur və müxtəlif din təmsilçiləri öz dinlərinə azad etiqad edə bilərlər.

5. Dövlət orqanlarını xalqa yaxınlaşdırmaq üçün bütün dövlət məmurlarının fəaliyyətinə xalq tərəfindən nəzarət olunacaq.

6. Azərbaycan Milli Demokratik Respublikası təşəbbüs göstərmək üçün şərait yaradır. İnsanların rifahını yüksəltmək üçün iqtisadi inkişafın yaxşılaşmasına zəmin yaradır.

7. Kəndlilərin rifahının yüksəldilməsi üçün dövlət torpaqları onların arasında bölüşdürüləcək.

8. İşsizliyin ləğv olunması üçün yeni sənaye müəssisələri tikiləcək.

9. Azərbaycan Milli Demokratik Respublikası insanların rifahını yaxşılaşdırmaq, ölkənin iqtisadi inkişafı üçün öz ərazisində faydalı qazıntıların çıxarılmasını təşkil etməli və bunun üçün geoloji tədqiqatlar və axtarışlar aparmalıdır.

10. Tehranın diktator rejimi ucbatından sivil dünyadan geridə qalmış Azərbaycanda elm, texnika və mədəniyyət inkişaf etdirilməlidir.

11. Coğrafi və etnoqrafik göstəricilər əsasında Milli Demokratik Respublika aşağıdakı şəhərləri əhatə edir: Təbriz, Ərdəbil, Urmiya, Miyandoab, Marağa, Salmas, Xoy, Mərənd, Miyana, Ənzəli, Maku, Əhər, Xosrovabad, Zəncan, Qəzvinvə Həmədan. Xəritəyə əsasən, bizim ərazimiz 95 faiz azərbaycanlıların yaşadığı yerlərdir.

12. Təqdim olunmuş xəritədə Şimali Kürdüstan muxtariyyət şəklində Azərbaycan Milli Demokratik Respublikasının ərazisində yerləşir.

Bu sənəddən M.C.Bağırovun ərazi iddialarını neytrallaşdırmaq üçün Gürcüstan və Ermənistana qarşı hansı addımlar

atdığı aydın görünür. M.C.Bağırovun ssenarisinə görə, hətta Sovet ordusu İrandan çıxarılsa belə, SSRİ-nin nəzarəti altında olan müstəqil Cənubi Azərbaycan dövləti və Şimali Kürdüstan Quzey Azərbaycan ərazisinə birləşdirilir və gələcəkdə bu, ölkənin sərhədlərini İraq sərhədinədək gətirib çıxarır. Bu isə, öz növbəsində, SSRİ-ni İraq kürdləri və azərbaycanlılardan (türkmənlərdən) ingilislərə qarşı təzyiq və təsir vasitəsi kimi istifadə etməklə, İraqın şimalında, Mosuldakı zəngin neft yataqlarına yaxınlaşdıracaqdı.

Aydındır ki, gürcü və ermənilərin türk torpaqlarına ərazi iddiaları Bağırov və Beriya tərəfindən dəfələrlə müzakirə olunmuşdu. Hətta yeni yaranmış Azərbaycan Demokratik Respublikası da onların müzakirə mövzusu olub. Şübhəsiz, L.Beriya M.C.Bağırovun ssenarisini dəstəkləməli idi. Buna görə də gürcü və ermənilərin Türkiyəyə yönəlmiş və M.C.Bağırovun ssenarisinə daxil olmayan ərazi iddiaları L.Beriya tərəfindən müdafiə oluna bilməzdi. Və sözsüz ki, L.Beriyanın Türkiyəyə qarşı ərazi iddialarını dəstəkləməməsi Sovet rəhbərliyinin mövqeyində böyük rol oynadı.

Təsadüfi deyil ki, sonradan (1953-cü ildə) L.P.Beriya ADR (Almaniya Demokratik Respublikası) və AFR-i (Almaniya Federativ Respublikası) birləşdirməyi təklif edir və bu dövlətin əsası sanki Azərbaycan Demokratik Respublikasının prinsipləri üzərində qurulurdu. (1953-cü ilin yazında Stalinin ölümündən sonra Moskvada hakimiyyətin və sovet siyasətinin dəyişməsi uğrunda mübarizə başlayanda, Beriya ona tabe olan dövlət təhlükəsizlik aparatından, Malenkov, Xruşşov və Molotovdan gizli saxladığı layihənin həyata keçirilməsi üçün istifadə etməyə çalışır. Beriya ADR-də sosializmin qurulmasının Moskvaya on il





ərzində təqribən 20 milyard dollara başa gələcəyindən çıxış edirdi. Belə vəziyyətdə Beriya hesab edirdi ki, bu ballastdan azad olmaq daha sərfəli variantdır. Danışıqlarda vasitəçi qismində iki fiqur nəzərdə tutulmuşdu. Birincisi, Qərbi Berlində yaşayan rus mənşəli alman aktrisası Olqa Çexova, digəri isə Berlində yaşayan və 1918-ci ilədək reyxstaqda polyak fraksiyasına rəhbərlik etmiş knyaz Yanuş Radvill idi. Knyaz tez-tez Gerinqlə birlikdə ova gedirdi. Müharibənin sonunda, sovet ordusu Şərqi Polşanı, o cümlədən, Radvillərin mülklərini tutduqda, onu həbs etmişdilər. Beriya Lubyankada knyazla iki dəfə söhbət aparmışdı). İranda baş verən hadisələrə yenidən nəzər yetirdikdə başa düşülür ki, bu ərəfədə Moskva nə edəcəyini tam hesablaya bilmirdi.

Təsadüfi deyil ki, 1946-cı il yanvarın 22-də Kürdüstan respublikaçı demokratları İranın tərkibində Kürdüstan muxtariyyətinin yaradılmasını rəsmən elan etdilər.

Bu hadisələri təhlil edərək Yerevanda başa düşdülər ki, M.C.Bağırovun məqsədinə çatmasına mane olmaq lazımdır. Ona görə də Ermənistan SSR xarici işlər xalq komissarı Karapetyan Moskvada ezamiyyətdə olarkən Azərbaycan SSR xarici işlər xalq komissarının müavini Ə.Əlizadə ilə görüşdə söhbət əsnasında demişdi: “Biz İranın cənubunda yaşayan ermənilərin Sovet Ermənistanına köçməsi üçün şərait yaradırıq. Amma qeyd etmək lazımdır ki, mühacirət zamanı erməni ailələrinin əksəriyyəti SSRİ sərhədini keçməyib, İranın şimalında yerləşdilər. İranın şimalında artıq 120 min erməni yaşayır. Buna görə də biz erməni muxtariyyətinin yaradılmasını tələb edirik”.

Yanvarın sonunda Londonda BMT-nin növbəti sessiyası işə başlayır. Baş nazir Hakimi İran məclisinin nümayəndəsi S.Tağızadəyə sessiyada Sovet İttifaqının İranın daxili işlərinə mü-

daxilə etməsi məsələsini qaldırmağı tapşırır. Beləliklə, yanvarın 19-da S.Z.Tağızadə BMT-nin komissiyasına məktubla müraciət edir. Məktubda Sovet İttifaqı İranın daxili işlərinə qarışmaqda ittiham olunur. O zaman BMT-nin Təhlükəsizlik Şurası hələ tam formalaşmamışdı. Amma BMT Nizamnaməsinin 35-ci maddəsinin 1-ci bəndinə əsasən, İranın bu müraciəti etmək hüququ var idi. Baş nazir Hakimi başa düşürdü ki, bu müraciət Sovet rəhbərliyini əsəbiləşdirəcək və müraciət BMT-nin müzakirəsinə çıxarılmasa, Hakimi SSRİ ilə münasibətləri yaxşılaşdırmaq üçün öz istefası haqqında bəyanat verəcək.

Yanvarın 26-da İran Məclisində onun istefası qəbul olunur. Yanvarın 27-də hökumətə rəhbərlik Qəvvam əs-Səltənəyə tapşırılır. İran məclisinin nümayəndəsi S.Tağızadənin müraciətindən sonra Sovet nümayəndə heyətinin rəhbəri A.Vışinski cavab məktubu ilə Təhlükəsizlik Şurasının nümayəndəsi Norian Meykinə müraciət edir. O, bu məktubda İranın iddialarının tam əsassız olduğunu göstərir.

Yanvarın 24-də Azərbaycan Milli hökumətinin başçısı S.C. Pişəvəri də BMT-nin Rəyasət Heyətinə müraciət edir. Bu müraciətdə o, Azərbaycan xalqının "Atlantika Xartiyasına" əsasən öz müqəddəratını təyinetmə iradəsini ifadə edir.

Təhlükəsizlik Şurası yanvarın 28-30-da SSRİ və İranın müraciətlərini müzakirə edərək, bu iki ölkənin nümayəndələrinə öz aralarında danışmağı təklif edir. Təhlükəsizlik Şurası müqavilənin mətni ilə tanış olmaq hüququnu özündə saxlayır.

Əslində üç müttəfiq dövlətin İranla imzaladığı müqaviləyə əsasən xarici ordular 2 mart 1946-cı ilədək, yəni müharibə bitdikdən sonra altı aydan gec olmayaraq bu ölkənin ərazisini tərk





etməli idi. İki Qərb ölkəsinin qoşunları vaxtında çıxarıldı. Ancaq Qırmızı Ordu hələ də İranda qalmaqda idi.

Etiraf etmək lazımdır ki, 1946-cı ildə sovet qoşunlarının yerləşdiyi İran Azərbaycanında Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə milli muxtariyyətin əldə olunması və Azərbaycan Demokrat Partiyasının yaradılması uğrunda silahlı mübarizəyə başlanıldı. Sovet qoşunlarının gizlədilməyən dəstəyi şəraitində əyalətdə şah rejimi devrildi və Azərbaycan Demokrat Partiyası elan olundu. Torpaq mülkədarlardan alınaraq kəndlilərə verildi. İran məktəbləri bağlanır, bunların yerinə Azərbaycan məktəbləri açılırdı. Radio verilişlərinin yalnız Azərbaycan dilində aparılmasına başlandı. Demokrat Partiyasının rəhbərləri nazir və millət vəkilləri kimi yüksək vəzifələr tutdular. Bir sözlə, siyasi çevriliş baş verdi.

Azərbaycan muxtariyyətini dəstəklədiyi nəzərə alınarsa, bəlli olar ki, Sovet İttifaqının rəhbərləri - İ.V. Stalin, L.P. Beriya və Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun məqsədi Cənubi Azərbaycanın İrandan qoparılması üçün siyasi aksiya hazırlamaq idi.

"Tudə" İran Xalq Partiyasının hədəfi İran Azərbaycanının muxtariyyət proqramı idi. İranda müxtəlif dairələr bu hərəkətləri ölkənin parçalanmasına aparan addım kimi qiymətləndirirdilər. Tehranda İran Azərbaycanı probleminin Məclisdə iki həftəlik çox çətin şəraitdə keçən müzakirələrdən sonra yeni hökumət təşkil olundu. Ona sovet rəsmilərinin açıq şəkildə dəstəklədiyi təcrübəli siyasətçi Qəvvam əs-Səltənə başçılıq etdi.

Fevralın 18-də Məclisdə hökumət proqramı ilə çıxış edən Qəvvam bildirdi ki, o, Stalindən isti təbrik teleqramı alıb və cavab olaraq Moskvaya bildirib ki, İran nümayəndə heyətinin

başında SSRİ ilə danışıqlara başlamağı arzulayır. Moskvanın razılığı elə həmin gün alındı. Qeyd etmək lazımdır ki, İranın əvvəlki baş naziri Hakimi dəfələrlə Moskvaya səfər etmək istəyini bəyan etsə də, o, dəvət olunmadı.

Məclis Qəvvamın niyyətlərini bəyəndi və ümid etdiyini bildirdi ki, həmin danışıqların nəticəsində Sovet qoşunları İran ərazisini tərk edəcək. Təcili olaraq üç nəfər Məclis üzvü, ticarət palatasının rəhbəri, dörd jurnalist, İranın Moskvadakı keçmiş səfiri, rus dilini yaxşı bilən Həmid Səyyah və XİN-dən bir nümayəndənin daxil olduğu on bir nəfərlik nümayəndə heyəti təşkil edildi.

1946-cı ilfevralın 19-da Qəvvam bu rəngarəng nümayəndə heyətinin başında Moskvaya yollandı.

Moskvaya səfəri ərəfəsində Qəvvam nümayişkaranə surətdə mühüm siyasi addım atdı: solçu qəzetlər və solçu siyasi təşkilatlarla bağlı mövcud olan əvvəlki qadağanı aradan qaldırdı. Xalq Partiyasının orqanı olan "Rəhbər" qəzetinin, eləcə də həmkarlar ittifaqları mərkəzi komitəsinin orqanları "Zəfər" və "Dad"ın fəaliyyəti bərpa olundu. Bilavasitə onun göstərişi ilə əvvəlki hökumətin qapatdığı İran Xalq Partiyası və Həmkarlar İttifaqları Mərkəzi Komitəsinin klubları yenidən açıldı. Qəvvam Moskvaya səfər öncəsi öz kabinetinə tapşırdı ki, o qayıdana qədər Məclisin müzakirəsinə heç bir məsələ çıxarmasın.

Moskvada Qəvvam Sovet qoşunlarının İrandan martın 2-dək, yəni Sovet İttifaqının beynəlxalq öhdəliklərə əməl edərək, yerinə yetirməli olduğu tarixədək çıxarılması məsələsini qaldırdı.

Ancaq bu günə qədər bəziləri belə hesab edirdi ki, 1946-cı ilin fevralında Moskvada Stalinlə görüşən İranın yeni baş naziri Qəvam-əs Səltənə danışıqlar zamanı Stalini aldadıb. Amma o





vaxt hadisələr tam başqa məcrada inkişaf etmişdi. Birincisi, aldatmaq versiyası tam yalandır. İkincisi, bu görüşdən sonra İran nümayəndə heyəti (İran nümayəndə heyətinə daxil idi: D.Əmiri, Q.Səyyah, R.Şapaq, A.Nişapur, H.Pirvəzər, S.Əradi, D.Dörri, A.Ətasami) bir neçə həftə Moskvada müzakirə predmeti olan məsələ ilə bağlı incə detallarına qədər fikir mübadiləsi aparmış və heç bir razılıq əldə olunmamuşdı. Qəvvam əs-Səltənənin Kremldə Stalinlə danışıqları 1946-cı il fevralın 21-də bitmir, martın 4-də çox qısa (15 dəqiqə) bir görüş də olur. Martın 6-ı saat 20:30-da Stalin Kremldə M.C.Bağırovu qəbul edir.

Fefralın 21-də olan görüşdə Stalin Sovet qoşunlarının İranda qalmasına 1921-ci il müqaviləsi ilə haqq qazandırdı. Qəvvam cavab verdi ki, həmin müqavilə tamamilə başqa məna daşıyır. O, Sovet İttifaqının Azərbaycan məsələsinə verdiyi mənəvi dəstəyə toxundu. Stalin Qəvvama bildirir ki, söhbət milli məsələdən getdiyi üçün buna SSRİ-nin qarışmaq haqqı yoxdur və heç nə edə bilməz. Ərazi iddiaları ilə bağlı isə Stalin belə deyir: "Azərbaycan məsələsi – İranın daxili işidir. İranda boş yerə narahat olurlar, çünki azərbaycanlılar suverenlik yox, muxtariyyət tələb edirlər". Qəvvam cavabında bildirir: "İran konstitusiyası muxtariyyətin tətbiqinə imkan vermir. Əgər Azərbaycana güzəştə gedilsə, digər əyalətlər də muxtariyyət tələb edəcəklər". Stalin qeyd edir ki, rəsmi Kremlin Sovet qoşunlarının İranda qalmasını tələb edən başqa maraqları da var.

"Başqa maraqlar" bir gün sonra Molotovla görüş zamanı ortaya çıxır. Yəni, Böyük Britaniyanın İranın cənub rayonlarında neft yataqlarının istismarı sahəsində əldə etdiyi güzəştlər kimi, Sovet İttifaqı da İranın şimalındakı neft yataqlarının birgə işlənilməsi üzrə güzəştlər almaq arzusundadır.

Qəvvam cavab verdi ki, ölkədə xarici qoşunlar qaldığı müddətdə Məclis neftlə bağlı danışıqların aparılmasını yasaqlayır. Amma parlamentin səlahiyyət müddəti bir neçə gündən sonra bitir. Hazırda yeni parlamentə seçkilərin keçirilməsi üçün əlverişli şərait yaranıb. Beləliklə, ehtimal olunurdu ki, neft güzəştləri məsələsi hələ qapadılmayıb.

Molotov təkrar bildirir ki, "qoşunlar hələlik İrandan çıxarılmayacaq".

Qəvvam Stalinlə söhbətini xatırladır ki, Stalin 1921-ci il müqaviləsinin altıncı bəndinə istinad elədi, lakin həmin bənddə İran tərəfindən deyil, üçüncü dövlət tərəfindən təhdiddən söhbət gedir. Onun ölkəsi Sovet İttifaqını təhdid etmir və edə də bilməz. Qəvvam qoşunların çıxarılmasını təklif elədi: "Əgər Sovet İttifaqı üçün hansısa təhlükə yaranarsa, onda sovet qoşunları yenidən İrana yeridilə bilər"[1].

Qəvvam əs-Səltənənin Stalin və Molotovla söhbətlərinə dair arxivlərin açılmasından sonra məlum olub ki, onların arasında həssas bir məsələ - İranda monarxiyanın ləğvi də müzakirə olunub. Özü də bu zaman Qəvvamın başçılıq etdiyi Respublika rejiminə Sovet İttifaqı tərəfindən mümkün dəstəkdən də danışılırdı. Stalin yeni İran hakimiyyətinə üstünlük verir və bunu özünün danışıqlardakı tərəfdaşına açıq şəkildə bəyan edirdi. Amma Qəvvam sövdələşməyə getmədi və sovet qoşunlarının İrandan mümkün qədər tez çıxarılması zərurətinin olmasında israr elədi.

Molotov Stalin üçün özünün Qəvvamla görüşləri haqqında böyük bir hesabat hazırlayır və orada göstərir ki, Qəvvam əvvəl Stalinlə söhbətində toxunulmuş İranda monarxiyanın devrilməsi ideyasından imtina elədi. Hesabatla tanış olan Stalin dərkənar yerinə sənədin küncündə bircə kəlmə yazır: "Əclaf!". Bu, generalissimusun ümidlərini doğrultmamış İranın yeni baş naziri ilə bağlı yaşadığı xəyal qırıqlığının dəqiq göstəricisi idi.





Bu zaman məlum olur ki, Stalinin göstərişi ilə İran nümayəndə heyətinin Moskvadan çıxmasına imkan verilmir. Sovet məmurları iddia edirdi ki, nümayəndə heyəti pis hava şəraiti səbəbindən uça bilməz. Faktiki olaraq heyət "xalqlar atası"nın girovuna çevrilir. Aydın deyildi ki, səfəri hansı məqsədlə üç həftəyədək uzatdılar. Qəvvamın Sovet qoşunlarının martın 2-dək İrandan çıxarılması cəhdi uğurla nəticələnmədi. Martın 2-də o, hələ də Moskvada, Sovet qoşunları isə İranda idi. Elə bu vaxt Bakıdan İranın Bəndərşah limanına doğru hərbi gəminin yola düşdüyü barədə məlumat alınır.

Martın 5-də Qəvvam Molotova bu barədə nota təqdim edir və Sovet qoşunlarının İranın şimalında, Gilanda fəallaşmasından narahatlığını bildirir. Elə həmin gün İranın Vaşinqtondakı səfiri Hüseyn Əla Qəvvama məlumat verir ki, ABŞ rəhbərliyi Sovet qoşunlarının İrandan çıxarılması məsələsində onların mövqeyini dəstəkləyir.

Moskva danışıqları ümumilikdə uğursuz alınır: heç bir məsələ üzrə razılıq əldə olunmadı. Sovet İttifaqının müəyyən dəstəyi ilə İranın yeni baş naziri seçilmiş Qəvvam əs-Səltənə Tehrana əliboş qayıtmağa məcbur olur.

Ancaq rəsmi səfərin sonuncu günü ümid qığılcımı parlayır. Qəvvamı Stalin özü ümidləndirir. Həmin gün İran nümayəndə heyətinin şərəfinə vida ziyafəti verilir. Mərasimdə Stalin, Molotov, Mikoyan və digər yüksək çinli rəhbərlər iştirak edirdi. Burada Stalinlə şəxsi söhbət əsnasında Qəvvam ona Molotovla danışıqlarının nəticə vermədiyindən təəssüfləndiyini bildirir. Stalin gülümsəyərək cavab verir: "İndi sən mənim vəziyyətimi

yaxşı anlayırsan. Məni çox sərt adam hesab edirlər, amma Molotov bizim qrupda ən sərt adamdır. Əlbəttə, mən sizin aranızda vasitəçi olmağa çalışacağam. Əminəm ki, yeni səfirim Tehrana gələndə Sizə bir neçə şad xəbər gətirəcək".

Ertəsi gün Qəvvam aparılan danışıqlara dair SSRİ-İran kommunikesini imzaladı.

Buna qədər, yəni 1946-cı il martın 2-də beynəlxalq münasibətlər tarixində mühüm bar hadisə baş verdi. Sovet İttifaqı beynəlxalq təəhhüdlərə uyğun olaraq öz silahlı qüvvələrini İrandan çıxarmalı olduğu gün SİTA bəyan edir ki, SSRİ qoşunları yalnız İranın şimal-şərq əyalətlərindən – Məşhəd, Şahrud və Semnandan çıxarılacaq, digər rayonlarda isə qoşunlar "vəziyyət tam aydınlaşana qədər" qalacaq. Bu bəyanat dünyada mənfi reaksiya doğurdu, ABŞ dövlət katibi prezident Trumenin tapşırığı ilə SSRİ-yə müvafiq nota göndərdi.

Böyük Britaniyanın eks-baş naziri U.Çörçill martın 5-də bunun səbəblərindən birinin İran Azərbaycanında cərəyan edən hadisələrin olduğunu göstərən nitqlə çıxış etdi. Bir çoxları həmin çıxışı "soyuq müharibə"nin başlanğıcı hesab edir. O, kommunist ekspansiyasına qarşı anqlosaks ittifaqını, yəni ilk növbədə ABŞ və Böyük Britaniyanı çıxarmağı təklif edirdi.

Qəvvam əs-Səltənə SSRİ rəhbərliyi ilə ehtiyatlı davranmağa üstünlük verərək, ABŞ-ın sərt mövqe nümayiş etdirməsinə baxmayaraq, yeni sovet səfiri Tehrana gələnə qədər sovet qoşunları məsələsini BMT Təhlükəsizlik Şurasına çıxarmağı məqsədəuyğun saymadı. Yəqin o, Stalinin Moskvada vida ziyafətində etdiyi eyhamı unutmamışdı.

Martın 11-də Qəvvam Tehranda İran Məclisində peyda olur. Həmin gün 14-cü çağırış məclis deputatlarının səlahiyyət müddəti başa çatırdı. Bəzi deputatlar bu müddəti uzatmağa cəhd göstərdilər, amma Qəvvam buna yol vermədi. Bu minvalla o, parlamentin müdaxiləsi olmadan öz siyasətini yürütmək imkanı əldə etdi.





Martın 24-də təcrübəli İran diplomatı Hüseyn Əlanın BMT-də Sovet İttifaqının İran Azərbaycanı problemi üzrə mövqeyindən şikayətlə bağlı çıxışı nəzərdə tutulmuşdu.

Bu zaman SSRİ-nin yeni səfiri İ.Sadçikov Tehrana gəldi. Martın 18-də Qəvvamla görüşən səfir sovet hökumətinin öz qoşunlarını tam şəkildə İrandan çıxarmaqla bağlı qərar qəbul etdiyini bildirir. Bu qərarın qəbulunda İran hökumətinin ikinci dəfə BMT-də Sovet İttifaqından şikayət etmək niyyətinin nə qədər rol oynadığı məlum deyil. Amma məlumdur ki, hələ bundan əvvəl sovet hökuməti tərəfindən ikinci bir sənəd hazırlanmışdı ki, İranın şimal rayonlarındakı neft yataqlarının birgə işlənməsi üzrə SSRİ-İran müştərək neft şirkətinin yaradılması məsələsinə dair sənəd elə həmin gün İ.Sadçikov tərəfindən Qəvvama təqdim olunmuşdu. Üçüncü sənəd Azərbaycan məsələsinə - yəni SSRİ-nin İranın daxili işlərinə qarışmamasına dair razılaşmaya aid idi. İndi imzalanmış sənədlər gələcək parlament tərəfindən təsdiqlənməli idi. Moskvada tezliklə neft güzəştlərinə dair razılaşmanın əldə ediləcəyinə ümid bəsləyirdilər. Səfir İ.Sadçikovun parlamentə seçkilərin tezləşdirilməsi imkanı ilə bağlı sualına cavabında Qəvvam dəfələrlə qeyd edir ki, "işğal olunmuş ölkədə" seçkilərin keçirilməsi mümkün deyil və ona görə də sovet qoşunlarının İrandan çıxarılması SSRİ-nin birinci dərəcəli vəzifəsidir.

İstənilən yolla öz məqsədinə çatmağa - sovet qoşunlarını ölkədən çıxarmağa can atan Qəvvam qeyri-adi bir addım atır. O,

gizli şəkildə üləmaların (dini rəhbərlərin) başçısı ayətullah Bürucerdi ilə razılığa gəlir ki, İslam ruhaniləri “ölkə Qızıl Ordunun işğalı altında ikən” seçkilərin keçirilməməsi ilə bağlı çağırışlar etsinlər. Ayətullah Bürucerdi işi elə təşkil elədi ki, bütün yerli üləmalar ölkədə əcnəbi qoşunlar qaldığı müddətdə seçkilərin keçirilməməsi ilə bağlı tələblərini teleqrafla hökumətə çatdırdılar. Ruhanilərin etirazı ictimaiyyətin Sovet İttifaqı əleyhinə yeni cəbhəsinin yaranmasına yol açdı.

Sovet qoşunları 1946-cı ilin mayında tam şəkildə İran Azərbaycanından çıxarıldı.

Bu zaman Tehrandakı siyasi qüvvələr tənasübünə indiyədək hökumətin işində fəal iştirak etməyən gənc İran şahı Məhəmməd Rza da qoşuldu. Qərb dövlətlərinin nümayəndələri ilə qurulmuş dostluq münasibətləri sayəsində və heç də əsassız olmayaraq ABŞ-ın fəal dəstəyini hiss edən Məhəmməd Rza baş nazir Qəvvamı “ruslara güzəştə getməkdə” ittiham etdi və onun istefasını istədi. Qəvvam şahdan ona yeni hökumət formalaşdırmaq üçün imkan verilməsini xahiş etməli oldu. Şah bununla razılaşdı, lakin öz şərtlərini irəli sürdü: Qəvvam “Tudə” Partiyasının hökumətdəki üç üzvünü kənarlaşdırmalıdır; o, müavini Müzəffər Firuzu (Moskva ilə məxfi əlaqələrdə şübhəli bilinən) vəzifəsindən azad etməlidir; “Azərbaycan qiyamçıları” ilə danışıqlara son qoymalı, bu əyalətdə İranın suverenliyini bərpa etməlidir. Qəvvam, təkcə birindən – Firuzun istefasından savayı şahın qalan tələbləri ilə razılaşdı. Bu şərtlərə o, hiyləgərliklə əməl elədi: Müzəffər Firuzu Moskvaya səfir təyin etdilər. Sonradan məlum oldu ki, bu qərar Qəvvama İran ordusunun “qiyamçı əyalətə” girəcəyi təqdirdə Moskvanın mövqeyinin necə olacağı ilə bağlı dəqiq məlumat almaq üçün lazım imiş. Moskvadan alınmış





məlumatları təhlil edən Qəvvam ABŞ-ın İrandakı səfiri Alenlə söhbəti zamanı bəyan etmişdi: “Əgər Sovet İttifaqı İrandakı hədəflərinə çata bilsə, yəni – həm nefti, həm də Azərbaycanı alsa, o bunu edəcək. Amma, əgər Kreml bunlar arasında seçim etməli olsa, mən əminəm ki, Azərbaycanı qurban verəcək”.

Oktyabrın 19-da yeni hökumətin tərkibi elan edildi. Burada “Tudə” Partiyasından kimsə yox idi və Qəvvam baş nazir postundan savayı daha iki portfelə yiyələnmişdi. İndi o, həm Daxili işlər, həm də Xarici işlər naziri vəzifələrinə sahib idi.

Bu minvalla, şah sarayının və Qərb ölkələrinin təzyiqinə tabe olan Qəvvam öz siyasi kursunu nümayiş etdirdi. Təbii, bu yeni kurs Sovet İttifaqının İranın işlərinə qarışmasına mane olmaq üçün ingilislər və amerikalılarla özünəməxsus razılaşma idi. Britaniya səfiri kabinetdəki dəyişiklikləri “fars milli ruhunun hələ canlı olmasının əlaməti kimi” səciyyələndirdi. Amerika səfiri isə bu addımı “İran tarixində dönüş məntəqəsi” adlandırdı. Eyni zamanda şah da Qəvvamın işlərindən razı qaldı. Sovet təhlükəsinə qarşı ABŞ və Böyük Britaniyanın dəstəyini qazanan və Moskvadakı yeni səfirin köməyi ilə qoşunların İran Azərbaycanına daxil olarkən Sovet İttifaqının heç bir ciddi qarşılıq vermək niyyətində olmadığını aydınlaşdıran Qəvvam daha da cəsarətləndi: şahın üçüncü şərtini də yerinə yetirmək lazımdı. Qarşıdakı Məclis seçkilərində qayda-qanunun təmin edilməsi bəhanəsi ilə İran ordusunu əyalətə yeritmək qərara alındı.

Dekabrın 4-də İran ordusu əvvəlki siyasi rejimi bərpa etmək üçün Azərbaycana daxil oldu. Bu zaman hakim Azərbaycan Demokrat Partiyasının rəhbərliyi Moskvadan müqavimət göstərməmək tapşırığı almışdı, sovet konsulluğu isə partiyanın rəh-

bərliyini əmin etməyə çalışırdı ki, şah hökuməti demokratlara qarşı repressiyalar tətbiq etməyəcək.

Dekabrın 11-də şah qoşunları Təbrizə girdi. Sovet Azərbaycanının partiya rəhbərləri tərəfindən Demokrat Partiyasının fəal üzvlərinə 48 saat ərzində məxsusi olaraq açıq saxlanmış sərhəddən keçərək Sovet Azərbaycanına qaçmaq təklif olundu. Digərləri öz talelərini bildikləri kimi həll etməli idilər.

Bütün bu müddətdə, 9 ay ərzində İranda parlament olmamışdı. 1947-ci ildə Məclisin növbəti sessiyası toplandığı zaman isə dünyada vəziyyət kökündən dəyişmişdi. "Soyuq müharibə" qızışmışdı, ABŞ vəd etmişdi ki, SSRİ bir daha öz qoşunlarını İrana yeritsə, bu ölkəyə hərbi yardım göstərəcək. 15-ci çağırış yeni seçilmiş parlament özünün növbəti toplantısında demək olar ki, yekdilliklə hər hansı xarici dövlətə hansısa neft güzəştlərinin verilməsi cəhdlərini rədd elədi.

Beləliklə, Qəvvam Stalinlə danışıqlarda İran üçün çox mühüm üç məsələni həll eləməyə müvəffəq oldu: sovet qoşunları İrandan çıxarıldı; Azərbaycan məsələsi qapadıldı; neft haqqındakı bənd unudulub getdi.

Sonda onu da qeyd etmək istərdik ki, Qəvvamınstrateji qələbəsi təsadüfi deyildi. Bu, o dövrün reallığından irəli gəlirdi. ABŞ öz nüfuzunu gücləndirmək üçün Xirosima və Naqasakiyə atom bombası atmışdı, SSRİ-də atom bombasını hələ sınaqdan belə keçirməmişdilər. Bu məsələdə SSRİ ABŞ-dan geri qalırdı.

Buna görə Qəvvam Stalinə deyirdi: "İranın bu addımları London və Vaşinqtonla münasibətində arzuolunmaz olsa da, biz sizin istəyinizi həyata keçiririk".

Həmin dövrdə SSRİ tərəfindən həyata keçirilən nüvə proqramı, həqiqətən də, ABŞ-dan geri qalırdı. Bu gerilikdən narahat





olan Stalin hələ 1944-cü ildə L.P.Beriyaya həmin proqramın vəziyyətini yoxlamağı tapşırmışdı. L.P.Beriya bu layihəni tamamilə öz nəzarəti altına ala bilmiş və akademik İ.V.Kurçatova müraciət edilməsinə nail olmuşdu.

1943-cü il fevralın 11-də İ.V.Kurçatov Atom Enerjisi İnstitutunun rəhbəri təyin olunur. V.Molotovun işindən narazı olan İ.V.Kurçatov 1944-cü ilin sentyabrında L.P.Beriyaya məktubla müraciət edir (Bax: N.K.Baybakov: "Stalindən Yeltsinədək" kitabı):

"**SSRİ Xalq Komissarları Sovetinin sədr müavini L.P.Beriya yoldaşa**"

M.Q.Pervuxinin və mənim Sizə ünvanlanan məktubumuzda uran problemləri ilə bağlı vəziyyət və xaricdə bunun həddindən artıq yüksək inkişafı barədə xəbər vermişdik.

Son bir ay ərzində mən uran problemləri ilə bağlı kifayət qədər həcmli (300 səh. mətn) materialların ilkin tədqiqi ilə məşğul olmuşam. Bu tədqiqat bir daha göstərdi ki, xaricdə bu məsələ ətrafında miqyasına görə, dünya elm tarixində görünməmiş çox dəyərli nəticələr əldə olunmuş, bu fəaliyyətəhəm elmi, həm də mühəndis-texniki qüvvələr cəlb edilmişdir. Bizdə isə 1943-1944-cü illərdə uranla bağlı işlərin gedişində böyük irəliləyişə baxmayaraq, vəziyyət tamamilə qeyri-məqbul olaraq qalır.

Xammal və bölgü məsələləri ilə bağlı vəziyyət xüsusilə əlverişsizdir. 2 saylı laboratoriya maddi-texniki baza ilə kifayət qədər təmin olunmayıb. Bir çox əlaqədar təşkilatların fəaliyyəti vahid rəhbərliyin olmaması və problemin əhəmiyyətinin kifayət qədər qiymətləndirilməməsi üzündən lazımı inkişafını tapmır.

Sizin həddən artıq məşğul olduğunuzu bilərək, mən yenə də uran probleminin tarixi əhəmiyyətini nəzərə alıb, Sizi narahat etmək qərarına gəldim. Sizdən bu işlərin bizim böyük dövlətimizin imkan və qüdrətinə müvafiq şəkildə təşkil olunması barədə göstəriş verməyinizi xahiş edirəm.

İ.Kurçatov
Moskva şəhəri
29 sentyabr 1944-cü il

1945-ci ilin əvvəllərində İ.V.Kurçatov V.Molotovdan Stalinə şikayət edir. İ.Stalin 1945-ci ildə atom layihəsinə rəhbərliyi L.P.Beriyaya tapşırır və ona deyir: "SSRİ bu silaha malik olmalıdır!" Beriya təkcə insanları sıxmağı və tələsdirməyi deyil, həm də son nəticəyə nail olmağı bacarırdı. Alimlərin zəruri materiallarla təmin və təchiz edilməsi probleminin həllində SSRİ-də ikinci belə təşkilatçı tapmaq mümkün deyildi. Burada, görünür, L.P.Beriyanın yalnız yaxşı təşkilatçılıq qabiliyyəti deyil, həm də onun kəşfiyyatdakı iş təcrübəsi özünü göstərirdi. O, atom bombasının hazırlanma sirləri haqqında məlumatlar əldə edə bilir və 1949-cu ilavqustun 20-də bomba hazırlanaraq sınaqdan keçirilir. Buna görə də həmin layihədə uğur əldə edən sovet alimləri L.P.Beriyanı "atom bombasının atası" adlandırırlar. Çox heyif ki, bu, 1946-cı ildə deyil, 1949-cu ildə baş verdi...

24 mart 1946-cı il, saat 13.40-da Moskvadan Bakıya 2167/68 saylı şifroqram gəlir.





F № 1, siy. № 89, iş № 112
Surəti

Şifroqram № 2167/68

MOSKVADAN ŞƏXSƏN
BAKI HƏRBİ DAİRƏSİNİN KOMANDANI
MASLENNİKOV YOLDAŞA
4-CÜ ORDUNUN KOMANDANI
LUÇİNSKİ YOLDAŞA

surəti: Bağırov yoldaşa

1. 4-cü ordunun qoşunlarının, müəssisə və anbarlarının Bakı Hərbi Dairəsi ərazisində daimi dislokasiya yeri tutması üçün İrandan çıxarılmasına başlayın;

2. Qoşunların çıxarılmasına martın 24-də başlamaq və bu ilin 9 aprel-10 may tarixindən gec olmayaraq, tam sona çatdırmaq lazımdır.

Kərəc qarnizonu bu gün 24 mart saat 20-dən gec olmayaraq çıxarılmalıdır;

68 Sari diviziyası qarnizonunu sonradan dənizlə daşımaq üçün Bəndər-Şah rayonunda toplayın. Diviziyanın avtonəqliyyatını Rəştdən keçməklə öz hərəkəti ilə göndərin;

İlk növbədə qoşunlar Qəzvin, Rəşt, Zəncan rayonlarından və Qorqan, Sari rayonlarından çıxarılsın;

Qəzvindən 5 aprel tarixindən gec olmayaraq çıxmaq lazımdır;

I qvardiyanın mexanikləşdirilmiş diviziyası ən axırda çıxmalıdır.

3. Qoşunların çıxarılmasını mütəşəkkil şəkildə, sakit, səs-küysüz və xüsusi tələskənlik olmadan həyata keçirin;

Komandirlər və siyasi orqanlar İrandan çıxan sovet qoşunlarının yerli əhali tərəfindən yola salınmasını təşkil etsinlər;

Mövcud ərzaq ehtiyatlarının bir hissəsi yerli əhaliyə paylansın;

4. Qoşunların çıxarılma planını və qaydasını bu ilin 25 mart tarixində Baş Qərargaha çatdırın.

Qoşunların çıxarılması gedişatı barədə hər gün 24.00-da məruzə edin.

Dənizdə daşınma sifarişini martın 26-dək Baş Qərargaha təqdim edin.

№ 16006, İ.Stalin
№ 10961, 62/III Antonov
13: 40, 24. 3. 1946-cı il

Bu göstərişin gəlməsinə baxmayaraq, M.C.Bağırov Cənubi Azərbaycandakı hakimiyyəti necə saxlamağı götür-qoy edib, Bakı hərbi dairəsinin komandanı Maslennikova müraciət edir və məsələləri onunla razılaşdırıb, Stalinə məktub yazırlar.

**Haşiyə:** Ordu generalı, Sovet İttifaqı Qəhrəmanı İ.İ.Maslennikov 1939-cu ildə Beriya tərəfindən Sərhəd Qoşunlarının Komandanı və Daxili işlər xalq komissarının müavini vəzifəsinə təqdim edilmiş, 1942-1943-cü illərdə isə Zaqafqaziya cəbhəsi və Şimali Qafqaz cəbhəsinin Şimal qoşun qrupunun komandanı olmuşdu. “Voyennaya mısl” jurnalının 1952-ci il avqust nömrəsində Zavyalov və Kalyadinin “Qafqaz uğrunda döyüş” başlıqlı məqaləsi dərc olunur. Bu məqalə ilə bağlı Maslennikov





baş qərargahın Hərbi-elmi idarəsinin rəisinə məktub göndərərək yazmışdı: “Məqalənin 56-cı səhifəsində müəlliflər SSRİ Ali Baş Komandanlığı Qərargahının gördüyü tədbirləri xarakterizə edərkən, 1942-ci ilin avqustunda Qafqaz cəbhəsində yaranmış olduqca çətin şəraitə baxmayaraq, bütün vəziyyəti dəyişmiş və köklü dönüş yaratmış Lavrenti Pavloviç Beriya yoldaşın həyata keçirdiyi böyük yaradıcılıq işini və prinsipial siyasi-təşkilati tədbirlərini ötəri və olduqca səthi xatırladırlar. L.P.Beriya yoldaşın fəaliyyətinin belə xarakteristikası onun bilavasitə rəhbərliyi altında həyata keçirilmiş bütün tədbirlərin tam mənzərəsini əks etdirmir”.

F № 1, siy. № 89, iş № 112

**Stalin yoldaşa**

Martın 28-də Sovet Culfasında biz İran Azərbaycanı Milli hökumətinin rəhbərləri - Pişəvəri, Şəbüstəri və doktor Cavidlə görüşdük.

Sizin göstərişinizə müvafiq olaraq, biz yaranmış şəraiti onlara izah etdik və bu gün İran Azərbaycanında mövcud vəziyyətin saxlanmasında təkid etməməyi məsləhət gördük. Onlara Tehran hökuməti ilə bağlanacaq sazişdə bizim səfirin Qəvvama ünvanlanmış 24 mart tarixli məktubunda irəli sürülən təklifləri əsas götürməyi tövsiyə etdik.

14 mart tarixində mən (M.C.Bağırov – A.M.) onlarla ilkin söhbət aparsam da, bizim son təkliflərimiz onlara çox ağır təsir bağışladı. Hər üçü bildirdi ki, onlar bizim məsləhətimizi

qeyd-şərtsiz icraya qəbul edirlər, amma eyni zamanda aşağıdakıları bizim diqqətimizə çatdırmağı zəruri sayırlar:

İran Azərbaycan Demokrat Partiyası və Milli hökuməti mövcud olduqları dövr ərzində xalqa çoxlu vədlər vermişlər ki, onların da bir hissəsi artıq həyata keçirilib və indi elan olunmuş tədbirlərdən əl çəkilməsi onlara çox ağır gəlir.

Onlar Qəvvama inanmır və gözəl bilirlər ki, o, Azərbaycan xalqının hüquqları ilə bağlı bütün vədləri və hətta yazılı sazişləri İran Konstitusiyasına istinadla tədricən ləğv edəcək. İran Konstitusiyası isə mahiyyətcə xalqın hüquqlarını deyil, mürtəce rejimi müdafiə edən sənəddir.

Onlar İran silahlı qüvvələrindən qorxmurlar, amma əmindirlər ki, Qəvvam irticaçı tacirləri, mülkədarları və ruhaniləri ələ almaqla, Azərbaycanda vətəndaş müharibəsi törədəcək, kürdləri və azərbaycanlıları millətlərarası qırğına sürükləyəcək. Bu işdə isə ona ilk növbədə ingilislər kömək edəcək.

Qəvvam həqiqətən də İranda islahatlar keçirmək istəyirsə, onun üçün silahlı qüvvələri ilə birlikdə Milli hökumətdən etibarlı dayaq ola bilməz. Amma Qəvvam çətin ki, bunu istəsin.

Deyilənlərə əsasən, Pişəvəri, Şəbüstəri və Cavid xahiş edirlər ki, bizim qoşunlar geri çəkildikcə, onlara Şimali İranın digər vilayətlərindəki mütərəqqi demokratik elementlərlə əlaqəyə girmək və birgə səylərlə Tehran irticasına qarşı mübarizəyə başlamaq icazəsi verilsin.

Onlar Sovet İttifaqının vasitəçiliyini Azərbaycan xalqının heç olmasa minimum hüquqlarının qorunub saxlanması üçün yeganə real zəmanət hesab edirlər.

Yaranmış ağır maliyyə vəziyyəti və öz silahlı qüvvələrinin formalaşdırılmasını tezliklə başa çatdırmaq zərurəti ilə əlaqədar olaraq onlar:





1. Azı 5 milyon tümən məbləğində pul yardım etməyi;
2. 100 yük avtomaşını ayırmağı;
3. Sərhəd xidmətinin təşkil olunması və daxili qoşunların yaradılması üçün İran Azərbaycanına bir ay müddətinə Azərbaycan SSR Daxili İşlər Nazirliyi qoşunlarından 20 azərbaycanlı təlimatçı göndərməyi;
4. Milli ordunun ehtiyacları üçün müəyyən həcmdə dərman və tibb ləvazimatı ayırmağı xahiş edirlər.

Onların xahişinin təmin olunmasını zəruri hesab edirik.

Sizin göstərişlərinizi gözləyirik;

M.C.Bağırov
İ.İ.Maslennikov
29 mart 1946-cı il

1946-cı il aprelin 4-də Tehranda SSRİ ilə İran arasında birgə Sovet-İran neft şirkətinin yaradılması haqqında saziş imzalandı və müqavilə bağlandı. Bu müqavilə İran Məclisi tərəfindən yeddi ay ərzində təsdiq edilməli idi.

Sovet qoşunları İrandan çıxarılandan sonra Cənubi Azərbaycanda və Şimali Kürdüstanda demokratik hərəkatı Moskvanın nəzarəti altında saxlamaq üçün M.C.Bağırov və İ.Maslennikov ABŞ-ın diplomatik "çətiri" altında fəaliyyət göstərən xüsusi xidmətlərin köməyi ilə İran Kürdüstanının lideri Qazi Məhəmmədin söhbətinin yazısını tapıb Stalinə göndərə bildilər.

F № 1, siy. № 89, iş № 112

**Stalin yoldaşa**

İran Kürdüstanının rəhbəri Qazi Məhəmmədin ABŞ konsulu vəzifələrinin müvəqqəti icraçısı ilə 25 aprel 1946-cı il tarixdə Təbriz şəhərində olmuş söhbətinin qısa yazısını Sizə göndəririk.

**KONSUL:** - Rezaiyyədə ABŞ vətəndaşları yaşayır. Sizdən Rezaiyyədə hər hansı bir çaxnaşma və ya qiyamın baş verdiyi halda onların qorunması üçün tədbirlər görməyi xahiş edirəm.

**QAZİ MƏHƏMMƏD:** - Nə ABŞ vətəndaşları, nə də Rezaiyyə əhalisi üçün təhlükə yoxdur. Sizin hansısa xəyali təhlükə və ya quldurlar haqqında sualınız hətta məni təəccübləndirir. Rezaiyyədə azərbaycanlılar, aysorlar, ermənilər və kürdlər vahid, mehriban ailə kimi yaşayır və onların öz aralarında bölə bilməyəcəyi bir şey yoxdur. Mən sizi əmin edə bilərəm ki, bizim sakitliyimizi, dostluğumuzu heç kəs poza bilməz və biz buna yol verməriik.

**KONSUL:** - Əvvəllər, müharibədən qabaq İran, Türkiyə və İraq kürdləri yaranan problemlərlə bağlı öz nümayəndələrini seçir və ABŞ-a göndərirdilər. Bəs nə üçün kürdlərin nümayəndələri indi ABŞ-a müraciət etmirlər?

**QAZİ MƏHƏMMƏD:** - Biz, İran Kürdüstanının nümayəndələri yalnız öz əhalimiz haqqında düşünürük və Türkiyə, İraq və ya digər ölkələrdəki kürdlərlə işimiz yoxdur. Əgər Siz ABŞ nümayəndəsi kimi, bizim öz adamlarımızı Vaşinqtonagöndərməyimiziistəyirsinizsə, biz bu dəvəti məmnuniyyətlə qəbul edirik.





**KONSUL:** - Siz əlbəttə, öz adamlarınızı ABŞ-a göndərə bilərsiniz, amma xüsusi məsələlərlə bağlı yox, çünki Kürdüstan dövlət deyil. Qəvvamın nümayəndəsi azərbaycanlıların yanına gəldiyi kimi, Tehran hökuməti Sizinlə, kürdlərlə görüşmək üçün də nümayəndə göndərirmi?

**QAZİ MƏHƏMMƏD:** - Biz Tehrandan heç bir nümayəndə gözləmirik və buna elə bir ehtiyac da yoxdur. Azərbaycanlılar və kürdlər bir xalq, bir ailədir və azərbaycanlılar gələn nümayəndə ilə istər özlərinin, istərsə də bizim məsələlərimiz barəsində danışa bilərlər.

**KONSUL:** - Azərbaycan və Tehran nümayəndələri arasında danışıqların mümkün nəticəsi haqqında nə düşünürsünüz?

**QAZİ MƏHƏMMƏD:** - Mən əminəm ki, danışıqların nəticəsi kifayət qədər uğurlu olacaq. Nə azərbaycanlılar, nə də Şimali Kürdüstanda yaşayan digər xalqlar böyük tələblərlə çıxış etmir və İranın bütövlüyünü pozmağa can atmırlar. İrandakı digər xalqlar kimi, biz kürdlər də hazırkı rejimdən razı qala bilmərik. Əgər Qəvvam üzdə göstərdiyi kimi, həqiqətən də, demokratiya tərəfdarıdırsa, onda Azərbaycan xalqının qanuni tələblərinin təmin olunmasına razılıq verəcək.

**KONSUL:** - Mən Sizin Amerika istehsalı olan "Cip" avtomobilində gəzməyinizə etiraz etmirəm. Kürdlər nəyə üstünlük verirlər, bu maşınlara, yoxsa atlara?

**QAZİ MƏHƏMMƏD:** - Kürdlər nəyi daha üstün tuturlar, bu maşınları, yoxsa atları? Düşünürəm ki, bu, Sizə də tam aydındır. Amerika texniki baxımdan güclü ölkədir, amma indiyə kimi bizə bir maşın da olsun bağışlamayıb. Siz əvvəlcə bizə maşın verin, sonra soruşun.

**KONSUL:** - Düşünürdüm ki, Siz maşınları bizim İranı tərk etmiş ordumuzdan almısınız.

**QAZİ MƏHƏMMƏD:**- Maşınları biz Tehranda pulla almışıq. Biz kürdlər bilirik ki, Amerika demokratik ölkədir. Özünü demokratiya tərəfdarı və kiçik xalqların müdafiəçisi elan etmiş İngiltərə də demokratik ölkə sayılır. Amma biz kürdlərə aydın deyil ki, nə üçün ingilislər Londondan yayımlanan verilişlərində bizim dünyada sülh üçün təhlükə törətdiyimizi, idarəetmə orqanlarımızın məhv edilməsini, yer üzündən silinməsini və s. bəyan edirlər. Özünü demokratik adlandıran ölkənin belə bir bəyanatını biz heç cür anlaya bilmirik. Bəlkə bunun səbəbini bizə Siz izah edəsiniz?

**KONSUL:**-Biz amerikalılar xarici dövlətlərin radio verilişləri və bəyanatlarına izahat verə bilmərik. Bundan başqa, biz, ümumiyyətlə, digər dövlətlərin işinə qarışa bilmərik.

**QAZI MƏHƏMMƏD:**- Biz kürdlər Amerika, Sovet İttifaqı, İngiltərə kimi böyük dövlətlərin bizə diqqətini hiss etmirik. Sizdən rəsmi olaraq bizə diqqət yetirməyi və Amerika xalqı kimi azad və demokratik xalq olmaqda kömək göstərməyi xahiş edirik. Biz də amerikalılar kimi azad yaşamaq, öz xalqımızı mədəniyyətə doğru aparmaq istəyirik. Yəni, gerilikdən yaxa qurtarmış qabaqcıl xalq kimi yaşamağı arzulayırıq.

**KONSUL:**- Əfsuslar olsun ki, biz amerikalılar kürd xalqının real həyatı və vəziyyəti barədə heç nə bilmirik. Etiraz etmirsinizsə, biz üç həftədən sonra, konsul Tehrandan qayıtdıqdan sonra Sizin yanınıza gələrik.

**QAZİ MƏHƏMMƏD:**- Biz heç kimə Kürdüstana gəlməyi qadağan etmirik. Əgər orda olmaq istəyirsinizsə, buyurun, gəlin.





M.C.Bağırov
İ.İ.Maslennikov
27 aprel 1946-cı il

M.C.Bağırov və İ.İ.Maslennikovun Stalinə göndərdiyi məktub Sovet qoşunlarının İrandan çıxarılmasının nəticələrini əks etdirir. Əslində, Stalinin atdığı addıma qarşı çıxan M.C.Bağırov Azərbaycan xalqının İran hökuməti ilə təkbətək qalmasından gizli narazılığını bildirir. Bundan başqa, hədəf kimi Qəvvamı seçərək yazır ki, İranın hakimiyyət dairələrində Cənubi Azərbaycanda baş verən proseslərin qafqazlılar tərəfindən törədildiyi haqqında söhbətlər gəzir. O, bunun Stalin-Beriya-Bağırov üçlüyü olduğuna eyham vurur. O, həmçinin, Qəvvam və Stalin arasında razılaşmaya yenidən baxılmalı olduğuna da işarə edir.

Bundan başqa, M.C.Bağırov bu məktubda amerikalıların və ingilislərin Cənubi Azərbaycan və Şimali Kürdüstanda baş verən proseslər üzərində nəzarəti ələ almalarını xüsusi olaraq qeyd etməyə çalışıb.

F №1, siy. № 89, iş №112

**Stalin yoldaşa**

Bizim qoşunlarımızın İran Azərbaycanından çıxması əhali kütlələri, irticaçı elementlər və ingilispərəst dairələr arasında müxtəlif reaksiyalar doğurdu.

Kəndlilər, fəhlələr, ziyalılar və bütün demokratik qüvvələr qoşunların İrandan çıxarılması ilə bağlı açıq-aydın təəssüf hissi keçirirdilər. Bu əhali təbəqələri bizim qoşunlarımız getdik-

dən sonra irticaçı qüvvələrin hücuma keçəcəyini əvvəlcədən görərək, Azərbaycanda demokratik hərəkatın gələcək taleyi ilə bağlı narahatlıq və həyəcan ifadə edirdilər. Amma nə əhali, nə də demokratların rəhbər dairələri arasında çaşqınlıq və ruh düşkünlüyü müşahidə olunmadı.

Bizim qarnizonlarımızın yerləşdiyi bütün Azərbaycan şəhərlərində Qızıl Ordu hissələrinin yola salınması təntənəli ümumxalq nümayişlərinə çevrilmişdir. İran Azərbaycanının Ərdəbil, Marağa, Rezaiyyə, Xoy və Zəncan kimi iri şəhərlərində hələ Qızıl Ordunun çıxması ərəfəsində mağazalar, idarələr və şəxsi evlər ucdantutma xalçalarla, Sovet və İran bayraqları, Stalin yoldaşın, sovet rəhbərlərinin, Qızıl Ordu qəhrəmanları və sərkərdələrinin portretləri ilə bəzədilmişdi. İranın SSRİ ilə mədəni əlaqələr cəmiyyətinin yerli şöbələrində əhalinin bütün təbəqələrinin iştirakı ilə Qızıl Ordunun getməsinə həsr olunmuş təntənəli yığıncaqlar keçirilirdi. Bu yığıncaqlarda fəhlələrin, həmkarlar ittifaqları və demokratik təşkilatların, ziyalıların və tacirlərin nümayəndələri coşqun nitqlər söyləyir, əhalinin Qızıl Orduya minnətdarlığını çatdırır, onlara hədiyyələr verirdilər.

Yolasalma mərasimlərində çoxlu sayda azərbaycanlı qadınların iştirakı diqqəti cəlb etmişdir ki, bu da İran şəraitində görünməyən bir haldır.

Bizim Təbriz şəhərindəki hissələrimizin 100 min nəfərdən artıq adamın iştirak etdiyi yolasalma mərasimi xüsusilə möhtəşəm və təsirli keçdi.

Təbrizdə qarnizonun getməsinə bir neçə gün qalmış hər axşam İran-SSRİ mədəni əlaqələr cəmiyyəti, erməni ictimaiyyəti, şəhər idarəsi və ayrı-ayrı ictimai xadimlər tərəfindən təntənəli yığıncaqlar təşkil olunurdu. Yeni demokratik qəzetlər Qızıl





Ordunun xilaskar ordu kimi rolu və əhəmiyyətini, İran Azərbaycanı əhalisinə göstərdiyi yardımı geniş işıqlandırır, Qızıl Ordu nümayəndələrinin əhali ilə mədəni davranışını xüsusi qeyd edirdilər.

Mayın 5-də bizim hərbi maşınlarımız qruplarla Təbrizin mərkəzi küçələri ilə keçən zaman qadınlar və kişilər maşınlara yaxınlaşır, əllərini qaldıraraq, belə sözlərlə vidalaşırdılar: “Nə üçün gedirsiniz?”, “Nəyə görə bizi tərk edirsiniz?”, “Sizə uzun ömür arzulayırıq” və s. Maşın karvanı keçdikdən sonra küçəni hər iki tərəfdən tutan böyük insan kütləsi maşınların arxasınca düşüb qışqırırdı: “Yaxşı yol, əziz dostlar”, “Bizi unutmayın!”,“-Tezliklə görüşənədək”.

Qızıl Ordu hissələrinin yola salınmasında iştirak etmək üçün kürd xalqının nümayəndələri nüfuzlu rəhbərlərinin başçılığı altında Şimali Kürdüstandan Təbrizə gəlmişdilər.

Tehran nümayəndələri qeyri-rəsmi olaraq indiyədək Azərbaycanda baş verənlərin qafqazlılar tərəfindən törədildiyini, amma Qəvvamın heç vaxt Azərbaycan nümayəndə heyətinin tələbləri ilə razılaşmayacağını bəyan edib. Onlar deyirlər: “Yaxın gələcəkdə Pişəvəri hökuməti yox olacaq”.

İngilislər son vaxtlar Azərbaycan milli hökumətinin bütün fəaliyyətini diqqətlə izləyir və onun çıxardığı qanun və sərəncamları öyrənirlər. Bu yaxınlarda ingilislər azərbaycanlılarla kürdlər arasında bağlanmış sazişin mətnini tərcümə edib Tehrana göndəriblər. Tehranın tələbi ilə ingilis konsulu Uoll bu günlərdə Şeyx Xiyabani (1920-1921-ci illərdə Azərbaycanda demokratik hərəkatın tanınmış rəhbəri, irticaçılar tərəfindən edam olunub) haqqında bioqrafik məlumatlar toplayaraq, təyinatı üzrə göndərmişdir.

Amerika, Türkiyə və İran konsulları həftədə bir neçə dəfə ingilis konsulunun yanına gedirdilər. Onlar Azərbaycandakı vəziyyətlə bağlı ayrı-ayrı məsələlər üzrə fikirlərini bölüşür, öz hökumətləri üçün eyni xarakterli və məzmunlu informasiyalar tərtib edirlər. Bütün konsullar üçün baş müşavir ingilis konsulu Uolldur.

Konsulluq işçilərinin vasitəsilə Uoll son zamanlar Qızıl Ordu hissələrinin çıxıb getməsi münasibətilə təşkil olunan bütün görüş və ziyafətlərlə maraqlanırdı: kim gəlmişdi, hansı sağlıqlar söylənilib, hansı hədiyyələr gətirilmişdi və s.

Aprelin sonunda Tehrandakı ingilis dairələrinə bağlı olan "Qiyami-İran" qəzetinin redaktorunun qardaşı Sədri və Əkbər Rəzəvi adlı birisi Tehrandan Rəşt şəhərinə gələrək, Məclis deputatlığına sovetyönlü namizədlərə qarşı antidemokratik fəaliyyət və təbliğata başlamışlar. Göstərilən şəxslər ingilis bankının Rəşt şöbəsində ingilislərin xeyrinə təbliğat xərclərinin ödənilməsi üçün irticaçı bir tacirin adına xüsusi cari hesab açmışlar.

Amerika hərbi attaşesinin Təbrizdəkiköməkçisi, bəzi məlumatlara görə, rusiyalı ağqvardiyaçı kapitan Qaqarin hər vəchlə Kürdüstan rayonlarına getmək istəyir. O, dəfələrlə yerli hakimiyyət orqanlarına Kürdüstana getməyə buraxılış vəsiqəsi üçün müraciət etmiş, amma onun bu müraciətləri nəticəsiz qalmışdır. O, Təbizdə bir neçə yerli nüfuzlu şəxslə görüşərək, sovet qoşunlarının çıxıb getməsi ilə bağlı demokratların əhval-ruhiyyəsi ilə maraqlanmış, onların Tehranla ümumi dil tapmaq və İran hökuməti ilə münasibətləri dinc yolla tənzimləmək, yoxsa silahlı qarşıdurmaya getmək və öz muxtariyyətini müdafiə etmək niyyətində olduqlarını aydınlaşdırmağa çalışmışdır.





Mayın 7-də Qaqarin Təbrizdə Qazi Məhəmmədlə görüşüb ona aşağıdakı sualları vermişdir:

1. Kürdlərin məişət şəraiti ilə tanış olmaq üçün onun Kürdüstana gəlməyinə etiraz etmir ki?

2. Amerika silahları – kürd zabitlərinin gəzdirdikləri tapançalar ruslardan alınıb?

3. Amerikaya getmək istərdimi?

Bu sualların cavabında Qazi Məhəmməd bildirmişdir:

1. Azərbaycan Milli hökuməti razılıq verərsə, o, Qaqarinin Kürdüstana gəlməyinə etiraz etmir.

2. Kürdlərdə təkcə Amerika istehsalı olan deyil, həm də alman, ingilis və sair mənşəli silahlar var. Bu silahlar kürdlərdə hələ Rza şahın dövründən qalıb.

3. "Əgər Amerikaya da yol Kürdüstana olduğu kimi açıqdırsa...", - deyən Qazi Məhəmmədə Qaqarin dərhal belə cavab verib: "Amerikaya yol açıqdır. İstənilən vaxt getmək olar".

Mürtəce dairələrin və ingilis-amerikan agenturasının fitnələrinə və güclü təbliğatına baxmayaraq, geniş demokratik təbəqələrin siyasi və mənəvi vəziyyəti sabit qalmaqda davam edir. İran Azərbaycanının demokratik təbəqələri Azərbaycan Milli hökuməti ilə Qəvvam hökuməti arasında aparılan danışıqları diqqətlə izləyərək, Tehran və Azərbaycan arasında münasibətlərin sülh yolu ilə tənzimlənməsini istəyir, eyni zamanda Azərbaycan xalqının milli hüquqlarına və demokratik nailiyyətlərinə xələl gətirə biləcək güzəştləri istisna edirdilər.

Mayın 8-də Demokrat Partiyasının bütün özəklərində İranda cari vəziyyət haqqında məruzələr edilmişdir. Özəklərin birində məruzəçi ədliyyə naziri Əzima idi. O, danışıqlarla bağlı Tehran tərəfindən irəli sürülmüş şərtlərin qəbul edilməsinin zəruriliyi

məsələsinə toxunanda, Demokrat Partiyasının üzvləri öz hiddətlərini bildirərək, ciddi etiraz etməyə başladılar.

Demokrat Partiyasının üzvləri bu cür narazılığı digər bir özəkdə eyni məzmunlu məruzə edən Milli Məclis sədri Şəbüstəriyə də bildirmişlər.

Çıxış edən partiya üzvləri qeyd etmişlər ki, Demokrat Partiyası Qəvvamın çap olunmuş bəyannaməsi çərçivəsində bağlanacaq hər hansı sazişi tanımamalıdır.

M. C. Bağırov
İ.İ.Maslennikov
13 may 1946-cı il

1946-cı ilaprelin 24-də SSRİ ilə İran arasında neft sazişi bağlandıqdan sonra Azərbaycan Demokrat Partiyasının lideri S.C.Pişəvəriyə bildirirlər ki, o, daha Tehran hökumətinə qarşı çıxış etməsin. Amma SSRİ-nin İrandakı diplomatik korpusunun nümayəndələri Kremlə xəbər verirlər ki, S.C.Pişəvəri bu göstərişi yerinə yetirmir.

M.C.Bağırov S.C.Pişəvərinin gələcək taleyinə biganə qalmayaraq, Demokrat Partiyasının liderini müdafiə məqsədilə Stalinə məktubla müraciət edir.

Sonralar, 1956-cı ildə M.C.Bağırovun məhkəməsində bu məktub onu S.C.Pişəvərinin ölümündə ittiham edənlərə bir cavab oldu. Əgər M.C.Bağırov Pişəvərini fiziki olaraq aradan götürmək niyyətində olsaydı, hələ Təbrizdə ikən onun ölümünü istəyən Moskva emissarları ilə razılığa gələrdi. Moskvanın özündə Pişəvəriyə münasibət buna imkan verirdi. Bu məktubda Bağırov Qəvvamı da kəskin tənqid etmişdi.





F № 1, siy. № 89, iş №112

Moskva, ÜK(b)P MK-ya

**Stalin yoldaşa**

Sizin göstərişinizə müvafiq olaraq, biz İran Azərbaycanı Demokrat Partiyası ilə əlaqə saxlamağa çalışırıq. Təbriz radiosunu və qəzetləri izləyirik. Mühüm məsələlərdə bizimlə məsləhətləşməkdə davam edən Demokrat Partiyasının lideri Pişəvərinin çıxış və bəyanatlarına xüsusi diqqət yetiririk. İran hökuməti ilə saziş imzalandıqdan sonra Pişəvərinin çıxış və bəyanatlarında mərkəzi hökumətin ünvanına heç bir kəskin ifadə və ya ikibaşlı eyhamlar tapmırıq.

Buna baxmayaraq, konsulluq işçiləri, görünür, Azərbaycan və fars dillərini pis bildikləri üçün Pişəvərinin çıxışlarındakı ayrı-ayrı ifadələrə tez-tez irad tutur və SSRİ Xarici İşlər Nazirliyini düzgün məlumatlandırmırlar. Nəticədə nazirlikdən Pişəvəriyə xəbərdarlıq edilməsi, ondan çıxışındakı bu və ya digər ifadənin mənası ilə bağlı izahat tələb olunması ilə bağlı göstərişlər daxil olur. Bu da istər Pişəvərinin, istərsə də onun yaxın silahdaşlarının əhval-ruhiyyəsinə mənfi təsir göstərir.

Eyni zamanda ingilislər və amerikanlar son vaxtlar İran Azərbaycanında bizə qarşı özlərinin təxribat fəaliyyətlərini gücləndirmiş, Məclisə seçkilərə hazırlaşan bütün irticaçı qrup və təşkilatları açıq-aşkar dəstəkləməyə başlamışlar.

Azərbaycana münasibətdə Qəvvamın davranışı da şübhəli görünür: bizim səfirimiz vasitəsilə Qəvvam kürdlərin rəhbəri Qazi Məhəmmədi onunla görüşmək üçün Tehrana gəlməyə razı

salmağı xahiş etmişdir. Qazi Məhəmməd bizim məsləhətimizlə Tehrana getmişdir. Daxil olan məlumatlara görə, Qəvvam hər vasitə ilə kürdləri azərbaycanlılara qarşı çıxmağa təhrik edir. Qazi Məhəmmədə cürbəcür vədlər verən Qəvvam çalışır ki, kürdlər Təbrizə tabe olmasınlar. Bu şəraitdə Demokrat Partiyasının lideri kimi Pişəvəriyə İranın gələcək demokratikləşməsi uğrunda mübarizədə qarşıya çıxan çətinliklər barədə danışmağı qadağan etmək lazım deyil.

M.C.Bağırov
iyul, 1946-cı il

Təsadüfi deyil ki, hətta 1950-ci ildə S.C.Pişəvərinin ölümündən sonra M.İ.İvanov İran Kommunist Partiyası haqqında dissertasiya yazanda Pişəvərini öz xalqının düşməni kimi göstərmişdi. Amma nəzərə almaq lazımdır ki, həmin dissertasiya ÜK(b)P MK-nın nəzdində İctimai Elmlər Akademiyasında müdafiə olunmuşdu.

M.C.Bağırov Malenkova göndərdiyi məktubunda qeyd edirdi ki, S.C.Pişəvəriyə bu cür münasibət heç bir məntiqə sığmır və tamamilə əsassızdır (C.Həsənli: “Soyuq müharibənin başlanğıcı”). O yazırdı: “Pişəvəri İran xalqı tərəfindən sevilən görkəmli bir şəxsiyyətdir. Bu iftira “Tudə” Partiyası (İran Kommunist Partiyasının sədri, erməni Artaşes Ovanesyan) tərəfindən yayılmışdır. Bu, Tudə Partiyasının əksinqilabi fəaliyyətindən və eyni zamanda Pişəvəri haqqında iftiraların yayılmasından başqa bir şey deyildir. Xalq kütlələri arasında parlaq partiya və hökumət xadimi kimi Pişəvərinin adı üzərinə heç bir kölgə salına bilməz”.





M.C.Bağırov İ.Stalinə yazdığı növbəti məktubda ingilislərin şah rejimi ilə birlikdə “İntellijens-servis” kəşfiyyatçıları vasitəsilə Azərbaycan demokratik hərəkatının neytrallaşdırılması xəttini həyata keçirdiyini vurğulayaraq, onları zərərsizləşdirmək təklifini irəli sürmüşdü.

O, yeni yaranan Tehran hökumətində İran Azərbaycanının təmsilçisi kimi Padeqanın namizədliyini təklif etmişdi.

F № 1, siy. № 89, iş № 112

Moskva, ÜK(b)P MK-ya

**Stalin yoldaşa**

Son zamanlar Şimali Kürdüstan rayonunda gərgin vəziyyət yaranmaqdadır. İngilislər kürdlərin devrilməsi üzrə geniş işə başlayıblar, ayrı-ayrı kürd tayfaları arasında silahlı toqquşmalar və kürdlərin azərbaycanlılara hücumlarını təşkil edirlər.

İyulun sonunda tanınmış kürd başçısı Hama Rəşid Xan Benam şəhərində ingilis kəşfiyyatçısı polkovnik Kornellə görüşdən sonra, 8 kürd kəndini talan etmişdir. Rezaiyyə şəhərində digər kürd başçısı Nuri Bəy azərbaycanlı kəndlilərdən öz xeyrinə vergi yığmağa başlamış, bunun da nəticəsində iyulun 20-də kürdlər və azərbaycanlılar arasında silahlı toqquşma baş vermişdir. Avqustun əvvəllərində Rezaiyyə şəhərində Nuri Bəylə Rəşid Bəyin kürd tayfaları arasında silahlı toqquşma olmuşdur.

Eyni zamanda ingilislər İran-İraq sərhədində Uşnu şəhəri ətrafında İran kürdlərindən ibarət silahlı dəstələr cəmləşdir-

mişlər ki, onlar da qarşıqlıq və iğtişaşlar törətmək üçün Şimali Kürdüstana hücum etməyə hazırlaşırlar.

Azərbaycanlılarla kürdlər arasında nifaq salmaq istiqamətində Qəvvam tərəfindən də iş aparılır. Qəvvam Şimali Kürdüstan kürdlərinin rəhbəri Qazi Məhəmmədlə Tehranda görüşərkən, onun qarşısında Kürdüstanın Azərbaycandan ayrılması məsələsini qoymuş və bu zaman İran hökuməti ilə azərbaycanlılar arasında, Şimali Kürdüstanın da daxil olduğu, Azərbaycan əyaləti barədə imzalanmış sazişin mövcudluğunu nəzərə almamışdır.

İran ordusunun Baş Qərargahı da bu istiqamətdə iş aparır.

İngilislər Bərzani tayfasından olan İraq kürdlərinin olduqca ağır maddi vəziyyətindən istifadə edərək, onların İranın Şimali Kürdüstanından İraqa qaytarılması üçün işə başlamışlar. Bərzani tayfasından olan kürdlərin vəziyyəti həqiqətən olduqca ağırdır. Onlar böyük maddi ehtiyac keçirir, demək olar ki, aclıq çəkirlər. İndiyədək onların Şimali Kürdüstanda məskunlaşması məsələsi həll olunmayıb.

Ümumiyyətlə, biz təkcə onlara deyil, həm də İran kürdlərinə az sayda silah və hərbi sursat verilməsi istisna olmaqla, maddi yardım göstərməmişik. Azərbaycanlılar isə onlara böyük yardım göstərmək iqtidarında deyillər, buna görə də kürdlər asanlıqla hər çur təxribata uyur, azərbaycanlılarla böyük silahlı toqquşmaya gedə bilərlər. Biz azərbaycanlılar məsləhət görmüşük ki, kürdlərə qənd, taxıl və digər ərzaq məhsulları iləyardım imkanı tapıb, bu işi gücləndirsinlər.

İraq kürdlərinin irticaçı kürd dəstələrinin və İran qoşunlarının Şimali Kürdüstana və Azərbaycana hücum edəcəyi təqdirdə, istifadə olunacaq real silahlı qüvvə kimi saxlanması məqsədilə azərbaycanlılar düzgün olaraq belə bir məsələ qaldırıblar ki, ermənilərin Sovet Ermənistanına köçməsindən sonra boşalacaq bir sıra kəndlər Bərzani tayfasından olan İran kürdlərinə verilsin. Biz onlara bu məsələni kürd demokratlarının rəhbəri Qazi Məhəmmədlə razılaşdırmağı və ermənilərin tərk etdiyi bəzi kəndləri İraq kürdlərinə verməyi tövsiyə etdik. Amma Tehran hökumətinin etirazına səbəb olmamaq üçün bunu reallaşdırmaq mümkün deyil.





Bizim etdiklərimiz kifayət deyil. İraq kürdlərinə ilk növbədə ərzaq yardımı göstərmək lazımdır. Bunu yerindəcə etmək olar.

ÜK(b)P MK-nın qərarı ilə Azərbaycanla bağlı işlər üçün bizə ayrılmış fonddakı 660 min tüməndən bu günə qədər 240 min tümən xərclənməmiş qalıb, bu vəsaitin 100 min tümənini azərbaycanlılar vasitəsilə kürdlərə ayırmağa icazə vermənizi xahiş edirik.

Sonda bunu dabildirməyi zəruri hesab edirəm ki, bizim əlbir işləmək barədə çoxsaylı xəbərdarlığımıza baxmayaraq, Azərbaycan demokratlarının rəhbərliyində, xüsusilə, Pişəvəri ilə general-qubernator Cavid arasında gərgin münasibətlər müşahidə olunmaqdadır.

Daxil olmuş məlumatlara görə, Qəvvam öz hökumətində azərbaycanlılara nazir-müşavir (portfelsiz nazir) vəzifəsini vermək niyyətindədir və Pişəvəri bu vəzifəyə Cavidi tövsiyə edir. Cavidin təcrübəvə hazırlıq səviyyəsinə görə bu işə tam uyğun gəlməsinə baxmayaraq, biz qorxuruq ki, onun Qəvvam və ingilislərin təsiri altına düşməmək üçün kifayət qədər səbatı çatmasın. Pişəvəri isə, görünür, Caviddən canını qurtarmaq üçünonu irəli verir. Buna görə də biz nazir-müşavir vəzifəsinə Peşəvərinin Demokrat Partiyası üzrə müavini – kifayət qədər səbatlı və

bizə sadiq Padeqanı tövsiyə etmək, Cavidi isə Təbrizdə saxlamaq qərarına gəlmişik.

Sizin göstərişinizi gözləyirik.

M.C.Bağırov
15 avqust 1946-cı il

Hadisələrin sonrakı təhlili göstərir ki, ABŞ və Böyük Britaniyanın siyasi dairələri Məhəmməd Rza şaha təzyiq göstərmək məqsədilə ona Cənubi Azərbaycanın liderləri ilə danışıqlar aparmağı tapşırırlar. Onlar şahın diqqətinə çatdırmaq istəyirlər ki, İranın daxili, xüsusilə də xarici siyasəti ABŞ və İngiltərənin nəzarəti altında həyata keçirilməlidir. Yaranmış vəziyyət "SSRİ Cənubi Azərbaycanda hərəkata nəzarət etmək istəmir və ya Stalin bu məsələnin həllindən yayınır" – sualını meydana çıxarırdı.

Ona görə də, M.C.BağırovI.Stalinə növbəti məktubunda izah etmək istəyir ki, Moskva Cənubi Azərbaycan və Şimali Kürdüstanda baş verən proseslərə nəzarəti zəiflədərsə, bu ərazidə ABŞ və Böyük Britaniyanın təsir "vasitələri" işləməyə başlayacaq.

F № 1, siy. № 89, iş № 112

Moskva, ÜK(b)P MK-ya

**Stalin yoldaşa**

Oktyabrın 20-də mən Naxçıvanda Pişəvəri, onun müavini Sadıq Padeqan və fədai (partizan) qoşunlarının generalı Qulam Yəhya Danişyanla görüşdüm.





Onlar İran Azərbaycanındakı vəziyyət barədə məlumat verdilər. Tehranın ingilisyönlü hökumətindən daha nələri gözləməyin mümkünlüyü barədə danışdılar və hərbi hücumun baş verəcəyi təqdirdə, onlara zəruri yardım göstərilməsini xahiş etdilər.

Onların dediyinə görə, Azərbaycanda əhalinin əhval-ruhiyyəsi əsasən yüksəkdir. Azərbaycan Demokrat Partiyasının nüfuzu və təsiri möhkəmlənir və güclənir. Torpaqların kəndlilər arasında bölüşdürülməsinin davam etməsi ilə bağlı böyük ruh yüksəkliyi müşahidə olunur. Ordu, xüsusilə də, partizanlar özlərini yaxşı aparır və heç bir şübhə doğurmurlar. Kürdlərlə qarşılıqlı münasibətlər qənaətbəxşdir. İndiyə qədər onlara imkan daxilində maddi yardım göstərilmişdir.

Son vaxtlaradək Tehran hökumətinin Azərbaycana heç bir pul və maddi yardım göstərmədiyinə, üstəlik Azərbaycana məxsus 20 milyon tüməni geri qaytarmadığına baxmayaraq, azərbaycanlılar öz xərclərini birtəhər ödəyirlər, amma artıq kürdlərə, xüsusilə də, çox ehtiyacları olan İraq kürdlərinə yardım etmək iqtidarında deyillər.

Bununla yanaşı, Azərbaycan sərhədində İran ordusunun böyük qüvvələri cəmləşmişdir. İran zabitlərininvə ingilis kəşfiyyatçılarının rəhbərliyi altında çoxlu böyük quldur dəstələri yaradılmışdır.

Demək olar ki, hər gün bu və ya digər ərazidə həmin dəstələr silahlı hücumlarla azərbaycanlıların gücünü yoxlayırlar.

Azərbaycan daxilində ingilisyönlü irticaçı elementlər və ingilislər özləri əhalinin parçalanması üçünfəal iş aparırlar. Çaxnaşma yaratmaq məqsədilə Azərbaycan ərazisində labüd müharibə haqqında şayiələr yayır, əhaliyə vaxtında Azərbay-

candan getməyi təklif edirlər. Kürdlərin azərbaycanlılarla qarşılıqlı münasibətlərində ayrı-ayrı nüanslardan istifadə edərək, onları bir-birinə qarşı qaldırırlar.

Oktyabrın 17-də Təbrizə yeni gəlmiş İngiltərənin baş konsulu Karss qeyri-rəsmi görüş adı altında Peşəvərinin yanına getmişdir. Söhbət əsnasında o, Pişəvəriyə bir sıra suallar vermişdir:

1. Azərbaycan demokratları Təbriz aerodromunu genişləndirmək və yenidən qurmaq istəyirlərmi?

2. Azərbaycanlılar xarici ticarəti təşkil etmək və qaydaya salmaq barədə fikirləşirmi?

3. Azərbaycanın hansı rayonlarında indiyə qədər neft yataqları aşkar olunub?

4. Neftdən başqa digər qiymətli yataqlar varmı?

5. Nə üçün azərbaycanlılar digər Avropa dövlətlərinin mədəniyyətindən istifadə etmək üçün onlarla daha sıx əlaqə qurmaq istəmirlər?

6. Azərbaycanlıların kürdlərlə qarşılıqlı münasibəti necədir? Kürdlər Azərbaycanın şəhər və kəndlərinə hücuma hazırlaşırmı? və s.

Pişəvəri cavab verib ki, kürdlərlə azərbaycanlıların öz aralarında vuruşmasına səbəb yoxdur və onun partiyası qabaqcıl xalqların mədəniyyətinin təkcə Azərbaycanda deyil, bütün İranda yayılmasının tərəfdarıdır. Digər məsələlərə gəldikdə isə, Pişəvəri onlar barədə Tehran hökumətinə müraciət etməyi məsləhət görüb, çünki bu məsələlər Demokrat Partiyasının səlahiyyətinə daxil deyil.

Tehrandakı son hadisələrlə əlaqədar Pişəvəri və onun yoldaşları hesab edirlər ki, Məclisə seçkilər İrandakı demokratik qüvvələr tam iflic vəziyyətinə salınana, Azərbaycan məsələsi





aradan qalxana qədər uzadılacaq. Bundan başqa, onların fikrincə, Tehran hökuməti Azərbaycan məsələsini iki yolla: ya açıq silahlı hücumla, ya da qoşunları Azərbaycana yeridərək, qarnizon və jandarmeriyanın rəhbərliyini öz əlinə almaq imkanı qazanmaq üçün saxta saziş imzalamaq yolu ilə aradan qaldıra bilər.

Tehranla sonrakı danışıqlarla bağlı onlar yenidən təsdiq etdilər ki, bizim göstərişimiz olmadan heç bir müstəqil addım atmayacaqlar.

Silahlı hücuma gəldikdə isə, əhali sözsüz ki, müqavimət göstərəcək. Bu halda onlara yalnız silah, avtonəqliyyat və pulla kömək göstərmək lazımdır. Yardımın həcmi haqqında iki gün ərzində məlumat çatdırmağa söz veriblər.

Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov
22 oktyabr 1946-cı il
№ 33-34

Artıq 1946-cı ilin dekabrında regionda geosiyasi vəziyyət Azərbaycanın iki rəhbəri - S.C.Pişəvəri və M.C.Bağırovun xeyrinə olmayan şəkildə dəyişdi.

Demokratik respublikanın rəhbərliyi ilə çoxdan görüşmək istəyən ABŞ və İngiltərə emissarları sanki Tehran qoşunlarının Təbrizə doğru hərəkətini görmürdülər. Əslində, ABŞ və İngiltərənin mövqelərindəki etinasızlıq bəzi incə məqamlardan irəli gəlirdi.

Hələ İkinci dünya müharibəsinin sonlarında, 1945-ci il fevralın 14-də ABŞ prezidenti F.Ruzvelt Səudiyyə Ərəbistanının kralı Əbdül Əziz ibn Əbdül Rəhman əl-Səuddan faşist Almani-

yasının qurbanı olan yəhudilərin Fələstin torpağında yerləşdirilməsinə qarşı çıxmamağı xahiş etmişdi. Kralın bu xahişə münasibəti birmənalı olmuşdu. Kral belə cavab vermişdi: "Yəhudilərə qarşı törədilmiş cinayətlərə görə qoy Almaniya özü cavab versin. Yəhudilər almanlardan zərər görübsə, qoy onları incidənlərin adlarını çəksinlər. Nə üçün ərəblər başqalarının törətdiyi cinayətə görə cavab verməlidir?". Həmin görüşdə Transərəb neft kəməri barədərazılıq əldə olunmuşdu. Bundan sonra ərəb lideri digər müsəlman ölkələrinin rəhbərləri, o cümlədən, İran şahı ilə görüşmüşdü. Onlarla məsləhətləşmələr aparaq, mövqelərini dəqiqləşdirmişdi. İran şahının mövqeyi birmənalı idi: İsrail dövləti olmamalıdır.

Amma ikinci Dünya müharibəsi sona çatdıqdan sonra, Yaxın Şərqdə Mussolininin dövründə İtaliya ərazisi sayılan torpaqlar ərəb və müsəlman ölkələrinin birləşməməsi üçün əlindən gələni edən Böyük Britaniyanın ixtiyarına keçdi. Məsələn, 1946-cı ilin əvvəllərində Liviya İtaliyanın nəzarətindən çıxdı və ABŞ, İngiltərə və Fransa arasında bölüşdürüldü. Ərəb ölkələrinin birliyini, müstəqilliyini istəyən milli-vətənpərvər qüvvələrin qazancı liderləri ölkədən çıxarmağa başlaması oldu. "Demokratiya daşıyıcıları" – London emissarları hətta ərəb dilində olan qəzetləri də bağlamağa başladılar. Öz protektoratını Ərəb Əmirliklərinə zorla qəbul etdirən Böyük Britaniya Fars körfəzindəki Tombe-Bozorg, Tombe-Kuçek, Əbu Musa adalarının adlarını dəyişərək, orada özünün dəniz donanmasını yerləşdirdi. Rəsmi Tehranisə, bu adaları tarixən İran ərazisi hesab edərək, onları geri tələb edirdi. Bu adalar keçmiş Hindistan-Qərb tranzit yolunda Böyük Britaniyanın hərbi-dəniz qüvvələrinin yerləşdiyi strateji obyektlər sayılırdı. Həmin adalar Böyük Britaniyaya





kommunikasiyaların təhlükəsizliyini təmin etmək üçün hərbi-dəniz donanmanı saxlamağa imkan verirdi.

Nəzərə alaq ki, Cənubi Azərbaycanın sərhədləri Fars körfəzinə çıxmır, körfəzin İran sahillərində əsasən, ərəblər və bəluclar yaşayır. O zaman ingilislər İran ərəbləri üçün muxtariyyət "layihəsi" hazırlamışdı. Amma hadisələr elə dəyişdi ki, ABŞ prezidenti Trumen ərəb dövlətlərinin razılığını almadan 100 min yəhudini Fələstində yerləşdirəcəyini bəyan etdi. Bu addım ərəb və müsəlman dünyasında böyük qəzəbə səbəb oldu. Məsələn, Səudiyyə Ərəbistanı kralı Əbdül Əziz Trumena belə bir məktub göndərdi: "Sizin yəhudilərin mövqeyindən çıxış etməyiniz və onlarıFələstin ərazisində yerləşdirməklə bağlı bəyanatınız məni çox təəccübləndirdi. Bu, ümumilikdə, bizim ABŞ-la əvvəlki razılaşmamıza ziddir" (Area Handbook, səh.172).

Tarixi bağlarla Amerikaya yaxın olan Böyük Britaniya strateji partnyorluqdan çıxış edərək, Fələstin məsələsi ilə əlaqədar Tehran hökuməti ilə danışıqlar aparmağa başladı. Vaşinqton və Londonun təklifləri bundan ibarət idi: əgər İran tərəfi Fələstin məsələsində ABŞ və Böyük Britaniyanın mövqeyində durarsa, Fars körfəzindəki adalardan imtina edərsə, Fars körfəzi yaxınlığındakı neft yataqlarının birgə istismarına razılıq verərsə, London və Vaşinqton Cənubi Azərbaycan və Şimali Kürdüstan məsələsini İran şahının maraqlarına uyğun şəkildə həll edəcək və onu hərbi baxımdan dəstəkləyəcək. Bu isə İran Azərbaycanı və Şimali Kürdüstanın sonu demək idi.

ABŞ və İngiltərənin şərtlərini qəbul edən Məhəmməd Rza şah öz ordusunu silahlandırıb Təbrizə yönəltdi. İran qoşunlarının şimala hərəkətindən narahat olan M.C.Bağırov Stalinə məktub yazaraq, hər vəchlə yardım göstərməyi xahiş etdi.

Amma heyhat! Tarixi proseslər heç də Azərbaycanın xeyrinə inkişaf etmirdi.

F № 1, siy. № 89, iş № 112

MOSKVA, ÜİK(b)P MK-ya

**Stalin yoldaşa**

May ayından etibarən Bakı və Kirovabad hərbi məktəblərində İran Azərbaycanından 375 zabit və kursant təhsil alır. İranda vəziyyətin dəyişməsi ilə əlaqədar bizdə, Naxçıvan rayonunda bu kontingentdən qabaqcadan iki dəstə hazırlamağı – biri qırıcı-tank əleyhinə, digəri isə artilleriya növünü zəruri sayırıq. Onlar qənimət kimi ələ keçirilmiş alman istehsalı olan tank əleyhinə silahlar, minomyotlar və toplarla silahlandırılacaqlar. Bu dəstələr, lazım gəldikdə, Sizin razılığınız əsasında, Azərbaycan demokratlarının sərancamına veriləcək.

Sizin göstərişinizi gözləyirik.

İ.İ.Maslennikov
M.C.Bağırov
2 dekabr 1946-cı il





F № 1, siy. № 89, iş № 112

ÜK(b)P MK-ya

**Stalin yoldaşa**

Təbrizdən alınmış informasiyanı Sizə təqdim edirəm.

Dekabrın 4-də İran qoşunları Zəncan rayonundan Miyana istiqamətində hərəkət etməyə başlayıb. Azərbaycan və İran qoşunlarının ön hissələri arasında bir neçə saat davam edən döyüş baş verib. İran qoşunları tanklardan, səhra topları və minomyotlardan istifadə edirlər. Döyüş nəticəsində gözətçi xidməti çəkən Azərbaycan partizan dəstələri Rəcəin kəndi və dəmiryol stansiyasını tərk edərək, yeni müdafiə mövqelərinə çəkiliblər.

Azərbaycanlıların Miyana qruplarının komandiri Daneşyan Pişəvərinin adına göndərdiyi teleqramda tank pulemyotları və ixtisaslı zabitlərlə yardım göstərməyi xahiş edib. Daneşyanın digər bir teleqramından görünür ki, İran qoşunları həmçinin Xalxala hücum etmək və Ərdəbili ələ keçirmək üçün Seron və Ərməğan Xətə kəndləri ətrafında cəmləşir.

Pişəvəri radio vasitəsilə əhalini İran qoşunlarının Azərbaycana hücumu barədə xəbərdar edib.

Təbrizdə hərbi vəziyyət elan olunub.

Azərbaycanın hər yerindən kəndlilər müdafiə olunmaq üçün silahlanmaq xahişi ilə Demokrat Partiyasının Mərkəzi Komitəsinə müraciət edirlər. Amma silah olmadığından rəhbərlik bu xahişləri yerinə yetirə bilmir.

Azərbaycan Demokrat Partiyasının rəhbərliyi bir daha onlara müraciət edərək, heç olmasa, minimal həcmdə yardım

göstərməyi: 16 top, 5 min tüfəng, 20 tank əleyhinə silah və müvafiq miqdarda mərmi və patron verməyi xahiş edir.

M.C.Bağırov
5 dekabr 1946-cı il

Moskva, ÜK(b)P MK-ya

**Stalin yoldaşa**

İran Azərbaycanındakı vəziyyətlə bağlı məni qəbul etməyinizi xahiş edirəm.

M.C.Bağırov
5 dekabr 1946-cı il

M.C.Bağırovla Stalinin görüşünün baş tutub-tutmadığı məlum deyil. Amma V.Molotovun rəhbərlik etdiyi məxfi qrup 10 dekabr 1946-cı il tarixində Azərbaycan Demokrat Partiyası bürosunun iclasında S.C.Pişəvərini vəzifəsindən azad edərək, partiyanın sədri postuna Məhəmməd Biriyanı təyin etdi.

V.Molotovun tərtib etdiyi mətn əsasında M.Biriya Azərbaycan Demokrat Partiyası adından müraciətlə çıxış edir. Müraciətdə deyilirdi: "Şah qoşunları Azərbaycana gəlir və İran Məclisinə seçkilərə nəzarət edəcək. Seçkilər keçirilməli və İran Məclisinə təqdim olunmalıdır".

Buradan görünürdü ki, artıq Kreml, milli hisslərinə görə, M. C.Bağırovu Cənubi Azərbaycandakı hadisələrə təsir göstərmək imkanından məhrum edir! M.Biriya Bakıya mühacirət etdikdən sonra M.C.Bağırovun qəzəbindən yaxa qurtara bilmədi. O, həbs olunaraq Sibirə göndərildi.





Dekabrın 20-də Cənubi Azərbaycanda şah rejimi bərpa olundu. On minlərlə ailə İranın cənubuna sürgün edildi. Sonrakı aylar Azərbaycan şəhərlərinin mərkəzi meydanlarında üsyançıların asıldığı dar ağacları quruldu.

Bakıya mühacirət etməyə məcbur olmuş S.C.Pişəvəri, S.Padeqan, T.İlhami, R.Qazi, eləcə də digər demokratlar M. C.Bağırovun ətrafına toplaşıb, ondan tədbir görməsini xahiş edirdilər. Bağırov onların yanında İ.Stalinə zəng vurmuşdu. O, Stalinə milli hərəkat xadimlərinə qarşı törədilən özbaşınalıq və zorakılıqlar barədə danışıb, Cənubi Azərbaycan hökumətinin fəaliyyətinin bərpasına kömək göstərməyi xahiş etmişdi. Buna isə Stalin belə cavab vermişdi: "Beş milyon azərbaycanlıya görə mən üçüncü dünya müharibəsinə başlaya bilmərəm".

Şahidlərin dediyinə görə, telefon söhbətindən sonra Bağırov hönkür-hönkür ağlamışdı. Ertəsi gün İ.Stalindən Azərbaycan demokratlarına ünvanlanmış teleqram gəldi. O, demokratları dözümlü, ciddi və möhkəm olmağı çağırırdı.

Cənubi Azərbaycandakı hərəkat iflasa uğrasa da, M.C.Bağırov çıxışlarında, kitablarında həmişə Cənubi Azərbaycan məsələsini qoyurdu. O, bu məsələdə hətta Stalinlə də razılaşmırdı.

1950-ci ildə M.C.Bağırovun "Azərbaycan ziyalılarının növbəti vəzifələri haqqında" kitabı çapdan çıxdı. O, kitabın 30-cu səhifəsində yazırdı: "Ümumdünya miqrasiya prosesində Azərbaycan tayfa və xalqların hərəkətinin mərkəzində olub. Azərbaycan dəfələrlə yadellilər tərəfindən təcavüzə və işğala məruz qalıb. Azərbaycanı zəbt edənlər qılınc gücünə onun xalqına öz dillərini qəbul etdiriblər. Buna baxmayaraq, Azərbaycan xalqı öz milli mədəniyyətini, incəsənətini və doğma dilində ədəbiyyatını yaradıb və inkişaf etdirib.

Amma İranda fəaliyyət göstərən irticaçı qüvvələr Cənubi Azərbaycanda milli dili məhv etmək siyasətini həyata keçirirlər. Azərbaycan dilində oxumaq və təhsil almaq qadağan olunub. Azərbaycan dilində yazılmış kitablar yandırılır, onların müəllifləri isə təqib olunur. Lakin, onlar öz çirkin məqsədlərinə nail olmayacaqlar. Azərbaycan dili özünü daim qoruyub saxlamaq hüququna malikdir. O yaşayır və yaşayacaqdır".





# IV HİSSƏ

## M. C. BAĞIROVUN ERMƏNİ ƏDƏBİ–SİYASİ ELİTASI İLƏ MÜBARİZƏSİ

1945-ci il noyabrın 28-də Moskvadan, Sovet İttifaqı Mərkəzi Komitəsinin katibi Malenkovdan M.C.Bağırovun adına məktub gəlir.

Ermənistan Kommunist Partiyası MK-nın birinci katibi Arutyunovun siyasi büroya müraciətindən sonra Malenkov Dağlıq Qarabağ bölgəsinin Ermənistana verilməsi barədə M.C. Bağırova müraciət edir. Bağırov ona yazılı surətdə cavab verir və cavabında Zaqafqaziyanın xəritəsini də məktuba əlavə edir. Xəritə üzərində qeydlər və yazılı şərhlər verilir. Həmin xəritədə 1921-ci ildə ermənilərə verilmiş Zəngəzur mahalı, Göyçə diyarı, Göyçə gölü, Gürcüstana verilmiş Borçalı, Dağıstandakı Qasımkənd və Dərbənd göstərilir və belə şərh verilir ki, biz beynəlmiləlçiliyin tərəfdarıyıq, amma ədalətli olsaq, bu torpaqlar Azərbaycan Respublikasına qaytarılmalıdır. Malenkov Stalinə Bağırovun cavabını çatdıranda, Stalin bu işdən vaz keçir və məsələyə oradaca nöqtə qoyulur.

F № 1, q. № 169, №249

Moskvadan 28. XI 1945-ci il

Azərbaycan K(b)P) MK-nın katibi yoldaş M.C.Bağırova

Ermənistan K(b)P MK-nın katibi yoldaş Arutyunov ÜK(b)P MK-da baxılması üçün hazırda Azərbaycan SSR-nin tərkibinə daxil olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə verilməsi ilə bağlı təklif irəli sürüb.

Bununla bağlı yoldaş Arutyunov öz məktubunda aşağıdakıları yazır:

"Ermənistan ərazisinin yaxınlığında yerləşən Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ildə Azərbaycan SSR-nin tərkibinə daxil edilmişdir. Bu vilayətin əhalisinin böyük əksəriyyəti ermənilərdir. 153 minlik əhalinin 137 mini Ermənistanın oxşar dağlıq hissəsinin sakinləridir. Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi onun inkişafına təkan verər və həm də təsərrüfata rəhbərliyi xeyli yaxşılaşdırar. Vilayətə Ermənistanın müvafiq orqanları tərəfindən rəhbərlik edilməsi ilə əhaliyə mədəni-kütləvi və siyasi xidmətin doğma dillərində göstərilməsi daha da gücləndirilə bilər.

Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistanın tərkibinə daxil edilməsi həm dəyerli sakinlərə təhsillərini Ermənistanın ali təhsil müəssisələrində doğma dildə davam etdirmək imkanı qazandırardı. Digər tərəfdən, Ermənistan SSR Dağlıq Qarabağ Muxtar Vilayətindən yeni kadrlar əldə edə bilər.

Bütün bunları və Dağlıq Qarabağ əhalisinin istəyini nəzərə alaraq, Ermənistan Mərkəzi Komitəsi və Xalq Komissarları Soveti ÜK(b)P və İttifaq hökuməti qarşısında Azərbaycan SSR-nin tərkibindəki Dağlıq Qarabağ Muxtar Vilayətinin Qarabağ vilayəti statusunda Ermənistan SSR-nin tərkibinə daxil edilməsi ilə bağlı məsələ qaldırır.

Bu məsələ özünün müsbət həllini taparsa, Ermənistan K(b)P MK və XKS mərkəzi hökumətə Qarabağın keçmiş mərkəzi, burada sovet hakimiyyətinin qurulması ərəfəsində dağıdılmış Şuşa şəhərinin yenidən bərpa edilməsi təklifi ilə müraciət edəcək".

Ermənistan K(b)P MK-nın təklifi ilə bağlı öz fikrinizi bildirin.

ÜK(b)P MK-nın katibi Malenkov.

Surəti
ÜK(b)P MK-ya

**Yoldaş Malenkova**

Sizin Ermənistan K(b)P MK-nın katibi yoldaş Arutyunovun Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə daxil edilməsi barədə təklifi ilə bağlı teleqramınıza cavab olaraq məlumat verirəm:

Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi qədim dövrlərdən Qarabağ xanlığının tərkibində olub. 1747-ci ildən etibarən Xanlığın mərkəzi Pənah Xan Qarabağlı tərəfindən qala kimi inşa edilmiş Pənahabad şəhəri olmuşdur.

1826-cı ildə Qarabağ Çar Rusiyasına birləşdirilmişdir. Sonralar indiki Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Karyagin və Qubadlı qəzalarının tərkibinə daxil edilmişdir.

Azərbaycanda müsavatçılar, Ermənistanda daşnaklar hakimiyyətdə olduqları dövrdə - 1918-1920-ci illərdə müsavat hökuməti tərəfindən bütün Qarabağın ərazisində mərkəzi Şuşa (keçmiş Pənahabad) şəhəri olmaqla Qarabağ general-qubernatorluğu təşkil edilmişdir.

Müsavatçılar və daşnaklar tərəfindən təşkil olunan millətlərarası qırğınların nəticəsində Azərbaycanın və Ermənistanın digər şəhərləri kimi, Şuşa da dağıdılaraq xarabalığa çevrilmişdir.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra ilk vaxtlar bütün Qarabağın siyasi-iqtisadi, təsərrüfat həyatına rəhbərlik Vilayət İnqilab Komitəsi tərəfindən həyata keçirilmişdir.

1923-cü ildə erməni əhalisinin üstünlük təşkil elədiyi Qarabağın dağlıq hissəsinin Ermənistan SSR-yə birləşdirilməsi barədə məsələ qaldırılıdı. Amma bu ərazinin Ermənistan SSRilə ümumi sərhədinin olmaması və istisnasız olaraq azərbaycanlıların məskunlaşdığı Qubadlı, Laçın, Kəlbəcər və Zəngilan rayonları ilə ayrıldığı nəzərə alınaraq, partiya orqanlarının göstərişləri, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul tarixli dekreti əsasında mərkəzi Xankəndi (indiki Stepanakert şəhəri) olmaqla Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır.

Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazi cəhətdən heç vaxt Ermənistan SSR ilə həmsərhəd olmayıb və indi də deyil.

Azərbaycanda sovet hakimiyyəti illərində Dağlıq Qarabağda vilayətin siyasi-təsərrüfat və mədəni inkişafı üçün nəhəng işlər görülmüşdür. Bunun parlaq nümunəsi kimi hazırda DQMV-nin mərkəzini – Stepanakert şəhərini göstərmək olar. Baxımsız və dağıdılmış həmin kənd hazırda Azərbaycanın ən gözəl, abad və mədəni şəhərlərindən birinə çevrilmişdir.





Azərbaycan SSR-nin bütün ali təhsil ocaqlarında və texnikumlarında oxuyan tələbələrin 20,5 faizini ermənilər təşkil edir. Onların da əksəriyyəti məhz Dağlıq Qarabağ Muxtar Vilayətindəndir.

Dağlıq Qarabağdan olan bir çox yoldaşlar respublikanın partiya, sovet, təsərrüfat rəhbərlərinin arasında yer alır: onlar Azərbaycan K(b)P) MK və BK katiblərinin müavinləri, xalq komissarları, xalq komissarlarının müavinləri və digər vəzifələrdə çalışırlar.

Bütün bunlara baxmayaraq, biz Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə daxil edilməsinə qarşı çıxmırıq, amma Şuşa rayonunun Ermənistan SSR-ə verilməsi ilə razı deyilik. Bu rayon Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olsa da, sakinləri əsasən azərbaycanlılardan ibarətdir.

Şuşa şəhəri inşa edildiyi andan Qarabağın təkcə siyasi-inzibati və mədəni mərkəzi olmayıb, həm də Azərbaycan xalqının fars işğalçılarına qarşı mübarizədə, öz müstəqilliyi uğrunda savaşlarda müstəsna rol oynamışdır. Dünyanın ən qaniçən fatehlərindən biri, Zaqafqaziya xalqlarının cəlladı Ağa Məhəmməd Şah Qacar azərbaycanlılar tərəfindən məhz Şuşada öldürülmüşdür.

Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti bu şəhərdə formalaşıb, İbrahim Xan, Vaqif, Natəvan kimi tanınmış siyasət və mədəniyyət xadimlərinin adları Şuşa ilə birbaşa bağlıdır.

Eyni zamanda ÜK(b)P MK-nın diqqətinə onu da çatdırmağı vacib sayırıq ki,  Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə baxılarkən, həm də Ermənistanda azərbaycanlı əhalinin üstünlük təşkil etdiyi və Azərbaycanla həmsərhəd olan Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-nin tərkibinə verilməsi məsələsinə də baxılmalıdır.

Həmin rayonların mədəni və iqtisadi cəhətdən olduqca geri qaldığını nəzərə alsaq, onların Azərbaycana verilməsi buradakı əhalinin maddi-məişət şəraitinin və onlara göstərilən siyasi-mədəni xidmətin yaxşılaşdırılması üçün imkanlar yaradardı.

Yuxarıda deyilənlərdən başqa, ÜK(b)P MK-dan aşağıdakı məsələlərə də baxılmasını xahiş edirik:

Gürcüstandan olan yoldaşlar Azərbaycan SSR-nin Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-nin tərkibinə daxil edilməsi məsələsini qaldırır.

Adları çəkilən rayonlarda yaşayan 79 minlik əhalinin cəmi 9 mini gürcü-inqiloylar olsa da, biz bu məsələyə baxılmasına etiraz etmirik. Amma eyni zamanda Gürcüstan SSR-nin, demək olar ki, azərbaycanlılardan ibarət və Azərbaycanla həmsərhəd olan Borçalı rayonunun Azərbaycan SSR-ə verilməsi məsələsinə də baxılsın.

Və nəhayət, biz həm də keçmişdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan və Bakı qəzasına daxil olan, hazırda Azərbaycanla həmsərhəd Dağıstan SSR-nin Dərbənd və Qasımkənd rayonlarının Azərbaycan SSR-nin tərkibinə verilməsi məsələsinə də baxılmasını xahiş edirik. Bu rayonların əhalisi əsasən azərbaycanlılardan ibarətdir və onlar ilin əksər hissəsini Azərbaycan ərazisində keçirirlər.

Qaldırılan bütün məsələlər üzrə təkliflərin hazırlanması üçün tərkibinə hər respublikadan nümayəndələr daxil edilməklə ÜK(b)P MK-nın xüsusi komissiyasının yaradılmasını məqsədəuyğun hesab edərdik.





Azərbaycan K(b)P
MK-nın katibi M.C.Bağırov
10 dekabr 1945-ci il
№ 330, Bakı ş.

Çeçen, qaraçay, inquş, axısqa türkləri, Krım tatarları, çərkəzlər və digər müsəlman xalqları Qazaxıstana, Sibirin çöllərinə sürgün olunurlar. Hər bir detala şübhə ilə yanaşan Stalini inandırmaq üçün böyük intriqa ustası Mikoyan öz planını cızmışdı. Müharibə illərində çeçenlərin dini rəhbərinin Almaniya generalı Paulsa Qroznının açarlarını təqdim etməsi hallandırılır və Krım tatarlarının, qaraçay, axısqa türklərinin, Ermənistanda yaşayan azərbaycanlıların Türkiyə sərhədinə yaxın məskunlaşmaları SSRİ-nin hərbi təhlükəsizliyinə təhdid sayılır və bu türkdilli xalqların müəyyən bir münaqişə zamanı Türkiyənin tərəfinə keçəcəyindən ehtiyat edilirdi. Ona görə ki, o zaman SSRİ Türkiyəyə ərazi iddiaları irəli sürüb, Rizə, Trabzon, Qars və Ərdahanı tələb edirdi. Artıq SSRİ qoşunları Türkiyəni ilhaq etməyə hazır durmuşdu.

Axı, bir faktı nəzərdən qaçırmaq olmaz ki, SSRİ Türkiyəyə qarşı əks mövqedə dayanmışdı. O illərdə Türkiyə SSRİ-nin dünyada rəqibi olan Amerika ilə yaxın münasibətlər qurmuşdu. Sonralar Türkiyə rəhbərliyi olduqca müdrik bir addım ataraq, Türkiyəni NATO-ya qoşdu. Stalin Amerikanın türklərin vasitəsilə Qafqazda yaşayan türkdilli xalqları da milli-azadlıq hərəkatı adı altında bu proseslərə qoşa biləcəyindənəndişələndi. Bu fakt Stalini çox narahat edirdi. Mikoyan da öz erməni xisləti ilə Stalinin bu narahatlığından məharətlə istifadə etdi.

Bu dırnaqarası məharətin nəticəsində SSRİ Xalq Daxili İşlər Komissarlığının Xüsusi Köçürülənlər Şöbəsinin 1946-cı ilin oktyabrına hazırladığı ümumi arayışda göstərilirdi: "Xüsusi köçürülənlər düşərgəsində ümumilikdə 2.463.940 nəfər vardır. Onlardan 655.674-ü kişi, 829.084-ü qadın, 979.182-i 16 yaşına qədər olanlardır. Köçürülənlərin əksəriyyəti aşağıdakı qaydada yerləşmişlər: Qazaxıstan SSR-də 890.698 nəfər; Özbəkistan SSR-də 179.992 nəfər; Kemerovo vilayətində 115.436; Sverdlovsk vilayətində 113.476; Krasnoyarsk vilayətində 112.316; Altay vilayətində 35.381; Novosibirsk vilayətində 92.968; Tomsk vilayətində 83.276; Tümendə 566.111; Çelyabinskdə 51.865; Omsk vilayətində 44.767 ("Московские новости" qəzeti, Moskva, 1990, № 41).

Bu qaydada zorla köçürmələr, sürgünlər, demək olar ki, SSRİ-də yaşayan bütün xalqları əhatə edirdi. Aşağıdakı rəqəmlərdə bu dəhşətli faciənin miqyası görünməkdədir: 1) Çeçen və inquşlar – 400.478 nəfər (97441 kişi, 110818 qadın, 1.919-u 19 yaşına qədər olanlar); 2) Qaraçaylar – 60139 nəfər (10595 kişi, 16860 qadın, 32557-i 16 yaşına qədər olanlar); 3) Balkarlar – 32817 nəfər (6147 kişi, 10284 qadın, 16386-ı 16 yaşına qədər olanlar); 4) Kalmıklar – 81673 nəfər (199506 kişi, 24143 qadın, 32997-i 16 yaşına qədər olanlar); 5) Krım tatarları, balkarlar, yunanlar – 193959 nəfər (43135 kişi, 68343 qadın, 82481-i 16 yaşına qədər olanlar); 6) Almanlar – 774178 nəfər (122336 kişi, 296014 qadın, 355828-i 16 yaşına qədər olanlar); 7) Türklər, kürdlər – 84402 nəfər (16353 kişi, 23277 qadın, 44772-i 16 yaşına qədər olanlar).

1947-ci ildə yenidən Kremldə Sov.İKP MK Rəyasət Heyətinin iclasında azərbaycanlıların departasiyası məsələsi gün-





dəmə gəlir. Yenə də L.P.Beriya siyasi büronun qərarını bir neçə gün sonraya saxlatdırır.

İclasdan sonra Bağırova zəng vuraraq, dərhal Kremlə gəlməyini məsləhət görür. O illərdə Azərbaycan Respublikası Nazirlər Sovetinin sədri işləmiş Teymur Quliyev öz xatirələrində qeyd edirdi:

- Mən Mir Cəfər Bağırovdan məzuniyyətə buraxılmağımı xahiş etdim. O, mənim məzuniyyətə getməyimə icazə verdi. Bir neçə gündən sonra mənə M.C.Bağırovdan teleqram gəldi və o, məndən təcili Bakıya, Mərkəzi Komitəyə gəlməyi xahiş edirdi. Mən Bakıya qayıdıb M.C.Bağırovun qəbuluna getdim. Kabinetə girdikdə Bağırovu çox narahat halda otaqda var-gəl edən gördüm. O, mənə L.P.Beriyanın zəngi barədə məlumat verdi və Stalinin ondan azərbaycanlıların yurd-yuvalarından departasiyasına müsbət cavab verməK istədiyini bildirdi.

Bağırov bir müddət susduqdan sonra qarşısındakı masanın siyirməsini çəkərək, şəxsi tapançasını götürdü və dedi:

- Mən Moskvaya, Kremlə Stalinlə görüşə gedirəm. Beriya kömək edəcəyinə boyun olub. Əgər Stalini razı sala bilməsəm,
- deyərək, bir müddət susdu...

Bağırov Stalinlə təkbətək görüşür və həmin görüşdə nə danışıldığı bizə məlum deyil, ancaq nəticəsi xalqımız üçün əhəmiyyətli olur. Yəni, azərbaycanlılar öz doğma torpaqlarından sürgün olunmur. Lakin Stalin Bağırovun bu hikkəli davranışını həzm edə bilməzdi. Ona görə də o, Bağırovu "məcburi məzuniyyətə" göndərir. Düz dörd ay Bağırov işsiz qalır. Məhz bu dövrdə Ermənistanın Türkiyə ilə sərhədində məskunlaşan azərbaycanlıların öz doğma yurdlarından deportasiyasına start verilir. Burada bir məsələni də qeyd etmək lazımdır ki, Ermənistandan deporta-

siya kütləvi şəkildə deyil, 1948-1950-cü illərdə, əsasən, Türkiyə ilə sərhəd kəndlərdən çıxarılırdı. Bu o deməkdir ki, azərbaycanlıların bir qismi Şərqi Ermənistanda qalırdı. Bu köçürmənin digər səbəbi dünyadan axışıb gələn erməni reportiantları azərbaycanlıların çıxarıldığı ərazilərdə yerləşdirilməsi idi. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 nömrəli qərar qəbul etdi:

1. 1948-1950-ci illərdə Ermənistan SSR-dən 100 min kolxozçu və başqa azərbaycanlı əhali könüllülük əsasında, Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülsün. Onlardan: 10 min nəfər 1948-ci ildə, 40 min nəfər – 1949-cu ildə və 50 min nəfər – 1950-ci ildə.

2. Azərbaycan SSR və Ermənistan Nazirlər sovetlərinə tapşırılsın:

a) kolxozçular və digər azərbaycanlı əhali arasında Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülənlərə dövlətin yaratdığı şəraitin və verdiyi güzəştlər barədə izahetmə işləri təşkil edilsin;

b) kolxozların köçkün kolxozçulara, onların yola düşməsinə 10 gün qalmışdan gec olmayaraq, qazandıqları əmək günlərinin kolxozların istehsalat planları ilə nəzərdə tutulmuş ölçülərdə haqq-hesab təmin edilsin;

v) köçkünlərin şəxsi istifadəsində olan bütün əmlakın, mal-qaranın və quşların daşınması təmin edilsin;

3. Nazirliklərin və baş idarələrin, idarə və müəssisələrin rəhbərlərinə bir vəzifə olaraq tapşırılsın ki, Ermənistan SSR-dən





Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçən şəxsləri işdən azad etsinlər.

4. Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürüləcək azərbaycanlı əhali üçün aşağıdakı güzəştlər təyin edilsin:

a) köçürülən hər ailəyə iki ton ev əşyasını və kənd təsərrüfatı heyvanlarını aparması üçün dövlət hesabına pulsuz gediş təmin edilsin;

b) Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürüləcək kolxozçulara, məcburi süd tədarükü üzrə güzəşt istisna olmaqla, "Kənd təsərrüfatında köçürmə işləri üzrə güzəştlər haqqında" SSRİ Mərkəzi İcraiyyə Komitəsinin və SSRİ Xalq Komissarları Şurasının 1947-ci il 17 noyabr tarixli 1152043 nömrəli Qərarı şamil edilsin;

v) köçmə zamanı köçkünlərin ailələrinə qaytarılmaq şərti ilə ailə başçısına 1000 manat və ailənin hər bir üzvünə 300 manat məbləğində müavinət verilsin;

q) Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülmüş ailələrə məskunlaşdığı yerlərdə ailə başçısına 1,5 sentner nağd hesabla ərzaq-taxıl satılsın.

5. Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhaliyə məskunlaşacağı yerlərdə mübadilə qəbzləri əsasında həmin miqdarda məhsul və mal-qara almaq hüququnun saxlaması ilə, tərk etdikləri yerlərdə tədarük təşkilatlarına kənd təsərrüfatı məhsullarını (taxıl, kartof), habelə karantin şərtlərinə görə daşınması qadağan edilmiş mal-qaranı təhvil verməsinə icazə verilsin.

6. Kənd təsərrüfatı bankına tapşırılsın:

a) Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülənlərdən ehtiyacı olanlara hər təsərrüfata ev tikmək və həyətyanı tikinti

üçün 20 min manat məbləğində, kredit ayrılandan üç il sonra başlayaraq, 10 il müddətində ödəməklə kredit verilsin;

b) Ehtiyacı olan köçkünlərə - hər ailəyə, ssuda ayrılandan sonra, üçüncü ilindən başlayaraq, 5 il müddətində ödəməklə, mal-qara almaq üçün 3 min manat məbləğində uzunmüddətli ssuda verilsin.

7. Dəmir Yolları Nazirliyinə bir vəzifə olaraq tapşırılsın:

a) Ermənistan SSR Nazirlər Sovetinin sifarişləri əsasında azərbaycanlı əhalinin, onların əmlakının və mal-qarasının Azərbaycan SSR-ə daşınması xüsusi düzəldilmiş eşelonlarla, dezinfeksiya edilmiş və avadanlıqla təchiz olunmuş vaqonlarla təmin edilsin;

b) Köçkünlərin köçdükləri yerlərdə vaqona görə ödəniş tutulmadan Dəmir Yolu Nazirliyinin, Azərbaycan SSR Nazirlər Sovetinin və Ermənistan SSR Nazirlər Sovetinin təsdiq etdikləri qrafik üzrə Yollar İdarəsi vaqonların göndərilməsini həyata keçirsin. Azərbaycanlı əhalinin daşınmasına görə maliyyə vəsaiti Dəmir Yol İdarəsi tərəfindən təqdim edilmiş hesabdan mərkəzləşdirilmiş qaydada ödənilsin.

8. SSRİ Səhiyyə Nazirliyinə tapşırılsın ki, çıxış yerlərində bütün köçkünlərin tibbi müayinədən keçirilməsini və onlara yolboyu tibbi-sanitar xidmətin göstərilməsini təmin etsin.

Eşelonları müşayiət etmək üçün tibb işçiləri və zəruri dava-dərman ayrılsın.

9. SSRİ Maliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan SSR-nin 1948-ci il büdcəsində Ermənistan SSR-dən azərbaycanlı əhalinin Azərbaycan SSR-ə köçürülməsini təmin etmək üçün lazımi xərcləri nəzərdə tutsun.

10. Ermənistan SSR-nin Nazirlər Sovetinə və Azərbaycan





SSR-nin Nazirlər Sovetinə tapşırılsın ki, Ermənistan SSR-dən köçürülən əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına daşınmasını və orada yerləşdirilməsini təmin etmək üçün bu qərarın icrası ilə əlaqədar olaraq bir ay müddətində birgə konkret tədbirlər planı işləyib hazırlasın və bu barədə SSRİ Nazirlər Sovetinə məlumat versinlər.

11. Ermənistan SSR-nin Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistan SSR-ə gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər.

**İ.STALİN**
**Y.ÇADAYEV**
SSRİ Nazirlər Sovetinin İşlər İdarəsinin müdiri

Bütün bu proseslərə start verməklə Stalin sanki M.C.Bağırova başa salmaq istəyir ki, burada söz sahibi mənəm və lazım gələrsə, səni də tapdalayıb keçərəm.

Lakin Stalin M.C.Bağırova hörmət və qiymət verdiyindən ona toxunmur və onu dörd aydan sonra yenidən Azərbaycan rəhbərliyinə geri qaytarır. Sözsüz ki, bu qayıdışda L.P.Beriyanın rolu əhəmiyyətli dərəcədə böyük olur.

Naxçıvanı ələ keçirməyə iştahlanmış ermənilərin növbəti iddialarına imkan verməmək üçün M.C.Bağırov Naxçıvan MSSR-nin 25-illik yubileyini keçirmək üçün strateji-siyasi addım ataraq, İ.V.Stalinə müraciət edir.

F.1, q. 221, c.. 42 1949-cu il

ÜK(b)P MK-ya

**Yoldaş İ.V.Stalinə**

ÜK(b)P MK-nın qərarına uyğun olaraq, 1949-cu il mayın 28-də Naxçıvan MSSR-nin yaradılmasının 25 illiyi qeyd ediləcək. Bununla bağlı Naxçıvan MSSR-nin kənd təsərrüfatı, sənaye, elm, mədəniyyət və incəsənət işçilərinin siyahısını diqqətinizə çatdırır və Sizdən onların SSRİ-nin orden və medalları ilə təltif edilməsi ilə bağlı göstəriş verməniz xahiş edirəm.

Azərbaycan K(b)P) MK-nın katibi **M.C.Bağırov**

*«25» aprel 1949-cu il.*

ÜK(b)P MK-ya

**Yoldaş İ.V.Stalinə**

ÜK(b)P MK-nın1949-cu il 19 mart tarixli qərarı ilə cari il mayın 28-də Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılmasının 25 illiyinin qeyd edilməsi nəzərdə tutulur.

Sovet hakimiyyəti illərində partiyanın və hökumətin qayğısı sayəsində Naxçıvan MSSR-nın zəhmətkeşləri sənayenin, xalq təsərrüfatının və mədəniyyətin inkişafında böyük uğurlara nail olublar.





Respublikada sənayenin bir sıra yeni sahələri yaradılıb, pambıqçılıq, bağçılıq, üzümçülük, tütünçülük və heyvandarlıq uğurla inkişaf etdirilir.

İbtidai və orta məktəblərin, texnikumların, institutların, mədəni-maarif müəssisələrinin geniş şəbəkəsi mövcuddur. Burada Azərbaycan SSR Elmlər Akademiyasının bazası yaradılmışdır.

Böyük vətən müharibəsi günlərində Naxçıvan MSSR-nin fəhlələri, kolxozçuları və ziyalıları əzmkarcasına çalışmış, cəbhənin və arxanın kənd təsərrüfatı və sənaye məhsulları ilə təmin olunması işinə öz töhfələrini vermişlər.

Müharibədən sonrakı illərdə muxtar respublikanın zəhmətkeşləri Stalin beşillik planını yerinə yetirməkdən ötrü uğurla mübarizə aparırlar və 1948-ci ildə kənd təsərrüfatı işlərində və dövlət sifarişləri üzrə plana artıqlaması ilə əməl etmişlər.

25 il ərzində Naxçıvan MSSR-də çoxlu sayda partiya, sovet kadrları, təsərrüfat işçiləri və ziyalılar yetişmiş, onlar respublika qarşısında qoyulan vəzifələrin öhdəsindən uğurla gəlirlər.

Naxçıvan MSSR-nin qabaqcıl insanlarının siyahısını Sizə təqdim etməklə, onların SSR İttifaqının orden və medalları ilə təltif edilmələrinə dair göstəriş verməyinizi xahiş edirik.

Azərbaycan K(b)P) MK-nın
katibi M.C.Bağırov

<u>SSRİ Ali Soveti Rəyasət Heyətinin</u>

**<u>F Ə R M A N I</u>**

"Naxçıvan MSSR-nin kənd təsərrüfatı, sənaye, elm, mədəniyyət və incəsənət işçilərinin orden və medallarla təltif edilməsi barədə".

Kənd təsərrüfatının, sənayenin, elmin, mədəniyyətin və incəsənətin inkişafında qazandıqları uğurlara görə TƏLTİF EDİLSİN:

<u>"Lenin" Ordeni</u>

36 nəfər (nazir, p/t katibi, raykom katibi, kənd sovet sədri, RİK-sədrləri).

<u>"Şərəf nişanı" Ordeni</u>

Təklif olunur: 42 nəfər (hər vəzifədən müxtəlif peşə sahibləri)

<u>"Əməkdə fədakarlığa görə" medalı</u> - 42 nəfər.

<u>"Əməkdə fərqlənməyə görə" medalı</u> - 30 nəfər.

Müharibədən sonra ümumittifaq səviyyəsində ən çox kapital qoyulan respublikalar Rusiya, Ukrayna, Azərbaycan idi. Azərbaycanda ən iri kapital qoyulmuş müəssisələrdən biri də Mingəçevir Su Elektrik Stansiyasıdır. Bu elektrik stansiyasının strateji dəyəri indi də əvəzsizdir. Zaqafqaziya regionunu elektrik enerjisi ilə təchiz etmək və Kür-Araz ovalığında əkin sahələrini genişləndirilmək, ağ qızıl sayılan pambıqçılığı inkişaf etdirmək üçün şərait yaranırdı. Lakin, bu təsərrüfat işi ilə məşğul olacaq işçi qüvvəsinin azlığı özünü büruzə verirdi. Moskvadan o vaxtlar bu elektrik stansiyasına və Dəryaçay tikintisinə böyük miqdarda pul ayrılmışdı. İndiki pulla müqayisə etsək, bu, təxminən iki milyard dollara yaxın vəsait deməkdir. Ermənistandan azərbaycanlıların köçürülməsi məqamında Bağırov camaatın Sibir şaxtalarında, Qazaxıstan səhralarında tələf olmasının qarşısını almaq üçün köçürülən ailələrin müəyyən bir hissəsinin Kür–Araz ovalığında yerləşdirilməsinə nail oldu. M.C.Bağırovun Stalinə müraciətindən sonra deportasiyaya məruz qalmış insanların əksəriyyəti Kür-Araz ovalığında yerləşdirilir.





M.C.Bağırovun Azərbaycan rəhbəri kimi əsas fəaliyyətlərindən biri erməni siyasi-ədəbi klanı ilə mübarizəsi olub. Bunu onun Anastas Mikoyana ünvanladığı məktubunda açıq-aşkar görmək olur.

<u>Ф.1, оп. 221, д.42, л.95 – 98</u>

**Əziz Anastas!**

Çox şadam ki, mənim Azərbaycan K(b)P-nın sonuncu XVII qurultayındakı hesabat məruzəmi və yekun nitqimi oxumusan.

Amma heyrətə gəlirəm ki, nəzərdən keçirilən əksinqilabçı təşkilatlardan müsavatçıların, ittihadçıların, daşnakların ayrı-ayrı elementləri, eləcə də Sovet Azərbaycanında yaşayan,

uzun müddət maskalanmış və gizlənmiş, Türkiyənin, İranın və başqa xarici kəşfiyyatların agentləri arasında son vaxtlar müəyyən canlanma hiss olunmaqdadır.

Müharibədən sonra biz azərbaycanlı millətçilərin, türkofobların və daşnakların arasından sovet hakimiyyətinin xeyli sayda barışmaz düşmənlərini üzə çıxarmış və ifşa etmişik. Amma Sovet Azərbaycanının hüdudlarından kənarda olan düşmənlərimizə qarşı özümüz mübarizə apara bilmədiyimizə görə, bu barədə qurultayda danışmağa, həm də kömək üçün yoldaş Stalinə müraciət etməyə məcburam.

Xaricdəki daşnakların antisovet fəaliyyətlərinin mərkəzində onların Sovet Ermənistanının ərazisini, ilk növbədə, Sovet Azərbaycanının və Sovet Gürcüstanının hesabına genişləndirmək "tələbləri" dayanır.

Onların bu "tələblərinin" illüstrasiyası kimi sənə aşağıdakı sənədləri göndərirəm: daşnakların 1947-ci il iyun tarixli on dördüncü Konqresində Daşnaksütun Partiyasının siyasi platforması barədə direktivi; "Bizim siyasi vəziyyətimiz və qarşıda duran vəzifələr" (1948-ci il fevralın 18-19-da Tehran şəhərində nəşr olunan ermənilərin "Alik" qəzetində çıxmış məqalənin tərcüməsi); "Mühacirət və biz" (1948-ci il aprelin 14-də "Alik" qəzetində çıxmış məqalənin tərcüməsi); "Naxçıvanın və Ermənistanın əhəmiyyəti" (1949-cu il yanvarın 25-26-da "Alik" qəzetinin 190-191-ci saylarında çıxmış təxribatçı məqalənin tərcüməsi); Daşnak təşkilatının lideri Vapyanın "Alik" qəzetinin 1949-cu il 25-27 yanvar nömrələrində çap olunmuş məqaləsi barədə arayış.

Aydındır ki, daşnakların yersiz iddiaları onların öz "tələbləri" olmayıb, hazırda əsl sahiblərinin – amerikalıların "tələbləridir". Sahibləri daşnakları məcbur edirlər ki, öz konqreslərinin qərarları, "tələbləri" barədə qəzetlərə yazsınlar, eyni zamanda da əməli iş görmək üçün repatriant qismində özlərinin xüsusi agentlərini göndərsinlər.





Əlavə edilmiş növbəti sənəddən görəcəksən ki, amerikalılar hələ daşnak və müsavat "hökumətlərinin" mövcud olduğu 1919-cu ildə Şərur-Dərələyəz və Naxçıvanda amerikalı general-qubernatorun başçılığı altında Amerikan general-qubernatorluğu yaratmaq istəyiblər. İndi isə onlar istənilən yolla Zaqafqaziyaya soxulmağa çalışırlar.

Bunun kifayət qədər tutarlı təsdiqi Amerikadan gəlmiş və Azərbaycan SSR Dövlət Təhlükəsizlik Nazirliyi tərəfindən həbs edilmiş repatriant, Avetik İsaakyanın yaxın tanışı və dostu Suvaryan barədə təqdim olunan arayışdır.

Bütün bu məsələlərlə yanaşı Sovet Azərbaycanı amerikalıları başqa tərəfdən də maraqlandırır. Yəni, Sovet Azərbaycanının İran Azərbaycanına güclü təsiri amerikalıları ciddi narahat edir. Bu səbəbdən İranın sonuncu zəhmətkeşinin timsalında özünün real dayağını görür.

Bu məsələ ilə bağlı diqqətinizə təqdim olunan, 1949-cu il fevralın 3-də "Mardom" (İran Xalq Partiyasının mərkəzi orqanı) qəzetində dərc olunmuş "Azərbaycan – xalqımızın mübarizəsinin ön barrikadasıdır" məqaləsi səciyyəvi sayıla bilər.

Sənə məlum olduğu kimi, fevralın 4-də İran Xalq Partiyasının, onun mətbu orqanlarının, o cümlədən, "Mardom" qəzetinin dağıdılması prosesi başlandı.

Amerikalıların və onların nökərlərinin – daşnakların, müsavatçıların, xaricdəki digər ağqvardiyaçıların elədiklərini başa düşmək olar, amma çox qəribədir ki, son illər bizim

Sovet İttifaqında şübhəli müəlliflərin elə oçerkləri, romanları və məqalələri işıq üzü görür ki, həmin əsərlər mahiyyət etibarı ilə bu və ya digər dərəcədə daşnakların istəkləri ilə səsləşir. Bu əsərlərdə Sovet Azərbaycanına, Azərbaycan xalqına böhtanlar atılır.

Faktlar çoxdur, amma mən sənə yalnız ikisini göndərirəm. M.Şaginyanın "Sovet Zaqafqaziyası" kitabını və Q.Xolopovun "Buxtadakı işıqlar" romanı haqqında həqiqətləri.

Yuxarıda deyilənlərə onu da əlavə etmək lazımdır ki, Stepan Şaumyanın oğullarının son davranışları tamamilə yolverilməzdir. Levon Şaumyanın "Literaturnaya qazeta"da və "Oqonyok" jurnalındakı çıxışları kifayət qədər şübhəlidir. Hələ biz onun Məşədi Əzizbəyovun ünvanına söylədiyi şəxsi fikirlərini demirik. Azərbaycan K(b)P MK-nın xəbəri olmadan Bakıya təşrif buyuran Sergey Şaumyan isə hansısa Avakyanla görüşüb və onunla atasından kitab yazması ilə bağlı danışıqlar aparıb. Həmin Avakyanın kimliyi barədə təsəvvürün olsun deyə, onun haqqında qısa arayışı göndərirəm.

Bilirəm, işin çoxdur, amma imkan tapıb göndərdiyim bütün sənədlərə baxmağın yaxşı olardı.

Salamlarla**,** M.C.Bağırov.
25 mart 1949-cu il.

Bu məktuba qədər isə M.C.Bağırov 1949-cu ilin yanvarında keçirilən Azərbaycan Kommunist Partiyasının 17-ci qurultaydakı geniş çıxışında Şaumyanın böyük oğlunu çox ciddi tənqid edərək deyirdi: Stepan Şaumyanın oğlu Levonun heç kimin yanında hörməti olmadığını burdakıların çoxu bilir. Çünki o, məişət məsələlərində, şəxsi məsələlərdə, ailə məsələlərində





qeyri-ciddi adamdır. Köhnə çekistlər onun birinci arvadını tanıyırlar. Burda bir Babayan var idi, evi erməni kilsəsinin yanındaydı. Biz 26 Bakı komissarının cəsədlərini bura gətirəndən bir neçə gün sonra bu adam neyləsə yaxşıdır? Gəldi həmin bu varlı daşnakın qızı ilə evləndi.

Keçən il Levon 26-ların güllələnməsinin 30 illiyi ilə əlaqədar "provakasiyalı", təhqiramiz yazı yazıb. Əzizbəyovun familiyasının üstündən xətt çəkib. "Literaturnaya qazeta"da yazı dərc etdirib, orda Əzizbəyovun adı yoxdur. Özü də bunu o vaxt edib ki, yoldaş Stalin bütün çıxışlarında Əzizbəyovun adını birinci çəkir, çünki söhbət Bakı komissarlarından, Azərbaycandan gedir".

M.C.Bağırov daha sonra deyir:

"Levon Şaumyan və Sergey Şaumyanın istəyindən asılı olmayaraq, onların bundan sonra keçmiş hadisələr barədə yazmağa haqqı yoxdur!".

Bu gün çox az adam bilir ki, parlaq orta əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan dahi Azərbaycan şairi N.Gəncəvinin yubiley tədbirləri ilk dəfə ötən əsrin 40-cı illərində, o dövrdə sovet Azərbaycanının rəhbəri olmuş Mircəfər Bağırovun təşəbbüsü ilə həyata keçirilməyə başlanmışdı. Həmin dövrdə istər Sovet İttifaqında, istərsə də dünyada N.Gəncəvi fars şairi kimi tədqiq və təbliğ olunurdu. Doğrudur, 1903-cü ildə görkəmli ədəbiyyatşünasımız Firidun bəy Köçərli "Azərbaycan tatarlarının ədəbiyyatı" əsərində Nizamini tatar-türk şairi kimi göstərmiş və onun farsca yazıb-yaratmasını orta əsrlərdə bu çoğrafiyada ədəbiyyat dilinin fars dili olması ilə bağlamışdı. Firidun bəyin arqumenti bununla da bitirdi. Yəni, F.Köçərlinin bu fikri heç də Nizami Gəncəvinin

Azərbaycan-Türk şairi olmasını əsaslı şəkildə sübuta yetirmirdi. Ona görə də 1933-cü ilə qədər (M.C.Bağırov siyasi hakimiyyətə gələnədək) həm Azərbaycanda, həm də SSRİ-də Nizami fars şairi kimi təqdim olnurdu. Yalnız Mircəfər Bağırovun Azərbaycan rəhbərliyinə gəlişindən bir neçə ay sonra, 1934-cü ildə Azərbaycan Yazıçılar İttifaqı təsis edilən zaman, yaradıcı insanların qarşısında Nizami Gəncəvinin azərbaycanlı olmasını əsaslı şəkildə sübut edərək, yeni tədqiqat əsərlərinin yazılması məsələsini qaldırır. Bu məqsədlə o, dahi şairin əsərlərinin Azərbaycan türkcəsinə tərcümə edilməsi tapşırığını verir. Fəqət problem ondan ibarət idi ki, sovet şərqşünaslığı bütün ədəbi mənbələrdə Nizamini fars şairi kimi təqdim edirdi. Eyni zamanda, o dövrdə Azərbaycan şərqşünaslıq məktəbi kadr baxımından zəif olduğundan sovet şərqşünaslığının mərkəzi sayılan Leninqrad məktəbinə qarşı gedə bilmirdi. Bütün bunlara baxmayaraq, Mir Cəfər Bağırovun tapşırığına əsasən, tanınmış ziyalılarımız: Abdulla Şaiq Nizaminin "İsgəndərnamə" poemasının "Şərəfnamə" hissəsini dilimizə poetik tərcümə edir; İbrahim Tahir Musayev N.Gəncəvinin "Sirlər xəzinəsi" poemasını dilimizə çevirir və filologiya elmləri doktoru, ədəbiyyayşünas Mikayıl Rəfili "Nizami: dövrü: həyatı, yaradıcılığı" və "N.Gəncəvi və onun yaradacılığı" adlı əsərlərini qələmə alır. Bununla da Nizami irsi ilə bağlı Azərbaycanda çox ciddi tədqiqatlara start verilir. M.C.Bağırov həmçinin Nizami Gəncəvinin Azərbaycan şairi olmasını əsaslandırmaq üçün Sovet İttifaqının tanınmış şərqşünaslarını bu işə cəlb edir. Bu ona görə lazım idi ki, N.Gəncəvi Azərbaycanda türk şairi kimi göstərilsə də, akademik çevrələrdə, xüsusilə Leninqrad şərqşünaslıq məktəbi tərəfindən hələ də fars şairi kimi qəbul edilirdi. M.C. Bağırovun təşəbbüsünə ilk dəstək Leninqrad şərqşünaslıq məktəbinin nüfuzlu nümayəndəsi, görkəmli şərqşünas və iranşünas Yevgeni Bertlesdən (Bertels Yevgeni Eduardoviç: şərqşünas, SSRİ EA müxbir üzvü (1939), Özbəkistanın (1944) və Tacikistanın əməkdar elm xadimi (1946), İran EA (1944) və Ərəb EA-nın (Dəməşq) müxbir üzvü (1955), SSRİ Dövlət mükafatı laureatı (Nizami yaradıcılığı ilə bağlı tədqiqatlarına görə, 1948) gəldi. Onun "Dahi Azərbaycan şairi Nizami" əsəri 1939-cu ildə mərkəzi qəzetlərdə məqalə kimi, 1940-cı ildə Bakıda "AzFan" nəşriyyatında isə kitab halında çap olundu. 1939-cu ilin aprelində "Pravda" qəzetində ukraynalı şair Mikolo Bajan (Mikolo Bajan: 1951-ci ildə Ukrayna SSR Elmlər Akademiyasının üzvü, 1946-1949-cu illərdə SSRİ Dövlət mükafatı laureatı, 1974-cü ildə Sosalist Əməyi Qəhrəmanı adını alıb) Nizamini Azərbaycan şairi elan edərək, onu fars qılafından çıxartdı. O, məqaləsində Stalinlə görüşünü xatırlayaraq, müzakirə mövzularından birinin Nizami Gəncəvi ilə bağlı olduğunu qeyd edir. Bajan yazırdı: "Stalin mənə söyləyirdi ki, Nizami poemalarında etiraf edib ki, ona öz xalqının ana dilində yazmağa imkan verilmirdi. Ona görə də o, fars dilində yazırdı". Əslində Stalinin bu mövqeyi Mir Cəfər Bağırovdan qaynaqlanırdı. Artıq Stalinin bu yanaşmasından sonra sovet şərqşünaslıq elmi Nizami Gəncəvinin Azərbaycan şairi olması istiqamətində ciddi tədqiqatlar aparmağa və bu faktı ictimailəşdirməyə təkan verdi.

Stalinin bu yanaşmasına minnətdarlıq kimi, Azərbaycan ziyalıları adından mərkəzi qəzetlərdə Səməd Vurğunun, Rəsul Rzanın və Süleyman Rüstəmin şeirləri çap olundu. Bütün bunlardan sonra M.C.Bağırovun təşəbbüsü ilə Nizami Gəncəvinin 800 illik yubileyinin keçirilməsi haqqında qərar qəbul edildi. Bu qərar çərçivəsində həm də bütün sovet ensiklopediyalarında Ni-

zami Gəncəvinin Azərbaycan şairi olması haqqında məlumatların verilməsi nəzərdə tutulurdu.

Əlbəttə, Azərbaycanın vətənpərvər və ləyaqətli oğlu M.C. Bağırovun strateji və siyasi əhəmiyyətli bu addımları erməni millətçilərinin heç də xoşuna gəlmirdi. N.Gəncəvinin 800 illik yubileyi münasibətilə 1940-cı ildə erməni daşnaklarının ədəbi nümayəndəsi Mariyetta Şaginyan "Nizami Gəncəvi" adlı əsər yazır. Əsər çapa getməzdən öncə Moskvanın "Dövlət Bədii Ədəbiyyatı" nəşriyyatının rəhbərliyi ehtiyat edərək, əlyazmanı M.C.Bağırova göndərir. M.C.Bağırov bu əlyazmanı araşdırmağı Tarix İnstitutunun direktoru İsmayıl Hüseynovdan xahiş edir. İsmayıl Hüseynov bir müddətdən sonra Mariyetta Şaginyanın əsərinin olduqca təhlükəli və təxribat xarakteri daşıdığını Bağırova məruzə edir. Mariyetta Şaginyan əsərində Nizaminin milli kimliyini bir kənara qoyaraq, sadəcə onun dini görüşlərini önə çıxarır. O, Nizami Gəncəvi dövründə şiəliyin aparıcı məzhəb olduğunu və islamda seperatçılığa meylli kimi göstərilir. Sual olunur: nəyə görə Şaginyan birdən-birə şiəlik xəttini xüsusi vurğulamağa başlamışdı? Əslində o, adının önündə Mir sözünü daşıyan Mircəfər Bağırova sataşırdı. Əlbəttə ki, M.C.Bağırovun hazırlatdığı bu kitab barədə rəyi kəskin tənqid üzərində qurulmuşdu (bu rəy bizim Milli Arxiv İdarəsində (keçmiş partiya arxivi) qorunur. Bağırovun təşəbbüsü ilə hazırlanan rəyin müəllifi Tarix İnstitutunun direktoru İsmayıl Hüseynov idi (İsmayıl Hüseynov: tarix elmləri doktoru adını alan ilk azərbaycanlı, 1941–1944 və 1958–1960-cı illərdə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, 1960–1966-cı illərdə isə AEA İctimai Elmlər Bölməsinin akademik-katibi, 1949-cu ildə AEA-nın müxbir üzvü, 1958-ci ildə isə həqiqi üzvü, Azərbaycan SSR Ali Sovetinin "Fəxri fərmanı" ilə təltif olunmuş və "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür). Həmin rəydən qısa bir iqtibası oxuculara təqdim edirik: "Şaginyan Nizami yaradıcılığında yaxşı nə varsa, hamısını xarici təsirlərin nəticəsi kimi izah edir. Şaginyanın İslamda şiəlik cərəyanına aid fikirləri də həqiqətə uyğun deyil. Nizami Gəncəvi dövründə və ondan əvvəl İranda hansısa ciddi azadlıq hərəkatının olduğunu və ya bunun şiəlik kontekstində baş verməsinin müəllif tərəfindən söylənilməsi yanlış və yolverilməzdir (burada Şaginyan şiəliyi guya islamda separatizmə meylli xətt kimi, İran konteksində isə azadlıq hərəkatı kimi göstərirdi - A.M.). Şiə məzhəbinin yaranmasına gəldikdə isə o, xəlifə Əlinin qətlə yetirilməsi ilə əlaqədar deyil, Məhəmmədin vəfatından sonra Əlinin hakimiyyətə gətirilməməsi nəticəsində meydana gəlmişdir. Şaginyan çox nahaqdan şiəliyi iranlılara aid edir".

Moskvaya göndərilən bu rəydən sonra (Bağırovun həbsinə qədər) Şaginyanın kitabı işıq üzü görmür. Yalnız 1955-ci ildə Mariyetta Şaginyanın sözü gedən əlyazması "Nizami haqqında etüdlər" adı ilə Yerevanda 4000 tirajla çap olunur. Bununla da Mariyetta Şaginyanın Bağırov tərəfindən qadağan edilmiş kitabı işıq üzü görür. Mircəfər Bağırovun Şaginyana bu münasibəti və onu Bakıdan qovması sonralar Azərbaycan rəhbərinə qarşı qurulmuş məhkəmədə ona qarşı ittiham kimi səsləndirildi.

Bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdən olan Nizami Gəncəvinin 800 illik yubileyinin 1941-ci ildə keçirilməsi planlaşdırılsa da, müharibənin başlanması ilə bu qəbildən olan yubiley tədbirləri təxirə salındı. Lakin hətta ağır müharibə şəraitinda belə Leninqrad Şərqşünaslıq məktəbi kiçik tərkibdə olsa belə, "Azərbaycan şairi Nizami

Gəncəvi-800" devizi altında tədbir keçirə bildi. Nizami Gəncəvinin yubileyi müharibədən sonra - 1949-cu ildə böyük təmtəraqla qeyd olundu. Beləliklə, M.C.Bağırovun birbaşa iştirakı, şəxsi təşəbbüsü və fəaliyyəti sayəsində sovet dövlətinin Nizami Gəncəviyə diqqəti artdı və dahi şairin milli kimliyi ilə bağlı o dövrə qədər formalaşmış əsassız fikirlər kökündən dəyişdi.

1946-cı ildə isə Ermənistan Dövlət Nəşriyyatı Marietta Şaginyanın "Sovet Zaqafqaziyası" kitabını nəşr edir. Ermənistanda və Moskvada ermənilər və ermənipərəstlər tərəfindən rəğbətlə qarşılanan bu kitabın Azərbaycanda da oxucuları az olmamışdır. Bəziləri "əsərdə tarixi hadisələr və faktlar kobud şəkildə təhrif olunur" desələr də, etiraz səslərini qaldırmayıblar. Yalnız Mircəfər Bağırov susa bilməyib və Marietta Şaginyanın daşnak baxışlarını alt-üst edib.

M.C.Bağırovun Kremlə, ÜİK(b)P MK-nın katibi A.A.Jdanova göndərdiyi rəsmi məktubunu bütünlüklə oxucuların diqqətinə veririk.

**<u>Fond № 1, siyahı № 168, iş № 2</u>**

**ÜK(b)P MK-nın katibi yoldaş A.A.Jdanova**

1946-cı ildə Yerevanda Marietta Şaginyanın "Sovet Zaqafqaziyası" kitabı nəşr edilib. Məlumat verməyi zəruri sayırıq ki, bu kitabda çoxlu sayda kobud siyasi səhvlərə yol verilib, tarixi həqiqətlər təhrif edilib. Mahiyyət etibarı ilə kitab Sovet Zaqafqaziyası xalqlarına şər-böhtanla doludur.

Bunun təsdiqi kimi bir neçə xarakterik seçməni diqqətinizə çatdırırıq:





1927-ci ildə qələmə aldığı "Sevan gölü" oçerkində müəllif Sovet Zaqafqaziyası xalqlarını tarixi baxımdan yorulmuş, qocalıb əldən düşmüş, məhvə məhkum olunmuş kimi təsvir edir:

"Zaqafqaziyalılar – qədim, yorğun, ömrünü başa vurmuş, min illərdən sonra sümükləri nazilmiş və ətrafları zəifləmiş bir xalqdır. Bu həqiqət qədim, narahat keçmişindən yorulmuş xalq olan ermənilər üçün də keçərlidir. Günəşin istisindən və tarixi qocalıq ucbatından buradakı tənbəllik malyariya xəstəliyi kimi yoluxucu və güclüdür. Heç kim könüllü şəkildə bədən tərbiyəsi ilə məşğul olmur. Amma mütləq balaca ordu, təlimlər, manevrlər, düşərgə həyatı, marş-paradlar, yaxınlıqda isə təbilin sədaları altında pioner yürüşü – bütün bunlar ermənilərdən ötrü bir növ xəstə bellərinə bağladıqları qalın kəmər rolunu oynayır". (s.128)

İnqilabdan neçə illər keçsə də, Şaginyan Zaqafqaziyanın hər tərəfində yalnız xarabalıqlar, geridə qalmış, vəhşi həyat görür. Misal üçün, Şaginyanın fikrincə, "1926-cı ildə Dağlıq Qarabağ yiyəsiz, dağıdılmış kasıb bir ölkəni xatırladır. Burada qazanc çox aşağıdır, kənd təsərrüfatı heç bir gəlir gətirmir, acından ölməkdən qorxan kəndlilər isə şəhərlərə qaçırlar".

Dağlıq Qarabağın keçmişini, erməni təhkimliləri – məliklər dövrünü isə M.Şaginyan xüsusi şövqlə və məhəbbətlə təsvir edir. Erməni məliklərini, mülkədarlarını bu torpağın ağıllı, alicənab sahibləri kimi tərifləyib göylərə qaldıran və ideallaşdıran Şaginyan yazır:

"…Bu məliklər xəyalpərəst və qürurlu gürcü knyazlarına bənzəmirlər. Doğma Qarabağına qayıdan yüksək çinli yaşlı erməni əynindəki Nikolay şinelini çıxarıb, xırmana baş çəkir, taxıldöyəni işlədir, gecələr də hamı kimi Qarabağın köhnə "qara

damında" yatır (pəncərəsiz, yalnız baca yeri olan qara koma). (s.226) Yəni, generalın "təmiz" yatağında..."

Dağlıq Qarabağı "erməni ölkəsi" (s.224), "Ermənistanın zadəgan parçası" (s.225) elan edən Şaginyan hansı səbəbdənsə erməni-azərbaycanlı davasını yada salmağı lazım bilir. Müəllif o davanı dağıntıların qalıqları, guya Şuşanın erməni məhəlləsində "hansısa xəndəkdə" (s.254) öz gözləri ilə gördüyü "qara qana bulaşmış qadın saçları" (s.254) ilə bəzəyir.

Qarabağda azərbaycanlılarla ermənilərin münasibətlərini təsvir eləyən Şaginyan onları qarşı-qarşıya qoyur, tarixi həqiqətləri təhrif edir, "ermənilərin ölkənin kasıb iqtisadiyyatını qanları bahasına dirçəltdiyini", azərbaycanlıları da "sürətli mədəni inkişafa" (s.252) cəlb etdiyini sübuta yetirməyə çalışır.

Azərbaycanlıların ünvanına belə təhqiramiz ifadələrlə kifayətlənməyən müəllif daha sonra onların Dağlıq Qarabağın iqtisadiyyatında mənfi rol oynadığını iddia edir. Şaginyan Dağlıq Qarabağda maldarlığın zəifləməsinin səbəbini "köçəri-müsəlmanların" iranlılarla tamahkar ticarət sövdələşməsinə getməyində görür. Guya onlar İrandan "xəstəliyə yoluxmuş heyvanları" gətirərək, bununla da Dağlıq Qarabağda sağalmaz taun xəstəliyini yayıblar.

Azərbaycan xalqına gerilik və kobudluq xüsusiyyətlərini "yapışdıran" Şaginyan onun mədəni tarixinə aid faktları da təhrif edir. Şaginyanın iddiasına görə, XVI əsrin dahi Azərbaycan şairi Füzuli öz əsərlərini yalnız ərəb dilində yazmışdır (s.292). Hamıya məlumdur ki, Füzuli Azərbaycan ədəbi dilinin inkişafındakı xidmətləri ilə məşhurdur və özünün yalnız bir neçə elmi əsərini ərəb dilində qələmə almışdır.





Şaginyanın qənaətinə görə, Azərbaycan aşıqları və xanəndələri azərbaycanlı sənətkarların deyil, fars şairlərin qəzəllərini oxuyurdular (s.253). Azərbaycanlı aşıq və xanəndələrin yaradıcılığının Azərbaycan poeziyası ilə sıx bağlı olduğu, onların heç vaxt fars dilində mahnı və qəzəl ifa etmədiyi danılmaz həqiqətdir.

Müəllifin çadra ilə bağlı düşüncələri isə Azərbaycan qadını üçün olduqca ürəkbulandırıcı və təhqiramizdir.

"Çadra ehtiras yaradan atributdur. Onun formasız qara rəngi, örtüyə bürünmüş bədənin qırçınlar altında zəif tərpənişi – əsrlər boyu beyinlərə yeridilmiş son dərəcə mürəkkəb kompleksdir. Bədənin çadra altındakı hərəkətində heyvanın atavist davranışının müəyyən əlamətləri sezilir. Yəni, zəif cinsi təpikləmək və tapdalamaq tələbatı, heyvani sahiblik hissi – mənimkidir, deməli, gizli, qapalı, bürünmüş olmalıdır. Bu isə heyvana xasdır və Zaqafqaziya xalqları arasında geniş yayılmış homoseksualizmin psixoloji yöndən əsaslandırılmasıdır" (s.257).

Daha sonra:

"Əgər adam evin ən böyük sərvətidirsə, deməli, müsəlman daha çox uşağa sahib olmalıdır. Arvadların sayı məhz uşaq doğuşlarını artırmaqla bağlıdır. Eyni prinsipə çoban sürünün sayını artırmaq üçün əməl edir!" (s.257)

Bunlarla yanaşı, Şaginyanın Avropanın və Amerikanın qarşısında yaltaqlığını və qulluq göstərməyini xüsusi qeyd etmək lazımdır. Dağlıq Qarabağın təbii sərvətlərindən danışarkən, onları Amerikanın təbii sərvətləri ilə müqayisə edən müəllif yazır:

"Pulsuz elektrik enerjisi, istifadəsiz qalmış insan enerjisi, meşələrin çoxluğu və ölkənin bənzərsiz kurort göstəriciləri. Bütün bunlar bir-birinə uyuşub və yanaşı durublar. Bunları görən amerikalı qibtə hissi ilə belə deyərdi: "sadalananlardan bəziləri

bizdə də var. Varlı Qərb ştatlarında, şiş qayalı dağlarda: ecazkar təbiət, hava, meşə, havayı enerji. Amma orada ən başlıcası yoxdur, o olmadan isə ölkəni canlandırmaq, onu gerilikdən və vəhşilikdən çıxarmaq çox çətindir”.

Ən başlıca nədir? Pul? Axı amerikalıların pulu kifayət qədərdir. Yox, o, başqa cavabı verərdi və həmin cavab bizim üçün gözlənilməz olardı: “artıq bir nəfər yoxdur ki, işin başına keçsin”. Məhz həmin “artıq” adamlar, işləməyi arzulayanlar Qarabağda kifayət qədərdir” (s.228-229)

Özünün Dağlıq Qarabağa səyahəti zamanı hər şeyin yaxşı və xoşagələn olduğunu yazan müəllif beynində Avropada gördükləri hər şeylə assosiasiya yaradır. “Avropanın yumşaq yağışı. Belə yağışlar Avropanın orta zolağında, Bavariya İsveçrəsində, Tirolda, Avstriyada olduğu kimi, Dağlıq Qarabağda da yağış tez-tez qəmli, ildırımsız yağır və tez də kəsilir” (s.255). “Torpağın mədəniyyəti öz əksini nəfəsin təmizliyində tapır. Bu hal az qala saf havası olan Avropada xüsusilə nəzərə çarpır” (s.227).

Marietta Şaginyanın “Sovet Zaqafqaziyası” kitabından bunlara bənzər çoxlu misallar gətirmək mümkündür. Sadəcə “Erməninəşr”in əksəriyyəti 20-25 il bundan əvvəl yazılmış oçerkləri 1946-cı ildə təzədən çap etməsinin səbəbi aydın deyil. Görünür, bu işi ifşa olunmuş xalq düşmənlərinin – azərbaycanlı, erməni və gürcü millətçilərinin güclü təsiri altında yerinə yetiriblər. Bu isə mahiyyət etibarı ilə anqlosaksların, eləcə də Vətənimizin digər düşmənlərinin sovet xalqlarının əleyhinə apardıqları murdar şər-böhtan və təxribatçı əməllərdən heç nə ilə fərqlənmir.

Bu kitabın satışdan yığışdırılmasını zəruri hesab edirik.

Əlavə: Marietta Şaginyanın “Sovet Zaqafqaziyası” kitabı.





Azərbaycan K(b)P) MK-nın katibi M.C.Bağırov
21 iyul 1947-ci il
№ 139, Bakı ş.
Fond № 1, siyahı № 168, iş № 2

Azərbaycan K(b)P) MK-nın katibi yoldaş M.C.Bağırova

Bu gün poçt vasitəsilə Marietta Şaginyandan məktub almışam. Həmin məktubu Sizə göndərərək, göstərişinizi gözləyirəm.

Mirzə İbrahimov

“5” iyun 1947-ci il.

SURƏTİ

Yoldaş İbrahimov! Ermənistanda mən öz kitabımı bir daha diqqətlə oxudum və gördüm ki, Siz tamamilə haqlısınız. Kitabda təkcə Azərbaycan üçün deyil, həm də Ermənistan üçün xoşagəlməz, təhqiramiz, əsəbi yerlər vardır. Bu məsələ ilə bağlı Ermənistan K(b)P MK-nın birinci katibinin yanında olmuşam. Onunla nə edəcəyimizi müzakirə elədik. Mən kitabın satışdan yığışdırılmasını xahiş elədim, amma bu, yeni kitabım üçün çox ağır nəticələrə gətirib çıxara bilər. Çünki bu halda Moskva onun çapını dayandırardı. Biz kitabı sökmək və 5 yerini təzədən çap etmək qərarına gəldik. Dağlıq Qarabağla bağlı birinci səhifəni əslində olduğu kimi saxlamaq, “Qara kisə” məqaləsindən iki səhifəni bərpa eləmək. Bundan başqa, mən Ermənistan qəzetinə məqalə yazaraq, onun sonunda kitabıma toxunmuş, orada bir

neçə qəbuledilməz və yanlış yerləri aradan qaldırmadığıma görə böyük səhvə yol verdiyimi etiraf eləmişəm. Əgər yoldaş Bağırov arzu edərsə, oxşar məqaləni "Bakinskiy raboçiy" qəzeti üçün də yazaram. Əvvəlcə belə bir səhvin baş verdiyini izah edərəm, sonra isə kitaba gözə üzr istəyərəm.

Ermənistanın Ədəbiyyat və nəşriyyat üzrə baş idarəsi yanlış yerləri düzəldilənə qədər kitabın satışını dayandırmaq barədə əmr verib. Biz yalnız xoşagəlməz hissələri düzəltdik, amma Şuşa ilə bağlı yerləri saxlamalı olduq. Çünki o zaman bütün kitabın sökülüb təzədən yığılması lazım gələrdi. Amma girişdə qeyd etmişəm ki, kitabda Azərbaycan və Gürcüstan təsadüfən və yersiz təqdim olunub.

Kitabı yenidən oxuyarkən özüm də dəhşətə gəldim. Bəlkə də onun çap edilməməsi üçün həyatımın qalan hissəsini qurban verərdim. Bu məsələdə redaktor da olmazın əziyyət çəkib. Sizin Aqbalyana xəbərdarlıq etdiyinizi demişdim, amma təəssüflər olsun ki, heç bir tədbir görmədilər.

Salam göndərirəm: M.Şaginyan.
*26.V-1947.*

Bu dəfə M.Bağırov M.Şaginyan haqqında Moskvaya - Beriyaya yazır.

**Fond № 1, siyahı № 168, iş № 2**

**"SSRİ Nazirlər Sovetinə, L.P.Beriya yoldaşa"**





M.Şaginyanın 1946-cı ildə Ermənistan Dövlət Nəşriyyatı tərəfindən buraxılmış "Sovet Zaqafqaziyası" kitabının bir nüsxəsini tanışlıq üçün sizə göndərirəm.

Bununla birlikdə həmçinin həmin məsələ ilə əlaqədar Jdanov yoldaşa göndərdiyim məktubumun surətini, eləcə də Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini M.İbrahimovun ünvanına M.Şaginyanın və mənim adıma qoşma məktubun surətlərini Sizə göndərirəm".

Azərbaycan K(b)P MK-nın katibi M. Bağırov
1 noyabr 1947-ci il, N 217".

Daşnaklara münasibətdə həmişə M.Bağırovun mövqeyini müdafiə edən Lavrenti Pavloviç Beriya öldürüldükdən sonra, M.Şaginyan barəsində məktublar M.Bağırova qarşı çevrildi. 1956-cı ilin yazında SSRİ-nin Baş prokuroru Bakıda M.C.Bağırovun məhkəmə iclasında M.Şaginyanın müdafiəçisi rolunda idi.

**Rudenko:** - Müttəhim Bağırov, 1947-ci il Nizami təntənələrində Şaginyan Mariettanı qəbul etməyib, hələ üstəlik, onu təhqir etmişdiniz. Nə üçün?

**Bağırov:** - O, mənimlə görüşmək istəyirdi, lakin əsərlərində Qarabağa, Naxçıvan torpağına göz dikdiyi üçün, onun qəbulla bağlı xahişini rədd etdim.

Azərbaycan Respublikası siyasi partiyalar və ictimai hərəkatlar Dövlət Arxivində (Fond I, siyahı 104, iş 52) 1948-ci il may ayının 4-də Şamxor rayonundan Bakıya, M.C.Bağırovun adına göndərilən bir teleqramla əlaqədar materiallar saxlanılır. Məsələnin qısa təfsilatı ilə tanış oluruq.

"Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov yoldaşa.

Sizin nəzərinizə çatdırıram ki, bu gün, 1948-ci ilin may ayının 4-ü axşam altının yarısında Şamxor rayon partiya komitəsinin ikinci katibi Avakimov yoldaş xidməti maşınını özü idarə edərkən, qəza törədib və qəza nəticəsində mənim iki bacım həlak olmuşdur. Bacılarımın böyüyü 18, kiçiyi 16 yaşında idi. Raykom katibi onların həyatına son qoydu. Xahiş edirəm, tədbir görəsiniz.

Şamxor şəhəri, Naxırçılar sahəsi, Paşa Əliyev".

Teleqram elə həmin gün M.C.Bağırova çatdırılıb. Onun tapşırığı ilə məsələ dərhal yoxlanılmış, müəyyən edilmişdir ki, Avakumovun özbaşınalığı nəticəsində həqiqətən Əliyevlər ailəsinin iki qız övladı ağır xəsarət alaraq yolda keçinib. Ertəsi gün, mayın 5-də Şamxor rayon partiya komitəsinin qərarına əsasən, Avakumov vəzifəsindən kənar edilib və cinayət məsuliyyətinə alınıb. M.C.Bağırovun göstərişi ilə iki azərbaycanlı qızın qanı yerdə qalmayıb.

Fonddakı sənədlərdən aydın olur ki, 1946-cı ildə SSRİ-nin baş prokuroru Qorşeninin adına Dağlıq Qarabağ Muxtar Vilayətindən şikayət məktubları göndərilib. Həmin məktublarda göstərilir ki, vilayətin ayrı-ayrı rayonlarında qanunsuz olaraq kolxozçuların mal-qarası əlindən alınır, belə yaramaz hallara yol verənlərə isə DQMV prokuroru Ayrapetyan himayədarlıq edir.

SSRİ baş prokuroru Qorşenin şikayət ərizələrini Azərbaycan SSR prokurorluğuna göndərir. Respublikanın baş prokuroru Xəlil Əfəndiyev yoxlamanın yekunları əsasında Moskvaya göndərəcəyi məktubu M.C.Bağırova təqdim edib. Respublika prokurorunun cavab məktubu M.C.Bağırovu qane etməyib. Nə üçün? Bunun səbəbi M.C.Bağırovun Azərbaycan K(b)P MK-





nın ikinci katibi Həsən Seyidova ünvanlanan aşağıdakı məktubda göstərilir:

"H. Seyidov yoldaşa.

Xahiş edirəm, kolxozçuların mal-qarasının qanunsuz olaraq əllərindən alınmasına aid faktların yoxlanılması barədə respublika prokuroru Əfəndiyev yoldaşın SSRİ baş prokuroru Qorşenin yoldaşa yazdığı arayışın surəti ilə tanış olasınız. Həmçinin bununla T.Quliyev yoldaşı, Azərbaycan K(b)P MK katiblərini və Abdullayev yoldaşı da tanış edəsiniz.

Mən belə hesab edirəm ki, Əfəndiyev yoldaş əslində Dağlıq Qarabağ Muxtar Vilayəti prokuroru Ayrapetyanı müdafiəyə qalxıb. Halbuki, onu məsuliyyətə cəlb etmək lazımdır, ona görə ki, Ayrapetyan, əvvəla, kolxozların mal-qarasının oğurlanmasına, mənimsənilməsinə və dağıdılmasına rəvac verir, ikincisi, Moskvaya böhtan dolu teleqramlar vurur. Əfəndiyev yoldaş isə bu barədə yazmır".

Azərbaycan K(b)P MK katibi M.C.Bağırov

23 avqust 1946-cı il. N 467.

SSRİ baş prokuroruna Azərbaycandan cavab məktubu DQMV prokuroru Ayrapetyan işdən kənarlaşdırılandan sonra yola salınır.

M.C.Bağırovun daşnak xislətlilərlə mübarizəsi nəinki ədəbi-siyasi müstəvidə, həmçinin sənaye-təsərrüfat sahələrində də davam edir. Bunun bir nümunəsi aşağıdakı sənəddə göstərilir.

1947-ci il oktyabr ayının əvvəllindən respublika prokuroru işləyən Xəlil Sədrəddin oğlu Əfəndiyev M.C.Bağırovun qəbulunda olarkən, belə bir məlumat vermişdir: Azərbaycan SSR Elmlər Akademiyasının sabiq elmi işçisi Köçəryan Azərbaycan

Respublikasının 163 ədəd atlasını mənimsəyərək, onları gizli yolla Yerevana aparmışdır. Həmin xəritələr Ermənistan SSR-də "Tarixi Ermənistan" şəklinə salınmışdır.

Respublika prokurorunun qaldırdığı cinayət işi M.C.Bağırovun dərkənarı ilə Azərbaycan K(b)P MK-nın büro iclasına çıxarılır. Azərbaycan K(b)P Mərkəzi Komitəsinin 1947-ci il 14 oktyabr tarixli büro iclasının qərarında oxuyuruq:

I. "Məmmədəliyev və Yaqubov yoldaşlara tapşırılsın ki, üç gün müddətinə Dövlət Plan Komitəsinin və Elmlər Akademiyasının birlikdə hazırladığı 163 ədəd coğrafi atlasın Azərbaycan SSR EA-nın keçmiş əməkdaşı Köçəryan tərəfindən mənisənilməsinə aid materialları tərtib edərək, respublika prokuroru X.Əfəndiyev yoldaşa təqdim etsinlər.

II. X.Əfəndiyev yoldaşa tapşırılsın ki, Azərbaycan SSR-nin 970 min manat dəyərində coğrafi atlasını oğurlamış Köçəryan barədə cinayət işi qaldırılsın. Köçəryanı Ermənistan SSR-dən tələb edərək, istintaq başladılsın".

Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov

Yetmişinci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləmiş İsmayıl İbrahimov 1995-ci ildə "Səda" nəşriyyatı tərəfindən buraxılmış "Dövrüm haqqında" kitabında institut illərindən geniş söhbət açır. Müəllif yazır:

"Qırx altıncı ildə institutun partiya təşkilatı katibinin müavini seçildim. Həmin il keçirilən hesabat-partiya iclasında institut partiya təşkilatının sədri Ə.Məmmədovun əvəzinə Q.Serqeyev təyin edildi. Bu iclasda partkomun tərkibinə irəli sürülən namizədlərdən institut direktoru S.B.Qocayevin namizədliyi keç-





mədi. Ayrı-ayrı kommunistlərin çıxışları belə bir qənaətə şübhə yeri qoymurdu ki, kollektivdə bir tərəfdən institut direktoru S.Qocayevin və partkom Ə.Məmmədovun, digər tərəfdən isə P.Mosesovun başçılıq etdiyi marksizm-leninizim kafedrasının əməkdaşları arasında münasibətlər qaydasında deyil. Nəticədə nə Qocayev, nə də Məmmədov partiya komitəsi tərkibinə seçilmədilər.

P.Mosesov institutun direktoru, respublika ictimaiyyəti arasında təmiz, prinsipial ziyalı kimi hörmət qazanmış Saleh Qocayev haqqında mənfi rəy yaratmaq üçün dəridən-qabıqdan çıxırdı. Mosesovun Qocayevə qarşı irəli sürdüyü ittihamlardan biri bundan ibarət idi ki, Azərbaycan Sənaye İnstitutunda "xalq düşmənlərinin uşaqları" təhsil alır. Bu "xalq düşməni" balalarından biri də Əhməd Şəkinski idi. Onun atası Məmmədəmin Əhməd oğlu Şəkinski həqiqətən 1918-ci ildə "Hümmət" təşkilatının Aşqabad komitəsinin məsul katibi olmuşdu. Gəncədə Müsavat ordusunda gizli partiya işi aparmışdı".

Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində M.Ə.Şəkinskinin 1937-ci il fevralın 13-də öz dəsti-xətti ilə yazdığı tərcümeyi-halını nəzərinizə çatdırırıq:

"Mən, Məhəmmədəmin Əhməd oğlu Şəkinski 1890-ci ildə Zakaspiyski Vilayətinin Aşqabad şəhərində anadan olmuşam, əslən Nuxa şəhərindənəm. Anam saatsaz qızı olmuş, atam kollecdə qeydiyyatçı işləmişdir. Səkkiz yaşımadək valideynlərimin yanında tərbiyə almışam. Sonra atam Nuxa şəhərinin başçısı vəzifəsində işləyərkən, 1909-cu ildə 1 №-li Tiflis Gimnaziyası pansionuna göndərilmişəm. Burada 1917-ci ilədək təhsil almışam. Gimnaziyada oxuyarkən RSDFP-nin "Hümmət" təşkilatı sıralarına daxil olmuşam. 1917-ci ildə "Hümmət" təşkilatı məni

(5 №-li siyahı üzrə) Qars vilayətinə, Nuxa və Ağdaş şəhərlərinə təsis yığıncaqları keçirmək üçün ezam etmişdir. Ezamiyyət müddəti ay yarım çəkmişdir.

Tiflisə qayıtdıqdan sonra pansionat bağlandığı üçün "Hümmət" təşkilatının razılığı ilə Aşqabada atamın yanına getmişəm. Orada 1918-ci ildə İbrahim Əliyev (hazırda Dağıstanda işləyir), Cəlal Hacıyevlə birlikdə "Hümmət" təşkilatının Aşqabad komitəsində çalışmışam. Komitənin məsul katibi və Aşqabad sovetinin üzvi kimi türk yoxsullarının partiyamıza qəbul olunması və sovet hakimiyyətinin qurulması uğrunda mübarizədə fəal iştirak etmişəm. 1918-ci ilin yayında Aşqabadda sovet hakimiyyəti süqut etdikdən sonra Cəlal Hacıyevin köməyi ilə Azərbaycana gəlmişəm".

M.Şəkinski izahatında Müsavat ordusunun əsgəri olmasından da geniş söhbət açır.

"Qızıl Ordudan tərxis olunandən sonra Şəkinski Bakı şəhər maarif şöbəsi müdirinin müavini, Bakı şəhər milis şöbəsi inzibati idarəsinin rəisi və Bakı şəhər milis idarəsinin rəisi, Bakı şəhər sovetində təşkilat şöbəsinin müdiri (bir ay), Azərbaycan SSR prokurorunun köməkçisi, Qala-Maştağa rayon sovetinin sədri, Quba qəza icraiyyə komitəsinin sədri, Azərbaycan Siyası İdarəsi yanında baş milis rəisinin müavini, Bakı soveti sədrinin müavini, Yevlax pambıq kombinatının direktoru, Yevlax qəsəbə sovetinin, Yevlax rayon icraiyyə komitəsinin sədri vəzifələrində fəaliyyət göstərmişdir."

Akademik İsmayıl İbrahimov o günləri belə xatırlayır: "Əlli birinci ildə institut partiya yığıncağı ərəfəsində səhərdən hesabat hazırlamaqla məşğul idim. Saat 11-ə 20 dəqiqə işləmiş, ilk iki saatlıq məşğələ başa çatanda Marksizm-Leninizim kafedrasının





müdiri, professor Petros Mosesov əsəbi halda partiya komitəsinə gəlib dedi ki, auditoriyada bir tələbənin şübhəli kağız-kuğuz oxuduğunu görüb və ona yanaşıb, yazını göstərməyi tələb edib. Tələbə bundan boyun qaçıranda, professor ona sillə vurub.

Mən onu sakitləşdirib kafedraya yollandım, özüm də götür-qoy eləməyə başladım ki, bu işə nə əncam çəkim. Şəhər partiya komitəsinin təblğat və təşviqat şöbəsinin müdiri, böyük hörmət bəslədiyim bizim Nəsir İmanquliyevə telefonla zəng vurub, baş vermiş əhvalatı söylədim. Bir neçə dəqiqədən sonra şəhər komitəsinin ideologiya üzrə katibi Yakov Zevin mənə zəng vurdu: "Baş vermiş həngamə münasibətilə "təbrik" edirəm. Partkomun təcili iclasını cağırıb məsələni müzakirə etmək lazımdır". Gərək ki, o, Mosesovun hətta partiyadan çıxarılmasının vacibliyini nəzərimə çatdırdı… Məsələni çox götür-qoy edib, Mosesovun partiyadan xaric edilməsini rəva bildik. Saat dörddə hesabat seçki yığıncağı başlandı. Kommunistlər Mosesov haqqında qərarımızı bəyəndilər. Amma onun özü yox idi. O xəstələnib, S.M.Kirov adına fizioterapevtik institutuna yerləşdirilmişdi. Həmin müalicəxananın baş həkimi isə Gevorkov idi. Az sonra Mosesov xəstəxanadan çıxıb işə qayıtdı. Onun şəxsi işinə raykomun bürosunda baxıldı. Məsələ başqa yön aldı. O vaxt raykomun birinci katibi olan Qulam Həsənzadə mənə xəbər verdi ki, guya M.C.Bağırovun göstərişinə görə, P.Mosesov partiyadan çıxarılmayacaq, çünki elə böyük günah işləməyib. Yəni, onun vurduğu tələbə "xalq düşməni" sayılan Bakı şəhər milisinin sabiq rəisi Məmmədəmin Şəkinskinin oğludur. Bu əhvalatdan agah olan P.Mosesov məsələ müzakirəyə qoyulanda açıq-aşkar S.Qocayevlə haqq-hesabı çürütmək niyyətilə institutdakı vəziyyəti öz bildiyi kimi qiymətləndirir. Bizim təkliflərimizlə pro-

tokolda qərar bu şəkildə qeyd olunur ki, Mosesov partiyadan kənar edilməyə layiqdir, lakin səhhətini nəzərə alaraq, ona uçot vərəqəsinə yazılmaqla şiddətli töhmət verilsin".

1948-ci ildə M.C.Bağırovun təqdimatına əsasən, H.Hüseynov, Y.Mirbabayev, A.Orucov "Rus-Azərbaycan lüğəti"nin tərtibatına görə Stalin mükafatına layiq görülürlər.

Ümumiyyətlə, M.C.Bağırovun təqdimatına əsasən, yalnız Stalin mükafatına deyil, Sosialist Əməyi Qəhrəmanı fəxri adına çoxsaylı zəhmətkeşlər də təqdim olunurdu. Təkcə 1948-ci ildə Azərbaycandan Sosialist Əməyi Qəhrəmanı adına 104 nəfər layiq görülmüşdü. O dövrdə ədəbiyyat sahəsində prioritet Azərbaycan və rus millətlərinin dostluğundan bəhs edən mövzular idi.

XVIII əsrdə Quba xanı olmuş Fətəli xanın birdən-birə təbliğ olunması ilk baxışda qəribə görünsə də, əslində o, Azərbaycan xanlıqlarını birləşdirmək siyasətini yeritdiyinə və xarici siyasətdə Rusiya imperiyası ilə yaxınlığına görə dövrünün digər xanlarından seçilmişdir. Ona görə də Həzi Abdullayevin 1948-ci ildə çapdan çıxmış "Fətəli xanın Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda mübarizəsi və onun xarici siyasəti" adlı kitabı M.C.Bağırov tərəfindən yüksək qiymətləndirilmiş və kitabın Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında müzakirəsində şəxsən özü iştirak etmişdi. Heydər Hüseynov isə M.C. Bağırovun ən etibar etdiyi şəxslərdən biri olmuşdur. O, SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının müstəqil Elmlər Akademiyası kimi formalaşdırılmasına dair Moskva ilə danışıqların aparılmasını H.Hüseynova tapşırmışdı.

Onu da qeyd etmək lazımdır ki, yeni yaradılan Azərbaycan Elmlər Akademiyasının ilk akademikləri içərisində xalqımızın





böyük oğulları, cəfakeş alimləri cəmləşmişdi. O cümlədən, hörmətli alimimiz, akademik Həsən Əlirza oğlu Əliyev də Azərbaycan Elmlər Akademiyasının yaradıcılarından biri idi. Ümumiyyətlə, M.C.Bağırovda insanların potensialını duymaq qabiliyyəti var idı. O, Həsən müəllimə böyük hörmətlə yanaşırdı. Həsən müəllimin savadı, işgüzarlığı, saflığı və daxili mədəniyyəti M.C.Bağırovda ona qarşı hörmət formalaşdırmışdı. M.C. Bağırovun təqdimatına əsasən, respublikada aqrar sahədə məsul vəzifələr Həsən müəllimə etibar edilirdi. Bu vəzifələrin öhdəsindən ləyaqətlə gələn Həsən müəllim öz elmi işlərini də paralel davam etdirirdi. Həsən müəllimin oğlu Rasim Əliyev atasının ona söylədiyi xatirələrə əsasən "Lider" telekanalına müsahibəsində deyir: "Atam bir gün M.C.Bağırova yaxınlaşıb deyir ki, Ermənistan və Gürcüstanda astrofizika rəsədxanaları mövcuddur. Belə bir rəsədxananın Azərbaycanda da yaradılması astrofizika elminin inkişafı ilə bərabər, sinoptik qeydlər aparmaqla kənd təsərrüfatının inkişafına təkan verərdi. M.C.Bağırov Həsən müəllimin bu təklifini yüksək qiymətləndirir, Azərbaycanda rəsədxananın inşasını təşkil etmək üçün birbaşa Stalin səviyyəsində məsələni həll edir. Həsən müəllimin təklifinə əsasən, rəsədxana Şamaxı dağlarında yerləşdirilir. M.C.Bağırov tikinti kompleksinə rəhbərliyi də Həsən müəllimə həvalə edir. Mütəxəssislərin qeydlərinə görə, Şamaxı rəsədxanasının optik linzaları öz fiziki-kimyəvi göstəricilərinə görə, indi də bir çox rəsədxanalardan üstündür. Yeni yaradılmış Azərbaycan Elmlər Akademiyasının prezidenti akademik Mir Əsədulla Mir Qasımov seçilir. 1950-ci ildə Heydər Hüseynovun "XIX əsrdə Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrinin tarixi haqqında" kitabının III dərəcəli Stalin mükafatına layiq görülməsi barədə qərar qəbul edilir.

Lakin, 1949-ci ildə tanınmış tarixçi Heydər Hüseynovun yeni çapdan çıxmış kitabında Şeyx Şamil haqqında yazdığı müsbət fikirlər Bağırov tərəfindən amansızlıqla atəşə tutuldu. Nəyə görə Heydər Hüseynovla səmimi ünsiyyət saxlayan M.C. Bağırov ona qarşı münasibətini dəyişdi və barışmaz mövqe tutdu? M.C.Bağırov 1950-ci ildə "Müridizm və Şamil hərəkatının xüsusiyyətləri barədə" kitabında yazırdı: "Heydər Hüseynov Şamil hərəkatını azadlıq və mütərəqqi addım kimi qiymətləndirir. Bu qiymət marksist nöqteyi-nəzərdən və siyasi baxımdan səhv, tarixi həqiqətlərə və tarixi materializmə ziddir. Müridizm İslamda daha savaşqan və irticaçı cərəyan olmuşdur və xalq kütlələrinə qarşı zülm aləti kimi istifadə olunmuşdur. İşğalçı türk ordusuna, ingilis müstəmləkəçilərin maraqlarına qulluq etmişdir. O, Dağıstanı Rusiyadan ayırmağa çalışmış, Qafqaz xalqları arasında rus xalqına qarşı nifrət hissi oyatmışdır. Ona görə də Şamil hərəkatı sırf mürtəce xarakter daşımış, inqilabi hərəkatın maraqlarına ziddiyyət təşkil etmiş, Dağıstanda zəhmətkeş qüvvələrin sinfi özünüdərk prosesinə ləngidici təsir göstərmişdir".

Sözsüz ki, yuxarıdakı fikirlər oxucuda Bağırov tərəfindən irəli sürülən arqumentin imperiya konyukturasına köklındiyi təsəvvürünü yaradır. Çox güman ki, Bağırov özü də bu sözləri yazarkən haqsız olduğunu bilirdi. Lakin o, buna məcbur idi. II Dünya müharibəsindən sonra, 1945-ci ilin sentyabrında ABŞ qoşunları Cənubi Koreyaya girmişdi. SSRİ, ABŞ və Böyük Britaniyanın xarici işlər nazirlərinin Moskva müşavirəsinin (1945, dekabr) qərarına əsasən, Koreya müvəqqəti olaraq, 38-ci paraleldən Şimala Sovet, Cənuba ABŞ zonalarına bölündü. Sovet zonasında Şimali Koreya Xalq Demokratik Respublikası, cənubda isə Cənubi Koreya Respublikası yaradıldı. 1949-cu il oktyabrın 12-də KXDR ilə birinci diplomatik münasibətləri SSRİ yaratdı, iqtisadi-mədəni əməkdaşlıq haqqında müqavilə imzaladı. Lakin artıq atom silahını əldə etmiş Stalin 1945-ci il Moskva müşavirəsində razılaşdırılmış bəndləri pozaraq, Şimali Koreyada yeni dövlət quruluşunun formalaşmasına şərait yaratdı. Bu da beynəlxalq ictimaiyyət, xüsusilə də, ABŞ tərəfindən kəskin etirazla qarşılandı.





ABŞ SSRİ-nin bu addımına qarşı Birləşmiş Millətlər Təşkilatında xüsusi qətnamə qəbul etdirdi. 1950-ci il iyunun 25-də 16 dövlətin silahlı qüvvələri BMT-nin sülhməramlı qoşunları adı altında Cənubi Koreyadan Şimali Koreyaya doğru hücuma başladı. Bu qoşunların say tərkibinə görə, ABŞ-dan sonra ikinci sırada Türkiyə hərbi qüvvələri idi. Artıq Koreya cəbhəsində sovet əsgəri ilə BMT sülhməramlıları adı altında türk əsgəri üz-üzə gəlmişdi!

Belə bir məqamda Heydər Hüseynovun türk və İslam millətçiliyi mövqeyindən kitab yazması və onun Stalin mükafatına layiq görülməsi çox qəribə idi. Amma hadisələrin əsl mahiyyəti heç də göründüyü kimi deyildi. Artıq Cənubi Azərbaycanda siyasi hərəkat zamanı M.C.Bağırovun mövqeyi Kremldə əyləşənlərə yaxşı bəlli idi. Onun Stalinə göndərdiyi milli ruhlu məktublarını yuxarıda diqqətinizə vermişik. Ona görə də M.C.Bağırov hər dəfə Moskvaya səfəri zamanı Siyasi Büronun üzvləri ilə söhbətlərində, eləcə də "Azərbaycan ziyalılarının növbəti vəzifələri haqqında" kitabında İran Azərbaycanı məsələsini qaldırırdı. O, 1945-ci ildə başa çatdıra bilmədiyi Cənubi Azərbaycandakı siyasi prosesləri yenidən bərpa etdirmək istəyirdi. Sözsüz ki, erməni-daşnak siyasi klanı buna laqeyd qala bilməzdi. Onlar hər vasitə ilə Bağırovu Stalinin gözündən salmaq üçün

müxtəlif kartlardan istifadə etməyə çalışırdılar. Bu baxımdan, Heydər Hüseynovun birdən-birə "müridizmi təbliğ edən" əsərinin ölkənin ali dövlət mükafatına layiq görülməsi, əslində, M.C.Bağırovun əleyhinə hazırlanmış planın görünməyən tərəfi idi. Ona görə də tükü-tükdən seçən M.C.Bağırov küləyin hardan əsdiyini gözəl duymuşdu. O, əslində, bütün Azərbaycana qarşı yönəldilmiş bu təxribatın qarşısını özünəməxsus məharətlə aldı. Ancaq çox təəssüf ki, bu oyunun qurbanı Azərbaycanın böyük filosofu, ictimai-siyasi xadim Heydər Hüseynov oldu.

Heydər Hüseynov təzyiqlərə tab gətirə bilmədi. Üzdəniraq, simasız ziyalıların, məddahların, boşqab dibi yalayanların təhqirlərinə dözə bilmədi. Nəticədə bir dəfə vena damarını kəsdi, amma akademik Topçubaşov onu ölümdən xilas etdi. Xəstəxanadan çıxdıqdan bir neçə gün sonra isə Heydər Hüseynovu bağ evində özünü asmış vəziyyətdə tapdılar. Bu kontekstdə M.C.Bağırovun xarakterinin hərtərəfli araşdırılması onun şəxsiyyətinin qiymətləndirilməsi üçün əlimizdə tutarlı əsas ola bilər.

Bu yaxınlarda özəl telekanalların birində "İldırımlı yollarla" sənədli filmi göstərilirdi. Hadisələr 1940-cı illərin II yarısında baş verir. Filmdəki iştirakçılar o dövr üçün etirazlarını aşağıdakı şəkildə bildirirdilər.

1. Azərbaycan dili o dövrdə işlədilməyib.
2. Azərbaycan dilində ədəbiyyat olmayıb.
3. Azərbaycanlı kadrlar irəli çəkilməyib.
4. Azərbaycan KP MK-də əksəriyyət qeyri-millətlərdən olub.

Həmin filmdə səslənən yuxarıdakı fikirlərə aşağıdakı ardıcıllıqla cavab vermək istərdik:





1. 1940-50-ci illərdə Azərbaycandakı ümumtəhsil məktəblərin sayına baxdıqda və bu məktəblərdə tədrisin rus və ya Azərbaycan dilində olmasına nəzər saldıqda, aşağıdakı nəticəyə gəlmək olar: Respublikada ümumtəhsil məktəblərin 74 faizi Azərbaycan məktəbləridir və bu məktəblərdə tədris Azərbaycan dilindədir. Rusdilli məktəblərdə isə Azərbaycan dili və ədəbiyyatına xüsusi yer ayrılırdı.

2. "Azərbaycan kitabı biblioqrafiyası" və "Azərbaycan kitabı salnaməsi" mənbələrinə baxdıqda, o dövrdə nəşr olunan ədəbiyyat nümunələrinin 72 faizinin Azərbaycan dilində olduğunu görürük.

3. Azərbaycanda, xüsusən, 40-cı illərdə MK-ya, eləcə də digər rəhbər vəzifələrə intensiv şəkildə azərbaycanlı kadrlar irəli çəkilirdi.

Arxivlərdə saxlanılan 40-cı illərdə AK(b)P MK-nın istənilən plenumunun stenoqramını oxuduqda, MK üzvlərinin milli tərkibinə baxdıqda, respublika rəhbərliyində ildən-ilə artan templə gedən azərbaycanlaşdırma siyasətinin şahidi oluruq.

Artıq 1952-ci ildə respublika rəhbərliyində azərbaycanlıların faiz hesabı ilə çəkisi 83-ə qədər artmışdı. Bu fikrin sübutu kimi, 1953-cü ilin iyul ayında Bağırovun iştirak etdiyi sonuncu plenumun iştirakçılarının tərkibinə baxmaq kifayətdir (Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi: fond 1, siy. 39, d.18).

Yaxud, Mehriban Vəzir göstərir ki, guya 30-cu illərin əvvəllərində Mirzə İbrahimov Həmidə xanımı (Cəlil Məmmədquluzadənin həyat yoldaşı – A.M.) Yazıçılar İttifaqına dəvət edərək, ona M.C.Bağırovun Qarabağ fəaliyyəti barədə müsbət xarakterli bir xatirə kitabı yazmağı təklif etmişdir (yazıdan belə başa

düşülür ki, bu hadisə Azərbaycanda sovet hakimiyyəti qurulana qədər baş vermişdir – A.M.).

Ona görə gəlin əvvəlcə 30-cu illərin əvvəllərinə ekskurs edək. Xüsusilə, onu qeyd etmək istərdik ki, "30-cu illərin əvvəli" ifadəsi özü qeyri-dəqiq anlayışdır. 30-cu illərin əvvəlində Mirzə İbrahimovun 21-22 yaşı vardı. O, bu yaşda nə Yazıçılar İttifaqının üzvü idi, nə də hər hansı bir məsul vəzifəsi vardı. Respublikanın rəhbəri Mir Cəfər Bağırov heç bir vəzifəsi və səlahiyyəti olmayan gəncə hansı xüsusi tapşırığı verə bilərdi?

**Birincisi:** M.C.Bağırov Mirzə İbrahimovu yalnız 40-cı illərin ortalarında, Cənubi Azərbaycanda proseslər başlayanda yaxından tanımışdı.

**İkincisi:** Yazıçılar İttifaqı 30-cu illərin əvvəllərində deyil, ortalarında yaranmışdı və onun ilk rəhbəri Mirzə Kazım Ələkbərli olmuşdur. M.İbrahimov yalnız 1948-ci ildə Yazıçılar İttifaqında məsul vəzifə daşımışdır.

1. Siyahı № 405 iş 107-də saxlanılan sənədə baxmaq kifayətdir. Kitabın əvvəlində göstərdiyim kimi, M.C.Bağırov 17 sentyabr 1896-cı ildə Quba qəzasında dünyaya gəlib. 12 yaşına qədər müsəlman ruhani məktəbində təhsil almış, bu məktəbdə dinlə, fars ədəbiyyatı, Nizami və Füzuli yaradıcılığı ilə yaxından tanış olmuşdur. 1907-ci ildə valideynləri onu dünyəvi elmlərin tədris olunduğu Quba orta məktəbinə göndərir. Oranı bitirdikdən sonra 1913-cü ildə Quba orta-ali məktəbində təhsilini davam etdirir. Ailəsinin maddi imkansızlığı ucbatından təhsilini yarımçıq qoymaq təhlükəsi yaranır. Mir Cəfərin istedadını görən müəllim heyəti tədris ocağının vəsaiti hesabına onun Petrovskidə (Mahaçqala) pedaqoji təhsilini davam etdirməyə kömək göstərir.





10 fevral 1915-ci ildə Mir Cəfər Bağırov Petrovskidə təhsilini başa vurduqdan sonra Quba qəzasının Xudat stansiyasında yeni açılmış ibtidai məktəbə direktor təyin olunur. O, burada yeni məktəbi formalaşdırdıqdan sonra Quba qəzasının ləzgilərin daha çox yaşadığı Nəcəfkənd məktəbinə göndərilir. M.C.Bağırov burada kənd uşaqlarını təhsilə cəlb edir. Artıq burada onun siyasi cərəyanlarla, o cümlədən, sosialist təşkilatları və onların proqramları ilə ilk tanışlığı başlayır. 1916-cı ilin payızında onu Quba qəzasının ikiillik yəhudi ibtidai məktəbinə keçirirlər. Bu vaxtdan etibarən Bağırovun həyatının keşməkeşli dövrü başlayır. 1917-ci il Rusiyada fevral inqilabından sonra, Qubada yerləşmiş Penza drujinasının əsgərləri tərəfindən M.C.Bağırovun namizədliyi Quba qəzasının İcraiyyə Komitəsinə irəli sürülür və o seçilir. İcraiyyə Komitəsində fəaliyyəti zamanı o, dövrün siyasi palitrasını özündə əks etdirən qüvvələrlə tanış olur (Azərbaycan Dövlət Arxivi: f 1. s. № 405 iş 107). M.C.Bağırov rus dilini yaxşı bilirdi, qabiliyyəti və istedadı ilə yaşıdlarından fərqlənirdi. Fəhmi və gözüaçıqlığı sayəsində siyasi hadisələri düzgün qiymətləndirən Bağırov tezliklə Quba qəzasının sayılıb-seçilən şəxslərindən birinin – Əli bəy Zizikskinin diqqətini çəkir.

M.C.Bağırov 1917-ci ilin mart ayında Ə.Zizikski ilə yaxından tanış olur. O dövrdə Ə.Zizikski Quba qəzasındakı hakimiyyət boşluğunu doldurmaq üçün silahlı dəstələr formalaşdırırdı.

Əslində bu silahlı dəstələr Bakıdakı 1918-ci il mart hadisələri zamanı erməni Hamazapsın Azərbaycanın şimalına doğru hərəkət edən quldurlarından yerli əhalini qorumaq üçün yaradılmış müdafiə dəstələri idi. Əli bəy Zizikskinin məsləhəti ilə 1918-ci ilin ortalarında M.C.Bağırov Azərbaycanı tərk edir. O, Həştərxana gəlir və burada Nəriman Nərimanovla tanış olur.

1919-cu ildə N.Nərimanov M.C.Bağırovun siyasi əqidə bütövlüyünü, sərkərdəlik qabiliyyətini və yüksək təşkilatçılığını nəzərə alaraq, onu Həştərxandakı müsəlman polkunun komissarı vəzifəsinə irəli sürür. Az sonra 34-cü diviziyanın hərbi komissarı təyin olunan M.C.Bağırov 1920-ci ilin mayında Azərbaycana qayıdır. Bakıya gəlir və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin xüsusi tapşırığına əsasən, Dadaş Bünyadzadə ilə birgə Qarabağa göndərilir. O, inqilabi şuranın Qarabağ bölgəsində Azərbaycan ordusunun təşkili üzrə səlahiyyətli nümayəndəsi təyin edilir. Az sonra M.C.Bağırov Qarabağ Vilayəti Hərbi Şurasının sədr müavini və Vilayət Partiya Komitəsinin Rəyasət Heyəti sədrinin birinci müavini seçilir (Bunu Azərbaycan Dövlət Arxivindəki f 1; s 122. iş 107, səh.13-dəki sənəddə görmək olar).

Sual olunur: Qarabağın rəsmi ali rəhbərlərindən biri olan M.C.Bağırov, Mehriban Vəzirin təbirincə desək, hansısa "qeyri-qanuni quldur dəstəsi"nə nə üçün başçılıq etməli idi?

Məhz həmin günlər N.Nərimanovun yaxın milli silahdaşı olan M.C.Bağırov Qarabağda daşnaklarla mübarizə aparmış, əzəli tarixi ərazimizin daşnaklardan təmizlənməsində müstəsna xidmətləri, hərbi təşkilatçılıq fəaliyyəti olmuşdur.

Sual olunur: M.Vəzir erməni daşnaklarının başını əzmiş M.C.Bağırova böhtan atmaqla kimə, nəyə və hansı məqsədlərə xidmət edir?

Təsadüfi deyil ki, 11-ci ordunun Pankratovsayağı özbaşınalığına son qoymaq üçün N.Nərimanov M.C.Bağırovu Bakıya dəvət edir və onu 11-ci ordunun hərbi tribunal şöbəsinin sədri vəzifəsinə təyin edir.





Eyni zamanda Mehriban Vəzirin siyasi alver mövzusuna çevirdiyi 1937-ci il siyasi repressiyalarla bağlı yazdığı hadisələrə arxiv sənədləri işığında bir daha aydınlıq gətirmək istərdik.

Sözsüz ki, Azərbaycan oxucularının böyük əksəriyyəti uydurmalar hesabına bütün siyasi repressiyaların başında M.C.Bağırovun durduğunu güman edir. Lakin uzun illər apardığımız tədqiqatlar M.C.Bağırovun Stalinin yürütdüyü sinfi mübarizə siyasətinin əleyhinə olduğu qənaətinə gəlməyimizə ciddi əsas verir.1937-ci ilin ikinci yarısından repressiyaların miqyası genişləndi. Moskvadan göndərilmiş Xalq daxili işlər komissarının 00447 №-li əmrinə əsasən, Sovet İttifaqında repressiyaların həcmi görünməmiş həddə çatdı.

Ona görə də SSRİ-nin bütün respublika, vilayət və diyar rəhbərləri bu əmrlə bağlı mərkəzin tapşırığının yerinə yetirilməsi barədə Stalinə hesabat verirdilər. Bu gün bəzi mətbuat orqanlarında M.C.Bağırovun guya öz təşəbbüsü ilə repressiyalar həyata keçirilmək üçün Kremlə məktub yazması açıq-aşkar kontekstdən çıxarılmış, məqsədyönlü dezinformasiyadır. Təsadüfi deyil ki, məhz bu əmrdən sonra Moskvada MK üzvlərinin böyük əksəriyyəti həbs olundular. 1937-ci ilin sentyabrında Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının plenumunda Stalin məlumat verirdi:

"İyun plenumundan indiki plenuma qədər bizim sıralarımızdan MK-nın bir neçə üzvü çıxmış və həbs olunmuşdur: Zelenski, Lebed, Nosov, Patnitski, Xatayeviç, İkramov, Krinitski, Vareykis - 8 nəfər. MK üzvlüyünə namizədlər arasından həbs olunanlar isə 16 nəfərdir."

Sonralar da MK-nın digər üzvlərinə və namizədlərinə qarşı repressiya davam etdirildi. Bubnov, Kosarev, C.Kosior, Mejla-

uk, Pospışev, Ruximoviç, Çubar, Eyxe və başqaları həbs olundular. 1938-ci ilin axırına kimi Mərkəzi Komitə üzvlərinin 70 faizi repressiya olundu.

"Arqumentı i faktı" qəzetində (Moskva, 1989, № 5) çap edilən yazıda stalinizmin ümumi qurbanlarının sayı göstərilir. 1939-cu il yanvarın 1-nə qədər "QULAQ"dakı 1.317.195 dustağın 830.491-i rus, 181.905-i ukraynalı, 44.785-i belorus, 24.894-ü tatar, 24.499-u özbək, 19.758-i yəhudi, 18.572-i alman, 17.123-ü qazax, 16.860-ı polyak, 11.723-ü gürcü, 11.064-ü erməni, 9352-i türkmən, 4874-ü başqırd, 4347-i tacik, qalan 96.948-i yüzdən çox millətin nümayəndəsi idi.

Həbs olunanların yaş həddi belə idi: yaşı 18-dən az olanlar - 1, 2 faiz, 18-21 yaş arası olanlar - 9,3 faiz, 22-dən 40 yaşa qədər olanlar - 63,6 faiz, 41-dən 50 yaşa qədər olanlar - 16,2 faiz, 50 yaşdan yuxarı olanların sayı - 9,7 faiz. Böyük Vətən müharibəsinə qədər məhbusların 93 faizini kişilər, 7 faizini isə qadınlar təşkil etdiyi halda, 1944-cü ilin iyulunda 74 faizi kişilər, 26 faizi isə qadınlar idi ("Arqumentı i faktı" qəzeti, 1990-cı il, 1-7 sentyabr).

Göründüyü kimi, "Arqumentı i faktı" qəzetində azərbaycanlıların sayı göstərilmir. Çünki, digər respublikalara nisbətdə bu say çox azdır. Ancaq biz bu sayı Azərbaycan SSR-nin prokuroru Adil Salman oğlu Babayevin 4 may 1955-ci ildə Azərbaycan KP MK-nın birinci katibi İ.Mustafayevə təqdim etdiyi arayışdan öyrənə bilərik (Azərbaycan Respublikası Dövlət Arxivi: fond 1, siyahı 44, iş 251, vərəqə 4 - bu siyahını artıq açıq mənbələrdən əldə etmək mümkündü və mətbuatda dərc edilib - A.M.).

30 aprel 1954-cü ildə Azərbaycan SSR-nin prokuroru vəzifəsinə təyin olunmuş (M.C.Bağırovun həbsindən sonra - A.M.)





Adil Salman oğlu Babayevin 4 may 1955-ci ildə Azərbaycan KP MK-nın birinci katibi İ.Mustafayevə təqdim etdiyi arayışda 1937-38-ci illərdə **2.846** nəfərin siyasi repressiyaya məruz qaldığını bildirir və arayışa repressiya olunanların siyahısını əlavə edir. Onu da nəzərə almaq lazımdır ki, o dövrdə qonşu Ermənistanın əhalisi Azərbaycandan 3 dəfə az idi. Bütün bunlar onu göstərir ki, M.C.Bağırov Azərbaycanın bu repressiyalardan mümkün qədər az itki ilə çıxmasına çalışmışdır. Təəssüf ki, o dövrdə bir çox yazarlarımız, ziyalılarımız bir-birlərindən Moskvaya, M.C.Bağırovun başının üstündən donoslar yazır, bununla da onun əl-qolunu bağlayırdılar. Təsadüfi deyil ki, illər sonra Üzeyir Hacıbəylinin dəfn mərasimində, mərhum bəstəkarımızla vida mərasimi keçiriləndə Mir Cəfər Bağırov foyedə onlardan bəzilərini görür və hiddətlə "Moskvaya qalaq-qalaq donoslar yazmaqla Üzeyiri siz öldürdünüz", - deyir.

Çünki bu "donosçik"lərin ucbatından o, bir çox Azərbaycan ziyalısını qorumaq üçün birbaşa Stalinə müraciət edirdi. Məsələn, adını çəkdiyimiz Üzeyir Hacıbəyliyə, Əlağa Şıxlinskiyə və digərlərinə görə. Çünki, Nikolay Yejov onun müraciətlərinə məhəl qoymurdu. M.C.Bağırovu susdurmaq üçün yerli donosçu "ziyalılarımızın" adından XDİK-nın nümayəndələrinə, bir çox hallarda N.Yejovun adına məktublar göndərilirdi. O məktublarda bəzi ədiblərimizin əksinqilabçı dəstələrlə əlaqəsindən yazaraq, M.C.Bağırovu bunları ört-basdır etməkdə və onları qorumaqda günahlandırırdılar. Ona görə də həbslər barədə birbaşa Moskvadan əmr gəlirdi. Bax, bu baxımdan, M.C.Bağırovun yaxın silahdaşlarını, o cümlədən, ondan sonra ən yüksək vəzifəni tutmuş, Azərbaycan SSR Nazirlər Sovetinin sədri Hüseyn Rəhmanovu da həbs edirlər. M.C.Bağırov ona görə də Stalinə müraciət edir:

"Moskva, ÜK(b)P Mərkəzi Komitəsinə

**Yoldaş Stalinə**

Sentyabrın 7-dən başlayaraq Xalq Komissarları Sovetinin sədri Hüseyn Rəhmanovun xəstəliyi şiddətlənmiş, ağ ciyərində qanaxma başlamışdır. Onda şəkər xəstəliyi də aşkar etmişlər. H.Rəhmanovun konsilium və müalicəsi üçün Moskvaya göndərilməsinə icazə verməyinizi xahiş edirəm.

Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov
13 sentyabr 1937-ci il."

Buna cavab olaraq elə həmin günlər Mir Cəfər Bağırovun başı üzərindən Moskvaya tamamilə başqa məzmunda məxfi məlumatlar göndərilirdi:

"1933-cü ildə "əksinqilabçı millətçi qrupun üzvü olmuş" H.Rəhmanov M.C.Bağırovun təqdimatı ilə 1935-ci ildə Lenin ordeni ilə təltif olunmuşdur."

Lakin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi yaxın silahdaşını - Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədrini repressiyadan xilas edə bilmir. Bax belə bir vəhşiləşmiş mühitdə M.C.Bağırovun ziyalılarımızı repressiyadan qorumaq üçün göstərdiyi fədakarlığa cavab olaraq, Stalinin təkidi ilə ÜK(b)P MK-nın katibi A.A.Jdanov Azərbaycan KP MK-ya, şəxsən Mir Cəfər Bağırova göndərdiyi məktubda (bu məktub onun məhkəməsində oxunmuşdur - "M.C.Bağırovun





məhkəməsi" kitabından – A.M.) onu əksinqilabçı düşmənlərin, sosializm əleyhdarlarının tapılıb ifşa edilməsində qətiyyətsizlik göstərməkdə günahlandırırdı. Sözsüz ki, bu xəbərdarlıq məktubu əsassız deyildi. Artıq Kremlə M.C.Bağırovun Azərbaycanın milli ruhlu bir çox görkəmli ictimai-siyasi xadimini xilas etmək üçün birbaşa Sovet rəhbərliyinə göndərdiyi müraciətlərə görə, Kremlin Azərbaycan üzrə agentlərinin M.C.Bağırovdan mərkəzə ötürdüyü məxfi siqnallar ona qarşı yuxarıdakı xəbərdarlıq məktubunun əsasını formalaşdırırdı.

Bütün bu hadisələrin məntiqi nəticəsi kimi, 1938-ci ilin yanvarında N.İ.Yejovun tapşırığı ilə Bakıya SSRİ Daxili İşlər Komissarlığından geniş tərkibdə komissiya gəlir. Komissiyanın əsas məqsədi respublika rəhbərliyinin əksinqilabla mübarizəni zəif təşkil etdiyini və M.C.Bağırovun əksinqilabçılara qayğı ilə yanaşdığını üzə çıxartmaq idi. Moskvadan gələn komissiya M.C.Bağırovun həbsini əsaslandırmaq üçün müəyyən işlər görür və bu yoxlamanın nəticəsi kimi, onun millətçi-təmayülçü olması barədə Moskvaya məlumatlar ötürür. Bu məlumatlarda onun "Hümmət" təşkilatı ilə əlaqələri xüsusi vurğulanırdı.

Fəqət hadisələrin məcrası 1938-ci ilin yazında L.P.Beriya SSRİ Xalq daxili işlər komissarının müavini seçildikdən sonra dəyişir.

1938-ci ilin yazında L.P.Beriya SSRİ Xalq daxili işlər komissarının müavini seçildikdən sonra onun ilk işlərindən biri də N.İ.Yejovun tapşırığı ilə Bakıya göndərilmiş komissiyanın düzgün yoxlama aparmadığı barədə Stalinə məlumat vermək olur. Şübhəsiz, istər Beriya, istərsə də M.C.Bağırov Zaqafqaziyada onların iradəsindən asılı olmayan ədalətsiz həbslərin səbəbkarı

kimi N.İ.Yejovun nə vaxtsa məsuliyyət daşıyacağını bilirdilər. Buna görə də 1938-ci ilin noyabrın 12-də Siyasi Büro Yejovu SSRİ Xalq daxili işlər komissarı vəzifəsindən azad edir. Bu vəzifəyə L.R.Beriya seçilir.

Beriya bu vəzifəyə gəldikdən sonra repressiyalar səngiyir və ciddi şəkildə həbs olunanlara münasibət dəyişir. Belə ki ;

1. Artıq 22 oktyabr 1938-ci ildə SSRİ XKS-in qərarına əsasən xüsusi köçürülənlərin 16 yaşa çatmış uşaqlarının azad edilməsinə başlanır.

2. Elə həmin ildən yerli XDİK orqanlarının qərarları ilə "xüsusi köçürülənlər" kontingentindən olan və azad vətəndaşlara ərə getmiş qadınların sərbəst buraxılmasına başlanır (1946-cı ildən bu səbəblə azadedilmə SSRİ DİN və Prokurorluğun əmri ilə avtomatikləşdirilir).

3. 11 aprel 1942-ci ildən "keçmiş qolçomaqları" hərbi xidmətə çağırmağa başlayırlar. Həmin ilin 22 oktyabrından Qırmızı Orduya çağırılmış keçmiş qolçomaqların arvadlarının və uşaqlarının da azad edilməsinə start verilir.

4. 25 may 1944-cü ildən SSRİ XDİK-in direktivi ilə FZİ məktəbləri və sənət məktəblərinə istiqamətləndirilmiş "keçmiş qolçomaq" uşaqlarını uçotdan çıxarırlar.

5. 28 sentyabr 1946-cı ildən bu kateqoriyalı "keçmiş qolçomaqlar" (1 iyul 1938-ci il üçün SSRİ-də sürgün edilmiş qolçomaqların və onların ailə üzvlərinin sayı 997,329 nəfər təşkil edirdi. XDİK terminologiyasında onlar "xüsusi köçürülənlər" və sonralar isə "xüsusi məskunlaşanlar" adlandırılırdılar. Köçürülmə yerlərində isə onlara sadəcə - "keçmiş qolçomaqlar" - A.M.) deyilirdi.

6. Avtomatik azad edilirlər:





a) Hökumət mükafatları alanlar;

b) BVM iştirakçısı olan uşaqlara malik olanlar.

1 oktyabr 1945-ci ildən "keçmiş qolçomaqlar" və onların ailələrinin sayı artıq 606,819 nəfər təşkil edir.

Bütövlükdə isə həmin 1945-ci il ərzində "keçmiş qolçomaqların" say hərəkəti bu cür idi:

Gələnlər: 9,813 nəfər. Bunlardan: anadan olmuşdular – 6,532, həbs yerlərindən qayıdanlar – 1,744, qaçışdan qaytarılanlar – 638, yenidən uçot vaxtı aşkar edilənlər – 899.

Gedənlər: 39,475 nəfər. Bunlardan: azad edilənlər – 28,979, ölənlər – 8,196, qaçanlar – 865, həbs edilənlər – 1435.

Yeri gəlmişkən, 1946-cı ildə ölüm halları 1945-1950-ci illər arası müddətdə ən yüksəkdir – 21,556. Bizə belə gəlir ki, bu, SSRİ-dəki müharibəsonrası aclıqla əlaqədardır.

Sürgündə necə yaşayırdılar.

Heç də bütün "əski qolçomaqlar" Şimala və Sibirə getmirdilər. Stavropol diyarı, Stalinqrad vilayəti, Şimali Qafqaza da xeyli adam göndərilirdi. Həmçinin, Xerson vilayətində də böyük, xüsusi yerləşgələr mövcud idi.

2 yanvar 1946-cı ildə SSRİ XDİK-in Xüsusi yerləşgələr şöbəsinin rəisi M.V.Kuznetsov tərəfindən bütün xüsusi yerləşənlər üzrə (deportasiya edilmiş xalqlar, "vlasovçular", "benderlər", "meşə qardaşları" və b. da daxil) məxfi analitik məktub tərtib edilmişdi ki, burada o göstərirdi:

"Təsərrüfat-məişət baxımından daha yaxşı məskunlaşanlar keçmiş qolçomaqlardır. Onların əhəmiyyətli hissəsi xüsusi qəsəbələrdə yerləşdirilmişlər ki, burada onların öz evləri, həyət tikililəri, heyvanatı, kənd təsərrüfatı müxəlləfatı vardır. Onların ailələri maddi baxımdan təmin olunub və xüsusi ehtiyacları

yoxdur" (Kuznetsov heç nəyi şişirtmir – elə həmin məktubda digər kateqoriyadan olan minlərlə xüsusi yerləşənin maddi və məişət müşkülləri üzündən ölməsindən də yazır).

1 yanvar 1946-cı ildə "keçmiş qolçomaqların" və onların ailələrinin sayı 599,477 nəfər təşkil etdi. Bunlardan 269,722 nəfər xalq təsərrüfatında məşğul olur və bütün sovet vətəndaşları ilə bərabər əməkhaqqı və işçi güzəştləri alırdılar (yalnız cənubdakı sanatoriyalara gedə bilmir, digər istirahət yerlərində isə - yerli XDİK-DİN orqanlarının razılığı ilə, mütləq şəkildə uçota durmaqla dincəlmələri mümkün idi). Qalanları onların ailələri idi. "Keçmiş qolçomaqların" ən çox hissəsi Xalqtorpaqkom sistemində (79,030), kömür sənayesində (36,067), metallugiyada (44,200), sovxozlarda (10,976), yollarda (5,796) işləyirdilər. Amma əslində onlar bütün sahələrdə vardılar, o cümlədən də ədliyyə orqanlarında (hətta 3 nəfər).

117 nəfər "keçmiş qolçomaq" təkbaşına fərdi təsərrüfat idarə edir, çoxu da SSRİ-də gəlirli olan arıçılıqla məşğul olurdular.

Elə həmin 1946-cı ildən "keçmiş qolçomaqların" və ayrı-ayrı xüsusi yerləşgələrin böyük kateqoriyalarının azad edilməsi və uçotdan çıxarılması praktikasına başlanılır.

Belə ki, 11 iyul 1946-cı ildə Stavropol Diyarkomun katibi A.Orlov "ciddi məxfi" surətdə birbaşa yoldaş Stalinə müraciət edərək Apanasen, Arzgir və Budyonnı rayonlarındakı xüsusi qəsəbələrdə olan 62,727 "keçmiş qolçomağı" uçotdan çıxarmağı təklif elədi. Əsas:

- bu qəsəbələrdən BVM zamanı 7,636 nəfər cəbhəyə aparılmış, 3 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 303 nəfər ordenlərlə, 471 nəfər medallarla təltif edilmişlər. 564 nəfər müharibədən əlil olaraq dönmüşlər. Onların hamısı uçotda olan qohumlarına görə vəsatət irəli sürürlər.





- Diyarın işğalı zamanı xüsusi köçürülənlər Sovet hakimiyyəti lehinə köklənmişdilər, kommunistləri və yəhudiləri öz yanlarında gizlədirdilər.

Məktubu ilk olaraq Beriya aldı və 9 avqustda müsbət məzmunlu dərkənar qoyaraq onu məruzə üçün Stalinə göndərdi. Stalin təklifi dəstəklədi və 13 avqustda SSRİ Nazirlər Sovetinin qərarı ilə göstərilən bütün xüsusi yerləşgələrdə xüsusi rejim ləğv edildi və onlar adi kənd sakinləri dərəcəsinə keçirilirdilər.

Ümumilikdə, 1952-ci ilin yanvarınadək 12 belə qərar qəbul edildi.

Ümumilikdə, 1938-ci ilin yanvarından 1952-ci ilin yanvarınadək 882,922 nəfər "keçmiş qolçomaq" və onların ailə üzvləri azad edildilər. Bunların mütləq əksəriyyəti 1 yanvar 1941-ci ildən 1 oktyabr 1948-ci il tarixinədək azad olundular – 810,614 nəfər.

1947-ci ilin yanvarında 1 yanvar 1941-ci il tarixinədək qaçmış "keçmiş qolçomaqlar" haqqında əfv çıxdı.

Elə həmin 1947-ci ildə Beriya "aşkar antisovetçilər" istisna olmaqla ümumiyyətlə bütün "keçmiş qolçomaqları" (həmin vaxt üçün 221,259 nəfər) uçotdan çıxarmaq təklifi ilə çıxış edir. Lakin elə həmin ildə 1946-cı il seçkiləri dövründə xüsusi yerləşgələrdə antisovet təbliğatının yer alması ilə bağlı məlumatlar gəlib çıxır və Stalin azadlığa çıxmanı dayandırır. Əvəzində uşaqları Komsomola daxil olmuş bütün "keçmiş qolçomaqları" azad edir.

1952-ci ilin yanvarında xüsusi yerləşgələrdə 42,166 "keçmiş qolçomaq" vardı. 1953-cü ildə antisovet təbliğatı aparmamış bütün yerdə qalanları azad eləyirlər. 1954-cü il əfvetməsi veriləndə xüsusi yerləşgələrdə 17,121 nəfər adam qalırdı.

Azadedilmə zamanı "keçmiş qolçomaqların" sürgün dövrü ərzindəki əmək fəaliyyəti staj kimi qeydə alınır və müvafiq olaraq, təqaüd hesablanırdı.

Beləliklə, 1939-cu ilin aprel ayında Beriyanın tapşırığı ilə Sumbatov-Topuridzenin rəhbərlik etdiyi əməliyyat qrupu (baxmayaraq ki, Sumbatov o vaxt Moskvada XDİK (Xalq Daxili İşlər Komissarlığı) təsərrüfat şöbəsinin müdiri idi - A.M.) N.İ. Yejovu həbs edir. N.İ.Yejovun cinayətləri sübuta yetirilir və o, 1940-cı il fevralı 4-də güllələnmə cəzasına məhkum edilir.

Ona görə də Mehriban Vəzirə son sualım budur: Görəsən o dövrdə Azərbaycana rəhbərliyi M.C.Bağırov deyil, ona qədərki ermənilər – Levon Mirzoyan, yaxud Ruben etsəydi, bizim taleyimiz necə olacaqdı? Xanım yazar repressiyaların miqyasının hansı miqyasda olacağını təsəvvürünə gətirirmi?! M.C.Bağırovun həyatı bahasına qoruya bildiyi Üzeyirlərimizi, say-seçmə ədiblərimizi kim xilas edəcəkdi? Ümumiyyətlə, Azərbaycan mövcud olacaqdımı?!





# V HİSSƏ

## BAŞ TUTMAYAN ÇEVRİLİŞ

Bütün güc strukturlarını əlində cəmləşdirən Beriya Stalindən sonra ölkənin ikinci şəxsi idi. Məsələ burasındadır ki, bəzən Stalin özü də onu idarə edə bilmirdi. Hətta Stalinin şəxsən etibar etdiyi adamları belə, L.P.Beriya lazım gələndə, siyasi səhnədən kənarlaşdırmağı bacarırdı. Baş artilleriya idarəsinin rəisi işləmiş artilleriya marşalı Yakovlev xatirələrində belə qeyd edirdi:

– Hər il güc strukturlarına ayrılan silahın siyahısı Stalinə təqdim olunurdu. Bu siyahıda XDİK üçün 50.000 silah nəzərdə tutulurdu. Stalin bu rəqəmi görəndə əsəbiləşdi və soruşdu: XDİK üçün bu qədər silahın ayrılmasını kim təklif edib? Cavab verdik ki, Beriya. Stalin buna kəskin etirazını bildirəndə, biz də bu rəqəmə təəccübləndik. O, bizdən izahat tələb edirdi, amma heç nə deyə bilmirdik. Həmin dəqiqə Beriyanı yanına çağırtdırdı və kabinetə daxil olan L.P.Beriya Stalinə gürcü dilində nəsə başa salmağa çalışdı. Stalin onun sözünü kəsərək, rus dilində cavab verməyi tələb etdi və sualını təkrar elədi:

– Bu qədər silah sənin nəyinə lazımdır?

– Bu silahlar XDİK-nın yeni yaradılmış diviziyaları üçün nəzərdə tutulur, - deyə, Beriya cavab verdi.

– Sənə yarısı da kifayət edər. İyirmi beş min!

L.P.Beriya yenidən təkid etməyə başladı. Stalin iki dəfə onun sözünü kəsməyə çalışdı, ancaq Beriya ona qulaq asmayaraq, fikrini əsaslandırdı. Həmin an son həddə qədər əsəbiləşən Stalin üzünü bizə tutaraq dedi:

– Siyahıda XDİK üçün göstərilən rəqəmin üstündən xətt çəkin və on min ədəd yazın.

Buradaca sənəd təsdiqləndi.

Biz artıq kabinetdən çıxanda, Beriya arxadan bizə çataraq, hirsini üstümüzə tökdü:

– Məndən özünüzü gözləyin, bağırsaqlarınızı tökəcəm!

Biz əvvəl onun bu sözünə fikir vermədik və düşündük ki, yəqin bu, qafqazlı zarafatlarından biridir. Ancaq sonra başa düşdük ki, bu dəliqanlı hədələyici sözlərini həqiqi mənada həyata keçirir.

N.K.Baybakov öz kitabında qeyd edir ki, ümumiyyətlə, partiya, dövlət dairələrində belə bir fikir hökm sürürdü ki, hər hansı dövlət əhəmiyyətli bir işdə nailiyyəti yalnız Beriya təmin edə bilər. Sözsüz ki, Stalin Beriyanın bacarığını və uğurlarını görür və çox yüksək qiymətləndirirdi. Onu da qeyd etmək lazımdır ki, Stalinin tam etimadını məhz dövlət əhəmiyyətli hansısa nəticəni əldə etməklə qazanmaq olardı.

L.P.Beriyanın qazandığı uğurlar o dərəcədə əhəmiyyətli idi ki, Stalin bunun nəyin bahasına əldə edildiyini, neçə insanın faciəsi nəticəsində əmələ gəldiyini öyrənməyi vacib saymırdı. Ümumiyyətlə, Stalinin ictimai, şəxsi, siyasi fikirlərinin formalaşmasında əsas rolu Beriyanın tam nəzarətində olan daxili işlər orqanlarının analitik mərkəzlərinin məlumatları oynayırdı. Dünya iqtisadi rəqabətində SSRİ-də aparılan sənayeləşmə kampaniyası, o cümlədən, hərbi sahədə müasir silah növlərinin





hazırlanması əvvəl Almaniyaya qarşı müharibədə qələbəni, sonralar isə ABŞ-la rəqabətdə hərbi prioritetə nail olmanın əsasını təşkil edirdi. Bütün bu proseslərdə əsas rollardan birini L.P.Beriya oynayırdı. Müharibə zamanı XDİK-nın arxa cəbhədə sipər dəstələri tərəfindən ön xətdən qaçan əsgərlərin yerindəcə güllələnməsi, o cümlədən, dövlət məmurunun ölkənin hərbi-sənaye təssərrüfatı sahəsində buraxdığı səhvə görə ən yaxşı halda Sibirə sürgün edilməsi adi hal idi. Bu baxımdan, Beriya o dövrün insanlarının başının üstündə "domokl qılıncı" kimi durmuşdu. N.K.Baybakov xatirələrində qeyd edir: "Müharibədən sonrakı illər idi, anqina ilə xəstələnib, 40 dərəcə hərarətlə evdə, yataqda xəstəliklə mübarizə aparırdım.

Birdən telefon zəng çaldı. Həyat yoldaşım Klavdiya Andreyevna telefonun dəstəyini götürdü, fikirli və həyəcanlı olduğundan qarşı tərəfin özünü təqdimatını başa düşmədi və bir də soruşdu:

– Təkrar edin. Kimdir ?

– Axmaq qadın, danışan Beriyadır, mənə Baybakov lazımdır.

– Xəstələnib, yüksək hərarətlə yataqdadır, - deyə, Klavdiya Andreyevna ona cavab verdi.

Beriya ona kəskin cavab verdi:

- Hər axmaq xəstələnə bilər, qaloş geyinmək lazımdır, onu telefona çağır.

Mən çox çətinliklə ayağa durub, telefona yaxınlaşdım. Beriya səhhətimi soruşmadan daxili işlər komissarı Kruqlovla Ufada neft emalı zavodunda baş vermiş qəza ilə əlaqədar ora getməyimi əmr etdi. Artıq bir neçə saatdan sonra qızdırma içində Ufada peyda oldum".

Günü-gündən Stalinin yüksək etimadını qazanan Beriya şəxsi nüfuzunu, çəkisini hökumət və partiya üzvləri qarşısında nümayiş etdirirdi. O, yuxarı siyasi eşalonda yeganə adam idi ki, Stalinlə mübahisə edir, yeri gələndə, ona sərf eləməyən siyasi rəqibləri haqqında kompramatlarla ölkə başçısında mənfi rəy formalaşdırırdı. Stalinin hər hansı rəhbər vəzifədə çalışan şəxsə yaxşı münasibət göstərməsi, yaxud onun fikirlərinə qulaq asması Beriyanı çox qıcıqlandırırdı. Artıq Stalin həyatının qürub çağının yaxınlaşdığını hiss etdikcə, özünün siyasi varislərini müəyyən edirdi. O, özündən sonra Sovet İttifaqı KP MK-nın baş katibi kimi Kuznetsovu, Nazirlər Sovetinin sədri kimi Voznesenskini görmək istəyirdi. Liderin bu niyyətindən xəbər tutan və Stalindən sonra hakimiyyəti ələ keçirmək istəyən möhtəşəm intriqa ustası Beriya yuxarıda adı çəkilən insanları siyasi səhnədən kənarlaşdırmaq strategiyasını işlədi.

L.P. Beriya kompromat kimi, o vaxtlar SSRİ Plan Komitəsinin sədri işləyən N.A.Voznesenskinin 1949-cu ilin I rübündə sənayenin inkişafında kapital qoyuluşunun azaldılması barədə məruzəsindən istifadə etdi. Bu fakt o dövr üçün ciddi siqnallardan biri idi. Beləliklə, Voznesenskini Stalinin gözündən tam salmaq üçün Beriya Dövlət Plan Komitəsinin kadrlar müdiri E.E.Andreyevi komitədə bir neçə tam məxfi məktubların itməsi barədə ona ərizə ilə müraciət etməyə sövq etdi. Sonradan Beriya Malenkovu öz tərəfinə çəkdi. Onlar Nazirlər Sovetinin gələcəkdə sədri ola biləcək Voznesenskini məhv etmək üçün onu Plan Komitəsində itirilmiş sənədlərin günahkarı kimi Stalinə müraciət etdilər. Beləliklə, Voznesenskinin Dövlət Plan Komitəsində fəaliyyətinə son qoyuldu.





N.K.Baybakov "От Сталина до Ельцина" kitabında qeyd edir: "Bir dəfə gözlənilmədən Lavrenti Beriya zəng etdi və birbaşa sual verdi: Yoldaş Bağırov hardadır?

Mən bu zəngdən çox, sualdan təəccüblənərək cavab verdim: Bağırov MK-nın katibidir və o, mənə hara gedəcəyi barədə hesabat vermir. Ancaq sonra məlum oldu ki, Bağırov Maçestada istirahət edən Stalinə baş çəkməyə gedib".

N.K.Baybakov qeyd edir: "L.P. Beriya partiya-sovet rəhbərlərinin birbaşa Stalinlə əlaqəyə girməsini istəmirdi". Sözsüz ki, bunu Bağırov da bilirdi. SSRİ-nin rəhbərlərindən, Stalindən savayı Beriya ilə kəllə-kəlləyə gəlməyə cəsarət etməyi bacaran yalnız Bağırov idi. Beriyanın bu cür təşvişə düşməsi, sözsüz ki, əsassız deyildi, ancaq Bağırov da Beriyanı itirmək istəmirdi. Siyasi şahmat lövhəsində kardinal gedişlər edən M.C.Bağırov, görünür, bu addımı ilə keçmişindən təşvişə düşən Beriyadan Azərbaycanın mənafeyinə uyğun yenidən istifadə etmək istəyirmiş. Aydındır ki, Beriya Stalinin ölümündən sonra hakimiyyətə can atırdı. Nazirlər Sovetinin sədri Malenkovun müavini kimi eyni vaxtda Dövlət Təhlükəsizlik Komitəsinin birləşmiş orqanlarına və Daxili İşlər Nazirliyinə rəhbərlik edirdi.

Stalinin ölümündən sonra L.Beriya Dövlət Təhlükəsizlik Nazirliyini və Daxili İşlər Nazirliyini birləşdirərək, yeni qurumun başçısı oldu. Artıq 1953-cü ilin mart ayının sonlarında M.C.Bağırov Sovet İttifaqı KP MK Rəyasət Heyətinə namizəd kimi daxil olur. O, Rəyasət Heyətinin üzvlüyünə namizəd kimi Azərbaycan rəhbərliyindən bu yüksək pilləyə çatmış ilk şəxs idi. Stalinin ölümündən sonra ilk aylar Beriya-Malenkov birliyi KP MK-nın Rəyasət Heyətində istənilən məsələni öz mənafelərinə uyğun həll edirdilər. Görünür, Beriya-Bağırov cütlüyünün

planına görə, SSRİ-də hakimiyyət bölgüsü aşağıdakı şəkildə aparılmalı idi:

1. Sovet İttifaqı KP MK-nın I katibi - E.M.Malenkov;

2. DTN və DİN sistemlərini əlində cəmləşdirmiş Nazirlər Soveti sədrinin I müavini - L.P.Beriya;

3. SSRİ Nazirlər Sovetinin sədri - M.C. Bağırov – sonradan Sov. İKP MK Rəyasət Heyətinin həqiqi üzvü seçilməklə. *(Bunu aşağıda izah edəcəyik)*;

4. Müdafiə naziri – N.A.Bulqanin;

5. SSRİ Ali Sovetinin sədri – K.E.Voroşilov *(sonuncu ikisi öz vəzifələrində qalmaqla)*;

6. Xarici işlər naziri – V.N.Dekanozov. Rəyasət Heyətinə namizəd və sonra həqiqi üzv seçilməklə.

Stalinin ölümündən sonrakı 3 ay yarım bu vəzifələrdə qalan L.Beriya, demək olar ki, hər gün yeni-yeni təşəbbüslərlə çıxış edirdi.

N.K.Baybakovun "От Сталина до Ельцина" kitabından:

"A.Mikoyan öz xatirələrində qeyd edir: Beriyaya sual verirdim ki, bu qədər səlahiyyətlərlə Daxili İşlər Nazirliyi sənin nəyinə lazımdır? O, sualıma cavab olaraq söyləyirdi: "Qayda-qanunu bərpa etmək lazımdır. Ölkədəki vəziyyətə dözmək olmur. Bizdə çox sayda həbs olunan insanlar var, onları azad etmək lazımdır". Həqiqətən də, 24 mart 1953-cü ildə L.P.Beriya Sov. İKP MK-nın Rəyasət Heyətinə amnistiya haqqında müraciət göndərir və bu müraciətin əsasında martın 27-si SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı çıxır. Bu fərmana görə, həbsdə olan 2,5 milyon insandan 1,2 milyonu azad olunur."





Sonra növbə siyasi dustaqlara çatdı. 1953-cü ilin aprelin 4-də qəzetlərdə "SSRİ DİN-nin məlumatı" dərc olundu. Burada göstərilir ki, L.Beriyanın sərəncamına əsasən, DİN-də yaradılmış istintaq qrupu "Həkimlərin işini" araşdırmış və bu qənaətə gəlmişdir ki, aparılan istintaq zamanı zor tətbiq edilmiş və alınan ifadələr həqiqəti əks etdirmir, irəli sürülən ittihamlar əsassızdır. Beriya bu addımı ilə Molotovu öz tərəfinə çəkmək istəyirdi. Həkimlərin işi ilə əlaqədar Molotovun arvadı da həbs olunmuşdu. Bununla bərabər o, hakimiyyətə can atan Xruşşova və digər qruplara xəbərdarlıq işarəsi verirdi. 1936-cı ildən N.S.Xruşşov Moskva partiya komitəsinin katibi, 1939-cu ildən isə Sov. İKP MK Rəyasət Heyətinin üzvü seçilmişdi. Bəli, o, məhz kütləvi həbslərlə və güllələnmə ilə nəticələnən "Moskva prosesləri"nin təşkili işində məşhurlaşmışdı.

Məhz o, Ukraynada I katib işləyən zaman aclığa qarşı etiraz edənlərin kütləvi terrorunu təşkil etmişdi.

O dövrlər Stalin partiya rəhbərləri arasından gizli olaraq seçilmiş partiya funksionerlərinə xüsusi səlahiyyət – "samosud" etmək hüququnu vermişdi. Onlara "Üçlük" deyilirdi: B.Molotov, N.S.Xruşşov, L.M.Kaqanoviç həmin üçlüyün üzləri idi. O cümlədən, müttəfiq respublika, vilayət, diyar, şəhər rəhbərləri arasında da üçlüyün üzvləri vardı.

Artıq Beriya həbs olunan siyasi məhbuslardan çoxlu sayda məktublar alır və onların günahsız olduğunu bilirdi. Həmin məktublarda məhbuslar "Üçlüy"ün sədri kimi N.S. Xruşşovun göstərişinə əsasən azadlıqdan məhrum olunduqlarını yazırdılar. Beriya bu faktlardan Xruşşovu siyasi səhnədən uzaqlaşdırmaq üçün istifadə etməyə hazırlaşırdı. Beriya bu planı həyata keçirmək üçün mövcud milli problemləri qabardırdı. O, respublika-

larda milli kadrlardan geniş istifadə etmək, Moskvadan göndərilən rusları milli kadrlarla əvəzləmək, milli mühacirlərin geri qayıtmasına şərait yaratmaq, deportasiya olunmuş xalqları geri qaytarmaq, milli ziyalılarla ümumi dil tapmaq konsepsiyasını irəli sürürdü.

N.K. Baybakovun yuxarıda adı çəkilən kitabından:

"Mikoyan yenə öz xatirələrində qeyd edir:

Beriya, ümumiyyətlə, qarşılıqlı iqtisadi yardım şurasının yaranmasının əleyhinə idi. O, Almaniya Demokratik Respublikasında sosializmin süni sürətdə yaradılmasına qarşı çıxırdı. O, AFR-lə ADR-in birləşməsinin, sülhsevər, neytral burjua-demokratik dövlətin yaradılmasının tərəfdarı idi".

Yuxarıda qeyd etmişdik ki, Kreml milli respublikaların rəhbərliyinə qeyri-milli kadrları göndərir və onlar yerli rəhbərlərə nəzarət etmək üçün Moskvanın agenti funksiyasını yerinə yetirirdilər. Ona görə də Xruşşov başa düşürdü ki, Beriya onu "Üçlüy"ün rəhbəri kimi ifşa edəcək və o, Beriyanı aradan götürmək üçün planını sürətləndirirdi. Həmçinin, Beriya da Kremldə hakimiyyəti ələ almaq üçün müəyyən hazırlıq tədbirləri görmüşdü. O, öz təsəvvüründə siyasi hakimiyyət dəyişikliyində ona dəstək verə biləcək şəxslərdən ən birincisi kimi M.C.Bağırovu görürdü. Həqiqətən də Beriyanın aparacağı siyasi hakimiyyət dəyişikliyinə M.C.Bağırov da hazırlaşırdı.

1953-cü il aprelin 6-da Azərb.KP MK-nın büro iclasında M.C. Bağırov MK-nın I katibi vəzifəsindən azad olunaraq, Azərbaycan Nazirlər Sovetinin sədri seçilir. Bu təyinat Beriya-Bağırov planına görə, SSRİ Nazirlər Sovetinin sədrliyinə gedən yolda tramplin rolunu oynayacaqdı. Azərb.KP MK-nın I katibi vəzifəsinə Siyasi Büro tərəfindən Mir Teymur Yaqubov təsdiq





edilir. Buna qədər o, Bakı Partiya komitəsinin I katibi vəzifəsində işləyirdi. İkinci katib yenidən Vitali Səmədov təsdiqlənir.

F. 1, q. 405, d. 3188

SOVET İTTİFAQININ KOMMUNİST PARTİYASI
КОММУНИСТИЧЕСКАЯ ПАРТИЯ СОВЕТСКОГО СОЮЗА

Azərbaycan KP Mərkəzi Komitəsi
Центральный Комитет КП Азербайджана

5 may 1953-cü il
Azərb. KP MK-nın qeydiyyat bölməsi.

**Azərbaycan SSR Ali Soveti III sessiyasının gündəliyi**

Azərbaycan SSR Ali Sovetinin III sessiyasının gündəliyinə baxılmaq üçün aşağıdakı məsələlər daxil edilsin:

Azərbaycan SSR Nazirlər Sovetinin sədri barədə.

Yoldaş Bağırov Mircəfər Mirabbas oğlu Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsinə təsdiq edilsin. Yoldaş T.İ.Quliyev həmin vəzifədən azad edilsin

Quliyev Teymur İmamqulu oğlu Azərbaycan SSR Nazirlər Sovetinin sədrinin birinci müavini təsdiq edilsin.

Azərbaycan K(b)P) MK-nın katibi M.C.Bağırov

O cümlədən, Beriyanın yuxarıda sadaladığımız milli ruhlu fikirləri imperiya ənənələrinə zidd idi və bu fakt onun Kreml divarları arasında təklənməyinə səbəb oldu.

Ona görə də "Beriya kimdir" sualına Xruşşovun Beriya haqqında yaratdığı miflərlə cavab verilirdi. Ona cinayətkar, bütün repressiyaların təşkilatçısı, şər qüvvəsi kimi yanaşsaq, qeyri-obyektiv olarıq. Təsadüfi deyil ki, Beriyanın ölümündən sonra birbaşa Xruşşovun göstərişi ilə arxivlərdən, Ukrayna və Moskva "təmizləmələri" ilə əlaqədar bütün sənədlər çıxarılıb yandırılır. Bu təmizləmələrdən sonra artıq o, "Stalin dövrünü" atəşə tutan ali hakimə çevrildi.

1957-ci ildə SSRİ Kommunist Partiyası Moskva şəhər Kommunist Partiyası Mərkəzi Komitəsi Partiya İnstitutunun direktoru Kastamarova arxivdən Xruşşovun imzası ilə güllələnmiş insanların sənədlərini çıxartdı.

1988-ci il dekabrın 25-i SSRİ Kommunist Partiyası MK-nın Siyasi Bürosunun komissiyasının 30-40-cı illərdə aparılan repressiya ilə əlaqədar çıxarışında göstərilir:

"Xruşşov Moskva partiya komitəsinə rəhbərlik etdiyi zaman 1936-1937-ci illərdə 55.741 insan, Ukraynaya birinci katib vəzifəsinə gəldikdən sonra, 1938-1940-cı illərdə isə 167.585 nəfər repressiyaya məruz qalmışdır" (Христоматия по Отечественной истории 1948 – 1995 г. М., 1996, стр. 317).

1948-ci il iyulun 2-də SSRİ Ali Sovetinin məlum fərmanının tərtibçisi birbaşa Xruşşovun özü idi. Bu fərmana əsasən, əmək fəaliyyətindən yayınanları xüsusi yaşayış məskənlərinə sürgün edirdilər. Bu fərmana əsasən, 33.266 insan, yəni, 13.538 ailə sürgün olunmuşdur.





SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin 9-cu idarəsinin (ali dövlət rəhbərlərinin mühafizəsi) rəis müavini, Sovet İttifaqı qəhrəmanı Mixail Stepanoviç Dokuçayev öz xatirələrində qeyd edirdi (N.K. Baybakov: "От Сталина до Ельцина", səh.153):

"Müharibə zamanı N.S.Xruşşovun təyyarəçi oğlu Leonid ağır cinayət törədir. O, oğlunun əfv olunması xahişilə Stalinin qəbuluna gəlir. Otağa daxil olan Xruşşov diz üstə çöküb, göz yaşını tökür, "hıçqıra-hıçqıra" Stalinin ayağından tutur və oğlunu əfv etməsini ondan xahiş edir. Ancaq Stalin onun oğlunu əfv eləmir, ön cəbhədəki cərimə batalyonuna göndərmək tapşırığını verir!

Xruşşov bu hadisədən sonra yaxın dairəsində bunun hayıfını Stalindən çıxacağına and içir".

1953-cü ilin mart ayında, Stalinin ölümündən sonra baş katibin səlahiyyətləri Rəyasət Heyətinin üzvlərinə keçdi. Ancaq real idarəetmə rıçaqları Rəyasət Heyətinin üç üzvü arasında bölünmüşdü: SSRİ Nazirlər Sovetinin sədri Malenkov, Mərkəzi Komitə aparatının rəhbəri Xruşşov və Nazirlər Soveti sədrinin müavini, daxili işlər naziri Beriyanın.

N. Xruşşov öz xatirələrində ("Вопросы истории") qeyd edirdi:

"Stalinin ölümündən bir müddət sonra Mikoyan mənə yaxınlaşdı. O, Beriyanın təhlükəli olduğunu və mənə hakimiyyəti ələ almağın yollarını göstərərək, kömək etmək istədiyini bildirdi. Mən də öz adımdan onunla razılaşaraq, qeyd etdim ki, nə qədər ki, bu "əclaf" Rəyasət Heyətində oturub, biz özümüzü rahat hiss edə bilmərik".

Mikoyan bu razılaşmadan sonra öz növbəsində Beriyanı aradan götürmək üçün ona qarşı məxfi plan hazırladı.

N.S.Xruşşov qeyd edirdi:

"Mən Siyasi Büronun üzvləri ilə bir-bir görüşərək, onları özümə tərəf çəkirdim. Ən çox ehtiyat etdiyim şəxs Malenkov idi. O, Beriya ilə dostluq edirdi. Ancaq bu işdə Malenkov da, "başqa çarəmiz yoxdur" - deyərək, məni dəstəklədi. Əslində o, özü də Beriyadan qorxurdu. Malenkovdan sonra K.Y.Voroşilov və Kaqanoviçlə də razılığa gəldik. Nəzərdə tutulmuş həbs günü mən G.K.Jukovu yanıma çağırtdırdım. O vaxtlar Beriyanın Jukov haqqında formalaşdırdığı mənfi fikirlərlə əlaqədar Stalin Jukovun vəzifəsini aşağı endirərək, Odessa hərbi dairəsinə komandir təyin etmişdi. Beriya bir neçə dəfə Jukovu həbs eləmək istəsə də, Stalin buna mane olmuşdu. Buna görə Jukovun mənim tərəfimi tutacağını bilirdim. Jukov kabinetimə daxil olan kimi üzümü ona tutaraq söylədim:

– Bu əclafı, Beriyanı, həbs etmək lazımdı.

Jukov bu təklifimin cavabında belə söylədi:

– Nikita Sergeyeviç, mən "jandarm" olmamışam, ancaq bu işi həvəslə yerinə yetirərəm və mən neyləməliyəm?

Mən ona özünə sadiq, silahlanmış zabitlərlə Kremlin gözləmə otağında mənim zəngimi gözləməsini bildirdim.

ÜK(b)P MK-nın Rəyasət Heyətinin iclasını çağırdıq. Rəyasət Heyətinin bütün üzvləri artıq toplaşmışdı, ancaq Beriya yox idi. Elə bildim ki, kimsə məni satıb. Ancaq bir müddət sonra Beriya gəldi. Stula yayxanaraq: "Nəyə görə gözlənilmədən iclas çağırmısınız və gündəlikdə hansı məsələlər durur?", – deyə, sual verdi. Bu an mən özümü itirməyərək, söylədim:

– Gündəlikdə yalnız bir məsələ var. Antipartiya hərəkətləri ilə tanıdığımız, beynəlxalq imperializmin agenti Lavrenti Beriyanın məsələsi. Təklif var ki, onu Siyasi Bürodan və partiya





sıralarından azad edək və işi hərbi tribunala verilsin. Kim lehinədir? - deyib, sol əlimi birinci özüm qaldırdım, sağ əlimlə isə siqnal düyməsini basıb, Jukova işarə göndərdim. Artıq Jukov içəri daxil olan an digərləri də əllərini qaldırdılar. G.Jukov özünə sədaqətli zabitlərlə Beriyanı əhatəyə alaraq, "Diz üstə!" əmrini verdi. Bütün bunların aniliyindən hələ də özünə gələ bilməyən Beriya nə baş verdiyini başa düşə bilmirdi".

Bu hadisə barədə Rəyasət Heyətinin məlum iclasının iştirakçılarından başqa heç bir vəzifəli şəxsin məlumatı yox idi.

Beriyanın həbsindən bir neçə gün sonra, 1953-cü iyulun 2-də Kremldə Sov.İKP Mərkəzi Komitəsinin növbədənkənar plenumu çağırılır. Öz işinə başlayana qədər iştirakçıların növbədənkənar plenumun nə ilə əlaqədar olduğundan məlumatları yox idi.

Moskvada plenum başlayana qədər Bağırov Beriya ilə əlaqə yaratmağa çalışır, lakin Beriyanın telefonu cavab vermirdi. O, sonra vəziyyəti dəqiqləşdirmək üçün N.K.Baybakova zəng vurur. O, da "Beriya yəqin ezamiyyətdədir" – deyərək, M.C.Bağırova cavab verir. Sonra o, Mikoyanla telefon əlaqəsi saxlayır. Mikoyan onunla uzun danışmayaraq, dəstəyi qapadır. Sözsüz ki, Mikoyanın mövqeyi aydın idi. Çünki Beriyanın həbsindən əvvəl onun müsavat əks-kəşfiyyatında fəaliyyətinə dair dosyesini məhz Mikoyan hazırlamışdı. O, Azəpbaycanda bütün erməni mənşəli vəzifəli şəxslərin həm tarixi keçmişindən, həm də müasir mərhələdəki fəaliyyətindən xəbərdar idi. O cümlədən, Mikoyan Kremldə əyləşən bütün vəzifəli ermənilərin də arxası idi. Məhz Mikoyan Stalinə ermənilərin Azərbaycanda rəhbər vəzifələrə qoyulmasının vacibliyini deyir və respublikanın türk mənşəli rəhbərlərinin apardığı siyasi kursu barədə məlumatları

Moskvaya çatdırmaq üçün erməniləri əsas mənbə sayırdı. Sonradan məlum olur ki, arxivdən Beriyaya aid dosyeləri M.C.Bağırova Dövlət Təhlükəsizlik Nazirliyi ilə Daxili İşlər Nazirliyi birləşəndən sonra, daxili işlər naziri olmuş Yemelyanov təqdim edib. Lakin Yemelyanov bu məlumatı Stalinin sağlığında heç kimə deyə bilməzdi. Ən azı ona görə ki, bütün "MQB" və "MVD" sisteminə Beriya nəzarət edirdi. Bunu olsa-olsa təkcə Stalinə demək olardı. Bunu da Stalinə ancaq M.C.Bağırov deyə bilərdi.

M.C.Bağırova bu məlumatı vermək sərf etmirdi. Tutalım bu məlumat verilsəydi və bu, L.Beriyanın siyasi süqutuna gətirib çıxarsaydı, kim bilir Kremldə Siyasi Büronun müzakirəsinə çıxarılan azərbaycanlıların Sibirə, Şimali Qazaxıstana nəzərdə tutulan deportasiyası və millətimizin taleyüklü məsələləri necə həll olunacaqdı. Həm də Azərbaycanın ictimai-siyasi, dövlət quruluşu qalacaqdımı? 1991-də müstəqilliyimizi elan etmək üçün ərazimiz olacaqdımı? Ola bilsin biz də Krım tatarları və axısqa türkləri kimi hələ də vətənimizə qayıtmaq üçün mücadilə aparırdıq. Bax budur reallıq! Ümumiyyətlə, Azərbaycanın mənafeyinə uyğun kardinal qərarların böyük əksəriyyətinin qəbulu Kremldə məhz L.P.Beriyanın köməkliyi ilə həyata keçirilmişdir. Hətta artıq 1952-ci ildə, Stalinin sağlığında keçirilmiş sonuncu plenumda Bağırov-Beriya cütlüyü kremldə onların siyasi fəaliyyətlərinə birmənalı şəkildə mane olan Mikoyan-Molotov cütlüyünü tamamilə siyasi səhnədən çıxartmaq üçün Stalini inandıra bilmişdi. Molotov yeni yaranmış İsrail dövlətinin SSRİ-də fövqəladə və səlahiyyətli səfiri ilə görüşü zamanı Krım yarımadasında yəhüdilərin Muxtar Respublikasının yaradılması ilə əlaqədar səfirlə müzakirələr aparmış və bu, Stalini olduqca əsəbiləşdirmiş və Molotovun həbsdə olan arvadını yenidən Moskvadakı istintaq izolyatoruna gətizdirməyinə səbəb olmuşdu. Ondan Molotovun beynəlxalq sionist qüvvələrlə əlaqələrini təsbit etmək üçün ifadələr almağa cəhd olunurdu. Həmin plenumda həm də Stalinin Mikoyanla kəskin dialoqu yaranmış və sonradan Mikoyanın siyasi keçmişini araşdırmaq üçün Beriyaya tapşırıq verilmişdi (B.Sokolov, "Beriya" kitabı). Hətta Stalin belə bir fikir söyləmişdi: "Necə olur ki, 26 Bakı komissarı ingilislərin əlinə keçdikdən sonra yalnız Mikoyan sağ qalmısdir?". Bu fikir artıq gələcəkdə Mikoyanı ingilislərin emissarı kimi ittiham etmək üçün Beriyanın əlində ciddi dəlil idi. Lakin Stalinin ölümü ilə bütün bu araşdırmalar yarımçıq qaldı. Onun ölümündən sonra imperiyanın qanunlarına zidd gedən L.P.Beriyanın hakimiyyəti əlinə keçirəcəyindən təşvişə düşən Çar Rusiyasının kommunist qılaflı varisləri buna imkan verməzdilər.





Bizim qənaətimizə görə, o vaxt Beriyanın dosyelərinin Bağırov tərəfindən arxivlərdən çıxarılaraq Beriyanın özünə göndərilməsi barədə Moskvaya – Mikoyana məhz həmin Yemelyanov məlumat verib. Burada bir amili də nəzərdən qaçırmaq lazım deyil ki, Beriya Yemelyanovu Azərbaycan DİN-nin rəhbərliyindən kənarlaşdırmaq, onun yerinə azərbaycanlı kadrın təqdim olunması barədə M.C.Bağırova müraciət etmişdi. Bunu aşağıda, M.C.Bağırovun Bakıdakı plenumdakı çıxışında görəcəyik.

L.P.Beriya həbs edildikdən sonra növbə onun tərəfdarlarına çatır. Beriyanın təşəbbüsü ilə təhlükəsizlik və daxili işlər nazirlikləri birləşdirilib Daxili İşlər Nazirliyi adlandırıldıqdan sonra onun birinci müavini vəzifəsinə Kabulov Boqdan Zaxareviç təyin edilmişdi. Hərbçilər gecə ikən Kabulovun evinə soxularaq əvvəlcə onu həbs edirlər. Sonra Dekanozov Vladimir Qeorqo-

viç, Menşikov Pavel Yakovleviç, Vlodzimirski Lev Yemelyanoviç və Qoqlidze Sergey Arsentoviç içəri salınır. Moskvadakı plenumdan bir müddət sonra isə Merkulov Vsevolod Nikolayeviç həbs olunur.

L.P.Beriyanın həbsinin və məhbus həyatının şahidi Xijnyak 1994-cü il iyulun 28-də "Вечерняя Москва" qəzetinə verdiyi müsahibəsində deyir: "Beriya general Moskalenko, Bakeyev, Batiskiy, polkovnik Zub, polkovnik Yerastov və podpolkovnik Yuferevin əhatəsində Nazirlər Sovetinin qapısından çıxarılaraq, ZİS-110 markalı avtomobilinə otuzduruldu. Onları avtomatla silahlanmış 50 nəfərdən ibarət avtomobil karvanı müşayiət edirdi. 40-50 dəqiqədən sonra qarnizon qaubvaxtına gəldik və orada Beriyanı kameraya yerləşdirdilər. İyulun 27-də ordu komananı K.C.Moskalenko məni yanına çağırtdırdı və kamerada Beriyaya xidmət etməyi tapşırdı. Mən Beriyaya yemək hazırlayır, yedizdirir, çimizdirir, saçını, üzünü qırxır və növbətçi generalla əlaqəyə girməsini təşkil edirdim. Beriya ilə ilk görüşüm 27 iyulda baş verdi. Mən ona yemək aparırdım. Öncə general Bakeyev, onun arxasınca polkovnik Zub, sonra mən kameraya daxil olduq.

Beriya kamera çarpayısında əyləşmişdi, gözümün önündə cəzbedici pensne taxmış dolu bir kişi canlandı. 165-170 santimetr boyunda olan bu şəxs ciddi və əsəbi baxışları ilə kameraya daxil olanları gözlərinin ucu ilə süzərək, üzünü yana çevirdi. Biz ondan "Siz yemək yeyəcəksinizmi?" - deyə soruşanda, əsəbi vəziyyətdə "Mənə kağız və qələm gətirmisinizmi?" sualını verdi. – Gətirmişik, - deyə general Bakeyev cavab verdi. Qələmi əlinə alaraq yazmağa başladı (Beriya kameradan Malenkova ünvanladığı məktubunda ondan ailə üzvlərinə qayğı ilə yanaşmasını xahiş edirdi. Çox təəssüf ki, Malenkov nəinki Beriyanın ailə üzvlərinə qayğı ilə yanaşdı, hətta Beriyanın həyat yoldaşı Nina Teymurazovnanın və oğlu Serqonun həbsinə razılıq verdi – A.M.). Mən yeməyi stolun üstünə qoyanda o, nimçəni vurub şorbanı üstümə tökdü. General Bakeyev bu hərəkətinə görə ona xəbərdarlıq elədi. Sonradan Beriyanı Moskva hərbi dairəsinin Osipenko 29-da yerləşən qərargahına köçürdülər. 3-4 gün orada qalandan sonra, onu qərargahın bunkerinə yerləşdirdilər. Bir aydan artıq Beriyanın məhkəməsi getdi. Artıq hökm oxunduqdan sonra general Moskalenko məni yanına çağırtdırdı və Beriyanın Kaçalov küçəsindəki evindən paltarlarını gətirməyi əmr etdi. Deyilən ünvana gələndə bir qadın onun qara kostyumunu mənə təqdim etdi (çox güman, bu qadın əməliyyat işçisi idi, ona görə ki, Beriyanın həbsindən bir qədər sonra həyat yoldaşı Nina Teymurazovna və oğlu Serqo həbs edilmişdi – A.M.). Mən bunkerə qayıtdım və onun boz kostyumunu əynindən çıxartdırıb yandırdım (görünür, Beriya Kremldə həbs edilən zaman boz kostyum əynində olub – A.M.). Qara kostyumu əyninə geyindirəndə onu hansı aqibətin gözlədiyini artıq başa düşürdü.





İki dülgərlə 3 metr enində, 2 metr hündürlüyündə taxta lövhəni bunkerin zalındakı divara pərçimlədik. Bütün axşamı hazırlıq işləri gördük. Beriyanı bunkerin yataq otağından zala gətirdik. Əlləri açıq vəziyyətdə olduğundan onu lövhəyə söykəyib, qollarını kürəyinin arxasından bağladım.

Beriya özünü məğrur aparırdı, ancaq rəngi ağarmışdı. Üzünün sağ tərəfi səyriyirdi. Mən onun gözlərini əsgər dəsmalı ilə bağlamaq istədikdə, general-polkovnik Pavel Fyodroviç Batiski üstümə qışqırdı: - Gözlərini bağlama! Qoy əclaf gözləri ilə görsün!

Bunkerin zalında məhkəmənin üzvləri: Mixaylov, Şvernik, Batiski, Moskalenko, onun adyutantı və Rudenko iştirak edirdi. Həkim yox idi. Onlar Beriyanın 5-6 metrliyində durmuşdular. General Batiski bir-iki addım irəli gələrək "Parabellum" markalı tapançasını çıxarıb, Beriyanı güllələdi. Beriya öldükdən sonra onun meyitini brezentə büküb avtomaşına yüklədik".

Hərbi məhkəmənin 23 dekabr 1953-cü il tarixli hökmü ilə:

Kabulov Baqdan Zaxareviç – 1904-cü il təvəllüdlü,

Merkulov Vsevolod Nikolayeviç – 1895-ci il təvəllüdlü,

Dekanozov Vladimir Qeorqiyeviç – 1888-ci il təvəllüdlü,

Menşikov Pavel Yakovleviç – 1910-cu il təvəllüdlülü,

Blodzimirski  Lev Yemelyanoviç – 1907-ci iltəvəllüdlü,

Qoqlidze Sergey Arsenyeviç – 1901-ci iltəvəllüdlü.

1953-cü il dekabrın 23-ü saat 21:30-da yuxarıda adları çəkilən müttəhimlər güllələndi.





# VI HİSSƏ

## M. C. BAĞIROVUN SİYASİ HAKİMİYYƏTİNİN SONU

Moskvadakı plenumdan bir neçə gün sonra M.C.Bağırovun siyasi taleyini həll etmək üçün Bakıda Azərb.KP MK-nın və Bakı şəhər KP MK-nın plenumu çağırılır. Moskvada baş verən hadisələr barədə məlumat plenum iştirakçılarının nəzərinə çatdırılır. Bakı plenumunun 12 iyul 1953-cü il tarixli stenoqramına baxdıqda (Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi: f.1, s.39, iş.18), Moskvada M.C.Bağırovun başına gələn hadisələrin təfsilatından xəbər tuturuq.

1953-cü il iyulun 24-də Moskvada Sovet İttifaqı KP MK Rəyasət Heyətinin qapalı iclas keçirilir. M.C.Bağırovu da bu iclasa dəvət edirlər. Burada Bağırova Beriyanın həbsini əsaslandırmaq üçün onu 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının xüsusi xidmət orqanlarının agenti olduğunu göstərən və ittiham edən məruzə ilə çıxış etməyi təklif edirlər. Bağırov Rəyasət Heyətinin iclasından sonra Teymur Quliyev və Mir Teymur Yaqubovla plenumda edəcəyi çıxışın tezisləri ilə bağlı məsləhətləşmələr aparır. Mir Teymur Yaqubovla Teymur Quliyev M.C.Bağırova məsləhət görürlər ki, Beriyanın ona sonuncu zəngində elədiyi təklifi də çıxışına salsın. Bu təklif ondan

irəli gəlirdi ki, Rəyasət Heyətinin iclasında N.Xruşşov Bağırovdan Beriyanın ona zəng edib-etmədiyi barədə məlumat verməyi tələb edirdi. Beriya Bağırova zəng edərək, Azərbaycanda mədəniyyət işçilərinin təltifi üçün Nizami milli ordeninin təsis edilməsi barədə təklif vermişdi. Bağırov isə Nizami dühasına böyük hörmətlə yanaşdığını qeyd edərək, M.F.Axundov adına Şərəf nişanının təsis edilməsini məqbul saymışdı. M.T.Yaqubova görə, Bağırov bu barədə plenumdakı çıxışında söyləməli idi. M.C.Bağırov başa düşürdü ki, Beriyanı Müsavat hökumətinin əks-kəşfiyyatının agenti kimi göstərməklə, sonradan özünü də zərbə altında qoyacaq. Uzun illər təhlükəsizlik orqanlarına rəhbərlik etmiş M.C.Bağırov anlayırdı ki, təklif olunan ssenarinin nəticəsi kimi, zərbə sonradan onun üzərinə yönəldilə bilər. Ona görə də bu mövzudan qətiyyətlə yayınmağa çalışırdı. Həmin gün saat 14:00-da Moskvada Sov.İKP Mərkəzi Komitəsinin plenumu öz işinə başlayır.

Plenumda Malenkov Beriyanın antipartiya və antidövlət fəaliyyəti barədə məruzə ilə çıxış edir. Həmçinin, Sov.İKP MK Rəyasət Heyətinin üzvləri - Xruşşov, Molotov, Bulqanin, Kaqanoviç, Voroşilov, Mikoyan və MK üzvləri, eləcə də ittifaq respublikalarının və vilayət partiya komitələrinin I katibləri tribunya qalxırlar. Plenumda həmçinin yoldaş İqnatyev Sov.İKP MK üzvlüyünə bərpa olunur, Marşal Jukov isə MK namizədliyindən həqiqi üzvlüyə seçilir. Çıxış edən natiqlər Beriyanı ittiham atəşinə tuturlar. Beriyanın təşəbbüsü ilə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanına əsasən aparılmış amnistiya prosesi tənqid olunur, həbsdən azad olunan vətəndaşları cinayətkar, residivist, ictimai sabitlliyə ziyan vuran şəxslər adlandırırlar. Azad olunmuş on minlərlə insanı təhlükəli cinayətkar adlandıraraq, guya Beriyanın avantürist siyasətini plenum iştirakçılarının nəzərinə çatdırırlar. Malenkov məruzəsində Beriyanın SSRİ daxili işlər naziri olduqdan sonra Sovet İttifaqı KP MK-da və hökumətdə rəhbərliyi ələ keçirmək üçün apardığı siyasətin əsas şaxələrini iştirakçıların nəzərinə çatdırır. Məsələn, bu şaxələrdən birinə misal olaraq, onun Belorusda, Baltikyanı respublikalarda, Ukraynada DİN-in rəhbərliyini dəyişdirməsi, bu vəzifələrə öz adamlarını təyin etməsi barədə məlumat verir.





Plenumun ikinci günü M.C.Bağırova söz verilir. O, çıxışında Beriyanı 30 ilə yaxındır tanısa da, onun partiyaya qarşı cinayətkar fəaliyyətini, düşmən mövqeyini görə bilmədiyi üçün özünü heç vaxt bağışlamayacağını söyləyir.

Bağırov çıxış etdiyi zaman Malenkov onun sözünü kəsərək:

“Nə üçün özünüzü müdafiə edirsiniz? Sizi ki, burada heç kim günahlandırmır. Beriya ilə yaxın olmusunuz, onu ifşa edin” – deyir.

Bu an özünü itirməyən Bağırov ona qarşı hücumların ssenari müəlliflərindən biri olan Mikoyana qarşı əks hücuma keçir: “Əgər Beriya Müsavat hökumətinin agenti olubsa, onda hafizəm məni aldatmırsa, o dövrdə kommunist partiyasının xətti ilə Azərbaycan Demokratik Respublikasının hakimiyyəti daxilində fəaliyyət göstərən şəxslərin tərkibi Mikoyana məlum idi. Beriya bu xətlə orada olubsa, bunu Mikoyan bilməli idi”. Sonra Bağırov Beriyanın milli ordenlərlə bağlı telefon zəngi barədə məlumat verəndə, yenidən Malenkov yenə onun sözünü kəsərək, söhbətin hansı ordenlərdən getdiyini soruşur.

Bağırov Malenkovun bu həyasızlığına dözməyərək: “Onu get, uzun illər dostluq etdiyin Beriyadan soruş” – deyərək, çıxışını davam etdirir.

(Nəzərinizə onu da çatdıraq ki, Beriya milli ordenlərin təsis edilməsi barədə təklifi Özbəkistan və Gürcüstan rəhbərliyinə də etmişdi – A.M.).

Sonra Xruşşov Bağırova qarşı hücuma keçir:

"Mənim sizinlə dünənki görüşümdə Beriyanın zəng vurub-vurmadığını soruşdum, siz bunu inkar etdiniz. Ancaq indi aydın olur ki, belə bir zəng olub".

Ssenariyə uyğun olaraq, Bağırovun təklənməsi başlanır. Bu dəfə Suslov hücuma keçir: "Beriya həmişə sizin himayədarınız olub. Mərkəzi Komitənin təlimatçıları sizin respublikaya getməyə qorxurdular".

Ssenariyə uyğun Bağırova qarşı hücumlara Xruşşovun digər əlaltıları da qoşularaq, onun Mərkəzi Komitənin apardığı siyasi xətdən uzaqlaşdığını qeyd edirlər. Sonra Mikoyan söz alaraq, Bağırovun ona hücumuna aşağıdakı kimi cavab verir:

"Həmin dövr çətinliklə yadıma düşdüyündən, indiyə qədər mənə elə gəlirdi ki, Beriya Müsavat kəşfiyyatına kommunistlər tərəfindən salınıb. Lakin indi aydın olur ki, bu, belə deyilmiş".

Plenumdan sonra Bağırov Xruşşov və Malenkovun qəbuluna düşərək onlarla görüşür. Bu görüşlərdən sonra o, Mir Teymur Yaqubovu Xruşşovla görüşdən çəkindirərək, onunla məsələni həll etdiyini söyləyir. Mir Teymur Yaqubov Xruşşovun köməkçisi Şuyskoya zəng vurub, görüşdən imtina edir. Bağırov və Yaqubov gecə təyyarə ilə Bakıya qayıdırlar. Lakin SSRİ Ali Sovetinin büdcə komissiyasındakı işinə görə Moskvada bir neçə gün yubanan Teymur Quliyevi Xruşşov yanına çağıraraq, Bağırovun onunla və Malenkovla apardığı söhbətlərin onları qane etmədiyini bildirir və Sov.İKP MK-nin şöbə müdürü P.N.Pospelovla bərabər Bakıya qayıdaraq, Azərbaycan KP MK-nın və Bakı şəhər KP-nın plenimunu təşkil etməyi tapşırır. Bu plenumda M.C.Bağırov Azərbaycan SSR Nazirlər Sovetinin sədrliyindən və Mərkəzi Komitə üzvlüyündən azad olunur.

1953-cü il iyulun 12-də Bakıda keçirilən Azərbaycan KP MK-nın və Bakı şəhər KP-nın plenumunda Moskvadakı hadisələrdən xəbər tutan kommunistlər geniş məruzələrlə çıxış edirlər.

Paradoksallıq bundadır ki, Xruşşovla son görüşdən sonra Bağırovun mövqeyində 180 dərəcə dəyişiklik baş verir. Bunu onun Bakıdakı plenumda etdiyi çıxışında görəcəyik. Sual oluna bilər: hansı səbəbdən?

Zənnimizcə, səbəblər aşağıdakılar ola bilər:

Stalinin ölümündən sonra Kremldə tək qalmış Beriya azğınlaşmış rus siyasi elitasının hücümlarını artıq hiss edirdi. Ona görə də çıxılmaz vəziyyətə düşən Beriya özünə siyasi dəstəyi qeyri-rus respublikaların siyasi rəhbərliyində axtarırdı. Onun Bağırova milli ordenlərin təsisi ilə bağlı və bu qəbildən olan təklifləri məhz buradan doğurdu. Elə buna görə də Xruşşov başa düşürdü ki, Beriyanın sonuna çıxdıqdan sonra yerlərdə, xüsusilə də, qeyri-slavyan müttəfiq respublikalarında ali hakimiyyətin ruslaşdırılması və onun slavyan təəssübkeşliyi partiya ideyalarını kölgədə qoyar, bu da ictimaiyyətdə çaşqınlıq yarada bilərdi. Xruşşov M.C.Bağırovu Moskvada məlum plenumdan sonra həbs etdirə bilərdi, lakin Bağırov hələ ona lazım idi. Beriyanın nüfuzunu tamamilə məhv etmək, Xruşşov və onun əlaltıları tərəfindən Beriya haqqında çıxarılan güllələnmə hökmünün ədalətliliyini əsaslandırmaq üçün Bağırov onlara hələ çox lazım olacaqdı. M.C.Bağırov həm qafqazlı, həm də Beriyanın yaxın dostu idi. Bağırovun da Beriyanın ifşasına qoşulması onu Xruş-

şovun təbliğat aparatının ruporuna çevirirdi. Xruşşovun Bağırovu həbs etməməsi, əksinə, ona yeni vəzifə təklif etməsi yuxarıda göstərilən planlardan irəli gəlirdi. Bu, Xruşşovun taktiki gedişi idi və bir neçə il sonra onun hakimiyyətdə möhkəmlənməsi Bağırovu da Beriyanın aqibəti ilə üzləşdirdi. Artıq həmin andan etibarən Bağırov Xruşşova lazım deyildi.

Təcili Moskvadan Bakıya qayıdan M.C.Bağırov nə edəcəyini düşünürdü. O, hadisələri təhlil edir, qüvvələr nisbətini süzgəcdən keçirir, atacağı addımların planını cızırdı. İlkin olaraq, Kremldə ona kömək edə biləcək şəxsləri araşdırırdı. Lakin hakimiyyəti ələ keçirmiş qüvvələr - Xruşşov-Mikoyan-Suslov və Malenkov-Molotov-Kaqanoviç "üçlük"lərinin M.C.Bağırova münasibəti heç də yaxşı deyildi. Bunun bir neçə səbəbi var idi:

1. M.C.Bağırovun, xüsusilə, son dövrlərdə respublikada həyata keçirdiyi milli siyasi kursu nə Mikoyanı, nə də Xruşşovu heç cür qane edə bilməzdi.

2. SSRİ-nin dövlət büdcəsinin üçdə bir hissəsinin Azərbaycanın sənaye-təsərrüfat sahələrinə yönəldilməsi Kaqanoviçi və Malenkovu narahat etməyə bilməzdi. Yuxarıda göstərdiyimiz kimi, ermənilərin Dağlıq Qarabağa ərazi iddialarında ən yaxın havadarı həmişə Malenkov olub.

3. Hələ Cənubi Azərbaycandakı siyasi proseslər zamanı M.C.Bağırovla Molotov arasında kəskin ziddiyyət yaranmışdı. Bunun səbəbini kitabın "SSRİ rəhbərliyinin İran və Yaxın Şərq üzrə strategiyası" bölməsində göstərmişik.

Qalırdı yalnız Voroşilov-Bulqanin cütlüyü. Onlar da yuxarıdakı qüvvələrin iradəsinin əleyhinə getməyə ehtiyat edirdilər. M.C.Bağırov başa düşürdü ki, Kremldəki mövcud siyasi mühit onun əleyhinə yönəlib.





Bəs nə etməli?

Bəlkə respublikanın yerli kadrları ilə öz iradəsini ortalığa qoysun!? Bu, gülüncdür! Ona görə ki, artıq onların bir hissəsi Kremldən əsən "soyuq şimal küləyindən" özlərini qorumaq üçün M.C.Bağırova qarşı "ittihamedici" kampaniyaya qoşulmuşdu.

Reallıq bundan ibarət idi!

Müstəqilliyi əlindən alınmış millətin taleyi onun rəhbərinin taleyinə oxşayır. Hər iki halda taleyin açarı "böyük qardaşların" əlində olur.

Bütün bu reallıqları saf-çürük edən M.C.Bağırov məntiqlə yalnız Bakıdakı plenumdakı kimi çıxış edə bilərdi. Əgər M.C. Bağırov Amerikanın və "Müsavat"ın agenti kimi qələmə verilən Beriyanın müdafiəsinə qalxmış olsaydı, onda həm özünü, həm də onun təqdimatı ilə irəli çəkilmiş Azərbaycan KP MK-nın üzvlərini, eləcə də respublikanın bütün məsul şəxslərini zərbə altında qoymuş olardı. Bu vəziyyət Sov.İKP MK Rəyasət Heyətində dəfələrlə azərbaycanlıların türk olduğunu bildirən və onların deportasiya məsələsini məqsədyönlü şəkildə qaldıran qatı "daşnak" Mikoyanın niyyətini həyata keçirməsinə imkan yaradardı. Son nəticədə zərbə yenə də Azərbaycan xalqına dəyəcəkdi. Ona görə də M.C.Bağırov yuxarıdakı reallıqların hər birini düşünərək, özü də istəmədən, L.P.Beriyanı ifşa edən ali hakimin nümayəndəsinə çevrilir!

Bakıdakı plenumu Xruşşovun Moskvadan göndərdiyi emissarı, Sov.İKP MK-nın şöbə müdiri P.N.Pospelov və onun rəhbərliyi altında olan T.Yaqubov aparırdı.

Plenumda söz alan M.C.Bağırov Sov.İKP MK-nın qəbul etdiyi qərarları dəstəklədiyini bildirir, Beriyanın "antisovet"

fəaliyyəti ilə əlaqədar mövqeyini ortaya qoyur. O, çıxışının əvvəlində sosializm ideyalarının Çində geniş vüsət almasından danışır, həmçinin AFR-in kansleri Adenaueri ABŞ-ın agenti adlandırır, onu sosializmin qatı düşməni kimi təsvir edir. Görünür, bu mövqe ondan irəli gəlirdi ki, Beriya Almaniyanın yarısosializm, yarıkapitalizm formasında birləşməsi ideyasının tərəfdarı kimi çıxış edirdi. Bağırov, həmçinin, Cənubi Koreyanın rəhbəri Li-Sın-Manı da ABŞ agenti kimi ittiham edir və Beriyanı da bu sıraya qoşur. Bu yanaşma ilə o, Beriyanı ABŞ-ın agenti kimi göstərərək deyirdi:

"Yoldaş Malenkovun Beriyanın antidövlət, antipartiya fəaliyyəti barədə məruzəsinə əsasən, Sov. İKP MK Rəyasət Heyətinin qərarı təxribatçı, casus, partiyanın qatı düşməni olan Beriyanın iç üzünü bir daha açıb ortaya qoydu".

Bağırov başa düşürdü ki, onun Moskvadakı çıxışı Sov. İKP MK Rəyasət Heyətinin üzvlərini qane etməmişdir. Xruşşovun üstüörtülü sualına aydın cavab verməməsi, Moskvadan gələn MK-nın məsul işçilərinin bununla bağlı təlimatlandırılması, onların Bakı plenumunda çıxışlarındakı vurğuları Bağırovu yeni manevrlərə əl atmağa məcbur edirdi.

O, çıxışında deyirdi: "Mən uzun illər boyu Beriyanı tanıyırdım və onun təmiz kommunist və qatı bolşevik olduğuna inanırdım. Mən yoldaş Malenkova söylədim ki, bu əclaf məni ən çirkin yollarla aldadıbmış".

Sonra P.N. Pospelov plenum iştirakçılarına 1937-ci ildə bir şəxsin Beriyanın Müsavatın əks-kəşfiyyatında xidməti ilə bağlı rəsmi ərizə ilə partiyaya müraciət etməsi barədə məlumat verir. Bəzi müəlliflər öz əsərlərində bu şəxs barədə ziddiyyətli fikirlər söyləyirlər. Eldar İsmayılov özünün "Власть и народ"





kitabında bu şəxsin əvvəllər Azərbaycanda KP MK-nın birinci katibi, sonralar, 1937-ci ildə SSRİ-nin səhiyyə naziri işləmiş Q. Kaminski olduğunu qeyd edir. Müəllif göstərir ki, Stalinin Beriyanı aradan götürmək planı olmadığı üçün Q.Kaminski sonradan yoxa çıxır. A.Antonov və Ovsiyenko da "Beriya" kitabında bu məqama başqa mövqedən yanaşaraq yazırlar: "1921-ci ilin dekabrın əvvəllərində FK-nın sədri F.Dzerjinski Beryazini yanına çağırır və Azərbaycan FK-nın məxfi-əməliyyat şöbəsinin rəisi işləyən L.Beriyanı siyasi sabotajda günahlandıraraq, həbs etməyi tapşırır. Bu həbs guya Mikoyanın havadarlığı sayəsində mümkün olmur. A. Antonov və Ovsiyenko Q. Kaminskinin 1937-ci il plenumundakı çıxışına istinad edir və L. Beriyanın Müsavat əks-kəşfiyyatındakı xidmətlərindən S.Orconikidzenin, S.Kirovun və F.Dzerjinskinin xəbərdar olduqları barədə məlumat verir.

Hər iki yanaşmaya münasibət bildirərkən onu qeyd etmək istərdik ki, ümumiyyətlə, L.Beriya şəxsi anketlərində 1921-1953-cü illər arasında Müsavat hökumətinin əks-kəşfiyyatında olması barədə məlumat verir. Ancaq o, Azərbaycan Demokratik Respublikasının polisinə, yəni kəşfiyyatına bolşeviklərin xətti ilə göndərildiyini qeyd edir. Bu barədə həmin dövrdəki bütün rəhbər işçilərin məlumatı var idı. Məsələ bundadır ki, L.Beriyanın Müsavat hökumətindən bolşeviklərin içərisinə göndərilmiş kəşfiyyatçı olduğunu təsdiq edən sənədlər yalnız M.C.Bağırovda idi. Nə Kaminskinin, nə Dzerjinskinin, nə də Orconikidzenin əlində belə bir sənəd olmayıb. Hələ Orconikidze 1935-ci ildə Stalinə Beriyanın Müsavatın kəşfiyyatında olması barədə məlumat verdikdə, Stalin ondan bunu təsdiqləyən sübut tələb etmişdi. Bu sənədləri əldə edə bilməyən (Boris Sokolovun "Be-

riya" kitabından) Orconikidze sonradan yanıldığını və Beriya haqqında yüksək fikirlərlə zəngin və onu təmiz kommunist kimi göstərən məktubunu Stalinə göndərir. Yaxud, Bağırov-Beriya birliyinin təbliğatı nəticəsində Stalinin göstərişinə əsasən, 1953-cü ilin fevralında həbs olunmaq üçün şərti nəzarət altına götürülən Mikoyanın əlində Beriyanı ittiham edə biləcək hər hansı sənəd olsaydı, ən azı özünü qorumaq üçün bu faktdan istifadə edərdi.

Yaxud, Q. Kaminskinin 1937-ci il plenumunda Beriya haqqında verdiyi məlumatı repressiyaların qızğın çağına təsadüf edirdi. Belə bir vaxtda sinfi düşmən axtarışına çıxmış Stalinin paranoid təfəkkürünə görə, Beriya yüz minlərlə qurbanlardan biri ola bilərdi. Beriyanı əvəz etmək üçün Stalinin ona kifayət dərəcədə sədaqətli kadrları nəzərə almaq lazım gəlirdi. Yuxarıda aparılan bütün təhlillər bir daha onu göstərir ki, bu şəxslərin əlində Beriyanı ittiham etmək üçün əsaslı sübut-sənəd olmamışdır. Ona görə də Bağırov 1953-cü ildə Bakı plenumunda çıxışı zamanı Yemelyanov haqqında müsbət fikirlər söyləyirdi. Çünki, Yemelyanov Beriyaya aid sənədlərin surətlərinin Bağırovda olduğunu bilirdi. Bağırov da Yemelyanovu özünə qarşı müsbət kökləmək üçün onunla çox ehtiyatla davranırdı. M.C.Bağırov çıxışında qeyd edirdi:

"İndi aydın olur ki, Daxili İşlər Nazirliyinin arxivlərindən Beriyaya aid qovluq və onun Müsavat kəşfiyyatındakı fəaliyyətini əks etdirən sənədlər özü tərəfindən Moskvaya aparılmışdır. Dünən yoldaş Yemelyanov mənə telefonla məlumat verdi ki, DİN-nin arxivindən Müsavat əks-kəşfiyyatçılarının siyahısı tapılmış və siyahıda Beriya birinci yerdə durur. 1953-cü il aprelin 28-də Beriya mənə və yoldaş Sumbatova Yemelyanov





vasitəsilə hədiyyə olaraq ov tüfəngi göndərmişdi və bu silahın üstündə "Beriyadan M.C. Bağırova" yazılmışdı".

Sonra Bağırov çıxışında bunları qeyd edir: "Beriya mənə Azərbaycan DİN-in əməkdaşlarının milli kadrlarla əvəz olunmasını, Yemelyanovun da nazir vəzifəsindən uzaqlaşdırılmasını, onu azərbaycanlı ilə əvəz edilməsini tapşırmışdı. Mən Yemelyanovu yanıma çağırıb, ona dedim: "Səni bu vəzifəyə partiya təyin edib və bu vəzifədən partiya azad edə bilər. Ona görə Beriya ilə bütün danışıqlara son qoy".

Burada sanki Bağırovun taleyinin Yemelyanovdan asılı olduğu üzə çıxır. O, Beriya ilə dostluğuna aşağıdakı formada izah verir:

"Mən yoldaş Stalindən Lenin haqqında bu fikirləri dəfələrlə eşitmişəm. Leninin dostluğu müəyyən ana və müəyyən zamana qədər idi. Əgər o, dostunun işində hər hansı saxtakarlıq görürdüsə, heç nəyə baxmadan həmin adamın meyitinin üstündən keçərdi".

Sözsüz ki, Bağırov Yemelyanovun Beriyanın həbsinə qədər Moskvaya ötürdüyü məlumatlardan xəbərsiz idi. Ona görə elə düşünürdü ki, Yemelyanov onu satmayacaq.

Plenuma rəhbərlik edən N.S.Xruşşovun nümayəndələri hadisələrin bu cür cərəyan etdiyini görüb, M.C.Bağırovu çıxılmaz vəziyyətə salmaq üçün S.Yemelyanovu irəli verirlər. Sonralar, 1956-cı ildə məlum məhkəmə prosesində Yemelyanovun ölüm hökmündən canını qurtarmasının təsadüf olmadığını buradan başa düşmək olar. Azərbaycanda aparılmış repressiya prosesində yazılı sərəncamlar vermiş bu şəxsin ölüm hökmündən yaxa qurtarmasının səbəbi kitabda açmaq istədiyimiz siyasətin məğzində duran kommunist qiyafəli imperiya agentlərinin məqsə-

dinə uyğun olmadığından irəli gəlirdi. Bunu Yemelyanovun plenumdakı çıxışı zamanı bütün günahları M.C.Bağırovun üstünə atmasında da görürük.

Yemelyanov çıxışını əvvəlcə Beriyanı, sonra isə M.C.Bağırovu ifşa etmək üzərində qurdu. O, çıxışında qeyd edirdi:

"Yoldaşlar, Beriya barədə həqiqətləri üzə çıxarmaqda bizim partiyaya hamıdan çox M.C. Bağırov və Y.Sumbatov kömək edə bilər. Onlar Beriya ilə dostluq etdikləri üçün onu daha yaxşı tanıyırlar. Necə ola bilər ki, Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 33 illiyi münasibətilə alçaq Beriya başqa adama yox, məhz sizə, yoldaş Bağırov və yoldaş Sumbatova hədiyyə göndərir?"

Daha sonra Yemelyanovun çıxışında ani olaraq Bağırov mövzusundan uzaqlaşanda Xruşşovun əlaltısı Pospelov onun sözünü kəsərək, yenidən Bağırovun üzərinə qaytarmaq üçün soruşur:

- Siz Azərbaycan KP MK-nin büro üzvüsünüz. Bəs niyə DİN-in fəaliyyəti partiyanın siyasi kursu ilə uyğun gəlmir?.

Bu replikanın altında hansı niyyətin durduğunu aydın başa düşən Yemelyanov "artıq mətləbə keçməyin vaxtıdır" işarəsini anlayır və çıxışına aşağıdakı formada davam edir:

"Mən büro üzvü kimi qeyd etmək istəyirəm ki, burada yoldaşlar çox düzgün qeyd edirlər ki, son dövrlər bizim respublikada kollektiv partiya rəhbərliyi əslində mövcud olmamışdır. Siyasi Büroda elə bir mühit formalaşmışdı ki, Bağırovun dediyi istənilən fikir qeyd-şərtsiz qəbul olunurdu. Beriyanın həbsindən əvvəl Azərbaycan KP MK-nın sonuncu büro iclasında mənimlə yoldaş T.Quliyev arasında bürodakı mövcud mühit barədə ümumi fikir birliyi oldu. Söhbət zamanı yoldaş Quliyev mənə söyləyirdi ki, bu, büro iclasına oxşamır, büro məhkəməyə çevrilib: "Otur, dur, çıx, gir!" Belə gərgin mühit sanki gələcəkdə baş verəcək hadisədən xəbər verirdi. Bilmək olmurdu ki, bura büro iclasıdı, yaxud Nazirlər Sovetinin Rəyasət Heyətinin toplantısı. Baxmayaraq ki, M.C.Bağırov artıq AKP MK-nin I katibi deyildi, amma bütün məsələlərə müdaxilə edirdi. Biz nə baş verdiyini başa düşə bilmirdik".





Bu zaman üzünü Bağırova çevirən Yemelyanov qəfil özünü itirir və ittiham atəşinə tutduğu şəxsin zəhmindən özündə cəsarət tapıb, plenumda Moskvaya ötürdüyü "siqnallar" barədə məlumat verə bilmir.

Yemelyanovun çıxışından sonra Kremldən idarə olunan erməni-siyasi elitasının Azərbaycan KP MK-dakı nümayəndələri bu fürsəti əldən buraxmamaq üçün M.C.Bağırova qarşı hərtərəfli hücuma keçdilər. Onlar M.C.Bağırovun respublikaya rəhbərliyin xüsusilə son dövründə erməni ədəbi-siyasi klanına qarşı mübarizəsini ona bağışlaya bilməzdilər. Plenumda Azərbaycan KP MK-nın üzvü Əmirxanyana söz verirlər.

Əmirxanyan Amo Əzizoviç çıxışında yaltaq xislətinə uyğun olaraq qeyd edir:

- "Biz Zaqafqaziyada, Azərbaycanda, Bakıda yaşayırıq və biz öz iqtisadi-mədəni nailiyyətlərimizə görə Kommunist Partiyasına və böyük rus xalqına borcluyuq".

Sözsüz ki, bu sözlərdən sonra o, artıq Bağırova qarşı hücuma başlamalı idi:

- Necə ola bilər ki, Müsavat əks-kəşfiyyatında işləyən Beriya burada Sovet hökuməti qurulduqdan sonra Azərbaycan Fövqəladə Komisiyasında yoldaş Bağırovun köməkçisi olur, sonra onlar Zaqafqaziya Federasiyasında məsul vəzifələrdə

yenə bir yerdə işləyirlər? Kim bilməsə də, yoldaş Bağırov Beriyanın keçmişini çox gözəl bilirdi. Birdən-birə Bağırovun nəyisə yadından çıxartması, hafizəsindən şikayət etməsi inandırıcı deyil. Yoldaş Bağırov, mən çox gözəl bilirəm ki, sizin iti yaddaşınız var".

Əmirxanyanın bu çıxışının birbaşa Mikoyanın təlimatı əsasında hazırlandığı aşkar görünürdü. Ona görə ki, Mikoyana artıq Bağırov-Beriya birliyinin qaranlıq tərəfi məlum idi. Əmirxanyan həm də Azərbaycanda erməni dilində çıxan "Kommunist" qəzetinin baş redaktoru idi. O, bolşevik qılafı altında ermənilərin siyasi birliyinin təbliğatı ilə birbaşa məşğul olurdu. Ona görə də plenumda ermənilərin siyasi elitasının mövqeyini ortalığa qoyurdu.

O, çıxışında deyirdi:

- Yoldaş Bağırov, siz burda bir tərəfdən deyirsiniz ki, indi sizə aydın olur ki, "Zaqafqaziyada bolşeviklərin tarixi" kitabını Beriya deyil, başqaları yazıbmış. Bu biri tərəfdən də qeyd edirsiniz ki, mən onu marksist ideyaları ilə silahlanmış inqilabçı kimi tanıyırdım. Yoldaş Bağırov, nəsə uyğun gəlmir. Ona görə ki, siz yalan danışırsınız!"

Əmirxanyanın azğınlaşmış çıxışının mənbəyi bizə məlumdur. Bu da faktdır ki, ermənilərin siyasi elitası, ümumiyyətlə, Beriyaya nifrətlə yanaşırdı. Onlar Ermənistan Kommunist Partiyasının I katibi Aqaş Qevondoviç Xancanyanın ölümündə Beriyanı günahlandırırdılar. Amma 1936-cı ilin 11 iyulunda rəsmi qəzetlər Xancanyanın intihar etməsi barədə məlumat vermişdi. Həqiqətən də, Xancanyan Beriyanı təmin etmirdi. Ona görə də Beriya Xancanyanın ölümündən sonra, əvvəlcə birinci katib kimi təsdiq edilməsində Qayk Amatuniniyə kömək edir. Qayk





Amatunini 1937-ci ildə repressiyaya məruz qaldıqdan sonra Beriya onun yerinə Ermənistan KP MK-nın I katibi vəzifəsinə Qriqori Arutyunovun təsdiq olunmasına nail olur.

Onu da qeyd etməliyik ki, 1953-cü ilin iyul plenumunda o da Beriyanı ittiham atəşinə tutur. Amma Bağırovdan fərqli olaraq, onu partiya sıralarından xaric etmirlər, üzərində məhkəmə prosesi qurmurlar. Onu yalnız I katiblikdən uzaqlaşdırır, toxunulmazlığını təmin edir və sakit həyat sürməsi üçün şərait yaradırlar.

Həbs edildikdən sonra Beriyaya qarşı irəli sürülən ittihamlardan biri də onun pozğun həyat tərzi keçirməsi göstərilirdi. Bu ittihamı Beriyaya qarşı məlum erməni siyasi elitası təşkil etmişdi. Çünki, bu cür "ittihamlar" sonradan M.C.Bağırova qarşı da tətbiq olunacaqdı. Moskvadakı məlum plenumda Şatalin Beriya dönəmində DİN-in katibliyində rəis olmuş mənşəcə erməni V.İ.Sarkisovun imzaladığı sənədə istinad edərək, hətta Beriyanın məşuqələrinin sayını plenum iştirakçılarının nəzərinə çatdırmışdı. Bunun həqiqətə nə qədər uyğun olub-olmadığını yalnız bir neçə faktla üzə çıxarmaq olar. Birincisi, Sarkisov Mikoyanın təklif və təhriki ilə belə bir sənəd hazırlamışdı. Çünki, onun fikirlərini əsaslandırmaq üçün heç bir mənbə yox idi. Məsələn, Sarkisov ifadəsində deyirdi: "Beriyanın çoxsaylı qadınlarla əlaqəsi mənə məlum idi. İcazə verin, o qadınların adını çəkməyim. Beriya S. adlı bir vətəndaşın vasitəsilə onun rəfiqəsi ilə tanış olur. Bu qadın bir hərbi attaşenin arvadı idi və eyni zamanda modalar evində işləyirdi. Mən Beriyanın otağında olarkən o, Abakumova telefonla göstəriş verərək, "Niyə o qadını hələ həbs etməmisən?" – deyə, soruşurdu" (B.Sokolovun "Beriya" kitabından).

Deməli, belə çıxır ki, Beriya qadınlarla əvvəlcə təmasda olurmuş, sonra isə onları həbs etdirirmiş? Əlbəttə, böhtan atmaqda usta olan erməni Sarkisov nə danışdığını heç özü də başa düşmürdü.

Ona görə ki, Beriya ilə Abakumov arasında dərin ziddiyyət var idi. Birincisi, V.S.Abakumov Beriyaya deyil, birbaşa Stalinə tabe idi. İkincisi, V.S.Abakumov vaxtı ilə Xalq Daxili İşlər Komissarlığında Beriyanın müavini olmuşdu.

1941-ci il iyulun 20-də Xalq Daxili İşlər Komissarlığı ilə Xalq Təhlükəsizlik Komitəsi birləşdirilir və Beriya vahid orqanın başında durmaqla Dövlət Müdafiə Şurasının üzvü olur. Lakin Abakumov o dövr üçün SSRİ tarixində yeni yaradılmış, çox böyük səlahiyyətə malik "SMERŞ" dövlət xüsusi şöbələr idarəsinin rəhbəri təyin edilir. Bu dövrdən etibarən Abakumovun birbaşa Stalinlə ünsiyyəti başlayır və o, az bir vaxtda liderin etimadını qazanır. Əlbəttə, bu hal Beriyanı qıcıqlandırırdı.

Sonralar Beriya ilə Abakumov arasında ikincinin tam məğlubiyyətinə qədər təhlükəsizlik orqanlarına rəhbərlik etmək uğrunda mübarizə gedirdi. Elə bu səbəbdən də, Beriyaya yaxınlığı ilə seçilən kadrlar, o cümlədən, Bakıdan Moskvaya, XDTK-ya məsul vəzifəyə gətirilən Y.Sumbatov-Topuridze Abakumovun təhlükəsizlik orqanlarına rəhbərlik etdiyi zaman vəzifədən kənarlaşdırılmışdı…

Ona görə də Sarkisovun sözündə heç bir məntiq yox idi. Əslində Abakumov Beriya haqqında elə faktlar axtarırdı ki, kompromat kimi istifadə edib, onu Stalinin qəzəbinə düçar etsin.

Kitab məsələsi isə plenumda süni surətdə formalaşdırılmış fikir idi. 1935-ci ildə "Bolşevik təşkilatlarının Zaqafqaziya tarixinə aid məsələləri" kitabı L.R.Beriyanın müəllifliyi ilə çapdan





çıxır. Beriya etiraf edir ki, Tiflisdən Marks-Engels-Lenin İnstitutunun 20 əməkdaşı ona materialları toplamaqda kömək edib. Sadəcə imperiya təəssübkeşlərinin ssenarisində "kitab" məsələsi olduğuna görə, onlar Beriyanın plagiat obrazını formalaşdırır və hətta kitab üçün bu məruzələri hazırlayan 20 əməkdaşdan birinin - Ernest Bediyanın guya bu kitabın müəllifi olduğunu iddia edirlər. Ona görə də yenidən Əmirxanyanın çıxışına qayıtsaq, görərik ki, o, Bağırova "Mərkəzi Komitənin Beriyanın ifşa edilməsində artıq sizin köməyinizə ehtiyacı yoxdur" - deməklə, sanki erməni siyasi elitasının mövqeyini bildirir. O, bu sözlərlə Bağırovu Kremldəki rus siyasi klanın yırtıcı caynaqlarının altına itələyirdi. Əmirxanyan çıxışı zamanı daha da azğınlaşaraq deyirdi: "Siz həmişə Beriyanın qalxanının altında gizlənmişdiniz! Siz respublikada hamıya öz iradənizi diqtə edirdiniz! Siz həmişə deyirdiniz ki, Moskvaya göndərilən istənilən şikayət ərizəsinin qarşısını ala bilərsiniz və Beriya adlı "kozırdan" xalqa, partiyaya qarşı istifadə edirdiniz! Siz respublikanın siyasi aktivinə hədə-qorxu gəlirdiniz!"

Artıq bu hücumlara dözə bilməyən M.C. Bağırov Əmirxanyanın sözünü kəsərək deyir:

"Bir dəqiqə dayanın! Söyləyin görək, kimə Moskvaya, mənim haqqımda mənfi nəsə yazmağa imkan verməmişəm? İftiralara son qoyun və mənə konkret cavab verin: kimə hədə-qorxu gəlmişəm? Üzümü plenum iştirakçılarına tutub deyirəm: indiyə qədər mən kimi təhqir etmişəm?"

Əmirxanyan birdən qarşısında M.C.Bağırovun zəhmli simasını gördükdə, çıxışının əvvəlində söylədiyi fikri bir qədər inkar edərək, deyir:

“Mən demirəm ki, siz hədə-qorxu gəlirdiniz. Mən deyirəm ki, siz Beriyanın köməyindən istifadə edirdiniz”.

Əmirxanyan birdən başa düşür ki, o, mövqeyini tez dəyişməklə ssenaridən kənara çıxıb. Yenidən Bağırovu hədəf seçərək, Sov. İKP MK-nın Bakı plenumundakı nümayəndə heyətinin üzvü N.İ.Şubinə yaltaqlanaraq deyir:

“Yoldaşlar, Sov. İKP MK-nın nümayəndəsi yoldaş Şubin Bakıya gəlmişdi. Mən yoldaş Şubinlə Naxçıvan Muxtar Respublikasında bir faktı yoxlamağa getdim. Söhbət Naxçıvan Muxtar Respublikasının II katibi Hacıyevin maliyyə fırıldağından gedirdi. Büro iclasından sonra yoldaş Şubin Moskvaya getdi və mən də bir müddət Bakıdan kənarda oldum. Bakıya qayıdanda şahidi oldum ki, büronun Hacıyevi vəzifəsindən azad edilməsi barədə qərarına baxmayaraq, o, yenə öz vəzifəsini icra edir (Sonralar artıq SSRİ Daxili İşlər Nazirliyinin məsələyə müdaxiləsindən sonra Hacıyev həbs olunur – A.M.). Bu faktdan sonra Bağırov Azərbaycan kommunistlərinə yoldaş Şubinə müraciət etməyi məsləhət görmürdü”. Bu sözlərdən sonra Əmirxanyanın simasızlığından heyrətə gələn plenum iştirakçıları arasında səs-küy yaranır. Yerlərdən Əmirxanyanın üstünə qışqırırlar:

- Yalan danışırsınız, siz deyə bilərsinizmi, bu sözləri kim deyib?.

İçi zəhərlə dolu, rəngi ağarmış Əmirxanyan: “Mən nə bilirdim, onu dedim” - deyərək vəziyyəti gərginləşdirməmək üçün tribunadan ayrılır.

Plenumda iştirak edən bəzi azərbaycanlılar da Bağırovu tənqid atəşinə tutmuşdular. Sual olunur: Axı, plenum iştirakçılarının böyük əksəriyyəti Bağırovun irəli çəkdiyi kadrlar idi. Bəs nəyə görə Bağırovun şəninə yüksək fikirlər söyləyən bu





adamlar mövqelərini bir anda dəyişdilər? Sözsüz ki, bu, quruluşun, siyasi sistemin bəlası idi. Bağırovu respublikada aparılan repressiyalarda ittiham edənlər bir məsələni yaddan çıxarırdılar ki, bu, Kremlin siyasətinin yerlərdə icrası idi. Həmin plenumda M.C.Bağırovu ittiham edən vəzifəli şəxslər yenidən Kremlin sifarişini yerinə yetirirdilər.

1953-cü il 13 iyul plenumunun axşam iclasında M.C.Bağırov vəziyyətin çıxılmaz olduğunu başa düşərək, yenidən söz almaq istəyir. Şübhəsiz, burada plenum iştirakçılarının və xüsusən, azərbaycanlı kommunistlərin böyük əksəriyətinin M.C. Bağırova olan hörməti bir daha üzə çıxır.

Bağırov istər Moskvadakı, istərsə də Bakıdakı plenumda ona qarşı hazırlanan məruzələrdə A.Mikoyanın dəst-xəttini hiss edirdi. Mikoyanın keçmişi Bağırova yaxşı bəlli idi. Ona görə də M.C.Bağırov plenumdakı ikinci çıxışında üstüörtülü şəkildə Mikoyana xəbərdarlıq göndərir. O, çıxışında qeyd edirdi:

“Burada yoldaşlar məndən Beriyanın Müsavatın əks-kəşfiyyatındakı fəaliyyəti barədə faktlar istəyirlər. Mənim çox çətinliklə yadıma sala bildiyim bir faktı sizin nəzərinizə çatdırmaq istəyirəm. Ancaq müəyyən adları çəkə bilməyəcəm. Bu adları yalnız Sov. İKP MK-nin Rəyasət Heyətində söyləyə bilərəm. 1918-19-cu illərdə burada - Zaqafqaziyada amerikan general-qubernatoru Naxçıvanda oturan zaman Bakıda istilaçılar bir-birini əvəz edirdi. İtalyanlar, almanlar, türklər və ingilislər Bakını işğal etdikləri zaman öz kəşfiyyatlarını işə salırdılar. Buranı tərk etdikdən sonra da onların kəşfiyyat şəbəkələri fəaliyyətlərini dayandırmırdı. Mən dünəndən fikirləşirəm ki, necə ola bilər ki, partiya xətti ilə əks-kəşfiyyatda fəaliyyət göstərməyini Beriya şəxsi vərəqəsində qeyd edir. Dünən burada Partiya Ta-

rixi İnstitutundan yoldaş Zevin Beriya haqqında arayışı oxudu. Fikir verin, Beriyanın Kommunist Partiyasına qəbul olunması təklifini ifşa olunmuş düşmən - Sarkis edir. Yoldaşlar, 1937-ci ildəki prosesləri yadınıza salın. Bu proseslərdən aydın olur ki, vaxtilə burada S.M.Kirovdan sonra respublikaya rəhbərlik etmiş L.Mirzoyan 1918-ci ildə ingilislərin agentura şəbəkəsinin əlaqələndirici şəxslərindən biri olmuşdur".

M.C Bağırov çox gözəl başa düşürdü ki, onun çıxışının stenoqramı ilə Sov.İKP MK Rəyasət Heyətinin üzvləri, ələlxüsus da Mikoyan tanış olacaq. Bağırov çıxışını daha da sərtləşdirərək qeyd edir:

"Mirzoyanın dəstəsini Qazaxıstanda məhv etdikdən sonra Bakıda qoca qurd menşevik Roxlin peyda olur, Stalinlə mənim adıma ərizə ilə müraciət edir. O, müraciətində özü haqqında məlumat verir. Azərbaycanlıların belə bir məsəli var: "Göydə axtarırdım, yerdə tapdım". İstintaq zamanı biz ondan ingilislərin məxfi agentləri haqqında kifayət qədər məlumat aldıq. Bir neçə ay bundan əvvəl, daha dəqiq desək, hələ Azərbaycanda Sovet hakimiyyətindən əvvəl ingilislər tərəfindən ələ alınmış agenti həbs etdik. Yoldaşlar, nəzərinizə çatdırmaq istəyirəm ki, ən qədim və ən təcrübəli kəşfiyyatçılar ingilislərdir. Onlar insanı gənclik və hətta uşaqlıq illərindən agent kimi ələ alırlar".

Bağırov Mirzoyanın, Roxlinin adını ingilislərlə hallandırmaqla Mikoyana "siqnallar" ötürürdü. Bağırov çıxışında 6 ay əvvəl tutulmuş ingilis agentinin adını çəkməklə üstüörtülü hansısa mətləbdən xəbər verirdi. Əslində hadisələr 6 ay ondan əvvəl, 1952-ci ilin oktyabrında, Sov.İKP-nın plenumunda başlamışdı.





Bu plenumun stenoqramı iştirakçılardan birində, o vaxtlar Kursk vilayəti Partiya Komitəsinin I katibi olmuş L.N.Yefremovda saxlanılıb.

Stalin plenumda çıxışına köhnə qvardiyanı tənqid atəşinə tutmaqla başlayır:

"Yoldaşlar, sual oluna bilər ki, niyə biz tam inandığımız bir neçə dövlət və partiya xadimini məsul vəzifələrdən çıxardıq. Biz Molotovu, Kaqanoviçi, Voroşilovu və digərlərini nazir vəzifələrindən azad etdik. Sual oluna bilər, niyə? Nazir işi əsl zəhmət və böyük enerji tələb edən işdir. Bu işi görmək üçün əvvəlcə biliyin, peşəkarlığın və sağlam olmağın vacibdir. Ona görə də enerji və qüvvə ilə zəngin olan yeni nəslin məsul vəzifələrlə təmin olunmasında onlara köməklik göstərməliyik.

Bununla belə bizim bəzi partiya xadimlərimizin səhv hərəkətlərinə də göz yummaq olmaz. Mən yoldaş Molotovla Mikoyanı nəzərdə tuturam.

Molotov partiya işinə sadiq yoldaşlardan biridir. Lakin bu xüsusiyyət onun bağışlanmaz səhvlərinə haqq qazandıra bilməz. Yoldaş Molotov xarici işlər naziri olaraq, ingilis səfiri ilə görüşdə bizim ölkəmizdə burjua qəzet və jurnallarının çap olunmasına razılıq vermişdir. Sual oluna bilər, niyə? Məgər Molotov başa düşmür ki, burjuaziya bizim sinfi düşmənimizdir? Bu qəzetlərin çapına razılıq verməklə o, başa düşmür ki, sovet cəmiyyətinin dünyagörüşünü dəyişdirərək, kommunist ideologiyasının zəifləməsinə, onun əvəzinə isə burjua ideologiyasının güclənməsinə köməklik edir? Bu, Molotovun birinci siyasi səhvi idi. Yaxud, yoldaş Molotovun Krımın yəhudilərə verilməsi barədə təklifi bizə nəyin hesabına başa gələ bilərdi? Bu təklif Molotovun bağışlanılmaz, kobud səhvlərindəndir. Hansı əsasla

Molotov belə bir təklif irəli sürür? Bizdə yəhudilərin muxtar respublikası mövcuddur. Məgər bu, azdırmı? Yoldaş Molotov yəhudilərin Sovet Krımında muxtar respublika yaratmaq niyyətlərinə vəkillik etməməlidir. Bu, yoldaş Molotovun ikinci böyük səhvidir.

Yoldaş Molotov həyat yoldaşına o qədər hörmətlə yanaşır ki, biz Siyasi Büroda hər hansı bir qərar qəbul etdikdə, ilk olaraq bu qərar haqqında məlumatı yoldaş Jemçujina alır. Belə çıxır ki, Siyasi Büronu Molotovun həyat yoldaşı Jemçujina və onun dostları ilə gizli tellər bağlayır. Bu dostlara isə inanmaq olmaz. Aydındır ki, Siyasi Büro üzvü üçün bu hərəkətlər yolverilməzdir. (nəzərə alaq ki, bu plenumda Stalinin təklifinə əsasən Siyasi Büro əvəzinə, Sov. İKP MK-nın Rəyasət Heyəti təşkil olunur – A.M.).

Yoldaşlar, indi də Mikoyan haqqında bir-neçə kəlmə söyləmək istərdim.

Fikir verin, yoldaş Mikoyan kəndlilərin istehsal etdiyi kənd təsərrüfatı məhsullarına görə dövlətə verəcəyi rüsumları artırmamağı təklif edir.

Axı, bu Anastas Mikoyan kimdir? Burda aydın olmayan nə var?

Ona görə də Mikoyanın mövqeyi ilə biz razılaşa bilmərik".

Mikoyan tələm-tələsik tribunaya çıxaraq Stalinin toxunduğu məsələyə aydınlıq gətirir.

Stalin Mikoyanın sözünü kəsərək:

"Fikir verin, yeni Frunkin peyda olub. (Buxarin iqtisadi məktəbinin nümayəndəsi – A.M.) Belə prinsipial məsələdə Mikoyan özü də azıb, bizi də azdırmaq istəyir".





Sözsüz ki, Stalinin bu formada Molotov və Mikoyana etiraz etməsi, artıq bu şəxslərin siyasi karyeralarının sonundan xəbər verirdi. Stalin dövründə isə siyasi karyeranın sonu fiziki cəhətdən məhv olmaq demək idi. Artıq 1953-cü ilin yanvarından təhlükəsizlik orqanları Molotov və Mikoyana qarşı ardıcıl fəaliyyətə başlamışdı.

O vaxtlar SSRİ Dövlət təhlükəsizlik naziri Semyon Denisoviç İqnatyev idi. Siyasi Bürodakı bölgüdə bu orqana Beriya kuratorluq edirdi. İqnatyevdən əvvəl bu vəzifədə çalışmış Abakumovun həbsindən sonra güc strukturlarının rəhbərləri Beriyadan daha çox qorxmağa başladılar. S.D.İqnatyev partnomenkulatura işçisi olduğundan xüsusi xidmət orqanlarında qeyri-peşəkar idi. Ona görə də ciddi əməliyyat planlarını yalnız L.P.Beriya ilə razılaşdırandan sonra həyata keçirirdi.

1953-cü il yanvarın sonunda Molotovun arvadı P.S.Jemçujina Moskvaya gətirilir və istintaq onun "həkimlərin işi" ilə əlaqəsini araşdırmağa başlayır. Səs-küylü "həkimlər işi"nə gəldikdə isə, bu, bir qrup həkimin liderə qarşı törədilə biləcəyi sui-qəsddə günahlandırılaraq həbs olunmasından ibarət idi. Əgər biz bu həkimlərin milli mənsubiyyətinə nəzər yetirsək, əksəriyyətinin yəhudi olduğunu görə bilərik. 1953-cü ilin fevralında Molotovun müavini və SSRİ-nin Britaniyadakı keçmiş səfiri İ.M.Mayskini həbs edirlər. Həmçinin, SSRİ-nin Londondakı diplomatik korpusunun 3 əməkdaşı həbs olunur. Bütün bu həbslər Molotovla Mikoyana qarşı yönəldilə biləcək ittihamların əsasını formalaşdırmağa xidmət edirdi.

Bəs niyə Stalin Mikoyanı da Molotovla bərabər həbs etmək istəyirdi? 1918-ci ildə Mikoyan 26 Bakı komissarları ilə birlikdə həbs olunmuşdu. Lakin nədənsə o, ingilislərin güllələdiyi

komissarlar içərisində yeganə sağ qalan şəxs idi. Bəzi şayiələrə görə, Mikoyanı daşnaklar Aşqabaddakı eser hökuməti ilə danışıqlar nəticəsində xilas etmişdilər. Amma istintaqçıların versiyasına görə, Anastas İvanoviç nəinki daşnak olmuşdur, o, ingilislər tərəfindən ələ alınmış və bu yolla güllələnməkdən canını qurtara bilmişdi.

Artıq hazırlanan istintaq materiallarına görə, ingilislərin xeyrinə casusluqda ittiham edilən Mikoyan Molotovu ələ alaraq, Londona işləməyə sövq etmişdi. Çox güman ki, Bağırov Roxlinin və altı ay əvvəl həbs olunmuş ingilis agentinin adını çəkməklə onun Mikoyanın ingilislər tərəfindən ələ alınmasından xəbəri olduğunu erməni başbiləninə sətiraltı çatdırmaq istəyirdi.

Lakin Stalinin ölümü bu istintaqı yarımçıq qoydu. Ancaq Beriya-Bağırov birliyi Kremldə siyasi hakimiyyəti ələ ala bilsəydi, çox güman ki, Mikoyan və Molotov üzərində böyük məhkəmə prosesi qurulacaqdı. Bağırovun Beriya ilə bərabər həbs olunmamasının yuxarıda qeyd etdiyimiz səbəblərindən başqa digər mühüm bir səbəbi də vardı. Bu da Mikoyanın həqiqətən də onun keçmişi ilə əlaqədar məxfi sənədlərin Bağırovun əlində ola biləcəyindən çox ehtiyat etməsi idi. Ona görə də bir il Bağırovun azadlıqda olması, yeni vəzifəyə təyin edilməsi Mikoyana vaxt udmaq üçün lazım idi. Mikoyan öz xəfiyyələri vasitəsilə tam əmin oldu ki, Bağırovda onun ingilislərə işlədiyini təsdiq edən sənəd yoxdur. O, artıq Bağırovun həbsini Xruşşov vasitəsilə təşkil etdirdi. Bağırov istintaqda həbs olunmuş ingilis agentinin ifadələrinə əsaslanaraq, Mikoyanın ingilislərə işlədiyini qeyd edirdi. Lakin M.C.Bağırovun əlində Bakıda həbs olunmuş ingilis agentinin ifadələrindən başqa heç bir sənəd yox





idi. Həmçinin, 1955-ci ildən siyasi hakimiyyətdə möhkəmlənməyə başlayan Xruşşovun Malenkov və Kaqanoviçi siyasi səhnədən kənarlaşdırmaq üçün Sov.İKP MK-nin Rəyasət Heyətində Mikoyanın köməyinə ehtiyacı vardı. Bu səbəbdən Xruşşov M.C.Bağırovun istintaq zamanı Mikoyan barədə dediyi məlumata siyasi rəng verməkdə maraqlı deyildi. Plenumla bağlı onu deyək ki, hadisələrin bu cür cərəyan etməsi Kreml emissarını heç cür razı sala bilməzdi. Ona görə də M.C.Bağırovun nüfuzunu sındırmaq üçün Teymur Quliyev irəli verilir.

**Teymur Quliyevin çıxışı:**

**“**Yoldaşlar, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi yoldaş Malenkovun plenumda Beriyanın dövlət və partiya əleyhinə apardığı fəaliyyəti barədə məruzəsini dinlədik.

Plenumda onu MK-nın tərkibindən çıxarılması, partiya sıralarından xaric edilməsi, sovetlərin və kommunist partiyasının düşməni kimi məhkəməyə verilməsi barədə qərar qəbul edildi. Partiyamız və bütün sovet xalqı Beriya ilə əlaqədar bu qərarı yekdilliklə və vaxtında atılmış addım kimi qəbul etdi.

Son 4 ay ərzində MK-nın Rəyasət Heyətinin ardıcıl və dəqiq fəaliyyəti nəticəsində, bu avantüristin əsl siması üzə çıxdı. Əvvəllər o, antipartiya və antidövlət fəaliyyətini məxfi və gizli apararaq, əsl simasını maskalaya bilirdi. Sonralar isə həyasızlaşdı və əsl simasını büruzə verdi.

İndi başa düşürük ki, Beriya kənd təsərrüfatı sahəsində təxirəsalınmaz qərarların həyata keçirilməsini ləngidərək, ölkəmizdə ərzaq təchizatını çətin vəziyyətə salmağa çalışırmış.

Beriyanın ən dəhşətli cinayətlərindən biri isə çoxmillətli sosialist dövlətimizin əsası olan SSRİ xalqları arasındakı dostluğu pozmağa çalışmasıdır.

Onun əsas məqsədi antoqonizm toxumunu səpərək, Sovet xalqlarının birliyinə zərbə vurmaq olmuşdur. Bu məqsədinə çatmaq üçün Beriyanın niyyəti ittifaq respublikalarında millətçilik elementlərini aktivləşdirmək və onların fəaliyyətini Sovet dövlətinin əleyhinə çevirməkdən ibarət olub.

Həyasızlaşmış və həddini aşmış, özünü idarə edə bilməyən Beriya insanlara heç bir normaya sığmayan münasibət göstərirdi.

Belə çirkin planlarını həyata keçirmək üçün o, ətrafına özünə yaxın adamları toplayırdı. Daxili İşlər Nazirliyini ələ keçirən kimi, Dekanozovu, Kabulovu Tiflisə, Milşteyni Ukraynaya göndərən Beriya bu yolla özünün məkrli planlarını həyata keçirməyə çalışırdı.

Baxmayaraq ki, bu adamların bir çoxu daxili işlər orqanlarından dəfələrlə qovulmuş və ifşa edilmişdi, onlardan bir neçəsini mən şəxsən tanıyıram. Birmənalı şəkildə kütbeyin, səviyyəsiz və qorxaq Dekanozov Tiflisdə çekist işləyərkən, müqavimət göstərmədən quldurlara təslim olduğuna görə, hafizəm məni aldatmırsa, Zaqafqaziya Fövqəladə Komissiyasının əmrinə əsasən, işdən azad olunmuşdu.

Ancaq beləlƏri Beriyaya lazım olduğu üçün yenidən irəli çəkilirdi".

Teymur Quliyev çıxışı zamanı uzun-uzadı Beriyanı tənqid etdikdən sonra, nəhayət, M.C.Bağırovun üzərinə hücuma keçməyə başladı:

"Yoldaşlar, burada Mir Cəfər Bağırov çıxış etməli, çox ciddi məsələlərlə bağlı suallara cavab verməlidir. Bu məsələlərə





yoldaş Mir Teymur Yaqubov da toxundu. Yoldaş Malenkovun replikasına yoldaş Bağırov ağıllı və aydın bir cavab vermədi".

M.C.Bağırov Teymur Quliyevi sakitləşdirmək üçün yerindən səslənir:

- Düz deyirsiniz.

Lakin Teymur Quliyev elə təlimatlandırılmışdı ki, çıxışını daha da sərtləşdirdi:

"Nəinki cavab vermədi, öz cavabı ilə yoldaş Malenkovu Beriyanın yanına göndərdi. Mən Bağırovu on illərdir tanıyıram, ancaq bu insan plenumda özünü dəhşətli bir şəxs kimi göstərdi. Şəxsən mən çox heyfsiləndim ki, bizim partiya təşkilatımız MK-nın plenumunda bu formada təmsil olundu".

Bu vaxt iclasa sədrlik edən M.T.Yaqubov Kremlin təmsilçisi, Sov.İKP MK-nın katibi Pospelovun qarşısında mövqesizlik göstərməmək üçün tələm-tələsik Teymur Quliyevin sözünü yerindən təsdiq edir:

- Düz deyirsiniz, yoldaş Quliyev.

Bu səhnəni görən M.C.Bağırov keçmiş silahdaşlarına xəbərdarlıq etmək üçün yenidən "Düzdür!" - sözünü ironiya ilə və uca səslə deyir.

Ancaq Quliyev özünün də istəmədiyi oyunu davam etdirməyə məcbur idi. O, çıxışına davam edərək qeyd edirdi:

- Yoldaş Bağırov! Mən bu məsələlərə laqeyd qala bilmərəm.

Yenidən M.C.Bağırov yerindən üstüörtülü, şifrələnmişş sözünü deyir:

- Mən nəsə deyirəm ki?

Əlbəttə, uzun illər təhlükəsizlik orqanlarında işləmiş Teymur Quliyevə M.C.Bağırovun bu ehyamlı sözlərini anlamaq o qədər də çətin deyildi.

Ona görə də Teymur Quliyev bu ehyamdan sonra çıxışını yumşaldaraq davam edirdi:

- Bu insan (M.C.Bağırovu nəzərdə tutur – A.M.) on illərdi bizim gözümüzün qabağındadır. O, kiminlə nə barədə söhbət etdiyini, nə dediyini, hər şeyi bizə ətraflı danışardı. Biz ondan nümunə götürürdük, ondan öyrənirdik.

Bu an Teymur Quliyev Xruşşovun emissarı Pospelovun narazı üzünü görərək, yenidən çıxışını sərtləşdirir:

- Mir Cəfər Bağırovun burada bir sifəti, plenumda isə digər sifəti vardı. Mənim şəxsən şahidi olduğum faktı Bağırov Moskva plenumunda inkar etdi. O, bizim yanımızda Beriyaya zəng etdi, ancaq plenumda ona bu barədə sual veriləndə, belə bir zəngin olmadığını söylədi Belorus.

İndi mən soruşuram: Yoldaş Bağırov, siz niyə Moskva plenumunda başqa bir adam idiniz? Mən bunu ürək ağrısı ilə sizdən soruşuram. Ona görə qeyd edirəm ki, Mərkəzi Komitə ölkəmizin belə məsuliyyətli anında düzgün olaraq M.C.Bağırova etimad göstərmir. Yaxşı başa düşürəm, iki-üç gün gərgin atmosferdə insan özünü itirə bilər. Ancaq sonradan özündə güc tapmaq, partiyaya kömək etmək olardı. Ancaq siz Beriyanın keçmişi barədə heç nəyi yadınıza sala bilmirsiniz.

Bax bu, dəhşətlidir! Mən bu gün özümdə cəsarət tapıb deyirəm, biz həmişə sizin avtoritetinizin basqısı altında olmuşuq".

Bu vaxt M.C.Bağırov Teymur Quliyevin onun mövqeyinə yaxınlaşdığını görüb, yerindən bağırır:

- Düz deyirsiniz!

Zalda canlanma baş verir. Sanki, hamı yenidən M.C.Bağırovun rəhbərlik illərində olduğu plenum və iclasların ab-havasına qayıdır.





Bir anlıq zalda qeyri-müəyyənlik hökm sürür. İllərlə bundan da çətin vəziyyətlərə düşmüş və hər dəfə vəziyyətlərdən çıxmış M.C.Bağırovun "vurulacağına" heç kim inana bilmirdi. Böyük əksəriyyət M.C.Bağırovun bu vəziyyətdən də çıxacağına əmin idi. Zalda səs-küy artır, Pospelovun işarəsi ilə iclası idarə edən M.T.Yaqubov Teymur Quliyevdən çıxışına davam etməsini xahiş edir. Rəngi ağarmış və özünü itirmiş, qorxudan ağzı qurumuş Teymur Quliyev səhv etdiyini başa düşür, bir stəkan su içdikdən sonra, tərini silərək çıxışına davam etməyə çalışır:

- Yoldaşlar, mən bilmirəm, düz deyirəm və ya səhv edirəm, ancaq mənə elə gəlir ki, biz həmişə təzyiq altındaydıq.

Bu zaman M.C.Bağırovun yerindən söylədiyi replika biçarə Teymur Quliyevi əməlli-başlı silkələyir:

– Niyə onda bu barədə yuxarılara yazmırdın?

Özünü itirmiş Teymur Quliyev bu dəfə də bağışlanmaz səhvə yol verərək, deyir:

- O vaxt demirdim, indi deyirəm də...

Bundan sonra o, "çıxışının" sonrakı hissəsində M.C.Bağırovun adını çəkməyə ehtiyat edir, ümumiyyətlə, ona toxunmur.

Lakin sonralar plenumun stenoqramı Moskvada Xruşşov, Malenkov, Mikoyan, Molotov tərəfindən oxunduqdan sonra M.C.Bağırova qarşı zəif çıxış etdiklərinə görə M.T.Yaqubov, T.Quliyev və Nəzər Heydərovun vəzifədən uzaqlaşdırılmasına qərar verilir. Bu qərarın verilməsində, sözsüz ki, İmam Mustafayevin də "xidmətləri" misilsizdir. Altıncı plenumdan sonra 20 iyulda Azərb.K(b)P MK-nın və Bakı şəhər KP-nın növbəti, VII plenumu çağırılır. M.C.Bağırov artıq siyasi hakimiyyətdən uzaqlaşdırılmışdı. Yeni rəhbərlik Xruşşovun gözündə etimad qazanmaq üçün tələsik respublikanın keçmiş rəhbərinin ünva-

nına ittihamlarla dolu plenuma başlayır. Həmin plenumda Toparidze-Sumbatovun partiya sıralarından çıxarılması məsələsi müzakirəyə qoyulur, həmçinin, bu plenum M.C.Bağırova qarşı daha kəskin çıxış edənlərin yarış meydanına çevrilir.

Plenumda M.C.Bağırov vəzifəsindən azad olunur və üç gün sonra onun şəxsi işi Sovet İttifaqı KP MK-nın sərəncamına göndərilir.

Bakıdakı plenum başa çatdıqdan sonra Azərbaycan ictimaiyyətinin və ziyalıların həm plenuma, həm də M.C.Bağırova qarşı hücumlara münasibəti birmənalı olmamışdı. Məsələn, 1953-cü ilin 18 sentyabrında Azərbaycanın daxili işlər naziri Quskovun Azərbaycan KP MK-nın birinci katibi Yaqubova göndərdiyi məxfi məktubda bunu aydın görmək olar.

ГААППОД. F. 1, Siy. 39, İş. 181
Tam məxfi.

Azərbaycan KP MK-nın katibi
**Yoldaş T.A.Yaqubova**

Moskvada incəsənət işçilərinin müşavirəsində Azərbaycan SSR nümayəndələri iştirak edirdilər. SSRİ DİN-in məlumatına görə, rejissor Fridin evində söhbət zamanı Azərbaycan SSR nümayəndədləri Bagırovun vəzifəsindən azad olunması ilə əlaqədar aşagıdakı fikirləri bildiriblər:

**Kompozitor Niyazi:**
“Əqər bizim ağsaçlı qvardiyamız bir qədər intizamlı olsaydı, onda P.N.Pospelovun arxasınca qetməzdi, onda o, (P.N.Pospelov) məcbur olub Bakıdan velosipedlə qayıtmalı olacaqdı, çünki ona heç kim dəmiryol bileti satmazdı”.





**Kinorejissor İsmailov:**
“Belə asanlıqla Bagırovu hesabdan silmək olmaz. Bagırov bakılılar uçun olmuşdur və Bagırov kimi qalacaqdır. Yoldaş P.N.Pospelovun ittihamı əsassızdır. Bagırov həmişə öz ünvanına deyilənlərin əksinə çıxırdı”.

**Kinorejissor Tagızadə:**
“Bagırovu işdən azad etmək olar, lakin Bagırovsuz ölkədə neft olmayacaq, Bagırovsuz Bakı olmayacaq. Bagırovu işinə bərpa edəcəklər”.

Məlumat uçun sizə bildirirəm.

Azərbaycan SSR
Daxili işlər naziri Quskov

Məhz bununla əlaqədar olaraq, 1954-cü il fevralın 12-də Azərbaycan KP-nin XX qurultayı çağırılır və bu qurultay Kreml qarşısında öhdəlik götürən İmam Mustafayevin “zəfəri” ilə tarixdə iz qoyur. Fevral ayının 12-dən 16-dək Azərbaycan Kommunist Partiyasının XX qurultayı keçirilir. Qurultayda Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin, bir çox partiya və sovet orqanlarının işində böyük nöqsanlar və səhvlər olduğunu, respublikada təsərrüfatın və mədəni quruculuğun bir sıra sahələrinin xeyli geri qaldığı qeyd edilirdi.

M.C.Bağırovu tənqid atəşinə tutanlardan biri, Sov.İKP MK yanında MELSİ-nin Azərbaycan filialının direktoru Zevin və şair Səməd Vurğun qeyd edirdilər ki, Bağırov yazdığı kitablarla özünü şöhrətləndirməyə çalışır, bu kitablarda səhvlərə və təhriflərə yol verir. Onlar göstərirdilər ki, hər cür ideoloji səhvlərə və təhriflərə qarşı barışmaz mübarizə aparmaq, Azərbaycan xalqının keçmişinə və Azərbaycan partiya təşkilatının tarixinə dair məsələlərin düzgün işıqlandırılmasına ciddi fikir vermək lazımdır.

Naxçıvan vilayət Partiya Komitəsinin katibi Əsgərov Azərbaycan KP MK-nın katibi Səmədov, yazıçı Suleyman Rəhimov, Lənkəran rayon partiya komitəsinin katibi Allahyarlı, Azərbaycan KP MK-nın partiya, həmkarlar ittifaqı və komsomol orqanları ilə iş şöbəsinin müdiri Əfəndiyev, hərbi hissə kommunistlərinin nümayəndəsi Filyaşkin, Sumqayıt şəhər partiya komitəsinin katibi Hüseynov, Azərbaycan SSR baş mətbuat idarəsinin rəisi Sultanova, Kirovabad şəhər partiya komitəsinin katibi Mehdiyev qeyd edirdilər ki, Azərbaycan KP MK-nın keçmiş birinci katibi Bağırov tərəfindən uzun illər yarıtmaz və partiya xəttinə zidd rəhbərlik üsulu tətbiq edilib. Bağırov partiya metodlarını inzibatçılıqla əvəz edir, partiya rəhbərliyinin ali prinsipi olan kollektiv idarəetmə üsulunu kobud surətdə pozur, aşağıdan tənqidi hər vasitə ilə boğur, mühüm məsələləri təkbaşına, həm də bir çox hallarda yanlış həll edirdi.

Bağırov kadrların seçilməsi və yerləşdirilməsində partiya prinsiplərinə riayət etmir, əksər hallarda məsul vəzifələrə özünə sadiq və dost saydığı adamları irəli çəkir, amma namuslu, partiyaya sədaqətli işçiləri hörmətdən salır, yeni kadrların, xüsusilə, ziyalıların yetişməsinə etinasız yanaşırdı.





Onun bu nöqsan və səhvlərinin aşkara çıxarılmasında Sov. İKP MK-nın iyul plenumunun qərarları çox mühüm rol oynamışdır. Azərbaycanın partiya təşkilatları Beriyanın işindən siyasi ibrət dərsləri almaq lazım gəldiyi haqqında plenumun göstərişini rəhbər tutaraq, respublikaya partiya rəhbərliyi üsullarında M.C.Bağırovun ciddi səhvlərini və partiya həyatında qeyri-sağlam halları üzə çıxarmışlar. Sonra növbə 1953-cü ilin iyul plenumunda M.C.Bağırovu zəif tənqid etmiş və onları N.S.Xruşşova Bağırovun yaxınları kimi hədəf göstərmiş İ.Mustafayevin "hücum korpusu"nun üzvlərinə - Azərbaycan KP MK-nın birinci katibi Yaqubov və Azərbaycan SSR Nazirlər Sovetinin sədri Quliyevə çatır. Çıxışlarda bunlar qeyd olunurdu: "Yoldaş Yaqubov Azərbaycan KP MK bürosunun və aparatının işinə rəhbərliyi təmin etməyi bacarmamış, köhnə, yarıtmaz iş metodlarını aradan qaldırmaq üçün tədbir görməmişdir".

"Azərbaycan SSR Nazirlər Soveti öz işini Sov.İKP MK-nın iyul və sentyabr plenumlarının qərarlarına əsasən yenidən qurmamış, nazirliklərin, xalq deputatları sovetləri icraiyyə komitələrinin və təsərrüfat təşkilatlarının fəaliyyətini yarıtmaz təşkil etmiş, verdiyi qərarların yerinə yetirilməsini təmin etməmişdir".

Çıxışçılar qeyd edirdilər ki, Nazirlər Sovetinin sədri T.Quliyev yoldaş Mərkəzi Komitənin plenumlarında, partiya konfranslarında öz ünvanına səslənən tənqidlərdən nəticə çıxarmamış və Azərbaycan SSR Nazirlər Sovetinə rəhbərlik etməyi bacarmamışdır.

Qurultayda həmçinin deyilirdi ki, Yaqubov, Quliyev və Heydərov yoldaşlar buraxdıqları səhvləri geniş və hərtərəfli təhlil etməmişlər.

Qurultay bundan sonra Yaqubov, Quliyev və Heydərov yoldaşların respublikaya rəhbərlikdə qalmalarını qeyri-mümkün hesab edir və onları Azərbaycan partiya təşkilatının ali orqanlarının heyətinə seçmirlər.

Azərbaycan KP MK-nın katibi İ.Mustafayev çıxışında deyirdi:

"Respublikanın partiya, sovet və kənd təsərrüfatı orqanları, bir çox kolxoz və sovxozların MTS rəhbərləri Sov.İKP MK-nın sentyabr plenumunun qərarlarını yarıtmaz yerinə yetirir, öz işlərini yeni tələblərə uyğun şəkildə yenidən qurmaqda ləng tərpənir, kənd təsərrüfatında işlərin vəziyyəti üçün lazımınca məsuliyyət hiss etmirlər".

İ.Mustafayevin çıxışındakı fikirlər Xruşşovun dəsti-xəttindən xəbər verirdi.

Qurultay nümayəndələrindən - "Kirpi" jurnalının redaktoru Əvəz Sadıqov, Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti Musa Əliyev, Azərbaycan KP MK-nın təbliğat-təşviqat şöbəsinin müdiri İsgəndərov, Göyçay rayon partiya komitəsinin katibi Əlizadə, Azərbaycan SSR mədəniyyət naziri Ələkbərov, Dağlıq Qarabağ Muxtar Vilayəti Partiya Komitəsinin katibi Sarkisov, "Kommunist" qəzetinin redaktoru Vəzirovun və başqalarının çıxışlarında partiyadaxili və ideoloji işin təşkilindəki nöqsanlar ciddi şəkildə tənqid edildi.

Qurultayda həmçinin, AHİŞ-in sədri Kərimova, nümayəndə Pliyev, Azərbaycan SSR Daxili işlər naziri Quskov, Azərbaycan LKGİ MK-nın katibi Hacıyev, Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini Əmiraslanov, Azərbaycan KP MK-nın elm və mədəniyyət şöbəsinin müdiri Həsənov, Azərbaycan KP MK-nın qadınlar arasında iş şöbəsinin müdiri Aslanova, Bakı şəhər





Soveti İcraiyyə Komitəsinin sədr müavini İsmayılov, Kür-Araz Su tikintisi baş idarəsinin rəisi Baqramov çıxış edirlər. Müzakirələrdə, ümumilikdə, 49 nümayəndə çıxış edir.

Qurultay Azərbaycan KP MK-nın hesabat dövründəki işini qeyri-kafi hesab edir.

Qəbul olunmuş qətnamədə qurultay mövcud nöqsanları tez bir zamanda aradan qaldırmaq, bütün partiya-təşkilati və partiya-siyasi işi kökündən yaxşılaşdırmaq, respublikada bütün təsərrüfat və mədəni quruculuq sahələrinə rəhbərliyi qüvvətləndirmək məqsədi güdən tədbirlər müəyyən edir.

Qətnamədə deyilir:

"Azərbaycan Kommunist Partiyasının XX qurultayı Sov. İKP MK-nın, şanlı Kommunist Partiyamızın sədaqətli dəstəsi olan Azərbaycan partiya təşkilatı Sov.İKP MK ətrafında daha sıx birləşəcək, öz işindəki nöqsan və səhvləri aradan qaldıracaq, inqilabi sayıqlığı daha da yüksəldəcək və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin rəhbərliyi altında Azərbaycan kommunistlərini və bütün zəhmətkeşləri respublikanın qarşısında duran vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi üçün səfərbərliyə alacaqdır".

Qurultay Azərbaycan KP MK-nın və Azərbaycan KP Təftiş Komissiyasının rəhbər heyətini seçir.

Bu zaman "hücum korpusu" həm Yaqubova, həm T.Quliyevə, həm də Nəzər Heydərova qarşı yenidən işə düşür. Hərçənd Yaqubov, Quliyev və Nəzər Heydərov qurultayda M.C.Bağırovu daha kəskin tənqid etməyə çalışırdılar. Hətta N.Heydərov M.C.Bağırovu aşağılayan, onu ələ salan çıxış edir. Lakin bu da onun köməyinə çatmir. Çünki, artıq Kremldə onların aqibəti İ.Mustafayevin Xruşşova verdiyi "informasiyalara" əsasən

həll edilmişdi. Qurultayın sonunda Bağırova, eləcə də İmam Mustafayevin xüsusi hədəfə götürdüyü üçlüyə (M.T.Yaqubov, T.Quliyev, N.Heydərov) qarşı daha çox canfəşanlıqla hücum edənlərin vəzifə bölgüsi başlayır.

Plenum İ.D.Mustafayevi Azərbaycan KP MK-nın birinci katibi, V.Y.Səmədovu Azərbaycan KP MK-nın ikinci katibi, M.Ə.İsgəndərovu Azərbaycan KP MK-nın katibi seçir.

Plenum Azərbaycan KP MK-nın büro heyətinə İ.K.Abdullayevi, P.A.Aruşanovu, A.M.Quskovu, M.Ə.İbrahimovu, M.Ə.İsgəndərovu, İ.D.Mustafayevi, S.H.Rəhimovu, V.Y.Səmədovu, H.Ş.Əfəndiyevi seçir.

Azərbaycan KP Təftiş komissiyasının sədri isə A.Z.Tanrıverdiyev seçilir.





# VII HİSSƏ

# M.C.BAĞIROVUN MƏHKƏMƏSİ

1953-cü ilin sonuna qədər M.C.Bağırov Moskvadakı mənzilində həyat yoldaşı Yevgeniya Mixaylovna və oğlu Cenlə (bu ad Cəfər və Yevgeniya Mixaylovnanın adlarının baş həriflərindən yaranıb) birlikdə Sov.İKP MK-nin təyinatını gözləyir. 1954-cü ilin yanvarında onu Kuybışev şəhərində yerləşən "Kuybışevneft" idarəsinin kadr məsələləri üzrə rəis müavini təyin edirlər. Maraqlıdır ki, həmin dövrdə Azərbaycan jurnalistləri Kuybışevə gedərək, M.C.Bağırovla görüşürlər. Fəqət, 1954-cü ilin yazında hadisələr kəskin sürətdə dəyişir. 1954-cü ilin mart ayının 13-də M.C.Bağırovu kommunist partiyası sıralarından xaric edirlər. Şübhəsiz, hadisələrin bu cür cərəyan etməsi "ali sifarişçinin" addımbaşı M.C.Bağırovu izlədiyindən xəbər verirdi. Artıq 1954-ci ilin sonunda onu həbs edirlər. 1956-cı ilin martında M.C.Bağırov, C.Yemelyanov, X.Qriqoryan, R.Markaryan, A.Atakişiyev və T.Borşov üzərində məhkəmə prosesi qurulur. Məhkəmə prosesində M.C.Bağırova qarşı irəli sürülən ittihamların böyük əksəriyyəti həqiqətdən uzaq idi. M.C.Bağırovu daha çox repressiyaların təşkilində ittiham edirdilər. Onda sual oluna bilər: məgər 37-ci il repressiyası birbaşa Moskvadan, Xalq Daxili İşlər Komissarlığının (Kitabın əvvəlində həmin sənəd

oxucuların nəzərinə çatdırılıb – A.M.) göstərişinə uyğun aparılmırdı?

Xruşşov Ukraynada, Arutyunov Ermənistanda, o cümlədən, bütün SSRİ məkanındakı rəhbərlər Kremlin göstərişlərini həyata keçirmirdimi? Bəs, nəyə görə bu məhkəmə prosesi Ermənistan, Özbəkistan, Qazaxıstan, Ukrayna rəhbərlərinə qarşı qurulmurdu? (kitabda onu da göstərmişik ki, repressiyaya ən az məruz qalmış respublika Azərbaycan idi). Nədən tək Azərbaycanın rəhbəri ən böyük müqəssir sayılır və ən ağır cəzaya məhkum edilir? Məhz burada məhkəmənin sifarişli olduğu, məkrli məqsəd daşıdığı üzə çıxır. Məhkəmənin milli rəng almaması üçün rusları və erməniləri də ittiham olunanların siyahısına daxil edirlər. İstintaqın gedişində X.Qriqoryan, R.Markaryan, T.Borşov və S.Yemelyanovdan M.C.Bağırovun əleyhinə saxta ifadələr alınırdı. Bununla qeyri-azərbaycanlı məhkumlarda belə bir arxayınçılıq formalaşdırılırdı ki, M.C.Bağırova qarşı ifadə verməklə məsuliyyətdən yaxa qurtaracaqsınız. Məhz buna görə onlar M.C.Bağırovu ləkələmək üçün sanki öz aralarında yarışa girmişdilər.

Bütün bunların nəticəsidir ki, M.C.Bağırov məhkəmədəki son sözündə "Məni asmaq azdır, məni güllələmək azdır, məni şaqqalamaq, dörd yerə bölüb, tikə-tikə doğramaq lazımdır, çünki inanmışam!" - deyir. M.C.Bağırov bu bəyanatı ilə həm də etirazını sistemin üzünə çırpırdı. Sonda onu da bildirir ki, "xalqımın qarşısında mənim vicdanım təmizdir!"

Bir həqiqəti nəzərdən qaçırmaq lazım deyil ki, 30-cu illərdə, 40-cı illərin ikinci yarısına qədər Azərbaycanda güc strukturlarına rəhbər təyinatı birbaşa Moskvada həll olunurdu. M.C.Bağırov ermənilərlə işləmək istəməsə də, buna məcbur idi. Bu





vəziyyət 40-cı illərin ortalarına kimi davam etdi. Artıq Beriyanın Kremldəki mövqeyi möhkəmlənəndən sonra M.C.Bağırov hüquq-mühafizə orqanlarında yerli kadrları yerləşdirməyə başladı. O cümlədən, A.Atakişiyev, onun ardınca M.T.Yaqubov daxili işlər naziri oldu. Bəs onda niyə M.T.Yaqubov yox, məhz Atakişiyev həbs olundu? Axı Yaqubov da M.C.Bağırovun kadrı idi. Ona görə ki, M.T.Yaqubov M.C.Bağırova qarşı hazırlanmış Xruşşov-Mikoyan ssenarisində vacib personajlardan biri idi. Bunları sənədlərlə kitabda göstərmişik. Buna görə də Atakişiyevin ittiham olunan şəxslərin sırasında olmamasının təminatı çoxdan verilmişdi. Stalinin ölümündən sonra Daxili İşlər Nazirliyi ilə Təhlükəsizlik Komitəsi birləşdirilir və Yemelyanov daxili işlər naziri olur. Beriya Bağırova Yemelyanovu yerli kadrla əvəz etməyi məsləhət görürdü. Məhkəmənin məhz bu heyət üzərində qurulması Kremldə əyləşmiş imperiya agentlərinin istəyindən irəli gəlirdi. Çox güman ki, bu qərarların baş məsləhətçisi Mikoyan və Molotov olub. Oxucunun nəzərindən qaçmayan maraqlı fakt ittiham olunanların milli mənsubiyyətə görə tam bərabər bölgüsüdür: iki azərbaycanlı, iki rus, iki erməni. M.C.Bağırovla yanaşı üzərində məhkəmə qurulan bu şəxslərin hər biri ayrı-ayrı dövrlərdə Azərbaycanın güc strukturlarında rəhbər vəzifələrdə işləmişdi. Sual oluna bilər: bütün ermənilərin havadarı nə əcəb soydaşlarının M.C.Bağırovla birgə güllələnməsinə göz yummalı oldu? Bu suala yalnız erməni dünyagörüşünün məntiqi ilə cavab vermək mümkündü. Mikoyanın qalxanının altında, SSRİ məkanındakı erməni "kitlərinin" qarşısında Markaryan və Qriqoryan sadəcə "kilkə" kimi görünürdü. Ona görə də "kitləri" qorumaq üçün "kilkələrin" qurban verilməsi məqsədəuyğun sayılırdı. Bu

məqamda erməni yazıçısı Aleksandr Şirvanzadənin bir fikrini xatırladaq. O qeyd edirdi:

"Ermənilərin milli dünyagörüşündə belə bir xarakterik cizgi var. Onlar ümumerməni mənafeyi naminə zaman-zaman hətta öz içərilərindən cəllad baltasının altına qurbanlar göndərirlər".

Beriyanın həbsindən sonra şübhəlilərin dairəsi genişlənir. İstintaqçıların diqqət mərkəzinə M.C.Bağırov düşür. Bunun əsas səbəbi keçmiş çekist İ.K.Əfəndiyevin N.S.Xruşşovun adına yazdığı məktub olur.

SSTRDA. F. 17. siy. 171. İş 469. səh. 104-116.

İ.K.Əfəndiyevin N.S.Xruşşova yazdığı 7 oktyabr 1953-cü il tarixli məktub (ixtisarla)

MK Rəyasət Heyətinin bütün üzvlərinə və Sov.İKP MK katiblərinə göndərməli,
[p.p.] N.Xruşşov
16.XI.53-cü il.

Surətdən surət
Tam məxfi
Şəxsən Sov.İKP MK-nın katibi yoldaş N.S.Xruşşova

Əziz Nikita Sergeyeviç!

Sizin simanızda xalqımızın ağlı-zəkasına, partiyamızın Mərkəzi Komitəsinə aşağıdakı məsələ ilə bağlı müraciət edirəm.

Mən həyatımın gənc vaxtlarından partiyamızın, Vətənimizin müxtəlif düşmənlərə qarşı mübarizəsi ilə sıx bağlı olmuşam.





Sovet kəşfiyyatından kənar mənim hər-hansı qüsurum olmayıb, baxmayaraq ki, müəyyən çətinliklər və iztirablar olub. Amma uzun illər sovet kəşfiyyatında heç vaxt yalan danışmamışam, sovet hakimiyyətinin düşmənlərinə qarşı amansız mübarizə aparmışam.

Azərbaycan sovet kəşfiyyatında elə bir adam yoxdur ki, mənim qədər eyni dərəcədə keyfiyyətli və kəmiyyətli "şəxsi işi" olsun.

Sizin simanızda mən anamız olan partiyanın qarşısında and içirəm ki, şəxsi maraqlarımı təmin etmək naminə kimisə rüsvay etmək fikrim olmayıb. Dediklərim bu məktuba da aiddir.

Mir Cəfər Bağırov ilə əlaqədar sizin vaxtınızı almaq istəməzdim. Əgər Bağırov özü vicdanla, namusla şəxsi və siyasi iç üzünü açsa idi. Ondagörünərdi ki, o, şanlı təşkilatımıza və bütün Azərbaycan xalqına ləkə gətirib. Lakin o, bu etirafı bu günə qədər etməyib.

Bağırovda nə namus, nə vicdan, nə də həqiqət var. O, gözləmə mövqeyindədir, quyruğunu bulayır, özünü quzuya oxşadır. "Səhvlərini" həvəslə boynuna alır, ammapartiyanı (MK-nı) maraqlandıran əsas məsələlərə yaxın gəlmir.

Bu münasibətlə bir məqammaraqlıdır. Azərbaycan KP MK-nın fəallarla birgə plenumundahəmin Bağırov, onu heç kim Beriyanın cinayət hərəkətlərinə görə ittiham etmirdi, (ola bilsin, profilaktika üçün) hər vasitə ilə, qətiyyətlə, aprior şəkildə adının Beriya ilə əlaqələnməsini rədd edirdi. Guya, "mən də sizin kimi, bu faktla bağlı heyrətə gəlmişəm".

Deyildiyi kimi, oğrunun papağı yanır! O, bu sadəlövh siyasəti ilə kimi aldatmaq istəyir?!

Bütün partiya və bizim xalq bilir ki, Beriya və Bağırov siam əkizləridir. Amma bir sual var: bunlardan kim müəllim, kim şagirddir?

Aşağıda gətirilən bir neçə fakt onu göstərir ki, Bağırov və onun siyasi dostu Beriya məharətlə maskalanaraq, inam qazana biliblər. O, hakimiyyəti, Beriya kimi, tamamilə ələ keçirmək arzusunda idi. Eynilə Beriya kimi karyerist məqsədlərinə çatmaq üçün bu yolda heç nədən, hətta siyasi avantüraya getməkdən belə çəkinmirdi.

Beriya-Bağırov ikisi də eyni dərəcədə bir yuvanın quşudur və bizim partiyamızla onların, ümumiyyətlə, heç bir yaxınlığı olmayıb.

Faktlara müraciət edək:

1. 1918-ci ildə M.C.Bağırov Quba qəzasının sədri təyin olunaraq, sovet qoşunları ilə Qubaya yola düşür. Sovet qoşunları dəstəsinə, əgər səhv etmirəmsə, Qoqoberidze və Lordkipanidze başçılıq edirdilər. Mənim bacımın əri Qulam Məmmədov oraya xəzinədar təyin edilmişdi. Mən və bacım bir yerdə Xaçmaz–Quba yolu ilə gedirdik. Bu zaman Əli bəy Zizikskinin bandası qoşuna hücum edir. Sovet qoşunları bu bandanı dağıdandan sonra Qubaya daxil olur.

Sovet hakimiyyəti qurulandan sonra (28.IV.20-ci il) Bağırov Azərbaycana qayıtdı və tezliklə Azərbaycan FK-nın sədri oldu. Hər halda onun birbaşa vəzifəsi (ekspropriasiya qanunu dövründə) Əli Bəy Zizikskini zərərsizləşdirmək və məsuliyyətə cəlb etmək idi. Çünki o, Bağırovla hərbi mübarizəyə girmişdi.

Ancaq bu, baş vermədi. O, Əli Bəy Zizikskini öz himayəsinə götürdü, bu da Azərbaycan xalqına çox baha başa gəldi.





Şəxsən mənim Şamaxı qəzasınınsiyasi bürosu (o vaxt FK-nın qəza orqanları belə adlanırdı) ilə əlaqəm olub. Məlumat verdim ki, Əli Bəy Zizikski müntəzəm olaraq Şamaxı şəhərinə gəlir, orada onun arvadı Ağalarova əksinqilabçı elementlərlə əlaqə qurur və antisovet çıxışlar hazırlayırdı. Bu məsələdə o, nəinki müsavatçılarla, hətta burada “könüllü qalan” türk əsgərləri və zabitləri (oxu: kəşfiyyatçılar) ilə əlbirdir. Şamaxı siyasi bürosunun rəisi yol. Krasnı informasiya üzrə müvəkkil kimimənəməlumat verdi ki, bu məlumatı şəxsən Beriyanın iştirakı ilə Bağırova çatdırdı. Bağırov sənədləri Beriyaya verdi vəbelədedi: - Mən onu (yəni Əli bəy Zizikskini) tanıyıram, ondan təhlükə gözlənilmir!

Ancaq bizə qorxulu və həyəcanlı informasiyalar daxil olurdu. Kaleybuqurtski şeyxlərlə, qolçomaqlarla, “Türkiyə könüllüləri ilə” (onların ideya ataları hansısa Triniç Axmet olub) birgə müsavatçılar Qaraqoyunlu üsyanı hazırlayırdılar. Bütün işlər pantürkizm şüarı altında gedirdi. Bu işlərdə Əli bəy Zizikskinin təsiri var idi.

Bu informasiyanı qulaqardına vuran Bağırov işi o vəziyyətə catdırdı ki, Qaraqoyunlu üsyanı baş verdi.

Bu, təsadüf ola bilərmi?

2. Məlumdur ki, 1918-ci ildə Türk qoşunu Azərbaycanı işğal etdi, gənc sovet hakimiyyətini süquta uğratdı. O vaxt Bağırov, özünün dediyinə görə, Qubadan Həştərxana getmişdi. Şükrü Paşa Qubaya daxil oldu, onun qərargah rəisi Əhməd Bedin idi. Bir çox antisovet elementləri türklərin və müsavatçıların xidmətinə keçdi. Mən və bacım o vaxt Qubada idik. Bizim gözümüzün qabağında Quba qəzasının sədr müavini Məhəmməd Mehdini asdılar. Bunu Əhməd Bedin, Əli Zizikski (“gənclər”

belə adlanırdı), onların yaxşı yadında qalan fiqurlardan Hacağa Şahverdiyev (indi Sov.İKP-nin üzvü, Bağırovun dostu) etdilər.

Nəhayət, Azərbaycanda sovet hakimiyyəti quruldu. M.C.Bağırov Azərbaycan FK-nın sədri oldu.

Mən və bir sıra kommunistlər Əhməd Bedini tanıyırdıq. O, ÜK(b)P üzvü və rəhbər işçi Əhməd Triniçə çevrilmişdi.

Mən, Qulam Məmmədov, Bulqeyis Məmmədova və başqa yoldaşlar dərhal partiya kəşfiyyat xətti ilə şəxsən Bağırova xəbər verdik ki, Əhməd Triniç türk qoşunlarının qərargah rəisi olmuş həmin Əhməd Bedindir. Onlar Qubaya daxil olmuşdu və o, bolşevik Məhəmməd Mehdinı asan həmin adamdır. Rəsmi informasiyalarla müəyyən edilmişdi ki, Əhməd Triniç tanınmış türk kəşfiyyatçısı, antisovet qruplaşmaların təşkilatçısı, pantürkizmin ideoloqudur və müsavatçılarla əlaqədədir və s. Lakin bunu Bağırov (FK sədri) qulaqardına vurur, gözə kül üfürür və deyir: “Azərbaycan MK-ya məlumdur ki, Əhməd Triniç partiya tərəfindən düşmən düşərgəsinə işləmək üçün göndərilmişdir və bu fakt hamımıza bəllidir”.

Mənim kanalımla (kəşfiyyat) sərəncam daxil olmuşdu ki, “Triniçin işini bağlayın”.

Bunun təsadüf olması mümkündürmü?

3. Lakin Əhməd Triniç əksinqilabi fəaliyyətini davam etdirərək, onu axıra çatdırdı. Ali pedaqoji təhsili təşkil etmək bayrağı altında (Azərbaycan Pedaqoji İnstitutu) Türkiyədən Bakıya müəllimlər dəvət olundu. Həmin müəllimlər “elmin və Azərbaycan dilinin bilicisi” kimi qələmə verildi.

Azərbaycan sovet kəşfiyyatının xeyir-duası, Bağırovun rəhbərliyi ilə Türkiyədən Azərbaycana “mütəxəssis-müəllimlər” gəlirdi.





Tezliklə mən (“Ayaz“ ləqəbi ilə) yenə xəbər verdim ki, APİ müəllim-mütəxəssis yox, türk kəşfiyyatçıları hazırlayır, onların hamısı Əhməd Triniçlə bağlı idi. O, isə nüfuzunu artırır və hakimiyyətdə yer tutmuş burjua millətçiləri ilə sıx əlaqə saxlayırdı.

“Məni yenə dişimdən vurdular”. Bu, o demək idi ki, bura sənin obyektin deyil, “mane olma”.

Lakin bizim əks-kəşfiyyatçılarımız (xaricdəkilər) Moskvayaməlumat verdilər ki, Bakıda, həmin APİ-də əksinqilabçılar yuva qurub. Yalnız bundan sonra onları SSRİ-dən çıxardılar.

Ancaq Əhməd Triniçi ifşa etmək üçün (o isə Bedin idi) 17 il lazım oldu.

Məgər, bu da təsadüfdür?

4. Müsavat Partiyasının lideri Məmməd Əmin Rəsulzadənin və bu partiyanın katibi Abbasqulu Kazımzadənin həbsində iştirak edən bir insan kimi, bilirdim ki, M.Ə.Rəsulzadə V.İ.Leninin teleqramı əsasında Moskvaya aparılmış və Xalq Millət Komissarlığında saxlanılmışdı. Moskvada qısa müddət işlədiyi zaman o, antisovet ruhunda olan bütün Azərbaycan mühacirlərini geri çağırdı. Onların arasında çoxlu alman, fransız, türk kəşfiyyatının agentləri vardı. Bütün bu elementlər mütəxəssis qismində Azərbaycana göndərilmişdi. Almaniyadan Bakıya İsmayılzadə İbrahim, Atayev Əli Rza, Fransadan Hüseynbəyov Zeynəm bəy, Mustafayev (adı yadımdan çıxıb), Səlim Əliyev və başqaları gəlmişdi... Tezliklə onlar mənim “obyektimə” çevrildilər. Onlardan öyrəndim ki, Məmməd Əmin Rəsulzadə özünün siyasi xəttindən əl çəkməyib. O, sağ qalan müsavatçılarla - Veysəl Mustafayev, Xəlifəzadə və başqaları ilə əlaqə yaradır. Məmməd Əmin Rəsulzadə və Abbasqulu Kazımzadə Suxumiyə “din-

cələməyə" gəlmişdilər. Suxumidən şəxsən xəbər göndərmişdim ki, onların qaçmaq fikirləri var, daha doğrusu, onlar qaçdılar.

Bu xəbəri də qulaqardına vurdular, nəticədə sovet hakimiyyətinin qatı düşməni kanonerkada Türkiyəyə qaçmağa müvəffəq oldu. O, indi də orada yaşayır.

Bağırovu nə qədər inandırmağa çalışdılar ki, M.Ə.Rəsulzadənin göndərdiyi "mühacir mütəxəssislər" Bakıda əksinqilabi iş aparır, o, bunu qulaqardına vururdu. Onların zərərsizləşdirilməsi üçün 12 ildən 16 ilə qədər vaxt tələb olundu.

Bəlkə, bu da təsadüfdür?

5. Ümumiyyətlə, Bağırovun qəribə, antisovet ruhlu adamlarla dostluq əlaqələri müşahidə olunurdu. Onun iradlara cavabı isə belə idi: "Bir cekist kimi mənə olar". Nəhayət, 1932-ci ildə belə şübhəliəlaqələrinə görə onu işdən çıxardılar. Onun dostları – varlı mülkədar Məşədi Əli İsmayılov, "hayatını xilas etdiyi" Camal Mirzəyev, quldur Kazan Papax oğlu Məhəmməd (Onu MK-nın qərarından sonra məcbur olub güllələdilər) və başqaları yalnız Bağırovun himayəsi sayəsində sağ qaldılar.

Son dərəcə dəhşətlisi fakt ondan ibarətdir ki, o, əksinqilabçı dəstə ilə haqq-hesabı çürütməyə tələsmir, cürbəcür yollarla onları qoruyur, amma iş bolşeviklərə çatanda, maksimum diqqət yetirirdi.

Türkiyə Kompartiyası MK-nın üzvü ilə bağlı hadisəsini yada salaq. Onu bir "xuliqan" hərəkətinə (Azərbaycan FK-nın sədr müavini Qorbaçenko ilə pivəxanada şuluqluq etməsi) görə, günahsız yerə güllələdilər. Bu adam özü ilə Moskvaya məxfi sənəd aparırdı. Onda Sovet İttifaqında, xüsusilə də, Azərbaycanda əksinqilabçıların şəbəkəsi haqqında məlumat var idi. Bu qondarma işə, əvvəlcədən hazırlanmış şuluqluğa "siyasi" don





geyindirdilər və o, heç nəyə görə güllələndi. Bu işi də gizlətməyə müvəffəq oldular. "Yüngül zədələnmə ilə" canını qurtaran Qorbaçenko 10 il iş alsa da, az sonra Bakıya qayıtdı. Bunu necə adlandırmaq olar? Yenə təsadüf?

6. Ola bilər, bu da bir təsadüf olsun ki, 1932-ci ildə Azərbaycanda işdən çıxarılan, ifşa olunan Bağırov Gürcüstana, Beriyanın yanına gedir və o, dostuna sığınacaq verir. Bu, Bağırovun Beriyaya göstərdiyi xidmətlərə görə "halal" haqqı idi. Beriya vaxtilə Bakı "işlərinə" görə xilasında, o zaman Azərbaycan FK-nın sədr müavini işləyən Bağırova borclu idi.

Müsavatın əks-kəşfiyyatı, onun vasitəsilə Türkiyə əks-kəşfiyyatı ilə bağlı olan Beriya Xəzər Hərbi Dəniz Donanmasında üsyanın təşkilinə müvəffəq oldu. Bir neçə dənizçi dava saldığına görə, camaat qarşısında açıq həbs edildi (qəsdən bu formada təşkil olunmuşdu) və onlar dərhal "repressiya" olunaraq, güllələndilər (ola bilərmi ki, bunu Azərbaycan FK-nın sədri bilməsin?). Dənizçilər öz yoldaşlarını tələb edir, vəziyyət daha da qızışırdı. Gərginlik o dərəcəyə çatmışdı ki, hərbi gəmilər ultimatum verdilər, bundan sonra onlar Bakını bombardman etmək istəyirdi. Əksinqilabçıların əlinə oynayanların bu işini ləğv etmək üçün partiyamız nə qədər güc və enerji sərf elədi.

Bağırov doğrudan Beriyanın əks-kəşfiyyata xidmət etdiyini, bu təxribatla Azərbaycanda sovet hakimiyyətini devirməyə çalışdığını bilmirdi?

Başa düşə bilərdi! Lakin o, işi "malaladı", Beriyanı müdafiə etdi və onu yola saldı ki, get, qardaşım, alınmadı...

Bu, təsadüfdür?

Soruşmaq lazımdır ki, Bağırov 1932-ci ildə kimin təşəbbüsü ilə Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri vəzifəsinə irəli çəkilmişdi? Bu, həqiqətən Beriyanın təşəbbüsü idi!

Bəs,1933-cü ildən sonra Bağırov özünün qəribə və şübhəli mövqeyini, antisovet elementlərə qarşı münasibətini dəyişdimi?

Bəli, o, sadəcə taktikanı dəyişdi və daha da fəallaşdı. Bir sözlə, kənardan baxanda Bağırov rus xalqının dostu olduğunu deyirdi və müridizmə, pantürkizmə, panislamizmə qarşı çıxış edirdi.

Forması elə, məzmunu isə başqa cür idi.

7. 1934-cü ildə Bakıya qayıdan Bağırov yaxın dostunun vasitəsilə Türk ordusunun keçmiş zabiti Musa Şəmsəddinskini Xalq Komissarları Soveti işlər idarəsinin müdiri vəzifəsinə qoyur və az sonra onu Azərbaycan SSR Ali Sovetinin katibi vəzifəsinə irəli çəkir. Azərbycanda burjua-millətçi təmayüllü rəhbər işçilər barədə şəxsən mən məlumat hazırlamışdım. Onu da qeyd edim ki, Musa Şəmsəddinski buna qədər Azərbaycan BSİ-nin sovet kəşfiyyatı məsələləri üzrə informasiya şöbəsinin rəisi, yəni, mənim müdirim olub.

Cami Əfəndiyev başda olmaqla, müsavatçıların Kelvin qrupu, Azərbaycan SSR Ali Soveti katibinin göstərişi ilə İsmayıllıda əhali arasında süni narazılıq yaradılır, silahlı üsyan hazırlanırdı.

Azərbaycan BSİ-də, onun rəhbərliyində Sumbatov-Topuridze oturmuşdu. O, bu dəstəni zərərsizləşdirmək əvəzinə, rəhbərliyə məlumat vermişdi ki, mən bu işi ifşa edirəm. Məni çağırdılar və orada təklif etdilər: “Get, öz işinlə məşğul ol və bu cür məsələlərə qarışma”. Lakin mən bu barədə mətbuatda (“Бакинский рабочий” qəzetində öz adamım var idi) çıxış etdim. Qəzetdə məqalə gedəndən sonra, bu antisovet sürüsünü aradan götürməyə məcbur oldular.

Bu zaman Bağırov mənimlə “ciddi” maraqlanmağa başladı. Soyuq müharibə gedirdi. Bu barədə 1-ci şöbənin işçisi Səfər Məmmədov mənə məlumat verdi.





Qoy bu da təsadüf olsun.

7. 1930-cu ildən mən Heydər Hüseynovla “məşğul idim”. Çünki Türkiyədən - bizimkilərdən məlumat almışdıq ki, onun öz dayısı ilə əlaqəsi var. Onun dayısı Türkiyədə antisovet təşkilata rəhbərlik edirdi, İranda yaşayan əmisi də antisovet işi aparırdı.

8. Hüseynovun əks-kəşfiyyatla əlaqələri xırdalığına kimi müəyyən olunmuşdu.

Bağırova bu barədə xəbər versələr də, o, inadla bütün sübut və materialları rədd edirdi. O, AAK-dan təkidlə xahiş edərək, Heydər Hüseynova, dissertasiya müdafiə etmədən, fəlsəfə elmləri doktoru elmi dərəcəsini verdirdi, onu Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsinə qoydu, Azərbaycan KP MK-nın tərkibinə saldırdı və partiya arxivini (İMEL) ona həvalə etdi.

Bağırovun Heydər Hüseynovun agent və təxribatçı olduğunu “başa düşməsi” üçün 20 il tələb olundu. Görəndə ki, vəziyyət qəlizləşir, özü “Большевик” jurnalında məqalə ilə çıxış edir. Əslində bu, H.Hüseynova qarşı bir manevr idi (Bax: “Müridizm xüsusiyyətləri barədə”) və nəticədə, Heydər Hüseynov özünü asdı.

Nədir, bunlar da təsadüfdür?

9. Rəsmi, qeyri-rəsmi, yüzlərlə insan minlərlə imzasız məktub yazaraq, Azərbaycan SSR kəşfiyyat orqanlarına, müntəzəm olaraq Bağırova məlumat verirdi ki, partiyanı antisovet elementləri ilə zibilləmək, bu adamları təşviq etmək olmaz. Həmin dövrdə, xüsusilə, vicdanlı alimlərə, partiyaya sadiq insanlara etinasız yanaşırdılar. Lakin o, amansız, zalımvə rəhmsiz idi. M. C.Bağırov 1937-ci ildə güllələnmiş müsavatçı Şirin bəy Səfərə-

libəyovun qardaşı Mehdi bəy Səfərəlibəyova vəzifə vermiş, burjua millətçisinin oğlu Əsgər bəy Eyvazovun oğlu Bahadur Eyvazovu Tibb İnstitutunun direktoru vəzifəsinə irəli çəkmişdi. O, indi də həmin vəzifədə işləyir.

Bağırova pantürkist "Fevziyət" jurnalından sənəd təqdim etmişdilər. Jurnalda Türkiyədən Mir Əsədulla Mir Qasımın Azərbaycanın müsavatçı ziyalılarına müraciəti çap olunmuşdu. Lakin Bağırov onu Azərbaycan Elmlər Akademiyasının prezidenti vəzifəsinə irəli çəkir. Həmin adamın alim və cərrah kimi səriştəsiz olduğunu bilsə də, onu SSRİ Ali Sovetinin tərkibinə salır. Tanıdığımız bütün əksinqilabçı elementlər: İsmayılzadə, Atayevlər, Musabəyov (bütün nəsli güllələndi), Şahsuvarov, Rzabəyli və başqaları Azərbaycan Tibb İnstitutunda kafedra müdiri oldular. Partiya təşkilatı nə qədər vuruşsa da, bu adamların sədaqətli dostu Bağırovu inandırmaq mümkün olmadı ki, ATİ-də vəziyyət artıq dözülməzdir.

10. Bağırov sözdə dostluqdan çıxış edir, hər yerdə böyük rus xalqının aparıcı rolundan danışırdı. Amma vaxtilə Dövlət nəzarəti naziri işləmiş Zeynal Əlizadə yoldaş respublikanın birinci şəxsibarədə Moskvaya xırda bir məlumat verdiyinə görə, Bağırov dərhal naziri vəzifədən götürmək və tutdurmaq istəyirdi. Onu bu aqibətdən Q.M.Malenkov yoldaş qurtardı.

Ola bilsin, bu da təsadüfdür. Beriya kimi Bağırov da DİN-i partiyadan üstün bir orqana, özünün çirkli planlarını yerinə yetirən, sözəbaxan bir alətə çevirmişdi (onların metodu eyni idi). Bu orqan Bağırovun göstərdiyi istənilən adama "ПН" ("siyasi cəhətdən etibarsız") damğası vururdu. Bu orqan saxtakarlığı, rəhbərin xoşuna gəlməyən istənilən adama qarşı yalan ittihamlar düzüb-qoşmağı özünün mətbəx alətinə çevirmişdi. Misallar gətirim.





SSRİ Dövlət Nəzarəti Nazirliyinin materialları üzrə, başda nazirin müavini yol. Starostin olmaqla, böyük müfəttiş qrupu (Mexlisin dövründə) Azərbaycanda yoxlama aparmışdı. Müfəttişlər çoxlu sayda material toplamışdı. Yoxlamanın nə ilə nəticələnə biləcəyini görən M.C.Bağırov qulbeçəsinə - daxili işlər naziri Stepan Fyodoroviç Yemelyanova "bu işi pozmaq" tapşırığını vermişdi.

Və təxribat üsulları işə salınır. Yoldaş Starostini qatarda içizdirir, ona cavan, göycək qızları soxuşdurur, müxtəlif rakurs və pozalarda fotoşəkilərini çəkirlər. Kompromatın sayı artdıqca, Bağırov Beriya ilə əlaqə saxlayır (təsadüfən?), Yusupovu (Özbəkistan) "təlimatlandırır" və "ifşaedici materialla" Moskvaya, ÜK(b)P MK Siyasi Bürosunun iclasına gəlir. Mexlis və Starostinə qarşı kompromat və digər sənədlər yoldaş Stalinin masasının üstünə qoyulur. Yəni, "necə ola bilər ki, belə pozğun insanlar bizə ittiham irəli sürür? Müfəttişlərə bir baxın, hamısı bu gündədir".

M.C.Bağırov zalım hökmdar kimi, hakimiyyəti heç kəslə bölüşmək fikrində deyildi. O, vəzifəyə sözəbaxan, ona şəxsən sədaqətli kadrları qoyurdu. Qabiliyyətli, bacarıqlı, vicdanlı, partiya və dövlətə sadiq insanlar isə özlərinə layiq iş yeri tapa bilmirdi.

Onun ətrafındakı silahdaşları: çekistlər Sumbatov-Topuridze (Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, 1920-ci ildən onunla Azərbaycan FK-da, sonra Beriya ilə Moskvada, Kremldə işləyib. İndi həbs olunub), Beriyanın qohumu Narçimaşvili, keçmiş müsavatçı Sadıq Fərəcovun həyat yoldaşı Kübra Fərəcova (onun bir neçə məşuqəsindən biri) Bağırovun "sehrli" əli ilə Sov.İKP üzvü oldular. O, qolçomaq tör-tökün-

tüsü Həsən Həsənovun namizədliyini Azərbaycan KP MK-nın katibi vəzifəsinə irəli sürmüşdü (partiya fəallarının siqnallarına baxmayaraq). Həsənov hazırda Azərbaycan KP MK-nın təhsil şöbəsində işləyir. Bağırovun sədaqətli iti, xidməti vəzifəsindən daim sui-istifadə edən, Azərbaycanın daxili işlər naziri S.F.Yemelyanov, rəhbərin sifariş etdiyi adamlara qarşı "siyasi obyektivlik" göstərən Hacağa Şahverdiyev (Türkiyə əks-kəşfiyyatına işləyirdi), Bağırovun Quba üzrə silahdaşı Gülməmmədov (burjua-millətçi təmayüllü yerli qruplaşmalardan birindəndir) və başqaları.

Əziz Nikita Sergeyeviç! İnanmaq çətindir ki, Nazirlər Sovetinin indiki sədri Teymur Quliyev onunla bir yerdə FK-da, daha sonra bütün həyatı boyu Bağırovun ideya rəhbərliyi altında işləyib. Azərbaycan KP MK-nın indiki katibi Mir Teymur Yaqubov M.C.Bağırovun yaxın adamı və yetirməsi, dəfələrlə Azərbaycanın Daxili işlər naziri işləyib. Uzun illər Bağırova itaətkarcasına xidmət edən insanlar kor-koranə onun göstərişlərini yerinə yetirir, hər şeydə ona oxşamaq istəyirdilər (geyimində, yerişində, müraciətində və s.). Bu yetirmələrində müəllimlərinin zərərli iş metodlarına yoluxmadığına inanmaq çətindir.

Bu insanın amoral hərəkətləri, mənəviyyatsızlığı, bəy-feodal həyat tərzi barədədanışmaq istəmirəm. İşdən çıxarılandan sonra onun haqqında xalq arasında deyirdilər ki, "belə işləri heç Şirvanşahları da özlərinə rəva görmürdülər". O, çoxlu sayda gözəl qızları rəhbər vəzifəyə irəli çəkir, sonra isə "xidməti işlə əlaqədar" yanına çağıraraq, onlardan qadın kimi istifadə edirdi (K.Fərəcova, Z.Əlizadə, Xanməmmədova, P.Qaşımzadə və b.). Bunlar xırda şeylərdir, amma o da həqiqətdir ki, bu üsul mənəviyyatı pozulmuş siyasətçilərə məxsusdur.





Təsadüfi deyil ki, o, eynilə Beriya kimi, ancaq partiyanın təzyiqi nəticəsində günahsız həbs olunanları buraxır, amma yenə inad edirdi ki, həmin insanları həbs etmək vacibdir (Triniçlə, Qazan Papax oğlu Məmmədovla, Hüseyn Musayevlə, Z.Əlizadə və başqaları ilə olduğu kimi).

Diqqətinizə çatdırdığım bu faktlar Bağırovun indiki davranışına görə heç də təsadüfi deyil. Bu faktların arxasında sosial-siyasi köklər dayanır.

Uzun illər ərzində onun siyasi sayıqlığının kütləşməsi, partiyamıza düşmən münasibət kəsb edən "sentimentalizmi", eləcə də həddini aşan "havadarlıq", düzgün, təmiz sovet adamlarına əzab vermək, nəinki bitərəflərin, həmçinin, partiya üzvlərinin haqqını tapdamaq siyasəti, sonsuz hakimiyyət ehtirası, karyerizmi, siyasi avantüra metodları, xoşuna gəlməyən insanlara divan tutması təsadüfi ola bilməzdi. Əgər Bağırovun arxasında möhkəm, mötəbər, etibarlı dayağı olmasaydı, o, heç cür irəli gedə bilməzdi. Belə dayağı isə o, Beriyanın simasında tapmışdı,

Bütün bu keyfiyyətlər eynilə Beriyaya da, Bağırova da xasdır və bunlar onları qohumlaşdırır.

Bağırov elə başa düşməsin ki, əlverişli məqamdan istifadə edib, mən onunla şəxsi haqq-hesab çəkirəm.

İ.K.Əfəndiyev

7.X.1953

Moskva, Pistsovaya -16, korp. 2, mənzil 69.

İ.Əfəndiyevin yuxarıdakı "dəlillərinə" qayıdaraq, qeyd etməliyik ki, M.C.Bağırovun təqdimatı ilə "Rus-Azərbaycan lüğəti"nin hazırlanmasına görə Heydər Hüseynov, Mirbabayev və Orucov 1948-ci ildə Stalin mükafatına layiq görüldülər. Onun

təqdimatı ilə alimlərə Sosialist Əməyi Qəhrəmanı fəxri adları verildi. Təkcə 1948-ci ildə 104 adam Sosialist Əməyi Qəhrəmanı adı ilə təltif olunmuşdu. O vaxtlar ədəbiyyat sahəsində əsas prioritet rus və Azərbaycan xalqlarının dostluğu movzusu idi.

Fətəli xan təbliğ edilirdi. O, XVIII əsrdə Quba xanlığına rəhbərlik etmiş, bütün Azərbaycan xanlıqlarını bir araya gətirib, Rusiya ilə birləşdirmək istəyirdi. Bununla o, digər xanlardan fərqlənirdi. Ona görə Qasım Abdullayevin 1948-ci ildə çıxan "Fətəli xan Azərbaycan torpaqlarını birləşdirdi və onun xarici siyasəti" kitabı M.C.Bağırov tərəfindən yüksək qiymətləndirildi. Kitabın Azərbaycan Dövlət Unuversitetinin elmi şurasında müzakirəsində Bağırov şəxsən iştirak etdi. Heydər Hüseynov M.C.Bağırovun ən etibarlı adamlarından biri idi.

SSTRDA. F. 17. Siy. 171. İş. 470. səh.215-225
Protokolun surəti
Şahid Bağırov Mir Cəfər Mir Abbasoviçin dindirilməsi
29 oktyabr 1953-cü il.

Tam məxfi

Yoldaş Q.M.Malenkova

Şahid Bağırov Mir Cəfər Mir Abbasoviçin istintaq protokolunun surətini təqdim edirəm
29 oktyabr 1953-cü il
Əlavə: 10 vərəqdə.





[p.p.] R.Rudenko
30 oktyabr 1953-cü il
№ 569/ssov

Qeydlər:
Oxudu
[p.p.] L.Kaqanoviç. 6.XI.1953
Oxudu
[p.p.] K.Voroşilov. 9.XI.1953
Oxudu
[p.p.] A.Mikoyan. 9.XI.1953

Şahidin istintaq protokolu

1953-cü il, oktyabrın 29-u, Moskva şəh., SSRİ Baş prokuroru, həqiqi dövlət ədliyyə müşaviri Rudenko şahid qismində aşağıda adı çəkiləni dindirdi. O, göstərdi:

Bağırov Mir Cəfər Abbasoviç,

Təvəllüdü: 1896-cı il, Quba şəhəri.

Azərbaycan SSR, təhsili ali, 1917-ci ilin martından Sov.İKP üzvü.

"Kuybışevneft" birliyinin rəis müavini, yaşayış yeri - Kuybışev şəhəri. Məhkum olunmayıb, evlidir.

Şahid yalan ifadə verdiyi təqdirdə və ifadə verməkdən imtinaya görə cinayət məsuliyyəti daşıdığı barədə RSFSR CM-nin 95, 92-ci maddələri üzrə qabaqcadan xəbərdar edilib və aşağıdakı ifadələri verib:

SUAL: - Siz Beriyanın satqın fəaliyyəti barədə istintaqa nə deyə bilərsiniz?

CAVAB: - 1 iyun 1953-cü ilə qədər - yəni Sov.İKP MK-nın plenumuna qədər Beriyanın satqınçılıq fəaliyyəti barədə mən heç nə bilmirdim, orada Beriya satqın kimi ifşa olundu. Ona görə Beriyanın satqınçılıq fəaliyyəti barədə istintaqa heç bir məlumat verə bilmərəm.

SUAL: - Beriyanı nə vaxtdan tanıyırsınız?

CAVAB: - 1921-ci ilin fevralında məni Azərbaycan FK-ya işə götürdülər, FK sədri vəzifəsinə təyin etdilər. Buna qədər orduda qulluq edirdim. 7-10 gündən sonra FK-da işləmək üçün Azərbaycan K(b)P MK-nın, ya da Bakı komitəsi partiya təşkilatının yollayışı ilə - indi yadımda deyil, Beriya göndərilmişdi. O, FK-nın sədr müavini və SOÇ rəisi vəzifəsinə təyin edildi. Beriyanı o vaxtdan tanıyıram.

SUAL: - Azərbaycan FK-nın sədri olarkən sizin Beriyanın Müsavatın əks-kəşfiyyatında xidmət etdiyindən xəbəriniz var idi?

CAVAB: - Beriyanın Müsavatın əks-kəşfiyyatında xidmət etməsini mən 1937-ci ilə qədər bilmirdim. O zaman Kaminski bu məsələyə dair ÜK(b)P MK-ya rəsmi ərizə ilə müraciət etmişdi. Müsavat hökumətinin əks-kəşfiyyatında xidməti barədə Beriya mənə heç nə danışmayıb. Beriya mənə danışırdı ki, guya bolşevik gizli təşkilatının kəşfiyyat xarakterli tapşırıqlarını yerinə yetirirdi. Ancaq bu tapşırıqların nədən ibarət olduğunu mənə demirdi.

Beləliklə, Beriyanın Müsavatın əks-kəşfiyyatında xidmət etməsi barədə ilk dəfə 1937-ci ildə eşitdim.

SUAL: - Siz 1921-ci ilin dekabrında Azərbaycan FK komözlüyün Mərkəzi komissiyasının iştirakı ilə yoxlama və yenidənbaxma, Azərbaycan KP-nin şəxsi heyətinin təmizlənməsi ilə bağlı keçirilən iclasda iştirak etmisinizmi?





CAVAB: - Bəli, iştirak etmişəm.

Rudenko: - İclasın protokolunda sizin Beriya haqqında çıxışınız aşağıdakı redaksiyada verilib:

"Bağırov: O, ciddidir, tələbkardır, ekspropriasiya zamanı dayanıqlıq göstərmişdir. Heç kimə üz vermir, düz və səmimidir, özü tələbkardır və sevir ki, onun özünə qarşı da tələbkar olsunlar".

Bu yazı sizin çıxışınızı düz əks etdirir?

CAVAB: - Bəli, o vaxt mən belə danışmışam. Çünki, o vaxt Beriyaya inanırdım.

SUAL: - Sonra protokolda əməkdaşların Beriyanın məişət pozğunluğu, onun FK aparatının qadın əməkdaşlarına sataşması, üzüyün mənimsənilməsi və s. haqqında çıxışları əks olunub. Sizə Beriyanın məişət-mənəvi pozğunluqu barədə faktlar məlum idimi?

CAVAB: - Yox, mən Beriyanın məişət-mənəvi pozğunluğu barədə heç nə bilmirdim, ona görə də onu komözlüyün iclasında müdafiə edirdim. Mən hesab edirdim ki, çıxış edənlər Beriyaya qarşı qərəzlidir, çünki o, çox ciddi və tələbkar idi.

SUAL: - Komözlüyün mərkəzi komissiyasının iclasında izahat verərkən, Beriya Müsavatın əks-kəşfiyyatında xidmətindən danışdı?

CAVAB: - Yox, o, bu barədə danışmadı.

SUAL: - 1920-ci ildə Azərbaycan FK-da Beriyanın həbsi barədə nə bilirsiniz?

CAVAB: - Bu barədə mənə heç nə məlum deyil.

SUAL: - Sizə məruzə ediblərmi ki, Azərbaycan FK-nın arxivində Beriyanın 1920-ci ildə həbsi ilə bağlı sənədlər var?

CAVAB: - Yox, mənə bu barədə heç kim məruzə etməyib. Beriyanın 1920-ci ildə həbsi barədə ilk dəfədir eşidirəm.

SUAL: - 1932 və 1933-cü illərdə Bakıya, sizin yanınıza Beriyanın tapşırığı ilə Merkulov gəlmişdir. Onun işi partiya arxivində Beriyanın Müsavat əks-kəşfiyyatında xidməti barədə sənədləri axtarıb tapmaq olub?

CAVAB: - Sənədlər üçün Tbilisidən partiya arxivinə gələnlər çox olub. Beriyanın köməkçisi kimi Merkulov o vaxt Bakıya tez-tez gəlirdi. Lakin o, Beriyanın Müsavat əks-kəşfiyyatında xidmətinə aid sənədlərin dalınca gəlməsi barədə mənə heç nə deməyib. Ola bilər ki, partiya tarixi sənədləri ilə iş adı altında, Beriyanın tapşırığı əsasında, Merkulov faktiki olaraq Müsavatın əks-kəşfiyyatında xidmətinə dair sənədləri axtarırdı. Lakin mənə Merkulovun bu sənədləri axtarması barədə heç nə məlum deyil.

SUAL: - Beriya ilə Serqo Orconikidzenin münasibətləri barədə sizə nə məlumdur?

CAVAB: - Serqo Orconikidze barəsində Beriya alçaq mövqedə idi. Əvvəl Beriya özünün ona qarşı yaxşı münasibətini karyera məqsədlərinə çatmaq üçün istifadə etdi. Orconikidze ona müəyyən səviyyəyə çatmaq üçün kömək edəndən sonra, Beriya Orconikidzeyə qarşı mübahisələr salmağa başladı. Xatırlayıram, aşağıdakı hadisə yadıma düşür: Ölümündən bir neçə ay qabaq S.Orconikidze axırıncı dəfə Kislovodskiyə gəlmişdi. Bu dəfə o, mənə telefonla zəng etdi və xahiş etdi ki, onun yanına gedim. Mən Orconikidzenin bu xahişini yerinə yetirdim və Kislovodskiyə gəldim. Bu vaxt G.Dimitrov da orada qonaq idi. Orconikidze məndən Beriya haqqında bütün təfsilatı ilə soruşurdu və onun barəsində kəskin və mənfi danışırdı. O cümlədən, deyirdi ki, qardaşı Papulya Beriya tərəfindən həbs olunub, amma onun müqəssir olmasına inanmır. Yəqin Orconikidze onda başa düşmüşdü ki, Beriya qeyri-səmimi və xəyanətkardır. O, əvvəl Orconikidzenin dəstəyini qazanaraq, hakimiyyətə yol tapdı, sonra isə cürbəcür vasitələrlə onu qaralamağa çalışdı.





Beriya öz adamları vasitəsilə öyrənmişdi ki, Orconikidze məni Kislovodskiyə çağırıb. O, bu barədə mənimlə telefonda danışdı, ona cavab verdim ki, Orconikidze neftin hasilatı məsələsi ilə maraqlanırdı. Beriyanın Serqoya münasibəti əclaflığın, karyerizmin və namərdliyin nümunəsi sayıla bilər.

SUAL: - Sizə Kedrov Mixail Sergeyeviç tanışdırmı?

CAVAB: - Bəli, Kedrov mənə tanışdır, ən yaxşı tərəfdən tanışdır. Kedrov köhnə bolşeviklərdən idi. Vətəndaş müharibəsində Şimalın müdafiəsində fəal təşkilatçı, iştirakçı olub. Sonra F.E.Dzerjinskinin dovründə FK RH-nın üzvü idi. Bu adam böyük mənəvi təmizliyə və vicdana malik idi. Dzerjinskinin səlahiyyətli nümayəndəsi kimi, Kedrov Bakıya gəlirdi və FK-nın işini yoxlayırdı.

SUAL: - Kedrovun Beriya haqqında Dzerjinskiyə göndərdiyi məlumat barədə nə bilirsiniz?

CAVAB: - Bununla əlaqədar məlumatım yoxdur.

SUAL: - Siz Sefi tanıyırdınız?

CAVAB: - Bəli, Sef mənə yaxşı tanışdır. O, Beriyanın yaxın adamlarından idi. Onu mənə Beriya təqdim etmişdi və Sefi Azərbaycana - Bakı şəhər partiya komitəsinə ikinci katib, Aqrbanı isə MK-nın ikinci katibi vəzifəsinə göndərmişdi.

SUAL: - Sefin Tbilisidə həbsindən sonra nə ilə əlaqədar Bakıya, düşərgəyə göndəriblər?

CAVAB: - Sef Tbilisidə heç bir ifadə vermirdi. Dəqiq yadımda deyil, Sefi Tbilisidən Bakiya gətirmək göstərişini Sumbatova mən vermişəm, yoxsa Sumbatov Sefi öz təşəbbüsü ilə

sorğu-sual üçün gətirtmişdi. Xatırlayıram ki, Bakıda Sef özünə qəsd etmək istədi, lakin ona mane oldular. Onda Sef özünün düşmənçilik, əksinqilabi fəaliyyətindən ifadə verməyə başladı.

SUAL: - Sizə məlumdurmu ki, Sefdən sizə, Beriyaya və Sumbatov-Topuridziyə qarşı terror aktları hazırladığı barədə ifadələr döyməklə alınırdı?

CAVAB: - Yox, bu barədə mənim xəbərim yox idi. Ümumiyyətlə, mən heç vaxt təhlükəsizlik orqanlarının məlumatlarına inanmırdım. Guya mənə qarşı terror aktı hazırlanır. Həmişə belə məlumatlara gülürdüm.

SUAL: - Sumbatov-Topuridzeyə ünvanlanmış, Sefin öz əli ilə yazdığı aşağıdakı ifadədən xəbəriniz varmı:

"1934-cü ildə yerli terrorçu Bakının ərazisində iki dəfə təşəbbüs edib, terror aktı törətməyə cəhd göstərib. Birincisi avqust ayında Beriya və Bağırova qarşı, ikincisi sentyabrda Bağırova və Sumbatova qarşı?"

CAVAB: - Yox, Sefin bu ifadəsi barədə mənim məlumatım olmayıb.

SUAL: - Sizə Nodev familiyası tanışdır?

CAVAB: - Deyəsən, XDİK-də belə əməkdaş var idi.

SUAL: - Nə ilə əlaqədar 25 dekabr 1936-cı ildə Nodevin şəxsi işinə Azərbaycan K(b)P MK-nın bürosunda baxılırdı?

CAVAB: - Bu, Akopovun və Purnisin Nodev haqqında ərizələri ilə əlaqədar Azərbaycan K(b)P MK bürosunun mənə təqdim olunmuş 169 nömrəli protokolundan aydın görünür.

SUAL: - MK-nın bürosunda Nodevin şəxsi işinin müzakirəsinin necə getdiyi yadınızdadırmı?

CAVAB: - Nodev Beriya haqqında böhtan yaymaqda ittiham olunurdu. O zaman Beriyanın nüfuzu və şöhrəti çiçəklənmə





dövründə idi. Ona görə də Nodevlə bağlı müzakirələr Beriyanın xeyrinə keçirdi.

Rudenko: - Sizə Bakıdan Moskvaya göndərilmiş şifrələnmiş, aşağıdakı məzmunda teleqramın surəti təqdim olunur:

"Moskva. Xalq Daxili İşlər Komissarlığına, yoldaş Yejova.

Azərbaycan K(b)P MK bürosu qərara gəldi ki, Lavrenti Beriyanın ünvanına antipartiya, böhtan və cəfəngiyyat dolu danışıqlarına görə, Azərbaycan XDİK-nin əməkdaşı Nodevə töhmət elan edilsin və sizdən xahiş olunsun ki, onu işdən azad edəsiniz. Xahiş edirik, Nodevin işdən çıxarılması ilə əlaqədar sanksiya verəsiniz və onu SSRİ XDİK-nin sərəncamına geri çağırasınız.

Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov".

SUAL: - Bu teleqramı siz göndərmisiniz?

CAVAB: - Bəli, bu teleqramı mən göndərmişəm.

SUAL: - Sizə məlumdurmu ki, Nodev əksinqilabi fəaliyyətdə ittiham olundu və Beriyanın əlaltıları tərəfindən güllələndi?

SUAL: - Yox, bu barədə mən birinci dəfədir eşidirəm.

SUAL: - Siz təsdiq edirsiniz ki, Nodevin şəxsi işinin Azərbaycan K(b)P MK bürosunda müzakirəsinin səbəbi, guya Nodevin Akopov və Purnislə Beriya haqqında söhbəti olub?

CAVAB: - Bəli, büroda məsələnin bu cür qoyulması Akopovun ərizəsi əsasında oldu. Akopov 1936-cı ilin dekabrında Azərbaycan K(b)P MK-nın ikinci katibi, Purnis isə Azərbaycan XDİK-in rəis müavini idi. O vaxt onların ərizəsinə inanmamağa əsas yox idi. Qeyd etmək lazımdır ki, Akopov və Purnis Beriyanın irəli çəkdiyi kadrlar idi, onları Azərbaycana işləməyə o göndərmişdi.

Rudenko: - İndi sizə Azərbaycan K(b)P MK-nın 25 dekabr 1936-cı il tarixli iclasının 169 nömrəli protokolundan Akopovun çıxışının stenoqramı oxunur:

“Akopov: - Söhbət mənimlə Purnis və Nodev arasında qeyri-rəsmi şəraitdə gedirdi. Müxtəlif mövzulardan danışırdıq, sonra Beriyanın Zaqafqaziyadakı işindən söhbət düşdü. Əgər yaddaşım aldatmırsa, mən, ya da Purnis dedi ki, yoldaş Beriya Sovet İttifaqının ən güclü və istedadlı çekistlərindəndir. Amma yoldaş Nodev dedi ki, “onun haqqında belə fikir ancaq Zaqafqaziyadadır. Siz Vladivostokdan Moskvaya qədər hər yerdə kiminlə danışsanız, onun barəsində mənfi fikir deyəcək”. Mənə elə gəlir, bu ifadəni dəNodev işlətdi: “Hamı hesab edir ki, Beriya Zaqafqaziyada polpredləri sıxışdırır. O, polpredləri – BSİ-nin daimi nümayəndələrini, hamını kələklə işdən çıxarıb, onlara qarşı cürbəcür üsullardan istifadə edib”. O, bu sözləri iki, yaxud, üç dəfə təkrarladı”.

SUAL: - Siz Nodevin Beriya haqqında hansı “yolverilməz, antipartiya, böhtançı, boş danışığını” gördünüz? Sizə artıq məlum idi ki, Beriya hiyləgər, intriqa üsullarından istifadə edir, bu vasitə ilə həqiqətən də Zaqafqaziyadan ora göndərilən XBSİ-nin səlahiyyətli nümayəndələrini təqib edirdi?

CAVAB: - Mənə o məlum idi ki, Beriya XBSİ-nin səlahiyyətli nümayəndələri ilə yola getmirdi, amma onlara qarşı mübarizədə xain, məkrli, intriqa üsullarına əl atmasını bilmirdim. 1936-cı ildə Beriya Zaqafqaziya Vilayət Partiya Təşkilatının birinci katibi işləyirdi və ÜK(b)P MK-nın üzvü idi. O vaxt Nodevin Beriya haqqında dediklərini böhtan hesab edirdim.

Rudenko: - İndi sizin 25 dekabr 1936-cı ildə Azərbaycan K(b)P MK-nın büro iclasında Nodev və onun Beriya barədə dedikləri barədə çıxışınızdan çıxarışı oxuyuruq:

“Məni ən çox hiddətləndirən odur ki, desək ki, yoldaş Nodev savadsız adamdır və heç nə başa düşmür, bu, düzgün olmaz. O, savadlı, mədəni insandır, nə danışdığını yaxşı başa düşürdü.





Mən şəxsən belə fikirləşirəm ki, bu mülahizələr Nodevin şəxsi fikirləri deyil (yerdən səslər: “Düzdür”). Xahiş edirəm bağışlayın, çünki, yoldaş Beriyaya qarşı nə şəxsi zəmində, nə bolşevik və çekist kimi əməli işində, nə də başqa müstəvidə şəxsi rəy bildirməyə sizin heç bir əsasınız yoxdur. Əsas məsələ, o adamlar ki, yoldaş Nodev kimi arxasınca danışır, onlar partiyada və hakimiyyətdə yoldaş Beriya tərəfindən əllərindən vurulanlardır.

Əgər siz əsl bolşevik olsaydınız, nə danışdığınızı başa düşməli idiniz. Beyninizdən keçən hər şeyi belə əsassız şəkildə danışmaq olmaz. Və bu gün bizim bolşevik partiya təşkilatı Beriyanın son 5-6 ildə Azərbaycanda apardığı gərgin bolşevik mübarizəsi barədə danışmaq əvəzinə, dedi-qoduya üstünlük verirsiniz. Biz bununla heç cür razılaşa bilmərik. Mən belə düşünürəm ki, SSRİ Xalq Daxili İşlər Komissarlığı qarşısında Nodevin işdən çıxarılması barədə məsələ qaldırmaq və ona axırıncı xəbərdarlıqla töhmət elan etmək lazımdır”.

Sizin bu çıxışınız Azərbaycan K(b)P MK-nın 25.ХП.1936-cı il tarixli büro iclasında Beriyanı təriflədiyinizi, ona münasibətdə tərəfini saxladığınızı təsdiq etmirmi?

CAVAB: - Şübhəsiz, bu günün prizmasından baxanda, bu çıxış Beriyaya tərəfkeşlik kimi sayıla bilər. Lakin, mən xahiş edirəm, protokolda qeyd edəsiniz ki, bunların hamısı 1936-cı ildə baş vermişdir. O vaxt Beriya Zaqafqaziya Vilayət Partiya Komitəsinin birinci katibi və ÜK(b)P MK-nın üzvü idi. Mən Beriyanı bir insan kimi deyil, yalnız Zaqafqaziya partiya təşkilatının rəhbəri kimi müdafiə edirdim.

SUAL: - Azərbaycan K(b)P MK-nın büro iclasında siz Beriyanı tərifləyərək bəyan etmisiz: “Nəzərinizə çatdırıram ki, par-

tiya əksinqilabi kəşfiyyatla bağlı işi ona özünün gizli dövründə həvalə etmişdir".

Bunu demək üçün sizin əlinizdə hansı əsaslar var idi? Niyə həqiqətə uyğun olmayan belə bəyanatla çıxış etmisiz?

CAVAB: - Mən bunu Beriyanın şəxsi fikirlərinə və təsdiqlərinə əsaslanaraq bəyan etmişəm. O, var gücü ilə belə bir versiyanı yayırdı ki, guyagizli təşkilatda çalışıb və Azərbaycanda sovet hakimiyyətinin qurulması uğrunda gedən mübarizənin təşkilatçılarından biri olub. Boynuma alıram ki, mən Beriyaya kor-koranə inanırdım.

SUAL: - Sizin Beriya ilə şəxsi münasibətiniz necə idi?

CAVAB: - Zaqafqaziyada birgə işlədiyimiz dövrdə aramızda həm yaxın, həm də yoldaşlıq münasibətləri vardı. Tbilisidə olanda mən Beriyagildə qalırdım, onun mənzilində gecələyirdim. Beriya Moskvaya köçəndən sonra mən onlarda iki dəfədən çox olmamışam. Beriyanın həyat yoldaşı böyük vətən müharibəsi dövründə bir dəfə bizdə qalmışdı. Beriya özü də müharibə illərində bir dəfə yolüstü Bakıda, bizdə qalmışdı.

Protokol dilimdən düzgün yazılıb və mənim tərəfimdən oxunub.
Dindirmə başladı: saat 9:45 dəqiqədə.
Qurtardı: saat 13:25 dəqiqədə.
Bağırovu dindirdi: SSRİ Baş prokuroru R.Rudenko.
İstintaqda iştirak etdi və protokolu yazdı:
SSRİ baş prokurorunun köməkçisi: Smirnov

Düzdür: [p.p.] İnzibati xidmət mayoru Yuryeva
Surəti. Makina yazısı.





SSTRDA. F. 17. Siy. 171. İş. 474. səh. 65-71.

M.C.Bağırov haqqında
Sov.İKP MK Rəyasət Heyətinin qərarı
1 aprel 1954-cü il

Sov.İKP MK Rəyasət Heyətinin dəftərxanasına 7 gündən gec olmayaraq qaytarılmalıdır.

Bütün ölkələrin proletarları, birləşin!

Tam məxfi
Sovet İttifaqı Kommunist Partiyasının
MƏRKƏZİ KOMİTƏSİ

№ П.54.III
01.IV. 1954-cü il
Yol. Rudenko
MK Rəyasət Heyəti iclasının 54 nömrəli protokolundan çıxarış
29 mart 1954-cü il
Bağırov haqqında

Y.Rudenkonun 15 mart 1954-cü il tarixli, 63 nömrəli məktubunda ifadə olunmuş təklifləri ilə razılaşsın.
MK-nın katibliyi
Xüsusi qovluq

MK Rəyasət Heyətinin 54 nömrəli protokolu III q.

Tam məxfi
Sov.İKP MK Rəyasət Heyəti
Yoldaş Q.M.Malenkova
Yoldaş N.S.Xruşşova

Lavrenti Beriyanın və onun əlaltılarının fəaliyyəti araşdırılarkən, bu işin məhkəmə prosesindən sonra gələn ərizələrə və materillara əsasən müəyyən olundu ki, Azərbaycan KP MK-nın katibi Mir Cəfər Bağırov uzun müddət Beriyanın yaxın və sədaqətli adamı olub, onun dəstəyi ilə Azərbaycanın XDİK-DİN orqanlarında Beriya kimi düşmənçilik işi aparıb.

Beriya kimi Bağırov da 1937-1938-ci illərdə çekist təşkilatlarına rəhbərlik edirdi. Onlar həbs olunanları kütləvi şəkildə döydürür, cinayət işlərini saxtalaşdırır, xoşlamadıqları insanlara divan tutur, təmiz partiya-sovet kadrlarını məhv edirdilər.

Bu məsələ ilə əlaqədar şahid, o dövrdə Azərbaycan XDİK-də işləmiş Şneyder bunları göstərdi:

"Bağırov XDİK aparatının işçilərinə şəxsən göstəriş verirdi ki, bütün həbs olunanlara fiziki təzyiq göstərsinlər. Mən iki dəfə "Üçlüy"ün iclasında iştirak edəndə onun belə göstərişlər verdiyini şəxsən eşitmişəm. Bundan başqa, Bağırov tələb edirdi ki, "Üçlüy"ün güllələnməyə məhkum etdiyi məhbusları başqa şəxslər haqqında ifadə almaq üçün amansızcasına döysünlər. Mən iştirak etdiyim istintaqda Bağırov belə tapşırıq verirdi ki, güllələnməyə məhkum edilənləri o dərəcədə döysünlər ki, artıq yeriyə bilməsinlər, onları güllələnmə yerinə başqaları aparsın...

1938-ci ilin yazında Azərbaycanın rəhbər partiya-sovet işçilərinin həbsi davam edirdi. Yeni trotskiçi mərkəzi "açılmışdı", amma onun mövcudluğuna hətta məhkumları dindirən müstəntiqlər belə inanmırdı. İstintaq Bağırov, Rayev və Borşovun rəhbərliyi altında aparılırdı. Həbsə alınanları işgəncə verməklə döyür, onlardan uydurma ifadələr alınır, sonra günahsız yeni insanların həbsi gedirdi...".





Həbs olunanlara Bağırovun göstərişilə işgəncə verərək döyülməsi barədə Azərbaycan SSR ZDİK katibliyinin keçmiş rəisi Rıbak bunları göstərdi:

"1937-ci ildə Azərbaycanın XDİK orqanları tərəfindən həbs olunmuşdu: Azərbaycan SSR XŞK-nın sədri Hüseyn Rəhmanov, Bakı şəhər partiya komitəsinin katibi Sef və Bakı partiya komitəsinin katibi Aleksandr Qindin. Onların işinin istintaqını SPO-nun rəisi Lev Tsinman aparırdı. Mən Azərbaycanın XDİK katibliyinin rəisi işləyərkən görürdüm ki, Daxili işlər xalq komissarı Sumbatov-Topuridzenin kabinetinə dindirilmək üçün Hüseyn Rəhmanovu, Sefi və Aleksandr Qindini gətirirlər. İstintaqda Sumbatov-Topuridze və Tsinmanla birlikdə Azərbaycan MK-nın katibi Bağırov da iştirak edirdi" - sənəddə belə deyilir. M.C.Bağırov acığı gələn adamlara divan tuturdu. Buna misal olaraq, Qlavlitin keçmiş senzoru, DTN-nin təqaüdçüsü Qafar Sadıq oğlu Qafarlını göstərmək olar. O, Bağırovu və Azərbaycan SSR-in keçmiş Daxili işlər xalq komissarı Yemelyanovu qeyri-obyektivliyə və cinayət işlərinə görə ifşa edirdi. Buna görə, Bağırovun göstərişi ilə Qafarlı həbs edilərək, əsassız ittiham olundu, antisovet təbliğatına və ziyankarlığa görə 10 il müddətinə azadlıqdan məhrum edildi. İşə bu il yanvarın 30-da baxılıb və məhbusun hərəkətlərində cinayət tərkibi olmadığı üçün proses dayandırılıb".

Qafarlı ona məlum olan faktlar üzrə Bağırov və onun Azərbaycandakı fəaliyyəti ilə bağlı bunları göstərdi:

"Birinci dünya müharibəsində Bağırov çar ordusunun vəhşi diviziyasında qulluq edirdi, inqilabdan sonra isə Azərbaycan FK-da işləməyə başladı. O, FK-nın sədri, Beriya isə onun müavini olub. Həmin vaxtdan Beriya və Bağırov dost idilər, daim bir-birinə kömək edirdilər. Bağırovun nə vaxt və hansı şəraitdə partiyaya daxil olduğunu mən bilmirəm...

1933-cü ildə Bağırov Azərbaycan K(b)P MK-nın katibi oldu. Azərbaycanın Xalq daxili işlər komissarı Bağırovun yaxın adamı Sumbatov idi. Bu vaxta qədər XDİK-də adi əməkdaş olmuş təxribatçı və sözbaz Borşov Azərbaycanın Xalq daxili işlər komissarının köməkçisi vəzifəsinə təyin olunur. Onun rəhbərliyi altında xüsusi istintaq hissəsi işləyir, Bağırovun tapşırığı əsasında həbs olunanların şəxsi işlərini araşdırmaqla məşğul olurdu.

İstintaqın işinə Borşov və Sumbatov rəhbərlik edirdi. Onlar istintaq zamanı qeyri-qanuni üsullardan istifadə edir, həbs olunanları və şahidləri döyür, işgəncə verir, təxribat aparır, işləri saxtalaşdırırdılar. 1936-cı ildə onlar çoxlu sayda günahsız sovet adamını həbs etmiş, istintaq işlərini saxtalaşdırmış, məhbuslara divan tutmuşdular...

Beləliklə, Borşov və Sumbatov Bağırovun birbaşa köməkçiləri hesab olunurdu. Əgər kimsə Bağırov haqqında pis söz desəydi, onlar həmin adama divan tuturdular. Bağırov məhz onların əli ilə Azərbaycanın partiya-sovet orqanlarındakı rəhbər işçiləri məhv etdi, onların yerinə yaxın adamlarını təyin etməyə başladı.

Bağırovun ikiüzlülüyü, məsləkdaşı Beriyanın Sovet dövlətinə qarşı xəyanətini, partiyaya münasibətdə düşmənçilik əməllərini ifşadan gizlətməsi cəhdləri aşağıdakı faktlardan məlum olur.





1936-cı ilin dekabrında Azərbaycan XDİK-nın keçmiş idarə rəisi Nodev öz işçiləri Akopov və Purnislə söhbətində bildirmişdi ki, "Beriyanı ancaq Zaqafqaziyada görkəmli çekist hesab edirlər, Vladivostokdan Moskvaya qədər isə hər yerdə insanlarda onun haqqında mənfi rəy yaranıb. O, adamları işdən sıxışdırıb çıxarmaq üçün cürbəcür pis üsullardan istifadə edir...".

Bu fikirlərinə görə, Bağırovun təşəbbüsü ilə Nodev işdən çıxarıldı, partiya xətti ilə ona töhmət elan olundu, 1938-ci ildə isə əksinqilabi cinayətdə ittiham olunaraq, güllələndi.

Bağırov Beriyanın rahatlığı üçün xüsusi qayğı göstərirdi. Bu məsələ barədə Beriyanın keşmiş mühafizə rəisi Sarkisov ifadəsində göstərir:

"...1942-ci ildə bir dəfə Beriyanın tapşırığı ilə Moskvadan Bakıya qayıdan Bağırovu vağzala aparırdım. Onda Bağırov mənə dedi: "Azərbaycan Kommunist Partiyası adından sənə tapşırıram: Beriyanı sayıqlıqla qoru..."

XDİK-nın xüsusi şöbəsinin keçmiş rəisi, Leninqrad hərbi dairəsinin rəisi K.A.Samoxvalov (keçmiş SSRİ XDİK tərəfindən 1940-cı ildə məhkum olunmuşdur) şəxsi ərizəsində göstərir ki, 1937-ci ildə həbs olunmuş Axundovu dindirərkən, axırıncı məlumat verdi ki, Bağırov və Beriya yoldaşlar S.Orconikidzenin şəxsiyyəti haqqında şər və böhtan yayırdılar.

Beriyanın S.Orconikidzeyə qarşı bir neçə il apardığı mübarizədən, qərəzli intriqadan Bağırovun xəbəri var və o, bu barədə 29 oktyabr 1953-cü il tarixdə istintaq zamanı belə deyib:

"...Beriyanın Serqo Orconikidzeyə alçaq münasibəti onun karyerizminin və namərdliyinin inandırıcı faktlarından hesab oluna bilər..."

Bir neçə şəxs öz ərizəsində və ifadələrində göstərir ki, Bağırovun keçmişdə İranın və Müsavatın əks-kəşfiyyatları ilə əlaqəsi olub.

Bağırovun həbsinə razılıq verməyinizi və onun barəsində araşdırmanın icraata götürülməsinə icazə verməyinizi xahiş edirəm.

SSRİ-nin baş prokuroru R.Rudenko

15 mart 1954-cü il

№ 63/lss
Qeydlər:
MK Rəyasət Heyətinin üzvlərinə göndərilsin.
[p.p.] N.Xruşşov
Göndərilib № П725
Əsli. Makina yazısı.

Nəhayət, 1954-cü il martın axırında M.C.Bağırovu həbs edirlər.

РГАСПИ. F. 17. Siy. 171. İş. 474. səh. 86-96.

9 aprel 1954-cü il. M.C.Bağırovun istintaq protokolunun surəti

Xüsusi qovluq
Tam məxfi





Yoldaş Q.M.Malenkova
Şahid Bağırov Mir Cəfər Abbasoviçin istintaq protokolunun surətini təqdim edirəm.
29 oktyabr 1953-cü il
Əlavə: 10 vərəqdə.

[p.p.] R.Rudenko
30 oktyabr 1953-cü il
№ 569/ssov

Qeydlər:
Oxudu
[p.p.] L. Kaqanoviç. 6.XI
Oxudu
[p.p..] K.Voroşilov. 9.X1.
Oxudu
[p.p.] A.Mikoyan. 9.XI

Şahidin istintaq protokolu

M.C.Bağırovun 9 aprel 1954-cü il tarixli dindirilmə protokolunun surəti

Xüsusi qovluq
Tam məxfi

Yoldaş N.S.Xruşşov
M.C.Bağırovun 9 aprel 1954-cü il tarixli dindirilmə protokolunun surətini sizə təqdim edirəm.

Əlavə: 10 vərəqdə.
[p.p.] R.Rudenko

10 aprel 1954-cü il
№ 80/lss

Qeydlər:
Sov. İKP MK RH-nin üzvü.
[p.p.] N.Xruşşov. 10.IV.54
Göndərilib № 799
Arxiv [p.p.] V.Çernuxa. 13.IV.54

Həbs olunanın istintaq protokolu

SSRİ-nin baş prokuroru, həqiqi dövlət ədliyyə müşaviri R. Rudenko həbs olunan Bağırov Mir Cəfər Abbasoviçi 9 aprel 1954-cü il tarixdə SSRİ DİN-in Butırka həbsxanasında dindirdi.

Dindirilmə:

SUAL: - Siz bolşeviklər partiyasına nə vaxt daxil olmusunuz?

CAVAB: - 1917-ci ilin martında Azərbaycan SSR-in Quba şəhərində.

SUAL: - Partiyaya daxil olmaq üçün ərizə yazmısızmı və ona kim tərəfindən baxılıb?

CAVAB: - O vaxt Quba şəhərində partiya təşkilatı yox idi. Penza hərbi drujinasında poçtun, xəzinənin, bankın mühafizəsini həyata keçirirdim. Kənddə müəllim işləyən üç gizirlə - Zonflebel, İvanovla, üçüncünün familiyası yadımda qalmayıb, yaxın münasibətim vardı. Bu adamlar özlərini sosial-demokrat, bolşevik adlandırırdılar, mən onların siyasi əqidəsinə şərik olurdum. Onlarla bir yerdə toplaşır, məsləhətləşirdik ki, kasıb təbəqənin güzəranını necə yaxşılaşdırmaq olar. Bu təbəqəni bəylərin, qolçomaqların, başqa kapitalist-mülkədar elementlərin istismarından qurtarmaq üçün yollar axtarırdıq. Doğrusu, partiyaya qəbul üçün ərizə yazmamışam, sadəcə bu üç adam məni bolşeviklər partiyasına qəbul ediblər. Əslində isəbu şəxslər mənim zaminim olub.

SUAL: - Nə üçün 1920-ci ildə təzədən qeydiyyata düşərkən siz başqa zaminləri - Vilkovu, Şarapovu, Narçişaşvilini və Ağayevi göstərdiniz?

CAVAB: - Mən bu yoldaşları ona görə göstərdim ki, qeydiyyat zamanı onlar mənu tanıyırdılar.

SUAL: - İndi siz təsdiq edirsiniz ki, partiyaya 1917-ci ilin martında Qubada daxil olmusunuz. Amma təzədən qeydiyyat zamanı demisiniz ki, partiyaya 16 noyabr 1920-ci ildə qəbul olunmusuz. Partiyaya nə vaxt daxil olmusunuz? - sualına belə cavab vermisiniz: 1918-ci ilin iyununda Qubada deyil, Bakı şəhərində. Bu suala cavab verərkən, siz hansı tarixi düzgün demisiniz?

CAVAB: - Bunun niyə belə alındığını bilmirəm...

SUAL: - Sizə komözün ümumi yığıncağına aid xüsusi şöbənin altı nömrəli protokolunun və inqilab tribunalının 1-ci atıcı diviziyasının16.XI.1920-ci il tarixdə partiya üzvlərinin yenidən qeydiyyat protokolunun surəti təqdim olunur. Siz təsdiq edirsinizmi ki, bu protokolda partiyaya qəbul haqqında ərizəniz "iyun 1918-ci il, Bakı şəhərində" kimi əks olunub?

CAVAB: - Bəli, həqiqətən baxdığım protokolun surətində bu, belədir. Nə üçün belə olub, niyə partiyaya qəbulumun vaxtı

və yeri istintaq zamanı göstərdiyimdən fərqlidir, - bunu izah etməkdə çətinlik çəkirəm.

SUAL: - Siz təsdiq edirsinizmi ki, partiya stajınızı oktyabra qədər artıq yazmısınız?

CAVAB: - Obyektiv şəkildə bu, belə alınır, lakin mənim özümə partiya stajı əlavə etmək niyyətim olmayıb. Çünki, özümü partiyada 1917-ci ilin martından hesab edirəm.

SUAL: - 1917-ci ildə siz Quba qəzası komissarlığında varlı mülkədar, Müsavatın tanınmış kapitanı Əli bəy Zizikskinin müavini idiniz. O, quldur dəstəsinin başçısı idi, yerli əhaliyə divan tutmuşdu. Bunu təsdiq edirsiniz?

CAVAB: - Bəli, məni yəhudi qəsəbəsində komissar vəzifəsindən partiyaya qəbul edən üç şəxsin zəmanəti ilə Zizikskinin müavini təyin etdilər. Bu vəzifədə mən 1917-ci ilin sentyabrına qədər işlədim, sonra müəllimlik etdim. Mən işlədiyim dövrdə dediyiniz vəhşiliklər olmayıb.

CUAL: - Siz 1921-ci ildə partiya məsuliyyətinə cəlb olunmusunuz?

CAVAB: - Yox, cəlb olunmamışam. 1922-ci ilin yayında mənə dedilər ki, MK-nın qərarı ilə məni partiya sıralarında saxladılar. 1921-ci ildə partiyaya üzvlük məsələmlə əlaqədar məni heç yerə çağırmadılar.

SUAL: - Əksinqilabçı, quldur Zizikski qeyri-leqal yolla Şamaxıya gələndə, əksinqilabçı elementlərlə əlaqə quranda, nə üçün Azərbaycan FK-nın sədri kimi onun həbsi üçün heç bir tədbir görmədiniz, əksinə, onu məsuliyyətdən qorudunuz?

CAVAB: - Zizikskinin gizlənməsini, antisovet işi aparmasını mən bilmirdim, biz onu axtarırdıq.





SUAL: - Siz düz danışmırsınız. Zizikskinin cinayətləri barədə Şamaxı qəzasının Siyasi büro rəisi Krasnov xəbər vermişdi. Bunu təsdiq edirsiniz?

CAVAB: - Siyasi büroda, yoldaş Krasnovda belə məlumatın olması yadımda deyil.

SUAL: - Necə olur ki, 1923-cü ildə Zizikski üzə çıxır, amma siz FK rəhbəri kimi bu barədə bilməmisiz?

CAVAB:- Zizikski mənim göstərişimlə üzə çıxarıldı, o məqsədlə ki, gələcəkdə onu repressiya eləmək imkanı olsun.

SUAL: - Siz bunu ona görə etdiniz ki, Zizikski ilə Qubada bir yerdə işləmisiniz?

CAVAB: - Xeyr, buna görə deyil.

SUAL: - Siz Zizikskinin özbaşınalığının, vəhşiliyinin şahidi olmusunuz. Nəyə görə repressiya eləmək əvəzinə, onu leqallaşdırırdınız?

CAVAB: - Zizikskinin vəhşilikləri barədə mən həqiqətən bilirdim. Onu repressiya etmək əvəzinə leqallaşdırmaq, etiraf edirəm ki, mənim səhvim idi.

SUAL: - Sizə keçmiş qərargah rəisi Şükripaşa-Əhməd Bedin tanışdır. Onun başçılığı ilə Türk qoşunu Quba şəhərini zəbt edib, yerli erməni əhalini qırıb və Quba inqilab komitəsinin sədr müavini Məhəmməd Mehdini asıblar.

CAVAB: - Əhməd Bedin, həm də Əhməd Triniçdir, o, mənə 1922-ci ildən tanışdır. Onunla partiya yığıncaqlarında, konfranslarda görüşmüşəm və onu Azərbaycanın rəhbər işçilərindən biri kimi tanımışam. 1920-ci ildə Bakıda şayiə gəzirdi ki, guya Bedin-Triniç Türk qoşunu ilə bərabər vəhşiliklər edib, lakin bu məsələdə aydınlıq yox idi.

SUAL: - Siz yenə düz danışmırsınız. Bedin-Triniçin keçmişi barədə yoxlanmış məlumatı kəşfiyyat xətti ilə Əfəndiyevdən, partiya xətti ilə Qulam Məmmədovdan, Bulqeyis Məmmədovadan və başqalarından almışdınız. Siz bunu təsdiq edirsiniz?

CAVAB: - Bəli, təsdiq edirəm. Təxminən 1937-ci ilə qədər bizdə Triniç barədə ciddi araşdırma aparılmamışdı, buna görə onun cinayətləri barədə məlumatlar bir-birinə zidd idi.

SUAL: - Nə üçün Triniç kimi böyük kəşfiyyatçı uzun müddət sizin tərəfinizdən qorunur, cinayətlərinə görə məsuliyyətə cəlb olunmurdu?

CAVAB: - Mən artıq göstərdim ki, onun cinayətləri barədə ziddiyətli xəbərlər var idi. Həqiqətən, 1933-cü ildə onun haqqında Baba Əliyev ərizə yazmışdı, lakin ondan sonra bəziləri onu təmizə çıxartdı, başqaları isə ittiham edirdilər. Başa düşmək çətin idi. Mən Triniçi müdafiə etmirdim.

SUAL: - Siz təsdiq etdiniz ki, həbsə qədər Beriyanın ən yaxın adamı idiniz. Onu da təsdiqləyirsiz ki, Beriyanı daim dəstəkləmisiniz, cinayətlərini ört-basdır etmisiniz?

CAVAB: - Bəli, mən onunla dostluq edirdim.

SUAL: - 1921-ci ilin martında kommunist Şəmsov sizi kobudluqda, lovğalıqda ittiham edib və bildirib ki, siz qanuna riayət etməlisiniz. Bunun cavabında Beriya öz çıxışında bunları deyib: "Bağırov ədalətli insan və ən yaxşı bolşeviklərdəndir. O, məsul vəzifə tutanda da heç bir qruplaşmaya qoşulmadı". Bu, Beriya tərəfindən sizin müdafiəniz idi?

CAVAB: - Bəli, bu, onun müdafiəsi idi.

SUAL: - Həmin iclasda iştirak edənlər Beriyanın amoral hərəkətini ifşa etdilər. Siz çıxış edərək dediniz: "...Beriya tənbəllərə qarşı tələbkardır, bu yoldaşlar ondan qisas almaq üçün qəsdən bu oyunu oynayırlar...".





Nə üçün siz Beriyanı müdafiə etdiniz, onu ittiham edən şəxsləri pislədiniz?

CAVAB: - Bəli, mən onu müdafiə edirdim.

SUAL: - Siz təsdiq edirsinizmi ki, Nodevi ona görə cəzalandırdınız ki, o, Beriya haqqında çekist kimi pis danışıb?

CAVAB: - Bəli, təsdiq edirəm.

SUAL: - Beriyanın Gürcüstan BSİ-də işləməsi üçün kim zəmanət vermişdi?

CAVAB: - Mən doğrudan Beriya haqqında yaxşı xasiyyətnamə vermişəm.

SUAL: - Beriyanın Bakıdan Gürcüstana başqa işə keçməsi nə ilə əlaqədar idi?

CAVAB: - Onu ona görə işə götürdülər ki, o, gürcü idi.

SUAL: - Siz düz danışmırsınız. Sizə məlum idi ki, Beriya işdən çıxarılmış və ona FK orqanlarında işləmək qadağan olunmuşdu. O, həm də partiya töhməti almışdı. Düzgün cavab verin, nə üçün partiyanın qərarına riayət etməyərək, Gürcüstan FK-ya keçmək üçün Beriyaya kömək etdiniz?

CAVAB: - O vaxt partiyanın belə bir qərarından xəbərim yox idi və Beriya mənə bu barədə heç nə deməmişdi.

SUAL: - 1929-cu ildə Azərbaycan BSİ-nin sədri vəzifəsinə qayıtmağa sizə kim kömək etdi?

CAVAB: - Beriya.

SUAL: - Deməli, siz bir-birinizə kömək edirdiniz və bir-birinizi irəli çəkirdiniz?

CAVAB: - Obyektiv baxanda, belə çıxır.

SUAL: - Beləliklə, sizin Beriya ilə sıx şəxsi əlaqələriniz 1920-ci ildən yaranmışdı?

CAVAB: - Bəli. Daha doğrusu, 1921-ci ilin fevralından.

SUAL: - Beriyanın Müsavatın əks-kəşfiyyatındakı xidmətindən xəbəriniz var idi. Bu barədə nə zaman və hansı şəraitdə öyrənə bildiniz?

CAVAB: - Bəli, bilirdim. Bu barədə mənə Beriya özü 1921-ci il fevral ayında Azərbaycan FK-ya işə gələndə demişdi. O, SOÇ rəisi və mənim müavinim idi. Mənə danışırdı ki, həmin kəşfiyyatda o, partiyanın tapşırığı ilə işləyib. Partiyanın və Sovet dövlətinin yanında mənim ən böyük səhvim ondan ibarətdir ki, mən Beriyanın sözünə inandım, onun məlumatını həbsinə qədər heç yerdə yoxlamadım. Burdan, əgər belə demək olarsa, Beriya ilə mənim dönüklük tarixçəm başlayır.

SUAL: - Beriya söz vermişdi ki, sizi Moskvaya gətirəcək?

CAVAB: - Belə şey heç vaxt olmayıb.

SUAL: - Siz düz demirsiniz. Beriyanın keçmiş mühafizə rəisi Sarkisov ifadəsində göstərir: "Təxminən 1947-1948-ci illərdə Beriya və Bağırov maşında bir gedirdi. Beriya ona belə dedi: "Gözlə, biz səni də tezliklə Moskvaya gətirərik". Həmin vaxt mən də maşında idim".

Siz Sarkisovun ifadəsini təsdiqləyirsiniz?

CAVAB: - Bəlkə də elə bir söhdət olub, amma mən onu xatırlamıram.

SUAL: - Siz bilirdiniz ki, Beriya Serqo Orconikidzeyə qarşı qərəzli intriqa ilə mübarizə aparırdı?

CAVAB: - Bəli, Beriyanın Serqo Orconikidzeyə şərəfsiz və alçaqcasına münasibət bəslədiyini bilirdim.

SUAL: - Siz dediniz ki, Serqo Orconikidze ən yaxşı rəhbərlərdən idi, onun sizə qarşı ürəkdən isti və doğma münasibəti var idi. Onda nə üçün Beriyanın namərdliyini və alçaqlığını ifşa etmək üçün bir iş görmədiniz? Axı o, Serqo Orconikidzeni təqib edirdi?





CAVAB: - Səmimi deyirəm ki, mənim buna cəsarətim çatmadı.

SUAL: - Bəs siz özünüz, Beriya kimi, Serqo Orconikidzeyə qarşı intriqa mübarizəsi aparırdınız?

CAVAB: - Yox, bu ittihamı qətiyyətlə inkar edirəm. Mənim tərəfimdən Serqo Oconikidzeyə qarşı heç bir kin, ədavət olmayıb.

SUAL: - Siz Azərbaycan KP MK-nın katibi vəzifəsinə irəli çəkiləndə, Serqo Orconikidze buna necə yanaşdı?

CAVAB: - Düzü, mənim irəli çəkilməyimə o, mənfi münasibət bildirdi. Belə hesab edirdi ki, mən partiya rəhbərliyinə layiq deyiləm. Amma onun bu mövqeyi məni incitmədi və içimdə Serqoya qarşı mənfi fikir yaratmadı.

SUAL: - Siz Azərbaycan KP MK-nın katibi olarkən, insanların həbsində və dindirilməsində şəxsən iştirak etmisiniz?

CAVAB: - İnsanların həbsi üçün əsas olanda, mən elə göstərişlər verirdim. Həbsdən sonra bir neçə nəfərin dindirilməsində şəxsən iştirak etmişəm. İndi çətinlik çəkirəm, ona görə də belə hadisələrin hamısını xatırlamıram.

SUAL: - Siz həbs olunanları döyürdünüz?

CAVAB: - Şəxsən mən həbs olunanları döyməmişəm. Ola bilsin, bu barədə kiməsə göstəriş vermişəm, indi yadımda deyil.

SUAL: - Azərbaycanda Beriyaya və sizə qarşı, belə deyək, terror aktları üzrə neçə cinayət işi qaldırılmışdı?

CAVAB: - Mənə məlum olan 16-17 belə iş vardı.

SUAL: - Həmin işlər üzrə nə qədər adam güllələndi?

CAVAB: - Dəqiq deyə bilmərəm, çünki yadımda qalmayıb. Belə hallarda, adətən, güllələyirdilər.

SUAL: - Doğrudan inanırdınız ki, sizə qarşı terror aktı hazıırlayırlar?

CAVAB: - Yox. İnanmırdım.

SUAL: - Onda nə üçün imkan verirdiniz ki, belə uydurma terror aktlarının hazırlanması üzrə cinayət işləri açılsın, adamlar güllələnsin?

CAVAB: - Əgər həmin cinayət işləri süni şəkildə yaradılırdısa və bununla kimlərsə məşğul olubsa, bu, ən böyük əclaflıqdır. Digər işlər barədə mənə məruzə olunurdu, ancaq onların təfsilatına xüsusi diqqət vermirdim. Bu ilin martına kimi sayını da dəqiq bilmirdim.

SUAL: - Belə olduğu təqdirdə, siz hesab etmirdiniz ki, bu cür işlərin yaradılmasında düşmənin əli ola bilər?

CAVAB: - Bəli, bu, əclaf düşmənin işi idi.

İfadə mənim dilimdən düzgün yazılıb və tərəfimdən oxundu.
M.C.Bağırov

İstintaq başladı: saat 14:50 dəqiqədə və qurtardı: saat 21:20 dəqiqədə.
Dindirdi: SSRİ-ninbaş prokuroru - R.Rudenko

İstintaqda iştirak edirdi və ifadələri yazırdı
SSRİ baş prokurorun köməkçisi - Preobrajenski

Düzdür: [imza oxunmur]
Surəti. Makina yazısı.

Məlum məhkəmə prosesi barədə, orada səslənən ittihamlara kitabın müəyyən bölmələrində münasibət bildirmişik. Ancaq yenə də məhkəmədə M.C.Bağırova qarşı ittihamlara, kitabda





toxunmadığımız bəzi məqamlara aydınlıq gətirmək istərdik. "M.C.Bağırovun məhkəməsi" kitabında, səh.33-37, 37-40-da qeyd edilir:

"Biz artıq göstərmişik ki, 1917-ci ildə Qubada Əli bəy Zizikskinin Bağırovdan başqa köməkçisi, iri mülkədar ailəsindən olan əksinqilabçı, Müsavat parlamentinin üzvü Qazı Əhməd bəy Məhəmmədbəyov idi.

Azərbaycan sovetləşəndən sonra Məhəmmədbəyov heç bir repressiyaya uğramayıb, Mahaçqala şəhərində yaşayıb, hüquq məsləhətçisi işləyib. Bağırovun bundan xəbəri olmaya bilməzdi. Çünki, 1936-cı ilin fevralında Məhəmmədbəyov Triniçin işi üzrə şahid qismində dindirilib. O vaxt öz ifadələrində Məhəmmədbəyov göstərirdi ki, Bağırovla birlikdə qəza komissarı Əli bəy Zizikskinin müavini vəzifəsində çalışırmış. Ancaq Bağırov Zizikskinin birinci müavini olduğundan o, Əhməd Əfəndinin *(Triniçin)* 1918-19-cu illərdə Qubadakı fəaliyyəti barədə daha ətraflı məlumat verə bilər. Bağırov Məhəmmədbəyovun bu ifadələrindən xəbərsiz ola bilməzdi.

Əlində həmin şəxslərin cinayətkar olduğunu təsdiqləyən kifayət qədər material olmasına baxmayaraq, Bağırov uzun illər qolçomaq Camal Mirzəyevə, onun oğulları Cəmil və Şamilə himayədarlıq etmişdir.

Bağırovun antisovet ünsürləri qorumasına və onlara himayədarlıq etməsinə daha bir nümunə keçmiş Müsavat pristavı və siyasi quldur, çara xidmət etmiş Qiyas bəy Cahangir bəy oğlu Şıxlinskinin üzə çıxarılmasıdır. Bağırov onu nəinki üzə çıxardı, hətta Qazax qəzasında milis rəisi vəzifəsinə təyin etdi.

O illərdə Azərbaycan BSİ-nin işçiləri arasında söhbətlərində Şıxlinski daim Bağırovla yaxınlığını qeyd edirdi.

1930-cu ildə Şıxlinski öz qohumları ilə birgə Türkiyəyə qaçdı, orada Türk kəşfiyyatı ilə əlaqə yaradıb, SSRİ ərazisinə silahlı basqınlar edirdi.

İstintaq zamanı Bağırov təsdiq etdi ki, Şıxlinskini o, üzə çıxarıb. Ancaq ona himayədarlıq və müdafiə etməsi faktını dandı. Bağırovun bu ifadəsini 1954-cü ilin avqustun 28-də dindirilmiş şahidlərdən biri, Əliyev Zeynal Mehrəli oğlu təkzib etdi:

"Bağırov çox vaxt keçmiş Müsavat fəallarını öz tərəfinə çəkir və məsul vəzifələrə təyin edirdi. Onun Qazax qəzasında milis rəisi vəzifəsinə keçmiş Müsavat pristavı Qiyas bəy Şıxlinskini təyin etməsi mənim yaxşı yadımdadır. Milis rəisi vəzifəsində Şıxlinski sovet hökumətinə heç bir yardım göstərməyib və heç bir faydalı iş görməyib.

Bağırov Şıxlinskiyə hərtərəfli himayədarlıq edirdi. Bundan istifadə edən Şıxlinski yerli sovet hakimiyyəti orqanları ilə hesablaşmır, yalnız Bağırova tabe olduğunu bildirirdi. Təxminən 1930-cu ildə yerli hökumət onun cinayətkar fəaliyyətini ifşa etməyə başlayanda, Şıxlinski silahlı dəstəsi ilə Türkiyəyə qaçdı".

Bu ifadələri istintaq zamanı müttəhim Borşov də təsdiq etdi:

"Şıxlinskinin sözlərindən mənə aydın oldu ki, Bağırov onu yaxşı tanıyır. O vaxtlar Şıxlinski bununla fəxr edirdi.

İndi yadıma düşür ki, həmin illərdə Şıxlinski Azərbaycan Baş Siyasi İdarəsinin rəhbər işçiləri arasında dəfələrlə Bağırovla yaxın münasibətindən danışırdı".

Bağırovun Şıxlinskiyə himayədarlıq etməsi sənədlərlə sübut olunur.

Gəncə vilayət şöbəsinin rəisi Şıxlinskinin ağır cinayətlərdə iştirakı ilə bağlı məlumat versə də, o, məsuliyyətə cəlb olunmadı. Bundan əlavə, müttəhim Şıxlinski 1930-cu il mayın 12-də





Bağırova şəxsi məktub yazaraq, onu sıxışdırmalarından, antisovet fəaliyyətdə şübhələndiklərindən şikayətlənəndə, Bağırov həmin məktuba aşağıdakı dərkənarı qoyur:

"Yoldaş Neverova. Bir daha vilayət şöbəsi tərəfindən bu biabırçılığa son qoyun. Nəticəsi barədə mənə mayın 21-dək məlumat verin".

Bu məktubdan sonra, 1930-cu ilin 29 iyulunda həmin Şıxlinskiyə o vaxtlar Azərbaycan BSİ Gəncə vilayət şöbəsinin keçmiş rəisi Quliyevin imzası ilə 1345 №-li arayış verilir. Həmin arayışda Şıxlinskinin 7 nəfər silahlı yoldaşı ilə birlikdə Gəncəyə tərəf hərəkət etməsi göstərilir və ona heç bir maneçilik törədilməməsi tövsiyə olunurdu.

Çox çəkmədi ki, Bağırovun öz qohumlarını, əksinqilabçı elementləri qorumasına dair bir nümunə də Əlipənah bəy Şəfibəyov olur. Bəy nəslindən olan Şəfibəyov sovet hökumətinin düşməni idi. Müsavat hakimiyyəti zamanı Qubada Müsavat Partiyası qəza komitəsi sədrinin müavini işləmişdi. Şəfibəyov ilk dəfə 1927-ci ilin aprelində həbs olunmuş, lakin Beriyanın verdiyi qərara əsasən, istintaq aparılmadan həbsdən azad edilmişdi. Şəfibəyovun hansı səbəbə görə həbs olunması barədə materiallara rast gəlmədik.

İkinci dəfə Şəfibəyov 1930-cu ildə həbs olunub. Bu dəfə Şəfibəyov antisovet fəaliyyətdə ittiham olunurdu. Həbs edilərkən, ondan türk nümunəli tüfəng və ona müvafiq 30 patron alınmışdı.

Cinayət tərkibli dəlillərin olmasına baxmayaraq, Azərbaycan BSİ-nin 1930-cu ilin martın 16-da Bağırovun sədrliyi ilə keçirilmiş kollegiyası Şəfibəyovun işinə xitam verdi.

Müsavat Partiyası şöbəsinin təşkilatçısı Rüstəmov Əbil Qasım da repressiya olunmadı. Sovet ordusu Qubaya daxil olan-

da, o, qaçıb gizləndi, 1923-cü ildə isə Bağırov tərəfindən üzə çıxarıldı. Bundan sonra o, Qubada yaşayır, 11 №-li sovxozda yanğından mühafizə idarəsinin rəisi işləyirdi.

M.C.Bağırov Azərbaycan BSİ-də işlədiyi müddətdə dəfələrlə Rüstəmovun həbsi və məsuliyyətə cəlb olunması məsələsi ortaya çıxdı, amma o, buna imkan vermirdi. Bu məsələ ilə bağlı şahid A.M. Qasımov belə ifadə vermişdir:

"Mən dəqiq bilirəm ki, Qubada Müsavat Partiyasının təşkilatçısı Əbil Qasım Rüstəmovu üzə çıxaran Bağırovdur. Müsavatçıların Quba üzrə başçısı 1920-ci ilin aprelin 27-də *(sovet ordusu Azərbaycana daxil olan gün)* Qubadan qaçıb, haradasa gizləndi.

Onun harada gizlənməsi Bağırova bəlli olmalıdır. 1923-cü ildə o, yenidən peyda oldu və Bağırovun köməyi ilə üzə çıxdı.

1925-ci ildə, mən Azərbaycan BSİ aparatında işlədiyim vaxt Bağırovun qarşısında onun məsuliyyətə cəlb olunması barədə məsələ qaldırdım. Amma Bağırov buna qol qoymadı və dedi ki, qoy yaşasın".

A.M.Qasımovun verdiyi bu ifadəni müttəhim Atakişiyev də təsdiqlədi. O, göstərdi ki, Əbil Qasım Rüstəmov barədə Bağırov məlumatlandırılsa da, o, Rüstəmovun həbs edilməsi barədə göstəriş vermirdi.

Bu barədə Bağırovun özünə sual veriləndə, bildirdi ki, o, Əbil Qasım Rüstəmovu Müsavatçı kimi tanıyıb və ona elə gəlir ki, o, artıq güllələnmişdir.

İstintaqdan həmçinin məlum olub ki, Bağırov bəy ailəsindən çıxmış, varlı mülkədar Məmməd Aslan oğlu Sarıcalinskiyə (*Mirzəyevlərin qohumu*) də himayədarlıq etmişdir. Sarıcalinski 1917-ci ildən 1920-ci ilədək Müsavat ordusunda zabit kimi





xidmət edib, Türkiyədə hərbi məktəbi bitirib. Sarıcalinskinin qardaşı Qiyas bəy də Müsavat ordusunun zabiti olub və həmin üsyanda iştirak edib. 1929-cu ilədək onun qolçomaq təsərrüfatı olub.

O biri qardaşı – Zülfüqar bəy sovetləşmə dövründə əhaliyə divan tutur, mal-qaranı oğurlayırmış. Buna görə həbs olunub və Ağdam həbsxanasında vəfat edib.

Sarıcalinskilərin yaxın qohumlarından biri, Sürxanbəy Sarıcalinski sürgün olunub, digəri – Məmişbəy Kələbədinski İrana mühacirət edib.

Bütün bu məlumatlar Azərbaycan XDİK işçilərinin 1938-ci il iyunun 25-də tərtib etdiyi arayışda göstərilib.

Tərcümeyi-halındakı belə şübhəli məqamlara baxmayaraq, Sarıcalinski 1921-ci ildə "ÇK"-ya işə götürüldü. Əvvəlcə süvari diviziyasına, sonra isə sərhəd qoşunlarına. O, bir vaxtlar Bağırovun özü ilə birgə bu xidmətin sıralarına soxulmuşdu.

1938-ci ildə Sarıcalinski, nəhayət, XDİK orqanlarından qovulanda, Bağırova ərizə yazıb, onunla düzgün rəftar etmədiklərindən şikayətləndi. Yuxarıda göstərilən 25 iyun 1938-ci il tarixli arayış da elə bu ərizə ilə əlaqədar tərtib edilmiş, orada Sarıcalinskinin XDİK-dan qovulma səbəbləri göstərilmişdi.

İyunun 26-da Sarıcalinski Bağırovun adına teleqram vurur və bildirir ki, onun işə götürülməsi barədə Xalq Daxili İşlər Komissarlığına göstərişi yerinə yetirilmir. Odur ki, Bağırovun müvafiq sərəncamını gözləyir.

Bu teleqramın üzərində Bağırov 1938-ci ilin 26 iyununda aşağıdakı dərkənarı qoyub:

*"Yoldaş Rayevə və Borşovə. Üzr istəyirəm ki, sizin ikinizə də birdən müraciət edirəm. Xatırlaya bilmirəm ki, onu işə düzəlt-*

*mək barədə hansınızdan xahiş etmişdim. Təkrar xatırladıram və xahiş edirəm: insanı tamamilə məhv etməyə lüzum yoxdur".*

Bağırov Sarıcalinski barədə suala belə cavab vermişdi ki, o, Məmməd Sarcalinskini 1921-ci ildən tanıyır. Sarıcalinski Müsavatın zabiti olub, 1938-ci il iyunun 25-də tərtib olunmuş arayışdan onun xəbəri yoxdur, dərkənarı da Sarıcalinskinin ərizəsinə və teleqramına əsasən yazıb.

İstintaqdan məlum olub ki, Triniç əvvəllər Türk ordusunun zabiti olub. Bu ordu onun başçılığı altında bolşeviklərə qarşı Bakıda və Qubada fəal mübarizə aparıb. Bundan sonra Triniç bir müddət gizlənib, 1919-cu ilin əvvəllərində isə "İttihad" Partiyasının məsul katibi olub. Əsl tərcümeyi-halını gizlədən Triniç Azərbaycan K(b)P-ya da daxil olmağı bacarıb.

Azərbaycan Respublikası Dövlət Arxivindəki işlərin arasında vaxtilə Triniçin Azərbaycan Müsavat Partiyası sədrinin adına öz dəsti-xətti ilə yazdığı ərizə aşkara çıxarılmışdır. Həmin ərizədə Triniç Quba şəhərinin komendantı olduğunu, Xırdalandakı döyüşlərdə iştirakını, Qubada könüllülər dəstəsi yaradıb, Türk ordusu Azərbaycana gələnədək bolşeviklərə qarşı fəal mübarizəsini əsas gətirərək, Müsavat parlamentinin mühafizəsi üçün xüsusi dəstə yaradılmasını ona tapşırmağı xahiş edirdi.

Yalnız bundan sonra, Triniçin tutulmasını tələb edən ərizələrin təsiri altında o, həbs edildi.

Şahidlərin ifadələrindən göründüyü kimi, Triniçlə Bağırov çox yaxın münasibətdə olublar. Bağırov onu yüksək vəzifələrə irəli çəkmiş, hətta respublika miqyaslı qəzetin redaktoru postuna təyin edibmiş.

Triniçin əksinqilabi keçmişi barədə dəfələrlə siqnallar daxil olmasına baxmayaraq, Bağırov 1933-cü ildə onu dövlət mükafatına - Ordenlə təltif olunmağa təqdim edir. Triniç mükafata təqdim ediləndən sonra, Azərbaycan MİK-nin keçmiş sədri Baba Əliyev bunun Bağırovun işi olduğunu açıq-aşkar göstərmişdi.





1936-cı ilin 27 oktyabrında Triniçin bacısı – Nemət Kamal Məlikova qardaşının həbs edilməsi ilə əlaqədar ərizə ilə Bağırova müraciət etmişdi. Həmin ərizədə deyilirdi:

"Heç kimə bəlli olmasa da, Triniçin Qubada və qəzada Türk ordusunun zabiti olarkən keçirdiyi həyat şəraiti və fəaliyyəti Sizə yaxşı məlum olmalıdır".

O, daha sonra ərizəsində Triniçin həbsdən buraxılmasını israrla tələb edir və göstərirdi ki, Triniç günahkar olsa belə, Bağırov onu azad etməlidir.

Triniç əksinqilabi fəaliyyətdə günahlandırılıb, həbs ediləndən sonra, onun işi baxılmaq üçün Azərbaycan SSR Ali Məhkəməsinin xüsusi kollegiyasına verildi. Triniç 1936-cı il oktyabrın 16-da xüsusi kollegiya sədrinin adına aşağıdakı məzmunda ərizə yazıb:

"Düşmənlərimi ifşa etmək üçün bu ayın 7-də prokurora müraciət edib, mənə açıq cavab yazmaq imkanı verilməsini xahiş etdim. Lakin mənim xahişim cavabsız qaldı, iş isə Sizə göndərildi.

Diqqətinizi yuxarıda göstərilənlərə yönəldərək, həmin imkanın mənə verilməsini xahiş edirəm. Arxayın ola bilərsiniz, düşmənlərimin mənə lağ edib gülməsinə yol verməərəm, odur ki, məhkəmədə susacağam *(qapalı məhkəmə iclası istisna olmaqla)*".

Triniçin işinə 1937-ci ilin iyununa qədər baxılmadı, sonra isə Azərbaycan XDİK-nın tələbilə yenidən ora qaytarıldı. Triniçin sonrakı taleyi məlum deyil. Bağırovun dediyinə görə, Sumbatov

ona Triniçin kamerada özünü asaraq öldürməsi barədə məlumat vermişdi.

Keçmiş neft milyonçusu Əsədullayevin oğlu, keçmiş milyoner Tağıyevin kürəkəni, çar ordusunun poruçiki, fevral inqilabından sonra Bakıda "vəhşi diviziya" təşkil edən, 1918-ci ildə sovet ordusuna qarşı mübarizə aparan Əli Əsədullayev 1921-ci ilin dekabrında Gürcüstanda həbs olundu.

Beriyanın imzaladığı 15 dekabr 1921-ci il tarixli məktuba əsasən, Ə.Əsədullayevi Azərbaycan FK-sı tələb etdi. Ə.Əsədullayev Beriyanın imzaladığı 30 dekabr 1921-ci il tarixli orderlə həbsdən azad edilib, Bağırovun sərəncamına göndərildi. İş üzrə heç bir təhqiqat aparılmadı. Sonralar Əli Əsədullayev Bakı Cıdır meydanında işləyirmiş, daha sonra arvadı ilə birlikdə İrana qaçıb.

Müttəhim Bağırov bu barədə istintaq zamanı bildirdi ki, Əsədullayevin nə üçün istintaqa cəlb olunması və həbs edilməsindən xəbəri yoxdur.

Şahidlər Qasımov Əyyub Mikayıl oğlu, Mehdiyev Əliqulu Gür oğlu göstərdilər ki, Bağırovun Əli Əsədullayevlə çox yaxın münasibətləri var imiş.

XX əsrin sonunda Azərbaycan xalqı öz müstəqilliyini yenidən qazandıqdan sonra sovet rejimi tərəfindən üzümüzə qapadılmış qapıları açmağa, qadağa qoyulmuş dosyelərə yenidən baxmağa məcbur olduq.

Əgər bu ittihamlar o dövrdə M.C.Bağırova qarşı nə qədər kəskin səslənirdisə, müstəqil Azərbaycanımızın müasir dövründə yuxarıdakı ittihamlar əsərimizin qəhrəmanının bir o qədər milli təəssübkeşliyindən xəbər verir. Ona görə də əlavə şərhə ehtiyac duymuram.





Yaxud, digər ittiham ("M.C.Bağırovun məhkəməsi" kitabı, səh.81-87):

**Şahid Əli Əşrəf Əlizadə,**

*Geologiya-minerologiya elmləri doktoru, professor, iki dəfə Stalin mükafatı laureatı, Azərbaycan KP MK-nın keçmiş 2-ci katibi, hazırda Türkmənistan Dövlət Universitetinin geologiya kafedrasının müdiri:*

- Mir Cəfər Bağırov şəxsinə qarşı və fəaliyyəti ilə bağlı kiçik bir tənqidə belə dözmür, onun haqqında fikrini sərbəst deməyə cəsarət edənləri hər vasitə ilə təqib edirdi. Onu tənqid edənlərə qarşı kinli və amansız olan Bağırov "günah işlədənləri" yerində oturtmağa çalışırdı.

Bu hadisə 1947-ci ildə baş verib. Arvadım Qəmər, onun ögey qardaşı Mustafayev (o vaxtlar Dövlət təhlükəsizlik nazirinin müavini işləyirdi) və Mustafayevin arvadı Zina mənim mənzilimdə oturub söhbət edirdik. Otaqda kənar adam yox idi. Hətta qulluqçu da evdə deyildi. Söhbət Bağırovun Zuğulbadakı bağından düşdü. Mən dedim ki, Bağırov sadə yaşamaq barədə özgələrinə ağıl öyrədir, özü isə ölkənin müharibədən çıxdığı indiki vəziyyətində nəhəng, çoxlu vəsait tələb edən hovuzlar tikdirir. Neft sənayesi işçilərinin isə istirahət evi yoxdur. Bu hovuzların tikintisinə neft sənayesinin materialları sərf olunur. Həmin tikintidə yüzlərlə əsgər tər tökür. Yaxşı olardı ki, onlar Bağırovun bağında hovuz əvəzinə, neftçi fəhlələr üçün istirahət evi tikəydilər.

Mustafayev də mənim fikrimlə razılaşdığını bildirdi.

Ertəsi gün Mustafayev Dövlət təhlükəsizlik naziri Yemelyanovun yanına çağrıldı. Yemelyanov ona bildirib ki, bizim ara-

mızda olan söhbət ona məlumdur. Mustafayevin dediyinə görə, o, həmin söhbəti hətta sözbəsöz təkrar edib. Biz başa düşdük ki, söhbətimizə hansı vasitəyləsə gizlicə qulaq asıblar.

Yemelyanov söhbətimizin tam mətni yazılmış sənədi Mustafayevə təqdim edir. Mustafayevisə, bunun ciddi repressiyalarla nəticələnəcəyini duyaraq, Bağırov barədə söhbəti qətiyyətlə boynundan atır.

Yemelyanovla söhbətdən dərhal sonra Mustafayev Dövlət təhlükəsizlik nazirinin müavini vəzifəsindən azad olunur, sonra isə partiyadan xaric edilir.

Bundan sonra Bağırov mənə Moskvadan zəng vurub "vicdanı ləkəli olan" Mustafayevlə hər cür əlaqəni kəsməyi və onu evimə buraxmamağı tapşırdı.

Elə həmin 1947-ci ildə həkim Cavadov Moskvaya imzasız məktub yazaraq, Bağırov və Teymur Quliyev barədə bəzi məlumatlar verirdi. O, məktublarında xüsusilə göstərirdi ki, onlar dəbdəbəli həyat sürür, bağ meyvələrinin ticarəti ilə məşğul olur və s.

Cavadovun anonim məktubları Moskvadan Bakıya, Bağırovun üstünə göndərildi. Bağırov isə həmin məktubun müəlliflərini müəyyənləşdirməyi Yemelyanova tapşırdı. Müəyyən olundu ki, həmin imzasız məktubları arvadı Firuzənin (*Firuzə mənim arvadım Qəmərin ögey bacısıdır*) və qaynanası Xavər Rəşidzadənin iştirakı ilə həkim Cavadov yazıb.

Bağırovun göstərişi ilə hər üçü: Cavadov, arvadı və qaynanası Xavər həbs edildi. Həm də Xavər qabaqcadan düzülüb-qoşulmuş plan əsasında mənim mənzilimdə, qızı Qəməri yoluxmağa gələrkən həbs edildi.

Qaynanam Xavərin mənzilimdə bu şəkildə həbs edilməsi onu göstərirdi ki, mənə ləkə atmaq istəyirmişlər.





Bundan sonra mən Azərbaycan KP MK-nın büro yığıncağına çağrıldım. Büroda məlumat verən Atakişiyev mənə böhtan ataraq bildirdi ki, bütün imzasız məktublar mənim rəhbərliyim altında yazılırmış və buna görə cəzalanmalıyam. Mən imzasız məktublardan xəbərsiz olduğumu qətiyyətlə bildirdim.

Həqiqətən də belə bir məktub Moskvaya göndərilmiş və Kremldə M.C.Bağırova qarşı olan müəyyən qüvvələrin siyasi sifarişinə uyğun şəkildə tərtib olunmuşdu. N.K.Baybakov "От Сталина до Ельцина" kitabının 123-cü səhifəsində qeyd edir: "Stalin M.C.Bağırova qarşı məktubda qaldırılan iddiaları təftiş etməyi və oradakı faktları yoxlayıb, sonra şəxsən özünə məruzə etməyi SSRİ Dövlət Nəzarət Komitəsinin sədri Mexlisə tapşırır. Partiya Nəzarət Komitəsinin sədr müavini Yevdokimovun rəhbərliyi altında böyük briqada Stalinin tapşırığından bir gün sonra gözlənilmədən Bakıya gəldi.

M.C.Bağırov başa düşürdü ki, Stalin belə hallarda adətən çox ciddi cəzalandırır. Ona görə də M.C.Bağırovu hər hansı bir fövqəladə hal xilas edə bilərdi".

SSRİ Dövlət Nəzarət Komitəsinin sədri Lev Mexlislə M.C.Bağırov arasında ziddiyyət hələ 1942-ci ildən başlamışdı. 1942-ci ildə Mexlis Ali baş komandanlığın Krım cəbhəsi üzrə nümayəndəsi kimi hərbi əməliyyatlara rəhbərlik edirdi. M.C. Bağırov Kerç yarımadasındakı hərbi əməliyyatların uğursuzluğa uğramasında və minlərlə azərbaycanlının yarıtmaz hərbi taktikadan məhv olmasında Lev Mexlisi günahlandırırdı. M.C. Bağırov bu barədə Stalinin qarşısında məruzə ilə çıxış edir və nəticədə Lev Mexlis Krım cəbhəsindən geri çağırılır və səlahiyyətləri əlindən alınır.

Mənə (A.M.) elə gəlir ki, burada M.C.Bağırovun köməyinə yenə L.P.Beriya çatır. Ona görə ki, N.K.Baybakov öz kitabında qeyd edir ki, M.C.Bağırov hardansa Yevdokimovun "gözəl qadınların peşəkar aludəçisi" olduğunu öyrənir. Görünür, bu qapalı məsələləri yalnız xüsusi xidmət orqanlarına uzun illər rəhbərlik edən L.P.Beriya yaxşı bilirdi.

N.K.Baybakov öz kitabında qeyd edir:

"M.C.Bağırov süni sürətdə Yevdokimovun Mahaçqalaya səfərini təşkil edir və bu səfər zamanı Bakının "gözəl qızlarından" biri onu müşayiət edir. Bu səfərin səhəri günü artıq Stalinin Kremldəki iş stolunun üstündə Yevdokimovun bu "gözəl qadınla" intim fotoşəkilləri peyda olur".

Görünür, həmin şəkillərin Stalinin stolunun üstündə peyda olmasında Bağırova Beriya köməklik göstərib. Stalin bu hadisədən sonra SSRİ Xalq Nəzarət Komitəsinin sədrini yanına çağırır, onu möhkəm tənqid edir və partiyanın ciddi məsələlərini Yevdokimov kimi əxlaqsız adama tapşırdığına görə Mexlisi cəzalandırır. Bu səbəbdən Mexlis bu dəfə də məğlub olur. Ancaq təəssüf hissilə qeyd etmək istəyirəm ki, Mexlisin bu oyununun iştirakçıları M.C.Bağırovun zəhmindən qurtula bilməyəcəkdilər və məhkəmə materiallarından bunu görürük. Bir müddət sonra, ümumiyyətlə, Mexlis Stalin tərəfindən pensiyaya göndərilir.

Bakıda məhkəmə prosesi başlayanda Bağırovun artıq 61 yaşı var idi. İlk günlər sakit görünən Mir Cəfər yenə də temperamentinə uyğun olaraq, məhbuslarla ünsiyyətə girir, onlara başına gələn əhvalatları danışırdı. Paradoks onda idi ki, illərlə kommunist ideologiyasının carçısı içəridə tamamilə zindan qanunları ilə yaşayırdı.





M.C.Bağırov və onunla birlikdə həbs olunanlar Dövlət Təhlükəsizlik Nazirliyinin istintaq izolyatoruna yerləşdirildilər. Həmin günlər Azərbaycanın gənc çekisti kimi DTN-də işləyən, hazırda ahıl yaşlarında olan Mürvət müəllim öz xatirələrini mənə danışdı: "Mən o illərdə Dövlət Təhlükəsizlik Nazirliyinin istintaq izolyatorunda kamvoy kimi xidməti vəzifəmi icra edirdim. Həmin günlərdə siyasi məhbuslar - Bağırov, Atakişiyev, Yemelyanov, Markaryan, Qriqoryan və Borşov istintaq izolyatorunun kameralarında saxlanırdı. Bağırovun olduğu kamerada hər cür şərait yaradılmışdı. Divar mebeli, işləmək üçün yazı masası qoyulmuşdu. Bağırov səhərdən axşamadək yazı-pozu ilə məşğul idi. Məhkəmə günləri məhbus maşını xüsusi liftlə yerin altına enir və siyasi dustaqları Dzerjinski (indiki Şəhriyar adına) klubunda keçirilən məhkəmə salonuna aparırdı. Məhkəmə prosesinin sonuncu, yəni, hökm oxunan günü idi. Mən Bağırovun kamerasına nahar yeməyi apardım və ona müraciət etdim: "Məhbus Bağırov, məhkəməyə getməyinizə 30 dəqiqə var, sizin naharınızı gətirmişəm". Bağırov başını qaldırmadan əli ilə istəmirəm işarəsini verdi. Mən kameranı tərk etdim. Bağırov isə məhkəməyə çox ciddi hazırlaşır, dayanmadan yazırdı. Mən bir azərbaycanlı kimi, istər-istəməz, Bağırovun bu cür yuxusuz gecələr keçirməsinə, dayanmadan işləməsinə, üstəlik, qidalanmamasına yanırdım. Özümlə bacara bilmədim. Nahar yeməyini əlimə götürüb, Bağırovun kamerasına girdim və dedim: "Yoldaş Bağırov, məhkəməyə getməyinizə 15 dəqiqə qalıb. Sizin naharınızı gətirmişəm". Bağırov bu dəfə də başını qaldırmadan əli ilə mənə "istəmirəm" işarəsi verdi. Mən yenə kameranı tərk etməli oldum. Artıq siyasi məhbusları məhkəməyə aparan maşın gəlmişdi. Mən hər bir məhbusu məhkəməyə getməsilə əlaqədar

hazırlaşmaq barədə xəbərdar etməli idim. Bağırovun kamerasına gedəndə ürəyim durmadı, onun nahar yeməyini özümlə götürdüm. Kameranı açıb, içəri daxil oldum və ona hazırlaşmaq barədə bildirdim. Bağırov əlimdəki nahar yeməyini görcək, ürəkdən gülməyə başladı. Məni yanına çağırdı və dedi: "Oğlum, səndən çekist olmaz. Ona görə ki, ürəyin çox kövrəkdir". Bu sözlərdən sonra Bağırov naharını etdi və məhkəməyə aparıldı. Həmin günü məhkəmədə Mir Cəfər Bağırova güllələnmə hökmü kəsildi. Hökm oxunduqdan sonra onun məhkəmə heyətindən yeganə xahişi olur. Bu xahiş müharibədə qəhrəmancasına həlak olan oğlu Mircahangirin qəbrini ziyarət etmək istəyi ilə bağlı idi. Məhkəmə heyəti müharibədə qəhrəmanlıq göstərmiş, ölümündən sonra Lenin ordeninə layiq görülmüş Mircahangirin qəbrini ziyarət etməyə M.C.Bağırova mane olmadı. Məhkəmə prosesi bitdikdən sonra M.C.Bağırov gözətçilərin müşayiəti ilə Badamdar qəbristanlığına, oğlu Mircahangirin məzarının yanına gətirilir. Mircəfər oğlunun qəbrini görcək, başdaşını oxşayaraq, məzarla danışmağa başlayır. O, qurumuş dodaqları ilə oğlunun baş daşından öpür. Bu an onun gözlərindən axan göz yaşları məzarın sinədaşının üzərinə damırdı. Ani bir səssizlik hökm sürür. Bu səhnədən qəhərlənən hərbi komvoyun azərbaycanlı üzvləri rus komandirlərdən Bağırova mane olmamağı xahiş edirlər. M.C.Bağırovun oğlunun məzarı ilə vidalaşması 1 saat 26 dəqiqə çəkir. Sonda o, oğlunun göz yasları ilə islanmış sinədaşından öpərək, dərindən ah çəkir və: "Sənin yanında ölmək mənə qismət olmadı", - deyərək, gözlərini oğlunun məzarından çəkmədən, oradan ayrılır.





**Haşiyə:** *Onu da bildirmək istəyirəm ki, müharibədə göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra SSRİ Ali Sovetinin qərarına əsasən, Mircahangir Lenin ordeni ilə təltif olunmaqla bərabər, Quba şəhərində büstü qoyulur. Lakin sonralar Mircahangir Bağırovun adı büstün altından silinir. İndinin özündə də bu büst Qubanın mərkəzi parklarının birində durur. Lakin təəssüf ki, hələ də büstün altında Mircahangir Bağırovun adı bərpa edilməyib.*

M.C.Bağırov istintaq izolyatoruna qayıdanda 25 il həbs cəzası almış Atakişiyev isterik vəziyyətdə özünü yerə vururdu. Atakişiyev pilləkənin məhəccərinə ağzını çırparaq 3 dişini sındırmış və dodaqlarını partlatmışdı. Bağırov Atakişiyevin bu hərəkətlərinə çox qəzəblə baxaraq, onun yanından keçərkən üzünə tüpürür.

Oxucularımız üçün qaranlıq qalan şəxslərdən biri də Yuvilyan Davidoviç Sumbatov-Topuridzedir. Bu şəxs üzərində dayanmağımın bir neçə səbəbi var.

1956-cı il məhkəməsində ittiham edilən şəxslərin arasında adının olmasına baxmayaraq, o, məhkəmə prosesində müttəhimlər kürsüsündə deyildi (xəstə olduğu əsas gətirilərək – A.M.).

Sumbatov Stalinin repressiya siyasətinin tüğyan etdiyi dövrdə, 12.01.1937-ci ildən 10.01.1938-ci ilə qədər Azərbaycanın Daxili İşlər Xalq Komissarı vəzifəsində çalışmışdı.

Biz Sumbatovun Beriya ilə yaxın olduğu barədə digər mənbələrdə oxumuşuq və kitabdan onu da aydın gördük ki, N.S.Xruşşov Beriya ilə yaxın olan şəxsləri güllələtdirirdi. Onda sual oluna bilər: Axı, necə olur ki, Sumbatov Beriya ilə yaxın olsun, amma ona toxunmasınlar? Yuxarıda göstərilənlərə münasibət

bildirmək üçün Y.D.Sumbatov-Topuridzenin ən azı həyat yolunun müəyyən mərhələsini nəzərdən keçirməliyik.

General-leytenant rütbəsinə qədər yüksəlmiş Sumbatov 1889-cu ildə Kutaisi quberniyasının Sepansk qəzasının Kapana kəndində anadan olmuşdur. 1918-ci ildən Qırmızı Orduda qulluq edirdi. "Karl Libknext" zirehli qatarında xidmət keçmişdi. O, 1920-ci ildə Azərbaycan Fövqəladə Komissiyasında məxfi əməkdaş kimi fəaliyyətə başlayıb.

1923-cü ilin noyabrından 1924-cü ilin oktyabr ayına qədər Azərbaycan FK-da quldurluqla mübarizə idarəsində şöbə müdiri vəzifəsində çalışıb. Sonra, 1924-cü ilin oktyabrından 1926-cı ilin mart ayına qədər FK-da informasiya-agentura şöbəsinin rəisi olub, 1927-ci ildən isə Azərbaycan Siyasi İdarəsinin informasiya və siyasi nəzarət şöbəsinə rəhbərlik edib. Bu dövrdə M.C.Bağırovun Azərbaycan Siyasi İdarəsinin rəhbərliyindən kənarlaşdırılması Sumbatovun da taleyində dəyişiklik yaradır. O, Azərbaycan Siyasi İdarəsindən çıxarılır və bir müddət, 1929-cu ilə qədər Bakı və Batumi Gömrük Komitəsinin rəisi işləyib. Sonradan Bağırovun vasitəsilə Beriya ilə tanış olan Sumbatov 1929-cu ilin yanvarından Gürcüstan Siyasi İdarəsinin informasiya-agentura şöbəsinə rəis təyin edilir. May ayından Baş Siyasi İdarənin Zaqafqaziya üzrə nümayəndəsi, sərhəd və siyasi idarə qoşunlarının idarə rəisi olur. Görünür, bu təyinatda Beriya ilə Bağırovun böyük rolu var. O, mərkəzdən gələn bütün göstərişləri Zaqafqaziya respublikalarının siyasi idarələrinə ötürən və onlardan siyasi və ictimai proseslərlə əlaqədar əməliyyat məlumatları alan olduqca vacib bir fiqura çevrilir. Həmin dövrdə Azərbaycanın bəzi rəhbər işçiləri Bağırov haqqında mənfi fikirlərlə dolu





məlumatları Moskvaya ötürürdü. Bu məsələləri araşdırmaq üçün təhkim olunan orqanlardan ən vacibi Siyasi İdarə idi.

Təsəvvür edin ki, Azərbaycan Siyasi İdarəsinin məlumatları Sumbatov-Topuridzenin masasının üstünə qoyulurdu. Azərbaycan Siyasi İdarəsinin rəisi olmuş Novruz Rzayev M.C.Bağırovu həbs etmək üçün Ə.Zizikski faktından istifadə etmək istəyirdi. O, Əli bəydən M.C.Bağırovun əleyhinə ifadə almağa çalışırdı. Lakin hətta belə bir ifadə alınmış olsaydı belə, Moskvaya göndərilən bu məlumat Tiflisdə ilişib qalacaqdı.

Artıq 1933-cü ildə M.C.Bağırov Azərbaycan K(b)P MK-nın I katibi seçildikdən sonra Sumbatov-Topuridze Azərbaycan Siyasi İdarəsinin rəis müavini təyin edilir. 1934-cü ilin fevralında həmin idarənin rəisi, iyul ayında isə Xalq Daxili İşlər Komissarlığının idarə rəisi təyin edilir. 1937-ci il yanvar ayının 12-də isə o, Azərbaycan Xalq Daxili İşlər Komissarı vəzifəsinə yüksəlir. Həmin illər həm Bağırov üçün, həm də Sumbatov-Topuridze üçün çətin dövr olur. Birincisi, Moskvadan SSRİ Xalq daxili işlər komissarı Yejovun verdiyi əmrə əsasən (o əmri kitabda göstərmişəm – A.M.), adamlar müxtəlif təbəqələr üzrə repressiyaya uğramalı idi. İkinci bir tərəfdən, Moskvada həbs olunmuş Buxarin və Rıkovun ifadələrinə görə, onlarla Zaqafqaziyada yaxın münasibətdə olanlar, yəni Sovet İttifaqında hakimiyyəti ələ keçirmək istəyənlər həbs olunmalı idilər. Üçüncü bir tərəfdən isə, sonradan Stalinə müxalif olan Orconikidzenin tərəfdarlarını da həbs gözləyirdi. Belə bir çətin məqamda M.C.Bağırov keçmişi Müsavatla, bəy nəsli ilə, çar ordusu ilə, hətta Türk ordusu ilə bağlıolan insanların böyük qismini xilas edə bilir. Sözsüz ki, Bağırovun bu canfəşanlığı Kreml tərəfindən cavabsız qalmayacaqdı. Artıq 1937-ci ilin sonlarından başlayaraq 1938-ci

il yanvarın 6-na qədər SSRİ Daxili İşlər Komissarlığından və ÜK(b)P-dan göndərilən komissiya Azərbaycanda əksinqilabi qüvvələrlə mübarizədə respublika rəhbərliyinin fəaliyyətsizliyini, xüsusilə də, M.C.Bağırovun özünü yoxlayırdı. Hətta bununla bağlı 1938-ci ilin yanvarın 10-da Sumbatov-Topuridze Azərbaycan Daxili işlər komissarı vəzifəsindən azad edilir. Artıq növbə Bağırova çatırdı və Moskvadan gəlmiş komissiya üzvləri onu "millətçi sağ təmayülçü və hümmətçi" kimi əksinqilabi ünsürlərə yardım göstərməkdə günahlandıraraq, həbs edilməsi məsələsini gündəmə gətirirlər. Burada bir məqamı da nəzərdən qaçırmaq lazım deyil ki, həmin dövrdə SSRİ Xalq daxili işlər komissarının müavini vəzifəsinə yüksələn L.P.Beriya artıq Moskvada M.C.Bağırovu xilas etmək missiyasını ardıcıl surətdə həyata keçirməyə başlayır. L.P.Beriya Stalinin qarşısında kütləvi həbslərin Yejovun göstərişi tərəfindən aparıldığı, bəzi məqamlarda bu həbslərin qanuna zidd olduğu, buna etiraz edənlərin isə təqib edildiyi və təqib edilənlərdən birinin M.C.Bağırov olması barədə məruzə ilə çıxış edir. Beriya tərəfindən atılan bu addım Stalində Yejov barədə toplanan siqnalların əsaslı olduğu qənaətini daha da gücləndirir. Bu isə artıq Yejovun sonu demək idi. Xalq Daxili İşlər Komissarının müavini postuna yeni təyin olunmuş Beriya əvvəlcə bu orqanlardan Yejovun dəstəsini təmizləməklə məşğul olur. Bir neçə ay işsiz qalan Sumbatov 1938-ci ildə SSRİ Daxili İşlər Xalq Komissarlığında şöbə rəisi vəzifəsinə təyin edilir. 10 il bu vəzifədə işləyən Sumbatov Beriyaya əks mövqedə dayanan Abakumov dönəmində SSRİ daxili işlər orqanlarından uzaqlaşdırılır. O, 1947-ci il martın 27-də yenidən Azərbaycana qayıdır və Bağırov tərəfindən Azərbaycan SSRİ Nazirlər Sovetinin sədr müavini vəzifəsinə təyin edilir.





Baş tutmamış çevrilişdən sonra, 1953-cü il iyul ayının 17-də Sumbatov-Topuridze həbs edilir. Onun məhkəmədə iştirak etməməsinin səbəbi heç də rəsmi məlumatlarda deyildiyi kimi deyildi. Əslində M.C.Bağırovun əleyhinə bir kəlmə ifadə verməyən və 1937-38-ci ildə respublikada aparılan həbslərin birbaşa Moskvadan idarə olunduğunu göstərən Sumbatov-Topuridze psixoloji və fiziki təzyiqlərə tab gətirməyib, sözün əsl mənasında ruhi cəhətdən sındırılmışdı. O, 1955-ci ilin iyulunda psixiatrik dispanserə göndərilmiş, 1960-cı ildə elə bu tibb müəssisəsində vəfat etmişdir (çox guman ki, ona ölməkdə "kömək" edilmişdi – A.M.).

Mircəfər Bağırov həbs olunduğu gündən məhkəmənin hökmünə qədər özünü çox təmkinli və soyuqqanlı aparırdı.

SSTRDA. F. 17. Siy. 171. İş. 479. Səh. 49-63.

SSRİ AM Hərbi kollegiyanın 26 aprel 1956-cı il tarixli hökmün surəti.

M.C.Bağırov, T.M.Borşov, R.A.Markaryan, X.İ.Qriqoryan, S.Atakişiyev və S.F.Yemelyanovun işi üzrə

Tam məxfi

Nüsxə № 1

MK Rəyasət Heyətinin protokolu № 14 p. IV

ALİ MƏHKƏMƏ

Sovet Sosialist Respublikaları İttifaqı

4 may 1956-cı il.

Sovet İttifaqı Kommunist Partiyası
Mərkəzi Komitəsinə
№ СП-005/56/0010588

Bununla bərabər, SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının Bağırov Mircəfər Abbasoviç və başqalarının işi üzrə 26 aprel 1956-cı il tarixli hökmü məlumat üçün göndərilir.

Əlavə: hökmün surəti 14 vərəqdə.

SSR İttifaqı Ali Məhkəməsinin sədri [p.p.] A.Volin

Sovet Sosialist Respublikaları İttifaqı adından
HÖKM

26 aprel 1956-cı il SSRİ Ali Məhkəməsinin Hərbi kollegiyasının aşağıdakı tərkibdə:

Sədr: ədliyyə general-leytenantı A.A.Çeptsova

Üzvlər: ədliyyə polkovniki Q.Y.Kovalenko və ədliyyə polkovniki A.A.Kostromina

Katiblərin yanında: kapitan M.V.Afanasyev və ədliyyə kapitanı N.Q.Smirnov; tərəflər: dövlət ittihamçısı tərəfindən - SSRİ-nin baş prokuroru, həqiqi dövlət ədliyyə müşaviri R.A.Rudenko və müdafiə tərəfi - vəkillər V.N.Qavrilov, Y.M.Nutenko, P.Y.Boqaçeva, Q.S.Semyonovski, K.N.Apraksina və M.İ.Qrinevanın iştirakı ilə Bakıda açıq məhkəmə iclasında ittiham işinə baxaraq: Bağırov Mircəfər Abbasoviç, təvəllüdü 1896-cı il, Azərbaycan SSR Quba şəhəri; Borşov Timofey Mixayloviç,





təvəllüdü 1901-ci il, Azərbaycan SSR Qusar rayonunun Qusar kəndi; Qriqoryan Xoren İvanoviç, təvəllüdü 1902-ci il, Ermənistan SSR, Qafan rayonu, Sevakar kəndi; Azərbaycan SSR Cinayət məcəlləsinin 63-2, 70-ci maddələrinə, törədilən cinayətlərin cəminə əsaslanaraq, cəzalandırılsın:

Bağırov Mircəfər Abbasoviç,
Borşov Timofey Mixayloviç,
Markaryan Ruben Ambartsumoviç,
Qriqoryan Xoren İvanoviç –

Cinayət Məcəlləsinin ən yüksək cəza tədbiri – güllələnmə ilə, hər birinin bütün əmlakı müsadirə edilməklə;

Atakişiyev Ağa Səlim İbrahim oğlu və Yemelyanov Stepan Fyodoroviç - beş (5) il hüquqlarına məhdudiyyət qoyulmaqla, bütün əmlakı müsadirə edilməklə, islah-əmək düşərgəsində iyirmi beş (25) il müddətinə azadlıqdan məhrumetmə ilə.

Məhkəmə işinin xərcləri ittiham olunanların hesabına aparılsın.

Cəza müddəti: Atakişiyevə - 26 noyabr 1955-ci ildən, Yemelyanova - 1 aprel 1954-cü ildən hesablansın.

Hökm qətidir və kassasiya şikayəti qəbul olunmur.

Əsli ilə düzdür. Tələb olunan imzalar.

Əsli ilə düzdür: SSRİ Ali Məhkəməsi Hərbi kollegiyasının məhkəmə katibi. [p.p.] kapitan Afanasyev

Surəti. Makina yazısı.

M.C.Bağırovun vəkili, həyat yoldaşı və oğlu 4 may 1956-cı il tarixdə SSRİ Ali Sovetinin sədri K.Y.Voroşilova M.C.Bağırovun əfv olunması xahişi ilə müraciət edirlər.

SSTRDA. F.17. Siy.171. İş.479. Səh.91-92.

K.Y.Voroşilova Y.M.Bağırovadan
əfvlə bağlı ərizə. 4 may 1956-cı il

Surəti

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri
Yoldaş K.Y.Voroşilova

Moskva şəhəri, Frunzenskaya naberejnaya, ev №118, korpus "j", mənzil № 41-də yaşayan, telefon № 5-02-38 olan, vətəndaş Bağırova Yevgeniya Mixaylovnanın

**Əfv ərizəsi**

26 aprel 1956-cı il tarixdə SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası tərəfindən mənim ərim - Bağırov Mircəfər Abbasoviç ən yüksək cəzaya məhkum edilib.

Sizə həyat yoldaşımın əfvi ilə əlaqədar ərizə ilə müraciət edir və aşağıdakı səbəblərə görə sizdən xahiş edirəm ki, ən yüksək cəzanı digəri ilə - yüngül cəza ilə əvəz edin.

Azərbaycan SSR yaranan gündən Bağırov respublikanın rəhbərlərindən biri olub və 20 il Sov.İKP MK-nın katibi vəzifəsində çalışıb. O, işində səhvlərə yol verib, amma bununla yanaşı, sosializm quruculuğu uğrunda bütün xalq təsərrüfatı sahələrində və ictimai işlərdə fəal iştirak edib.





Böyük və gərgin əməyin nəticəsində Bağırov ağır qara ciyər xəstəliyinə, bağırsaq və əsəb xəstəliyinə tutulmuşdur. Bunların heç biri iki illik istintaq və məhkəmə prosesində nəzərə alınmayıb.

Bağırovla 30 il bir yerdə yaşayan şəxs kimi, onu təmiz, tamahsız bir sovet insanı kimi tanımışam. İndi məlum olduğu kimi, o, İ.V.Stalinin şəxsiyyətə pərəstiş dövründə ciddi səhvlər buraxıb.

Xahiş edirəm, məhkum olunmuş Mir Cəfər Bağırovun həyatını hifz edin, ona imkan verin ki, həyatının qalan hissəsində halal əməyi ilə qismən də olsa, öz günahını yusun...

Bağırovun əfvi ilə bağlı ərizəmə baxarkən xahiş edirəm onu da nəzərə alın ki, bizim oğlumuz Vladimir Bağırov sovet aviasiyasının qırıcı təyyarəçisi olub, Böyük vətən müharibəsində qəhrəmancasına vuruşub, hava döyüşündə faşist təyyarəsini taranla vuraraq, cavan canını Vətənimizin azadlığı naminə qurban verib. Belə ağır hökm ilə atanın cəbhədə həlak olmuş oğlunun xatirəsini qaralamaq olduqca çətindir.

Yoldaş Voroşilov, xahiş edirəm, məni şəxsən qəbul edin və Mir Cəfər Bağırovun əfvi ilə bağlı məni dinləyin.

İmza: Y.Bağırova

4 may 1956-cı il
Surəti. Makina yazısı.
SSTRDA. F.17. Siy. 171. İş.479. Səh. 93.
K.Y.Voroşilova əfv ilə bağlı ərizə

Cen Mircəfəroviç Bağırov
4 may 1956-cı il

Surəti
SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri
Yoldaş K.Y.Voroşilova
Moskva, Frunzenskaya naberejnaya, ev 118, korpus "J", mənzil 41-də yaşayan, telefon № 5-02-38, vətəndaş Cen Mircəfəroviç Bağırovdan

**Əfv ərizəsi**

26 aprel 1956-cı il tarixdə SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası tərəfindən mənim atam Bağırov Mir Cəfər Abbasoviç ən yüksək cəzaya məhkum edilib.

Xahiş edirəm, atamın yaşını (61), sağlamlığının pozulmasını, həm də qardaşım Bağırov Vladimirin - məhkumun doğma oğlunun Böyük vətən müharibəsində cəbhədə qəhrəmancasına həlak olmasını, ölümündən sonra Lenin ordeni ilə təltif edilməsini nəzərə alaraq, atamın həyatını hifz edəsiniz.

İmza: Bağırov.
4 may 1956-cı il.

Surəti. Makina yazısı.

SSTRDA. F. 17. Siy. 171. İŞ. 479. SƏH. 94.

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri
K.Y.Vororşilova V.N.Qavrilovdan əfv ərizəsi





26 aprel 1956-cı il
Vəkil Qavrilov Vladimir Nikolayeviç,
Moskva, Kuybışev küçəsi 4, otaq 69, məsləhətçi.
Bağırov Mircəfər Abbasoviçin müdafiəçisindən

**Əfv ərizəsi**

Bu il aprelin 26-da SSRİ Ali Məhkəməsinin Hərbi kollegiyası Bakı şəhərində məhkum M.C.Bağırovun işinə baxaraq onu müqəssir hesab etdi və ona ən yüksək cəza – güllələnmə hökmü verdi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədrindən xahiş edirəm ki, M.M.Bağırovun güllələnmə hökmü yüngül cəza ilə əvəz olunsun.

P.p. Vəkil: Qavrilov

26 aprel 1956-cı il

Çap olunub 53 nüsxə.

Surəti. Makina yazısı.

РГАСПИ. F.17. Siy.171. İş.479. Səh.46-48

SSRİ Ali Soveti Rəyasət Heyətinin
QƏRARI

1896-cı ildə Azərbaycan SSR Quba şəhərində anadan olmuş Bağırov Mircəfər Abbasoviçin işi ilə bağlı əfv ərizələri rədd edilsin.

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədrı
K.Voroşilov

SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi
H.N.Peqob

Moskva, Kreml
çap. 53 nüsxə.
İş. № LP-2028

M.C.Bağırovun və başqalarının işi üzrə
Sov.İKP MK Rəyasət Heyətinin qərarı
7 may 1956-cı il

7 gündən gec olmayaraq geri qaytarılmalıdır
Tam məxfi

Sov.İKP MK Rəyasət Heyəti
Bütün ölkələrin proletarları, birləşin!

Sovet İttifaqı Kommunist Partiyası
MƏRKƏZİ KOMİTƏSİ

№ П14/4
Y.y.Volin, Rudenko, Çeptsov

Sov.İKP MK Rəyasət Heyətinin 7 may 1956-cı il tarixli iclasının 14 №-li protokolundan çıxarış





**Bağırovun işi üzrə**

SSRİ Ali Məhkəməsinin Hərbi kollegiyasının hökmü ilə Bağırovun və başqalarının işi razılaşdırılsın.

Prosesin gedişi və çıxarılan hökm barədə yerli mətbuatda məlumat dərc olunsun.

MK-nın katibi

Məxfi
Nüsxə № _
MK Rəyasət Heyətinin 14 №-li protokolu p. IV
Sov.İKP MK

Bakıda SSRİ Ali Məhkəməsinin Hərbi kollegiyasının yoldaş Çeptsovun sədrliyi, dövlət ittihamçısı, SSRİ-nin baş prokuroru Rudenkonun iştirakı ilə aprelin 12-dən 26-na kimi açıq müdafiə məhkəmə prosesi keçirilmiş və məhkumlar:

1. Bağırov Mircəfər Abbasoviç;
2. Qriqoryan Xoren İvanoviç;
3. Borşov Timofey Mixayloviç;
4. Markaryan Ruben Ambartsumoviç;
5. Atakişiyev Ağa Səlim İbrahim oğlu;
6. Yemelyanov Stepan Fyodoroviçin ittihamları üzrə işə baxılmışdır.

Məhkəmə prosesində gündə 700-dən artıq adam - partiya-sovet fəalı, Bakı müəssisələrinin fəhlələri, dənizçilər, kolxozçular, ziyalılar iştirak etmişlər.

Məhkəmə işə baxılması nəticəsində ibtidai istintaq materi-

allarını tam təsdiq etmişdir. İttiham olunanların hamısı onları təqsirləndirən faktları məhkəmədə təsdiq etdilər, şəxsi əksinqilabi niyyətlərindən imtina etdilər.

Müttəhimlərin kütləvi terrorlar keçirməsi, günahsız sovet adamlarına divan tutması (onların içərisində bu cinayətlərdən əziyyət çəkənlər hazırda reabilitasiya olunublar), başqa ağır dövlət cinayətləri, törətdikləri əməllər sənədli məlumatlarla və şahidlərin ifadələri ilə tam sübuta yetirilmişdir.

Cinayətkarları ifşa edən şahid ifadələri, dövlət ittihamçısının nitqi və məhkəmənin hökmü məhkəmə zalında iştirak edənlər tərəfindən yekdilliklə, razılıqla qarşılandı.

Məhkəmənin hökmü ilə məhkum olunanlar: Bağırov, Qriqoryan, Borşov, Markaryan ən yüksək cəzaya - güllələnməyə; Atakişiyev və Yemelyanov - hərəsi 25 il müddətinə azadlıqdan məhrum olundular.

SSRİ baş prokurorunun səlahiyyətlərini müvəqqəti icra edən p.p. P.Baranov

SSRİ Ali Məhkəməsinin Hərbi kollegiyasının sədri p.p. A. Çeptsov

4 may 1956-cı il
İş № 84

Qeyd:
Sov.İKP MK Rəyasət Heyətinin üzvlərinə göndərmək,
Sov.İKP MK Rəyasət Heyəti üzvlüyünə namizədlərə və Sov. İKP MK katiblərinə göndərmək





P. 1181
7.V.56 [imza oxunmur]
Əsli. Makina yazısı.

Yuxarıda göstərilən bütün faktlar tədqiq olunan şəxsin keçirdiyi həyat yolu və onun psixoloji vəziyyətinin müəyyən situasiyalar zamanı təzahürüdür. Şəxsiyyəti tədqiq etmək üçün bu materiallar əvəzsizdir. Birincisi, biz “Mircəfər Bağırov kimdir” - sualına cavab verməyə çalışdıq. Məhkəmədə M.C.Bağırova ölüm cəzası kəsilir. 1956-cı ilin 26 aprelində M.C.Bağırovun vəkili SSRİ Ali Sovetinin sədri K.Y.Voroşilova M.C.Bağırovun əfv olunması barədə müraciət edir. Burada bir neçə versiya var. Versiyalardan biri budur ki, müraciət göndərilən vaxt K.Y.Voroşilov məzuniyyətə çıxır. O dövrün qanunlarına görə, SSRİ Ali Sovetinin sədri məzuniyyətə çıxdığı zaman ittifaq respublikalarının Ali Sovetlərinin sədrləri ardıcıllıqla hər il bu müddətdə K.Y.Voroşilovun vəzifəsini icra edir, onu əvəzləyirdi. Bu vaxt nədənsə K.Y.Voroşilovu Ermənistan Ali Sovetinin sədri əvəz edirdi.

Sonrakı tarixi hadisələr bir daha Kliment Yefremoviç Voroşilovun və Nikolay Aleksandroviç Bulqaninin iradəsiz siyasi fiqur olduqlarını üzə çıxardı. Xruşşov Beriya ilə Bağırovu fiziki cəhətdən aradan götürdükdən sonra növbə artıq SSRİ Nazirlər Sovetinin sədri E.Malenkova, onun I müavini L.M.Kaqanoviçə çatmışdı. Xruşşov yaxın ətrafına onları da aradan götürməyin zamanının yetişdiyini bildirir. Lakin qarşı tərəf əks-hücuma keçmək üçün qruplaşırdı. Artıq 1956-cı ildə Tiflisdə Xruşşovun əleyhinə böyük mitinq baş verir. Ordu mitinqi silah gücünə dağıdır.

Kaqanoviç və Malenkov V.Molotovu, N.A.Bulqanini, K.E. Voroşilovu, M.Q.Pervuxini, M.Z.Saburovu, D.Q.Şepilovu öz tərəflərinə çəkirlər. Onlar MK-nın Rəyasət Heyətinin iclasında N.S.Xruşşovu ittiham atəşinə tuturlar. Onu qeyd etmək istəyirəm ki, bu qarşıdurmada A.Mikoyan gizli şəkildə Xruşşovun tərəfində durur. Lakin bu qarşıdurmada nə Mikoyan Molotovun, nə də Molotov Mikoyanın ünvanına kəskin fikirlər söyləmir. Lakin Xruşşovun tərəfdarları tez bir vaxtda MK-nın plenumunu yığaraq, "antipartiya qrupunu" məğlubiyyətə uğradır. Nəzərə alsaq ki, Xruşşov arxivlərdən onun repressiyalarda iştirakını təsdiqləyən sənədləri çıxartdırdığına görə, yuxarıda adı çəkilən antipartiya qruplaşmasının üzvlərini "Üçlük"lərin üzvləri kimi plenum iştirakçılarına göstərirdi. 1957-ci il iyunun 29-da "antipartiya qruplaşmasının" üzvləri – Bulqanin və Voroşilov plenumda Molotov-Kaqanoviç-Malenkov birliyinin məğlubiyyətini görərək, tələm-tələsik tribunaya qalxıb, mövqelərini dəyişərək, Xruşşovun tərəfinə keçirlər. Plenumda "antipartiya qruplaşması"nın bütün üzvləri Sov.İKP MK-nın Rəyasət Heyətindən və MK-dan çıxarıldılar.

Ancaq Voroşilovla Bulqanin başa düşmürdülər ki, "antipartiya qruplaşması"nın digər üzvləri kimi, onları da bir müddət sonra eyni aqibət gözləyir.

Ona görə də o dövrün qanunvericiliyinə uyğun olaraq, aprelin 27-də göndərilən müraciətə əsasən, ölüm hökmünün icraatı bir ay təxirə salınmalı idi. Mayın 27-dək cavabın alınmasından asılı olaraq, hökmə baxılmamışdır. Beləliklə, o dövrün qanunvericiliyi kobud surətdə pozulur və 1956-cı il mayın 7-də (əfv müraciətindən cəmi 10 gün sonra – A.M.) M.C.Bağırovun güllələnməsi həyata keçirilir. Bununla da, 30 il Azərbaycan-





da rəhbər vəzifədə çalışmış, 1922-ci ildə Azərbaycan Qırmızı Əmək Bayrağı, 1935-ci ildə Lenin, 1940-cı ildə Qırmızı Əmək Bayrağı, 1942 və 1943-cü illərdə Lenin ordeni, 1944-cü ildə "Qafqazın müdafiəsi uğrunda" medalı, 1945-ci ildə I dərəcəli Vətən ordeni, 1946-ci ildə iki dəfə - fevral və oktyab aylarında, yenidən Lenin ordeni ilə təltif olunmuş M.C. Bağırovun həyatına son qoyulur *(o vaxtın sovet qanunlarına görə, beş dəfə Lenin ordeninə layiq görülmüş şəxsə avtomatik Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilirdi. Amma Mir Cəfər Bağırova bunu da çox görürlər - A.M.).*

## MÜNDƏRİCAT

Ön söz ........................................................................ 3
Müəllifdən.................................................................... 6
Mir Cəfər Mir Abbas oğlu Bağırov .................................... 25

**I HİSSƏ**
M.C. Bağırov və L.P.Beriyanın siyasi fəaliyyətinin ilk illəri ........................................................................ 45

**II HİSSƏ**
M.C.Bağırovun Azərbaycanın iqtisadi inkişafında rolu ... 131

**III HİSSƏ**
Mir Cəfər Bağırov və Cənubi Azərbaycan........................ 142

**IV HİSSƏ**
M.C.Bağırovun erməni ədəbi-siyasi elitası ilə mübarizəsi........................................................... 235

**V HİSSƏ**
Baş tutmayan çevriliş......................................................... 293

**VI HİSSƏ**
M.C.Bağırovun siyasi hakimiyyətinin sonu.................... 311

**VII HİSSƏ**
M.C.Bağırovun məhkəməsi ............................................... 347



**ADIGÖZƏL MƏMMƏDOV**

# MİR CƏFƏR BAĞIROV

***SİYASİ PORTRET***

**Mətbəənin direktoru:** *Elman Qasımov*
**Dizayner:** *Azər Aydın*

Çapa imzalanmışdır: 07.05.2021.
Formatı 60x84 1/16.
Həcmi 26,5 ç.v. Sifariş № 19. Tiraj 500

«Zərdabi Nəşr» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel: (012) 514-73-73, mob. (050; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru



**Adıgözəl Nuru oğlu Məmmədov**

- **Müəllifin çap olunmuş digər əsərləri**

1. “Siyasi liderlərin psixoloji portretləri”, “Araz”. Bakı, 2000
2. “Səudilər Sülaləsi – Geosiyasət”, “El-Alance” (rus dilində). Bakı, 2003
3. Müəmmər Qəzzafinin psixoloji portreti”, “Zərdabi Nəşr”. Bakı, 2011
4. “Osmanlının çöküşünə Rusiyadan baxış”, “Elgün”, Bakı, 2012
5. “Kreml rəhbərlərinin psixoloji portretləri”, “Sada” (rus dilində). Moskva 2013
6. “Rusiya lideri V.Putinin psixoloji portreti”, “Gənclik”. Bakı, 2013
7. “M.C.Bağırov-L.P.Beriya məxfi protokollar”, “Qələm”. Bakı, 2013
8. “Müasir Rusiya, Türkiyə və Gürcüstan liderlərinin siyasi-psixoloji portretləri”, “RİSİ” (rus dilində). Moskva, 2014
9. “Slav-Türk-Ari arealının geostrateji imperativləri”, “Gənclik” (rus, türk, fars dillərində). Moskva, 2018
10. Editor John Andrew Morrouw Contributors Adgezal Memmedov, more-Islam and people of the book critical. Studies on the Covenants of The Prophet. Cambridge Scholars Publishing. London, 2018
11. “Şirvanşahlar Azərbaycan dövlətçiliyinin gen yaddaşıdır”, “Zərdabi Nəşr”. Bakı, 2019
12. “Досье расстеленного руководителя Азербайджана – М.Д.Багиров”. “CBS PP” Баку, 2019
13. “Millətçiliyin reinkarnasiyası və psixoloji portretlər”, “Zərdabi Nəşr” (rus dilində). Bakı, 2020.

email: adgezalmamedov@mail.ru

SİYASİ PORTRET

Mir Cəfər BAĞIROV

Adıgözəl Məmmədov